ÇİNGİZ MƏMMƏDOV, HAVVA MƏMMƏDOVA

# AZƏRBAYCAN TARİXİ
# (XIX ƏSR-- XXI ƏSRİN ƏVVƏLLƏRİ)

Azərbaycan Respublikası Təhsil Nazirinin
08 dekabr 2015-ci il tarixli 1108 nömrəli
əmrinin 2-ci bəndinə müvafiq olaraq

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tədris- Metodiki Şurasının 12 aprel 2016-cı il tarixli Qərarı ilə (protokol №-03 ) dərs vəsaiti kimi təsdiq edilərək nəşr hüququ (qrif) verilmişdir.

**BAKİ - 2016**

Elmi redaktor: ***T.e.d. professor, əməkdar müəllim***
***Quliyev Musa Nizam oğlu***

Rəyçilər: ***T.e.d.professor Məmmədov Fuad Teyyub oğlu***
***T.e.d. professor Süleymanova Sevda Yunis qızı***

**Məmmədov Çingiz, Məmmədova Havva. Azərbaycan tarixi. (XIX əsr– XXI əsrin əvvəlləri). Azərbaycan dilində. Bakı – 2017, 488 səh.**

Dərs vəsaitində XIX əsrin əvvəllərindən XXI əsrin əvvəllərinə qədər Azərbaycanda gedən ictimai-siyasi proseslər, mütləqiyyət rejiminə qarşı milli-azadlıq hərəkatı, ilk siyasi təşkilatlar və partiyaların fəaliyyəti, dünya müharibələrinin sosial-siyasi həyatımıza təsiri əksini tapmışdır. Azərbaycan Cümhuriyyətinin yaranması və süqutu, sovetləşdirmə prosesi, Azərbaycanın SSRİ tərkibində siyasi-iqtisadi durumu haqqında dərslikdə əhatəli məlumat verilmiş, həmçinin müstəqil Azərbaycan Respublikasına gedən yol və son illərin uğurlarından bəhs edilmişdir.
Dərs vəsaiti ali məktəblərin tələbələri üçün nəzərdə tutulmuşdur.
Təqdim olunan dərsliyin fəsil və bölmələrinin müəllifləri:
**T.ü.f.d.dos. Məmmədov Ç.İ**.-- I fəsil, II fəsil, III fəsil,
IV fəslin 1,2,4,5,6-cı §-ları,
V fəsil, VI fəsil, VII fəsil,
VIII fəsil, X fəslin §2
**T.e.d. Məmmədova H. İ**.-- IV fəslin §3,
IX fəsil,
X fəslin §1, §3.

# I.
# Azərbaycanın Rusiya və İran dövlətləri arasında bölüşdürülməsi.

## § 1. Rusiya-İran müharibələri və Azərbaycan

XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycanın daxili və xarici siyasi vəziyyəti çox mürəkkəb idi. Əvvəl Şəki, sonra isə Quba xanlıqlarının Azərbaycan torpaqlarının öz ətrafında birləşdirmək, vahid Azərbaycan dövləti yaratmaq cəhdləri baş tutmadı. Buna bir tərəfdən ölkənin sosial-iqtisadi inkişafının geriliyi, digər tərəfdən isə xarici istilalar, İranın və Rusiyanın bu yerləri ələ keçirmək üçün Azərbaycana yürüşləri mane oldu. O dövrdə Azərbaycana göz dikmiş İranın və Rusiyanın işğalçı planlarına qarşı dura biləcək vahid bir qüvvə yox idi. Hələ I Pyotr dövründə başlamış, II Yekaterina zamanı davam etdirilmiş Azərbaycanı ələ keçirmək cəhdlərindən sonra XIX əsrin əvvəllərində çar Rusiyası bütün Cənubi Qafqazı tutmaq planlarını həyata keçirməyə hazırlaşırdı.

Qərbi Avropa dövlətləri, xüsusən İngiltərə və Fransada Cənubi Qafqaza göz dikmiş və onlar burada baş verən hadisələri diqqətlə izləyirdilər. 1800-cü ildə İngiltərə öz elçisini İrana göndərərək, onunla siyasi və ticarət müqavilələri bağladı. O, İranı silahla təchiz edəcəyinə söz verdi.

1801-ci ildə Şərqi Gürcüstan Rusiyaya birləşdirildi. Qazax və Şəmşəddin sultanlıqları Gürcüstandan asılı olduqlarından, onlar da Rusiyaya birləşdirilmişdi. Bununla Rusiya Azərbaycanı işğal etməyə başladı.

1803-cü ilin yazında Rus qoşunları Alazan (Qanıq) çayı keçidində və Balakən yaxınlığında Car-Balakən camaatını məğlubiyyətə uğratdılar, Balakəni tutub talan etdilər. Sonra isə Carı ələ keçirdilər.

Qafqazdakı Rus qoşunlarının başçısı təyin edilmiş general Sisianov Gəncə xanı Cavad xana təslim olmaq təklifi

verdi. O, 1803-cü ilin sonunda qoşunlarını Gəncə istiqamətinə yeritdi.

1804-cü il yanvarın 2-dən 3-ə keçən gecə rus qoşunları qanlı döyüşdən sonra Gəncəni aldılar. Cavad xan və oğlu döyüş meydanında qəhrəmancasına həlak oldular. Gəncə xanlığının ərazisi zəbt edildi, xanlıq ləğv edildi. Gəncənin adı dəyişdirilib, Yelizavetpol qoyuldu.

Rus qoşunlarının müvəffəqiyyətləri, Gürcüstanın, onunla həmsərhəd olan Azərbaycan torpaqlarının çar Rusiyası tərəfindən zəbt edilməsi Türkiyəni və İranı narahat edirdi.

1804-cü ilin iyununda Rusiya ilə İran arasında müharibə başladı. İrəvan xanlığının şərq torpaqlarında İran-Rusiya qoşunları arasında döyüş oldu. Qələbə qazana bilməyən Sisianov geri çəkilməyə məcbur oldu. İran qoşunları da böyük itki verdiklərindən, hücum etmədilər.

İran qoşunlarının Qarabağ xanlığına soxulacağından ehtiyat edən İbrahimxəlil xan Kürəkçay sahilində düşərgə salmış Sisianovun yanına gələrək, 1805-ci il mayın 14-də Qarabağ xanlığının Rusiyanın hakimiyyətini qəbul etməsi barədə müqavilə imzaladı. Qarabağla bağlanan müqavilədən bir həftə sonra Şəki xanı Səlim xan da Şəkinin Rusiyanın tərkibinə qatılması barədə müqavilə imzaladı.

Qarabağ və Şəki xanlıqlarının Rusiyaya tabe ediliməsindən bir ay sonra İran qoşunları Qarabağa hücum etdilər. Lakin burada, sonra isə Gəncədə müvəffəqiyyət qazana bilməyərək Tiflis üzərinə getdilər.

İranla müharibə aparmaqla yanaşı, çar qoşunları Azərbaycanın digər xanlıqlarını da tabe etmək üçün ölkənin içərilərinə doğru irəliləməkdə davam edirdi. Şamaxı xanlığını tutduqdan sonra, çar qoşunları Bakı qalasına yaxınlaşdılar. 1806-cı il fevralın 8-də Bakı xanı ilə müqavilə imzalamaq üçün qala divarları yaxınlığında görüşə gəlmiş Sisianov öldürüldü. Onun ölümündən sonra rus qoşunları gəmilərə minib Sara adasına getdilər.

Bu hadisədən sonra fəallaşan İran qoşunları Qarabağa hücum etdilər. İbrahimxəlil xan ailəsi ilə birlikdə Xankəndə köçdü. Bundan şübhəyə düşən, çar qoşun dəstəsi mayor Lisianoviçin başçılığı ilə 1806-cı ilin iyununda ora gedərək, xanı və ailəsini vəhşicəsinə qətlə yetirdilər. Bu hadisədən sonra, Şəki xanı Səlim xan Rusiya ilə bağladığı müqaviləni ləğv etdi, rus dəstələrini xanlığın ərazisindən qovdu.

Lakin tezliklə, İran qoşunlarının ruslar tərəfindən məğlub edilməsi Bakı və Quba xanlıqlarının taleyini həll etmiş oldu. Hər iki xanlığın nümayəndələri Rusiyanın ali hakimiyyətini qəbul etməyə məcbur oldular.

Daha sonra Şəki işğal olundu və çar qoşunları Car-Balakən camaatına da vəhşicəsinə divan tutdular.

Bu dövrdə Rusiyanın xarici siyasi vəziyyəti də ağırlaşmışdı. Rusiyanın əsas qüvvələri Napoleon Fransası ilə münaqişəyə cəlb olunmuşdu. Belə bir şəraitdə, 1806-cı ilin sonralarında Türkiyə Rusiyaya müharibə elan etdi. Beləliklə, Rusiya Qafqazda 2 rəqibə qarşı – İran və Türkiyə ilə müharibə aparmağa məcbur oldu.

Rusiya-Türkiyə müharibəsi cəbhələrində rus qoşunlarının üstünlüyü ilə inadlı döyüşlər gedirdi. 1812-ci ilin mayında Rusiya ilə Türkiyə arasında bağlanan müqaviləyə görə, Rusiyanın Qafqazda işğal etdiyi torpaqlar onun ixtiyarında qalmış oldu.

1812-ci ildə Rusiyanın Fransaya qarşı apardığı müharibənin yaratdığı şəraitdən istifadə edən İran qoşunları Azərbaycanın müxtəlif yerlərinə, o cümlədən Gəncəyə və Şəki xanlığına soxulmaq istədi. Lakin məğlubiyyətə uğrayaraq geri çəkildi. İran qoşunu Lənkəran xanlığının ərazisini tutmağa məvəffəq oldu. Rus qoşunları Arazı keçib Aslandüz yaxınlığında İran qoşunlarını məğlub edib, Lənkəran xanlığının ərazisini yenə də ələ keçirdi. Lənkəran qalasının alınması İranın Rusiya ilə müharibədə tam məğlubiyyəti demək idi.

Şah hökuməti Rusiya ilə sülh danışıqlarına girdi. 1813-cü il oktyabrın 12-də Qarabağda olan Gülüstan kəndində sülh

müqaviləsi bağlandı. Müqaviləyə görə, İrəvan və Naxçıvan xanlıqlarından başqa, Araz çayının şimalında olan bütün Azərbaycan xanlıqları – Gəncə, Qarabağ, Şəki, Şamaxı, Lənkəran Bakı, Quba, Dərbənd ərazisi Rusiyanın tərkibinə qatılırdı. Xəzər dənizində yalnız Rusiyanın hərbi dəniz donanması saxlamaq hüququ var idi. İrana ticarətə gedən rus tacirləri vergi verməkdən azad edildilər.

Birinci Rusiya-İran müharibəsində məğlubiyyətə uğramış, İran şahlığı Qafqazı əldən verməsi ilə heç cür razılaşmaq istəmirdi. Bu işdə İngiltərə İrana bütün vasitələrlə kömək edirdi.

1826-cı ilin iyulun 26-da 60 minlik İran ordusu Azərbaycanın şimal torpaqlarına soxuldu. Yenə Qafqaz uğrunda Rusiya İran müharibəsi başlandı. İran qoşununun ilk hücumu Qarabağa – Şuşa qalasına oldu. Şuşanı ala bilməyən iran qoşunu Azərbaycanın başqa torpaqlarına da hücum etdi. Şah qoşunları ilə Azərbaycana gəlmiş keçmiş xanlar Gəncə, Şamaxı, Şəki və s. kimi şəhərləri ələ keçirib öz xanlıqlarını bərpa etdilər.

1826-cı ilin sentyabrında əlavə qüvvələr alan rus ordusu Şəmkir yaxınlığındakı döyüşdə İran qoşunlarını ağır məğlubiyyətə uğratdılar. Gəncə yaxınlığında rus qoşunları Abbas Mirzənin qoşununu da darmadağın etdilər. Şah qoşunlarının məğlub olması yenidən öz taxtlarına əyləşən keçmiş xanlıran taleyini də həll etmiş oldu. Yalnız Lənkəran xanlığı hələlik İran qoşunlarının əlində idi. Tezliklə rus ordusu İrəvan və Naxçıvan xanlıqlarına hücum etdilər və onları zəbt etdilər. 1827-ci ilin sonlarında rus ordusu Azərbaycanın cənub torpaqlarına girdilər. Rus qoşunları tezliklə Xoy, Təbriz, Urmiya və Ərdəbili ələ keçirdilər. İran dövləti danışıqlara girməyə tələsdi. Təbrizdən bir qədər cənubda olan Türkmənçay kəndində 1828-ci il fevralın 10-da İranla Rusiya arasında sülh müqaviləsi imzalandı. Müqaviləyə görə çar Rusiyasının qoşunları Azərbaycanın cənub torpaqlarından çıxırdı, yenicə tutulmuş İrəvan və Naxçıvan xanlıqları isə Rusiyanın tərkibində qalırdı. Müharibədə məğlub olmuş İran Rusiyaya 20 milyon manat

təzminat verməli idi. İran hökuməti təzminatı ödəyənə qədər, zəbt edilmiş Cənubi Azərbaycan əraziləri Rusiyanın himayəsində qalırdı.

Rusiya-İran müharibəsinin sona çatdığı zaman Rusiya-Türkiyə münasibətlərini kəskinləşməyə başladı. Bu da iki dövlət arasında 1828-ci ilin aprelində müharibəyə gətirib çıxardı. Bu mübarizədə Türkiyə hökuməti uğursuzluğa düçar olduğunu görərək, sülh müqaviləsi bağlamağa tələsdi. 1829-cu ildə Ədirnədə imzalanan müqavilə ilə Türkiyə Cənubi Qafqazın çar Rusiyası tərəfindən zəbt olunmasını təsdiq etməli oldu. Sülhə görə Qara dənizin Şərq sahili, habelə Axalsık və Axalkalaki şəhərləri daxil olmaqla Axalsıx vilayəti Rusiyanın tabeliyinə keçdi.

Son dövrlərə qədər Azərbaycanın Rusiya tərəfindən zəbt edilməsinin əhəmiyyətli cəhətlərinin olduğu qeyd edilirdi. Əslində isə Azərbaycan torpaqlarının Rusiya və İran tərəfindən zəbt edilməsilə Azərbaycan xalqı öz dövlət müstəqilliyini itirmiş oldu. Azərbaycan xalqını zorla iki hissəyə bölmək kimi tarixi ədalətsizlik baş verdi. Bu tarixi ədalətsizlik nəticəsində vahid xalq bölündü və onların hər biri bir-birindən fərqli sosial-iqtisadi, siyasi və mədəni inkişaf yoluna düşməyə məcbur oldu. İşğal nəticəsində Azərbaycan çar Rusiyası zadəganlarının və sənaye sahiblərinin xammal bazasına, tacirlərinin isə satış bazarına çevrildi. Azərbaycan iqtisadiyyatı müstəmləkə iqtisadiyyatı xarakteri aldı.

Azərbaycanın çar Rusiyası tərəfindən zəbt edilməsi ilə Şimali Azərbaycan çar Rusiyasının tərkib hissəsi kimi, Rusiyada kapitalizmin inkişafı ilə kapitalist inkişaf yoluna düşdü. Cənubi Azərbaycanın isə, geri qalmış Şah İranının tərkibində, sosial-iqtisadi inkişafı çox ləng getdi. Lakin, bu heç də o demək deyil ki, Azərbaycan Rusiyanın tərkibində olmasa idi, XIX əsrdə burada kapitalizm inkişaf etməyəcək idi. Şübhəsiz ki, Bakı kimi neft sərvəti olan ölkənin sosial-inqisadi inkişafı yüksək nailiyyətlər əldə edəcək idi. Rusiya tərkibində bu proses sürətləndi. Rusiyanın tərkibində Azərbaycan xalqının rus

xalqının mədəniyyəti, onun vasitəsi ilə dünya mədəniyyəti ilə qovuşması prosesi bir qədər sürətlənmişdi. Ümumiyyətlə isə, Azərbaycanın çar Rusiyasın tərəfindən işğal olunması, müstəmləkə halına düşməsi ən mürtəce hadisə idi.

## § 2. Şimali Azərbaycanda Rusiyasının müstəmləkə siyasəti

Şimali Azərbaycan xanlıqları çar qoşunları tərəfindən zəbt edildikdən sonra xanlar da Rusiyanın ali hakimiyyətini müqavimət göstərmədən qəbul etməyə məcbur oldular. Bu xanlıqlarda – yəni Qarabağ, Şəki, Şamaxı xanlıqlarında idarə sistemi olduğu kimi saxlanmışdı. Gəncə, Bakı, Quba kimi xanlıqlar isə çar qoşunlarına müqavimət göstərdiklərinə görə həmin xanlıqların əraziləri işğal edilən kimi onlarda xan üsul-idarəsi ləğv edildi. Sonralar, 1819-cu ildə Şəki xanlığı, Qazax və Şəmşəddil sultanlığı, 1820-ci ildə Şirvan, 1822-ci ildə Qarabağ və 1826-cı ildə Talış, 1828-ci ildə İravan xanlıqlarında da xan üsul-idarəsi ləğv edildi. Azərbaycanda mərkəzi Şuşa olan «Müsəlman əyalətləri rəisliyi» yaradıldı. Bu idarənin başında rus zabiti dururdu. Keçmiş Azərbaycan xanlıqları əyalətlərə və dairələrə bölündü. Əyalət və dairələrin başında çar zabiti – komendant dururdu. Bu sistem komendant idarə üsulu adlanırdı. Komendantlar mütləq hakim idilər.

Əyalətlər mahallara bölünürdü. Mahalların başında komendantların yerli bəylərdən təyin etdiyi mahal naibləri dururdu. Kəndləri isə kəndxudalar idarə edirdilər.

Azərbaycanın bəzi əyalətlərində və şəhərlərində məhkəmələr yaradılmışdı. Bu məhkəmələrə komendantlar sədrlik edirdilər, iclasçılar isə yerli bəylərdən seçilirdi. Mülki məhkəmələrlə yanaşı fəaliyyət göstərən şəriət məhkəmələri nigah, boşanma, vərəsəlik və s. kimi işlərə baxırdılar.

Komendant üsul-idarəsi camaatı ağır istismara, zülmə və özbaşınalığa məruz qoyurdu. Həm komendantlar, həm də onların təyin etdikləri mahal naibləri vergi toplayarkən zorakılığa yol verir, nəzərdə tutulandan xeyli çox toplayaraq

camaatı soyurdular. Komendantlar itaət etməyənlərlə amansız rəftar edirdilər.

30-cu illərin sonlarına yaxın komendant üsul-idarəsi iflasa uğramağa başladı. Onlar artıq çarizmin iqtisadi mənafeyinə, xeyrinə deyildi. 1840-cı ilin aprelində torpaqda inzibati islahat haqqında qanun verilmişdi və o, 1941-ci ilin yanvarından qüvvəyə mindi. Bu qanunla komendant idarəçilik sistemi ləğv olundu və ümumrusiya inzibati sistemi təsis edildi. Cənub Qafqaz mərkəzi Tiflis şəhəri olmaqla Gürcüstan-İmeretiya quberniyasına və paytaxtı Şamaxı şəhəri olan Xəzər vilayətinə bölündü. Azərbaycanın ərazisinin böyük bir hissəsi Xəzər vilayətinin tərkibinə daxil edildi. Vilayət Şamaxı, Şuşa, Nuxa, Lənkəran, Bakı, Quba və Dərbənd qəzalarına, qəzalar isə məntəqələrə bölündü. Azərbaycanın bir hissəsi Gürcüstan-imperiya quberniyasına daxil edilmişdi. Bu quberniyaya Yelizavetpol (Gəncə və Şəmşəddil daxil olmaqla), Balakən (Çar-Balakən) və Naxçıvan qəzaları daxil idi. İnzibati, bölgülər yaradılarkən milli əlamətlər adət və ənənələr nəzərdə alınmırdı. Bu da müstəmləkəçilik siyasətinin ən qatı təzahürü idi.

Ləğv olunan köhnə idarələr əvəzinə yeni quberniya, qəza və məntəqə idarələri təşkil olunurdu. Mahal naibləri vəzifəsi ləğv edilirdi.

40-cı illərdə Azərbaycanda tiyul torpaq sahibliyinin ləğv edilməsi barədə də tədbirlər müəyyən edilmişdi.

Çar hökuməti 1841-ci ilin aprelində (25-də) verdiyi fərmanla Gürcüstan-İmeretiya quberniyasının Qazax, Şəmşəddil və Borçalı məntəqələrinin ağaları öz torpaqlarından və kəndlilər üzərindəki hakimiyyətlərindən məhrum edildilər. Onların torpaqları xəzinənin ixtiyarına keçdi. 1841-ci il mayın 28-də «Xəzər vilayətinin tiyul bəyləri haqqında» da qərar qəbul edildi.

Bu fərmanlar bəylər və ağalar arasında böyük narazılığa səbəb oldu. Ona görə də bu islahatların həyata keçirilməsi dayandırıldı.

Bu qanunda məhkəmələr barədə də tədbirlər müəyyən olunmuşdu.

Rus çarizmi Qafqazda öz mövqelərini möhkəmləndirmək üçün 1844-cü ildə burada canişinlik idarəsi təsis etdi. Bütün mülkü hərbi hakimiyyəti öz əlində toplamış canişin bilavasitə çara tabe idi. Çarın Qafqazda ilk canişini M.S.Vorontsov (1844-1854-cü illərdə) təyin olunmuşdu. Onun dövründə, 1846-cı ildə Cənubi Qafqazda yeni inzibati bölgü yarandı. Cənubi Qafqazın ərazisi Tiflis, Kutaisi, Şamaxı və Dərbənd quberniyalarına bölündü. Azərbaycan ərazisi əsas etibarı ilə Şamaxı quberniyasının tərkibinə daxil oldu. Quberniya Şamaxı, Şuşa, Nuxa, Bakı və Lənkəran qəzalarından ibarət idi. Quba qəzası Dərbənd quberniyasının tərkibində\, Yelizavetpol qəzası isə Tiflis qüberniyasının tərkibində qalmışdı. Çar-Balakən torpaqları və İlusu soltanlığı əsasında Çar-Balakən dairəsi təşkil olundu.

Azərbaycanda müstəmləkə rejimi yaradılmasının mühüm istiqamətlərindən birini də aqrar münasibətləri və vergi sistemi sahəsində tədbirlər təşkil edirdi. «Rusiyanın aqrar siyasəti"ndə mühüm yeri yerli feodalların yeni müqavimətini qırmaq və özünə dayaq yaratmaq tuturdu. Bir sıra xanlar hələ çarizmin işğalına qarşı çıxırlar. Birinci Rusiya-İran müharibəsi gedişində onlardan bəziləri xaricə qaçmış və ya cəzalandırılmışdılar (Şəki, Quba, Çar-Balakən). 1813-cü il uğurundan sonra kütləvi cəzalandırma siyasəti yumşaldıldı. Hətta, 1814-cü ildə 30 avqustda çar fərmanı ilə «ümumi bağışlama» elan edildi. Torpaq münasibətləri barədə bir sıra buyruq (sərəncam) fərman və əsasnamələr verildi. 1818-ci ildə (martın 31-də) «tatar məntəqəsi» adlandırılan Qazax, Şəmşəddil və Borçalıda ağalarla kəndlilər arasında münasibətləri «nizamlamaq» barədə «Əsasnamə» verildi. «Əsasnamə»də kəndlərin sahibi deyil, «idarəçisi» sayılan ağaların mülkədar hüquqları kökündən dəyişdirildi. Onlara dövlət məmuru kimi baxılmağa başlanıldı. General Yermolov tərəfindən təsdiq olunmuş bu «əsasnamə» göstərilən üç məntəqədə hökumətə qarşı çıxışlara səbəb oldu.

Quba, Şəki, Şirvan və Qarabağ əyalətlərində də yerli feodalların torpaq hüquqlarına zərbə vuran tutarlı buyruqlar, (sərəncamlar) verildi. Onlarda məqsəd müsəlman əyalətlərində

bəylərin torpaq hüquqlarını sarsıtmaq, onların torpaq (kəndlər) üzərində sahibliyi hüququnu idarə etmək hüququ ilə əvəz etmək idi.

Çar hökuməti Turkmənçay müqaviləsi əsasında Rusiyaya verilən, əhalisinin 73,4 faizi türklər olan İrəvan xanlığının yerində Erməni vilayəti, 1850-ci ildə isə İrəvan qubernatorluğu yaradıldı. Burada torpaq münasibətləri ermənilərin xeyrinə həll edildi. Müsəlman əhalisindən alınaraq xəzinəyə keçən torpaqlar bu yerlərə köçürülmüş ermənilərə verildi. Hətta, 1828-ci il 25 dekabr sərəncamı ilə İrəvan, Naxçıvan və Ordubadda tiyul torpaq sahibliyi ləğv olundu.

Vergi sistemində də dəyişikliklər edilmişdi. Onlardan biri iltizamçılıq sisteminin yaradılması idi. Onlara iltizam sahələrindən bütün vergiləri yığmaq hüququ verilirdi. İltizamçılar arasında Qafqazın müxtəlif yerlərindən qazanc dalınca axışıb gələn erməni tacirləri çoxluq təşkil edirdi.

1826-cı ildən etibarən vergilərin ödənilməsində də sabitlik yaradıldı. Vergilərin miqdarı yalnız beş ildən bir dəyişdirilə bilərdi. Sahibkarlıq kəndlərində də vergi yığımı dövlətin mənafeyinə uyğunlaşdırıldı. Bütün bunlar çarizmin müstəmləkəçilik siyasətinə xidmət edirdi.

Bu tədbirlər nəinki kəndlilərin, habelə feodalların kəskin narazılığına səbəb olurdu.

Bunu görən Çar hökuməti yerli feodallara güzəştə getməyə, onlarla ittifaqa girmək siyasətinə keçdi. Bu baxımdan çarın «Bəy və ağaların hüquqları” barədə verdiyi 1846-cı il 6 dekabr fərmanı mühüm əhəmiyyətə malik idi. 12 maddədən ibarət bu fərmanda bəy və ağaların torpaq üzərində xüsusi mülkiyyət hüquqi təsdiq olunurdu. Vaxtilə onların əlindən alınmış torpaqlar əta olaraq geri qaytarılırdı.

Bəy-kəndli münasibətlərinə tam hüquqi aydınlıq gətirmək üçün 1846-cı il fərmanına əlavə olaraq 1847-ci il 10 aprel və 20 dekabr «Kəndli əsasnamələri» nəşr olundu. Onlardan birincisi Şüşa, Şamaxı, Şəki, Bakı, Quba və Lənkəran qəzalarının bəy kəndlilərinə, ikincisi isə Qazax və Şəmşəddil məntəqələrindəki

ağa kəndlilərinə aid idi. Bəy torpaqlarında yaşayan bütün kəndlilər – rəiyyətlər, rəncbərlər, elatlar və b. vahid ad – mülkədar tabesi adını alırdılar.

«Əsasnamələrə» görə kəndlilərin bəylərdən şəxsi asılılığı ləğv olunurdu. Meşələrdən, çəmənliklərdən, suvarma hovuzlarından istifadə kəndlilərlə bəylər – mülkədarlar arasında xüsusi sazişlərlə müəyyən edilirdi. Kəndlilərə öz torpaq paylarını satın almaq hüquqi verilirdi. Lakin torpağın qiyməti o qədər yüksək idi ki, onu almaq qeyri-mümkün idi. Bu sənədlərdə kəndlilərin istifadəsində olan «pay torpağı»nın miqdarı müəyyən edilirdi. Belə ki, kəndli istədiyi və ya bacardığı miqdarda torpaq götürə bilməzdi. 15 yaşını ötmüş kişi cinsindən olan hər bir kəndliyə yalnız 5 destayinə kimi pay torpağı ayrıla bilərdi. Həmin torpaq kəndlilərin daimi istifadəsinə verilirdi. Bunun qarşılığında kəndli məhsulunun 1/10-ni, çəltik, meyvə və tərəvəz məhsulunun 1/3-ni malcəhət şəklində bəyə verməli idi. Kəndli «pay torpağı»nda bəyin iş heyvanı, toxum və alətlərindən istifadə edərək becərirdisə, məhsulun 1/5-ni ona verməli idi. Bəyin öz təsərrüfatında işlədikdə də sonuncu ölçüdə malcəhət alınırdı.

Bəy ev işlərini görmək üçün 10 kəndli ailəsindən bir kişi, hər 15 kəndli ailəsindən isə bir nəfər qadın ayrılmalı idi. Sonuncu ciddi narazılıq doğurduğundan tezliklə ləğv olunmuşdu. Kəndli ailəsindən biyara çıxan bir kişi ildə 18 gün, bütün kəndlilər isə ildə 2 gün bəy təsərrüfatında işləməli (əvrəz) idi.

«Əsasnamə»yə görə kəndli biyar əvəzinə hər destayin pay torpağı hesabı ilə 30 qəpik pul verməsi idi. Vergiləri məhsulla toplamaq çətinlik törətdiyindən çarizm 1852-ci ildən Azərbaycanda yeni vergi sistemi tətbiq etdi. Bu sistemə görə bütün vergilər pulla ödənilməli idi. Bunun həm mənfi, həm də müsbət cəhətləri var idi.

## Çar Rusiyasının köçürmə siyasəti.

Çarizmin Azərbaycandakı müstəmləkəçilik siyasətində köçürmə tədbirləri də mühüm yer tuturdu. XIX əsrin 30-cu illərində Rusiyanın mərkəzi quberniyalarından və Ukraynadan çoxlu duxobarlar, malakanlar və digər etibarsız təriqətçi ünsürlər kimi Azərbaycana köçürülmüşdülər. Əslində bu həm də ruslaşdırma siyasətinin bir forması idi. 1833-1843-cu illərdə Altıağac, Çuxuryurda, Mərəzəyə onlarla belə kəndlər köçürülmüşdü. 1817-1818-ci ildən başlayaraq Azərbaycana xeyli almanlar da köçürülmüşdü. Onlardan 3 min ailə Yelizavetpol quberniyasında yerləşdirilmişdi.

Ermənilərin də kütləvi olaraq Azərbaycana xüsusilə Qarabağın dağlıq hissəsinə köçürülməsi də bu dövrə təsadüf edir. Onlar əsasən İran və Türkiyədən bura köçürülmüşdülər.
1828-ci ildə Türkmənçay müqaviləsi bağlandıqdan sonra ermənilərin İrandan, Osmanlı imperiyasının şərq əyalətlərindən İrəvan, Naxçıvan və Qarabağa kütləvi köçürülməsi başlandı. Əməliyyata rus diplomat və şairi Aleksandr Qriboyedov rəhbərlik edirdi. A.S.Qriboyedovun "Ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi haqqında qeydlər"ində bu məsələ haqqında geniş məlumatlar verilmişdir. A.S.Qriboyedovun gəlmə ermənilərlə yerli müsəlmanlar arasında gələcəkdə mümkün ola biləcək münaqişələr barədə xəbərdarlıq etmişdi: "Biz onunla (knyaz Arqutinski ilə), həmçinin müsəlmanları müvəqqəti çətinliklərlə barışdırmaq, ermənilərin ilk dəfə buraxıldığı torpaqları həmişəlik ələ keçirmələri barədə qorxularının kökünü kəsmək üçün onlara təsir göstərmək barədə çox düşünürdük!"

1828-1830-cu illərdə Cənubi Qafqaza İrandan 40 min, Türkiyədən 84600 erməni köçürülmüşdü. Ümumən, Onlar

əsasən Yelizavetpol (Dağlıq Qarabağ) və İrəvan quberniyalarında yerləşdirilmişdi. Onlar üçün 200 min desyatin xəzinə torpağı ayrılmış, üstəlik müsəlmanlardan 2 milyon manatlıqdan çox sahibkar torpağı satın alınmışdı.

Krım müharibəsindən sonra köçənlərin sayı məlum deyil. 1878 -1879-cu illər rus- türk müharibəsindən sonra 50 min erməni, 40 min yunan Qars əyalətində yerləşib. 1894-cü ildə Türkiyədən 100 min, 1897-ci ildə 90 min erməni köçüb gəlmişdi.

Rus alimi N.Şavrov hələ XX əsrin əvvəllərində «Cənubi Qafqazda rus mənafeyi üçün yeni təhlükə» əsərində yazmışdı ki, «XX əsrin başlanğıcında Cənubi Qafqazda yaşayan 1 milyon 300 min ermənidən 1 milyondan çoxu bu rayonun əhalisi deyildi: onlar buraya bizim tərəfimizdən köçürülmüşlər». ABŞ-da Qafqazşünas alim A.Benniqsen də 1988-ci ildə «Arabi» jurnalında nəşr etdirdiyi məqalədə yazmışdı ki, «ermənilər orta əsrlərin əvvəllərindən diaspor xalqdır. Əksinə azəri türkləri və gürcülər SSRİ xalqları arasında ən az «mühacir»dirlər. Bu da rusların məlum siyasəti ilə əlaqədar idi. Buna məşhur rus şairi Qriboedov da etiraf etmişdi.

***‘’Müstəmləkə və feodal zülmünə qarşı mübarizə‘’***

Azərbaycanın müstəmləkəyə çevrilməsi, müstəmləkə zülmü, həmçinin feodal istismarı, ağır vergilər xalq kütlələrinin narazılığına, üsyanlara gətirib çıxarırdı. Hələ 1826-cı ildə Gəncə şəhərində müstəmləkə zülmünə qarşı üsyan oldu. Lakin çar hökumət dairələri onu amansızcasına boğdu.

1830-cu ildə müstəmləkə əsarəti ilə barışmaq istəməyən Car-Balakən camaatlarında üsyan başladı. Bir neçə ay davam etmiş üsyanın gedişində üsyançılarla çar qoşunları arasında bir

neçə dəfə şiddətli toqquşmalar oldu. Üsyan, nəhayət, çar qoşunları tərəfindən qan içində boğuldu.

1831-ci ilin martında Lənkəran əyalətində böyük üsyan oldu. Lənkəran əyaləti komendantının zorakılığından bezmiş camaat İrana qaçmış. Lənkəran xanı – Mir Həsən xanın 30 nəfər atlı dəstə ilə gəlməsini eşidən kimi ayağa qalxdı, silaha sarıldı. Çar müstəmləkəçiliyinə qarşı yönəldilmiş bu üsyan iki aya kimi davam etdi, lakin amansızlıqla yatırıldı. Mir Həsən xan mayın 5-də İrana qayıtdı.

Müstəmləkə zülmünə qarşı ən böyük üsyan 1837-ci ildə Qubada olmuşdur. Üsyanın hərəkətverici qüvvəsi kəndlilər, Qubanın şəhər əhalisi, həmçinin bəy və ruhani nümayəndələri idi. 12 mindən çox üsyançının iştirak etdiyi bu böyük hərəkata Quba kəndlərindən birinin kəndxudası Hacı Məhəmməd və camaat arasında çox böyük nüfuza malik olan kəndli Yarəli başçılıq edirdi. Bu böyük dəstə Qubaya hücum etdi. Quba əhalisindən 4 minə qədər üsyançılara qoşulsa da, şəhəri toplarla silahlanmış çar qoşunlarından təmizləmək mümkün olmadı. Üsyan amansızcasına yatırıldı. Hacı Məhəmməd tutulub edam edildi. Yarəli qaça bildi. Çar hökuməti üsyanın digər fəal iştirakçılarına da divan tutdu.

1838-ci ildə Şəki əyalətində müstəmləkə zülmünə qarşı, keçmiş Şəki xanlığını bərpa etmək uğrunda, üsyan başladı. Üsyana İrana qaçmış Şəki xanı Səlim xanın göndərdiyi Məşədi Məhəmməd başçılıq edirdi. O, dağıstanlıların köməyi ilə Şəki əyalətinə gəldikdə, ona xeyli adam qoşuldu. Üsyançılar Şəki şəhərinə hücum etdilər. Şəhər camaatı da onlara qoşuldu. Onlar şəhəri tuta bildilər. Lakin çar hökuməti dairələri əlavə qoşun hissələri gətirdikdən sonra Şəki üsyanını yatıra bildi.

XIX əsrin 30-cu illərində Azərbaycanın başqa yerlərində də müstəmləkə və feodal zülmünə qarşı çıxışlar olsa da, onlar da amansızlıqla yatırılmışdı.

Çar müstəmləkəçilərini komendant üsul-idarəsi vasitəsilə yerlərdə müstəmləkə hakimiyyətini möhkəmlətmək cəhdləri baş tutmadı. Komendantların özbaşınalığı yerlərdə çar hakimiyyətinə qarşı nəinki geniş xalq kütllərinin, hətta çarın əsas istinadgahı olan feodal-bəylərin narazılığına da səbəb olmuşdu. Ona görə də, 1840-cı ildə çar hökumətinin Cənubi Qafqazda inzibati islahat barəsində verdiyi qanunla komendant üsul-idarəsi ləğv edildi, quberniyalar və onların nəzdində mahallar əvəzinə qəzalar yaradıldı. Cənubi Qafqaz mərkəz şəhəri Tiflis olan Gürcüstan-İmaretiya quberniyasına və mərkəzi Şamaxı olmaqla Xəzər vilayətinə bölündə. Bütün azərbaycanlı məmurlar ruslar ilə əvəz edildi.

Bu inzibati tədbirlərdən sonra Qafqaz canişini Azərbaycan feodallarının bir qrupu barəsində buraxılmış səhvi düzəltməyə, burada çarın yerli feodallardan ibarət istinadgahını bərpa etməyə çalışdı. 1846-cı il dekabrın 6-da bəylərin və ağaların hüquqları barəsində fərman verildi. Bu fərmanla çar bəylərin və ağaların torpaq üzərində xüsusi mülkiyyət hüququnu təsdiq etdi. 1847-ci il aprelin 20-də və dekabrın 28-də bu fərmana əlavə olaraq «Kəndli əsasnamələri» nəşr edildi. Bu əsasnamələrə görə kəndlilərin hüquq və vəzifələri müəyyən edildi. Kəndlərə 5 desyatin pay torpağı verir, əvəzinə onlar məhsulun 1/3-ni malcəhət kimi torpaq sahibinə verməli və ildə 2 gün biyara çıxmalı idilər.

***Mədəniyyət***

XIX əsrin I yarısında Azərbaycanda maarif-məktəb işində yeni bir dövr başlandı. Zəngin mədəni irsə malik olan xalqımız dünya mədəniyyətinin nailiyyətlərindən istifadə edərək, mədəni nailiyyətlərini öz adət və ənənələri ruhunda inkişaf etdirirdi. Bu dövrdə maarifin inkişafında köklü dəyişikliklər baş verməyə başlayır. A. Bakıxanov, Q.Zakir kimi maarifpərvərlər

Azərbaycanda xalq maarifini inkişaf etdirmək, xalqın savadlanması, beləliklə, onun səviyyəsini yüksəltmək qayğısına qalırdılar. A.Bakıxanov kimi maarifpərvərlər çox yaxşı başa düşürdülər ki, çar hökuməti xalqın maariflənməsi qayğısına qalmaz, çünki savadsız xalqı muti vəziyyətdə saxlamaq asandır.

A.Bakıxanov (1794-1847) öz dövrünün ən savadlı adamlarından biri olub. Onun tarix, fəlsəfə və coğrafiyaya aid əsərləri vardır. O, həm də istedadlı şair olubdur.

Tarixə aid olan «Gülüstani-İrəm», «Qazıqumux və qyurin xanları» əsərləri Azərbaycan tarixşünaslığının inkişafında çox böyük rol oynamışdı.

A.Bakıxanovdan bir qədər sonra Azərbaycanda yeni bir maarifçilik cərəyanı meydana çıxır. Onun ilk nümayəndəlrindən biri Azərbaycanın böyük maarifçi-demokrat alimi, filosofu, ictimai xadimi M.F.Axundov (1812-1878)olmuşdur.

XIX əsrin I yarısında Azərbaycanda əsas təhsil ocaqları məscidlərin nəzdindəki məktəblər və mədrəsələr idi. Azərbaycanın bir sıra görkəmli maarif və mədəniyyət xadimləri məhz bu təhsil ocaqlarında maariflənmişdilər. Azərbaycan Rusiyaya birləşdirildikdən sonra Azərbaycan maarifçilərinin səyi nəticəsində Azərbaycan-rus məktəbləri yaradıldı. Belə ilk məktəblər XIX əsrin 30-cu illərində Şuşada, Nuxada, Bakıda, Gəncədə, Şamaxıda və Naxçıvanda açılmışdı. Bu məktəblərdə rus və azərbaycn dilləri, coğrafiya və şəriət dərsləri keçilirdi.

XIX əsrin I yarısında Azərbaycanda elmin müxtəlif sahələri inkişaf etmişdi. Bu dövrdə Azərbaycanda A.A.Bakıxanov, M.F.Axundov, M.C.Topçubaşov, M.Kazımbəy, H.Z.Şirvani və başqaları kimi elm xadimlərinin bütöv bir nəsli yetişmişdi. Mirzə Cəfər Topçubaşov Peterburq universitetində Şərq dillərini tədris etmiş, İran ədəbiyyatı kafedrasının müdiri olmuşdur. M.C.Topçubaşov London Kral Asiya cəmiyyətinə üzv seçilmişdi.

XIX əsrin 30-cu illərində Azərbaycan mətbuatının əsası qoyuldu. 1832-ci ildə Tiflisdə həftədə bir dəfə «Tatar xəbərləri» qəzeti çıxmağa başladı.

XIX əsrin I yarısında Azərbaycan ədəbiyyatı 2 istiqamətdə inkişaf edirdi: romantik və realist cərəyan. Birinci cərəyanın nümayəndələri dini ideyaları təbliğ edirdi, onların çoxu feodal ideologiyası ilə bağlı idilər. Realist mütərəqqi cərəyanın nümayəndələri – ədəbiyatın inkişafında xüsusi mərhələni təşkil edən A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh, Q.B.Zakir və başqaları Azərbaycan ədəbiyyatını ölməz əsərləri ilə zənginləşdirmişlər.

XIX əsrin I yarısında Azərbaycanda xalq musiqisi və tətbiqi incəsənət, memarlıq inkişaf edir, teatr sənəti sahəsində ilk addımlar atılırdı.

Bu dövrdə xalq aşıq poeziyası ilə üzvi surətdə bağlı olan musiqi folkloru daha çox inkişaf etmişdi. Aşıqların böyük ustalıqla ifa etdikləri əsərlər daha geniş surətdə yayılırdı. İstedadlı aşıqlar təkcə şair deyil, eyni zamanda xanəndə, musiqi ifaçısı və rəqqas olmalı idilər. Bu dövrdə xanəndə Mirzə Səttar geniş şöhrət qazanmışdı.

XIX əsrin I yarısında Azərbaycan xalq kukla teatrının 2 və 3 pərdəli tamaşaları, həmçinin teatr oyunları olan «Maral oyunu», «Kaftarkəs», «Kilimarası» geniş yayılmışdı. İlk teatr tamaşaları 1848-ci ildə Şuşada və 1850-ci ildə Lənkəranda göstərilmişdi.

Azərbaycanda teatr sənətinin inkişafında M.F.Axundovun məşhur komediyalarının rus səhnəsində göstərilməsinin böyük əhəmiyyəti olmuşdur. Azərbaycan şəhərlərində sirk tamaşaları da göstərilirdi.

O dövrdə Azərbaycanın ən böyük rəssamı Mirzə Qədim İrəvaninin (1825-79) yaradıcılığında realist meyllər öz əksini tapmışdır.

XIX əsrin I yarısında Azərbaycanda tətbiqi incəsənətin ən çox yayılmış növü olan xalçaçılıq realizm ünsürləri ilə inkişaf edirdi.

Bu dövrdə Azərbaycanda çox mahir memarlar, daş yonanlar və daş üzərində naxış vuran ustalar yaşayır və yaradırdı. Onlardan Rəcəbəli, Tağı, Süleyman, Mehdi, Zeynal və başqaları fərqlənirdilər. Onlar Ağsu və Şamaxıda bir neçə sərdabə, Abşeronda bir neçə məscid, ovdan və s. tikmişdilər.

Lakin orta əsr Azərbaycan memarlığının bir çox qiymətli abidələri – XII əsr Naxçıvan məqbərələri, Bakıda Şirvanşahlar sarayı və s. – dağıdılır, onlardan bir anbar kimi istifadə olunurdu.

## § 3. Cənubi Azərbaycan İran dövləti tərkibində.

XIX əsrin əvvəllərində Azərbaycan torpaqları bölüşdürüləndən sonra onun cənub əraziləri İranın əsarəti altına düşdü. Gülüstan müqaviləsindən sonra yenə də Cənubi Azərbaycanda bir sıra xanlıqların hakimiyyəti tanınırdı. Maku, Urmiya, Həmədan və Gərgər Zəncan kimi güclü xanlıqlar istisna olmaqla qalanları ləğv edilmişdi. Cənubi Azərbaycan əhalisinin taleyi İranda yaşayan digər xalqların taleyi kimi oldu. Feodal quruluşunun ləng dağılması, ölkənin yarımmüstəmləkə vəziyyətində olması, kapitalist münasibətlərinin çox zəif və eybəcər şəkildə yaranması, feodal və kapitalist istehsal üsulunun çulğalaşmasından doğan vəhşicəsinə istismar, dilənçi həyat tərzi həmin taleyin əlamətdar cəhətləri idi.

Cənubi Azərbaycan, XIX əsrin əvvəllindəki tənəzzülə baxmayaraq, İran üçün böyük əhəmiyyət kəsb edirdi.

Cənubi Azərbaycanın iqtisadiyyatında, bütün İranda olduğu kimi, durğunluq meyli davam edirdi. XIX əsrin əvvəllərində İranın Rusiya ilə apardığı uğursuz müharibələrin

xərcinin, İranın Rusiyaya ödəməli olduğu təzminatın ağırlığının zəhmətkeşlərin, qismən də Cənubi Azərbaycan əhalisinin çiyinlərinə yüklənməsi daxili amillərdən yaranan şəraiti daha da pisləşdirirdi. Ölkə yarımmüstəmləkəyə çevrildikdən sonra isə İranın, o cümlədən Cənubi Azərbaycanın iqtisadi inkişaf yolunda ən mühüm əngəl iqtisadiyyatı birtərəfli və eybəcər inkişafa düçar etmiş xarici kapitalın ağalığı oldu.

Cənubi Azərbaycanda əhalinin əsas məşğuliyyəti yenə də kənd təsərrüfatı – əkinçilik və maldarlıq idi. Təkcə kənd əhalisi deyil, şəhər əhalisinin də bir hissəsi əkinçilik, bağçılıq, bostançılıq və kənd təsərrüfatının başqa sahələrində çalışırdı.

XIX əsrin ortalarında Cənubi Azərbaycanın feodal münasibətlərində nəzərə çarpacaq dəyişiklik baş verməmişdi. Əyalət əhalisinin əsas hissəsi yenə də feodalları bütün həyat nemətləri ilə təchiz edən zəhmətkeş kəndlilərdən ibarət idi. Kəndlilərin əsas istismar forması məhsul rentası idi. Kəndli bir qayda olaraq, becərdiyi məhsulun təqribən yarısını, bəzən daha çox hissəsini torpaq sahibinə renta və dövlətə vergi kimi verirdi. Kəndli renta və vergini əsasən məhsulla, qismən də pulla ödəyirdi. Dövlət vergilərinin qoyulduğu miqdardan artıq yığılması müşahidə olunur. Kəndli təsərrüfatı natural xarakter daşıyırdı. Əksər kəndli ailələrinin maddi vəziyyətinin ağırlığı nəticəsində onların həyat şəraiti də çox aşağı səviyyədə idi.

Şəhərlərin ictimai-iqtisadi həyatında mühüm rol oynayan təbəqələrin – sənətkarlar və tacirlərin vəziyyəti bilavasitə bazarla müəyyən edilirdi. Şəhərlərdə baş verən ictimai-siyasi hadisələr, çıxışlar bir qayda olaraq, həmişə bazarlardan başlayırdı. Şəhər əhalisinin dövlət vergisinə cəlb olunan hissəsi tacir və sənətkarlar idi.

Gülüstan müqaviləsindən sonra mərkəzi İran hökuməti Cənubi Azərbaycan əyalətində bir sıra nüfuzlu və qüvvətli xanların, o cümlədən Maku, Urmiya, Nəmin, Gərgər

xanlıqlarının hakimiyyətini tanımaqla, onları ayrı-ayrı xanlıqların hakimi kimi təsdiq etdi və daxili müstəqilliklərini saxlamalı oldu. Dövlət bu xanlıqların daxili işlərinə qarışmır, lakin onlardan vergi və əsasən silahlı qüvvə tələb edirdi. Cənubi Azərbaycandakı digər xanlıqlar tamamilə ləğv edildi.

Cənubi Azərbaycan və Təbriz dövlətin xarici siyasətində də mühüm rol oynayırdı. Belə ki, vəliəhd burada oturduğu və Təbriz bir növ ikinci paytaxt olduğu üçün xarici diplomatik nümayəndəliklərin də iqamətgahı ilk dövrdə Təbriz hesab edilirdi. Təbrizdə Rusiyanın əvvəl səfirliyi, sonra baş konsulluğu açılmışdı.

Azərbaycan əhalisinin, xüsusilə geniş kəndli kütlələrinin qarşı-qarşıya durduğu əsas istismarçıları yerli feodallar idi. Əhali hakim sülalənin getdikcə möhkəmlənən hakimiyyətinin zülmünə məruz qalırdı. Dövlət məmurlarının qanunsuz rəftarı xalqın vəziyyətini daha da ağırlaşdırırdı.

1830-cu illərin sonu 1840-cı illərin əvvəllərində Təbrizdə bir neçə dəfə həyəcan və çıxışlar baş vermişdi. 1847-ci ildə Zəncanda sənətkarlar, xırda tacirlər və şəhər yoxsulları hakimə qarşı çıxmış, onu şəhərdən qovmuşdur. 1848-ci ildə Təbrizdə şəhər yoxsulları və sənətkarların həyəcan və çıxışları baş vermişdi.

XIX əsrin ortalarında babilər təriqəti zəminində genişlənmiş hərəkatın banisi Seyid Əli Məhəmməd olmuşdur. Babın əsas ideyaları onun «Bəyan» adlı əsərində ifadə olunmuşdur. Babin fikrincə, indi üləma və hakimlərin zülmü nəticəsində İran bədbəxtlik və əziyyətlər diyarına çevrildiyindən yeni peyğəmbər imam Mehdinin zühur etməsi vaxtı çatmışdır. O, özünü əvvəl imam Mehdinin fikirlərini xalqa çatdırmaqda vasitəçi – Bab (qapı), sonra isə yeni peyğəmbər elan etmişdi.

1848-ci ildə başlanmış babilər hərəkatının ən coşqun dövrü Cənubi Azərbaycanda – Zəncanda olmuşdu. 1850-ci ilin baharında təkcə şəhərdə babilərin sayı 15 min nəfərə çatırdı.

Ciddi mübarizəyə hazırlaşan babilər 1850-ci ilin mayında şəhər qalasını tuta bildilər. Üsyana Molla Məhəmmədəli başçılıq edirdi. Üsyançılar hökumət qoşununun ilk hücumlarını müvəffəqiyyətlə dəf etdilər. 1850-ci ilin dekabrın sonunda 30 minlik şah qoşunu və feodal dəstələri hər tərəfdən Zəncana hücum etdilər. Üsyançıların döyüşlərdə böyük fədakarlıqlar göstərmələrinə baxmayaraq, irticası şah qoşunu üsyanı amansızlıqla yatırdı.

Hökumətin Bab tərəfdarlarını təqib etməsi Mazandaranda böyük bir üsyana (oktyabr 1848- may 1849) səbəb oldu.

Babı öldürməklə bütün İranda hərəkatın qarşısını almağa ümid edən İran hökuməti 1850-ci il iyulun ilk günlərində onu Təbrizdə edam etdi. İran hökumətinin gözlədiyinin əksinə olaraq, hərəkat daha artıq alovlandı.

1848-1852-ci illərdə bütün İranda babilər hərəkatı məğlub edilsə də ölkədə, eləcə də Cənubi Azərbaycanda Babın tərəfdarlarının sayı hələ çox idi və onun ideyası özünə yeni tərəfdarlar qazanırdı.

1858-ci ilin yanvarında Təbrizdə açıq üsyan olmuşdu. Lakin İran hökuməti silah gücünə bu üsyanı yatırdı.

1864-cü ildə Təbrizdə xarici şirkətlərin kəskin rəqabəti ilə üzləşən tacirlərin kütləvi etirazı da baş vermişdi.

## § 4. Şimali Azərbaycanda yeni iqtisadi münasibətlərinin təşəkkülü

XIX əsrin əvvəllərində Rusiya və İran tərəfindən bölüşdürülən Azərbaycan öz taleyi ilə razılaşmayaraq uzun müddət işğalçılara qarşı müharibə apardı. Lakin bu müqavimət hərəkatı eyni vaxtda başlamadığından və qeyri mütəşəkkilliyindən məğlubiyyətə uğrasa da dayanmadı. Müstəmləkəçilərə qarşı mübarizənin yeni formaları tətbiq olunurdu. XIX əsrin II yarısında bu mübarizə qaçaqçılıq hərəkatı və eyni zamanda görkəmli mütəfəkkirlərimizin inqilabi-demokratik maarifçilik ideyalarının xalq arasında yayılması ilə təzahür edirdi.

Əsrin ortalarına yaxın Azərbaycanın ərazi və siyasi işğalını başa çatdıran Rusiya burada o zaman iqtisadi hökmranlığa nail ola bilmədi. Şimali Azərbaycana xammal mənbəyi olan müstəmləkə kimi baxan çarizm xeyli müddət bu ərazinin iqtisadi inkişafı və yüksəlişinə şərait yaratmadı, tələsik aparılan ötəri islahatlar isə səmərəli bir nəticə vermədi.

Aqrar və burjua islahatları kənd təsərrüfatının inkişafına, burada kapitalist münasibətlərinin təşəkkülünə güclü təsir göstərirdi. Azərbaycanda da kənd təsərrüfatının inkişafı ümumrusiya iqtisadiyyatının istiqamətlərinə uyğunlaşdırıldı. Kənd təsərrüfatı sahələrinin inkişafı Rusiya iqtisadiyyatının əlavəsinə çevrilməsi məqsədinə xidmət edirdi. Rusiya sənayesinin təsiri ilə Azərbaycanda da kənd təsərrüfatı məhsulları istehsalında ixtisaslaşma sürətlənirdi.

Bü dövrdə çarizmin köçürmə siyasəti onun müstəmləkəçilik vərdişlərini möhkəmləndirmək əməllərindən biri idi. Çar Rusiyası Cənubi Qafqaza İran və Türkiyədən bir milyondan çox erməni, 150 minə yaxın digər xalqları (polyak,

çex, yunan, yəhudi, eston, latış və s.), Rusiyadan 10 mindən çox müxtəlif təriqətə mənsub bidətçi rus kəndlilərini və alman koloniyalarını köçürmüşdü.

İslahatdan sonra Azərbaycanda da kapitalist sənayesi inkişaf etməyə başladı. İstehsal və emal sənayesinin Azərbaycana məxsus sahələrinin inkişafı sürətləndi. Bunların içərisində neft sənayesi müstəsna yer tuturdu. Bakı rayonunda yerləşən neft sənayesinin artmasında keçmişdə neft mənbələrinə təhkim edilmiş Abşeron, xüsusən Balaxanı kəndlilərinin az məhsuldar icbari əməyinin 1864-cü ildə ləğv edilməsinin böyük əhəmiyyəti oldu.

Neft çıxarılmasında müzdlu əməkdən istifadə olunmasına keçilməsi neft sənayesinin kapitalistcəsinə yenidən qurulmasını sürətləndirdi. Uzun sürən durğunluq dövründən sonra neft çıxarılmasının artması, xüsusilə də 70-ci illərin əvvəllərində baş verən neft emalı yüksəlişi Azərbaycanda yeni kapitalist münasibətlərinin meydana gəlməsinə və sürətli inkişafına təkan verdi, cəmiyyətin sosial strukturunda və ictimai proseslərdə, milli-ideoloji fikir və baxışlarda əsaslı dəyişiklik və irəliləyişlərə zəmin yaratdı.

1872-ci ildə neft sənayesində müqatiə (haqla icarəyə verilmə) sisteminin ləğv edilməsi və neft yataqlarının açıq satış yolu ilə xüsusi adamlara birdəfəlik satılmasına keçilməsi Bakıda neft sənayesinin inkişafında sıçrayış yaratdı. Neft sənayesinin inkişafına yerli, rus və xarici kapital qoyuluşu artdı. Neft sənaye müəssisələrinin sayı genişləndi. 70-ci illərin əvvəllərində (1873-cü ildə) Bakıda 12 neft şirkəti vardısa, 1899-cu ildə onların sayı artıq 140-a çatdı. Neft çıxarılmasında texniki təkmilləşdirmələr başladı. Neft quyularının buruqla zərbə üsulu ilə qazılmasına başlandı. 1871-ci ildə Balaxanıda buruqla ilk neft quyusu qazıldı. Beləliklə, 70-ci illərin əvvəllərindən Azərbaycan neft sənayesində sənaye çevrilişi başlandı. Mədənlərdə buxar

mühərrikləri geniş tətbiq olunmağa, neft quyuları daha əl ilə deyil, dartay üsulu ilə, jelonka ilə çıxarılmağa başlandı. 1873-cü ildə neft mədənlərində ilk dəfə buxar maşını tətbiq edildi. Quyuların sayı və dərinliyi artdı. Əgər 1870-ci ildə Bakı rayonunda 1 milyon 482 min pud neft hasil edilmişdisə, bu rəqəm 1901-ci ildə 672 milyon 200 puda çatmışdı. Neft sənayesinin coşqun surətdə artması nəticəsində 1898-ci ildə Azərbaycan dünyanın ən çox neft istehsal edən ölkəsi olan ABŞ-ın səviyyəsini ötüb keçdi. 1991-ci ildə Bakı dünya neft hasilatının yarıdan çoxunu və Rusiyada neft hasilatının 95 faizini verirdi.

Neft hasilatı ilə yanaşı neft emalı sənayesi də inkişaf edirdi. Ağ neft, sürtkü yağları, sonra da benzin istehsalına başlanıldı. 1859-cu ildə Suraxanıda rus kapitalistləri Kokarev və Qubanin ilk ağ neft zavodlarını tikdirdilər. 1863-cü ildə Cavad Məlikov, ondan sonra (erməni) Mirzoyev və Taroyev ağ neft zavodlarını tikdirdilər. 1873-cü ildə sonralar Qara şəhər adlanan zavodlar rayonu tikilməyə başladı. Bir qədər sonra ona yaxın Keşlə və Ağ şəhər adlanan yerlərdə də fabrik və zavodlar tikildi. Artıq 1893-cü ildə Bakıda 114 neft emalı müəssisəsi var idi. Artıq XIX əsrin sonralarına yaxın Bakıda kapitalist neftçıxarma sənayesinin inkişafı ilə bir zamanda qüdrətli neftayırma sənayesi də yaradıldı.

Bakı nefti nəinki rus kapitalistlərini, habelə dünyanın digər ölkələrindən olan kapitalistlərini də maraqlandırırdı. Bakıda Azərbaycan kapitalistlərindən M.Nağıyevin, M.Muxtarovun, Manafovun, Zəbiyevin, Ş.Əsədullayevin erməni kapitalistlərindən Mirzoyevin, Mantaşevin, Qukasovun, Mayılovun, Tatevosovun, rus kapitalistlərindən Kokorevin, Şibayevin, Bekkendorfun və başqalarının neft sənaye firmaları ilə yanaşı isveçvi Nobel qardaşlarının, ingilis C.Vişaunun, Paris bankiri Rotşildin neft sənaye firmaları da yaradılmışdı. 1880-90-

cı illərdə Amerikanın, Rokfellerin «Standart oyls» inhisar şirkəti (Gerbert Tvidl) Bakı neftini ələ keçirməyə cəhd etmişdi.

1895-1898-ci illərdə Qafqazın neft sənayesində 8 ingilis şirkəti yaradılmışdı ki, onun 6-sı Bakıda idi. Həmin müddət ərzində Rusiyanın, o cümlədən Azərbaycanın neft sərvətlərini istismar etmək məqsədilə 3 yeni fransız, 2 isveç, 2 alman, 2 Belçika, 1 Danimarka, 1 yunan və s. neft şirkətləri yaradılmışdı.

Azərbaycan neft sənayesində də istehsalın təmərküzləşməsi və kapitalın mərkəzləşmə prosesi baş verməkdə idi. Neft sənayesində hakim mövqelər inhisarların əlində toplanmaqda idi.

1901-ci ildə iri şirkətlər neft istehsalının 87,3 faizini verirdilər. Bakı neft istehsalının 12 faizi təkcə Nobel qardaşları şirkətinin payına düşürdü. Təmərküzləşmə neft emalı sahəsində daha güclü idi. 1880-cı illərin əvvəllərində Rotşildin satın aldığı «Batum neft və ticarət cəmiyyəti» sindikatlar yaradılmasının mərkəzinə çevrildi. Nobel qardaşlarının ağ neft sindikatı yaradıldı.

Neft sənayesinin inkişafı ilə əlaqədar Bakıda avadanlıq istehsal və təmir edən zavodlar və emalatxanalar yaradılır, dəmir yolu çəkilirdi. 1883-cü ildə Bakı-Tiflis dəmir yolunun çəkilməsi bu dövrdə başa çatdırılmış, Xəzər vasitəsilə yük daşınması genişlənmişdi.

XIX əsrin I yarısında Azərbaycanda mis çıxarılması və əridilməsi də inkişaf etdirilmişdi. 1850-ci ildə yunan Mexov qardaşları Gədəbəy rayonunda zəngin kolçedan yataqları aşkara çıxarıb, sənayeçi Kundurov ilə birlikdə bu yataqların istismarına başlamışdılar. 1860-cı illərdə alman Simens qardaşlarının firması bu sahəni öz əlinə keçirmişdi. 1884-cü ildən Gədəbəy yaxınlığındakı Qalakənddə də misəridən zavod işə salınmışdı. Onlar Daşkəsən filiz yataqlarını da almışdılar.

Həmin dövrdə Azərbaycanda, xüsusilə Nuxada, Şuşada, Ordubadda və b. yerlərdə ipəksarıma, Ağdaşda, Göyçayda, Yevlaxda, Şəkidə, Cavad qəzasında pambıqtəmizləmə müəssisələri meydana gəlmişdi.

Bakıda xeyli yeyinti və yüngül sənaye müəssisələri var idi: 15 mexaniki dəyirman, 2 tütün fabriki, müxtəlif yeyinti sənaye müəssisələri, H.Z.Tağıyevin 1900-cu ildə işə düşmüş toxuculuq fabriki və s.

Bunlardan başqa bu dövrdə Azərbaycanda zəy, duz çıxarılması, balıqçılıq, şərabçılıq, ipəkçilik, tütünçülük, ağac emalı və s. sənaye sahələri də inkişaf etdirilmişdi. Habelə sənətkarlıq, ticarət, şəhər təsərrüfatı güclənmişdi.

Kapitalizmin inkişafı Bakının və Azərbaycanın digər şəhərlərində əhalinin sürətlə artmasına səbəb olmuşdu. 1897-ci ildə (Zaqatala dairəsi daxil olmadan) Naxçıvan qəzası daxil olmaqla Azərbaycanda 1805738 nəfər adam yaşayırdı. Bu zaman Bakıda 112 min adam yaşayırdı.

XIX əsrin II yarısında Azərbaycan əhalisinin ictimai tərkibində dəyişikliklər baş verirdi. Köhnə siniflər olan mülkədarlar və məzlun kəndlilər sinfinə yeni siniflər – burjuaziya və proletariat əlavə olunmuşdu.

Azərbaycan burjuaziyasının təşəkkülü prosesi əsas etibarı ilə XIX əsrin ikinci yarısında başlayıb, XX əsrin əvvəllərində də davam etmişdi. Onun əsas nümayəndələri iri neft sənayeçiləri, Bakı və qəzalardakı digər sənaye müəssisələrinin sahibləri, gəmi sahibləri, tacirlər, böyük mülk (ev) sahibləri, sənətkarlıq müəssisələri sahibləri, qolçomaqlardan ibarət idi. Azərbaycanın müstəmləkə vəziyyətində olan iqtisadiyyatının inkişafı xüsusiyyətləri nəticəsində burada burjuaziya lap ilk zamanlardan çoxmillətli burjuaziya kimi təşəkkül tapmışdı.

XX əsrin əvvəllərində 167 neft sənaye müəssisəsindən 29,3 faizi (49-u) azərbaycanlı, 32,9 faizi (55-i) erməni, 12,8 faizi

(21) rus, 10,2 faizi (17) yəhudi, 3,6 faizi (6) gürcü, 11,3 faizi (19-u) xarici sahibkarlarının əlində idi. Neftçıxarma və neft emalı sənayesində Azərbaycan milli burjuaziyasının H.Z.Tağıyev, Ş.Əsədullayev, M.Nağıyev, M.Muxtarov, Manafov, Cəbiyev, Mustafayev, Soltanov və b. görkəmli nümayəndəlri var idi.

Azərbaycanda sənaye proletariatının təşəkkülü də müəyyən xüsusiyyətlərə malik idi. Əvvəla – fəhlə sinfi Azərbaycanda müstəmləkə vəziyyəti olması şəraitində meydana gəlmişdi. Buna görə Azərbaycan fəhlə sinfinin tərkibi çoxmillətli idi. İkincisi, kənddə «kəndlilikdən çıxmaq» prosesinin ləng getməsi kəndin sənayeni yerli fəhlə qüvvəsi ilə təmin etməsinə lazımi dərəcədə imkan vermirdi. Bu da gəlmə işçi qüvvəsinə ehtiyacı labüd edirdi. Üçüncüsü, səneyadə, xüsusilə neft sənayesinə işləməyə gələnlərin əksəriyyəti kəsbkarlığa gələnlər idi. Onlardan bir hissəsi kəndlə əlaqəni kəsib daimi fəhləyə çevrilir, digərləri isə mövsümi fəhlə kimi sənayedə çalışırdılar.

Dördüncüsü – Azərbaycanda fəhlə sinfinin əsas kütləsi Bakıda cəmləşmişdi. Bu da Azərbaycanda qeyri-bərabər iqtisadi inkişafla əlaqədar idi.

Beşincisi – Azərbaycan fəhlə sinfinin əsas hissəsi istehsalatın qabaqcıl sahələrində – neftçıxarma və neft emalı sənayesində, dəmiryolu və su nəqliyyatında və b. sahələrdə meydana çıxmışdı. Bu hal fəhlə sinfinin inkişafında sabitliyi, varisliyi təmin edirdi.

Altıncısı – Azərbaycan fəhlə sinfinin formalaşmasının yüksək sürətlə baş verməsidir. Təxminən 20-25 il ərzində burada sənaye proletariatı formalaşmışdı.

Azərbaycanın, xüsusilə Bakı fəhlə sinfinin formalaşmasının bir xarakterik cəhəti də onun yüksək dərəcədə təmərküzləşməsi idi. XIX əsrin sonu – XX əsrin əvvəllərində

neft sənayesi fəhlələrinin yarısına qədəri, 500 və daha çox fəhləsi olan iri müəssisələrdə toplanmışdı.

Beləliklə, artıq XIX əsrin axırlarında Azərbaycan fəhlə sinfi öz miqdarı ilə qüvvətli bir dəstə kimi təşəkkül tapmışdı. Onun ən böyük dəstəsi Azərbaycanda proletariatın formalaşmasında mühüm rol oynayan Bakıda toplanmışdı.

Artıq 1901-ci ildə Bakıda 60-70 min fəhlə bütün Azərbaycanda isə 90-100 min fəhlə var idi. Sənaye proletariatının formalaşması Azərbaycan xalqının tarixində mühüm hadisə idi. O, müstəmləkə əleyhinə milli azadlıq uğrunda mübarizənin əsas qüvvəsini təşkil edirdi.

# II
# Azərbaycan XX əsrin əvvəllərində

## § 1. XX əsrin əvvəllərində Azərbaycanda ictimai-iqtisadi vəziyyət

XX əsrin əvvəllərində Azərbaycanda hələ də güclü surətdə feodal-asılı münasibətlər qalıqları, feodal-mülkədar torpaq sahibliyi və geridə qalmış təsərrüfat formaları saxlanılırdı. Lakin bütün bunlara baxmayaraq Azərbaycan iqtisadiyyatı irəliyə doğru yeni bir addım atmaqda idi – sənayenin bir sıra sahələrində az-çox texniki yeniliklər tətbiq olunur, istehsalatın təmərküzləşməsi prosesi daha dərin kök salırdı. Lakin Bakı müstəsna olmaqla Azərbaycanda sənaye zəif inkişaf edirdi. Burada əsasən kənd təsərrüfatı xam mallarının emalı ilə məşğul olan xırda müəssisələrin sayı artırdı.

XX əsrin əvəllərində sənaye kapitalizminin öz inkişafının inhisarçı mərhələsinə qədəm qoymalı yeni sənaye böhranı ilə bir vaxta düşmüşdü.

Bu böhran Bakıda neft sənayesini də şiddətli surətdə titrətdi, sənayenin bir sıra başqa sahələrinə öz təsirini göstərdi.

İnhisarların meydana çıxması, sənaye və bank kapitallarının birləşməsi prosesi Azərbaycanın neft sənayesində özünü güclü surətdə göstərməkdə idi. Çarizmin müstəmləkə siyasəti inhisarların meydana çıxmasına şərait yaradırdı. Maliyyə kapitalı Azərbaycanın bir müstəmləkə kimi istismar olunmasında daha fəal surətdə iştirak etməyə başlayırdı.

XX əsrin əvvəllərindəki böhran Azərbaycanın neft sənayesinə şiddətli zərbə endirdi. Bakıda neft məhsullarına olan tələbatın sürətlə azaldığı bir şəraitdə mədənlərdə neft hasilatı artmaqda davam edirdi. Bütün bunlar bazar qiymətlərinə təsir göstərir, qiymətləri aşağı salır və neft sənayesində qeyri-sabit

vəziyyət yaradırdı. Yalnız 1901-ci il martın 1-ə qədər 163 milyon pud neft ehtiyatı yığılmışdı. Bakıda neft qiymətlərinin sürətlə aşağı düşdüyünü görən hökumət dərhal neft sənayeçilərinin köməyinə gəlmiş, neftli torpaqların icarə haqqını 30 faiz aşağı salmışdı. Lakin, hökumətin tədbirləri böhranı meydana çıxaran əsas səbəblərə toxunmadığından, bütün bu tədbirlər böhranın dərinləşməsinin qarşısını ala bilmədi. Böhranın davam etdiyi 3 il ərzində Bakıda neftin orta illik qiyməti 2,3 dəfə, ağ neftinki isə 3,3 aşağı düşmüşdü.

Böhran nəticəsində, yalnız 1901-ci il ərzində 13 zavod ya satılmış və ya başqa neft cəmiyyətləri tərəfindən icarəyə götürülmüşdü.

Böhran illərində neft sənayiçiləri arasında neft ixracı üstündə mübarizə olduqca kəskinləşdi. Neft ixracı Nobel qardaşları, Rotşild kimi inhisarçıların əllərində cəmləşdi.

XX əsrin əvvəllərində neft məhsulları qiymətlərinin ciddi surətdə aşağı düşməsi xırda və orta sahibkarların çoxunun iflasa uğramasına və var-yoxdan çıxmasına səbəb olmuş, neft istehsalatının iri inhisarçı birləşmələr – sindikatlar əlində toplanmasına şərait yaratmışdı. İstehsalatın təmərküzləşməsi inhisarçı birləşmələrin meydana çıxması üçün zəmin rolunu oynamışdı. Neft istehsalı və neft məhsulları emalı sahələri inhisarların əlində cəmləşmişdi. Belə ki, 1889-1900-cu illər ərzində Bakıda 208 şirkətdən 90-ı və ya 43 faizi ləğv edilmişdi. Zəif müəssisə və şirkətlərin ləğv edilməsi prosesi 1900-cu illərin əvvəllərindəki böhran və ondan sonra baş verən yüksəliş dövründə də xüsusilə qüvvətlənmişdi. Bu prosesin gedişində iri müəssisələrin iqtisadi və texniki üstünlükləri əsas rol oynayırdı.

1900-cu ildə şirkətlərin ümumi sayının 3,6 faizini təşkil edən 6 böyük şirkət – Nobel qardaşları birliyi, Mantaşov, Xəzər-Qara dəniz birliyi, Bakı-neft cəmiyyəti, Xəzər birliyi, Rus neft istehsalı və maye yanacaq cəmiyyəti Bakıda çıxarılan neftin 50

faizini verirdi. Bu neft kompaniyaları içərisində başlıca rolu Nobel qardaşları, Rotşild və Mantaşovun şirkətləri oynayırdı ki, bunlar da 1901-ci ildə istehsal olunan neftin 25 faizini və Bakıdan ixracı olunan ağ neftin 40 faizə qədərini vermişdilər.

Təmərküzləşmə prosesi neft emalı sənayesində də müşahidə olunurdu. 1900-cu ildə 6 iri zavod ümumi ağ neft istehslının 44 faizini, Nobel qardaşları şirkəti isə 22 faizdən çoxunu verirdi. 1904-cü ildə 7 iri neft emalı zavodu bütün məhsulun 50,5 faizini istehsal etmişdi.

Neft sənayesində istehsalatın təmərküzləşməsi və kapitalın mərkəzləşməsinə, sənayenin bu sahəsində inhisarçı birləşmələrin meydana çıxmasına bank kapitalının neft sənayesinə nüfuz etməsi böyük təsir göstərirdi.

1909-cu il üçün Azərbaycan neft sənayesi artıq kapitalist inkişafının yüksək mərhələsinə gəlib çatmışdı, maliyyə kapitalı maqnatları Azərbaycan neft sənayesində bütün ictimai istehsalat üzərində ağalığı öz əllərində cəmləşdirmişdilər. Ali çar idarə məmurları Rusiyanın maliyyə-sənaye burjuaziyasının iri nümayəndələri ilə sıx əlaqə saxlayaraq, özləri də bəzən neft sənayesində fəal iştirak edirdilər. Qafqaz canişini qraf Vorontsov-Daşkovun Balaxanıda mədəni var idi.

XX əsrin əvvəllərində Bakıya xarici kapitalın axını davam edirdi. 1900-1903-cü illər ərzində ingilis kompaniyaları Rusiyanın sənayesinə 63,8 milyon manat, o cümlədən Bakı rayonu müəssisələrinə 47 milyon manat pul qoymuşdular. 1902-ci ildə Bakıda 39,4 milyon manat kapitalı olan 11 ingilis müəssisəsi var idi.

Amerika «Standart oyl» tresti də Bakı neftinə böyük maraq göstərməkdə davam edirdi. 1904-cü ildə xarici şirkətlər neft ixracı ilə məşğul olan Bakı sənayeçilərini «Standart oyl» ilə qeyri-bərabər bir müqavilə bağlamağa məcbur etdilər. Bu

müqaviləyə görə, Rusiyanın neft məhsulları dünyanın bir çox ölkələrindən sıxışdırılıb çıxarılırdı.

Bakı gəmi sahibləri içərisində də birləşmək meylləri hiss olunurdu. 1903-cü ildə gəmi sahibləri Tağıyev, Bünyadov, Aşurov, Manafov, Hüseynov, Tumayev qardaşları və başqalarının öz aralarında bağladıqları müqavilə əslində sindikat sazişinə bənzər bir sənəd idi. Həmin ildə Bakı gəmi sahiblərinin birliyi «Maye yanacaq daşıyan gəmilər ittifaqı» adı altında qəti olaraq rəsmləşdirildi. İlin sonlarında onlar Nobel qardaşları cəmiyyəti ilə sazişə girdi. 1904-cü ilin əvvəllərində bu ittifaqın 134 gəmisi var idi.

Böhran əlaməti neft sənayesi ilə bərabər mexaniki, misəritmə, qismən duz istehsalatında da özünü göstərməkdə idi. Böhran Azərbaycanın ancaq ipəksarıma, şərabçılıq və spirtçəkmə, tütün istehsalı kimi sənaye sahələrinə təsir göstərə bilmədi.

1901-ci ilin əvvəllərində Bakıda H.Z.Tağıyevə məxsus toxuculuq fabrikinin açılmasının Azərbaycanda kənd təsərrüfatı və emaledici sənaye üçün böyük əhəmiyyətə malik oldu.

Bu dövrdə Azərbaycanda bu sənaye sahələrində də ləng də olsa təmərküzləşmə prosesi gedirdi. İpəksarıma və tütün sənayesində, başçılıq sahəsində istehsalat daha çox iri sahibkarların əlində cəmləşirdi.

XX əsrin əvvəllərində Azərbaycan şəhərlərində ticarət də canlanmaqda idi.

Bu dövrdə Rusiya iqtisadiyyatının təsiri nəticəsində bəzi kənd təsərrüfatı maşınlarının Azərbaycan kəndinə nüfuz etməsi davam edir, torpağın becərilməsi üsulları təkmilləşirdi.

## § 2. Azərbaycanda milli-azadlıq və inqilabi demokratik hərəkatlar.
## İlk siyasi təşkilatlar və partiyalar

*Milli şürun oyanması. Millətin təşəkkülü*

Kapitalizmin inkişafı, cəmiyyətin sinfi tərkibində baş vermiş dəyişikliklər, Azərbaycanın ayrı-ayrı əraziləri arasında iqtisadi və mənəvi birliyin yaranması, mədəni mərkəzlərin yüksəlməsi kimi amillər vahid dili, mədəniyyəti, ərazisi, iqtisadi və mənəvi həyatı olan Azərbaycan xalqının millət kimi formalaşmasına səbəb oldu.

Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsinə, xalqın 2 hissəyə – Şimali və Cənubi Azərbaycana parçalanmasına baxmayaraq, o, bir millət kimi təşəkkül tapırdı. Hər 2 tərəfdə müstəmləkəçilik siyasəti millətin formalaşmasını, onun milli yaddaş və şüurunun güclənməsini sürətləndirirdi. Şimali Azərbaycanda kapitalizmin inkişafı keçmiş xanlıqlar dövründən qalmış əyalət parçalanmasına son qoyur, onlar arasında mərzləri silib atırdı. Əyalətlər arasında iqtisadi, siyasi və mədəni əlaqələr möhkəmlənir, türk soylu xalqların mənəviyyat birliyi, xarakter birliyi güclənirdi. Milli təşəkkül ləng olsa da intensiv gedirdi. Sözsüz ki, çarizmin müstəmləkəçilik siyasəti Azərbaycan millətinin formalaşmasına mane olurdu. O, zaman Azərbaycanın inzibati bölgüsü, dilin və mədəniyyətin inkişafına mane olmaq, ruslaşdırma siyasəti bunu təsdiq edirdi.

Millətin yaranması azərbaycanlıların həyatında mühüm hadisə idi. Bu, azərbaycanlıların müstəmləkə zülmünə qarşı, torpağın suverenliyi uğrunda mübarizə üçün çox vacib olan, milli şüurunun formalaşmasına səbəb olmuşdu. Milli burjuaziyanın və ziyalıların meydana çıxması xalqın milli yaddaşının güclənməsinə təkan verən amil idi. Qeyd olunmalıdır

ki, millət məfhumunu dilimizə həmin dövrün böyük xadimi M.F.Axundov gətirmişdi. Mətbuatda ilk dəfə 80-cı illərdə çıxan «Kəşkül» qəzeti «Azərbaycan milləti» ifadəsini işlətmişdir.

Milli burjuaziyanın və ziyalıların meydana çıxması xalqın milli yaddaşının güclənməsinə təkan verən amil idi. Bu dövrdə meydana çıxan maarifçilik, islamşünaslıq, türkçülük kimi ictimai hərəkatlar Azərbaycan millətinin təşəkkülünə, milli yaddaşın güclənməsinə dəlalət edirdi. Azərbaycanın qabaqcıl ziyalı nümayəndələrini millətin taleyi düşündürürdü. Onların isə çarizmin milli-müstəmləkə zülmünü tənqid atəşinə tutmaqdan başqa imkanları yox idi. M.F.Axundov, H.B.Zərdabi, N.B.Vəzirov, C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov və b. bu sahədə çox mühüm işlər görürdülər. Onlar öz əsərləri ilə, mətbuat vasitəsilə xalqın gözünü açmağa, onu cəhalətdən qurtarmağa çalışırdılar.

Azərbaycanın burjuaziyasının bəzi liberal nümayəndələri xalqı maarifə, elmə çağırır, bunun üçün 1870-ci illərin sonunda Tiflisdə çıxmağa başlamış «Ziya» (sonradan «Ziyayi-Qafqaziyyə») qəzetinin səhifələrindən istifadə edirdilər. Onlar xalqın həyatını yenidən qurmaq, ana dilini geniş yaymaq fikirlərini irəli sürür, «Vətən» məfhumunu işlədirdilər. Bakıda çıxan «Kaspi» qəzetinin ətrafında toplanmış Ə.B.Ağayev, Ə.B.Hüseynzadə, Ə.B.Topçubaşov kimi burjua nümayəndələri milli hərəkatın başlancığını qoydular.

Lakin bütün cəhdlərə baxmayaraq, XIX əsrin II yarısında Azərbaycanın demokratik ziyalılarının çıxışları milli azadlıq hərəkatı səviyyəsinə yüksələ bilmədi.

***Milli demokratik hərəkatın istiqamətləri. İlk siyasi təşkilatlar və partiyalar.***

XX əvvəllərində dünyada və ayrı-ayrı ölkələrdə sosial-iqtisadi və ictimai-siyasi ziddiyyətlər daha da kəskinləşdi. Belə ziddiyyətlərin düyünlənməsinin ən qaynar nöqtəsi olan Rusiya imperiyasında sosial

sinfi və milli qarşıdurmalar gücləndi. Hətta ucqarlarda da bu qarşıdurmaları özündə əks etdirən ictimai hərəkatlar, siyasi təşkilat və partiyalar meydana çıxmağa başladı. O, cümlədən Şimali Azərbaycanda da belə hərəkat və təşkilatlar yaranmağa başladı.

Azərbaycanda hələ XIX əsrin axırlarında müxtəlif istiqamətli ictimai hərəkatlar meydana çıxmışdı. XX əsrin əvvəllərində onların şəbəkəsi sürətlə genişləndi. Azərbaycanda maarifçi-demokratlar – M.F.Axundov, H.B.Zərdabi, S.Ə.Şirvani, M.T.Sidqi, H.B.Mahmudbəyov, R.B.Əfəndiyev, S.M.Qənizadə və b. – inqilabçı demokratlar – C.Məmmədquluzadə, M.Ə.Sabir, Ömər Faiq və b. – milli-liberal, milli-burjua liberalizmi, milli demokratlar, milli-demokratik gənclər, müsəlman demokrat, xırda burjua inqilabçıları, sosialist və sosial-demokratiya kimi ictimai hərəkatlar meydana gəlmişdi. Bu ictimai hərəkatlar arasında ən geniş yayılmışı maarifçi-inqilabi demokratlar, milli-liberal burjua, milli demokratik və sosial-demokratiya idi. Onlardan bəziləri – maarifçi-inqilabi demokratiya, milli-liberal burjuaziya, milli demokratik gənclər, xırda burjua, sosialist və sosial-demokratiya hərəkatları ümumrusiya fonunda formalaşmışdı. Müsəlman demokratik gənclər, milli demokratik («müsavat») hərəkatları istisna olmaqla, onlar əsasən bu istiqamətdə olan ümumrusiya hərəkatlarının filialları kimi, tərkib hissələri kimi fəaliyyət göstərirdilər. Burada bir cəhət də ondan ibarət idi ki, ümumdünya ictimai hərəkatlar və siyasi partiyaların meydana gəlməsi ənənəsinə müvafiq olaraq, Azərbaycanda da həmin ictimai hərəkatların meydana gəlib formalaşmasında dövrü mətbuat – qəzet və jurnallar əsas rol oynamışdılar. Belə ki, maarifçi demokratlar «Əkinçi» (1876), «Ziya» (1879) və «Kəşkül» (1880) qəzetləri, liberal burjua hərəkatı «Şərqi Rus» (XX əsrin əvvəli), «İttifaq» (1908), «Nicat» (1910), «Kaspi», «Baku» (XX əsrin əvvəli) qəzetləri, milli demokratik hərəkatları

«İrşad», «Tərəqqi», «Həyat», «Füyuzat», «Təzə həyat», «Şəlalə», «Açıq söz», «İqbal» kimi jurnal və qəzetləri, inqilabi demokratik hərəkatı «Molla Nəsrəddin», «Dəbistan» jurnalları, sosial demokratiya hərəkatı «Hümmət», «Qoç-Dəvət», «Təkamül», «Yoldaş» qəzetləri ətrafında formalaşmışdı.

Bu dövrdə Azərbaycanda həmin ictimai hərəkatların ideyalarını ifadə edən siyasi partiyalar da yaranmışdı. 1898-1900-cu illərdə Bakıda bir neçə marksist dərnəkləri təşkil edilmişdi. İlk dərnək 1898-ci ildə Nobel qardaşlarının firmasının Qaraşəhərdə olan zavodunun fəhlələri Popov və çex İ.Vatsek tərəfindən yaradılmışdı.

1899-cu ilin martında Bakıda 6 sosial-demokrat dərnəyi fəaliyyət göstərirdi. 1901-ci ildə RSDFP-nin Bakı komitəsi yaradıldı.

1902-ci ildə 17 yaşlı Məmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə «Müsəlman gənclik təşkilatı» yaradıldı. Az sonra bu təşkilat «Müsəlman demokratik «Müsavat» cəmiyyəti»nə çevrildi. Bu cəmiyyətin əsasında 1904-cü ilin payızında «Hümmət» (qüvvət) təşkilatı yaradıldı. Mir Həsən Mövsümov, Məmməd Həsən Hacınski və Məmməd Əmin Rəsulzadə tərəfindən yaradılan bu təşkilat RSDFP-nı Bakı komitəsinin nəzdində fəaliyyət göstərirdi. Sonradan N.Nərimanov, M.Əzizbəyov, S.M.Əfəndiyev, Ə.Axundov bu təşkilatın fəal üzvlərinə çevrildilər. 1904-1905-ci illərdə «Hümmət» təşkilatının «Hümmət» adlı qəzeti nəşrə başladı. 1906-1907-ci illərdə təşkilatın «Təkamül» və «Yoldaş» qəzetləri nəşr olunmuşdu. Təşkilat əhalinin milli şüurunun oyanmasında, soykökünə qayıtmasında mühüm rol oynayırdı. Lakin tədricən bolşeviklərin nəzarəti altına keçən «Hümmət» təşkilatı öz əvvəlki milli qayəsini itirirdi. M.Ə.Rəsulzadə və onun ideya dostları bu təşkilatdan uzaqlaşdılar. Həmin dövrdən

M.Ə.Rəsulzadə Rusiyanın müstəmləkə idarə üsuluna qarşı Azərbaycan milli istiqlal hərəkatının təməlini qoydu.

1904-cü ildə Bakıda rus menşeviklərinə aid olan bir qrup – şendrikovçuluq meydana çıxdı. O, Lev, İlya və Qleb Şendrikov qardaşları tərəfindən yaradılmışdı. Bu təşkilat əvvəl «Balaxanı və Bibiheybət fəhlələri ittifaqı», sonralar isə «Bakı fəhlələri ittifaqı» adlandırılmışdı.

XX əsrin inqilabı olan 1905-1907-ci illər rus inqilabı dövründə, xüsusən çarın 1905-ci il 17 oktyabr manifestindən sonra Azərbaycanda da siyasi partiyaların və təşkilatların yaradılmasında yeni mərhələ başlamışdı. Söz, mətbuat, yığıncaq, ittifaq azadlıqları elan edən 17 oktyabr manifestindən sonra siyasi partiya, təşkilat və cəmiyyətlərin yaradılması genişləndi.

1906-cı ilin payızında Şuşa, Cavanşir, Qaryagin (Füzuli) və b. qəzalarda milli burjua ziyalıları nümayəndələri tərəfindən «Difai» təşkilatı yaradıldı. Təşkilatın rəhbərliyində Ə.Ağayev, K.Mehmandarov, M.Hacınski dururdular. Təşkilatın məqsədi azərbaycanlıları erməni daşnaklarının hücumlarından qorumaq idi. Bu zaman Gəncə, Qazax və qonşu qəzalarda «Müdafiə» təşkilatı meydana çıxdı. Onun rəhbəri İ.Ziyadxanov idi.

1905-ci ilin avqustunda (16-21) Nijni Novqorodda keçirilən Ümumrusiya müsəlmanlar qurultayında Ə.M.Topçubaşov başda olmaqla «İttifaqi-müslimin» adlı Ümumrusiya müsəlman ittifaqı yaradıldı.

1905-ci ilin oktyabrında H.C.Tağıyev və M.Muxtarov başda olmaqla «Müsəlman cəmiyyəti xeyriyyəsi» və 1906-cı ilin avqustunda «Nəşr maarif» xeyriyyə cəmiyyətləri yaradılmışdı. 1906-cı ilin martında xalqın milli şüurunun oyanmasında böyük rol oynayan, «Nicat» maarif cəmiyyəti təşkil edilmişdi.

1906-cı ildə dağıstanlı fəhlələr arasında iş aparmaq üçün T.Ağasıyev və M.Aydınbəyov başda olmaqla sosial-demokrat

«Faruq» qrupu, cənubi Azərbaycan fəhlələri arasında iş aparmaq üçün isə Bakıda və Təbizdə «Mücahid» partiyası yaradılmışdı.

1905-ci ilin oktyabrında Bakıda «Yakor» adlı monarxist istiqamətli təşkilat yaradılmışdı. O, «Rus xalqı ittifaqı» adlanan qaragüruhçu təşkilatın qollarından biri idi.

1905-ci ilin noyabrında Bakıda inqilabi hərəkatda milli siyasət yeridən eser «İttifaq» təşkilatı meydana gəldi. Onun təşkilatçıları Şərifzadə, Cuvarlinski və M.Məlikov idilər.

1905-ci ilin noyabrında tələbə gənclərin inqilabı-demokratik «Üxüvvət» (qardaşlıq) təşkilatı yaradılmışdı.

1906-cı ilin noyabrında Azərbaycanda həmkarlar ittifaqı yaradıldı. Bu dövrdə artıq təkcə Bakıda 18-20 həmkarlar ittifaqı var idi.

XX əsrin əvvəllərində Azərbaycanda istismara qarşı, çarizm üsul-idarəsinə qarşı sosial ədalət, milli-azadlıq uğrunda mübarizə geniş vüsət almışdı. Bakı bu mübarizənin ən qızğın mərkəzi idi. Bu mübarizədə üç istiqamət özünü göstərirdi: Birincisi, əsasən fəhlələr, əksərən rus dili bilən əhaliyə nüfuz edən bolşeviklərin, menşeviklərin və digər sosial-demokrat qüvvələrin mübarizəsi, ikincisi, müstəmləkəçiliyə qarşı, milli azadlıq uğrunda milli burjuaziyanın və ziyalıların nüfuz etdiyi qüvvələrin mübarizəsi, üçüncüsü, mövcud üsul idarə ilə daim barışığa hazır olan liberal burjuaziyanın təsiri altında olan qüvvələrin mübarizəsi.

Millətlərin öz müqəddəratını təyin edilməsi şüarını özünün proqramına daxil edən sosial-demokratiyanın mübarizəsi milli-azadlıq uğrunda mübarizə aparan qüvvələrin – milli-demokratik ziyalıların məqsədləri ilə üst-üstə düşürdü. Deməli, bilavasitə bolşeviklərin və digər sosialistlərin təsiri ilə çarizmə istismara qarşı çıxışlar həm də milli-azadlıq mübarizəsi xarakteri daşıyırdı. Lakin qeyd olunmalıdır ki, fəhlə çıxışlarını təmsil edən və onlara rəhbərlik edənlərin əksəriyyəti, əsasən ruslardan,

ermənilərdən, gürcülərdən və yəhudilərdən ibarət idi. Azərbaycanlılar azlıq təşkil edirdi.

Çarizmə qarşı çıxışlarda Bakı proletariatının 1903-cü il iyul (1-22) çıxışları mühüm yer tuturdu. Bu tətil iyulun 1-də Bibiheybətdəki emalatxananın fəhlələri tərəfindən başlanmış, iyulun 4-də ümumi xarakter alaraq, 50 min fəhləni əhatə etmişdi. Tətildə əvvəkilərdən fərqli olaraq daha çox azərbaycanlı fəhlənin iştirak etməsi ona milli-azadlıq mübarizəsi xarakterini vermişdi. 1903-cü il iyul tətili nəinki Rusiyada, habelə Avropa ölkələrində də əks-səda vermişdi.

***İnqilabi demokratik və kəndli hərəkatı***

1904-cü ilin sonlarında Rusiyada inqilabi böhran daha da kəskinləşdi. Çarizmin Rus-Yapon müharibəsində məğlub olması sinfi ziddiyyətləri dərinləşdirmiş, ölkədə ümumi siyasi vəziyyət gərgin şəkil almışdı.

1904-cü il dekabrın 13-də Balaxanı fəhlələrinin çıxışı ilə Bakı proletariatının məşhur dekabr tətili başlandı və bu tətil bütün ölkədə əks-səda doğurdu. Həmin gün tətil 40-a qədər şirkətin fəhlə və qulluqçularını əhatə etdi. Təkcə Balaxanı, Sabunçu və Bibiheybət zavodlarında tətilçilərin sayı 27 minə çatmışdı. Tətilə rəhbərlik etmək üçün tətil komitəsi yaradılmışdı. Komitənin işində M.Məmmədyarov, S.Əfəndiyev, S.Yaqubov, Caparidze, Fioletov və başqaları iştirak edirdilər. Tətil komitəsi neft sənayeçilərinə təqdim etmək üçün 34 maddədən ibarət tələbnamə hazırlamışdı. Onların çoxu iqtisadi xarakter daşısa da, siyasi tələblər də az deyildi: 8 saatlıq iş günü, söz, mətbuat, yığıncaq azadlığı, məktəblər açmaq, həftədə bir gün istirahət, məzuniyyət vermək, fəhlələrin həyatını sığorta etmək və s.

Dekabrın 23-də Balaxanıda ciddi toqquşmalar baş verdi. Burada polis və mühafizə dəstələri fəhlələri atəşə tutaraq 15-ə qədər adam öldürdülər. Onların dəfn mərasimi möhtəşəm bir siyasi nümayişə çevrildi. Hökumət xəfiyyəsi fitnəkarlığa əl

ataraq dekabrın 25-dən 30-dək mədənlərdə yanğın və partlayış törədib təqsiri fəhlələrin üzərinə atdı. Yanğın 225 neft buruğunu məhv etdi. Tətili yatıra bilməyəcəklərini görən sahibkarlar güzəştə getməyə məcbur oldular. Tətil komitəsi ilə neft sənayeçilərinin seçdiyi 15 nəfərdən ibarət komissiya arasında aparılan danışıqlar dekabrın 30-da uğurla başa çatdı. Hər iki tərəfin nümayəndələri «mazut konstitusiyası» adlandırdıqları ilk müştərək müqaviləni imzaladılar. Dekabrın 31-də Bakı fəhlələrinin ümumi tətili qalibiyyətlə başa çatdı.

Lakin mexaniki zavodların fəhlələri tətili davam etdirirdilər. Çünki bu zavodların sahibkarları müştərək müqavilə haqqındakı sazişin onların müəssisələrinə dəxli olmadığını bildirmişdilər. Onların mübarizəsi 1905-ci ilin yanvarın 17-ə kimi davam etmişdi.

«Mazut konstitusiyası» - 1904-cü il müştərək müqaviləsi Bakı proletariatının neft sənayeçiləri və çarizm üzərində qazanmış olduğu böyük qələbə idi. Bu tətil həm də bütün Rusiyada 1905-ci ilin yanvar-fevralında başlayan çıxışlar üçün bir siqnal oldu. O, Rusiyada yaxınlaşmaqda olan demokratik inqilabın müjdəçisi rolunu oynadı. Bu tətildən bir neçə gün sonra bütün Rusiyada əzəmətli inqilab fırtınası qopdu. 1905-1907-ci illər inqilabı başlandı.

Yanvarın 15-də Nobel qardaşları şirkətinin Balaxanıdakı emalatxana fəhlələri, yanvarın 26-da Kaspi şirkətinin mətbəə fəhlələri də tətilə qoşuldular. Təkcə yanvar ayında Bakıda 25 müəssisənin fəhləsi tətil etdi. Tətil qəzalardakı sənaye müəssisələrinin fəhlələrini də əhatə etmişdi. Gədəbəy mis mədənlərinin, Ləki yağ zavodunun, Nuxa və Şuşa ipək emalı fabriklərinin fəhlələri tətilə qoşuldular. Yanvarın 25-də Gəncə dəmiryol stansiyasının 200-dən çox fəhləsi tətilə başladı. Bu tətillər fevralın 10-a kimi davam etdi. Tətilçilər 1904-cü il dekabr tətilinin müqaviləsinin bir sıra mühüm şərtlərinin onlara

da aid edilməsinə nail oldular. Tətil hərəkatının getdikcə genişlənməsindən narahat olan hökumət dairələri millətlərarası qırğından istifadə etdilər.

Azərbaycan kəndliləri də mülkədar torpaq sahibliyinin ləğv olunması, feodal münasibətlərinin ləğv edilməsinə çalışaraq, çarizmin ağır müstəmləkə zülmünü öz üzərindən atmaq istəyirdilər.

1905-ci ilin yazı və yayında Azərbaycanda kəndlilərin torpaq uğrunda mübarizə hərəkatı başlandı. Kəndlilər çar hökumətinin sərəncamlarını icra etməkdən boyun qaçırır, xəzinəyə vergi verməkdən, mükəlləfiyyətləri yerinə yetirməkdən imtina edir, çar məmurlarına və ağalara silahlı müqavimət göstərirdilər.

Kəndli hərəkatı Yelizavetpol quberniyasında daha geniş miqyas almışdı. Zaqatala dairəsində də aqrar hərəkat kəskin xarakter almışdı. Buradakı kəndlilər bəy torpaqlarını zəbt edərək, aralarında bölüşdürmüş, polis dəstələrini darmadağın etmişdilər. Bura cəza dəstələri göndərilmişdi.

1905-ci ildə qaçaq hərəkatı böyük miqyas aldı. Bu hərəkat Azərbaycanın bütün qəzalarını əhatə etmişdi. Göyçay və Şamaxı qəzalarında – Qaçaq Zahidin, Zaqatala dairəsində Məşədi Yusifin, Gəncə və Qazaxda Qandal Nağının, Həsən Ləzgi oğlunun, Qarabağda Süleymanın dəstəsi daha böyük şöhrət qazanmışdı.

1910-cu ildə Azərbaycanın müxtəlif yerlərində yeni kəndli hərəkatları baş vermişdi. Yelizavetpol quberniyasında Qatır Məmməd, Məşədi Yolçu və Kərbəlayı Əsgərin başçılıq etdiyi qaçaq dəstələri fəaliyyət göstərirdi.

Lakin müsbət cəhətlərinə baxmayaraq, kəndli çıxışları və onun daha geniş yayılmış olan qaçaq hərəkatı ölkəmizdə müstəqil və mütəşəkkil qüvvə kimi özünü göstərə bilməmişdi.

Çar hökuməti tərəfindən törədilmiş millətlərarası qırğın inqilabi hərəkatı söndürə bilmədi. 1905-ci ilin martından proletariatın inqilabi çıxışlarının yeni dövrü başladı.

Aprel-may aylarında Bakıda 100-dən çox şirkətdə fəhlələr tətilə çıxmışdı. Avqust ayında, tətillərin güclənməsindən qorxuya düşən çar hökuməti Bakını mühasirə vəziyyətində elan etdi.

Bakı fəhlələrinin tətilləri 1906-1907-ci illərdə də dayanmadı. 1906-cı il may ayında Bakı proletariatının 75-%, 1907-ci ilin birinci yarısında isə neft sənayesi fəhlələrinin 82% tətil hərəkatında iştirak etmişdi. 1907-ci ilin dekabrında 1908-ci ilin fevralın sonuna qədər Bakının 30-dan çox sənaye müəssisəsinin 10 minə qədər fəhləsi bu tətillərdə iştirak etmişdi.

***Köçürmə və ruslaşdırma siyasəti***

Çar hökuməti torpaqsız kəndlilərin məsələsini onların mərkəzi quberniyalardan imperiyanın ucqarlarına – Sibirə, Qafqaza və Orta Asiyaya köçürülməsi yolu ilə həll etməyə çalışırdı. Onlar yerli kəndlilərin hesabına torpaqla təmin edilirdilər.

1899-cu il aprelin 15-də əlahəzrət tərəfindən "Zaqafqaziyada köçürməyə icazə haqqında qanun" verildi. 1900-cü il dekabrın 22-də elan olunmuş yeni qanunda isə Qafqazda mülki işlər üzrə baş rəisə icazə verilmişdi ki, "rus mənşəli və pravoslav dininə mənsub kəndlilərin" vəsatətlərini yalnız ilkin qaydada müzakirə etməklə onları xəzinə torpaqlarında yerləşdirsin. Yerli hakimiyyət orqanları bu çar sərəncamını həyata keçirərək artıq 1901-ci ilin martında köçürmə sahələrini müəyyənləşdirməyə başladılar.

1901-ci il martın 18-də Çar Rusiyası 40 min nəfərə qədər rus kəndlisini Mil və Muğan düzünə köçürmək haqqında qərar vermişdi. Bundan istifadə edən erməni milyonçuları, 1903-cü ildə çara müraciət edərək, Abşeronun yerli əhalisini aran ərazilərə

köçürmək və bu ərazidə isə rusların və ermənilərin yerləşdirməyi təklif etmişdi. Lakin, Çar Rusiyası ciddi narazılıq yaranacağından ehtiyat edərək bu təklifi qəbul etməmişdi.

1905-ci ildən etibarən Muğanda rusları məskunlaşdırmağa başladılar. Hesablamalara görə, əsrin birinci beş ilində Bakı quberniyası ərazisində köçürülənlər üçün 44 min desyatin yararlı torpaq sahəsi ayrılmışdı. Quberniyada bəzən gəlmə rus kəndlilərinə bütöv bir kəndin torpağını verirdilər. Azərbaycanlıların torpaqları əlindən alınaraq öz evlərindən qovulurdular. Muğan düzünə daha çox kəndli köçürüldü. Burada Pokrovka, Alekseyevka, Qriqoryevka kimi rus kəndləri meydana çıxdı. 1908-ci ildə Yelizavetpol quberniyasının müxtəlif qəzalarına 187 kəndli ailəsi köçürülmüşdü. 1909-cu ildə Kiyev quberniyasından Quba qəzasına 2000 rus kəndlisi köçürülmüşdü. Ümumiyyətlə Azərbaycana 1908-ci ildə 1145, 1909-cu ildə – 1211, 1910-cu ildə 615 rus kəndli ailəsi köçürüldü. Belə ki, 1908 – 1910-cu illərdə Azərbaycana 3 mindən artıq kəndli ailəsi köçürülmüşdü.

Bu illərdə Azərbaycanda aztorpaqlı və torpaqsız kəndlilərin sayı daha da artdı. Yalnız Bakı quberniyasında torpağı olmayanların sayı 16 mini keçmişdi. 1912-ci ildə Bakı quberniyasında 60 və Yelizavetpol quberniyasında isə 29 rus kəndi salınmışdı. Muğanda 20 min əhalinin yaşadığı 49 rus kəndi var idi. Yerli kəndlilərdən qorunmaq üçün Muğandakı rus kəndlilərinə silah da vermişdilər.

Qafqaz canişininin çara göndərdiyi məlumatda bildirilirdi ki, o, külli miqdarda rus sektant ailələrini Qafqaza göçürmək fikrindədir, beləki, «ölkədə rus dövlət hakimiyyətini bərqərar etmək kimi böyük bir vəzifə cəsarətlə onlara həvalə oluna bilər».

Yerli əhalinin kəskin etirazlarına baxmayaraq çar hökuməti özünün köçürmə-müstəmləkə siyasətini davam etdirirdi. O, ucqarları ruslaşdırmaq prinsipini fəal şəkildə həyata keçirirdi.

***Milli-azadlıq hərəkatı***

XX əsrin əvvəllərində Rusiyanın başqa milli ucqarlarında olduğu kimi, Azərbaycanda da milli-azadlıq hərəkatı kəskinləşdi. Bu hərəkat Bakı proletariatının inqilabi mübarizəsi və kəndli çıxışları ilə çulğalaşırdı. Bütün bunlar milli-azadlıq hərəkatının kəskin xarakter almasına səbəb olurdu. 1905-ci il ərzində Azərbaycanın Bakı, Gəncə, Şuşa və başqa şəhərlərində çarizmin milli müstəmləkə əsarətinə qarşı narazılıq əlaməti olaraq kütləvi-siyasi nümayişlər və mitinqlər keçirilirdi.

Bakıda və başqa şəhərlərdə müxtəlif mədəni-maarif cəmiyyətləri yaradılır, məktəb şəbəkəsi genişləndirilir, müxtəlif qəzet və jurnallar nəşr edilir, elmin ayrı-ayrı sahələrinə dair bir sıra kitablar buraxılır, milli ədəbiyyat və teatr, rəssamlıq və musiqi inkişaf edirdi.

Rus-Yapon müharibəsində məğlubiyyətə düçar olan çarizmin əzəmət və qüdrəti sarsılmışdı. Ölkədə tuğyan edən demokratik inqilabın təzyiqinə məruz qalan çar hökuməti qanuni bir idarə vəd edən manifest imzalamağa məcbur qalmışdı. Rusiya əsarətində işləyən bütün millətlərin həyatında olduğu kimi, bu hadisə Rusiya məhkumu olan türklərin, o cümlədən Azərbaycan türklərinin də həyatında mühüm bir dövrün başlancığı oldu. Bu vaxtdan etibarən nisbətən geniş nəfəs almaq imkanı tapan Azərbaycan şer, ədəbiyyat, teatr, musiqi, mətbuat, nəşriyyat və maarif sahəsində olduğu kimi, ictimai-siyasi və cəmiyyətlər baxımından da irəliləməyə başlamışdı. Gündəlik qəzetlər təsis olunmuşdu.

Bu illər dövründə Azərbaycanda milli hərəkatda öz xarakterinə görə bir-birinə tamamilə zidd olan 2 müxtəlif istiqamət – burjua-millətçi və inqilabi-demokratik istiqamət gözə çarpırdı.

Bu dövrdə Azərbaycanda milli təhsilin, milli mədəni-maarif cəmiyyətlərinin, mətbuat və incəsənətin inkişafına meyllər çox

güclənirdi. Bu sahədə milli burjuaziyanın tərəqqipərvər nümayəndələri, milli ziyalılar müstəsna rol oynayırdılar. Dünyanın müxtəlif təhsil ocaqlarında təhsillərini başa vurub öz vətəninə dönən gənclər milli-demokratik hərəkatın yaranmasında və inkişafında böyük rol oynayırdılar. Milli hərəkatda «milliyyət və hüriyyət», «məşrutə və müsavat» ideyaları geniş vüsət almışdı. Bu baxımdan M.Ə.Rəsulzadə, M.H.Hacınski, Ə.B.Topçubaşov, Q.Qarabəyov, A.Kazımzadə, Ə.B.Hüseynzadə, Ə.B.Ağayev, C.Məmmədquluzadə, M.Ə.Sabir, M.S.Ordubadi, Ə.Əzimzadə, H.Z.Tağıyev, M.Muxtarov, Ş.Əsədullayev və başqaları böyük xidmət göstərmişdilər.

Azərbaycan burjuaziyası öz fəaliyyətini Rusiyanın digər müsəlman xalqları, burjuaziyasının fəaliyyəti ilə birləşdirməyə, bəzən də bütün Rusiya imperiyasının müsəlmanları adından çıxış etməyə çalışırdı.

Azərbaycan və tatar burjuaziyasının təşəbbüsü ilə 1905-ci il avqustun 15-də Nijni-Novqorodda Ümumrusiya müsəlmanlar qurultayı keçirildi. Qurultayda Azərbaycan, Tatarıstan, Krım, Türküstan və digər müsəlman əyalətlərinin 150-yə qədər nümayəndəsi iştirak edirdi. Bu qurultayın təşkilatçıları Əlimərdan bəy Topçubaşov, krımlı İsmayıl Qaspıralı, Kazanlı Yusif Akçuroğlu idi. Bu qurultayda «İttifaqi müslimin» adlı Ümumrusiya müsəlman ittifaqının və ona rəhbərlik etmək üçün daimi yeri Bakı olan Mərkəzi Komitənin yaradılması qərara alındı.

1906-cı ilin yanvar (13-23) ayında Peterburqda keçirilən Ümumrusiya müsəlman ittifaqının II qurultayında onun nizamnaməsini, 1906-cı ilin avqustunda Nijni-Novqorodda yığılan III qurultayda isə proqramı qəbul edildi. Bu qurultayda İ.Qaspıralının türk millətçiliyi baxımından çox mühüm olan aşağıdakı təklifi alqışlarla qəbul edilmişdi:

«Ümumən türklərin əsli və nəsli birdir. Məkan və zaman inkişafı nəticəsində şivə və adətlərimizdə ixtilab yaranmışdır. Bu ixtilaf bir-birimizi başa düşməyəcək dərəcəyə çatmışdır. Bundan sonra məktəblərimizi vahid ədəbi dilimizə xidmət edəcək hala gətirmək lazımdır… Bu sahədə tədricən şivə və ləhcələr birləşmiş olar». İttifaqın Rusiya miqyasında mətbu orqanı «Tərcuman» qəzeti idi.

Lakin ittifaqçıların bu taktikasını qəbul etməyən bir inqilabçı gənclik doğulmuşdu. Çarizm durduqca milli inkişafa imkan olmayacağını irəli sürən bu gənclik milli inkişafa əlverişli bir zəmin hazırlamaq üçün çarizm rejimini devirmək lüzumuna inanırdı. Bu yeni cərəyan rus inqilabçıları ilə əməkdaşlıq taktikasına üstünlük verir və rus kadetləri ilə həmfikir olan ittifaqçıları tənqid edirdilər. Krımda inqilabi gəncliyi «Vətən xadimi» qəzeti təmsil edirdi. İnqilabçı gəncliyin Bakıdakı mətbu orqanı «Təkamül», Kazanda isə «Tan» qəzeti idi.

Azərbaycan burjuaziyasının, sənaye sahibkarları və tacirlərin orta təbəqəsini əhatə edən liberal dairələr, həmçinin burjua ziyalılarının bir hissəsi kadetlərin platformasında duran «Müsəlman konstitusiya partiyası» ətrafında birləşdilər.

Azərbaycan liberal burjuaziyası konstitusiyalı monarxiya çərçivəsində Qafqaza «ölkənin daxili işləri üzrə lazımi qanunverici funksiyalarla birlikdə» geniş özünüidarə hüququ verilməsi fikrini irəli sürdü. Bu təklif həm də Qafqazın «vahid siyasi cismin – Rusiya imperiyasının ayrılmaz bir hissəsi kimi» saxlanılmasını nəzərdə tuturdu.

1905-ci ilin sonu – 1906-cı ildə Azərbaycan liberal burjuaziyasının bəzi başçıları gürcü federalistlərinin ardınca Qafqazın federal quruluşuna tərəfdar olduqlarını bildirdilər. Belə ki, Qafqazın hər bir vilayətinə daxili özünüidarə hüququ verilməsi və ümumi məsələləri müzakirə etmək üçün Qafqazın səlahiyyətli idarəsinin – seyminin yaradılması nəzərdə tutulurdu.

Lakin qeyd olunmalıdır ki, bu siyasi muxtariyyət deyildi, bu, hər şeydən əvvəl, mədəni-maarif sazəsində daxili özünüidarə demək idi.

Milli-azadlıq hərəkatında demokratik meyl nümayəndələri, 1906-cı ilin aprelindən çıxmağa başlayan və təkcə Cənubi Qafqazda deyil, Orta Asiyada və Volqaboyunda, həmçinin Türkiyədə, İranda, Hindistanda və şərqin digər ölkələrində çox böyük şöhrət qazanan «Molla Nəsrəddin» jurnalı ətrafında qruplaşırdılar. Jurnal ətrafında birləşmiş C.Məmmədquluzadə, M.Ə.Sabir, M.S.Ordubadi, Ə.Qəmkusar, Ə.Əzimzadə və başqaları qabaqçıl Azərbaycan ziyalılarının inqilabi demokratik cinahını təşkil edirdilər. Onlar Azərbaycanın feodal geriliyinə, çarizmin milli-müstəmləkə zülmünə, ictimai ədalətsizliyə və mülkədar burjua istismarına qarşı çıxır, Azərbaycan xalqı üçün siyasi azadlıqlar və milli hüquq bərabərliyi tələb edirdilər.

Mütərəqqi Azərbaycan ziyalılarının daha mötədil cinahını Ə.Haqverdiyev, N.Vəzirov, H.B.Zərdabi, Ü.Hacıbəyov və başqaları təmsil edirdi ki, onların da bir hissəsi «Molla Nəsrəddin» jurnalının cərəyanına qoşulmuşdu. Bu qrup, hər şeydən əvvəl maarifçi, qismən də demokratik baxışları ilə xarakterizə olunurdu. Onlar əsasən orta əsr qalıqlarına, dini cəhalətə və fanatizmə, geriliyə və avamlığa qarşı çıxır, Azərbaycanda mövcud olan ictimai quruluşun nöqsanlarını tənqid edirdilər. Bu qrup da hüquq bərabərsizliyinə qarşı öz qəzəbini bildirirdi, lakin onlar inqilabi demokratik cinah nümayəndələri qədər qətiyyət və ardıcıllıq göstərmirdilər.

Mütərəqqi Azərbaycan ziyalıları özünün ictimai-siyasi və yaradıcılıq fəaliyyəti ilə xalq kütlələrinin siyasi və milli şüurunun yüksəlməsinə, onların öz azadlıqları uğrunda mübarizəsinə çox kömək edirdi.

Xalqın milli şüurunun daha da oyanmasında və milli-azadlıq hərəkatının qüvvətlənməsində 1906-cı ilin martında təşkil olunmuş «Nicat» adlı maarif cəmiyyəti böyük rol oynadı. Azərbaycan ziyalılarının xeyli hissəsi bu cəmiyyətlə bağlı idi. «Nicat» Azərbaycan əhalisini savadlandırmaq, ehtiyacı olan tələbələrə maddi yardım göstərmək, Azərbaycan dili və ədəbiyyatının inkişafına kömək etməyi öz qarşısına məqsəd qoymuşdu. Cəmiyyət Bakıda kitabxana-qiraətxana təşkil edir, xeyriyyə məqsədilə konsertlər, həmçinin ictimai-siyasi və elmi mövzularda mühazirələr və məruzələr keçirirdi.

Azərbaycanda milli-azadlıq hərəkatının mühüm tələbləri sırasına həm də milli dilin azad inkişafı və təhsilin ana dilində olması daxil idi. Bu tələbi xalq müəllimləri xüsusi fəallıqla müdafiə edirdilər. Onlar çar hökumətinə verdikləri ərz-halda ana dilində təhsil, azərbaycanlı uşaqlar üçün pulsuz ümumi icbari ibtidai təhsil, azərbaycanlı müəllimlərin hüququnun başqa millətlərdən olan müəllimlərin hüquqları ilə eyniləşdirilməsi, azərbaycanlı müəllimlər hazırlamaq üçün xüsusi müəllimlər seminariyalarının açılması və başqa tələblər irəli sürürdülər. Bu tələblər 1906-cı ilin avqustunda H.B.Zərdabi və N.Nərimanovun təşəbbüsü ilə keçirilmiş Azərbaycan müəllimlərinin I qurultayında bir daha irəli sürülmüşdü.

1910-1914-cü illərdə milli zülmün güclənməsi ilə əlaqədar olaraq milli məsələ daha kəskin xarakter almışdı. Azərbaycanın geniş xalq kütlələrinin milli şüuru sürətlə artırdı. Azərbaycan xalqının milli mədəniyyətinin inkişafı buna şərait yaradırdı.

1910-1911-ci illərdə Bakıda Azərbaycan dilində 6 qəzet nəşr olunurdu. Azərbaycan dilində ədəbiyyat buraxılması artırdı. Həmin illərdə 51 min nüsxə tirajı olan 25 kitab çap olunmuşdu.

Milli mədəni idarələrin meydana çıxması, Azərbaycan dilində qəzetlərin sayının artması, Dövlət dumasına seçkilər və

seçkilər ətrafında mübarizə – bütün bunlar Azərbaycan xalqının milli hisslərinin və siyasi fəallığının daha da güclənməsinə şərait yaradırdı.

**1905-1906-cı illər milli qırğın siyasəti**

Çar Rusiyasının Qafqazda arxalana biləcəkləri bir qüvvə var idisə, o da ermənilər idi. Bir zaman (XIX əsrdə) Rusiya Azərbaycandan müsəlmanları çıxardaraq orada erməniləri yerləşdirmək istəmişdi. Sonraral, bu planın puç olduğunu görərək, ermənilərdən Türkiyə əleyhinə istifadə etmək siyasətini yeritməyə başladı. «Daşnaksütyun» yaradılarkən (1890) yalnız Türkiyə Ermənistanını müstəqil görməyi nəzərdə tutmuşdu. 1904-cü ildə bu proqrama Qafqaz Ermənistanı da daxil edilmişdi. Halbuki Qafqazdakı ermənilərin vəziyyəti müstəqil bir dövlət yaratmaq üçün əlverişli deyildi. Cənubi Qafqazın 54 qəzasından yalnız 5 qəzasında ermənilər əksəriyyət təşkil edirdi. Hətta Qafqaz Ermənistanının mərkəzi sayılan İrəvanda belə əhalinin əksəriyyətini azərbaycan türkləri təşkil edirdi. «Daşnaksütyun» partiyası Rusiyanın təhriki ilə türk əhalisini qırmaq yolu ilə gələcək Ermənistan üçün əksəriyyəti erməni olan bir ərazi hazırlamaq fikrinə düşdü. Eyni zamanda çar hökuməti bu vasitə ilə cənubi Qafqazda kəskin vüsət alan milli-azadlıq və demokratik hərəkatın qarşısını da almağa çalışırdı.

1905-ci il inqilabından istifadə edən ermənilər silaha sarılaraq İrəvan, Naxçıvan, Ordubad, Qarabağ, Gəncə, Bakı və Şirvan kimi yerlərdə silahsız və dinc azərbaycanlı əhalini qırmağa başladı.

Qafqazın general-qubernatoru Vorontsov-Daşkov Rusiya imperatoruna göndərdiyi məruzədə ermənilərin bu işğalçı siyasəti etiraf edilir: «Daşnaksütyun» firqəsinin bu hərəkəti sırf ermənilərə məskun bir erməni ərazisi yaratmaq məqsədi güdür.

Bununla gələcək Ermənistanın muxtariyyəti üçün əlverişli bir zəmin hazırlamaq istəyir».

1905-ci ilin fevralın əvvəllərində Bakıdakı milli qırğın ərəfəsində daşnaklar hər yerdə müsəlmanların qaniçən, vəhşi olduğunu təbliğ edirdilər.

Bakı qubernatoru Nakaşidze Peterburqa gedib-qayıdandan sonra, öz məmurlarının köməyi və erməni burjuaziyası ilə birlikdə Bakıda milli qırğının başlanmasına rəvac verdi.

1905-ci ilin fevralın 2-də Bakıda Ağarza adlı azərbaycanlı erməni komitəsi tərəfindən öldürüldü. Ertəsi gün erməni əsgəri istintaqa apardığı müsəlman dustağını yolda öldürdü. Bu hadisələr millətlərarası toqquşmaya səbəb oldu. Həmin gün bir erməni və bir rus öldürüldü. Hər iki tərəfdən şiddətli döyüşlər başlandı. Döyüşün ikinci günü küçələrdən 50 erməni meyiti götürüldü. Qubernatorun ixtiyarında kifayət qədər əsgər və polis olsa da, baş verən qırğını dayandırmaq fikrində deyildi. Fevralın 6-dan 10-a kimi Bakıda davam edən toqquşmalar nəticəsində hər iki tərəfdən mindən çox adam öldürüldü. Bu hadisələrə planlı şəkildə əvvəldən hazırlaşan ermənilərin itkisi daha çox idi.

Belə bir vəziyyət may ayında Naxçıvanda və İrəvanda, avqustda Şuşada, sentyabrda Qazaxda, noyabrda Gəncə və Tiflisdə baş verdi. 1906-cı ilin ortalarına kimi gərginlik davam etdi. Milli münaqişə və toqquşmalar kəndləri də əhatə etdi. Bu illərdə təqribən 158 müsəlman kəndi qarət edilmiş və dağıdılmışdı. Milli qırğının qurbanlarının sayı 10 min nəfərə çatırdı. Bu hadisələrin səbəbkarı ermənilər olsa da, azərbaycanlılar onlara layiqli cavab verirdilər.

Bu hadisələr dünyaya erməni diasporunun və güclü təbliğatının köməyi ilə ermənilərə rəğbət ruhunda şərh edilmişdi.

Bir sıra ölkələrdə, Cənubi Qafqazda ermənilər günahsız qurbanlar kimi qələmə verilmişdi.

Ermənilərin bu hərəkəti millətimizdə öz nəfsini müdafiə şüurunu oyandırır və milli mövcudiyyatini qorumaq üçün siyasi bir təşkilat ətrafında birləşmək ehtiyacını təlqin edirdi.

Ermənilər nizamlı milli təşkilata malik olmaqdan əlavə siyasi səbəblərdən, eyni dinə mənsub olmaqdan, rus idarə mexanizmində çoxlu ermənin yerləşmiş olmasından istifadə edərək çar hökumətindən kömək alırdılar.

Azərbaycan türklərinin ermənilərlə çarpışa bilmələri üçün təşkilata ehtiyacları var idi. Əhməd bəy Ağayev (Ağaoğlu) 1906-ci ildə Bakıda «Difai» və ya «Fədai» adlı gizli bir cəmiyyət təşkil edə bildi. Firqənin adı milli mövcudiyyəti qorumaq – difa etməkdən irəli gəlirdi.

«Difai» təşkilatının buraxdığı bəyannamədə deyilirdi ki, «Firqəmizin başlıca məqsədi ayrı-ayrı Qafqaz xalqları arasında səmimi qardaşlıq və birlik yaratmaqdır. Əgər «Daşnak» firqəsi namus və səmimi olsa… o zaman biz öz birlik əlimizi həmişə onlara uzatmağa hazırıq. «Daşnak» firqəsi əmin olsun ki, biz heç bir vaxt öz millətimizin xarabazarlığı və külü üzərində erməni millətinin səadət və xoşgüzəranlıq qurmasına yol verməri k».

«Difai» təşkilatının Bakı, Gəncə, Qarabağ və Naxçıvan kimi mərkəzlərdə şöbələri və təşkilatları var idi. O dövrün ziyalı və millətçi nümayəndələri bu təşkilatın ətrafında birləşirdilər. Ancaq Rusiyada irticanın qüvvətlənməsi nəticəsində Ə.B.Ağayev 1908-ci ilin sonunda Türkiyəyə mühacirət etməyə məcbur olduqdan sonra başsız qalan «Difai» təşkilatı dağılmış və öz fəaliyyətini dayandırmışdı.

Amerika tarixçisi T.Svyatoxovski yazır ki, «daşnak döyüş dəstələrinin əli ilə vurulan zərbələr Azərbaycanda

müsəlman birliyinin yaranmasına və möhkəmlənməsinə səbəb oldu. Tarixdə ilk dəfə «tatar-erməni müharibəsi» nəticəsində müsəlmanların əməli olaraq həmrəyliyi meydana çıxmış oldu».

***« Musavat» partiyası»***

«Difai» təşkilatı dağıldıqdan sonra, 1911-ci ildə Bakıda yaranan «Müsavat» (Bərabərlik) partiyası ümumi «müsəlman qayğısına» qalmaq, onların milli və insani hüquqlarını müdafiə etmək kimi vəzifələrini özünün ilk proqram və nizamnaməsində əks etdirmişdi.

«Müsəlman demokratik Müsavat partiyası» 1911-ci ilin oktyabr ayında Abbasqulu Kazımzadə, Tağı Nağıyev və Məmmədəli Rəsulzadə tərəfindən ilk üçlük kimi siyasi-milli bir firqə kimi yaradılmışdır. «Müsavat»ın ilk proqramı və bəyannaməsi islami mahiyyətdədir. Burada «ümmət» ilə «millət», «türklük» ilə «müsəlmanlıq» fikirləri bir-birindən ayırd edilməmişdir. Partiyanın əsas məqsədi bütün müstəqil müsəlman dövlətlərinin istiqlallarını qorumaq və bütün məhkum müsəlman millətlərinin istiqlala qovuşmalarına kömək etmək idi. Rus imperializminə qarşı inqilabçı olmuş, onu devirmək istəmiş, bu məqsədlə inqilabçı, «bəşəri» siyasi firqələrlə və islam millətlərinin istiqlalına xidmət edən başqa müsəlman firqələri ilə ortaq fəaliyyətdə olmuşdur. İctimai fikir etibarilə bu partiya xalqçıdır, xalqa əsaslanmış və ondan güc almışdır. Fəhlə, kəndli və əməkçi ziyalı zümrəsi onun arxalandığı qüvvə idi.

O zamanlar Türkiyədə siyasi mühacir olan Məmməd Əmin Rəsulzadə yazdığı məktublar və göndərdiyi yeni türkçü nəşrlər vasitəsilə bu firqənin ideologiyasına çox mühüm və əsaslı təsir etmişdir. Onun «ümmətçilikdən» «millətçiliyə», «islamçılıqdan» «türkçülüyə» keçməsinə səbəb olmuşdu. M.Ə.Rəsulzadə 1913-cü ildə Bakıya qayıtdıqdan sonra «Müsavat» partiyasının ideya istiqamətini və qayəsini tamamilə

yeniləşdirdi. O, gənc türkçü Ə.B.Hüseynzadənin «Türkləşmək, islamlaşmaq və müasirləşmək» haqqındakı məşhur şüarını başlıca istiqamət kimi irəli sürdü. M.Ə.Rəsulzadə bir çox yazıları ilə bu firqənin türkçü və istiqlalçı ideologiyasını və inqilabçı taktikasını qəti şəkildə təsbit etmiş, bu ideologiyanı «Açıq söz» qəzeti vasitəsilə nəşr etməyə və yaymağa başlamışdı.

Azərbaycandan başqa, Qafqazın və müsəlmanlar yaşayan digər bölgələrin iri şəhərlərində «Müsavat» partiyasının şöbələri yaradıldı. Partiyanın Kiyev universitetində Y.V.Çəmənzəminliminin rəhbərliyi ilə yaradılmış şöbənin işində Ş.B.Rüstəmbəyov və başqaları da iştirak edirdilər.

Balkan müharibələri dövründə «Müsavat» partiyası verdiyi bəyanat ilə türk xalqlarını Türkiyəyə yardım göstərməyə çağırmışdı. Bu çağırış çar hökumətini narahat etdiyindən ona qarşı ciddi tədbirlər görməyə başladı. «Müsavat» 1913-cü ildən gizli fəaliyyətə keçməyə məcbur oldu. Müharibə illərində o, rəsmi olaraq fəaliyyət göstərən bir sıra mədəniyyət cəmiyyətlərindən, maarif və xeyriyyə təşkilatlarından milli kadrlar hazırlamaq üçün istifadə etmişdir. Belə ki, «Nicat» maarif cəmiyyəti, «Bakı cəmiyyəti xeyriyyəsi», «Nəşri maarif cəmiyyəti» «Müsavat» partiyasının nüfuzu altında olmuşdur.

***Azərbaycan vəkilləri* Dövlət *Dumalarında***

İnqilabi–demokratik hərəkatın yüksəldiyini görən çar hökuməti 1905-ci il dekabrın 11-də Dumaya seçkilər keçirilməsi haqqında fərman verdi. Bu qanuna görə çoxpilləli seçki sistemi müəyyən olunur və əhalinin yarıdan çoxu seçki hüququndan məhrum edilirdi.

I Duma 72 gün fəaliyyət göstərmişdi. I Duma aprelin 27-də açılmasına baxmayaraq, Azərbaycanda seçkilər mayın 31-də keçirilmişdi. Azərbaycandan I Dumanın tərkibinə İ.Ziyadxanov (hüquqşünas), Ə.M.Topçubaşov (hüquqşünas),

Ə.Muradxanov (müəllim), Məmmədtağı Əliyev (kənd təsərrüfatı akademiyasını bitirib), Ə.B.Haqverdiyev (yazıçı) seçilmişdilər. Rusiya müsəlmanlarından seçilən 46 deputat Dumada Müsəlman fraksiyası yaratdılar. Onun sədri Ə.M.Topçubaşov idi.

Birinci Dumanın təntənəli açılışından bir həftə sonra onun nümayəndələri çara ünvanlanmış tələblər irəli sürdülər. Bunlara liberalların vaxtı ilə irəli sürdükləri: ümumi seçkilər keçirmək, Dumanın qanunvericilik fəaliyyətinə qoyulmuş bütün məhdudiyyətləri ləğv etmək, vətəndaş azadlıqlarını qorumaq, ölüm cəzasını ləğv etmək, aqrar islahatı hazırlamaq, vergi sisteminə yenidən baxmaq, ümumi və pulsuz təhsilə keçmək, milli azlıqların tələblərini ödəmək, tam siyasi əfvetmə keçirmək və b. kimi tələblər daxil idi. Çara itaətkar hökumət bu tələbləri rədd etdi. Nəhayət, 1906-cı il iyulun 8-də I Duma buraxıldı. Buna etiraz olaraq Dumanın bir qrup deputatı iyulun 9 – 10-da Vıborq şəhərinə toplaşaraq bəyannamə qəbul etdilər. Bəyannaməyə imza atanlar arasında Ə.M.Topçubaşov və İ.Ziyadxanov da var idi. Çar II Nikolay bu deputatları cəzalandıraraq, onları deputatlıq hüququndan məhrum edib, 3 ay müddətinə həbsə aldırdı.

İ.Ziyadxanov I Dumada çıxış edərkən demişdi: «Bizi 100 il müddətində möhkəm yuxulamağa məcbur etmişlər. İndi ayılmaq vaxtı çatır. Və bizim susmağa haqqımız yoxdur. Biz bir əsr bundan əvvəl işğal edilmişik. Bizə heç bir hüquq və haqq verilməmişdir. Kölə halına salınmışıq. Milli varlığımıza təcavüz edilmişdir. Dövlət idarə evlərində türk məmurlarına rast gəlmək mümkün deyildir. Torpaq azlığından əziyyət çəkirik. Lakin buraya Rusiyadan kəndlilər köçürülür. Bilavasitə dövlətin əli ilə törədilən milli qırğın zəminində qana boyanmış bu torpaqlarda – Vətənimizdə cəsədlərin üstündən keçirik. Artıq səbrimiz tükənib».

Rus deputatlar bu çıxışı «rədd olun gedin Türkiyəyə» qışqırıqları ilə qarşılamışdılar.

1907-ci ilin fevralında ikinci Duma çağrıldı. Bu Duma birincidən də radikal idi. Onun tərkibinə 100 sosialist (37 eser, 66 sosial-demokrat), 100 nəfər kadet və 80 nəfər milli azlıqların nümayəndələri daxil idi. İkinci Dumaya Azərbaycandan F.Xoyski (hüquqşünas), M.A.Şaxtaxtinski (filosof, şərqşünas-müəllim), X.Xasməmmədov (hüquqşünas), İ.Tağıyev (kommersant, H.Z.Tağıyevin oğlu), M.Mahmudov (müəllim), Z.Zeynalov (mexanik) seçilmişdilər. Milli siyasət istisna olmaqla qalan məsələlərdə onlar kadetlər partiyasının mövqeyindən çıxış edirdilər. Z.Zeynalov Dumada trudoviklərin müsəlman qrupuna başçılıq edirdi.

II Duma cəmi 103 gün yaşadı, 1907-ci il iyunun 3-də çar II Dumanı da buraxdı və həmin il noyabrın 1-də növbəti Duma çağırmaq üçün fərman verdi. 3 iyun fərmanı Rusiya tarixinə dövlət çevrilişi kimi daxil oldu. Dumaya seçkilər qanunu son dərəcə mürtəcə və müstəmləkəçi səciyyə daşıyırdı. Bu qanun III Dövlət dumasında mülkədarların və iri monarxist burjuaziyanın şəksiz hakimiyyətinin təmin edilməsinə xidmət edirdi. Qafqaz, Mərkəzi Asiya və Sibir xalqları siyasi cəhətdən qeyri-yetkin xalqlar hesab edilərək seçki hüquqları məhdudlaşdırılırdı. Qanunda qeyd olunurdu ki, yerlərdə müsəlman əhalisindən ancaq bir nəfər seçilə bilər, digərləri başqa millətlərdən seçilməlidir. Qafqaz müsəlmanları III Dumada 10 deputat, türk xalqları isə 7 deputatla təmsil olunmuşdu. Cənubi Qafqaz müsəlmanlarından III Dumaya cəmisi bir nəfər Xəlil bəy Xasməmmədov seçilə bildi. Dumada tək olduğuna baxmayaraq Xəlil bəy öz üzərinə düşən vəzifələri çox böyük məsuliyyət və peşəkarlıqla yerinə yetirirdi.

Cənubi Qafqazdan III Dumaya digər nümayəndələr – erməni əhalisindən İ.Saqatelyan (daşnak), rus əhalisindən

həştərxanlı Timoşkin oldu. III Dumanın müsəlman fraksiyası ibtidai məktəbdə ana dilində dərs keçilməsi məsələsini dəfələrlə müzakirəyə versələr də, qəbul olunmamışdı.

«İrşad» yazırdı «III Duma xalqa heç bir şey vermədi və verməyəcək də. Əvvəlkilərdə heç olmasa fikir, ümid var idi. Ancaq indi o da yoxdur».

1912-ci ilin sentyabr-oktyabr aylarında Azərbaycanda IV Dövlət Dumasına deputat seçkiləri keçirildi. Bütün Cənubi Qafqaz müsəlmanlarından yeganə nümayəndə hüquqşünas Məmmədyusif Cəfərov seçildi. O, da öz sələflərinin şərəfli yolunu layiqli davam etdirirdi. IV Dumaya erməni əhalisindən Papacanov, rus əhalisindən Skobelov seçilmişdilər.

Müsəlman fraksiyası 7 nəfər deputatdan ibarət idi. M.Y.Cəfərov çar hökumətinin köçürmə siyasətinə qarşı çıxırdı. Onu Kutaisi, Batumi və Suxumi əyalətlərinin deputatı Çxenkeli də müdafiə edirdi. M.Y.Cəfərov duma tribunasından etdiyi çıxışında deyirdi ki, «Avropa Rusiyasında bir kvadrat kilometrə 22,2 sakin düşürsə, Cənubi Qafqazda 26,4 sakin düşür. Hökumət yerli əhalinin qanuni həyatı maraqlarını da nəzərə almalıdır». Başqa bir çıxışında M.Y.Cəfərov müsəlman fraksiyası adından çıxış edərək bildirmişdi ki, «Ölkənin hadisələr burulğanında yaşamasına baxmayaraq, hökumət müsəlmanlara münasibətdə ağıllı dövlət mənafeyi ilə heç bir əlaqəsi olmayan siyasət yeridir.

Cənubi Qafqazda müharibə alovları içində dinc müsəlman əhalisinin başına dəhşətli oyunlar gətirilir. Müsəlmanların öldürülməsi, soyğunçuluq, talançılıq adi hal olmuşdur».

## § 3. XX əsrin əvvəllərində Cənubi Azərbaycanda milli-azadlıq və demokratik hərəkat. Məşrutə inqilabı

XX əsrin əvvəllərində bir tərəfdən ölkənin iqtisadi vəziyyətinin ağırlaşması, şah sarayı və hökumətin milli mənafeyə zidd siyasəti, rüşvətxorluq və ədalətsizlik doğuran siyasi quruluşun çürüklüyü, digər tərəfdən İran cəmiyyətinin qabaqçıl dairələrinin milli şüurunun inkişafı İranda sosial ziddiyyətlərin daha da kəskinləşməsinə səbəb oldu.

XX əsrin əvəllərində İran iqtisadi və siyasi cəhətdən İngiltərə və Rusiyadan asılı yarımmüstəmləkəyə çevrilmişdi. Bununla əlaqədar ölkədə sosial tarazlığın pozulması, möhtəkirliyin baş alıb getməsi, maliyyə sisteminin böhranı İranda, o cümlədən Cənubi Azərbaycanda hakim dairələrdən narazı qüvvələrin sayını artırmışdı. İnqilab ərəfəsində Cənubi Azərbaycan ərazisindən 300 minə yaxın adam Rusiyaya qazanc dalınca – kəsbkarlığa getmişdi. Bu əlaqələrin nəticəsində demokratik ideyaların təsir etdiyi Cənubi Azərbaycanda burjua millətçiliyi ideyaları formalaşırdı. Milli şüur oyanmağa başlayırdı.

1897-ci ildə Təbrizin görkəmli ziyalılarından Seyid Hüsey xan Ədalətin redaktorluğu ilə «Əlhədid» adlı qəzet nəşr edilməyə başlandı. Onu bağladıqdan sonra 1898-ci ilin iyununda «Ehtiyac» adlı qəzet Ə.Səfərovun redaktəsi ilə çıxmağa başladı. Avqustdan bu qəzet «İqbal» adlanmağa başladı.

1900-cu ildə Təbrizin ziyalılarından ibarət «Azərbaycan maarif əncuməni» təşkil etdilər. 1903-cü il iyul ayında Təbrizdə belçikalı gömrükçülərə, ümumiyyətlə İranın dövlət idarələrində qulluğa götürülmüş xaricilərə qarşı etiraz gücləndi.

1905-ci ildə xalq içərisində həyəcanlar daha da artaraq az qala bütün İranı bürümüşdü. Təbrizdə və Həmədanda çıxışlar baş vermişdi.

1905-ci il dekabrın 12-də Tehranda bütün bazar bağlandı. Bunun ardınca tacir və sənətkarların, milli burjuaziyanın nümayəndələrinin, demokratik ruhlu ruhanilərin müqəddəs yerlərdə bəstə oturması (bağlı sözündəndir, şərq ölkələrində etiraz forması) ilə İranda inqilab başlandı. Tehranla yanaşı Təbrizdə, Ərdəbildə, Xoyda, Zəncanda və digər şəhərlərdə də bazar və dükanlar bağlandı, etiraz nümayişləri, çıxışlar başlandı.

1905-ci ildə Tehranda təşkil olunan «Əncuməne məxfi» xalqı mübarizə aparmağa çağırırdı. Onun rəhbərliyində Seyid Məhəmməd Təbatəbai olmaqla ruhanilər qrupu dururdu.

Təbrizdə demokratik hərəkatın təşkili və ona rəhbərlikdə 1904-cü ildə yaranmış Təbriz sosial-demokrat qrupunun mühüm rolu oldu (rəhbərləri – Əli Müsyö, Hacı Əli Davafruş, Rəsul Sədəqyanı). Onlar 1905-ci ildə Bakıda yaranmış «İctimaiyyun-e amiyun» (mücahid) təşkilatı ilə sıx əlaqədə idilər. N.Nərimanov bu partiyanın nümayəndələrindən Məşədi İsmayıl, Məşədi Məhəmmədəli xan və başqalarının Təbrizə getmələrinə kömək etdi. Onlar burada «İctimaiyyun-e amiyun» təşkilatını və onun mərkəzi heyətini «Mərkəze qeybi»ni yaratdılar.

İnqilab iştirakçılarının əsas tələbləri məşrutə (konstitusiya) qəbul edilməsi, məclis çağrılması, xarici məmurların tutduqları vəzifələrdən kənar edilməsi, onların ölkədən qovulması və s. ibarət idi.

1906-cı il avqustun 5-də şah konstitusiya haqqında fərman verdi, bunun ardınca məclisə seçkilər barəsində fərman elan olundu.

1906-cı il oktyabrın 7-də seçkilərdən sonra I məclisin yığıncağı açıldı. I məclis öz fəaliyyəti dövründə 1906-cı ilin axırları üçün Əsas qanun hazırladı. 1906-cı il dekabrın 30-da Mütəffərəddin şahın ölüm yatağında ikən imzaladığı Konstitusiyanın taxta çıxmış Məhəmmədəli şah tərəfindən tanınmaması xəbəri Təbrizdə inqilabi hərəkatın yeni vüsət almasına səbəb oldu. 1907-ci il fevralın 7-də Təbrizdə «Gizli mərkəzin» başçılığı ilə ilk silahlı üsyan baş verdi. Üsyançılar qalib gəldilər. Şəhərdə hakimiyyət əyalət şurasının əlinə keçdi.

Azərbaycan nümayəndələri İran Məclisində də geniş fəaliyyət göstərirdilər. Onların təqdim etdiyi tələblər Məclisdə müzakirə olunaraq şaha ultimatium kimi göndərilmişdi. Şah sarayı əvvəl bu tələbləri rədd etdi. Lakin inqilabi çıxışların güclənməsi şahı bu tələbləri qəbul etməyə məcbur etdi.

Cənubi Azərbaycan, onun mərkəzi Təbriz İran məşrutə inqilabında çox mühüm və həlledici mövqeyə malik idi. 1907-ci ilin yazından etibarən İran inqilabının ağırlıq mərkəzi Təbrizə keçməyə başlamışdı. Azərbaycan əyalət şurası bölgədə hakimiyyət orqanı kimi fəaliyyət göstərirdi. O, öz nümayəndələrini Cənubi Azərbaycanın vilayət və mahallarına göndərmişdi. Ərdəbildə, Marağada, Makuda onun nümayəndəlri çalışırdı.

Məhz demokratik qüvvələrin, o cümlədən təbrizlilərin təsiri ilə 1907-ci il oktyabrın 7-də Məhəmmədəli şah Konstitusiyaya əlavələri imzalamağa məcbur oldu. Lakin öz irticaçı məqsədlərindən əl çəkməyən şah 1908-ci ilin may-iyun aylarında yenidən inqilabi qüvvələrə qarşı hücuma keçdi. 1908-ci il iyunun 23-də şahın göstərişi ilə İrandakı kazak briqadasının komandiri, rus polkovniki Lyaxov Tehranda məclisin və Azərbaycan şurasının paytaxtdakı binalarını top atəşinə tutdu. Məclis dağıdıldı və inqilabçılara divan tutuldu.

Tehranda əksinqilab çevrilişi günü Təbrizdə irticaçılar şəhəri tutmaq üçün fəaliyyətə başladılar. Mərənd hakimi Şücanizamın və Qara Məliyin irticaçı dəstələri də onlara qoşuldular. İrticaçılar şəhərin şimal hissəsini ələ keçirməyə müvəffəq oldular. Təbrizi iki hissəyə bölən Meydan çayının sol sahilindəki Əmirəxz məhəlləsi Səttərxanın rəhbərlik etdiyi fədai dəstələri və Xiyabani məhəlləsi isə Bağırxanın fədai dəstələri tərəfindən müdafiə olunurdu. Uzun sürən mübarizə gedişində Təbrizin 12 məhəlləsindən 11-i zəbt olunmuşdu. İyunun 18-də Şah irticaçılara Böyük xan başda olmaqla Qaradağ dəstəsini göndərdi. İyunun 26-da onlar Məlayir polky və Böyük xanın atası Rəhim xanın süvari dəstəsi də köməyə gəldi.

1908-ci il iyulun 18-də Səttərxan böyük fədakarlıq göstərərək öz dəstəsi ilə hücuma keçib Təbrizin mərkəzi hissəsində asılmış, təslimçilik rəmzi olan, bütün ağ bayraqları qırmızı bayraqlar ilə əvəz etmişdi. Bu şücaət şəhərdə yeni döyüş əzminin qalxmasına səbəb oldu. Bu hadisə inqilabın gedişində dönüş nöqtəsi oldu. Bundan sonra üsyançıların sıraları artmağa başladı.

Təbriz üsyanının fəal iştirakçısı M.Vicuyeyi yazır ki, «Təbriz üsyanının başladığı 42 gün ərzində iyundan avqustun əvvəlinə qədər olan müddətdə irticaçı dəstələr 2 min nəfər, fədailər ilə 350 adam itirmişdilər. Lakin həlak olan fədailərin yerinə 3 minə qədər yeni könüllü üsyançılara qoşulmuşdular».

Təbrizdə üsyana rəhbərlik etmək üçün Səttərxan başda olmaqla «Hərbi şura» yaradıldı. Şuranın tərkibinə Bağırxan, Əli Müsye, Hacı Əli Dovafiruş daxil idilər. Mülki işləri idarə etmək üçün yeni əncümən seçildi – Seyid Məhəmməd, Tağı Təbatəbai, Mirzə Hüseyn Vaiz, Mir Ağa Rəşti, Şeyx Məhəmməd Xiyabani və başqaları. Təbriz şəhərinin qubernatoru vəzifəsi İclalülmülkə tapşırıldı.

1908-ci ilin sentyabrın 25-də Təbrizə yeni hücum başladı. Bu hücumda 40 minlik şah qoşununa 20 min fədai dəstəsi müqavimət göstərirdi. Oktyabrın 7-də fədailər əks hücuma keçdilər və 2 həftə ərzində onlar Acı çay körpüsünü, Mərənd, Xoy, Culfa yolunu və şəhərin bütün məhəllələrini azad etdilər. Beləliklə, 4 aylıq döyüşlərdər sonra Təbriz şah qoşunlarından və irticaçı qüvvələrdən təmizləndi.

Cənubi Azərbaycanın digər şəhər və rayonlarında da inqilabi əncumənlər və fədai dəstələri təşkil edilmişdi. Rəştdə, İsfahanda və Cilanda hakimiyyət inqilab əncumənlərinin əlinə keçdi. 1908-ci ilin noyabrında Marağa, Mərənd və Xoy şəhərləri irticaçılardan təmizləndi. Xoy şəhərinin inqilab komitəsinə Heydər Əmioğlu başçılıq edirdi. 1909-cu il iyulun 1-də Ərdəbildə salahlı üsyan baş verdi və qalib gəldi.

Ümumiyyətlə, 1908-ci ilin noyabr-dekabr və 1909-cu ilin yanvar aylarında, demək olar ki, Maku istisna olmaqla, Cənubi Azərbaycanın qərb vilayətlərində inqilabi-demokratik hərəkat qalib gəldi. Onların üzərində Təbriz əncumənlərinin təsiri və demokratik hakimiyyəti bərqərar oldu.

Cənubi Azərbaycanda demokratik və milli-azadlıq hərəkatın böyük vüsət almasında xarici ölkələrdən,xüsusən Qafqazdan, Mərkəzi Asiyadan olan həmvətənlilərin ardıcıl köməyi çox mühüm rol oynamışdı. Bu sahədə Bakıda və Tiflisdə yaradılmış xüsusi yardım komitələri, «İctimaiyyune-amiyyun» təşkilatları yüksək fəallıq göstərmişdilər.

Cənubi Azərbaycandakı inqilabi döyüşlərdə Qafqazdan yüzlərlə adam iştirak etmişdi. Təkcə Təbriz barrikadalarında Qafqazdan 800 nəfər döyüşmüşdü. Bakıdan məşhur xeyriyyəçi H.Z.Tağıyev, Teymurxanşuradan N.Mütəllibov inqilaba kömək üçün böyük miqdarda vəsait və silah göndərmişdilər. İstanbulda təşkil olunan «Əncumənе-səadətə iraniyan» (iranlıların səadət şurası), Londonda, Parisdə və Avropanın digər şəhərlərində

yaradılmış «Məşrutətəban» (məşrutə tələb edən) komitələri də Təbriz üsyançılarına pul və silah yardımı göstərmişdilər.

Bu illərdə Bakıda çıxan «İrşad», «Həyat», «Təzə həyat» və b. qəzetlər, «Molla Nəsrəddin» jurnalı Güney Azərbaycandakı demokratik hərəkata böyük mənəvi dayaq vermişdilər. Cənubi Azərbaycandakı demokratik və milli-azadlıq hərəkatından vahiməyə düşən əksinqilab, Şah rejimi ona qarşı mübarizəni bütün vasitələrlə gücləndirirdi. 1909-cu il yanvarın sonunda Təbriz şəhəri yenidən mühasirəyə alındı. İnqilabı boğmaqda şah rejiminə İranda marağı olan İngiltərə və Çar Rusiyası da bilavasitə kömək edirdilər. Onlar guya Təbrizdəki xarici təbəələri qorumaq bəhanəsilə 1909-cu il aprelin 25-də Cənubi Azərbaycana qoşun yetirdilər. Silahlı müqavimətə rast gəlməyən çar qoşunları hiylə nəticəsində Təbrizə daxil olaraq mücahidləri tərksilah etməyə başladılar. Səttərxanın və Bağırxanın güney azərbaycanlılar arasındakı nüfuzundan xoflanan şah rejimi onun Təbrizdə qalması ilə razılaşa bilmirdi. 1910-cu il martın 11-də Səttərxan və Bağırxan Tehrana dəvət olundular. Onlar aprelin 15-də 100 nəfər fədainin müşayiətilə Tehrana gəldilər. Böyük izdiham onları təntənə ilə qarşıladı. Az sonra Səttərxanın dəstəsinə və ona qoşulmuş fədailərə xaincəsinə basqın təşkil edildi. Avqustun 7-də fədailərin yerləşdiyi yer polis rəisi daşnak Yefremin başçılıq etdiyi silahlı qüvvələr tərəfindən atəşə tutuldu. Atışma zamanı fədailərdən 18 nəfər öldürüldü, 40 nəfər, o cümlədən Səttərxan yaralandı, 30 nəfərə yaxın fədai həbs olundu. Şah hökuməti Səttərxan və Bağırxanın Təbrizə qayıtmalarına icazə vermədi. Bir müddətdən sonra, 1914-cü ilin noyabrın 9-da Səttərxan atışmada aldığı yaradan həlak oldu.

Səttərxan və Bağırxan Tehrana çağırıldıqdan sonra da Təbrizə əksinqilabçı qüvvələrin hücumları səngimirdi. 1911-ci il dekabrın 20-də çar qoşunları Təbrizə hücum etdilər. Onlar dekabrın 28-də Təbrizi tamamilə öz əllərinə keçirdilər. Bununla

da Cənubi Azərbaycanda 1905-1911-ci illər demokratik və milli-azadlıq hərəkatı məğlubiyyətə uğradı. Hərəkatın başçılarına divan tutuldu. Yürlərlə inqilabçı, o cümlədən Səttərxanın qardaşı oğlanları edam edildilər.

Bu inqilab Azərbaycan tarixində silinməz iz qoymuşdur. O, tariximizə qəhrəmanlıq, cəsarətlilik səhifələri yazmış-dır. Bu inqilab Azərbaycan xalqının sonrakı nəsilləri üçün unudulmaz örnək olan inqilabı mübarizə ənənələri vermişdir.

# III

# Azərbaycan Birinci Dünya müharibəsi illərində

## § 1. Azərbaycan müharibə ərəfəsində

I Dünya müharibəsi ərəfəsində Rusiya sənayesində yüksəliş başladı. Bu Azərbaycanın da iqtisadiyyatına təsir göstərdi. Lakin Rusiya neftinin 83%-ni verən Azərbaycanın neft sənayesində belə, canlanma görünmürdü. Əksinə Bakıda neft istehsalı getdikcə azalırdı. 1913-cü ildə neft istehsalı 1901-ci ildəkindən 200 milyon pud az idi. 1914-cü ildə neft istehsalı 1913-cü ilə nisbətən 7,8% azalmışdı. Mövcud quyuların ancaq 48%-dən istifadə edilirdi. Bakıda olan 25 ağ neft zavodundan 1913-cü ildə 9-u işləyirdi. 1913-cü ildə çıxarılan neftin 95%-i köhnə üsulla (jalonka) çıxarılırdı.

Müharibə ərəfəsində neft sənayesi 3 xarici inhisarçı şirkətin – «Şell» («Şell petroleum kompani»), Nobel qardaşları və «Oyl»un («Raşen ceneral oyl korporeyşn») – əlində idi. Bu üç inhisarçı qrup 1914-cü ildə neft sənayesinin bütün aksioner kapitalının 86%-ni və ölkədə istehsal edilən neftin 60%-ni öz nəzarəti altında saxlayırdı. Bakıda olan 20 ən iri neft şirkəti sırasına M.Nağıyevin və Ş.Əsədullayevin müəssisələri də daxil idi. Müharibə ərəfəsində Azərbaycan neft sənayesində hakim mövqe tutmaq uğrunda xarici inhisarların mübarizəsi kəskinləşmişdi. Bu mübarizədə alman və ingilis inhisarları daha çox rəqabət aparırdılar. Bu dövrdə neft sənayesinə 112 milyon manatdan çox xarici kapital qoyulmuşdu. Onun 54 milyonu ingilislərə, 43 milyonu fransızlara və 10 milyonu almanlara məxsus idi. Almanlar bu dövrdə Bakı neftinə böyük maraq göstərirdilər. Onlar öz məqsədlərinə çatmaq üçün Türkiyədən istifadə etmək niyyətində idilər.

Azərbaycanda digər sənaye sahələri də inkişaf edirdi. Bakıda 20 iri mexaniki zavod, 200-ə qədər belə orta və kiçik zavodlar, emalatxanalar var idi. Bundan əlavə Bakıda 1911 ildə tikilmiş sement zavodu, Tağıyevin toxuculuq fabriki, 2 iri elektrik stansiyası, 2 tütün fabriki, 4 gəmi təmiri tərsanəsi, 1 spirt təmizləyən zavod, 1 pivə zavodu, 9 dənüyüdən və düyü təmizləyən müəssisə, 30-a qədər mətbəə və s. fəaliyyət göstərirdi.

Gədəbəydə mis istehsalı yenə də Simens qardaşları şirkətinin əlində idi. Gəncə qəzasında az miqdarda gümüş-qurğuşun filizi çıxarılırdı.

1910-14-cü illərdə ipəkçilik sənayesi də genişlənmişdi. 1914-cü ildə 127 ipəkçilik müəssisəsi fəaliyyət göstərirdi. Pambıqçılığın inkişafı ilə əlaqədar olaraq, Azərbaycanda pambıqtəmizləyən müəsisələrin sayı 50-yə çatmışdı.

Azərbaycanda şərabçılıq, tütünçülük və balıqçılıq sənaye sahələri də inkişaf etmişdi. Şəhər təsərrüfatının ticarət və nəqliyyatının inkişafında da irəliləyiş var idi. Şəhərlər böyümüş, onların əhalisi artmışdı.

Beləliklə, I Dünya müharibəsi ərəfəsində, neft sənayesi istisna olmaqla, Azərbaycanda sənaye inkişafında böyük irəliləyişlər hiss olunurdu.

Ölkədəki iqtisadi yüksəliş kənd təsərrüfatı məhsulları istehsalına tələbatı artırmışdı. Azərbaycanın Rusiya imperiyasının xammal bazasına çevrilməsini bu dövrdə pambıqçılığın inkişafına diqqətin artırılmasında öz bariz nümunəsini görürük. Belə ki, 1914-cü ildə Azərbaycanda ümumi əkin sahəsinin 12%-ni pambıq əkini təşkil edirdi. 1913-14-cü illərdə Rusiyada olan pambıq əkin sahəsinin 60%, istehsal olunan pambıq məhsulunun 3/5 hissəsi Azərbaycanın payına düşürdü.

Bu dövrdə Azərbaycanda kənd təsərrüfatının taxılçılıq, tütünçülük, ipəkçilik, üzümçülük, bağçılıq, maldarlıq və başqa

sahələri də inkişaf etdirilirdi. Lakin Azərbaycanın kənd təsərrüfatı ümumiyyətlə geridə qalırdı. Bu da ən çox kənddə feodal münasibətlərinin hələ güclü olması, suvarmanın zəif inkişaf etdirilməsi, torpağı becərmək üsulunun çox geri qalması, kənd təsərrüfatı avadanlığının hələ çox primitiv olması ilə əlaqədar idi.

Müharibə ərəfəsində Azərbaycanda aqrar məsələ olduqca kəskin idi. Burada tez-tez torpaq ixtilafları baş verirdi.

1912-ci il dekabrın 20-də Dövlət Duması Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi sürətdə satın alınması barədə qanun verdi. Bu qanuna əsasən bütün torpaqlar, həmçinin kəndlilərin istifadəsində olan torpaqlar kəndlilərin hesabına satışn alınmalı idi. Mülkədarlar torpaq üçün əvəz haqqını dövlət xəzinəsindən alır, dövlət xəzinəsi isə torpaq pulunu müəyyən müddət (20 ildən 50-ilə qədər) ərzində kəndlilərdən toplayırdı. Yeni qanuna görə kəndlilərin bəylərə verdikləri vergilər 1913-cü il yanvarın 1-dən ləğv olunurdu. Lakin bu qanun Zaqatala dairəsinə aid edilmədi. Dağıstanda və Zaqatala dairəsində asılı münasibətlərin ləğv olunması haqqında qanun 1913-cü il iyunun 7-də verildi.

1912-1913-cü illərin aqrar islahatı Azərbaycan kəndində sosial təbəqələşməni, varlı kəndlilərin artmasını sürətləndirdi, kənddə torpaqsızlar ordusu yaratdı.

I Dünya müharibəsi ərəfəsində iqtisadi yüksəliş, milli ucqarların dünya kapitalizm inkişafına cəlb olunması, buralarda da kapitalist münasibətlərinin sürətlə inkişafı, milli burjuaziyanın yaranması, çarizmin müstəmləkə siyasətinin getdikcə güclənməsi, millətçiliyin güclənməsi milli ucqarlarda, o cümlədən Azərbaycanda milli yaddaşın, milli hərəkatların artmasına güclü zəmin verdi. Azərbaycanda da milli mədəni-maarif cəmiyyətləri, milli-siyasi təşkilat və partiyalar yaradılırdı. Bu dövrdə ya-

radılmış «Nəşr maarif», «Nicat», «Səfa» və başqa mədəni-maarif cəmiyyətləri fəaliyyət göstərirdi.

Milli yaddaşın güclənməsində «Molla Nəsrəddin», «İşıq», «Məktəb», «Yeni Füyuzat», «Dirilik», «Şəlalə», «Məzəli» və başqa jurlalların, «Açıq söz», «Nicat», «İqbal», «Bakı həyatı», «Şərqi rus», «Qurtuluş» və başqa qəzetlərin çox böyük rolu olmuşdu.

Bu dövrdə də getdikcə güclənən milli-azadlıq hərəkatı fəhlə sinfinin istismara qarşı azadlıq mübarizəsi ilə çulğalaşırdı. Bakı fəhlələrinin 1913-14-cü illərdə olmuş tətillləri azadlıq mübarizəsinin mühüm mərhələləri idi.

## § 2. Şimali Azərbaycan müharibə illərində

1914-cü il avqustun 1-də ümumən 1,5 milyard nəfər əhalisi olan (bu planet əhalisinin 87%-i demək idi) 38 ölkənin iştirak etdiyi Birinci dünya müharibəsi başlandı. Müharibə dövründə 73,5 milyon nəfər adam hərbi səfərbərliyə alınmışdı. Öz səbəb və xarakterinə görə bu müharibə Avropa qitəsində hökmranlıq, bölünmüş dünyanı yenidən bölüşdürmək, müstəmləkələri, nüfuz və kapital qoyuluşu dairələrini yenidən paylaşdırmaq, ucuz xammal bazarları və öz mallarını satmaq üçün bazarlar əldə etmək uğrunda iki dövlətlər qrupu – Üçlər ittifaqı (Almaniya, Avstriya-Macarıstan, İtaliya) və Antanta (İngiltərə, Fransa, Rusiya) arasında hərbi münaqişə idi. 1915-ci il aprelin 26-da İtaliya Üçlər ittifaqından çıxdı, bir aydan sonra isə o, Antanta tərəfdən müharibəyə başladı. İtaliyanın Antanta tərəfinə keçməsi, Bolqarıstanın və Osmanlı imperiyasının Almaniya və Avstriya-Macarıstanla ittifaqa girməsi ilə Üçlər ittifaqının mövcudluğu sona çatdı. O, Dördlər ittifaqına çevrildi.

Müharibə dövründə Avropadakı Qərb və Cənubi-qərb cəbhələri ilə yanaşı bir neçə ikinci dərəcəli cəbhələr də vardı. Qafqaz cəbhəsi də belələrindən idi.

Alman imperialsitləri Türkiyənin fəal iştirakı ilə Qafqazı və İranı tutmaq və beləliklə də, Hindistana və Əfqanıstana yol açmaqla Rusiya və İngiltərənin mənafeyinə zərbə vurmaq fikrində idi. Türkiyənin özünün də Qafqaza dair öz planları var idi. Almaniya Qafqazı Türkiyəyə güzəştə gedəcəyini yalandan vəd vermişdi. Qara dənizdəki rus limanlarının atəşə tutulmasından snra, oktyabrın 20-də Rusiya Türkiyəyə müharibə elan etdi. Qafqazda quruda və dənizdə hərbi əməliyyatlar başlandı.

Azərbaycan hərbi əməliyyatlar meydanından kənarda olsa da, I Dünya müharibəsində dolayı yolla iştirak edirdi. Neft Azərbaycanı I Dünya müharibəsinin diqqəti cəlb edən regionlarından birinə çevirdi.

Qafqaz cəbhəsində hərbi əməliyyat 1914-cü il dekabrın 4-dən 1915-ci ilin yanvarın 14-ə kimi davam etdi. Türklərin 90 min canlı qüvvəsinə malik III ordusu rusların 170 minlik canlı qüvvəyə və 350 topa malik olan ordusuna qarşı rəşadətlə döyüşürdü. Lakin canlı qüvvəsinin və hərbi texnikasının çoxluğu ruslara qələbə qazandırdı. Təbrizi tutan rus ordusu türkləri Cənubi Azərbaycandan sıxışdırıb çıxartdılar. Müharibənin sonuna qədər Qafqaz cəbhəsində elə bir ciddi dəyişiklik baş vermədi.

Şimali Azərbaycanın hakim burjua feodal qüvvələri müharibədə ruslara meyl göstərirdilər. Onlar müharibə fonduna yüz minlərlə manat pul verirdilər. Azərbaycan burjuaziyası müharibənin qalibiyyətlə başa çatdıqdan sonra çar hökumətinin «mərhəmətinə», «böyük islahat» keçiriləcəyinə ümid bəsləyirdilər. Rusiya imperiyasında yaşayan müsəlmanları orduya çağırmırdılar. Bu çarizmin müstəmləkəçilik siyasəti ilə bağlı idi. Belə ki, çar hökuməti müsəlmanlara qəsdən silah işlətmək və dö-

yüşmək qabiliyyətindən məhrum edirdilər. Həm də onlar, müsəlman türklərin Osmanlı ordusuna qarşı silah işlətməyəcəyindən ehtiyat edirdilər.

Azərbaycandan rus ordusuna xidmətə yalnız ali müsəlman silkinə məxsus olanlar qəbul edilirdilər.

Birinci Dünya müharibəsi illərində rus ordusu sıralarında 200 nəfərdən çox azərbaycanlı zabit qulluq edirdi. Onların əksəriyyəti döyüşlərdə göstərdiyi igidliyə görə müxtəlif orden və medallarla təltif edilmişdi. Nijeqorod draqun alayının rotmis-tri T.Novruzov göstərdiyi igidliyə görə «Müqəddəs Georgi» ordeninin dörd dərəcəsi üzrə təltif olunmuşdu. 1916-cı ilin sentyabrında Vilnüsdə döyüşən ilk azərbaycanlı təyyarəçi Fərrux ağa Qayıbov da göstərdiyi igidliyə görə «Müqəddəs Georgi» ordeni ilə təltif edilmişdi.

Rus-yapon müharibəsi zamanı məşhurlaşmış Azərbaycanın görkəmli generalları - Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Hüseynxan Naxçıvanski, İbrahim ağa Vəkilov və başqaları da I Dünya müharibəsində böyük sərkərdələr səviyyəsinə yüksəlmişdilər.

Səməd bəy Mehmandarov müharibə başlananda 21-ci piyada diviziyasının komandiri idi. 1914-cü ildə o, Lodz əməliyyatında xüsusilə fərqlənmişdi. Məşhurlaşmış generalı II Qafqaz ordusuna korpus komandanı təyin etdilər. Sonra isə o, ordu komandanı kimi fəaliyyət göstərməyə başladı.

Ə.Şıxlinski müharibənin əvvəlində ölkənin paytaxtını müdafiə edən artilleriya korpusuna komandanlıq edirdi. Müharibənin gedişində onu Qərb cəbhəsində artilleriya qoşunlarının rəisi, 1917-ci ilin sentyabrında isə X ordunun komandanı təyin edilmişdi.

General-leytenant H.Naxçıvanski I Dünya müharibəsi ərəfəsində I əlahiddə süvari briqadasının komandiri idi. Müharibə başlayanda onu Cənubi-Qərb cəbhəsində II süvari

diviziyasının komandiri və bir qədər sonra isə Cənubi Qafqaz cəbhəsinin komandanı təyin edilmişdi.

General İ.Vəkilov ordu qərərgahında qulluq edirdi. Onun oğlu polkovnik Qalib Vəkilov isə mühəndis alayında döyüşürdü.

I Dünya müharibəsi zamanı çar ordusunda azərbaycanlılardan ibarət kiçik bir süvari dəstəsi təşkil edilmişdi. Əsasən şuşalılardan təşkil edilmiş və «Qafqaz yerli süvari diviziyasının» tərkibinə daxil olan, «tatar-süvari alayı» adlanan bu dəstə «vəhşi diviziya» adlandırılırdı. Bu müsəlman süvari alayının bir çox döyüşçüləri «Müqəddəs Georgi» ordeninə layiq görülmüşdülər.

Qeyd olunmalıdır ki, çar hökuməti müsəlmanları orduya çağırmadığından Bakı və Yelizavetpol quberniyaları üzrə orduya cəmi 50600 adam səfərbərliyə alınmışdı. 1915-ci il iyunun 15-də çar hökumətinin verdiyi fərmana görə «özgə xalqlardan olan» 18-23 yaşlı gənclər müharibə ilə əlaqədar olan işlərə səfərbərliyə alınırdılar.

I Dünya müharibəsi Rusiyanın onsuz da geridə qalmış xalq təsərrüfatını bərbad hala saldı.

Müharibə illərində Azərbaycanın iqtisadiyyatının əsasını təşkil edən neft sənayesi çox böyük çətinliklərə düçar olmuşdu. Sənayenin, nəqliyyatının və hərbi idarələrin tələbini ödəmək üçün neft çatışmırdı. Müharibə uzandıqca bu böhran daha da dərinləşirdi. Müharibə dövründə neft quyularının qazıma işi ixtisar edilirdi. 1914-cü ildə Bakıda 51 min sajen quyu qazılmışdısa, 1917-ci ildə bu rəqəm 24 min sajenə enmişdi. Neft hasilatı da azalmışdı. Müharibənin əvvəlində 431 milyon pud neft çıxarılmışdısa, 1917-ci ildə neft hasilatı 402 milyon puda enmişdi. Lakin bütün bunlara baxmayaraq Rusiyada hasil edilən neftin 80 faizindən çoxunu Azərbaycan verirdi. Neft emalı neft istehsalından geri qalırdı. Qazıma işlərinin azalmasının səbəbi

metalın və avadanlığın çatışmamazlığı və bahalığı ilə əlaqədar idi. Müharibə illərində səfərbərliyə alınmışların 13 min nəfəri neft sənayesində çalışan fəhlələr idi.

Ümumi təsərrüfat dağınıqlığı Azərbaycanın ipəksarıma, dağ-mədən və başqa sənaye sahələrinə də ağır təsir bağışladı. Müharibə illərində Azərbaycanın kənd təsərrüfatı da böhran keçirirdi. Mühüm texniki bitkilərin, o cümlədən pambığın əkin sahəsi xeyli ixtisar edilmişdi. Taxıl əkini 1916-cı ildə 60% azalmışdı. Maldarlıq təsərrüfatı da ağır vəziyyətdə idi.

Müharibə nəticəsində ən zəruri əşyaların qiyməti artmağa başladığı halda, fəhlələrin real əmək haqqı azalırdı. Neftçi fəhlələrin orta aylıq maaşı 1913-cü ilə görə 1916-cı ildə 70% artmışdısa, ən zəruri malların qiyməti 4-5 dəfə artmışdı. 1916-cı ildə çörəyin qiymti 300%, süd 305%, mal əti 327%, düyü 355%, yumurta 392%, ərinmiş yağ 520% bahalaşmışdı.

İri qoşun hissələrinin yerləşdiyi Bakıda ərzaq böhranı daha kəskin şəkil almışdı. Qaçqınların və əsgərlərin hesabına Bakıda əhalinin sayı 70 min nəfərə qədər artmışdı. Bakının əhalisi 1913-cü ildə 338513 nəfər olduğu halda, 1915-ci ildə 406888 nəfərə çatmışdı. Ərzaq böhranı şəraitində buraya əhali axını vəziyyəti daha da ağırlaşdırırdı.

Müharibə kəndlilərin vəziyyətini son dərəcə ağırlaşdırdı. Torpaq vergisinin miqdarı 50 faiz artırıldı.

Amansız milli müstəmləkə zülmü, mülkədarlar və çar məmurlarının zorakılığı, özbaşınalığı, müharibənin gətirdiyi səfalətlər – bütün bunlar Azərbaycanın kəndli kütlələrini tamamilə müflis edir və onları dilənçi kökünə salırdı. 1916-cı ildə Bakı və Yelizavetpol quberniyaları üzrə torpaqsız kəndlilərin miqdarı 50 min nəfərdən çox idi.

1916-cı ilin əvvəllərindən etibarən Azərbaycanda proletariat və bütün zəhmətkeşlərin çarizmə qarşı mübarizəsi daha kütləvi və fəal xarakter aldı. Ərzaq böhranı və bahalıqdan

ümidsizliyə qapılmış əhali fevral ayından kortəbii çıxışlar edirdilər. Mağazalara basqınlar olurdu.

1916-cı ilin yazından etibarən Bakı proletariatının sənaye fəhlələrinin tətil mübarizəsi getdikcə daha mütəşəkkil xaarkter alırdı. Sentyabr-oktyabr aylarında tətillərdə təkcə iqtisadi tələblər deyil, eyni zamanda siyasi tələblər də irəli sürülürdü. Tətilçilərin sayı getdikcə artırdı. Əgər 1916-cı ilin iyul-sentyabr aylarında tətillərdə 2292 fəhlə iştirak etmişdisə, oktyabr-dekabr aylarında tətillərdə 8595 fəhlə iştirak etmişdi. Ümumiyyətlə, 1916-cı ildə tətilçilərin sayı 16 mindən çox idi.

Müharibə illərində mülkədarlar və bəylər tərəfindən kəndlilərin pay torpaqlarının tutulması halları çoxalmışdı. Qəzalarda narazılıq artmaqda idi. Kəndlilər çara və Qafqaz canişininə şikayət məktubları göndərirdilər. Bu kömək etmədikdə, onlar kortəbii çıxışlarla öz etirazlarını bildirirdilər. Əhalinin vəziyyəti getdikcə daha da ağırlaşırdı. Bu da onlarda inqilabi əhval-ruhiyyənin artmasına – inqilabi şəraitin obyektiv əlamətlərinin yetişməsinə gətirib çıxarırdı. Artıq Rusiya imperiyasının əhalisi köhnə üsul-idarə ilə yaşamaq istəmirdilər.

## § 3. Rusiyada fevral inqilabı, oktyabr çevrilişi və Azərbaycanda siyasi vəziyyət

Birinci Dünya müharibəsi dövründə yaranmış milli inqilabi böhran Rusiyada siyasi hakimiyyətin devrilməsinə gətirib çıxardı. 1917-ci il fevralın 28-də Rusiyada baş vermiş inqilab nəticəsində Romanovlar sülaləsinin hökmranlığına son qoyuldu. Martın 2-də axırıncı rus imperatoru II Nikolay taxt-tacdan əl çəkdi. Elə həmin gün Petroqrad fəhlə və əsgər deputatları Sovetinin bilavasitə dəstəyi ilə müvəqqəti hökumət təşkil olundu.

Bu xəbər tezliklə Cənubi Qafqaza, o cümlədən Azərbaycana da çatdı. Martın 3-də Cənubi Qafqazda da yeni mülki hakimiyyət orqanı Xüsusi Zaqafqaziya Komitəsi yaradıldı. Martın 5-də isə Bakıda yeni hakimiyyəti müdafiə edən İctimai Təşkilatlar Şurası və onun Müvəqqəti İcraiyyə Komitəsi təşkil olundu. Martın 7-nə keçən gecə yeni təşkil olunmuş hökümətə alternativ olan Bakı rayonu fəhlə deputatları soveti formalaşdı. Martın 8-də isə onun sədrliyinə qiyabi olaraq S.Şaumyan (Şaumov) seçildi. Həmin gün Bakıda əsgər deputatları soveti də yaradıldı. Bu təşkilatlarda azərbaycanlılardan demək olar ki, nümayəndələr yox idi.

Bu dövrün səciyyəvi cəhətlərindən biri onda idi ki, yaranmaş yerli hakimiyyət orqanlarının hamısı bütün «demokratiyanın birliyi» şüarı ilə çıxış edirdilər. Hələ onlar arasında kəskin qütbləşmə başlamamışdı. Partiyalararası münasibətlərdə də belə vəziyyət var idi. Lakin 1917-ci ilin yayından etibarən onlar arasında kəskin parçalanma prosesi başladı.

Fevral inqilabı müsəlmanların, o cümlədən azərbaycanlıların fəallığını artırıdı.

1917-ci il martın sonlarında «Müsavatçı» M.H.Hacınskinin sədr seçildiyi Bakı Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi yaradıldı. Onun əsas məqsədi yerli özünüidarə orqanlarında və gələcək Müəssisələr Məclisində müsəlmanların mütənasib şəkildə təmsil olunmasına nail olmaq idi. Lakin müsəlmanların savadsız siyəsətdən kənar olduqlarını bəhanə gətirən digər siyasi qüvvələr, xüsusən bolşeviklər buna mane olmağa çalışırdılar.

Buna baxmayaraq, Azərbaycanda milli-demokratik hərəkatın əsas lideri olan «Müsavat» partiyasının müsəlman əhalisi arasında, xüsusən azərbaycanlılar arasında nüfuzu getdikcə artırdı. Fevral inqilabından sonra leqal fəaliyyətə

başlayan «Müsavat» partiyası getdikcə Azərbaycan əhalisinin müxtəlif təbəqələrini öz arxasınca aparan siyasi partiyaya çevrilirdi. Onun siyasi platformasının əsas istiqamətlərini Federativ Demokratik Rusiya tərkibində Azərbaycana milli-ərazi muxtariyyatı verilməsi ideyası təşkil edirdi. Bu ideyanı partiyanın lideri M.Ə.Rəsulzadə Qafqaz müsəlmanlarının 1917-ci il aprelin 15-20-də və Ümumrusiya müsəlmanlarının həmin il mayın 1-11-də Moskvada keçirilmiş qurultaylarındakı məruzələrində qəti şəkildə əsaslandırmışdı. Hətta bu ideya Ümumrusiya müsəlmanlar qurultayı nümayəndəlrinin əksəriyyəti tərəfindən bəyənilmişdi.

1917-ci ilin iyununda «Müsavat»ın həmin ilin martında Gəncədə yaradılmış «Türk ədəmi mərkəziyyəti» (Türk federalistlər) partiyası ilə birləşməsi, onu Azərbaycan xalqının milli-azadlıq hərəkatı ideyalarının daşıyıcısı olan yüksək nüfuzlu siyasi qüvvəyə çevirmişdi. 1917-ci il oktyabrın 22-də Bakı Sovetinə keçirilən seçkilərdə sosialist partiyalarının, xüsusən bolşeviklərin min cür maneələrinə baxmayaraq o, digər partiyalardan çox səs toplamışdı. Bolşevikəlrə nisbətən təqribən 2,5, daşnaklardan 18 dəfə çox səs toplamışdı.

«Müsavat» nümayəndələri hakimiyyət orqanlarında məsul vəzifələr tutmuşdular. Məsələn, Bakı quberniyasında M.Rəfiyev və F.X.Xoyski, Bakı qəzasında Y.Əliyev, Quba qəzasında Səfərəlibəyov, Şamaxı qəzasında M.Mahmudov məsul vəzifələrə təyin olmuşdular. X.Xasməmmədov Gəncə quberniya İcraiyyə Komitəsinin sədri seçilmişdi.

Bütün bunlar Azərbaycan xalqının milli manafeyinə yabançı olan və əsgər deputatları sovetlərində, xüsusən Bakı Sovetində cəmləşmiş digər siyasi qüvvələr, partiyalar tərəfindən çox qısqanclıqla qarşılanırdı. Eser, menşevik, daşnak blokunun başçılıq etdiyi Bakı Soveti «vahid» və «bölünməz» Rusiya ideyasını dəstəkləyirdi.

1917-ci il oktyabrın 25-də Petroqradda bolşeviklərin silahlı üsyanı baş verdi. Silahlı üsyanın qələbəsi nəticəsində Müvəqqəti hökumət devrildi, hakimiyyətə bolşeviklər gəldilər. Rusiyada V.İ.Lenin (Ulyanov) başda olmaqla sovet rejimi bərqərar oldu.

Cənubi Qafqazda Bakı Sovetində liderliyi ələ keçirmiş bolşeviklərdən fərqli olaraq digər qüvvələr – gürcü menşevikləri, «Müsavat», «Daşnaksütyun» və sağ eserlər Rusiyada yaranmış bolşevik XKS-ni tanımaqdan imtina edərək «Müstəqil Zaqafqaziya hökuməti» Zaqafqaziya komissarlığı yaratdılar. Onun tərkibinə Gürcüstandan Y.Gegeçkori (sədr) və A.Çxenkeli, Azərbaycandan F.X.Xoyski, M.Y.Cəfərov, X.Məlikaslanov, ermənilərdən T.Ter-Qazdeyan, X.Karçikyan, A.Ağacanyan, sağ eserlərdən D.Donskoy daxil idi.

Bundan başqa vətənpərvər qüvvələrdən milli şuralar yaradılırdı. O cümlədən, Bakıda, Gəncədə, müsəlman milli şuraları yaradılmışdı. Digər milli şuraların nəzdində olduğu kimi, müsəlman şurası da tərkibində «tatar süvari alayı» daxil olduğu milli hərbi hissə yaratmışdı.

Zaqafqaziya komissarlığı Cənubi Qafqazı Rusiyadan ayırmaq siyasəti yürüdürdü. Bunun qarşısını almaq, diyarı, bolşevik Rusiyasının təsirində saxlamaq məqsədilə V.Lenin 1917-ci il dekabrın 18-də S.Şaumyanı Qafqaz işləri üzrə fövqəladə komissar təyin etdi. Lakin Zaqafqaziya hökuməti onu qəbul etmədi. Onun Tiflisdən çıxmasını tələb etdi.

Rusiyada bolşeviklərin 1917-ci il oktyabrın 25-də təşkil etdikləri çevrilişdən sonra Bakıda da vəziyyət dəyişdi. Sovetlərdə əksəriyyət təşkil edən menşeviklər, eserlər bloku Bakı fəhlə və əsgər deputatları sovetinin oktyabrın 27-dəki fövqəladə yığıncağında bolşeviklərin iradəsinə zidd olaraq Bakıda ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsinin (İTK) yaradılmasına nail oldular.

Bu qərardan narazı olan bolşeviklər oktyabrın 31-də mədən-zavod komitələrinin dəstəyinə arxalanaraq Bakı Sovetinin geniş iclasını keçirdilər. Həmin iclasda Hərbi inqilab komitəsinin ləğv olunması barədə qətnamə qəbul edildi. Hakimiyyəti ələ almaq məqsədilə bolşeviklər iclasda qəti olaraq o zaman rəsmi hakimiyyət sayılan İctimai Təşkilatların İcraiyyə Komitəsinin buraxılması məsələsini irəli sürdülər. İki gün ondan sonra – 1917-ci il noyabrın 2-də bolşeviklər yenidən bütün hakimiyyətin Sovetlərə verilməsi məsələsini qoydular. Sovetin geniş iclasında yeni İcraiyyə Komitəsi yaratmaq məqsədilə əvvəlki İcraiyyə Komitəsinin tərkibindən çıxdıqlarını elan etdilər.

Bu dövrdə Rusiya Sovet hökumətinin elan etdiyi «Rusiya xalqlarının hüquq Bəyannaməsi»ndə xalqların öz müqəddəratını təyin etmək hüquqlarının həyata keçirilməsi barədə verdiyi vəd müsavatçıların bu məsələlərdə bolşeviklərə tərəfdar çıxmasına səbəb olmuşdu. «Müsavat»ın da dəstəyini alan bolşeviklər noyabrın 2-si tarixli iclasda Bakı Sovetini şəhərin ali hakimiyyət orqanı elan edən qərar qəbul etmələrinə şərait yaratdı. S.Şaumyan başda olmaqla Bakı Soveti İcraiyyə Komitəsinin yeni tərkibi seçildi.

Beləliklə, bolşeviklər Sovetdə olan digər partiyalar – eserlər və menşeviklərlə müsavatçılar arasındakı ziddiyyətlərdən istifadə edərək asanlıqla Bakı Sovetində əsas vəzifələri öz əllərinə keçirdilər.

Bu Bakıda vəziyyəti daha da gərginləşdirir. Sovetdən çıxmış eser-menşeviklər nüfuzlu ictimai qüvvə olan müsavatçılara meyl göstərməyə başlayırlar. Onlar, bolşevikləri təcrid etmək üçün hətta müsavatçılarla birgə fəaliyyət göstərməyi təklif edirdilər. Müsavatçılar əksinqilabın sağ qanadının güclənməməsi və münaqişəni dinc yolla həll etmək naminə təklifi qəbul etmirlər.

Bu da nəticə vermir. Öz hakimiyyətini möhkəmləndirmək niyyətində olan bolşeviklər onların təkhakimiyyətliliyinə mane olan İctimai Təşkilatların İcraiyyə Komitəsini (İTİK), F.X.Xoyskinin başçılıq etdiyi Şəhər Dumasını ləğv etmək uğrunda mübarizəyə başlayırlar. 1917-ci il noyabrın 22-də İTİK-i ləğv olundu. Şəhər Dumasının taleyi isə hakimiyyət uğrunda kəskin mübarizə getdiyi şəraitdə keçirilən seçkilərdə həll olundu. Bu seçkilərdə bolşeviklər bir qədər artıq səs toplasalar da, heç bir partiya həlledici üstünlük qazana bilmədi. Bu da sözsüz ki, Şəhər Dumasının sonrakı fəaliyyətini çətinləşdirirdi. İndi bu qurum demokratikləşmə prosesini ləngidirdi. Artıq tez-tez Dumanın bağlanması təklifləri səslənirdi.

Belə bir şəraitdə 1917-ci il dekabrın ortalarında (12-13 dekabrda) Bakı Sovetinə seçkilər keçirildi. Bolşeviklərlə müsavatçılar arasında münasibətlərin çox gərginləşməsi şəraitində keçirilən bu seçkilərdə «Müsavat» partiyası ümidverici uğur qazana bilmədi. O, menşeviklər istisna olunmaqla digər partiyalardan (bolşevik, daşnak, sol və sağ eserlər) az səs topladı. Buna şəhərətrafı dairələrin seçkilərə cəlb olunmaması da təsir göstərmişdi.

Bakı Sovetinin seçkilərdən sonra təşkil olunmuş yeni İcraiyyə Komitəsinə 6 nəfər bolşevik, 5 daşnak, 4 sol eser, 3 sağ eser və 2 müsavatçı daxil olmuşdu.

Bununla, Sovet Rusiyasını bilavasitə dəstəkləyən Azərbaycan bolşevikləri Bakı Sovetində hegemon qüvvəyə çevrildilər. Bunun sayəsində Bakı Cənubi Qafqazda Rusiya bolşevizminin dayağına çevrildi.

Beləliklə, Cənubi Qafqazda qüvvələrin iki yerə parçalanması baş verdi. Bir tərəfdən Rusiya bolşevizminin dayağına çevrilməkdə olan Bakı şəhəri, digər tərəfdən Cənubi Qafqazın qalan hissəsi.

Hələ 1917-ci il noyabrın sonlarında Cənubi Qafqazda Müəssisələr Məclisinə keçirilən seçkilərin nəticələri bunu təsdiq edirdi. Cənubi Qafqaz dairəsi üzrə seçkilərdə iştirak edən 15 partiya arasında menşeviklər, müsavtçılar və daşnaklar ümumilikdə səslərin 73%-ni almışdılar. Bolşeviklər isə cəmi 4,4% səs toplaya bilmişdilər. Bolşeviklərə Bakıda əhalinin 20%-i və qarnizon əsgərlərinin isə 70%-dən çoxu səs vermişdi. Eserlər 16,9%, menşeviklər isə 5,1% səs toplaya bilmişdilər.

Bu göstərirdi ki, bolşevik Bakısı istisna olmaqla, gürcü sosial-demokratları (menşeviklər), «Müsavat» və «Daşnaksütyun» partiyaları Cənubi Qafqazda çox böyük siyasi nüfuza malik idilər.

Daxili və xarici ziddiyyətlər Zaqafqaziya Komissarlığının işini getdikcə çətinləşdirirdi. Ərzincan barışıq müqaviləsinə baxmayaraq (1917-ci il 5 dekabr) dekabrın əvvəllərində alman-türk orduları Qafqazda hücuma keçmişdilər. Vəziyyətin pisləşdiyini görən Zaqafqaziya Komissarlığı 1918-ci il fevralın 6-da Türkiyə ilə sülh danışıqlarına getməyə məcbur oldu. Nəhayət, diyarı idarə etməyi bacarmayan Zaqafqaziya Komissarlığı 1918-ci ilin fevralında istefaya getməyə məcbur oldu. 1918-ci il fevralın 10-da Cənubi Qafqazdan Ümumrusiya Müəssisələr Məclisinə seçilmiş deputatlar əsasında Zaqafqaziya Seymi yaradıldı. Yerli hakimiyyət bu orqana verildi.

Zaqafqaziya Seymində üç əsas fraksiya – menşevik, müsavat və daşnak fraksiyaları var idi. Onlardan menşeviklər Gürcüstanı, müsavatçılar Azərbaycanı, daşnaklar isə Ermənistanı təmsil edirdilər. Seymdə Gürcüstandan sosial-demokratların (menşeviklərin) 32 nəfər, Azərbaycandan müsavatçıların və onlara qoşulan bitərəf demokratların 30 nəfər, erməni daşnaklarının 27 nəfər nümayəndəsi var idi. Bundan başqa Seymdə eserlər, milli demokratlar, erməni Xalq Azadlıq Partiyası, Müsəlman Sosialist Bloku 7 nəfər, Rusiya Müsəlman

Fraksiyası («İttihad») 3 nəfər və menşevik hümmətçilər 4 nəfər deputatla təmsil olunurdular.

Seym Türkiyə ilə münasibətləri qaydaya salmağa səy göstərsə də bu nəticə vermirdi. Almaniya ilə Rusiya arasındakı Brest sülhünün şərtlərinə əsaslanan Türkiyə Seymdən Qarsı, Ərdəhanı və Batumini boşaltmağı tələb edirdi. Seymdəki Azərbaycan nümayəndələri Türkiyənin tələbini qəbul etməyi təklif edirdi. Onlar Seymin Türkiyə ilə müharibə aparması əleyhinə çıxır, Cənubi Qafqazın Rusiyadan ayrılması və müstəqil elan olunması barədə Türkiyə tələbinə tərəfdar çıxırdılar.

Trabzon konfransındakı (1918-ci il mart) danışıqlarda erməni nümayəndələri Qars vilayətinin böyük bir hissəsini, gürcü nümayəndələri isə Ərdəhan və Batumini Zaqafqaziya tərkibində saxlamağı təklif edirdilər.

Türkiyənin güzəştə getməməsi və Seym rəhbərliyinin reallaqla hesablaşmaması Trabzon danışıqlarının pozulmasına gətirib çıxardı. 1918-ci ilin aprelin ortalarında (18-də) Türkiyə ilə müharibəyə hazırlaşmaq qərarını qəbul etdi. Ölkədə hərbi vəziyyət elan olundu, Müdafiə Şurası təşkil olundu. Lakin bu tədbirlər Türkiyə qoşunlarının hücumunun qarşısını ala bilmədi. Onlar aprelin 14-də Batumini tutdular.

Aprelin 22-də Seym Cənubi Qafqazı müstəqil Federativ Respublika elan etdi.

***Mart hadisələri***

1918-ci ilin əvvəllərində Cənubi Qafqazda böyük təlatüm var idi. Ziddiyyətlər, qarşıdurmalar baş alıb gedirdi.

Bu şəraitdə bolşevik-daşnak qrupundan olan şovinistlər öz məkrli siyasətini davam etdirirdilər. Onlar əksəriyyətini azərbaycanlılar təşkil edən müsəlman əhalisini əksinqilabi qüvvə kimi qələmə verirdilər. 1917-ci ilin dekabrında Lenin Şaumyanı Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin etdi.

Fövqəladə komissara müraciətini bu sözlərlə bitirmişdi: «Qafqazda Sovet hakimiyyəti təxirsiz yaradılmalıdır». S.Şaumyan bu işdə yerli ermənilərə, daşnak təşkilatlarına kömək etməli idi. Bolşeviklər kütlələri Zaqafqaziya Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizəyə çağırırdılar. Digər bütün siyasi partiyaları, xüsusən «Müsavat» partiyasını, onların rəhbərlərini əksinqilabda, xalqa düşmənçilikdə günahlandırırdılar. Çünki, müsavatçıların müstəqillik uğrunda mübarizəsi və onların müsəlman əhalisi arasında nüfuzunun artması Bakı Sovetini çox narahat edirdi. Azərbaycanın müstəqilliyinin qəddar düşməni olan S.Şaumyan Bakı Sovetinin iclasındakı məruzəsində «Bakının Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca mərkəzinə və istehkamına çevriləcəyini elan edirdi».

Bakı Sovetinin liderləri Qızıl qvardiya dəstələrinə rəhbərlik üçün Mərkəzi Qərargah yaratdıldar. Bakı Soveti cəbhələrdən qayıdan 5 min əsgəri bu qvardiyanın tərkibinə daxil etdilər. Bu dəstələr erməni-daşnak zabitlərinə tabe etdirildi. Beləliklə, «Qırmızı Qvardiya» adı ilə yaradılan 10-12 minlik ordunun da 70% -i erməni idi.

Bolşevik-daşnak guruhu rusları da azərbaycanlılara, müsəlmanlara qarşı kökləmək üçün onlar arasında antiazərbaycan təbliğatı aparırdılar. Bu, sıralarının əksəriyyəti ruslardan ibarət olan Xəzər donanmasında, Şamaxı və Muğanda yaşayan molokanlar arasında, xüsusilə güclü idi.

Bütün bunlarda başlıca məqsəd azərbaycanlılara qarşı soyqırımı təşkil etmək və «Müsavat» partiyasının sosial bazasını zəiflətməkdən ibarət idi. Bu Bakı Sovetinin rəsmi siyasətinə çevrilmişdhi. Bu siyasət zaman-zaman hazırlanmışdı.

Mart hadisələrinin fəal iştirakçılarından biri bolşevik H.Əsriyants sonralar öz xatirələrində yazmışdı: «1917-ci ilin fevralında T.Əmirov bizi yığıb bildirdi ki, S.Şaumyan və

A.Caparidzenin tapşırıqlarını yerinə yetirməliyik. Şaumyan əvvəlcədən bizə xəbər vermişdi ki, gecə saat 1-də xəbərdarlıq siqnalından sonra, biz hücum edib «Müsavat»ın qərargahını tutmalı idik və belə də oldu». Beləliklə, başda Şaumyan olmaqla Bakı Sovetinin rəhbərləri «müsəlman əksinqilabçı ünsürlər» deyə adlandırdıqları şəhərin dinc əhalisini milli münaqişəyə cəlb etmək üçün bəhanə axtarırdı. Belə bir bəhanə tapıldı.

Bu məqsədlə «Evelina» münaqişəsi törədildi. Azərbaycan milyonçusu Hacı Z.Tağıyevin Lənkəranda xidmət edən oğlu Məhəmməd Tağıyev təsadüfən öz əlindəki silahdan açılan atəş nəticəsində həlak olmuşdu, müsəlman alayının zabitləri onun dəfnində iştirak etmək üçün Bakıya gəlmişdilər. Dəfn mərasimindən sonra zabitlər «Evelina» gəmisi ilə Lənkərana qayıtmalı idilər. Əlverişli məqamın yetişdiyini görən ermənilər gizli şəkildə Rus Milli Şurası, Xəzər matrosları, eser və menşevik partiyaları arasında belə bir şayiə yaydılar ki, guya «Evelina» ilə yola düşən zabitlər tapşırıq almışlar ki, Lənkəranda olan müsəlman hərbi dəstələrilə birlikdə Muğandakı rus-molokan kəndlilərini məhv etsinlər. Bu təxribat xarakterli şayiə öz nəticəsini verdi. «Evelina» gəmisinin tərksilah olunması tələb olundu. Bakıda olan bütün qeyri-Azərbaycan siyasi və hərbi qüvvələr «Evelina» gəmisinin tərksilah edilməsinə tərəfdar çıxdılar. Təcili şəkildə martın 30-da Bakı şəhəri və mədən-zavod rayonlarının inqilabi komitəsi yaradıldı.

İnqilabi Komitənin təşəbbüsü ilə «Evelina»nın Lənkərana yola düşməsi dayandırıldı və gəmidəki zabitlər tərksilah edildilər. General Talışinski həbs olundu. Bunlar şəhərin müsəlman əhalisini həyəcana gətirdi. Onlar məscidlərə toplanaraq silahlarının qaytarılmasını tələb etdilər. Vəziyyətin çox ciddi xarakter aldığını görən Azərbaycan milli təşkilatlarının nümayəndələri İnqilabi Komitəyə gəlib alınmış silahları «Hümmət» müsəlman bolşevik komitəsi ilə qaytarmağa cəhd

göstərdilər. Lakin bu cəhd baş tutmadı. Beləliklə, əvvəlcədən sövdələşmə əsasında bolşevik-daşnak koalisiyası Şaumyanın dediyi kimi, dərhal bütün cəbhə boyu hücuma başladı. Martın 30-da Bakıda ilk atəşlər açıldı. aldatma siyasəti yeridib özlərinin bitərəfliyini elan etmiş «Daşnaksütyun» və erməni Milli Şurası bu cinayətin tərəfdarı olaraq onu müdafiə etdilər.

Martın 30-da axşam Bakı Soveti hərbi dəstələri başçılarının təcili iclası keçirildi. Döyüşə başlamaq haqqında qərar qəbul edildi.

İlk atəşlərdən sonra həmin gün şəhər silahlı dəstələrlə dolduruldu. Ermənilər cənub hissədə səngərlər qazır, torpaq və daşlardan sədlər qurmağa başlayırdılar. Belə bir ağır şəraitdə eser, menşevik və kadetlər bolşevikləri müdafiə edəcəklərini bildirdilər. Xəzər donanması gəmilərinin müsəlman məhəllələrini atəşə tutması şəhərdə dəhşətli vəziyyət yaratdı. Xeyli molokan-rus hərbi dəstələri də eyni qaydada aldadılaraq Muğandan Bakıya gətirilmişdi. Çıxılmaz vəziyyət yarandığını görən «Müsavat» liderləri əhalini xilas etmək üçün İnqilabi Müdafiə Komitəsinin ultimatumunu qəbul etdilər. Martın 31-də müsəlman nümayəndələri danışıqlar aparmaq üçün Sovetin İcraiyyə Komitəsinə gəlib Caparidze ilə danışıqlar apardılar. Lakin danışıqlar nəinki nəticə vermədi, hətta nümayəndə heyətindən üç nəfər geri qayıdarkən yolda güllələndi.

Yaxşı silahlanmış və hazırlanmış erməni əsgərləri müsəlmanların evlərinə soxulur, sakinləri öldürür, uşaqları yanan evlərin içinə atırdılar. Dinc əhalini qorxudan dəhşətə gətirib istədiklərinə nail olmaq üçün hər cür vəhşiliyə əl atan bolşevik erməni cəllədları müsəlman qadınlarını daha ağır formada qətlə yetirirdilər. Qaçıb canını qurtarmağa çalışanları gülləbaran etmək üçün şəhərin müvafiq yerlərində əvvəlcədən pulemyotlar qoyulmuşdu.

Bir çox müsəlman məhəllələri məhv edildikdən sonra martın 31-də axşamüstü İçərişəhərin alınması əməliyyatına başlanıldı. Bu, qırğın əməliyyatında gənc Suren Şaumyan, Ovçiyan, Sarkis, Akopov və başqa Qırmızı qvardiyaçılar fəal iştirak etdilər. Müsəlman meyidlərinin yandırılması və iyrənc formada təhqir edilməsinin erməni ziyalıları və kilsə xadimləri tərəfindən törədildiyini təsdiq edən onlarca sənəd mövcuddur. Bu dəhşətli qırğında Mikoyanın başçılıq etdiyi «Qırmızı Qvardiya» dəstələri də fəal iştirak etmişdir. Hətta İçərişəhərə hücum zamanı A.Mikoyan yaralanmışdı. Döyüşlər getdikcə şiddətlənirdi. Şəhərin azərbaycanlılardan ibarət olan «Məmmədli» və «Zibilli dərə» deyilən müsəlman məhəllələrinin əhalisi tamamilə məhv edildi. Bu məhəllələrə soxulan erməni əsgərləri sakinləri vəhşicəsinə öldürür, evləri talan edir, əşyaları yandırırdılar.

«İnqilabı əksinqilabdan müdafiə» adı ilə çıxış edən erməni quldur dəstələri Bakının ən gözəl memarlıq abidələrindən olan İsmailiyyəni yandırmış, «Açıq söz», «Kaspi», «Baku» və başqa qəzet, jurnalların redaksiyalarını dağıtmış, Təzə pir məscidinə böyük ziyan vurmuşdular. Məscid divarları dağıdılmış, içərisindəki müsəlmanlar vəhşicəsinə öldürülüb küçəyə atılmışdı. Menşevik qəzeti «Naş qolos» mart qırğını zamanı şəhərin vəziyyətini belə təsvir edirdi: «Hər yerdə meyidlər qıc olmuş, eybəcər hala salınmışdı. Təzə pir məscidinin yanında ağır bir mənzərə var, məscid atəşdən dağıdılmışdır. Ziyarətgahın təhqiri geniş kütlələrin qəlbini ağrıdırdı. Meyit – insanları daha çox həyəcanlandırırdı».

Mart ayından aramsız davam edən döyüşlər əslində azərbaycanlılara qarşı əsil soyqırımı idi. Şəhərin təkcə bir məhəlləsində bolşevik-erməni cəlladları tərəfindən qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış 57 müsəlman qadının meyiti tapılmışdı. Körpə uşaqları isə süngülərin ucuna

keçirmişdilər. Təsadüfi deyil ki, azərbaycanlıların soyqırımı haqqında Azərbaycan prezidentinin 26 mart 1998-ci il tarixli fərmanı ilə 31 mart «Azərbaycanlıların soyqırımı günü» elan edilmişdir.

Müsavat liderləri ilə atəşkəs haqqında saziş bağlanmasına baxmayaraq, erməni və sovet hərbi dəstələri hücumları – soyqırımı davam etdirirdilər. Hətta tüstüsü ərşə qalxan «İsmailiyyə»dəki yanğını söndürməyə gələn müsəlman əhalisini yenidən atəşə tutmuşdular. Şəhərin sağ qalan azərbaycanlı əhalisi kütləvi surətdə şəhəri tərk etməyə başladılar. Müxtəlif koalisiyalarda olan ermənilər Bakıda tuğyan edirdilər, imkansızlıq üzündən şəhəri tərk edə bilməyən və ətraf kəndlərdə yaşayan əhalini əzabla qırır, işgəncələr verirdilər. Bakıda törədilən türk-müsəlman soyqırımının saxtalaşdırılmasına, ona «Vətəndaş müharibəsi» donu geyindirilməsinə, qətl edilənlərin sayının üç minə endirilməsinə ilk cəhd, ilk məlumatı bu hadisələrin təşkilatçısı S.Şaumyan vermişdir. O, aprel ayının 13-də Moskvaya XKS-ə göndərdiyi hesabatda utanmadan, həyasızcasına yazmışdı: «Üç gün ərzində – 30, 31 mart və 1 apreldə Bakı şəhərində şiddətli vuruşma olmuşdur… Biz süvari dəstəmizə birinci silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik…, bizim 6 min nəfərə yaxın silahlı qüvvələrimiz var idi… «Daşnaksütyun»un da 3-4 min nəfərlik milli hissələri var idi ki, onlar da bizim ixtiyarımızla idi. Milli hissələrin (daşnak hissələrinin) iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi. Lakin buna yol verməmək mümkün deyildi. Biz bilərəkdən buna yol verdik. Onlar Bakıda üstün gəlsəydilər, şəhəri Azərbaycanın paytaxtı elan edər, bütün qeyri-müsəlman ünsürlər tərksilah edilib qırılardı».

Onu qeyd etmək lazımdır ki, Bakıda törədilmiş cinayətlər, soyqırımı aprel ayının ilk günlərindən etibarən eynilə Şamaxı, Quba, Xaçmaz, Göyçay və Lənkəranda törədildi.

Azərbaycan qəzalarına «Sovet qoşunları» adı altında göndərilən cinayətkar dəstələrə quldur erməni «hərbiçiləri» T.Əmiryan, H.Hamazasp rəhbərlik edirdilər. Daşnak cəlladlarından ən ağır ziyan çəkən Şamaxı qəzası oldu. Şamaxıda baş verən hadisələr «Qanlı mart təqvimi»ndə xüsusi yer tutur. 1918-ci ilin yazında qəzada hakimiyyət artıq müsavatçıların başçılıq etdikləri yerli Milli Şuranın əlində toplanmışdı. Bunu öz hakimiyyəti üçün ciddi təhlükə hesab edən Bakıdakı bolşevik-daşnak Soveti Şamaxını ələ keçirmək üçün ciddi cəhd göstərirdi. Onu qeyd etmək lazımdır ki, bolşevik və daşnakların Azərbaycanın işğalı planında Şamaxı xüsusi strateji yer tuturdu. Hələ mart ayının əvvəllərində Şamaxıya böyük miqdarda döyüş sursatı və 2-3 min erməni qoşun dəstəsi gətirilmişdi. Dəstəyə S.Lalayev başçılıq edirdi. Həmin döyüş sursatları Şamaxı qarnizonuna verilmədi. Guya onlar Şamaxıda anarxiyaya son qoymaq, normal həyatı bərpa etmək üçün gətirilmişdi.

Martın 15-də Lalayevin dəstəsi Şaumyandan təlim alaraq Şamaxıya hücum etdi. O, şəhərin müsəlman yaşayan hissəsini top atəşinə tutdu. Bu atışma nəticəsində dinc əhali arasında çoxlu tələfat oldu.

Yenidən martın 18-də Şamaxı cənubdan ermənilər, şimali-şərqdən molokanlar tərəfindən mühasirəyə alındı. Onlar şəhəri bombalamağa başladılar. Müsəlmanlar geri çəkilməyə məcbur oldular. Şəhərdə vəziyyət ağırlaşdı. Ermənilər və molokanlar şəhərin ən varlı hissəsi «Piran-Şirvan»a daxil oldular. Evlər yandırılır, qaçanlar güllələnirdi. Dəstənin quldurları evlərə soxularaq sakinləri qarət edirdilər. Şəhərin küçələrində türk-müsəlman meyitləri üst-üstə yığılmışdı.

Bu vəhşiliklər Gəncədən silahlı türk-müsəlman dəstəsi Şamaxı qəzası əhalisinin köməyinə gələnə qədər bir neçə gün davam etmişdi. Gəncəlilərin gəlişindən sonra ermənilər və molokanlar Şamaxıdan molokanlar yaşayan Qozlu kəndinə

çəkildilər. Müsəlman qoşunları onları təqib edərkən aydın oldu ki, ermənilər və molokanlar sayca onlardan qat-qat üstündür və buna görə də onlar geri çəkildilər. Bir neçə gün sonra ermənilər və molokanlar şəhəri ikinci dəfə zəbt etdilər.

Nəticədə Şamaxı qəzasının 196 Azərbaycan kəndindən 110 ermənilər tərəfindən qarət edilmiş, yandırılmış tamamilə dağıdılmış və əhalisi qətlə yetirilmişdir. Şamaxı qəzasının 110 kəndində ermənilər qısa müddətdə 10341 nəfər azərbaycanlı qətlə yetirmişlər ki, onların da 5050 nəfər kişi, 4359 nəfər qadın və uşaqlar olmuşdur.Hesablamlara görə bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 607167420 manata catmışdı.

Bolşeviklərin yaxından iştirakı ilə əksinqilaba qarşı mübarizə bayrağı altında Quba, Xaçmaz, Göyçay, Kürdəmir, Salyan və Lənkəran bölgələrinin əhalisi də erməni cəza dəstələrindən ciddi ziyan çəkmişdi. Quba qəzasında qırğın törədən quldur cəza dəstəsinə S.Şaumyanın xüsusi səlahiyyətlər verdiyi Hamazasp rəhbərlik edirdi. Aprel ayında qəzanın 122 müsəlman kəndi dağıdılmış və yüzlərlə azərbaycanlı və o cümlədən ləzgi məhv edilmişdi.

Lənkəran bölgəsinin əhalisi də erməni cəza dəstələrindən ciddi ziyan çəkmişdi. 2 min nəfərlik sovet qoşununun Lənkəranda baş alıb gedən qanlı terror və vəhşi soyğunçuluğunun qarşısını Zaqafqaziya Seyminin bu zaman bölgədə olan gürcülərdən ibarət silahlı dəstələri almışdı.

Erməni-daşnak dəstələrinin gələcək işğal planı Yelizavetpolu (Gəncə) ələ keçirmək idi. S.Şaumyanın fikrincə sovet qoşunları Yevlax körpüsünü ələ keçirib Kür boyunca müdafiə xətti tutduqdan sonra onları tez Yelizavetpola (Gəncəyə) yeritmək lazımdır ki, orada, sonra isə başqa yerlərdə ermənilər üsyan etsin.

1918-ci ilin mart-aprel aylarında kütləvi qanlı qırğınlar törədən «Sovet hakimiyyəti»nin daşnak bolşevik dəstələri Bakı quberniyasından sonra bütün Azərbaycanı işğal etmək fikrində idi.

Təəssüf ki, mart-aprel aylarında bolşeviklərin fitvası ilə erməni-daşnak hərbi dəstələrinin törətdikləri milli-qırğın uzun bir dövr ərzində sovet hakimiyyətinin möhkəmlənməsi uğrunda və əksinqilab üzərində böyük qələbə kimi qiymətləndirilirdi. Şaumyan tərəfindən XKS-ə göndərilən məktubda bu fikir təsdiq edilmişdir. O, yazmışdı ki, müsəlman millətçi partiyalarının müqaviməti üzündən Bakıda Sovet hakimiyyəti daim tükdən asılı idi. Bununla da o, Bakıda, milli qırğının olmadığını, yalnız vətəndaş müharibəsi baş verdiyini sübut etmək istəyirdi.

Lenin cavab məktubunda Şaumyanın möhkəm və qəti siyasətinə məftun olduğunu bildirmiş və təcavüzkar siyasətini davam etdirməsini ona məsləhət görmüşdü. Bu isə ermənilərin millətçi siyasətini birə on qat artırdı və onları gələcək döyüşlərə ruhlandırdı.

Bütün bunlara baxmayaraq Mart soyqırımı ciddi siyasi nəticələrə səbəb oldu: Əvvəla bu Bakı Sovetində qısa müddət üçün vəziyyəti ələ almağa imkan versə də, onun antiazərbaycan siyasət yürütdüyünü aşkar etdi. Azərbaycan milli demokratiyasının yenidən qurulacaq Rusiyanın tərkibində muxtariyyət əldə edilməsi fikrini dəfn etdi və Azərbaycanda Sovet ideyasına ciddi zərbə vurdu. N.Nərimanov bu haqda yazmışdı: «Mart hadisələri şura hökumətinə ləkə salıb, onu qara örtüklə bürüyübdür, əgər siz tezliklə həmin qara örtüyü cırıb bu ləkəni təmizləməsəniz bolşevik fikri və Şura hökuməti burada davam edə bilməyəcəkdir». Bakıdakı mart hadisələrinə verilən bu obyektiv qiymət sonralar özünü tamamilə doğrultdu.

1918-ci il mart hadisələrindən sonra Bakıda siyasi vəziyyət müvəqqəti olsa da bolşevik-erməni güruhunun xeyrinə

dəyişdi. Müvəqqəti uğur qazanan bolşeviklər 1918-ci il aprelin 25-də çox vaxt tarix ədəbiyyatında Bakı Kommunası adlandırılan Bakı Xalq Komissarları Soveti (BXKS) yaradıldı. Onun tərkibinin əksəriyyətini qeyri-millətlərin nümayəndələri təşkil edirdi. Daşnak Ermənistanının rəhbərlərindən biri olan A.Xatisov (Xatisyan) bu qurumu haqlı olaraq «Erməni sovet hökuməti» adlandırmışdı. Erməni-bolşevik S.Şaumyanın başçılıq etdiyi qondarma siyasi qurum tam antiazərbaycan siyasəti yürüdürdü. O, Azərbaycanı Sovet Rusiyasının alətinə çevirmişdi. Azərbaycan iqtisadiyyatı, xüsusən nefti Moskvanın xidmətinə verilmişdi. Neft istehsalı müəssisələri milliləşdirmək adı ilə BXKS-na tabe XTŞ-nın ixtiyarına verilmişdi. 1918-ci ilin aprel-iyul aylarında Bakıdan Sovet Rusiyasına 1,3 milyon tona yaxın neft və neft məhsulları daşınmışdı.

Bütün bunlar əhalinin çox geniş narazılığına səbəb olmuşdu. Əhali, xüsusən fəhlələr XKS-dən üz döndərməyə başlamışdılar. Sovet Rusiyasına güvənən və arxalanan BXKS-nin Azərbaycanda zəmini yox idi. Ona görə də o, məhv olmağa məhkum idi. Elə də oldu. O, 1918-ci il iyulun axırlarında süqut etdi. Avqustun 1-də Bakıda Mərkəzi Xəzər diktaturası yaradıldı.

## § 4. Cənubi Azərbaycan müharibə illərində. Milli-azadlıq hərəkatı

Birinci dünya müharibəsi başlayanda İranın özünü bitərəf elan etməsinə baxmayaraq onun ərazisi, o cümlədən də Cənubi Azərbaycan ərazisi hərbi əməliyyatlar meydanına çevrilmişdi. 1914-cü ilin sonunda osmanlı qoşunları Cənübi Azərbaycanın əksər hissəsini tutmuşdu. Burada olan rus qoşunlarının müqavimətini qıran türk hərbi hissələri 1914-cü il dekabrın 25-də Təbrizə girdi. Beləliklə, İranın şimal-qərb bölgələri I dünya müharibəsinin Qafqaz cəbhəsinə daxil edilmiş

oldu. Lakin türk qoşunlarının 1915-ci il yanvar ayında Sarıqamış əməliyyatında məğlubiyyəti alman-türk blokunun planlarını pozmuş oldu. Geniş hücum əməliyyatı aparan rus qoşunları 1915-ci il yanvarın 15-də türk qoşunlarını Cənubi Azərbaycanı tərk etməyə məcbur etdi. Təbrizi ələ keçirən rus hərbçiləri bir qədər sonra bütün Cənubi Azərbaycanı işğal etdilər.

Müharibə illərində əhalinin vəziyyəti son dərəcə ağırlaşmış, sosial ziddiyyətlər kəskinləşmişdi. Ölkədə bahalıq yaranmış, aclıq və yoluxucu xəstəliklər yayılmışdı.

Dünya müharibəsinin Cənubi Azərbaycanda yaratdığı mürəkkəb vəziyyət və qarmaqarışıqlıqdan istifadə edən erməni silahlı dəstələri aysorlarla birlikdə Xoy, Salmas, Urmiya şəhərlərinə və onların ətraf kəndlərinə hücum edərək silahsız azərbaycanlıları vəhşicəsinə qırmağa başladılar. İri dövlətlər şərq ölkələrini yenidən nüfuz dairələrinə bölmək məsələsində erməni quldurlarını, aysorları və kürdləri öz əllərində alətə çevirmişdilər.

Rus hərbi hissələri Cənubi Azərbaycanı tərk etdikdən sonra ingilis hərbi hissələri bu yerləri işğal etdilər. Onların təhriki ilə azərbaycanlılara qarşı əsil soyqırım həyata keçirilməyə başlandı. Yerli demokratik qüvvələrin bu qırğınların qarşısını almaq üçün yaratdığı silahlı müdafiə dəstələri müəyyən uğurlar qazanmışdılar. Onlar erməni quldurlarının hücumlarını dəf edə bildilər. 1917-ci ildə türk qoşunlarının yenidən Cənubi Azərbaycana daxil olması ilə azərbaycanlılara qarşı keçirilən bu soyqırımın qarşısı alına bildi.

I dünya müharibəsi başqa ölkələrdə olduğu kimi İrana, Cənubi Azərbaycana da böyük dağıntılar, bahalıq, qıtlıq, aclıq, müxtəlif xəstəliklər və başqa bədbəxtliklər gətirdi. Müharibə Cənubi Azərbaycanın təsərrüfat həyatını tənəzzülə gətirib çıxartdı.

***Milli –azadlıq hərəkatının başlanması***

1917-ci ildə Rusiyada fevral burjua-demokratik inqilabı qələbə çaldığı və çarizmin devrildiyi vaxt Cənubi Azərbaycan rus işğalı altında idi. Burada demokratik qüvvələr həm İran irticasının, həm də işğalçıların təzyiqinə məruz qalırdı. Rusiyada çarizmin devrilməsi xəbəri İrandakı rus əsgərlərində inqilabi ruh yaratmışdı. İran irticasının dayağı olan çarizmin süqutu geniş xalq kütləsi və demokratik qüvvələr tərəfindən şah hakimiyyətinin zəifləməsi kimi qəbul edildi. Cənubi Azərbaycanda milli-azadlıq və demokratik hərəkat canlanmağa başladı.

Cənubi Azəbaycanda başqa siyasi təşkilatlar mövcud olsa da əhalinin demokratik hərəkatına əsas siyasi orqan – İran Demokratik Partiyasının (İDP) Əyalət Komitəsi istiqamət verirdi. Azərbaycan əyalət komitəsi İDP-nın nəzərə çarpan dərəcədə fəaliyyət göstərən yeganə təşkilatı idi. Komitəyə İran məşrutə inqilabında (1905-1911) mətinləşmiş Şeyx Məhəmməd Xiyabani başçılıq edirdi. İDP-nın Azərbaycan əyalət komitəsi 1917-ci ilin mart ayında leqal fəaliyyətə keçdi. Aprelin 7-də Konstitusiya elan olunmasının 10 illiyi ilə əlaqədar Təbrizin Topxana meydanında keçirilmiş mitinqdə əyalət komitəsi ilk dəfə olaraq açıq surətdə kütlələr qarşısında çıxış etdilər. İDP Azərbaycan əyalət komitəsi öz fəaliyyətini genişləndirməyə başladı. Təbrizin bəzi məhəllərində partiya özəkləri, əyalətin bir sıra vilayət mərkəzlərində – Sərab, Ərdəbil, Zəncan, Urmiyada isə partiya komitələri fəaliyyət göstərirdi. Azərbaycan əyalət komitəsi kütlələrlə geniş əlaqə yaratmaq məqsədilə təşkilatın mətbuat orqanını «Təcəddüd» («Yeniləşmə») qəzetini nəşr etməyə başladı. Qəzetin ilk nömrəsi 1917-ci il aprelin 9-da çıxdı. Fars dilində çıxan qəzet Tehrana və ölkənin başqa şəhərlərinə də göndərilirdi.

Azərbaycan əyalət komitəsi öz sosial tərkibi etibarilə əsasən orta və xırda burjuaziyanın, orta mülkədarların, ziyalıların və ruhanilərin aşağı təbəqəsinin nümayəndələrindən ibarət idi. Bura fəhlə və kəndlilərin də nümayəndələri daxil idi. Demokratlar əhalini xarici işğalçıların ölkədən qovulması və Cənubi Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizəyə çağırırdılar. Cənubi Azərbaycandakı hərəkatın başlanğıcı üçün «azad İran», «bütün xalqların qardaşlığı» kimi çağırışlar səciyyəvi idi. Xalqın mübarizə əhval-ruhiyyəsi getdikcə artırdı. Təbriz, Urmiya və Ərdəbildə dövlət məmurlarının özbaşınalığına qarşı həyəcan və çıxışlar baş verirdi. Təbrizdə vəziyyət xüsusilə kəskin şəkil almışdı. Burada 1917-ci il iyunun 17-də başlanmış çıxışlar vali Sərdar Rəşidə qarşı çevrilmişdi. İyunun 21-də o, Təbrizi tərk etdi. Urmiya baş hakimi həbs olunaraq ölüm cəzasına məhkum edildi.

1917-ci il avqustun 24-də Təbrizdə keçirilən Azərbaycan əyalət komitəsinin konfransında müxtəlif vilayətlərdən 480 nümayəndə iştirak edirdi. Konfrans Azərbaycan Demokrat Partiyasını müstəqil elan etdi. Xiyabani başda olmaqla onun Mərkəzi Komitəsini seçdi. Konfrans partiyanın vəzifələrini müəyyənləşdirən qətnamələr qəbul etdi. Konfransdan sonra ADP-nın yerli təşkilatlarının fəaliyyətinin gücləndirilməsinə səy göstərildi. Partiyanın yeni təşkilatları yaradıldı. Bunlardan biri də Bakı təşkilatı idi. O, 1918-ci ilin yanvarın 28-dən «Azərbaycan» adlı siyasi, ədəbi, ictimai qəzet nəşr etməyə başlamışdı. İlk vaxtlar ADP qarşıya qoyulan məqsədlərə dinc yolla nail olmaq fikrində idi. Lakin sonrakı hadisələr demokratları taktikanı dəyişməyə vadar etdi.

Bu dövrdə Cənubi Azərbaycanda başqa siyasi partiyalar da fəaliyyət göstərirdi. Belə partiyalardan biri də, məşrutə inqilabında (1905-1911) geniş fəaliyyət göstərmiş İran sosial-demokrat partiyası olan «İctimaiyyun-Amiyun-Mücahid»-in

Təbriz təşkilatının (1912-ci ildə dağıdılmışdır) keçmiş üzvlərindən olan mücahidlərdir. Mücahidlər ADP ilə əlaqə saxladığı halda mərkəzi Tiflisdə yerləşən «Mütərəqqi iranlılar» partiyasının Cənubi Azərbaycan şöbələri, «Nüsrət», «Əhrar» və başqa xırda təşkilatlar ilə birləşərək, özlərini ADP-yə qarşı qoyurdular.

1917-ci ilin noyabr, dekabr aylarında Təbriz, Ərdəbil, Xoy, Urmiya, Sərab, Zəncan və başqa şəhərlərdə keçirilən izdihamlı mitinqlərdə əhali ingilislərin əlaltısına çevrilmiş Vüsüqütdövlənin başçılıq etdiyi hökumət kabinəsinin istefasını, İranda demokratik hökumət təşkil olunmasını tələb edirdi. 1917-ci il noyabrın 28-də və dekabrın 3-də Təbrizdə keçirilmiş mitinqlər xüsusilə izdihamlı olmuşdur. Təbriz və digər şəhərlərdə keçirilən mitinqlərin çoxunun təşkilatçısı ADP idi.

1917-ci ilin mayında Bakıda iranlı fəhlələr tərəfindən İranın ilk sosial-demokrat fəhlə partiyası «Ədalət» təşkil edildi. Partiyanın Cənubi Azərbaycanın Təbriz, Ərdəbil, Mərənd, Xalxal şəhərlərində də şöbələri yaranmışdı. «Ədalət» partiyasının açıq fəaliyyət göstərə bilməyən şöbələri Təbrizdə və digər şəhərlərdə ADP ilə həmkarlıq edirdilər.

1917-ci ilin yayından etibarən ADP-nin fəalyyət dairəsi genişlənmişdi. Partiya Cənubi Azərbaycanda yetişən antiimperialist xalq hərəkatının rəhbər təşkilatı kimi formalaşmışdı. Partiyanın Astara, Miyanə və başqa şəhərlərdə, bir sıra kəndlərdə, Təbrizin hər məhəlləsində özəkləri yaradılmışdı. Bununla bərabər müxtəlif sinif və təbəqələri təmsil edən partiya içərisində müəyyən mənada qütbləşmə var idi. Xiyabani başda olmaqla sol cinah əksəriyyət təşkil etdiyindən rəhbərliyi ələ almışdı. Əhməd Kəsravi başda olmaqla sağ qrup isə, hətta partiyada danışıq dilinin də fars dili olmasını tələb edirdi. ADP demokratik qüvvələri daha ciddi addımlar atmağa – üsyana çağırırdı. Bakı təşkilatının orqanı olan «Azərbaycan»

qəzetində də bu çağırışlar öz əksini tapırdı. Bu çıxışlar nəticəsində müəyyən müvəffəqiyyətlər qazanıldı, o cümlədən Vüsuqüddövlə kabinəsi 1917-ci ilin sonunda istefa verməyə məcbur oldu.

Rusiyada oktyabr çevrilişindən sonra rus qoşunları İrandan çıxarıldı. İngiltərə 1918-ci ilin yanvarında general Denstervilin komandanlığı altında İrana hərbi dəstə göndərildi. 1918-ci ilin yazına qədər ingilislər Zəncan və Miyanəni işğal etdilər. İngilislər Türkiyə «təhlükəsini» bəhanə edərək Cənubi Azərbaycanın digər şəhərlərini Xoy və Urmiya şəhərlərini də ələ keçirərək, orada ingilis zabitlərinin komandanlığı altında qoşun dəstələri yerləşdirdilər. Vüsuqüddövlə ingilislərin köməyi ilə yenidən hakimiyyətə gəldi. Cənubi Azərbaycanın şimali-qərbində ermənilər, aysorlar və kürdlər azərbaycanlılara qarşı qırğın fəaliyyətinə yenidən başladılar. Türkiyənin 1918-ci ilin əvvəllərində buraya öz hərbi dəstələrini göndərməsi ilə bu qırğının qarşısını almaq mümkün oldu. 1918-ci ilin noyabrına qədər bu ərazidə qalan Türkiyə Maku, Urmiya və Salması tutmuşdular. Lakin türk ordusunun buradan çıxması ilə ingilislər bu əraziləri yenidən ələ keçirdilər. İran ərazisindən qonşu dövlətlərə qarşı hücum meydanı kimi istifadə edən ingilis imperialstləri ölkədəki fəaliyyətini rəsmiləşdirmək üçün ingilispərəst Vüsuqüddövlə hökumətilə 1919-cu il avqustun 9-da saziş imzaladılar. İranı siyasi və iqtisadi cəhətdən İngiltərədən tam asılı hala salan İngiltərə – İran sazişinin bağlanması geniş xalq kütlələrini ayağa qaldırdı. Bütün İranda bu sazişin əleyhinə çıxışlar baş verdi. Bu sazişin bağlanması ilə Cənubi Azərbaycanda genişlənən milli-azadlıq hərəkatının yeni pilləyə qalxmasına təkan verilmiş oldu. 1918-1919-cu illərdə bütün İranda olduğu kimi Cənubi Azərbaycanda da milli-azadlıq və demokratik hərəkat yüksəliş dövrünə qədəm qoydu. ADP əvvəlki passiv mübarizə mövqeyindən uzaqlaşır, hökumətə öz tələblərini

qəti şəkildə bildirir, xalqı daha ciddi mübarizəyə çağırır və bunun üçün özü də hazırlaşırdı.

***1920-ci il Təbriz üsyanı. Azadıstan***

1920-ci ilin əvvəlində ADP rəhbərliyi dinc yol ilə mübarizə taktikasını dəyişdirdi. Partiya dinc çıxışlarla yanaşı silahlı üsyana hazırlıq görmək haqqında qərarına gəlmişdi. ADP-nın rəhbəri Xiyabani bu yeni yönümlü siyasi mübarizədə, özünün dəfələrlə təkrar etdiyi kimi, «orta xətt» götürməyə çalışırdı. Və o, öz siyasi platformasını «Təcəddüd məsləki» adlandırırdı. Təcəddüd məfkurəsi Cənubi Azərbaycanın milli hüquqları uğrunda mübarizə aparan bir əqidə, siyasi-nəzəri cərəyan idi. Hərəkatın rəhbərləri üsyanın hazırlanmasında zəhmətkeş qüvvələrə – sənətkarlara, xırda tacirlərə, ziyalılara, xırda dövlət qulluqçularına və kəndlilərə əsaslanırdılar.

1920-ci il aprel ayının ilk günlərində ADP-nin üzvlərindən bir neçəsinin həbs edilməsi usyanın başlanmasına təkan verdi. Aprelin 6-da demokratik qüvvələr silahlanaraq «Təcəddüd» qəzeti redaksiyasının binasına yığışdılar. Aprelin 7-nə keçən gecə ADP rəhbərliyi silahlı üsyan planı hazırladı. Bununla milli-azadlıq hərəkatı yeni mərhələyə daxil olaraq silahlı üsyan xarakteri aldı.

Üsyanın elə ilk günü bütün tacirlər, sənətkarlar, ziyalılar və əhalinin digər nümayəndələri demokratların haqlı tələblərinə həmrəy olduqlarını bildirdilər. Təbrizdəki silahlı qüvvələrin əksəriyyəti üsyançılara qoşuldu.

Üsyana rəhbərlik etmək üçün İctimai İdarə heyəti (İİH) təşkil olundu. ADP-nın fəal üzvlərindən – Mirzə Tağı xan Rəfət, Zeynalabdin Qiyami və b. – ibarət heyətə Şeyx Məhəmməd Xiyabani başçılıq edirdi. İİH rəhbərliyi ilə üsyançılar iki gün müddətində demək olar ki, bütün dövlət idarələrini ələ keçirdilər. Silahlı üsyan qan tökülmədən qələbə çaldı. Üsyanın

qələbə çaldığı gün aprelin 7-də Xiyabani Təbriz əhalisi qarşısında etdiyi çıxışında, bu hərəkatın antiimperialist mahiyyətini açıqladı. «Bu gün bütün dünya camaatına rəsmən bildiririk ki, biz Vüsuqüddövlə və ingilis talançı sazişini bağlamış hökumət əleyhinə üsyan etmişik». Xiyabani öz nitqində qeyd etmişdi ki, «Azərbaycanın adını Azadıstana dəyişərək bu gündən bu adı rəsmi ad kimi elan edirik».

İİH milli-azadlıq və demokratik hüquqlar uğrunda mübarizə apardığını Təbrizdəki xarici dövlət konsulluqlarına rəsmi şəkildə bildirdi.

İİH öz fəaliyyətinə ilk növbədə Tehrandan göndərilmiş dövlət məmurlarını və hərbi qulluqçuları idarə işlərindən kənar edərək, onların yerinə ADP-nın tanınmış üzvlərini təyin etməklə başladı.

Azərbaycan əyalətinə vali göndərilən Eynüddövlə İİH-nin ona təqdim etdiyi tələblər ilə üzdə razılaşsa da, gizli şəkildə üsyanı yatırmaq üçün tədbirlər görməyə başladı. O, üsyan məsələsində ADP-dən uzaqlaşmış Mirzə Əli Heyət, Soltanzadə, Əhməd Kəsravi və digər sağ qrup üzvlərini demokratlara qarşı qiyamını təşkil etmək üçün cəhd etdi. İngiltərə səfirliyinin siyasi idarə rəisi Miqer Edmond da bu planın həyata keçirilməsinə yardım göstərirdi. Lakin bu planı həyata keçirməyə çalışanların bəziləri mayın 10-da demokratlar tərəfindən həbs olundular.

Xiyabaninin tələbi ilə M.Edmond ingilis hərbi dəstələrini Təbrizdən çıxarmağa məcbur oldu. Hərəkat öz hüdudlarını genişləndirirdi. Üsyan tədricən Cənubi Azərbaycanın başqa ərazilərinə də yayılırdı. Artıq iyunun əvvəllərində üsyan Zəncan, Marağa, Əhər, Xoy, Ərdəbil və başqa əraziləri əhatə etdi. Tehranda Təbriz üsyanına rəğbət bəsləyən qüvvətli qrup mövcud idi. Üsyan Gilanda da qələbə çaldı. Burada respublika elan edildikdən sonra, onlar Təbriz ilə əlaqə yaratmağa başladılar.

Bütün bunlar, daxili irticaya və imperializmə qarşı mübarizədə müəyyən həmkarlıq təşəbbüsləri, İranın hakim dairələrində böyük çaşqınlıq doğurmuşdu.

1920-ci il iyunun 23-də ADP müvəqqəti hakimiyyət orqanı kimi fəaliyyət göstərən İİH əsasında Milli Hökumət (MH) yaratmağı qərara aldı. ADP hələ üsyanın başlanğıcında mərkəzi hökumətin razılığını almaqla mövcud İran konstitusiyasına uyğun olaraq ümumi seçkilər yolu ilə yerli hakimiyyət orqanı – əyalət əncuməni yaratmağı nəzərdə tuturdu. Lakin Tehran Azərbaycan demokratlarının başqa tələbləri kimi bu tələbini də cavabsız qoydu. Az bir müddət ərzində üsyanın Cənubi Azərbaycan miqyasında uğur qazanması və yerlərdə hakimiyyətin demokratlar əlinə keçməsi ADP-yə İran Konstitusiyası çərçivəsindən kənara çıxaraq əyalət əncuməni əvəzinə tam muxtar hüquqlara və silahlı qüvvələrə malik MH yaratmağa imkan verdi. Ş.M.Xiyabaninin rəhbərliyi ilə yaranmış MH iyunun 24-də «Təcəddüd» qəzeti redaksiyası binasından üsyandan əvvəl mərkəzi dövlət idarələrinin yerləşdiyi binaya – Alaqapıya köçürüldü.

MH demokratik respublika qaydalarına əsaslanırdı. Xiyabaninin sədrlik etdiyi MH-nin tərkibinə ADP-nın 20 üzvü daxil idi. Hərəkatın rəhbərliyi əsasən xırda ticarət burjuaziyasına və ziyalılara məxsus idi. Hərəkatın milli azadlıq cəhəti öz əksini imperialistlər qovulduqdan sonra yaradılacaq demokratik İranın tərkibində Azərbaycana muxtariyyət verilməsi uğrunda mübarizədə tapırdı.

MH rəhbərləri Təbrizdə başlamış üsyanın bütün İrana yayılacağına, ümumxalq üsyanın qələbəsi nəticəsində İranda xalq nümayəndəlrindən ibarət hökumətin təşkilində Azərbaycanın, Təbrizin mühüm rol oynayacağına əmin idilər. Xiyabani deyirdi: «Təbriz İrana nicat verəcəkdir». Hərəkat rəhbərləri üsyanın ilk günlərində mövcud konstitusiyanın bərpası

və təkmilləşdirilməsi tələbini irəli sürürdülərsə, bir neçə aydan sonra, yəni Azərbaycanda MH yarandıqdan sonra artıq İranda şahlığın ləğvi və respublika yaradılması ehtimalını nəzərdə tuturdular. Milli hökumət kənd təsərrüfatı, maarif, maliyyə, səhiyyə, ədliyyə və başqa sahələrdə islahatlar və digər tədbirlər həyata keçirməyə başladı.

MH əvvəldən hazırlanmış layihəyə əsasən, şəhər əhalisindən və Təbrizə gəlmiş kəndlilərdən gələcəkdə ümumi sayı 12 minə çatdırılacaq qoşun hissəsi – milli qvardiya təşkilinə başladı.

Milli hökumət eyni zamanda şəhər əhalisindən yeni jandarm və polis dəstələri təşkil etdi. Jandarm və polis işçilərindən ibarət silahlı dəstələrin sayı 2000 nəfərə yaxın idi. Bu qüvvələr MH-in əsas silahlı dayağı idi.

Təbrizdə xalça fabriki tikilməsinə başlanılmış, şəkər zavodu, toxuculuq və dəri fabrikləri tikilməsi, kənd təsərrüfatı bankı və milli bank açılması, pul islahatı keçirilməsi, şəhər əncuməninə seçkilər aparılması və s. planlaşdırılmışdı. Milli hökumətin mühüm sahələr – maarif, mədəniyyət, səhiyyə, ədliyyə, hərbi işlər və s. üzrə idarə və nazirlikləri yaradılmışdı. İdarə və müəssisələrə Azadıstan adını göstərən yeni lövhələr vurulmuşdu. Onların üzərində İran dövlətinin gerbi (Şir-Xurşud) olduğu kimi saxlanılmaqla Azadıstan adını əks etdirən öz blankları var idi.

**Milli hökumətin süqutu, onun səbəbləri və tarixdə yeri**

Cənubi Azərbaycandakı milli-azadlıq və demokratik hərəkat İngiltərənin İrandakı nümayəndələrini və onlarla əlbir olan İran hökumətini son dərəcə narahat vəziyyətdə saxlamışdı. İngilislər özləri üçün təhlükəli olan milli-azadlıq hərəkatına qarşı müxtəlif planlar hazırlayırdılar.

Cənubi Azərbaycandakı milli-azadlıq hərəkatı və ümumiyyətlə bütün İranı bürümüş olan demokratik inqilab, o cümlədən Gilanda respublika elan olunması 1920-ci il iyunun 25-də Vüsuqüddövlənin istefası və Müşirüddövlənin başçılığı ilə yeni hökumət kabinəsinin təşkil olunması ilə nəticələndi. Müşirüddövlə ingilislərin köməyi ilə üsyançılar üzərinə hücuma hazırlıq görməyə başladı.

Cənubi Azərbaycanın müxtəlfi əyalətlərində üsyana razılaşmayan feodallar və qaragüruhçu dəstə başçıları Tehran hökumətinin göstərişləri ilə MH-yə qarşı yeni qiyamlara başlamışdılar. 1905-1911-ci illərdə Cənubi Azərbaycanda vali olmuş, İDP-nin başçılarından sayılan Hidayət Müxbirüssəltənə 1920-ci ilin sentyabrın əvvəllərində Təbrizə yeni vali vəzifəsinə göndərildi. Xiyabani ilə danışıqlar apardığı müddətdə o, Təbrizin kənarında düşərgə salmış və MH tərəfindən tərksilah edilməmiş. İran kazak briqadasının komandirlərini öz tərəfinə çəkərək şəhərə birgə hücum planı hazırladı. Eyni zamanda Müxbirüssəltənə MH-nin silahlı qüvvələrini Təbrizdən uzaqlaşdırmaq üçün jandarm dəstəsinin rəisi Mir Hüseyn Haşımini satın ala bildi. Mayor M.Haşımi ətrafdakı qüldür dəstələri ilə mübarizə aparmaq adı altında silahlı qüvvələri, MH-nın razılığını almadan, şəhərdən çıxardı. Sentyabrın 12-də səhər əksinqilabı qüvvələr üsyançılar üzərinə hücuma keçdilər.

ADP-nın silahlı üzvlərinin ciddi müqavimətinə baxmayaraq əksinqilabi qüvvələr sentyabrın 12-də Alaqapını ələ keçirdilər, sentyabrın 14-də isə «Təcəddüd» qəzeti binasını dağıtdılar. İrticaçı qüvvələrin sayca çox olmasına baxmayaraq, üsyançılar sentyabrın 14-dək qəhrəmancasına vuruşaraq,təslim olmadılar. Kazaklara demokratların evlərini qarət və talan etməyə icazə verilmişdi. Sentyabrın 14-də Xiyabanini də vəhşicəsinə öldürdülər. İrtica qüvvələri üsyançılara amansız

divan tutdular. Onların evləri yandırıldı, yüzlərlə üsyançı həbs, edam və sürgün edildi.

Beləliklə, beş aydan artıq davam edən Təbriz üsyanı və bunun ardınca bəzi yerlər istisna olmaqla bütün Cənubi Azərbaycandakı hərəkat ingilis imperializminin bilavasitə köməyilə İran irticası tərəfindən yatırılmış oldu. Bu hərəkatın belə asanlıqla yatırılmasının bir sıra obyektiv və subyektiv səbəbləri var idi.

Hərəkatın rəhbərləri – ADP və onun başçısı Ş.M.Xiyabani konkret şəraitdə irticaya qarşı mübarizə dövründə düzgün istiqamət götürsələr də, bir sıra taktiki səhvlərə yol vermişdilər.

İlk növbədə qeyd olunmalıdır ki,Cənubi Azərbaycanda 1917-1920-ci illər hərəkatı İranın digər əyalətlərində və şəhərlərində baş vermiş hərəkatlardan təcrid olunmuş vəziyyətdə qalmışdı. MH onlarla əlaqə yarada bilməmiş və İran irticasına qarşı vahid cəbhədə birləşə bilməmişdi. Xiyabani bütün İrandakı mübarizədə birlik zərurəti fikrini dəfələrlə qeyd etsə də, ancaq Gilan respublikasının nümayəndələri ilə danışıqlar aparılmış, digər yerlərdə olan milli azadlıq hərəkatları ilə əlaqə yaratmamışdılar. ADP rəhbərləri bu hərəkatda həlledici rolu ancaq Cənubi Azərbaycandakı azadlıq mübarizəsində görmüşlər.

Eyni zamanda o da, qeyd olunmalıdır ki, MH-nın istər mülki aparatda, istərsə də hərbi sahədə rəhbər kadrları kifayət qədər deyildi. Bunun nəticəsində əksər hallarda rəhbər işlərə təsadüfi şəxslər cəlb olunmuşdu. Xüsusilə jandarm dəstəsinin başında təsadüfi şəxslərin durması və İran hökuməti qoşunlarının hücumu zamanı onların düşmən tərəfinə keçməsi hərəkatın taleyində həlledici rol oynadı. Bundan başqa MH kifayət qədər silahlı xalq qoşunu yaratmamışdı. Eyni zamanda isə Təbrizin

kənarında yerləşən İran kazak dəstələrinin tərksilah edilməməsi ən böyük səhvlərdən biridir.

Bütün bu səhvlərə və təqribən beş aylıq uğurlardan sonra məğlub edilməsinə baxmayaraq, Ş.M.Xiyabaninin başçılığı ilə həyata keçirilmiş 1920-ci il Təbriz üsyanı və bütün hərəkat Cənubi Azərbaycanda, ümumiyyətlə İranda xalqların inqilabi mübarizə tarixində parlaq bir dövrü təşkil edir. Üsyan məğlub olsa da, bu hərəkatın cənubi azərbaycanlıların İranda hökm sürən imperialist ağalığına, irtica özbaşınalığına qarşı mübarizə tarixində yeri son dərəcə böyükdür. XX əsrdə ikinci dəfə ayağa qalxan cənubi azərbaycanlılar bir daha sübut etdilər ki, onlar İran zülmü əsarətində qul kimi yaşamaq istəmir, öz milli hüquq və azadlıqlarını təyin edən müstəqil qurumlarını yaratmaq istəyirlər. Təbriz üsyanı cənubi azərbaycanlıların milli şüurun yetişib formalaşmasında, millətin inkişaf prosesində xüsusi bir mərhələnin – parlaq bir mübarizə tarixinin səhifəsini təşkil edir.

# IV
# Azərbaycan Xalq Cümhuriyyəti

## § 1. Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması və bütün ölkə ərazisində bərqərar edilməsi

Zaqafqaziya Seyminin vəziyyəti getdikcə pisləşirdi. Daxili və xarici ziddiyyətlər onun fəaliyyətinə güclü əngəl törədirdi. Siyasi partiyalar Seymdə ümumi dil tapa bilməmişdilər. Hər bir fraksiya öz siyasi xəttini həyata keçirməyə çalışırdı.

1918-ci il may ayının əvvəllərində Batumda Seym nümayəndələri ilə Türkiyə arasında danışıqlar davam etdirilsə də hələ uğurlu nəticə yox idi. Əksinə, mayın 17-də türk qoşunları Gümrünü zəbt edərək Cülfa istiqamətinə çıxdılar. Hərbi əməliyyatların uğurla getdiyini görən gürcülər, azərbaycanlılar və ermənilər Batum konfransında Türkiyə ilə ayrı-ayrılıqda danışıqlar aparmağa başladılar. Bu danışıqlar gedişində və alman generalı fon Kressin təzyiqi ilə Seymin gürcü fraksiyası Gürcüstanın Zaqafqaziya Respublikası tərkibindən çıxması və öz müstəqilliyini elan etməsi qərarına gəldi.

Seymin müsəlman fraksiyası da may ayının 25-də keçirdiyi iclasda qəbul etdiyi qətnamədə Azərbaycanın da öz müstəqilliyini elan etmək niyyətində olduğunu bildirdi.

Batum konfransında Federativ Zaqafqaziya Respublikasından çıxdığını qərara alan gürcü fraksiyası Seymin 26-da keçirilən son iclasında Zaqafqaziyanın dağılmasının səbəbini müsəlman fraksiyasının türkpərəst mövqe tutması ilə əlaqələndirdi. Azərbaycan nümayəndəsi Ş.Rüstəmbəyov isə öz çıxışında gürcü fraksiyasının əbəs və az inandırıcı olduğunu bəyan etdi.

Uzun davam edən qarşılıqlı ittihamlardan sonra Zaqafqaziya Seymi Zaqafqaziya Respublikasının parçalanmasını təsdiq edən qətnamə qəbul etdi. Bununla Seym öz fəaliyyətini dayandırdı.

Zaqafqaziya Federativ Respublikasının süqutu Cənubi Qafqazda üç müstəqil dövlətin – Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının yaranması ilə nəticələndi.

1918-ci il may ayının 27-də Seymin Azərbaycan fraksiyasının iclası oldu. Uzun müzakirələrdən sonra Müvəqqəti Milli Şura yaratmaq qərara alındı. Onun sədri vəzifəsinə M.Ə.Rəsulzadə, İcraiyyə Komitəsinin sədri isə F.X.Xoyski seçildi.

Mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurasının ilk iclası oldu. Milli Şura bölgədə, o cümlədən, Azərbaycanda mövcud vəziyyəti müzakirə etdikdən sonra 24 səslə (iki nəfərin – S.M.Qənizadə və C.Axundov bitərəf qaldılar) Azərbaycanın müstəqilliyinin elan olunması barədə qərar qəbul etdi. Habelə Milli Şura 6 maddədən ibarət «İstiqlal Bəyannaməsi»ni təsdiq etdi. Bəyannamədə deyilirdi:

1. Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər, Cənubi və Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan tamhüquqlu müstəqil dövlətdir.
2. Müstəqil Azərbaycanın siyasi quruluş forması demokratik respublikadır.
3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər, xüsusilə qonşu xalqlar və dövlətlərlə mehriban qonşuluq münasibətləri yaratmağa çalışır.
4. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyətindən, dinindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq, bütün vətəndaşlarını tam siyasi hüquqlarla təmin edir.

5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərə azad inkişaf üçün geniş imkanlar verir.
6. Müəssisələr Məclisi çağırılana qədər bütün Azərbaycanın idarəsi başında xalq səsvermə yolu ilə seçilmiş Milli Şura və onun qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

«İstiqlal Bəyannaməsi» böyük tarixi sənəd idi. Onda elan olunmuş Xalq Cümhuriyyətinin quruluşu, daxili siyasi və hüquqi həyatı, xarici münasibətləri və bu kimi konstitusiya normaları öz əksini tapmışdı.

Milli Şuranın bu iclasında F.X.Xoyskiyə ilk Azərbaycan hökumətini təşkil etmək tapşırıldı. Bir saatlıq fasilədən sonra o, bu tapşırıq əsasında F.X.Xoyskinin təklif etdiyi tərkibdə müvəqqəti hökuməti təsdiq etdi. Azərbaycan Xalq Cümhuriyyətinin Müvəqqəti hökumətinin tərkibinə Fətəli Xan Xoyski (bitərəf, nazirlər şurasının sədri və daxili işlər naziri), Nəsibbəy Yusifbəyli («Müsavat», maliyyə və xalq maarifi naziri), Məmməd Həsən Hacınski («Müsavat», xarici işlər naziri), Xudadat bəy Məlikaslanov (Müsəlman Sosialist Bloku, yollar və poçt-teleqraf naziri), Xəlil bəy Xasməmmədov («Müsavat», ədliyyə naziri), Əkbər Şeyxülislamov («Hümmət», əkinçilik naziri), Xosrov Paşa bəy Sultanov («İttihad», hərbi nazir), Məmməd Yusif Cəfərov (bitərəf, ticarət və sənaye naziri), Camo Hacınski (Müsəlman Sosialist Bloku, dövlət nəzarəti naziri) daxil idilər.

Elə həmin gün Nazirlər Şurasının sədri F.X.Xoyski müstəqil Azərbaycan Cümhuriyyətinin yaradılması barədə bir sıra dövlətlərin xarici işlər nazirlərinə radioqram göndərdi.

Elan olunmuş müstəqil Azərbaycan Müvəqqəti hökuməti 1918-ci il iyunun 16-na kimi Tiflisdə fəaliyyət göstərmişdi. Bu dövrdə, iyunun 4-də o, Osmanlı Türkiyəsi ilə

dostluq haqqında müqavilə imzaladı. Bu xarici dövlətlərlə Xalq Cümhuriyyətinin ilk müqaviləsi idi. Həmin müqavilə Müstəqil Azərbaycan Cümhuriyyətinin oturuşması və möhkəmlənməsində çox mühüm rol oynamışdı. Osmanlı hökuməti öz üzərinə Azərbaycan Cümhuriyyətinə hərtərəfli kömək etmək təəhhüdləri götürmüşdülər. Bu müqaviləyə görə Türkiyə, öz ərazi bütövlüyünü bərpa etməkdə Azərbaycan Cümhuriyyətinə kömək etmək missiyasını öhdəsinə götürdü.

Batum müqaviləsinə əsasən başda Nuru Paşa olmaqla Türkiyənin 5-ci və 15-ci diviziyaları Azərbaycan Cümhuriyyətinə göndərildi. Qoşun hissələri Gəncədə yerləşdirildi.

18 günlük fəaliyyətdən sonra Azərbaycan Milli Şurası və Müvəqqəti hökuməti 1918-ci il iyunun 16-da Gəncəyə köçdü. İlk günlərdə burada hökumətin fəaliyyəti çox gərgin şəraitdə keçmişdi. Bu tarix ədəbiyyatında bəzən Müstəqil Azərbaycan hökumətinin Gəncə iyun siyasi böhranı kimi də qiymətləndirilirdi. Böhran ən çox Azərbaycan Müvəqqəti hökumətinin üzvləri ilə Gəncədə yerləşən Qafqaz İslam ordusunun bölmələri komandanlığı arasında münasibətlərlə əlaqədar yaranmışdı. Nuru Paşa müstəqil dövlətin daxili işlərinə qarışaraq X.Xoyskinin başçılıq etdiyi kabinetə etimadsızlıq göstərdiyini elan edirdi. O, bu böhranlı vəziyyəti aradan qaldırmağa səy göstərən Milli Şura üzvlərini qəbul etməkdən imtina etmişdi. Onlar yalnız Nuru Paşanın müşaviri Əhməd bəy Ağayevlə görüşməyə müyəssər olmuşdular. O isə Milli Şura üzvlərinə Milli Şuranın buraxılması və Nuru Paşa tərəfindən yeni hökumət kabinetinin təşkil olunması israrında olduğunu və əks təqdirdə türklərin hökuməti dəstəkləməyəcəyini bildirmişdi. O zaman Gəncəyə toplanmış, Milli Şura əleyhinə çıxış edən bəzi burjua-mülkədar və klerikal dairələrin nümayəndələri isə

Azərbaycanın Osmanlı imperiyasına ilhaq edilməsi təkliflərini səsləndirirdilər.

Bütün bunlar Milli Şuranın radikal cinahından olan N.Yusifbəylinin, M.Y.Cəfərovun və D.Vəkilovun ciddi etirazlarına səbəb olmuşdu. Onları sosialist blokundan olanlar da dəstəkləmişdi. İttihadçılar isə osmanlıpərəst mövqe tutmuşdular.

«Müsavat» partiyasının lideri M.Ə.Rəsulzadənin və onun tərəfdarlarının müdrik siyasəti sayəsində siyasi böhran aradan qaldırıldı. İyunun 17-də Milli Şura yeni hökumət təşkil etmək və özünün bütün səlahiyyətlərini ona vermək kimi müdrik addım atmağa məcbur oldu. Bununla o, öz tarixi missiyasını çox çətin və mürəkkəb bir şəraitdə Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq vəzifəsini yerinə yetirdi.

1918-ci il iyunun 17-də F.X.Xoyski başda olmaqla yeni hökumət təşkil olundu. Hökumətin tərkibinə M.H.Hacınski (xarici işlər naziri), B.X.Cavanşir (daxili işlər naziri), Ə.Ə.Əmircanov (maliyyə naziri), X.P.Sultanov (əkinçilik naziri), N.Yusifbəyli (xalq maarifi və etiqadlar naziri), A.Aşurov (ticarət və sənaye naziri), X.Məlikaslanov (yollar naziri), X.Rəfibəyov (xalq səhiyyəsi və himayədarlıq naziri) daxil idilər.

Yeni təşkil olunmuş hökumətdə hərbi nazir vəzifəsi yox idi. Bu o zaman mövcud olan tarixi şəraitlə əlaqədar idi. Hökumətin qərarı ilə Azərbaycan korpusu adlandırılan Müsəlman korpusu yenidən qurulmağa başlanmışdı. Yenidən qurulmağa başlanan Azərbaycan korpusuna komandan general-leytenant Ə.Şıxlinski təyin edilmişdi.

Bu dövrdə Müstəqil Azərbaycan hökumətinin qarşısında bütün ölkə ərazisində Xalq Cümhuriyyəti hakimiyyətini bərqərar etmək vəzifəsi dururdu.

1918-ci ilin yazında Azərbaycan iki yerə bölünmüşdü. Azərbaycanın Şərq hissəsi (Bakı quberniyası) Bakıda fəaliyyət göstərən Xalq Komissarları Sovetinin nüfuz dairəsi, qərb hissəsi

isə (Yelizavetpol quberniyası) Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti altında idi.

Vəzifə Bakı və onun ətrafını Sovet Rusiyasının itaətkar nökəri olan bolşevik-daşnak işğalından azad etməkdən, gənc müstəqil dövlətin ərazi bütövlüyünü bərpa etməkdən, bütün ərazidə Xalq Cümhuriyyətinin hakimiyyətini bərqərar etməkdən ibarət idi.

Bütün Cənubi Qafqazı sovetləşdirmək arzusunda olan bolşeviklər Bakı XKS-nə bir dayaq kimi baxırdılar. BXKS-nin rəhbərliyi öz növbəsində Azərbaycan Xalq Cümhuriyyətinin bu yolda başlıca maneə hesab edirdi. Ona görə də o, Sovet Rusiyasının hərbi yardımına arxalanaraq Xalq Cümhuriyyətinin iqamətgahı Gəncəyə hücuma başlamışdı.

Azərbaycan-Türkiyə birləşmiş qoşunları ilə XKS-nin ordu hissələri arasında ilk döyüş 1918-ci il iyunun 16-da Göyçaydan 20 km aralı olan Qaraməryəm kəndi yaxınlığında baş verdi. Çox ağır və qanlı döyüşlər gedirdi. Nəhayət, 1918-ci il iyunun axırlarında BXKS qoşunlarının hücumları dayandırıldı. İyulun 1-də Göyçay azad edildi. Bu qələbə Azərbaycanın Şərq hissəsinin, o cümlədən Bakının bolşevik-daşnak işğalından azad edilməsi uğrunda mübarizədə dönüş nöqtəsi oldu. Bundan sonra bir-birinin ardınca bolşevik-daşnak qoşunlarının əlinə keçirilmiş şəhər və kəndlər onlardan azad edildilər. İyunun 30-da Şamaxı azad edildi.

Bu dövrdə BXKS dərin böhran keçirirdi. O, getdikcə sosial bazasını itirirdi. Sovetin menşevik-eser-daşnak bloku Bakının müdafiəsini möhkəmləndirmək üçün başda general L.Denstervil olmaqla ingilis qüvvələrini Bakıya dəvət etmək istəyirdilər. Buna etiraz edən bolşeviklər isə Çar ordusunun polkovniki L.Biçeraxovun dəstəsindən istifadə etməyin tərəfində idilər. Hətta iyulun 7-də Biçeraxovun 1500 nəfərlik dəstəsi Bakının sağ cinahının müdafiəsini öz öhdəsinə götürmüşdü.

Lakin Bakıda vəziyyətin ümidsiz olduğunu görən bu dəstə iyulun sonunda cəbhəni tərk edərək Şimala Petrovska yan almışdı.

İyulun 25-də Bakı Sovetinin iclasında səsvermə yolu ilə ingilis qoşunlarının Bakıya dəvət olunması barədə qərar qəbul edildi. Bu qərardan narazı olub ona tabe olmayan Bakı Xalq Komissarları iyulun 31-də istefa verdilər. Bununla da BXKS-i süqut etdi.

Bundan sonra avqustun 1-də Bakıda hakimiyyət sağ eser-menşevik-daşnak blokunun «Sentr Kaspi diktaturası və fəhlə, əsgər deputatlarının Müvəqqəti İcraiyyə Komitəsinin rəyasət heyəti» adlanan hökumətin əlinə keçdi. Avqustun 4-də bu hökumətin dəvəti ilə ingilis polkovniki Stoksun dəstəsi Bakıya gəldi.

İndi Türkiyə və Xalq Cümhuriyyətinin birləşmiş qoşun hissələri «Sentrakaspi» diktaturası və ingilis qüvvələrinə qarşı vuruşmalı oldu. Avqustun sonlarından Bakı uğrunda döyüşlər daha da gücləndi. Sentyabrın 15-də Bakı üzərinə həlledici hücum başlandı. İngilislər və «Sentrakaspi diktaturası»nın üzvləri və ermənilər şəhərdən qaçmağa başladılar. Sentyabrın 17-də Azərbaycan hökuməti Bakıya gəldi. O, paytaxtda və onun ətrafında olan əhalinin milliyyəti və dinindən asılı olmayaraq bütün vətəndaşların həyatını, əmlak və hüquqlarını qorumaq əzmində olduğu bəyanatıla çıxış etdi.

Sentyabrın 18-də türk qoşunları Bakıya daxil oldu. Əhali onları çox ruh yüksəkliyi ilə qarşıladılar.

Beləliklə, Xalq Cümhuriyyətinin həyatında ikinci mühüm bir hadisə – Bakının azad edilməsi və onun paytaxta çevrilməsi hadisəsi baş verdi.

Xalq Cümhuriyyəti hökuməti öz ayrılmaz tərkib hissələri olan Naxçıvan, Zəngəzur və Qarabağla sıx tellərlə əlaqədə idi. O, Xalq Cümhuriyyətinin ərazi bütövlüyünün

müdafiəsi istiqamətində bu bölgələrdə də müəyyən tədbirlər görürdü. Belə ki, Azərbaycan parlamentliyinin sənədlərində Naxçıvan bölgəsi Araz-Türk Respublikası ilə bağlı məsələlər öz əksini tapmışdı. Hətta hökumətin 1919-cu il fevralın 28-i tarixli qərarı ilə Naxçıvan general-qubernatorluğu («Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu») yaratmışdı. Bəhram xan Naxçıvanski general-qubernator təyin edilmişdi.

Bu zaman quldur-qaniçən Andronikin tuğyan etdiyi Zəngəzurla və Qarabağla da əlaqələr yaradılmışdı. Bölgədə nəzarəti ələ almaq üçün Nazirlər Şurası 1919-cu il yanvarın 15-də Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları üzrə general-qubernatorluq yaratmaq barədə qərar qəbul etmişdi. Xosrov Paşa bəy Sultanov Qarabağın general-qubernatoru təyin edilmişdi. Dağlıq Qarabağda Azərbaycan Cümhuriyyəti hakimiyyətinin tam bərqərar edilməsində hökumətin yürütdüyü sülhsevər siyasət mühüm rol oynamışdı. Məhz bu siyasətin sayəsində Dağlıq Qarabağ ermənilərinində də bölgədə Xalq Cümhuriyyəti hakimiyyətinin tam bərqərar olmasına müsbət münasibət formalaşdı. Dağlıq Qarabağ ermənilərinin 1919-cu il avqustun 19-da toplanmış qurultayı bölgənin Azərbaycanın ayrılmaz tərkibi olduğu barədə qərar qəbul etmişdi.

Gənc müstəqil Azərbaycan hökuməti cənub bölgəsində, Lənkəranda da separatçılıq hərəkətlərini ləğv etmək üçün tədbirlər gördü.

1918-ci ilin əvvəllərində burada hakimiyyətə müsavat qüvvələri nəzarət edirdi. Aprel ayında «Aleksandr-Jander» gəmisi ilə bölgəyə gələn sovet qoşunları hakimiyyəti ələ aldı. Lakin bu uzun çəkmədi. BXKS-in süqutu ilə burada bolşevik qüvvələrinin nüfuzu zəiflədi. Bölgədə Denikin qoşunları ilə əlaqəsi olan rus zabitləri fəallaşdı. 1918-ci ilin avqustunda Lənkəran və Cavad qəzalarında hakimiyyət polkovnik

İlyaşeviçin başçılığı ilə 5 nəfərdən ibarət «Müvəqqəti diktatura»nın əlinə keçdi. Buna «Beşlər diktaturası» da deyilirdi.

1918-ci ilin may ayında bölgədə hakimiyyət yenidən kommunistlərin əlinə keçdi. Burada yaradılmış «Muğan Sovet Respublikası»na Leninin Həştərxandan Lənkərana göndərdiyi kommunist T.İ.Ulyantsev (Otradnev) başçılıq edirdi. Onun da ömrü uzun sürmədi. Yenidən hakimiyyətə ağqvardiyaçı rus zabitlərinin başçılıq etdiyi qüvvələr gəldilər.

Cümhuriyyətin general-mayor Həbib bəy Səlimovun rəhbərliyi altında olan qoşunları 1919-cu ilin avqustunda Lənkəran bölgəsində olan separatçı qüvvələri ləğv etdilər.

Beləliklə, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətinin ölkənin bütün ərazisində bərqərar olması təmin edildi.

Xalq Cümhuriyyti hakimiyyətinin sabitləşməsində Böyük Britaniya ilə münasibətlərin qaydaya salınmasının da mühüm rolu olmuşdu. Mudros müqaviləsinin (30 oktyabr 1918-ci il) şərtlərinə əsasən Azərbaycan ərazisi ingilis qoşun həssələrinin işğal zonasına daxil edilmişdi. Buna görə də ingilis nümayəndələri ilə danışıqlar aparmaq günün zəruri məsələsi olmuşdu. Bu danışıqlar 1918-ci il noyabrın əvvəllərində Böyük Britaniyanın Ənzəlidə yerləşən Şimali İran ordusunun komandanlığı ilə olmuşdu. Azərbaycan tərəfdən nümayəndə heyətinə N.Yusifbəyli, Ə.Ağayev və M.Rəfiyev daxil idilər. Danışıqların əvvəlində Azərbaycan hökuməti ilə hesablaşmayan ingilis ordusunun komandanı general Tomson bildirdi ki, «Azərbaycan Cümhuriyyəti adı altında bizə yalnız xalq kütləri içərisində heç bir dayağı olmayan, türklərin intriqaları ilə yaradılmış hökumət məlumdur». Hətta o, noyabrın 17-də səhər «Bakı həm Türkiyə, həm də Azərbaycan qoşunlarından təmizlənməlidir» bəyannaməsini elan etdi. Bu bəyanatda bildirildi ki, Bakı, onun neft mədənləri ingilislərin nəzarətinə

keçir, ölkənin qalan hissəsi Azərbaycan hökuməti və ordusunun nəzarətində qalır, Azərbaycan Xalq Cümhuriyyəti rəsmən tanınmır, onunla de-fakto əlaqə yaradılır. V.M.Tomson Bakının general-qubernatoru olur, şəhər polisinə ingilis zabiti başçılıq edir, L.Biçeraxov və onun dəstələri Britaniya ordusu ilə birlikdə Bakıya daxil olur və erməni silahlıları şəhərə buraxılmır.

General Tomson başda olmaqla ingilis qoşunları 1918-ci il noyabrın 17-də Bakıya gəldilər. Ordusunun böyük əksəriyyətini ermənilər təşkil edən L.Biçeraxovun dəstəsi də Bakıya daxil oldu. Şəhərin xristian əhalisi onu böyük rəğbətlə qarşıladı. Hətta onlar «heç bir Azərbaycan yoxdur, yalnız Rusiya vardır. Azərbaycan hakimiyyəti devrilməli və o, Biçeraxovun başçılıq etdiyi Xəzəryanı hökumətlə əvəz olunmalıdır» qərarını qəbul etdilər.

İngilislərin Bakıya daxil olan zaman çox xoşagəlməz hadisələrdən biri də, Tomsonun limanda İngiltərə, ABŞ, İtaliya bayraqları ilə yanaşı dalğalanan Azərbaycan bayrağını götürməyi əmr etməsi olmuşdu.

Bakıya gəlmiş ingilis hərbi komandanlığı ölkənin ictimai-siyasi və iqtisadi həyatına aşkarcasına müdaxilə etməyə başladı. General Tomson noyabrın 17-də Rus Milli Şurasının üzvləri ilə görüşü zamanı onların Azərbaycanda yaradılacaq koalision hökumətə daxil olmaq təklifini irəli sürdü. O, Bakıda hərbi vəziyyət elan etdi. Bu ingilis komandanlığının Bakı və onun ətrafında hakimiyyəti tamamilə öz əlinə alması demək idi.

Bundan sonra şəhərin iqtisadi həyatında onların təsirləri gücləndi. 1918-ci ilin noyabrında Xəzər Donanmasının bütün ticarət gəmiləri də ingilis komandanlığının ixtiyarına keçdi. Başda mayor Braun olmaqla «İngiltərə Dəniz nəqliyyatı» şirkəti təsis olundu. Neft sənayesində nəzarəti öz əllərində saxlamağa çalışan ingilislər «Britaniya Neft İdarəsi»ni təsis etdilər. Doqquz ay ərzində (1918-ci ilin dekabrından 1919-cu ilin avqustunadək)

ingilislər Bakıdan 113,5 milyon manatlıq, 30 milyon puda qədər neft aparmışdılar. Onlar əmək münaqişələrini həll etmək üçün «Əmək idarəsi» yaratmışdılar. Azərbaycan hərbi nazirliyi Gəncəyə köçürülmüşdü.

Lakin Bakıda mövqeyini möhkəmləndirən general Tomson ölkənin ictimai-siyasi reallıqlarını dərk edəndən sonra Azərbaycan hökumətini ölkədə fəaliyyət göstərən yeganə mülki hakimiyyət olduğunu etiraf etdi. Azərbaycan hökuməti başçısı F.X.Xoyskini «Bakıda ən bacarıqlı adamlardan» biri kimi qiymətləndirdilər.

Beləliklə, Xalq Cümhuriyyəti hakimiyyəti Azərbaycanın bütün ərazisində yeganə hökumət kimi bərqərar olub sabitləşdi.

## § 2. Milli dövlət quruculuğu.

### Azərbaycan Parlamentinin formalaşması və fəaliyyəti

Hökumətin və parlamentin formalaşdırılması və fəaliyyəti Azərbaycan Xalq Cümhuriyyəti və onun yaradıcılarının ən mühüm addımlarından biri dünya sivilizasiyasının yüksək demokratiya timsalında dövlətçilik bərqərar etmələri idi.

Onlar birinci növbədə 1918-ci il mayın 27-də Ümumrusiya Müəssisələr Məclisinə seçilmiş deputatlardan ilk parlament tipli Müvəqqəti Milli Şura yaratdılar. Milli dövlətçiliyin bərqərarı məhz buradan başlandı. Həmin iclasda F.X.Xoyskinin başçılığı ilə 9 nəfərdən ibarət İcraiyyə Komitəsi təşkil olundu. Bu ən demokratik addım idi.

Xalq Cümhuriyyətinin Konstitusiya prinsiplərini özündə yığcam ehtiva edən «İstiqlal Bəyannaməsi»ndə göstərilirdi ki, «Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur. Ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və Milli Şura

qarşısında cavabdeh olan Müvəqqəti hökumət sayılır». Deməli, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruluşu parlamentli respublika idi. Bu siyasi quruluşda qanunvericilik vəzifələri parlamentə, icraedicilik isə onun qarşısında məsul olan nazirlər kabinetinə – hökumətə məxsus idi. Siyasi quruluşda M.Ə.Rəsulzadənin yazdığı kimi, «parlament hakimiyyəti mütləq idi».

Hökumət hələ Gəncədə olarkən dövlət rəmzləri barədə qərarlar qəbul etdi. İyunun 24-də cümhuriyyətin bayrağı barədə qərar verildi. Bu qərara görə bayraq üzərində ağ aypara və səkkizguşəli ulduz əks edilmiş al qırmızı parçadan olmalı idi. Noyabrın 9-da o, mavi, yaşıl və qırmızı rəngli parça üzərində ağ aypara və səkkizguşəli ulduz əks olunan bayraqla əvəz olundu. Bu bayraq türklüyü, islamı və müasir demokratik mədəniyyəti təcəssüm etdirirdi.

İyunun 26-da Milli Ordu yaratmaq haqqında fərman verildi. 27-də türk (Azərbaycan) dili dövlət dili elan edildi. Dövlət orqanlarının işinin iki il ərzində tamamilə ana dilinə (türk dilinə) keçirilməsi müəyyən olundu. Daxili işlər orqanları təşkil edildi. Avqustun 11-də Azərbaycan ordusuna ilk çağırış barədə qanun verildi. Dövlət quruculuğuna müqavimət göstərən bütün milli komitələr ləğv olundu. Hökumət kabinəsinə daxil olan bütün nazirliklərin strukturu, onların fəaliyyəti prinsipləri barədə fərmanlar verildi. Avqustun 23-də Azərbaycan vətəndaşlığı haqqında qərar qəbul olundu.

Dövlət quruculuğu tarixində Azərbaycan hökumətinin 1918-ci il sentyabrın 17-də Gəncədən Bakıya köçürülməsi də çox mühüm tarixi hadisə idi. Artıq Milli hökumət öz doğma vətəninin ürəyi olan Bakı şəhərində məskunlaşıb fəaliyyət göstərməyə başladı. Bakının müstəqil şəhər kimi Rusiyaya tabe olması barədə bolşevik-daşnak xülyalarına son qoyuldu.

Milli dövlətçiliyin bərqərar olmasında parlamentin formalaşması mühüm mərhələ təşkil etmişdi. Parlamentin yaradılması Xalq Cümhuriyyətində demokratik dəyişikliklərin başlanmasının və həyata keçirilməsinin rəhnini təşkil etmişdi. O, Azərbaycanda da Avropada olan sivil demokratik cəmiyyətə müavfiq cəmiyyət qurulmasının başlancığı idi.

Yuxarıda qeyd etdiyimiz kimi, Xalq Cümhuriyyətinin əsasını qoyan Milli Şura Azərbaycanda ilk parlament nümunəsi idi. Lakin o, 1918-ci il iyunun 17-də müəyyən səbəblər üzündən işini dondurmuşdu. Bu qərara əsasən altı ay müddətində ümumi gizli və birbaşa səsvermə yolu ilə ali qanunvericilik orqan olan Müəssisələr Məclisi çağrılmalı idi. Bu 1918-ci il dekabrın 16-dək həll edilməli idi. Müəssisələr Məclisinə seçkilər üzrə hətta 1918-ci il sentyabrın 14-də F.X.Xoyskinin sədrliyi ilə komissiya da yaralıdmışdı. Oktyabrın 21-də Müəssisələr Məclisinə seçkilər haqqında qanun hazırlamaq məqsədilə M.Rəfiyevin başçılığı ilə əvvəlkindən daha geniş təmsil olunan komissiya yaradılmışdı. Lakin bu komissiyaların işi nəticəsiz qalmışdı.

Bunu görən komissiya daxili və beynəlxalq vəziyyətdə yaranmış şəraiti nəzərə alaraq Müəssisələr Məclisi çağırılanadək müvəqqəti parlament yaratmağı təklif etdi. Bu məqsədlə noyabrın 5-də komissiya «təcili olaraq sadələşdirilmiş şəkildə müvəqqəti Azərbaycan parlamenti çağırılması» qərarına gəldi. Bunun üçün çıxış yolu üzvləri Ümumrusiya Müəssisələr Məclisinə ümumxalq seçkiləri əsasında seçilmiş Milli Şuranı bərpa etməkdən ibarət olardı. Bunu nəzərə alaraq hökumət noyabrın 9-da 1918-ci il noyabrın 16-da Milli Şura çağırılması qərarını verdi. Seçki qanunu haşırlamaq üçün M.Ə.Rəsulzadə, M.Rəfiyev və H.Ağayevdən ibarət xüsusi komissiya təşkil edildi. Beş aydan sonra 1918-ci il noyabrın 16-da toplanan Milli Şura mövcud fövqəladə şəraitdə Müəssisələr Məclisinin çağırılmasının mümkün olmadığı ilə əlaqədər özünü parlamentə

çevirməyi qərara aldı. Noyabrın 20-də isə Milli Şura komissiyanın təklif etdiyi layihə əsasında Azərbaycan parlamentinin yaradılması barədə qanun qəbul etdi. Parlament çağırılanadək hökumət qanunvericilik hakimiyyətini formalaşdırmaq vəzifələrini öz öhdəsinə götürdü.

Parlamentin açılışı dekabrın 3-ə müəyyənləndirilmişdi. İngilis komandanlığının Azərbaycan hökumətini tanımaması üzündən parlamentin iclası göstərilən vaxt toplana bilmədi.

1918-ci il dekabrın 7-də Azərbaycan parlamenti toplandı. O müsəlman Şərqi və türk dünyası tarixində ilk hadisə sayılırdı. Bu münasibətlə o zaman «Azərbaycan» qəzeti yazmışdı: «Tarixi hadisələrin gedişində bizlər dövlətçiliyimizin baniləri və xalqların öz müqəddaratını təyin etməsi şüarı ilə yayılan yeni siyasi hərəkatın qaranquşları olduq».

Parlament müvəqqəti olaraq Hacı Z.Tağıyevin Nikolayev (indiki İstiqlal) küçəsindəki qız məktəbinin binasında toplanmışdı. İclas zalının mərkəzində müsavatçılar və milli azlıqların nümayəndələri, solda sosialist blokunun və hümmətçilərin nümayəndələri və sağda isə ittihadçılarla bitərəflər əyləşmişdilər. Diplomatik nümayəndəliklərin üzvləri lojada yerləşmişdilər.

Parlamentin əsas özəyini keçmiş Milli Şuranın 44 üzvü təşkil edirdi. Keçmiş Milli komitələrin xətti ilə isə şəhər və qəzalardan 36 müsəlman deputatı seçilmişdi. Nəzərdə tutulan 120 deputatdan 80 nəfəri müsəlman, 21 nəfəri erməni, 3 nəfəri rus, 4 nəfəri alman, yəhudi, gürcü və polyak azlıqlarından olmalı idi. Həmkarlar təşkilatlarına 3 yer, Neft Sənayeçiləri Şurası və ticarət-sənaye ittifaqına 2 yer ayrılmışdı.

Siyasi qüvvələr və partiyalar arasında parlamentə münasibət heç də birmənalı deyildi. Noyabrın 25-də Azərbaycan Milli Şurası erməni və rus Milli Şuralarına öz nümayəndələrini parlamentə göndərmək təklifi ilə müraciət etməsinə baxmayaraq

ilk əvvəl onların hər ikisi müəyyən bəhanələrlə bundan imtina etmişdilər. Lakin Azərbaycan hökuməti milli azlıqların heç birinin parlamentdə iştirak edib-etməməsindən asılı olmayaraq parlamenti çağırmaq əzmində olduğunu bəyan etdikdən və ingilis generalı Tomsonun F.X.Xoyskinin yaratdığı hökumətə müttəfiq komandanlığının hərtərəfli yardım edəcəyini bildirdikdən sonra, həm erməni, həm də slavyan-rus cəmiyyəti milli şuraları parlamentə daxil olmaq qərarına gəldilər.

Parlamentə siyasi partiyaların da münasibəti müxtəlif idi. 1918-ci il dekabrın 6-14-ü arasında toplanmış demokratik müşavirədə bolşeviklər istisna olmaqla iştirak edən rus partiyaları, xüsusən eserlər, kadetlər, menşeviklər «vahid və bölünməz Rusiya» şüarını müdafiə edirdilər. Onlar yeni yaranmış dövləti tanımaqdan və yerli hökumətdə iştirakdan imtina etməyə çağırırdılar. Yenidən Rusiya ilə birləşmək ideyasının əleyhinə çıxan milli partiyaların – «Müsavat», «İttihad», «Hümmət» və Müsəlman Sosialist Blokunun mövqeləri üst-üstə düşürdü. Bolşeviklər isə fəal boykot taktikasını yürüdürdülər. Menşevik hümmətçilər parlamentin açılmasına kömək edir, inqilabı təbliğat məqsədilə parlamentdə iştirak etməyi zəruri sayırdılar. Eserlərin Bakı Komitəsi parlamentdə onlar üçün 5 yer ayrılmasını xahiş etmişdilər. 1919-cu il yanvarın 25-də parlamentdə müzakirə edilib müsbət cavab verilməməsinə baxmayaraq onlar parlamentin fəaliyyətində iştirak edirdilər.

Parlamentdə 3 fraksiya və qrup təmsil olunmuşdu. 1919-cu ilin əvvəlində parlamentin cəmi 79 üzvü var idi. «Müsavat» fraksiyasını – 23, «İttihad»ı – 11, «Əhrarı»- 9, «Hümmət»i – 5, «Müsəlman Sosialistlər Bloku»nu – 5, «bitərəflər»i – 15, «milli azlıqları»- 4, «Rus-slavyan cəmiyyəti»ni – 3, «erməni fraksiyası»nı – 4 deputat təmsil edirdi.

Ən nüfuzlu qüvvə olan «Müsavat» parlamentdə mərkəzi mövqedə dururdu. O, dövlətin maraqları naminə koalisiya prinsipini əsas götürür, öz fəaliyyətində bütün siyasi təşkilatlarla konstruktiv əməkdaşlığa meyl göstərirdi. Müsavatçılar parlamentdə demokratik bitərəflər qrupu ilə ittifaqda olmaqla yanaşı, sosialist fraksiyasına arxalanmağı məqsədəuyğun hesab edirdilər.

İkinci fraksiyanı sollar təmsil edirdilər. Onlar «Hümmət» və «Müsəlman Sosialistlər Bloku» təşkilatları çərçivəsində fəaliyyət göstərən milli sosial-demokratları, eserləri və menşevikləri özündə birləşdirirdilər. Onlar çox zaman hakimiyyətdaxili məsələlərdə prinsipial mövqedən çıxış etmirdilər.

Sağ cinahı təmsil edən üçüncü fraksiyada «İttihadçı»lar təmsil olunurdular. Onlar ölkədə siyasi üstünlüyə malik olan milli-demokratik qüvvələrə münasibətdə sərt müxalifət mövqeyindən çıxış edirdilər. Onlar 1919-cu ilin dekabrınadək hökumət kabinetlərinin formalaşmasında iştirak etməkdən imtina etmişdilər.

Parlamentin ilk iclasında Milli Şuranın və «Müsavat» fraksiyasının sədri M.Ə.Rəsulzadənin giriş nitqindən sonra fraksiya adından çıxış edən Ş.Rüstəmbəyovun təklifi ilə Əli Mərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə onun müavini seçildi.

H.Ağayevin təklifi ilə ən gənc deputat Rəhim Vəkilov parlamentin katibi seçildi. Ə.M.Topçubaşovun Bakıda olmadığından sədr vəzifəsinin icrası müvəqqəti olaraq H.Ağayevə həvalə olundu. Parlamentin cari işləri ilə məşğul olmaq üçün parlament sədri, onun müavini və fraksiyaların nümayəndələrindən ibarət ağsaqqallar şurası yaradıldı.

Sonra parlament baş nazir F.Xoyskinin hökumətinin fəaliyyəti barədə hesabat məruzəsini dinlədi. Hesabat

məruzəsində daxili vəziyyət və onun çətinlikləri təhlil edildikdən sonra göstərildi ki, müttəfiq dövlətlər Azərbaycan xalqının öz müqəddəratını təyin edib yaşamaq haqqından məhrum olmasını istəməyəcək, onun öz istiqlaliyyəti yolunda gördüyü işlərə və apardığı mübarizəyə kömək göstərəcəklər.

Parlamentin ikinci iclasında (1918-ci il 10 dekabr) fraksiyalar öz bəyanatları ilə çıxış etdilər.

«Müsavat» partiyasının bəyannaməsi ilə partiyanın lideri M.Ə.Rəsulzadə, Sosialist fraksiyasının bəyannaməsi ilə A.Səfikürdski, Ə.Şeyxülislamov və Ə.C.Pepinov, «İttihad»ın bəyannaməsi ilə partiyanın lideri Q.Qarabəyov, milli azlıqların təmsilçiləri tərəfindən M.N.Vinoqradov (rus-slavyan cəmiyyəti), Q.İ.Tsxakaya (gürcü), S.A.Vansoviç (polyak), L.Y.Kun (alman), M.A.Quxman (yəhudi milli şurası) çıxış etdilər. Onlar parlamentin açılması münasibətilə öz təbriklərini bəyan etməklə yanaşı bildirdilər ki, Azərbaycan onun ərazisində yaşayan bütün xalqların birgə səyi nəticəsində azad və demokratik dövləti qura və möhkəmləndirə biləcəkdir.

«Əhrar» partiyasının bəyannaməsi parlamentin 1918-ci il 26 dekabr tarixli iclasında dinlənildi. Bu barədə Abdulla bəy Əfəndizadə çıxış etdi. O, çıxışında hökumətin yarımillik fəaliyyətinin qənaətbəxş olmadığını qeyd etdi. Aqrar fəhlə və xarici siyasət məsələləri üzrə partiyanın mövqelərini açıqladı.

Beləliklə, parlamentin ilk iclaslarının gedişindən görünürdü ki, yeni formalaşan Azərbaycan parlamenti öz işini Avropasayağı ən demokratik prinsiplər əsasında qurmuşdu.

***Ali dövlət orqanları***

Parlamentin ilk çağırışı yeni hökumət təşkil etməyi F.X.Xoyskiyə tapşırdı. Bu münasibətlə parlament sədrinin müavini F.X.Xoyskiyə müraciəti göstərdi ki, «fraksiyaların arzusu, habelə Sizin siyasi təcrübəniz, vətən və millətə xidmət işində

göstərdiyiniz mühüm fəaliyyət və fədakarlığınız məni vadar edir ki, Sizi vacib və çətin bir işə, baş nazir vəzifəsini öz üzərinizə götürməyə və koalision kabinet təşkil etməyə dəvət edim».

Əvvəl Xoyski səhhətinin pozulduğuna istinad edərək bu təklifdən imtina etdi. Lakin ölkədə yaranmış vəziyyəti nəzərə alaraq ikinci təkliflə edilən müraciəti qəbul etdi. 1918-ci il dekabrın 26-da koalision hökumətin tərkibini parlamentin təsdiqinə təqdim etdi. Həmin təqdimata əsasən parlament elə həmin gün sayca üçüncü hökuməti aşağıdakı tərkibdə təsdiq etdi. F.X.Xoyski (bitərəf) baş nazir və xarici işlər naziri, X.B.Xasməmmədov (müsavat) – daxili işlər naziri, S.Mehmandarov (bitərəf) – hərbi nazir, N.Yusifbəyli («Müsavat») – Xalq maarifi və etiqadlar naziri, X.Məlikaslanov (bitərəf) – yollar naziri, A.Səfikürdski (sosialist) – poçt, teleqraf və əmək naziri, M.Hacınski («Müsavat») – dövlət nəzarəti naziri, R.Xoyski («Müsavat») – təminat naziri, X.Sultanov (bitərəf) – əkinçilik naziri, 1919-cu ilin yanvarında İ.Protasov və K.Lizqar, müvafiq olaraq maliyyə və ərzaq naziri vəzifələrini, bir qədər sonra isə doktor Y.Y.Gindes səhiyyə naziri təyin olundu.

Nazirlər Şurasının bu kabineti çox ağır və mürəkkəb şəraitdə olsa da, öz fəaliyyətini 1919-cu il fevralın 25-nə kimi davam etdirmişdi. Bu müddət ərzində parlamentdə ölkənin həyatına aid bir sıra taleyüklü məsələlər müzakirə edilmişdi. 1919-cu il fevralın 4-də parlamentin iclasında əmək haqqının artırılması, ilk dəfə aqrar məsələ və b. məsələlər müzakirə edilmişdi. Hətta parlamentin tapşırığı ilə hümmətçi-menşevik Səməd bəy Ağamalıoğlunun başçılığı ilə xüsusi aqrar komissiyası yaradılmışdı.

Ölkədəki iqtisadi çətinliklər, sosial qarşıdurma, siyasi vəziyyətdəki gərginlik, bolşeviklərin və digər sosialist partiyaları liderlərinin başçılıq etdiyi Bakı Fəhlə Konfransı (BFK)

hökumətə qarşı ciddi müxalifətə çevrilməsi, xarici siyasətdəki çətinliklər üçüncü Nazirlər Şurası kabinetinin fəaliyyətini çox ağırlaşdırırdı. Məhz buna görə də hökumətin başçısı F.X.Xoyski 1919-cu il fevralın 25-də səhhətini əsas götürərək istefa vermək barədə bəyanat verməli oldu. Yeni hökumətin təşkili «Müsavat» fraksiyasının fəal üzvü Nəsib bəy Yusifbəyliyə həvalə olundu. O, çox çətinliklərdən sonra fraksiyalarla dil taparaq 1919-cu il martın 14-də dördüncü hökumət kabinetini aşağıdakı tərkibdə parlamentin təsdiqinə təqdim etdi: N.Yusifbəyli («Müsavat») – Nazirlər Şurasının sədri və daxili işlər naziri, Əliağa Həsənov (bitərəf) – maliyyə naziri, Ağa Əminov («Müsavat») – ticarət və sənaye naziri M.J.Cəfərov (bitərəf) – xarici ilşər naziri, Camo Hacınski (sosialist) – poçt və teleqraf naziri, Aslan bəy Səfikürdski (sosialist) – Ədliyyə və əmək naziri, Səməy bəy Mehmandarov (bitərəf) – hərbi nazir, V.V.Klenovski (rus-slavyan cəmiyyəti) – təminat naziri, A.N.Dostakov (bitərəf) – səhiyyə naziri, R.Kaplanov («əhrar») – maarif və dini etiqad naziri, A.Qardaşov («əhrar») – əkinçilik naziri, X.Amaspur («Daşnaksütyun») – portfelsiz nazir, N.Nərimanbəyov («Müsavat») - nəzarət naziri. Elə həmin gün parlament yeni hökumət kabinetinin təqdim olunmuş tərkibini təsliq etdi. Parlament sənədlərində göstərildiyi kimi, bu hökumət demokratik hökumət idi. O, fraksiyalarda ciddi məsləhətləşmələrdən sonra bəhrəyə gəlmişdi. Onun tərkibində də yeni gənc qüvvələr çox idi.

Parlamentin işində nöqsanlar da var idi. O, fəaliyyətinin 4 ayı ərzində yalnız xırda qanun layihələrini müzakirə etmişdi. Ciddi məsələlər, o cümlədən aqrar məsələsi hələ həll olunmamış qalırdı.

Siyasi böhranın davam etməsinə baxmayaraq, Azərbaycan Cümhuriyyətinin ali dövlət orqanları öz fəaliyyətlərini davam etdirirdilər. 1919-cu il oktyabrın 30-da

parlament «Mətbuat haqqında Nizamnamə» qəbul etmişdi. Bu nizamnaməyə görə, mətbuat orqanlarının açılması üçün hökumətin razılığı tələb olunmurdu. Həddi-buluğa çatmış və məhkum olunmamış hər bir savadlı Azərbaycan vətəndaşı mətbu orqan yarada bilərdi. Bu orqan yalnız məhkəmənin qərarı əsasında və ya cinayət törətdiyi halda məsuliyyətə cəlb oluna bilərdi. Bu əslində mətbuat üzərində senzuranın ləğv olunması demək idi. Bu qanun söz azadlığı baxımından Azərbaycanı Rusiyanın qabaqcıl demokratik ölkələri səviyəsinə qaldırırdı.

Siyasi böhranın qarşısını almaq məqsədilə N.Yusifbəyli yeni hökumət kabinetinin formalaşdırılması prosesini davam etdirirdi. O, bu məqsədlə partiyaların nümayəndələri ilə müntəzəm danışıqlar aparırdı. O, «Müsavat»dan sonra ən böyük parlament fraksiyası olan «İttihad» nümayəndələrini də hökumətin tərkibinə cəlb etmək istəyirdi. İttihadçılar hökumətin «Müsavat» və «İttihad» fraksiyaları, habelə bitərəf bloku əsasında formalaşdırılmasını təklif edirdi. Lakin «Müsavat» 1919-cu il oktyabrın 23-də iri burjua nümayəndələrindən olan bitərəflərlə «Müsavat və bitərəflər» adı altında bir fraksiya yaratdılar. Bu müsavatçıların mövqeyini ciddi şəkildə gücləndirmişdi. Daxili və xarici siyasətin bir çox məsələlərində «Müsavat»la prinsipial müxalifətdə olan ittihadçılar yeni hökumətin tərkibində iştiarkdan imtina etdilər.

Nəhayət, dekabrın əvvəllərində N.Yusifbəyli fraksiyalarla məsləhətləşmələrdən sonra yeni koalision hökumət haqqında razılığa gəldi. Çox mübahisəli olan daxili işlər nazirliyinin M.H.Hacınskiyə həvalə edilməsi razılşdırıldı.

1919-cu il dekabrın 22-də parlament yeni beşinci hökumətin aşağıdakı tərkibini təsdiq etdi:

N.Yusifbəyli – Nazirlər Şurasının sədri («Müsavat»), F.X.Xoyski – xarici işlər naziri (bitərəf), M.H.Hacınski – daxili işlər naziri («Müsavat»), X. B.Xasməmmədov – ədliyyə naziri

(«Müsavat»), Həmid Şaxtaxtinski – xalq təhsili və dini etiqad naziri («İttihad»), Rəşid Kaplanov – maliyyə naziri («əhrar»), Ə.Pepinov – əmək və əkinçilik naziri (sosialist), Camo Hacınski – poçt və teleqraf naziri (sosialist), S.M.Qənizadə – dövlət nəzarətçisi (İttihad) naziri, S.Menmandarov – hərbi nazir (bitərəf), X.Məlikaslanov – yolar naziri (bitərəf), M.Rəfiyev – ictimai təminat və səhiyyə naziri («Müsavat»), H.Məmmədbəyov – dövlət müfəttişi («İttihad»).

Yeni hökumət kabinetinə, demək olar ki, bütün fraksiyalardan nümayəndələr daxil idi və onlardan heç biri çoxluq təşkil etmirdi. Bununla da, uzun sürən hökumət böhranından və parlament mübarizəsindən sonra yeni koalision hökumət təşkil olundu. Hökumətin N.Yusifbəyli tərəfindən bəyan edilmiş proqramında Azərbaycanın ərazi bütövlüyünü müdafiə etmək, qonşu ölkələrlə münasibətlərdə sülh prinsiplərinə sadiq qalmaq, xarici əlaqələri genişləndirmək, ölkənin müdafiə qabiliyyətini möhkəmləndirmək, güclü, demokratik dövlət yaradılması üçün mühüm şərt olan iqtisadiyyatı, o cümlədən maliyyə sistemini inkişaf etdirmək vəzifələri irəli sürülürdü. Lakin parlamentdaxili müzakirələr göstərirdi ki, yenicə formalaşdırılmış koalision hökumətdə sözügedən vəzifələrin həll edilməsi üçün birgə razılığa gəlmək çətindir. Bu da hökumətin fəaliyyətinə çox ciddi mənfi təsir göstərirdi. Nəhayət, 1920-ci il aprelin 1-də bu hökumət də istefaya getməli oldu.

Ümumən, Əsas qanunverici və nəzarətedici orqan olan Azərbaycan parlamenti fəaliyyət göstərdiyi 17 ay ərzində 145 iclas keçirmişdi. Onlardan 15-i yetərsay olmadığı üçün baş tutmamışdı. 8-i yubiley və tarixi hadisələrə həsr olunmuşdu. Parlamentin iclaslarından 122-sində ölkənin daxili və xarici siyasəti, iqtisadiyyat və maliyə məsələləri, qanunvericilik

aktlarının müzakirəsi və qəbulu, ordu quruculu və s. məsələlər müzakirə olunmuşdu.

Parlamentin 121 iclasına Həsən bəy Ağayev, 122-ci iclasından 23 iclasına M.Y.Cəfərov sədrlik etmişdir.

Öz fəalyiyəti dövründə Parlamentin müzakirəsinə 270-dən yuxarı qanun layihəsi təqdim olunmuşdu. Onlardan 230-a yaxını müzakirə olunub təsdiq edilmişdi. Parlamentdə müzakirə olunan qanunlar bir qayda olaraq yalnız üçüncü oxunuşdan sonra qəbul olunurdu. Parlamentin qəbul etdiyi qanunlar sırasında vətəndaşlıq haqqında, ümumi hərbi mükəlləfiyyət barədə, mətbuat haqqında, Milli Bankın təsisi haqqında, Bakı Dövlət Universitetinin yaradılması haqqında, gömrük və poçt-teleqraf xidməti haqqında, məhkəmə qanunvericiliyi haqqında və s. qanunlar müstəsna əhəmiyyətə malik olmuşdular.

Parlamentdə 11 komissiya fəaliyət göstərmişdi. Onlardan: maliyyə-büdcə, qanunvericilik təklifləri, müəssisələr məclisinə seçkilər keçirmək üzrə mərkəzi komissiya, mandat, hərbi, aqrar və s. göstərmək olar.

**Milli ordu quruculuğu**

Milli dövlətçiliyn bərqərar olmasında ən mühüm şərtlərdən biri də ordunun yaradılmasıdır. Əslində o dövlətçiliyin ən vacib atributlarındandır.

Məhz buna görə də müstəqillik əldə etmiş Azərbaycan, onun liderləri milli ordu quruculuğuna böyük diqqət vermişdilər. Bunu o zamankı beynəlxalq şərait, bölgədə cərəyan edən proseslər daha vacib və zəruri bir vəzifəyə çevirmişdi.

Milli ordunun yaradılmasına hələ Rusiyada 1917-ci il fevral inqilabından sonra başlanmışdı. Ordu yaradılmasının zəruriliyini dərk edən qabaqcıl ziyalılar fevral inqibalından sonra Müvəqqəti hökumətə müraciət edərək milli ordu yaradılması üçün icazə istəmişdilər. Lakin müsbət cavab almamışdılar.

Rusiyada Oktyabr çevrilişindən sonra Müsəlman Milli frksiyası Milli ordu yaratmaq yolunda ilk addımlar atdı. Fraksiyanın təşəbbüsü ilə Gəncədə, Bakıda, Lənkəranda və Tiflisdə müsəlman hərbçilərinin yığıncaqları keçirildi. Lakin ordu yaratmaq üçün zəruri olan hərbi kadrlar və hərbi sürsat çatmırdı. Nəhayət, Azərbacyan milli hərbi korpusu formalaşdırıldı. Onun əsasını Petroqraddan köçürülən qafqazlılardan düzəldilmiş «vəhşi diviziya» adlandırılan tatar süvari korpusu təşkil edirdi. Ona general Ə.Şıxlinski komandanlıq edirdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra onun sərəncamında 600 nəfərlik hərbi hissə var idi. Yeni elan olunmuş müstəqil Azərbaycan hökuməti milli ordu qurulmasına ciddi səylə girişdi. Bu sahədə dost Osmanlı Türkiyəsi Xalq Cümhuriyyətinə qardaş köməkliyi göstərmişdi. Bu cəhətdən Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı imperiyası arasında 1918-ci il iyunun 4-də imzalanmış dostluq haqqında müqavilənin müstəsna əhəmiyyəti olmuşdu. Müqavilənin 4-cü maddəsinə əsasən Türkiyənin Azərbaycana köməyi gücləndirildi. Türkiyədən hərbi müşavirlər dəvət olundu. Nuru paşanın başçılığı ilə Gəncədə çox qısa müddətdə «Xüsusi Azərbaycan korpusu» yaradılmışdı. O, türk qoşun hissələri ilə birlikdə «Qafqaz İslam ordusu»nda birləşmişdi. Həmin orduda 20 minə yaxın döyüşçü var idi.

İyunun 5-də Türkiyədən başda Mürsəl Paşa olmaqla 5-ci diviziya Gəncəyə gəldi. İyunun 6-da Güney Azərbaycandan Nazim Paşanın 7 minlik dəstəsi Azərbaycana gəldi.

1918-ci ilin avqustunda hərbi səfərbərlik elan olundu. Zabit kadrları hazırlamaq məqsədilə qısa müddətli hərbi kurslar açıldı. 1918-ci il iyunun 23-də bütün Azərbaycan ərazisində hərbi vəziyyətin elan edilməsi ordu quruculuğunu daha da sürətləndirdi.

Qeyd edək ki, Xalq Cümhuriyyətinin ilk hökumətində hərbi nazir vəzifəsi X.P.Sultanova həvalə edilmişdi. İkinci hökumətdə hərbi nazir vəzifəsi yox idi. Bu o zamankı tarixi şəraitlə əlaqədar idi. 1918-ci il iyunun 26-da hökumətin qərarı ilə müsəlman korpusu Azərbaycan korpusu adlandırıldı. Onun komandanı general Ə.Şıxlinski idi. Avqustun 13-də Qafqaz İslam Ordusunun komandanının əmri ilə Azərbaycan korpusu ləğv olundu və yenidən qurulmağa başlandı. Hökumət 1918-ci il oktyabrın 23-də hərbi nazirliyin yaradılması barədə qərar verdi. İlk dövrdə ona rəhbərliyi Nazirlər Şurasının sədri F.X.Xoyski öz öhdəsinə götürmüşdü. Onun müavini isə general Səməd bəy Mehmandarov təyin edilmişdi. Hökumətin tapşırığı ilə general S.Mehmandarov hərbi nazirliyi formalaşdırmağa başladı. İlk növbədə qısa müddətdə nazirliyin mərkəzi aparatını təşkil etdi. Noyabrın 15-də ordunun Ümumi qərargahı təsis edildi. Polkovnik Həbib Səlimov ümumqərargahın və dəftərxananın rəisi, polkovnik Həmid Qaytabaşı növbətçi-general, polkovnik Seyfulla Mirzə ləvazimat, general-mayor Murad Giru Tlexas topçu, general-mayor İbrahim ağa Usubov hərbi təhsil şöbələrinin rəisləri təyin olundular.

Mudros müqaviləsinindən (1918-ci il 30 oktyabr) sonra müttəfiq dövlətlər adından Bakıya gəlməli olan ingilis hərbi qüvvələrinin başçısı general V.Tomson noyabrın 17-də Türkiyə qoşunları ilə yanaşı Azərbaycan hərbi qüvvələrinin də Bakıdan çıxarılmasını tələb etdi. Ona görə də 1918-ci il noyabrın 22-də Xalq Cümhuriyyətinin Hərbi Nazirliyi Gəncəyə köçməli oldu. Mövcud ordu hissə və birləşmələri Gəncədə və Qarabağda yerləşdirilmişdi. Oradakı ordu hissə və birləşmələrini gəzən general S.Mehmandarov Azərbaycan ordusunda bütün xidmət edənlərin Xalq Cümhuriyyətinə sədaqət andı verməyi təşkil etməyi tapşırdı.

1918-ci ilin sonu 1919-cu ilin əvvəllərində hərbi nazirliyin strukturu və rəhbərliyində qismən dəyişikliklər edildi. 1918-ci il dekabrın 25-də artilleriya generalı S.Mehmandarov hərbi nazir, dekabrın 29-da general-leytenant Ə.Şıxlinski nazirin müavini təyin edildi. 1918-ci il dekabrın 31-də ümumqərargah nəzdində olan topçu şöbəsi zəminində topçu idarəsi təşkil olundu.

1918-ci il dekabrın 27-də hərbi nazirin əmri ilə Azərbaycan dili orduda dövlət dili kimi tətbiq edilməyə başlandı. Azərbaycan dilini öyrənmək və savadsızlığın ləğvi üzrə kurslar təşkil olundu.

1919-cu ildə 25 minlik nizami milli ordu yaratmaq məqsədilə dövlət büdcəsindən 400 milyon manat vəsait ayrıldı. Yüzlərlə azərbaycanlı zabit və əsgər Gürcüstandakı hərbi məktəblərə təhsil almağa göndərildi. Gürcüstan Azərbaycan ordusuna 12 kiçik top, 12 dağ topu, 24 pulemyot, 3000 beşatılan tüfəng, 211 qılınc, 295 nizə və b. hərbi ləvazimat verdi.

Orduda hərbi qulluqçuların yeni geyim forması tətbiq edilməyə başlandı. O, 1919-cu il yanvarın 11-dən rəsmiləşdirildi. Hələ türk qoşunlarının Azərbaycanda olduğu vaxt Gəncədə fəaliyyətə başlamış podrıvşiklər məktəbinin işi yenidən quruldu. O, praporşiklər məktəbinə çevrildi. 1919-cu ildə praporşiklər məktəbi zəminində hərbi məktəb təşkil edildi. Orduya milli hərbi kadrlar hazırlayan istehkamlar, hərbi dəmir yolçular və hərbi feldşer məktəbləri açıldı.

Hərbi xidmətə çağırış məsələləri sahəsində də tədbirlər həyata keçirildi. Fərariliyə qarşı mübarizə gücləndirildi.

Bütün bu tədbirlər sayəsində Azərbaycan Milli Ordusuna yeni qüvvələr gəlməyə başladı. 1919-cu ilin yanvarında Gəncədə olan təlim taboru ləğv olundu və o, Gəncə alayının 2-si taboruna çevrildi. Elə bu vaxt bir zirehli qatarın şəxsi heyəti komplektləşdirildi. 1919-cu il yanvarın 22-də

Nazirlər Şuraısnın qərarı ilə Azərbaycan korpusunun qərargahı ləğv edildi. Onun zabitlərindən bir çoxu hərbi nazirliyin aparatında işləməyə cəlb olundu, bir qismi isə qoşunlarda xidmətin təşkilinə göndərildi.

Qoşunların sayının artması ilə əlaqədar ümumqərargahın tərkibində olan ləvazimat şöbəsi 1919-cu ilin əvvəllərində ləvazimat idarəsinə çevrildi. O, birbaşa nazirin tabeliyinə keçdi.

1919-cu il yanvarın 10-da hərbi nazirlikdə müvəqqəti hərbi şura yaradıldı. Hərbi Şuranın əsasnaməsi və daimi tərkibi təsdiq olunan kimi o, hərbi qanunvericilik və hərbi idarəetmə məsələləri ilə məşğul olmalı idi. Onun tərkibinə piyada və süvari diviziyaların rəisləri, Ümumi qərargahın rəisi, topçu, ləvazimat və istehkam idarələri rəisləri və b. daxil idi.

1919-cu ilin martında milli ordunun idarəetmə sistemində keyfiyyət dəyişiklikləri baş verdi. Hərbi nazirin əmri ilə mart ayının 26-da Baş qərargah yaradıldı. General-leytenant Məmməd bəy Sulkeviç onun rəisi təyin olundu. Baş qərargahın səyi nəticəsində 2-ci Bakı alayının formalaşması sürətləndirildi, 3-cü Şəki süvari alayının təşkili başa çatdırıldı.

1919-cu ilin aprelində müttəfiq respublikaların hərbi komandanlığı az sayda Bakıda da hərbi hissələr yerləşdirilməsinə razılıq verdi. Bu razılığa müvafiq olaraq bir piyada taboru, 400 nəfərlik süvari və bir topçu artilleriyası Bakıda yerləşdirildi. Bu qüvvələrə 1-ci Tatar süvari alayının komandiri polkovnik Fərhad Ağalarov başçılıq edirdi.

Milli Ordunun yaradılıb komplektləşdirilməsində ən məhsuldar dövr 1919-ci iln yay və payızı olmuşdur. 1919-cu ilin iyun-iyul aylarında Xalq Cümhuriyyətinin hərbi Nazirliyin rəhbərliyi yenidən Bakıya köçürüldü. 1919-cu ilin payızında Bakı İstehkam hissəsi təşkil olundu. Bununla Bakı möhkəmləndirilmiş müdafiə rayonuna çevrildi.

1919-cu ilin oktyabrında 6-cı Göyçay piyada alayının formalaşdırılamsı başa çatdırıldı. 1919-cu ilin sonunda 7-ci Şirvan alayı, Bakı İstehkam hissəsinin müdafiə taboru yaradıldı. Elə həmin ildə 8-ci Ağdam alayının və Zəngəzurdakı kürd kəndlərinin əhalisindən yaradılan xüsusi hərbi hissələrin formalaşdırılması başa çatdırıldı.

Azərbaycan hökuməti 1919-cu ilin sonunadək Azərbaycan ordusunun şəxsi heyətinin sayını 20 min nəfərə, ordudakı atların sayını isə 5 min başa çatdırılmasını nəzərdə tuturdu. 1920-ci ildə isə onların sayı 40 min nəfərə, atların sayı isə 10 min başa çatdırılamlı idi.

Orduya rəhbərliyi təkmilləşdirmək məqsədilə 1920-ci ilin martında (1-də) Baş qərargah ilə Ümumi qərargahın birləşdirilməsi zəminində Ümumi qərargah yaradıldı. General-mayor H.Səlimov onun rəisi təyin olundu.

Artıq 1920-ci ilin aprelində Azərbaycan ordusunda iki piyada diviziyasında birləşmiş 1-ci Cavanşir, 2-ci Zaqatala, 3-cü Gəncə, 4-cü Quba, 5-ci Bakı, 6-cı Göyçay, 7-ci Şirvan, 8-ci Ağdaş piyada alayları, süvari diviziyasında birləşmiş olan 1-ci tatar, 2-ci Qarabağ, 3-cü Şəki süvari alayları və iki topçu briqadası var idi.

Onun quruculuğundakı nailiyyətlərdən biri də hərbi donanmanın yaradılması idi. Denikinçilərin etirazlarına baxmayaraq, hökumət 1919-cu ilin yayında Bakını tərk edən ingilislərin qoyub getdikləri hərbi gəmilər və digər hərbi əhəmiyyətli ləvazimatlar əsasında Azərbaycan Xəzər donanmasını yaratdı. Bu Azərbaycan hökumətinin öz dəniz sərhədlərini qorumaq yolunda çox mühüm addım idi.

Beləliklə, gənc müstəqil Azərbaycan Xalq Cümhuriyyəti yaşadığı az zaman kəsiyində vətəni müdafiə edəcək Milli Ordunun yaradılmasında da xeyli iş görmüşdü.

## § 3.Qarabağda müvəqqəti general-qubernatorluğun yaranması

Azərbaycanın Ermənistanla mübahisəli ərazi məsələlərini dinc yolla nizama salmaq cəhdi müsbət nəticə vermədi. Digər tərəfdən, Ermənistanın qızışdırdığı erməni silahlı dəstələri Yuxarı Qarabağda separatçılıq əməllərini daha da genişləndirirdilər. Ermənilərin bölgədə möhkəmlənməsi təhlükəli xarakter almışdı. Belə vəziyyət Azərbaycan hökumətini daha ciddi tədbirlər görmək zərurəti qarşısında qoymuşdu. Bu sahədə görülən tədbirlər arasında Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanmasını təmin etmək məqsədilə Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən ayrıca Qarabağ general-qubernatorluğunun yaradılması xüsusi olaraq qeyd olunmalıdır.

Azərbaycan hökumətinin 1919-cu il yanvarın 15-də keçirilən iclasında Qarabağda vəziyyət haqqında daxili işlər naziri X.Xasməmmədovun məruzəsi dinlənilmişdir. Azərbaycan hökumətinin qərarlar jurnalından aydın olur ki, həmin iclasda aşağıdakı qərar (Daxili İşlər Nazirliyinə göndərilən 1919-cu il 15 yanvar tarixli, 359 saylı çıxarış) qəbul edilmişdir:
"Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzaları hüdudlarında - məruzədə göstərilən hüquq və vəzifələrlə müvəqqəti general-qubernator vəzifəsi təsis olunsun; Daxili İşlər Nazirliyinə tapşırılsın ki, hökumətin növbəti iclasınadək general-qubernator vəzifəsinə namizəd göstərsin və onun sərəncamına nə qədər məbləğdə vəsait buraxılmasının zəruriliyi barədə öz mülahizələrini təqdim etsin"
Azərbaycan hökuməti özünün 15 və 29 yanvar tarixli iclaslarında Qarabağ general-qubernatorluğunun yaradılması və bu vəzifəyə general-qubernator Xosrov bəy Sultanovun təyin olunması haqqında qərarlar qəbul etdi və qubernatorluğun ilkin xərcləri üçün 5 milyon manat pul ayrıldı.

Müəyyən məsləhətləşmələrdən sonra Azərbaycan hökumətinin 1919-cu il yanvarın 29-dakı iclasında "Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarına general-qubernator təyin edilməsi

haqqında DİN-nin məruzəsi" dinlənildi və aşağıdakı qərar qəbul edildi.

a) X.Sultanovun general-qubernator təyin edilməsi;

b) Nazirliyin 20 milyon manatlıq fondundan general-qubernatorluğun ehtiyacları üçün 5 milyon manat ayrılması;

v) Həmin məbləğdən 1 mil. manatın general-qubernatorun sərəncamına indi buraxılması, ondan isə 728 min 300 manatın qubernatorluğun ştatının saxlanması, 600 nəfərlik suvarı dəstənin təşkili və bir ay müddətində təmin olunmasına, 271 min 700 manatın isə gözlənilməz, təcili tədbirlərə xərclənməsi;

q) Yuxarıda qeyd olunan dəstənin sayının 3000 nəfərə çatdırılmasının mümkünlüyünü etiraf etməklə, bunun hökumətin xüsusi göstərişi ilə həyata keçirilməsi".

Maraqlıdır ki, general-qubernatorun müavinliyinə bolşevik Çingiz İldırım təyin olunmuşdu .

Yeni vəzifəyə təyin edildikdən sonra Xosrov bəy Sultanov hələ Bakıda ikən general-qubernatorluğun təşkili ilə əlaqədar olan bəzi işləri görmüş və 1919-cu il fevralın 12-də Şuşaya gələrək vəzifəsinin icrasına başlamışdır.

ADR hökumətinin bu addımı azərbaycanlı əhali tərəfindən böyük razılıqla qarşılanmışdır. Arxiv sənədlərindən aydın olur ki, bu general-qubernatorluğun təşkili müvafiq bölgələrin bir sıra problemlərinin həllinə mühüm təsir göstərmişdi. Qubernatorluğun yaradılması Qarabağ ermənilərinin ADR hökumətini tanımalarında əsas amillərdən biri olmuşdu.

Xosrov bəy Sultanov Şuşaya gələn kimi Qarabağ torpağını erməni quldur dəstələrindən azad etmək üçün gərgin fəaliyyətə başladı. O, 1919-cu il fevralın 12-də Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının əhalisinə müraciət edərək onlara general-qubernatorluğun yaradılması səbəblərini izah etmişdir. Müraciətdə deyilirdi ki, Azərbaycan hökumətinin yanvar ayında verdiyi qərarla Zəngəzur, Şuşa, Cəbrayıl və Cavanşir qəzaları xüsusi general-qubernatorluğa daxil edilmişdir. Bu fövqəladə tədbir onunla izah olunur ki, "Azərbaycanın ən gözəl güşələrindən olan dörd qəza bir ildən artıqdır ki, hərc-mərcliyin içindədir. Məsuliyyətsiz ünsürlərin

rəhbərliyi altında silahlı dəstələr öz şəxsi iddialarını həyata keçirmək üçün kəndləri yandırır, əhalini məhv edir, minlərlə qadın və uşağı qaçqınlığa məruz qoyur. Öz həyatını xalqına həsr etmiş bir ictimai xadim kimi mən bildirirəm ki, millətindən asılı olmayaraq qanunçuluğa və ədalətə ciddi əməl edəcəyəm və bildirirəm ki, general-qubernatorluğun rayonlarında yeganə hökumət — Azərbaycan hökumətinin hakimiyyətidir və hamı məcburi şəkildə ona tabe olmalıdır. Hər hansı bir şəkildə qayda-qanunun pozulması, hərc-mərcliyə gətirib çıxarmış hərəkət general-qubernatorluğun qanunları ilə ciddi şəkildə cəzalandırılacaq. Qanun qarşısında hamı bərabərdir.

Xosrov bəy Sultanov Şuşada, Qarabağda və Zəngəzurda vəziyyətlə hərtərəfli tanış olmaq üçün ingilis, Azərbaycan və erməni nümayəndələrinin iştirakı ilə bir neçə rəsmi müşavirə keçirdi. Həmin müşavirələrin protokollarından məlum olur ki, general-qubernator yaranmış vəziyyətə çox ciddi yanaşmış və hər bir məsələyə aid konkret göstəriş vermişdir.

1919-cu il 15, 16,17, 25 fevralda keçirilmiş müşavirələrdə bir sıra məsələlər müzakirə edilmişdir:

1. Erməni-Azərbaycan münaqişəsi, erməni qaçqınlarının müvəqqəti məskunlaşdırılması və köç məsələsi;
2. Milis orqanlarının fəaliyyətinin gücləndirilməsi və at-araba mükələfiyyəti.
3. Ərzaq məsələləri, əkin və bağ sahələrinin genişləndirilməsi;
4. Müsəlman qaçqınlarının öz yerlərinə qaytarılması;
5. Tibbi işlər;
6. Məktəb işləri;
7. Çağırışçılar məsələsi;
8. Poçt və teleqraf;
9. Cari məsələlər .

Müşavirədə çıxış edən Xosrov bəy Sultanov bildirmişdir ki, müşavirəni çağırmaqda məqsəd, onun iştirakçılarını ölkədə olan vəziyyətlə tanış etmək, müvafiq tədbirlər görməklə normal həyat tərzini bərpa etməkdən və həmçinin ahəngdar, planlı iş sistemi yaratmaqdan ibarətdir.

İclasda çıxış edən Cavanşir qəza rəisi Bəhram bəy Məlik Abbasov, Zəngəzurun qəza rəisi Camal bəy Sultanov, Şuşanin qəza rəisi Abış bəy Qalabəyov geniş cıxış etmişdilər.

Qəza rəisləri aşağıdakıları təklif etmişdir: 1) Andranikin və onun hərbi dəstələrinin Qarabağdan çıxarılması, 2) Azərbaycanın dövlət hakimiyyətini qəbul edən kasıb erməni əhalisinə ərzaqla yardım göstərilməsi, 3) Münaqişədə olan kəndlər arasında polis gözətçi məntəqələri yaradılması, 4) Araqarışdıran erməniləri əhali özü kənddən çıxarsın.

Zəngəzurun qəza rəisi Camal bəy Sultanov çıxışında demişdir ki, Andranik Ararat respublikasından xüsusi göstəriş alır, ingilis nümayəndəliyi isə ona hərbi yardım göstərir və ona bu məqsədlə iki milyon manat pul vermişdir. O, qeyd etmişdi ki, Zəngəzur qəzasında 166 Azərbaycan kəndi dağıdılmışdır. Burada 37000 azərbaycanlı yaşayırdı. Qaçqınlıq zamanı azərbaycanlıların 30 faizi var-dövlətini itirmişdir və dağılmış Azərbaycan kəndlərində ermənilər yaşayırlar. Dörd kənd isə ermənilərin hakimiyyəti altındadır.

Göründüyü kimi, Azərbaycan hökuməti hadisələrə obyektiv yanaşmış, milli ədavəti dinc yolla nizama salmağa çalışmış, erməni və azərbaycanlı qaçqınlarına münasibətdə heç bir fərq qoymamışdır. Lakin ingilislərin ikiüzlü siyasəti üzə çıxmışdır. Andranikə və onun quldur dəstəsinə qarşı ciddi tədbirlər görülməsi ön plana çəkilmişdir.

Aydındır ki, Yuxarı Qarabağ məsələsini qaldıran yerli ermənilərlə yanaşı, Ermənistan Respublikası və Daşnaksütun partiyasının buradakı emissarları olmuşdur. Həmçinin, məruzədə bu fikir də təsdiq olunur ki, Azərbaycan hökuməti az da olsa ciddi bir tədbir görən kimi ermənilər öz taktikalarını dəyişməyə məcbur olurlar, ingilislərin və Rusiyanın köməyinə üz döndərirlər.

Çıxış edən qəza rəisləri Andranikin və onun qaniçən quldur dəstəsinin Zəngəzur bölgəsindən çıxarılması təklifini irəli sürmüşdür. Müşavirədə öz ev-eşiyini tərk etmiş qaçqınları zəruri ərzaqla təmin etmək və erməni-Azərbaycan münasibətlərini dinc

yolla nizama salmaq üçün əhali içərisində təbliğat işinin gücləndirilməsi məsələləri də müzakirə edilmişdir.
Əsas məsələlərdən biri də orduya çağırış və ordunun təşkil edilməsi idi. Ona görə təklif olundu ki, hər bir yaşayış məntəqəsində xüsusi icma komissiya yaradılsın və ona nəzarət gücləndirilsin.

1919-cu il fevralın 16-da Xosrov bəy Sultanovun yanında keçirilən müşavirədə əsas məsələ məktəb məsələsi müzakirə edilmişdir. Qeyd olunmuşdur ki, Qarabağ və Zəngəzurda erməni-azərbaycan münaqişəsi zamanı onsuz da sayca az olan məktəblər dağılmış və müəllimlər öz yerlərini tərk etmişlər. Müşavirədə Səhiyyə nazirinin nümayəndəsi C.Lənbaranski demişdir ki, Səhiyyə naziri Gendes respublikada yoluxucu və yoluxucu olmayan xəstəliklərə qarşı mübarizə aparmaq üçün ciddi tədbirlər görməyə başlamışdır. General-qubernator Şuşada 100 çarpayılıq xəstəxananın tikilməsi və lazım olan tibbi avadanlığın alınması və həkimlərə maaş verilməsi üçün vəsait ayrılmışdır. Lakin Xosrov bəy bildirmişdir ki, Qarabağ əhalisinə tibbi xidmət göstərmək üçün böyük bir xəstəxananı təkcə Şuşada yox, həm də əlverişli coğrafi mövqeyə malik olan Ağdamda da açmaq lazımdır. Bizim hazırladığımız lahiyəyə görə bütün qəzalarda xəstəxanalar açılmalıdır.

1919-cu il fevralın 25-də X.B.Sultanovun yanında keçirilmiş müşavirənin protokolundan aydın olur ki, general-qubernator vurğulamışdır ki, milli məsələdə xüsusi incəlik, səbr və sayıqlıq göstərmək lazımdır. Bu yolla dövlətin nüfuzunu qaldırmaq və digər məsələləri də həll etmək olar.
Bu müşavirədə Şuşa şəhər məktəbinin müfəttişləri və şəhər ermənilərinin nümayəndələri də iştirak edirdilər. Müşavirədə çıxış edən ermənilər bildirmişlər ki, daşnak terrorçuları onları qorxudur və xüsusi göstərişlər verirlər. Belə olduqda X.B.Sultanov İngilis nümayəndələrinin iştirakı ilə yığıncaq çağırıb onlardan xahiş etmişdi ki, vəziyyəti olduğu kimi Tomsona çatdırsınlar. X.B.Sultanov ingilislərlə birlikdə şəhərdəki müəssisə və idarələrin vəziyyəti ilə tanış olmuşdur. Tomsonun göstərişi ilə mayor Mak-Mezonun göndərdiyi iki nümayəndə Şuşadakı vəziyyətlə tanış olub,

X.B.Sultanovun fəaliyyətindən razı qalmışlar. İngilislər X.B.Sultanova təklif edirlər ki, milli məsələni dinc yolla nizama salmaq üçün, o, Şuşa şəhərinin başçısı Şahnəzərovu və Vərəndə baş komandanı Məlik Sokrat bəyi qəbul etsin. Lakin adları çəkilən bu iki şəxs general-qubernatorun hüzuruna gəlməmişlər. Çünki onlar özlərini Rusiyanın təbəəsi sayırdılar. Onların bu hərəkəti ingilislərin narazılığına səbəb olmuşdur. Belə olduqda X.B.Sultanov ingilislərə bildirmişdir ki, ermənilər Qafqazda rus monarxiyasının dayaqlarıdır. Rusiyanın məqsədi Qafqaz vasitəsi ilə Hindistana yol açmaqdan ibarət idi. Təbii ki, bu niyyət ingilislərin mənafeyinə toxunurdu. X.B.Sultanov ingilislərdən xahiş etmişdir ki, erməni-azərbaycan münaqişəsini nizama salmaq üçün birlikdə müzakirə aparsınlar. Buna cavab olaraq ingilislər belə bir təklif irəli sürmüşlər ki, X.B.Sultanov bölgənin general-qubernatorudur. Onun müavini isə hökumət tərəfindən təyin olunur.

Lakin Ermənistan Milli şurası bu təklifə qəti etiraz etdi. Bundan sonra X.B.Sultanov ingilis mayoruna bildirmişdir ki, ermənilər sülh istəmir və Qarabağı Azərbaycanın tərkibindən ayırmaq və Zəngəzuru da zəbt etmək niyyətindədirlər. Buna görə də ermənilər daima Azərbaycan tərəfinin təkliflərini öz təklifləri ilə əvəz edirlər.

X.B.Sultanov ingilislərə bunu da demişdi ki, Qarabağ məsələsi diplomatik yolla nizama salınsa, general Andranikin məsələsi də həll olunur və onun dəstəsi qısa müddətdə Qarabağın ərazisini tərk edə bilər. Bundan sonra isə Türkiyədən olan erməni qaçqınlarının məsələsini həll etmək olar .

X.B.Sultanovun Azərbaycan hökumətinin Daxili İşlər Nazirliyinə məktubundan aydın olur ki, Şuşaya gəldiyi ilk günlərdən başlayaraq o, bölgədə məsələləri obyektiv və yerində həll etmək üçün qəza rəislərinin, şəhər ictimai xadimlərinin və ingilis missiyasının iştirakı ilə müşavirələr keçirmişdir. Bu müşavirələrin sənədlərini təhlil edərkən məlum olur ki, general-qubernator erməni-azərbaycan münaqişəsini dinc yolla həll etməyə çalışır. Təsadüfi deyildir ki, o, keçirdiyi müşavirələrə erməni tərəfinin nümayəndələrini və ingilis missiyasının üzvülərini dəvət edirmiş.

Göstərmək lazımdı ki, Qarabağı Azərbaycandan ayırmaq istəyən və daima azərbaycanlılarla ermənilər arasında nifaq toxumu səpən Erməni Milli Şurasının rəhbərləri bu müşavirələrə gəlməmiş, hətta həyasızcasına Azərbaycan dövlət hakimiyyətini tanımadıqlarını bəyan etmişlər.

ADR hökuməti tərəfindən Zəngəzur qəzasını da əhatə edən Qarabağ general-qubernatorluğunun yaradılması və Xosrov bəy Sultanovun ona başçı təyin olunması Ermənistanı xeyli təşvişə salmış və onun diplomatik-hərbi fəallığını artırmışdır. R.Hovannesyan bu barədə belə yazırdı: "Açıqlanmış ermənilərin özləri üçün təhqir üstündən təhqir hesab etdikləri, bir də bərk qorxduqları məşhur armenofob Xosrov Sultanovun Tomson tərəfindən hər iki ərazinin qubernatoru təyin edilməsi idi" ."Azərbaycan hökumətinin özünün tarixi torpaqlarında general-qubernatorluq yaratması və bu vəzifəyə Xosrov bəy Sultanovun təyin edilməsi haqqında qərarını ermənilər etirazla qarşılamışlar. Ermənistanın Xarici İşlər Nazirliyi və Daşnak mətbuatı aparıcı dövlətlərə və beynəlxalq təşkilatlara çoxsaylı müraciətlərində və ADR rəhbərliyinə etiraz notalarında Azərbaycan hökumətini "Ararat Respublikasının ərazi hüquqlarını" və iki qonşu ölkə arasında münasibətləri pozmaqda ittiham edirdilər. Ermənistan tərəfi yaranmış vəziyyətdən çıxış yolunu ya Azərbaycan general-qubernatorunun ləğv edilməsində, ya da müvəqqəti ingilis general-qubernatorluğunun yaradılmasında görürdü".

Azərbaycan hökuməti təbii ki, ölkənin ərazi bütövlüyünün və suveren hüquqlarının pozulmasına yol verməzdi və qonşu dövlətin onun daxili işlərinə qarışması cəhdləri ilə barışa bilməzdi. Buna görə də ADR-in xarici işlər nazirinin vəzifəsini icra edən Adil xan Ziyadxanov Ermənistan hökumətinə cavab notalarında bir daha Qarabağın və Zəngəzurun Azərbaycanın tarixi torpaqları olduğunu xatırlatmışdır. Ermənistanın etirazını onun suverenliyinə qəsd kimi qiymətləndirən Azərbaycan hökuməti qətiyyətlə bildirmişdir ki, özünün ərazi toxunulmamazlığını hər vasitə ilə müdafiə edəcəkdir. Bununla yanaşı, Azərbaycan hökuməti bütün münaqişələri sülh yolu ilə ləğv etməyə hazır olduğunu bildirmişdir.

Regionda vəziyyəti mürəkkəbləşdirən amillərdən biri də ingilis komandanlığının Azərbaycanın bu regionuna münasibətdə ikili siyasət yeritməsi idi. İngilislər bir tərəfdən Zəngəzurun bir hissəsinin Ermənistana verilməsini istəyir, digər tərəfdən ADR hökuməti tərəfindən Qarabağda general-qubernatorluğunun yaradılmasını müdafiə edirdilər. İngilislərin ikinci hərəkəti ermənilərdə böyük narazılıq yaratmışdı. Ermənilər müxtəlif vasitə və yollarla ingilislərdə özlərinə rəğbət yaratmağa və Azərbaycanın bu regionlarına ermənilərin "tarixi hüquqlarının" gerçəkliyinə Böyük Britaniya hökumətini inandırmağa çalışırdılar. İngilislər isə müxtəlif bəhanələrlə erməni tərəfinin şərtlərini qəbul etmirdilər. 1919-cu il aprelin 3-də yeni ingilis general-qubernatoru Şatelvort bəyanat vermişdi ki, X.B.Sultanovun general-qubernator təyin edilməsi tamamilə düzgündür və Andranikin silahlı dəstələri regiondan çıxarılmalıdır. Lakin sonradan ingilislərin Qarabağ və Zəngəzura münasibətdə ziddiyyətli siyasəti özünü büruzə verdi. Onlar özlərinin əvvəlki vədlərindən imtina edərək bu regionlarda hakimiyyəti Azərbaycan hökumətinə deyil, Erməni Milli Şurasına vermək, Qarabağda və Zəngəzurda ermənilərin möhkəmlənməsinə mane olan Xosrov bəy Sultanovu vəzifədən götürmək üçün hər vasitə ilə çalışırdılar.

Ermənistan hökumətinin diplomatik-siyasi oyunları daşnak mətbuatının saxta, eyni zamanda məqsədyönlü və sistemli təbliğatı ilə tamamlanırdı. Məsələn, "Naşe vremya" qəzetinin 1919-cu il 29 yanvar tarixli sayındakı baş məqalədə Qarabağ və Zəngəzur bölgələrində xüsusi general-qubernatorluğun yaradılması "Azərbaycan zadəgan dairələrinin məsuliyyətsizliyi", iki qonşu xalq arasındakı münasibətlərin kəsilməsi faktı kimi səciyyələndirilirdi. Qəzet müharibənin səbəblərini Ermənistanın işğalçılıq siyasətində deyil, ADR hökumətinin "feodalizmi"ndə görür, bu işdə Azərbaycan zadəganlarını günahlandırırdı .

Çox maraqlıdır ki, bu dövrdə daşnak hökumətinin Azərbaycandakı diplomatik nümayəndəsi olan T.Bekzadyan Britaniya komandanlığının nümayəndələri ilə görüşlərində müttəfiqlərin bölgələrin məsələsini Ermənistanın xeyrinə həll etməyəcəyi

təqdirdə, heç olmazsa burada müvəqqəti İngilis general-qubernatorluğu yaradılmasına çalışırdı.

Şübhəsiz, ADR hökuməti Ermənistanın əsassız ərazi iddialarına və bölgələrimizin idarə olunmasına müdaxiləsinə biganə qala bilməzdi. xarici işlər nazirinin əvəzi A.Ziyadxanov 1919-cu il yanvarın 31-də Ermənistan Respublikasının XİN-nə göndərdiyi 178 saylı teleqramda bildirirdi ki, "Azərbaycanın Zəngəzur və digər rayonlarında müvəqqəti general-qubernatorluq yaradılmasına hər hansı bir etiraz əsassızdır, çünki həmin ərazilər ADR-nin ayrılmaz tərkib hissələridir". Daha sonra teleqramda bildirilirdi ki, öz torpaqlarında qayda-qanun yaratmaq, milliyyətindən asılı olmayaraq bütün vətəndaşların ləyaqətini və əmlakını məsuliyyətsiz şəxslərin özbaşınalığından müdafiə etmək Azərbaycan hökumətinin nəinki hüquqi, hətta mənəvi vəzifəsidir. A.Ziyadxanov bu bölgələrə general-qubernatorun təyin edilməsi barədəki qərarın Ermənistanın ərazi hüquqlarına qəsd olmadığını, əksinə onun hökumətinin etirazını isə daxili işlərimizə qarışmağa cəhd göstərməklə suverenliyimizə qəsd kimi qiymətləndirirdi. General-qubernatorluğun yaradılması və onun idarəçiliyi məsələsi Tomsonun Ermənistan hökumətinin üzvləri ilə İrəvanda 1919-cu il martın 28-də və aprelin 6-da keçirilən müşavirələrdə qaldırılmış və müzakirə obyektinə çevrilmişdir. Uzun sürən müzakirə və mübahisələrdən sonra ingilislər nəhayət ki, bu məsələdə güzəştsiz mövqe tutaraq ermənilərdən müttəfiqlərin komandanlığının qərarlarına tabe olmağı, Qarabağda və Zəngəzurda ADR-in hakimiyyətini tanımağı tələb etdilər. Bununla razılaşmayan Ermənistan XİN-yi Qafqazdakı Britaniya komandanlığına ünvanlandığı 1919-cu il 15 aprel tarixli, 1332 saylı teleqramında bu məsələ ilə bağlı tutduğu əvvəlki mövqeyini bir daha təkrarlamışdır. Təkinski bu barədə 1919-cu il 20 aprel tarixli teleqramla ADR-in XİN-nə məlumat vermişdir. O, 1919-cu il iyunun 25-də isə Ermənistanın XİN-nə 224 saylı nota verərək Qarabağ general-qubernatorluğunun yaradılması və X.Sultanovun təyinatına dair sənədləri bölgədə yerləşməsinə və burada qanunçuluğun təmin edilməsinə qarşı etirazları əsassız saymış, Ermənistanın iddialarını

respublikamızın daxili işlərinə qarışmaq səyləri kimi qiymətləndirmişdir.

Qarabağın general-qubernatoru X.Sultanovun gördüyü ciddi tədbirlər nəticəsində Şuşa rayonunda qayda-qanun bərqərar olunmuş və həyat normal ahəngə düşmüşdür".

Andranikin quldur dəstələrinin Zəngəzurun azərbaycanlı əhalisinə qarşı törətdikləri vəhşiliklər, Azərbaycan hökumətinin və müttəfiqlərinin komandanlığı missiyalarının səylərinə baxmayaraq, 1919-cu ilin martınadək davam etdi. Zəngəzur qəza rəisinin Gəncə qubernatoruna göndərdiyi 1919-cu il 28 fevral tarixli məlumatda qeyd edilirdi ki, qaniçən Andranikin quldur dəstələrinin vəhşilikləri Həkəridən Araza, Minkənddən Bazarçaya və Naxçıvan qəzasının sərhəddinədək uzanan ərazisini bürümüşdür.

1919-cu il fevralın sonlarında Andranik daha geniş miqyaslı qəsbkarlıq hərəkətlərinə başladı. Zəngəzur qəza rəisinin göndərdiyi teleqrama əsasən Vəkilovun ADR-in Daxili İşlər və hərbi nazirliklərinə yolladığı 1919-cu il 28 fevral tarixli, 790 saylı sənəddə deyilirdi: "Fevralın 23-də Andranik qüvvətli silahlı dəstə ilə Gorusdan Tuğ istiqamətinə hərəkət etmiş, eyni vaxtda onun dəstəsinin 4 bölüyü (100 nəfərlik hissə) Əkərək kəndinə gəlmişdir. Yerdəyişmənin məqsədi bizə tam aydınlaşmasa da, erməni mənbələrindən onların Cəbrayıl, Şuşa qəzalarının dağlıq hissəsini və bütün Zəngəzuru Xudafərin körpüsünədək işğal etmək niyyətləri məlum olmuşdur. Andranikin Şuşa istiqamətində, onun hissələrinin isə Əkərikdən keçməklə Zəngəzurun azərbaycanlı əhalisini qarət etmək məqsədilə Araz yönümündə hərəkəti bu məlumatları təsdiqləyir".

General-qubernatorluğa daxil olan qəzalarda siyasi-hərbi şəraitin kəskinliyini, Andranikin quldur dəstələrinin Zəngəzurun azərbaycanlı əhalisi və bu mahalın gələcəyi üçün yaratdığı təhlükəni çox yaxşı duyan X.Sultanov ADR-in müvafiq nazirliklərinə göndərdiyi bir teleqramda daşnak generalının məsələsinin ləğvi məqsədilə qətiyyətli tədbirlər görülməsinə dair ətraflı məruzə etmək üçün Bakıya gələcəyini bildirirdi. O, belə bir mühüm cəhətə də diqqət yetirirdi ki, ermənilərə və ingilislərə bir

aylıq dinc, həddən ziyadə ehtiyatlı siyasət yalnız məsələnin həllini yubadır və nəticələr vermir. Qubernator habelə ermənilərin hər yerdə qarşıdakı əməliyyatlara ciddi hazırlıq gördüklərini xəbər verir, hərbi nazirdən hazırlaşmadan orduya adam yığmamaq barədə sərəncam verməyi xahiş edirdi.

X.Sultanov general-qubernatorluğun hüdudlarında vəziyyət və oradakı milli ordu hissələrinin statusu, onunla hərbi hakimiyyət arasındakı münasibətlərin xarakteri ilə bağlı Azərbaycan hökuməti qarşısında müəyyən məsələlər qaldırmışdır. 1919-cu il aprelin 2-də Nazirlər Şurasının sədrinə məktubunda Xosrov bəy yazırdı: “Ağır anda general-qubernatorluğun hüdudlarında tam siyasi məsuliyyət daşıdığı halda hərbi hissələrin onun hakimiyyətinə tabe olmaması bir tərəfdən mahalda ikihakimiyyətlik yaradır, digər tərəfdən də, general-qubernatoru lazım gəldikdə silahlı qüvvədən əməli surətdə istifadə imkanından məhrum edir. Və hətta ermənilərin hücumları baş verdikdə hökumətlə ilkin əlaqə yaratmadan (teleqramların çatdırılması ilə bağlı çətinliklər xüsusilə nəzərə alınmaqla) silahlı qüvvələrdən istifadə etməyin qeyri-mümkünlüyü bölgəni böhranlı vəziyyətə sala bilər”. Məktubda daha sonra qeyd edilirdi ki, qanuna görə general-qubernatorun hakimiyyəti Baş komandanın hakimiyyətinə bərabər tutulur və hərbçi olmasa da, general-qubernatorluğun ərazisindəki silahlı hissələr onun tabeçiliyinə keçməlidir.

General-qubernatorun dörd aylıq fəaliyyəti ərzində ingilislərsiz bir addım belə atılmamasına baxmayaraq, onlar verdikləri vədlərin heç birinə əməl etməmişlər. X.Sultanov Şatelvortla söhbətindən belə nəticəyə gəlmişdir ki, ingilislərin guya bizə qarşı qərəzsizlik və xeyirxahlıq göstərərək Qarabağ məsələsində bitərəf mövqe tutmaları əslində məsələnin həllini yubatmaqla və sayıqlığımızı azaltmaqla ermənilərin xeyrinə olmuş, eyni zamanda da Şərur, Naxçıvan və Qarsın onlara verilməsi elan edilmişdir. Şatelvortun da təkzib edə bilmədiyi bu nəticə ingilislərin bizə münasibətdəki qeyri-səmimiliyini aydın göstərir.
İngilislərin məsələnin həllini ləngitməklə Azərbaycan üçün əlverişsiz şərait yaratdığını gördükdə qəti tədbirlərə əl atmış

general-qubernator müttəfiq qoşunları komandanlığının heç bir hüququ və mənəvi əsası olmayan ultimatum səciyyəli tələbləri ilə qarşılaşmamışdır. Hətta ingilislər Qarabağ məsələsində onların ziddiyyətli siyasətləri ilə razılaşmayan, ADR-in xəttini qətiyyətlə yeridən X.Sultanovun vəzifəsindən kənarlaşdırılmasını tələb etmişlər.

Onlar general-qubernatoru səhlənkarlıqda günahlandırmağın əsassız olduğunu yaxşı bildiklərinə görə öz hökumətinin siyasətini düzgün aparan və bununla da ermənilərin Milli Şurasının Qarabağda möhkəmlənməsinə mane olan bir şəxs kimi işdən uzaqlaşdırmağa çalışırdılar.

Zəngəzurla bağlı hadisələrə toxunan X.Sultanov ingilislərin öz vədlərinə xilaf çıxaraq, bu bölgədə hakimiyyəti Azərbaycana yox, Erməni Milli Şurasına verdiklərini, Ermənistan hökumətinin agentləri olan Arzumanovun və Çiləngərovun ingilis bayrağının himayəsi altında buraya pul və təlimatlar gətirmələrinə dair faktları qeyd edirdi. İngilisləri təmin edən mövcud vəziyyət isə ermənilərin Zəngəzur tərəfdən müxtəlif istiqamətlərdə hücuma keçərək azərbaycanlıların kəndlərini dağıtmaları, elat əhaliyə divan tutmaları, hərbi əməliyyatların mümkünlüyü təhlükəsi altında Şuşada toplanan qurultayın elə ermənilər tərəfindən də təxirə salınması, qubernatorluğun bir sıra yerlərində onların tələsik taxıl ehtiyatı görməsi və s. ilə səciyyələnirdi.

X.Sultanovun çıxardığı nəticələr arasında belə bir mühüm fikir də nəzər-diqqəti cəlb edir: ingilislərin Azərbaycan hökuməti vasitəsilə onu vəzifəsindən kənarlaşdırmağa çalışmaları bir tərəfdən ermənilərdə ingilislərin onları müdafiə etmələrinə, Azərbaycanı tanımamalarına və Zəngəzurdan kömək gözləməyə inamlarının möhkəmlənməsinə bilavasitə şərait yaradır, digər tərəfdən isə azərbaycanlılarda onların taleyinin Ermənistanla ingilislərin ittifaqına tapşırılması kimi məyusedici təəssürat oyadır. Xosrov bəy yerli şəraitin təhlili əsasında dərin inamını belə ifadə edir; 1) Qarabağ və Zəngəzur məsələsinin həllində ingilis köməyindən qətiyyətlə imtina etmək lazımdır; 2) İngilislər bu işdə bizə yalnız maneçilik törədirlər; 3) Nə qədər ki, daşnakların partiyası bu

bölgələrdə iş aparır, məcburedici tədbirlər görülməzsə, ermənilər Azərbaycan hökumətinin tabeçiliyinə razı olmayacaqlar; 4) Bu problemin bir ay ərzində həllinə nail olunmazsa, əhali hökumətin gücsüzlüyünə inanacaq ki, bu da anarxiyaya gətirib çıxaracaqdır. Bu isə həmin bölgələrdən həmişəlik əlini üzmək deməkdir.
Yaranmış təhlükəli vəziyyəti düzgün qiymətləndirən X.Sultanov ondan çıxış yolunu aşağıdakı təcili tədbirlərin həyata keçirilməsində görür: 1) Təxirə salmadan hərbi hissələri Zəngəzura yeritmək və eyni zamanda ermənilərin İrəvandan Azərbaycan torpaqlarına hərəkətinin qarşısını kəsmək; 2) Dağlıq Qarabağa Azərbaycanın hakimiyyətini tanımaq barədə ultimatum vermək və altı gün vaxt qoymaq; 3) Eyni zamanda bütün ermənilərə Azərbaycan rayonlarından getməyi təklif etmək və ultimatum müddətinədək onlarla hər cür əlaqələrin kəsiləcəyini bildirmək; 4) Ultimatum yalnız Şuşa şəhəri üçün istisna ediləcəyini göstərmək; 5) Azərbaycan hökuməti tanınmazsa altı gündən sonra hərbi əməliyyatlara başlamaq və bunun məsuliyyətinin tamamilə erməni əhalisi başçılarının üzərinə düşəcəyini bildirmək .
General-qubernator onun təklif etdiyi tədbirlərin ləngidiləcəyi və ya qəbul olunmayacağı təqdirdə bölgələri nələr gözlədiyini belə yekunlaşdırırdı: birinci, ermənilər Zəngəzurdan irəliləyərək Dağlıq Qarabağ erməniləri ilə birləşəcək, bununla da onlar pulla və döyüş sursatı ilə təchiz olunacaqdır; ikincisi, azərbaycanlıların içərisində anarxiya başlanacaqdır; üçüncüsü, köçərilər arandan təcrid ediləcəkdir; dördüncüsü, Qarabağın itirilməsi ehtimalı artacaqdır.
1919-cu il 4 iyunda Dağlıq Qarabağ ermənilərinin silahlı dəstələri Şuşa ətrafındakı azərbaycanlı hərbi hissələrinin yerləşdiyi gözətçi məntəqələrinə hücum etdilər. Lakin onların bu hücumu X.Sultanovun gördüyü qəti tədbirlər nəticəsində dəf edilmişdir.
X.Sultanovun Dağlıq Qarabağda erməni separatistlərinin qiyamçı hərəkətlərini qəti tədbirlər nəticəsində aradan qaldırması dinc erməni əhalisi tərəfindən razılıqla qarşılanmış, onlar X.Sultanovun yanına gələrək təşəkkürlərini bildirmişlər. Bu haqda "Azərbaycan" qəzeti 1919-cu il 25 iyunda aşağıdakı məlumatı vermişdi: "Bir neçə təxribatçı ünsürlərin əməlləri nəticəsində bir neçə yüz adamın

ölməsinə və zərər çəkməsinə səbəb olmuş qardaş qırğını Qarabağ general-qubernatoru X.B.Sultanovun gördüyü qətiyyətli tədbirlər nəticəsində tamamilə ləğv edilmişdir. Son hadisələrlə əlaqədar köçərilərin dayandırılmış hərəkəti yenidən bərpa edilmişdir. Əsgərandan Şuşaya qədər bütün yollar boyunca gözətçi məntəqələri qoyulmuşdur. Daşaltı erməni kəndindən general-qubernatorun yanına gələn nümayəndə heyəti faciəli hadisələr zamanı onlara kömək göstərdiyinə görə Xosrov bəy Sultanova öz təşəkkürlərini bildirmişlər" .

X.Sultanovun gördüyü ciddi tədbirlərdən sonra Dağlıq Qarabağın erməni əhalisi Azərbaycan dövlətinin hakimiyyətini tanımağı qərara aldı.

1919-cu il 27 iyulda Qarabağın general-qubernatorun yanında Şuşa qəzasının və Şuşa şəhərinin azərbaycanlı və erməni əhalisinin nümayəndələrinin iştirakı ilə müşavirə keçirilmişdir. Müşavirədə Şuşa şəhərində və onun ətrafında baş vermiş münaqişəni aradan qaldırmaq üçün azərbaycanlılarla ermənilər arasında barışıq yaratmaq məqsəd ilə iki komissiya yaradılmış və tapşırılmışdır ki, yerlərdə vəziyyətlə tanış olub müşavirəyə məruzə təqdim etsinlər. Müşavirə bu iki komissiyanın məruzəsinə baxıb onlardan məqsədəuyğun olanı qəbul edəcəkdir .

1919-cu il 29-30 iyulda Qarabağın həyatında xoş hadisə baş verdi. "Azərbaycan" qəzeti yazırdı: "Bu günlərdə Qarabağ öz torpağında özünün ən əziz və sevimli qonaqlarını Gəncənin qubernatoru Rəfibəyovun müşayiəti ilə Azərbaycan Respublikasının baş naziri N.Yusifbəylini və hərbi nazir Mehmandarovu qarşılayırdı. 29 iyulda qonaqlar Xankəndinə gəldi. 30 iyulda hörmətli qonaqlar Şuşaya gəldilər. Şəhər əhalisi qonaqları duz-çörəklə qarşıladı. Bundan sonra hörmətli qonaqlar məsciddə azərbaycanlılar qarşısında çıxış etdilər. Sonra isə onlar erməni kilsəsinə getdilər. Erməni ruhaniləri onları duz-çörəklə qarşıladılar. Yepiskop Azərbaycan dilində çıxış edərək iki millətin dinc yanaşı yaşamasının zəruriliyini göstərdi" .

Bütün bunlardan sonra Qarabağ erməniləri 1919-cu ilin avqustunda fövqəladə qurultay çağıraraq Azərbaycan hökumətinə tabe olmaq

haqqında qərar qəbul etmişlər. Qarabağ ermənilərinin 7-ci qurultayının xüsusi nümayəndələri Qarabağ general-qubernatoru X.B.Sultanovun hüzuruna gələrək Qarabağın dağlıq hissəsinin Azərbaycanın hakimiyyətini tanımaq haqqında məsələni dinc yolla həll etmək arzusunda olduqlarını bildirmişlər. Qubernatorun hüzuruna qurultayın nümayəndələri ilə birlikdə erməni ruhaniləri də gəlmişlər. Danışıqlar iki gün davam etmiş və nəhayət müqavilə layihəsi işlənib hazırlanmışdır. Qarabağın dağlıq hissəsinin taleyi haqqında məsələnin Sülh konfransında ermənilərlə azərbaycanlıların birgə yaşamasından asılı olaraq həll ediləcəyini nəzərə alaraq Qarabağ ermənilərinin 7-ci qurultayı 1919-cu il avqustun 15-də özünün səhər iclasında Azərbaycan Respublikasının hökuməti ilə müvəqqəti müqavilə bağlamağı qərara almışdır. Aşağıda biz həmin qərarın Qarabağ probleminə aid bəndlərini təqdim edirik:

"Maddə 1. İndiki müvəqqəti müqavilə tərəflər tərəfindən bu məsələ Sülh konfransında həll edilənə qədər qəbul edilir. Onun qərarları hər iki tərəf üçün məcburidir.

Maddə 2. Qarabağın dağlıq hissəsində Şuşada, Cavanşir və Cəbrayıl qəzalarında yaşayan ermənilər özlərini müvəqqəti olaraq Azərbaycan Respublikasının sərhədləri daxilində hesab edirlər.

Maddə 5. Qarabağ general qubernatorluğun yanında 6 nəfərdən: 3 erməni və 3 azərbaycanlıdan ibarət şura yaradılır.

Maddə 7. Millətlərarası xarakter daşıyan bütün prinsipial məsələlər şurada əvvəlcədən müzakirə edilmədən həyata keçirilə bilməz.

Maddə 12. Qarabağ erməniləri mədəni muxtariyyat hüququndan istifadə hüququna malikdirlər.

Maddə 14. Azərbaycan hökuməti erməni nümayəndələri vasitəsilə erməni milli şurasının fəaliyyətinə nəzarət edirlər.

Maddə 17. Siyasi əqidələrinə görə heç kəs nə məhkəmə, nə də inzibati qaydada təqiblərə məruz qala bilməzlər.

Maddə 20. Azərbaycan Respublikasının hökuməti dağıdılmış azərbaycanlı və erməni kəndlərinin təcili bərpa edilməsi işində Qarabağın əhalisinə maddi və mənəvi yardım göstərir.

Maddə 24. İndiyə qədər baş vermiş millətlərarası münaqişələrdə iştirak etdiyinə görə heç kəs təqiblərə məruz qala bilməz.
Maddə 25. Hazırki müqavilə Qarabağ ermənilərinin 7-ci qurultayı onu qəbul etdiyi andan qüvvəyə minir.
Maddə 26. Hazırki müqavilə hər cür vəziyyətdə: mühasirə, hərbi və digər hallarda qüvvədə qalır.
1919-cu il 19 avqustda Şuşikənddən xəbər gəldi ki, müqavilənin şərtləri yekdilliklə qəbul edilmişdir. Bu vaxtdan etibarən şəhərin erməni və Azərbaycan hissələri təntənəli hazırlığa başladılar" .
Məlum olduğu kimi 1920-ci il aprelin 28-də əslində keçmiş Rusiya imperiyasını bərpa etmək uğrunda mubarizə aparan Sovet Rusiyası (RSFSR) Azərbaycan Demokratik Respublikasını birbaşa hərbi təcavüz yolu ilə ələ keçirdi. Bolşeviklər ADR-in siyasi xadimlərin toxunulmazlığına vəd vermələrinə baxmayaraq sonra namərd mövqe tutaraq qısa müddət ərzində Azərbaycan xalqının qabaqcıl ziyalılarına və siyasi xadimlərinə qarşı kütləvi tədbirlərə başladılar. Məqsəd Azərbaycan xalqının öz liderlərindən və uzaqgörən siyasi xadimlərindən məhrum etmək idi. Bolşevik tədbirindən yaxa qurtarmaq və Azərbaycanın müstəqilliyi uğrunda mübarnizəni davam etdirmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra xadimləri kimi Xosrov bəy Sultanov da məcburiyyət qarşısında doğma vətənini tərk etmiş və taleyin hökmü ilə müxtəlif ölkələrdə mühacirat həyatı yaşamışdır. Xosrov bəy Sultanovun 1923-cü ildən sonrakı həyatı Almaniya, Fransa və Türkiyədə keçmişdir. Mühacirətdə olduğu dövrdə o, “İttihad” partiyasının fəal xadimi kimi bolşevizmə qarşı fəal mübarizəni davam etdirmiş və xarici ölkələrdə olan digər siyasi qüvvələrlə vahid cəbhə yaratmağa çalışmışdır.
Xosrov bəy Sultanov 1926-cı ildə martın 4-də Parisdən Tehrana gələrək Azərbaycanla əlaqələrin möhkəmləndirilməsi üçün tədbirlər gördü. O “İttihad” partiyasının Tehran komitəsinə Aşur bəy İsabəyi, Təbriz komitəsinə isə qardaşı İsgəndər bəyi təyin etmişdir. Xosrov bəy Sultanov digər ittihadçı Mir Yaqub Mehdiyevlə “İttihad” partiyasının xarici ölkələr bürosunu yaratmaq üçün ciddi səylər göstərmişdi.

İkinci Dünya müharibəsi başlayarkən Xosrov bəy Türkiyədə yaşayırdı. O, Sovet-Alman cəbhəsində əsir düşmüş azərbaycanlıları Almaniyanın həbs düşərgəsindən xilas etmək üçün böyük xidmətlər göstərmişdir. Məhz Xosrov bəyin səyi nəticəsində minlərlə azərbaycanlı ölüm məngənəsindən xilas olmuşdu.
Lakin amansız ölüm Xosrov bəyə özünün qəhrəman və parlaq fəaliyyətini davam etdirməyə imkan vermədi.O,1943-cü ildə vəfat etmişdir.Məzarı İstanbulun Feriköy qəbiristanlığındadır.
Azərbaycanda və mühacirətdə olarkən bütün həyatını xalqının azadlığı və səadətinə həsr etmiş bu görkəmli ictimai-siyasi xadim və sərkərdənin gərgin, lakin parlaq və mənalı həyatının öyrənilməsinə böyük ehityac vardır.

Azərbaycan hökuməti özünün ərazi bütövlüyünü və Dağlıq Qarabağda erməni separatizmini ləğv etmək üçün olduqca məqsədyönlü və qətiyyətli fəaiyyət göstərmişdir. Faktlar göstərir ki, Azərbaycan hökuməti ilk əvvəllər özünün elan etdiyi mehriban qonşuluq münasibətinə əməl edərək çalışırdı ki, mübahisəli məsələlər sülh yolu ilə həll edilsin. Lakin Azərbaycan hökumətinin belə nəcib səyləri bir nəticə vermədiyini, ermənilərin bəd əməllərini, ikiüzlü siyasətlərini gördükdə əməli tədbirlər görməyə məcbur oldu. Milli hökumət erməni separatçılığını aradan qaldırmaq üçün dörd qəzanı əhatə edən Qarabağ general-qubernatorluğunu yaratmış və görkəmli ictimai xadim Xosrov bəy Sultanovu ona rəhbər təyin etmişdir. İlk gündən X.B.Sultanov olduqca cəsarətli addımlar atdı. Belə ki, onun gördüyü tədbirlər nəticəsində Qarabağda və ona bitişik ətraf bölgələrdə erməni separatçılığı aradan qalxmış, Dağlıq Qarabağ erməniləri özləri öz təşəbüsləri ilə qurultay çağıraraq Azərbaycan Respublikasının hakimiyyətini tanımaq haqqında qərar qəbul etmişlər.
Ermənistan dövlətinin Qarabağ general-qubernatorluğunun yaradılmasına qarşı etirazları Azərbaycan dövləti tərəfindən qətiyyətlə rədd edilmişdir.

## § 4. Cümhuriyyətin sosial-iqtisadi və mədəni quruculuq tədbirləri

Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi müddətdə sosial-iqtisadi və mədəniyyətin inkişafı sahəsində xeyli tədbirlər həyata keçirmişdi. O, bunları Dünya müharibəsi, daşnak və bolşevik talanları, ingilis müdaxiləsi, ermənilərin ərazi iddiaları, respublika ərazisinin parçalanması, təsərrüfat dağıntılığının, separatizmin və anarxiyanın baş alıb getdiyi, hökumət və parlamentdaxili mübahisələrin, fikirayralıqlarının, habelə sosial-siyasi qarşıdurmanın hökm sürdüyü bir şəraitdə həyata keçirmişdi. Bu sahədə onun qarşısında duran başlıca vəzifə imperialist, vətəndaş müharibəsi, vətəndaş qarşıdurması, xarici hərbi müdaxilə nəticəsində dağılmış iqtisadiyyatı bərpa etməklə yanaşı iqtisadiyyatın inkişafında yeni, demokratik prinsiplərə əsaslanan ciddi islahatlar keçirməkdən ibarət idi. Açıqcasına qeyd edək ki, xalq Cümhuriyyətinin yüksək intellektuala malik rəhbərliyinin iqtisadi məsələlərdə təcrübələrinin kifayət qədər olmaması, onların siyasi, ideoloji işlərə, beynəlxalq məsələlərə daha çox diqqət verməyə məcbur olmaları təsərrüfat sahəsində ciddi islahatlar aparmalarını ləngidirdi. Lakin bunlara baxmayaraq fəaliyyət göstərdikləri təqribən iki il ərzində iqtisadiyyatın və mədəniyyətin inkişafı sahəsində də xeyli işlər görmüşdülər.

Hökumətin ilk addımlarından biri respublika sərvətlərinin xaricə daşınmasının qarşısını almaq olmuşdu. Buna görə də hökumətin 1918-ci il iyunun 27-i tarixli fərmanı ilə respublkadan kənara mal çıxarılması qadağan edilmişdi. Fərmana görə taxıl və taxıl məhsullarının, pambıq, yun, dəri, ipək və onlardan hazırlanan əşyaların, metal və metal məmulatlarının, heyvanların və ət məhsullarının Azərbaycandan çıxalırması qadağan olunmuşdu.

Bu bir tərəfdən məhsulların respublikadan kənara çıxmasının qarşısını alırdısa, digər tərəfdən milli valyutanın qiymətdən düşməsinə, xüsusi mülkiyyətin inkişafına mane olurdu. O zaman hökumətdə mülki müşavir, görkəmli Azərbaycan sənayeçisi Hacı Zeynalabdin Tağıyev bu fərmandakı qərarlara narazılığını bildirərək yazmışdı ki, «Mal ixracına qoyulan qadağalar milli valyutanın qiymətdən düşməsinə gətirib çıxarmışdır». Doğrudan da, 1919-cu ilin yayında Azərbaycan birjasında Cümhuriyyət valyutasının məzənnəsi çox aşağı düşmüşdü. Məsələn, bir funt sterlinq 310-315 manat, bir dollar – 250 manat, bir frank – 810 manat, bir Türkiyə lirəsi – 390 manat, bir rus qızıl rublu – 420 manat və s. olmuşdu.

Kənd təsərrüfatı və sənaye Azərbaycan iqtisadiyyatının əsasını və ölkə əhalisinin 75%-nin fəaliyyət və dolanışıq mənbəyini təşkil edirdi. Bu dövrdə Azərbaycanın 2559027 nəfər əşalisi vardı. Əhalinin 1981548 nəfəri kənddə, qalan 577479 nəfəri şəhərlərdə yaşayırdı. Bu fakt aqrar məsələnin həllinin əhalinin əksəriyyətinin həyati maraqları ilə sıx bağlı olduğunu göstərir. Kənd təsərrüfatı sahəsinin 29,5% mülkədarların, 68,7%-i dövlətin və 1,8%-i kəndlilərin əlində idi. Əhalinin isə 54,4%-ni yoxsul kəndlilər, 34%-ni ortabablar, 6%-ni isə varlı kəndlilər təşkil edirdi. Deməli, aqrar məsələnin, torpaq məsələsinin həlli hökumət qarşısında duran ən vacib məsələ idi. Buna görə də, parlament və hökumət aqrar məsələyə, burada islahat keçirməyə çox diqqətlə yanaşırdı. Hətta 1919-cu ilin fevralında (4-də) torpaq islahatı haqqında qanun layihəsi hazırlamaq məqsədilə hümmətçi-menşevik S.Ağamalıoğlu başda olmaqla parlament komissiyası yaradılmışdı. Onun hazırladığı layihəyə görə, respublika ərazisində bütün torpaqlar dövlətin mülkiyyəti elan edilir, onlar əvəzsiz olaraq dövlətin ixtiyarına keçir, əvvəlki mülklərin müəyyən hissəsi (müəyyən olunmuş

dərəcələr üzrə) əsas sahibkarların istifadəsi üçün onların özündə qalırdı. Qalan bütün torpaq dövlət fonduna daxil edilirdi.

Layihədə göstərilirdi ki, torpaq haqqında qanunun son variantı Azərbaycan Cümhuriyyəti Müəssisələr Məclisi tərəfindən təsdiq olunmalı idi.

Həmin layihə müzakirə edilmək üçün parlamentin 1919-cu il oktyabrın 2-si tarixdən parlamentin 81-ci iclasının gündəliyinə daxil edilmişdi. Lakin müəyyən səbəblər üzündən müzakirə dayandırılmışdı.

Bununla yanaşı, Əkinçilik Nazirliyi də torpaq haqqında layihələr hazırlamışdı. Bu işə nazirlikdə X.Sultanov başçılıq edirdi. Bu layihələrdə torpağın əvəzi ödənilməklə özəlləşdirilməsi nəzərdə tutulurdu. Birinci layihə kimi bu layihələr də uğursuz oldu. Hökumət böhranının baş verməsi ilə əlaqədar onlar müzakirə olunmadılar.

1920-ci ilin martında nazirlik tərəfindən «Xüsusi sahibkar torpaqlarının dövlət torpaq fonduna keçirilməsi və Azərbaycan Cümhuriyyətinin əhalisinin torpaqla təmin olunması haqqında» qanunun yeni layihəsi hazırlanıb Nazirlər Şurasına verildi. Bu layihə də müzakirə olunmadı.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti üçün çox vacib məsələlərdən biri həll olunmamış qaldı.

Xalq Cümhuriyyətinin iqtisadi tədbirlərindən biri də gənc respublikanın maliyyə sistemini tənzimləmək və xəzinədə vəsait toplanmasına nail olmaq idi.

Hökumət vergi sisteminin də formalaşmasına yardım edən tədbirlər hazırlayırdı. Büdcə əsasən aşağıdakı vergilərdən formalaşırdı: müstəqil vergilər (torpaq, gəlir, sənaye, hərbi mükəlləfiyyətlər və s. vergilər); dolayı vergilər (tütün, şəkər, çay, ağ neft, benzin, sürtkü yağlarından və digər neft məhsullarından, gömrükdən və s.); möhür haqqı vergisi (məhkəmə, kargüzarlıq və s.); hökumət inhisarlarına aid vergilər

(mədən gəlirləri, poçt, teleqraf və s.) və dövlət dəmir yolundan gələn gəlirlər.

Hökumət maliyyə siyasətində mütürəqqi gəlir vergisinə üstünlük verirdi.

Maliyyə probleminin üstünlük təşkil etməsini o da sübut edirdi ki, AXC parlamentinə verilən qanun layəhələrinin 82-si Maliyyə Nazirliyi tərəfindən təqdim olunmuşdu..

Qəbul olunmuş qanunlar dövlətin maliyyə vəziyyətinin müəyyən qədər yaxşılaşdırılmasına xidmət edirdi.

Pulun sürətlə gedən emissiyası hökumətə hələ Bakı Soveti dövründən dövriyyəyədə olan «Bakı bonu» adlanan yeni pulların buraxmasına məcbur etmişdi. Hökumət 1918-ci il sentyabrın 22-də Bakı bonlarının dövriyyəyə buraxılması barədə qərar vermişdi. Qərara görə 40 Bakı bonu (manat) bir Türkiyə lirəsinə bərabər idi. Bu dövrdə AXC dövriyyəsində 4 valyuta var idi: Çar hökuməti tərəfindən kəsilmiş («Nikolayevski») rubllar, müvəqqəti hökumətin kəsdiyi rubllar («kerenkalar»), Tiflisdə buraxılmış Zaqafqaziya hökuməti bonları və Bakı bonları.

Bu da ölkədə inflyasiyanın daha da artmasına səbəb olurdu. Çoxlu qərarlar və tədbirlər görülməsinə baxmayaraq hökumət bunun qarşısını ala bilmədi.

Cümhuriyətin maliyyə vəziyyətinin nizama salınmasında 1919-cu il avqustun 23-də parlament tərəfindən Dövlət bankının yaradılması barədə qanun verməsi müəyyən rol oynamışdı. Əvvəllər Bank əməliyyatları Rusiya Dövlət Bankının Bakı şöbəsi tərəfindən aparılırdı. İndi bu vəzifə AXC Dövlət Bankına həvalə edildi. Sentyabrın 30-da Dövlət Bankının təntənəli açılışı oldu. İlk vaxtlar onun əsas kapitalı 500 milyon, ehtiyat kapitalı isə 20 milyon manata bərabər idi.

Dövlət bankı ilə bərabər ölkədə xüsusi banklar da fəaliyyət göstərirdilər.

1919-cu il oktyabrın axırında parlament 12 mərkəzi və 70 yerli əmanət kassaları, 200-ə qədər xırda kredit müəssisələrinin açılması barədə qanun layihəsi qəbul etdi.

1920-ci il yanvarın 15-də parlament kənddəki sahibkarlara, sənətkarlara, sənayeçilərə və onların təşkil etdikləri artellərə, şirkətlərə inventar, mal-qara, toxum almaqda yardım göstərmək və onları pul vəsaiti ilə təmin etmək üçün xırda kredit haqqında qanun qəbul etmişdi.

Bütün bu tədbirlər müəyyən dərəcədə maliyyə-kredit siyasətini möhkəmləndirmiş, pul tədavülü üzərində nəzarəti gücləndirmişdi. Lakin bunlara baxmayaraq Milli valyutanı hələ də Azərbaycan ərazisində yeganə ödəniş vasitəsinə çevirmək mümkün olmamışdı.

Azərbaycan hökuməti gömrük qanunvericiliyinin yaradılması sahəsində də bir sıra real addımlar atmışdı. Parlament fəaliyyət göstərdiyi müddətdə gömrük sahəsində 20-ə qədər qanun qəbul etmişdi. Artıq 1920-ci iln əvvəlində Azərbaycanda formalaşmış dövlət gömrük xidməti yaradılmışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi tədbirləri sırasında ən mühüm yerlərdən birini qonşu və uzaq xarici dövlətlərlə iqtisadi əlaqələrin yaradılması təşkil edirdi. AXC hökuməti dünyanın – bir sıra ölkələri, o cümlədən, Türkiyə, İran, İngiltərə, ABŞ, Fransa, İtaliya,Gürcüstan, Ermənistan, Dağıstan, Mərkəzi Asiya dövlətləri ilə iqtisadi əlaqə yaratmağa nail olmuşdu. Bir çoxları ilə rəsmi ticarət müqavilələri imzalamışdı.

Neft və neft məhsullarının xarici ölkələrə, dünya bazarına ötürülməsində Bakı-Batumi neft kəmərinin bərpa olunmasının müstəsna əhəmiyyəti olmuşdur.

Sovet Rusiyasının Azərbaycanın müstəqilliyini tanımaq istəməməsinə baxmayaraq onunla da ticarət əlaqələri yaratmaq barədə 1920-ci martın 30-da müqavilə imzalanmışdı.

Paris Sülh Konfransında Azərbaycan nümayəndələri səyi nəticəsində Almaniya ilə iqtisadi əlaqə yaratmaq mümkün olmuşdu.

Paris Sülh Konfransında Azərbaycan nümayəndələri ABŞ, İtaliya, Fransa nümayəndələri ilə iqtisadi əməkdaşlığın imkanları barədə müzakirələr aparmışdılar.

Azərbaycan hökuməti ilə İngiltərə arasında bağlanan 1919-cu il mayın 23-ü tarixli müqaviləyə əsasən respublikadan Batum vasitəsilə İngiltərəyə 450 min pud mazut, 250 min pud ağ neft, 75 min pud benzin aparılmasına icazə verilmişdi.

Ancaq 1919-cu il iyunun 30-da Bakıdan Batum vasitəsilə İngiltərəyə 10 vaqon benzin, 2 vaqon isə müxtəlif mallar göndərilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti zəhmətkeşlərin sosial vəziyyətinə də daim diqqət yetirildi. Hökumətin sosial siyasətinin başlıca istiqamətini: 1. fəhlə və dövlət qulluqçularının, ümumən zəhmətkeş əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq; 2. sahibkarlar və fəhlələr arasındakı münaqişələri həll etmək; 3. fəhlələr barədə qanunlar hazırlamaq; 4. sosial təminatı inkişaf etdirmək, əsaslı pensiya və sığorta siyasəti formalaşdırmaq; 5. sosial problemlərin həlli və tənzimlənməsi yolunda müxtəlif siyasi qüvvələrlə əməkdaşlığa nail olmaq təşkil edirdi.

1919-cu ilin yanvarın 21-də Əmək Nazirliyinin yaradılması bu məsələlərin, xüsusən fəhlə məsələsinin həllində mühüm addım sayıla bilər. Həmin Nazirliyə sosialistlərin nümayəndəsi A.Səfikürdski başçılıq edirdi.

1919-cu il yanvarın 1-dən oktyabr ayının 15-ə kimi Əmək Nazirliyinə 1537 şikayət ərizəsi daxil olmuşdu. Onlardan 928-i fəhlələrin xeyrinə həll olunmuşdu.

Əmək haqqının artırılması ilə əlaqədar keçirilən müşavirədə ailəli vətəndaşlara ayda 360 manat, ailəsizlərə isə 120 manat əlavə pul vəsaiti verilməsi qərara alınmışdı.

Əmək Nazirliyi mədən və fabriklərdə əməyin mühafizəsi barədə də qərar çıxarmışdı.

Əmək Nazirliyinin tələbi ilə parlament 1919-cu il martın 19-da nazirliyin nəzdində fəhlə məsələsi üzrə Xüsusi Məşvərət Şurası yaratmaq barədə qanun qəbul etmişdi. Məşvərət Şurasının tərkibinə beş nəfər fəhlə və beş nəfər sahibkar daxil idi. Bu qurum əməyin mühafizəsi, fəhlə və sahibkarlar arasındakı münasibətlərin tənzimlənməsi məsələləri ilə məşğul olurdu.

1919-cu il mayın 31-də sosial və istehsalat münaqişələrinin həllinə cavabdeh olan arbitrajın yaradılması barədə qərar çıxarıldı.

Hökumət və parlament dövlət qulluqçularının maddi vəziyyətini yaxşılaşdırılması barədə bir sıra qərarlar (1918-ci il 28 dekabr, 1919-cu il 21 aprel, 1920-ci il 5 yanvar və 7 fevral) vermişdi.

Parlament 1919-cu il mayın 12-də qulluqçulara müvəqqəti əlavə pul vəsaiti verilməsi barədə, 1920-ci il martın 15-də isə mülki və hərbi qulluqçuların əmək haqqlarının artırılması barədə qanunları qəbul etmişdi.

1919-cu il sentyabrın sonlarında Əmək Nazirliyi bahalığın artmasını nəzərə alaraq, Bakı rayonunda yerləşən sənaye müəssisələrinin fəhlə və qulluqçularının əmək haqqlarının artırılması məsələsini müzakirə etməyi zəruri saydı və müvafiq komissiya yaratdı.

Əhalinin sosial vəziyyətinin müəyyən dərəcədə yaxşılaşdırılmasına hökumətin 1918-ci ilin mart və sentyabrında baş vermiş hadisələr zamanı «zərərçəkənlərə maddi yardım göstərilməsi barədə» 1919-cu il 7 fevral və kasıb ailələrdən olan şagirdlərə maddi yardım verilməsi barədə 17 fevral tarixli

qərarlarının, habelə parlament tərəfindən qaçqınların ehtiyaclarının ödənilməsinə 21 milyon manat məbləğində vəsait buraxılması barədə 1920-ci il 8 yanvar tarixli qanunun çox mühüm əhəmiyyəti olmuşdu.

***Mədəni quruculuq***

Azərbaycan Xalq Cümhuriyyəti öz fəaliyyətində mədəni quruculuğa da böyük diqqət vermişdi. O,müharibələr və daxili çəkişmələr nəticəsində dağıdılmış mədəniyyət ocaqlarının bərpası və inkişaf etdirilməsi üçün çox mühüm tədbirlər həyata keçirmişdi. Onun ilk addımı ondan ibarət olmuşdu ki, yaradılan ilk hökumətin tərkibində Azərbaycan Xalq Maarif Nazirliyi təsis edilmişdi.

Mədəniyyət sahəsində onun ilk addımlarından biri də təhsil müəssisələrinin milli zəminə keçirilməsi olmuşdu. Azərbaycan hökumətinin və Maarif Nazirliyinin 1918-ci il avqustun 28-i tarixli qərarı ilə bütün ibtidai məktəblərdə təhsil ana dilində – türk dilində aparılmağa başlandı. Dövlət dili olan türk dilinin tədrisi məcburi hesab olunurdu. Dərslər rus dilində aparılan siniflərdə məcburi surətdə həftədə 3-4 saat türk dili keçilirdi.

Xalq Maarif Nazirliyinin 1919-cu il sentyabrın 7-də orta məktəb direktorlarına göndərdiyi təcili məktubda azərbaycanlı uşaqların ancaq milliləşdirilmiş hazırlıq kurslarına, həmçinin birinci siniflərə qəbul etmək göstərişi verilmişdi. Bu da məktəblərdə azərbaycanlı uşaqların sayının artmasına səbəb olmuşdu. Əgər 1914-1915-ci il dərs ilində 6430 nəfər orta məktəb şagirdlərindən 1132 nəfəri azərbaycanlı idisə, 1919-1920-ci dərs ilində onların sayı 3115 nəfərə qalxmışdı.

1919-cu ilin əvvəllərində Azərbaycanda 637 ibtidai məktəb və 23 orta ixtisas məktəbi fəaliyyət göstərirdi. Orta məktəblər sırasında 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı

məktəb, 3 müəllimlər seminariyası, 3 müqəddəs Nina məktəbi, politexnik və kommersiya tədris müəssisələri var idi.

1919-cu ilin iyulundan Lənkəranda fəaliyyət göstərən kişi və qadın gimnaziyaları da Maarif Nazirliyinin sərəncamına keçmişdi. Həmin il avqustun 11-i Xalq Maarif Nazirliyinin qərarı ilə Bakı, Gəncə və Şəkidəki müqəddəs Nina qız məktəblərinin adı dəyişdirilmişdi. Onlar qız gimnaziyaları adlandırıldılar. 1919-cu ildə Göyçayda da realnı məktəb açıldı.

Məktəblərdə qızların da sayı artmışdı. 1918/1919-cu dərs ilində Gəncə gimnaziyasında cəmi 4 nəfər azərbaycanlı qız oxuyurdusa, 1919/1920-ci dərs ilində onların sayı 266 nəfərə çatmışdı.

Xalq Cümhuriyyətinin ən mühüm təşəbbüslərindən biri də əlifba islahatı keçirmək idi. 1919-cu ilin martında X.Məlikaslanovun sədrliyi altında əlifba islahatını hazırlamaq üçün xüsusi komissiya yaradılmışdı. Əlifba islahatı üzrə təqdim olunmuş layihələrdən ancaq müəllim Abdullabəy Əfəndiyevin təqdim etdiyi variant parlament tərəfindən bəyənilmişdi.

Hökumət pedaqoji kadrların hazırlanmasına xüsusi diqqət verirdi. Nazirlik tərəfindən hər il respublikanın müxtəlif məntəqəlrində 4 seminariya açılması qərara alınmışdı.

Qori müəllimlər seminariyasının müsəlman şöbəsi Qazax şəhərinə köçürüldü və müstəqil seminariyaya çevrildi. 1919-cu ilin sentyabrında Bakıda kişi seminariyası açıldı.

Müəllim kadrlarına olan ehtiyacı nəzərə alaraq Azərbaycan hökuməti 1918-ci il iyulun 22-də respublika məktəblərində işləmək üçün Türkiyədən müəllim dəvət etmək və dərs vəsaiti gətirmək barədə qərar qəbul etdi. Tezliklə Türkiyədən 50 nəfər yüksək ixtisaslı müəllim Azərbaycan məktəblərində işləməyə gəldi.

İbtidai məktəblərin və orta məktəblərin aşağı siniflərini müəllimlərlə təmin etmək üçün 1919-cu ilin yayında Bakıda,

Gəncədə və Şəkidə kişi və qadın,Şuşada, Qazaxda, Qusarda, Salyanda və Zaqatalada isə ikiaylıq kişi pedaqoji kursları açıldı. Onların hər birində ən azı 50 nəfər müdavim var idi.

Texniki və peşə təhsilinin inkişafı sahəsində də müəyyən addımlar atıldı. Gəncə stansiyasında dəmiryolu və teleqraf xidməti işçiləri hazırlayan kurslar açıldı. Salyanda hidrotexniki məktəbin açılması layihələşdirildi. Azərbaycanlıların peşə məktəblərinə güzəştlə girmələri üçün tədbirlər görüldü. Maarif Nazirliyi 1919-cu ilin avqustunda azərbaycanlı gənclərin Bakı Politexnik məktəbinə imtahansız qəbul edilməsi barədə xüsusi sərəncam verdi. 1919-cu ilin noyabrında kənd təsərrüfatı üçün orta təhsilli kadrlar hazırlamaq məqsədilə ikiillik kursların təşkili barədə qanun layihəsi hazırlandı. Gəncədə orta, Şəki və Zaqatalada isə ibtidai kənd təsərrüfatı məktəblərinin açılması qərara alındı.

İxtisaslı fəhlə kadrların hazırlanması məqsədilə texniki kursların şəbəkəsi genişləndi.

Dərsliklərin hazırlanması və nəşri sahəsində tədbirlər həyata keçirildi. Ən görkəmli maarif və ədəbiyyat xadimlərindən Hüseyn Cavid, Mahmudbəy Mahmudbəyov, Abdulla Şaiq, Camo Cəbrayılbəyli, Səməd bəy Acalov, Fərhad Ağayev, Ağa bəy İsrafilov, Abdulla bəy Əfəndizadə və b. bu işə cəlb olundular. Türkiyədən də dərsliklərin və dərs vəsaitlərinin alınması davam etdirildi.

Əhaliin savadsızlığının ləğvi sahəsində müəyyən işlər görülürdü. Yaşlı əhali üçün savad kursları, qeyri-millətlər üçün türk dili kursları təşkil edilirdi. Yuxarıda sözügedən əlifba islahatı da bütövlükdə savadsızlığın ləğvi işinə xidmət etməli idi.

Azərbaycan Xalq Cümhuriyyətinin mədəniyyət sahəsində ən böyük xidmətlərindən biri də Azərbaycanda ali təhsil sisteminin əsasını qoymasıdır.

Hələ 1918-ci ilin yayında Azərbaycan hökuməti Tiflisdə açılacaq Politexnik İnstitutunun maliyyələşdirilməsində iştirakı məsələsini nəzərdən keçirmişdi. Bununla əlaqədar Maarif naziri N.Yusifbəyli təklif etmişdi ki, həmin institut Azərbaycan ərazisinə köçürülməsi şərtilə hökumət onu maliyyələşdirməyi öz üzərinə götürə bilər. Bundan əlavə Azərbaycan Maarif Nazirliyi Bakıda Pedaqoji İnstitutun açılması barədə də qanun layihəsi hazırlamışdı. Bakı Musiqi məktəbi bazasında konservatoriya açılması niyyəti də olmuşdu. Lakin bunlar baş tutmamışdı.

Əvvəl Bakıda universiteti hələ 1918-ci ilin iyununda yaradılmış Zaqafqaziya universitetinin Bakıya köçürülməsi yolu ilə yaratmaq niyyətində idilər. Bakı buna razılıq vermişdi. Lakin vəziyyət birdən-birə dəyişdi. Zaqafqaziya Universitetinin Bakıya köçürülməsi gündəlikdən çıxdı. Azərbaycan Xalq Cümhuriyyətinin Xalq Maarif nazirinin müavini Qədimbəy Şaxtaxtinski əvvəl Zaqafqaziya Universitetinin rektoru olan V.İ.Razumovskidən Bakıda universitet yaratmağa kömək etməyi xahiş etdi. V.İ.Razumovski bu təklifi qəbul etdi. Tezliklə Xalq Maarifi Nazirliyi universitet komissiyası yaratdı. Komissiya universitetin təsis edilməsi barədə qanun layihəsini, universitetin nizamnaməsini, həmçinin 1919/1920-ci dərs ili üçün müvəqqəti ştat və smeta cədvəllərini hazırlayıb təqdim etməli idi.

1919-cu il avqustun 21-də Dövlət Universiteinin təsis edilməsi barədə qanun layihəsinin ilk müzakirəsi keçirildi. Müzakirə gedişində aydın oldu ki, parlament üzvlərinin əksəriyyəti universitetin açılmasına tərəfdardırlar. M.Ə.Rəsulzadə, F.X.Xoyski, N.Yusifbəyli, M.Hacınski, A.Əfəndizadə, S.A.Vonsoviç, S.M.Qənizadə, Ə.H.Qarayev, S.Ağamalıoğlu, R.Kaplanov və b. universitetin təsis edilməsi barədə qanun layihəsini müdafiə etdilər. Onlar göstərdilər ki, universititetin açılması maarifin, elmin inkişafında, respublikada mədəni mühitin formalaşmasında çox mühüm hadisə olacaqdır.

Layihənin parlamentdə müzakirəsi zamanı Q.Qarabəyov, Y.Əhmədov, M.Əfəndiyev və b. universitetdə təhsilin rus dilində olacağını, azərbaycanlı kadrların olmamasını və onun təşkili üçün maliyyə vəsaitinin çatışmayacağını irad tutaraq təsis əleyhinə çıxırdılar.

M.Ə.Rəsulzadə universitetin təsis olunması əleyhdarlarına cavab olaraq deyirdi: «Burada universitetin açılması məsələsində iki fikir mövcuddur. Məsələyə müxalif olan münasibət onun əsaslandırır ki, bizdə kifayət qədər elmi kadrlar və mütəxəssislər yoxdur. Amma universitetin təsis edilməsi dövlətin əsas vəzifələrindən biri olmalıdır, buna görə də bütün maneələr aradan qaldırılmalıdır. Əlbəttə, yaxşı olardı ki, açılacaq elm ocağı türk (Azərbaycan ) dilində olaydı, lakin bu hələlik mümkün deyildir. Lakin bu, başqa dildə də olsa, universitetin fəaliyyət göstərməsinə mane olmamalıdır.»

Sonra inamla əlavə edirdi ki, «...universitetdə türk (Azərbaycan ) dili keçiləcək, tələbələrin özləri də Bakıda, öz doğma xalqı içərisində özlərini rahat hiss edəcəklər».

1919-cu il sentyabrın 1-də parlament Bakı şəhərində Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Qanunda universitetin 4 fakültədən: tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələrindən ibarət olacağı göstərildi. Qanunda 1919-cu il sentyabrın 7-dən başlayaraq birillik müvəqqəti ştat və smeta cədvəli, universitet komissiyasına üç il müddətinə ilk rektor və dekanları, kollegiya professorları dəvət etmək, Elmi Şuraya idarə heyəti təşkil etmək hüququ verildi.

Qanunda universitetin 1919-1920-ci dərs ilində tədrisi təşkil etmək, avadanlıqlar almaq məqsədilə büdcədən 5 milyon manat vəsait ayrılması, bütün fakültələrdə türk (Azərbaycan) dilinin tədrisinin məcburi olması göstərildi.

Bakı Universitetinin ilk rektoru professor V.İ.Razumovski olmuşdur. O, Zaqafqaziya universitetində rektor vəzifəsini buraxaraq Bakıya gəlmişdi. Universitetdə dərs demək üçün Moskva universitetindən, Rostov, Yekaterinoslav, Xarkov və Rusiyanın digər şəhərlərindən görkəmli alim və professorlar dəvət olunmuşdular.

Universitet ilk dəfə fəaliyyətə 1919-cu il noyabrın 15-dən başlamışdı. Onun iki fakültəsində (tarix-filologiya və tibb) 877 nəfər tələbə təhsil alırdı. Onun 217 azad müdavimləri var idi. Tələbələr arasında azərbaycanlılar çox azlıq təşkil edirdilər. Tarix-filologiya fakültəsində 500 nəfərdən ancaq 12 nəfəri azərbaycanlı idi. Tibb fakültəsində 10 nəfər azərbaycanlı qız oxuyurdu.

1919-cu ildə, Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən yaradılmış universitetin varisi olan Bakı Dövlət Universitetində indi 15 mindən çox tələbə təhsil alır, onların tam əksəriyyətini azərbaycanlılar təşkil edir. İndi Bakı Dövlət Universiteti Müstəqil Azərbaycan Respublikasının ən güclü tədris və elm ocağıdır. O, sivil ölkələrin ali təcsil müəssisələri ilə yarışmaq iqtidarında olan maddi,pedaqoji və elmi potensiala malikdir. O, respublikamızın fəxridir.

Yüksək ixtisaslı milli kadrlara ehtiyacı nəzərə alaraq Azərbaycan parlamenti 1919-cu il sentyabrın 1-də, 1919-1920-ci dərs ilində xarici ölkələrin ali məktəblərində təhsil almaq üçün 100 nəfər gəncin göndərilməsi və bunun üçün vəsait ayrılması barədə qərar qəbul etdi. Həmin Gənclər İngiltərə, İtaliya, Fransa, Türkiyə ali məktəblərinə göndərildilər.

İstiqlal dövründə elmin də inkişafına qayğı göstərilirdi. 1919-cu il dekabrın 29-da «Müsəlman Şərqini öyrənən» cəmiyyət təsis edildi. Cəmiyyət Azərbaycanın orta əsr maddi mədəniyyət abidələrinin öyrənilməsi ilə məşğul olmalı idi.

İstiqlal dövründə Azərbaycan mədəniyyətinin ədəbiyyat, incəsənət və mətbuat kimi sahələrinin də inkişafı baş vermişdi. Əslində onlar hələ XIX əsrin son rübü – XX əsrin əvvəllərində təşəkkül tapmış milli-demokratik fikrin ənənələrini davam etdirirdilər.

1919-cu il oktyabrın 15-də parlamentdə mətbuat haqqında qanun qəbul edilmişdi.

Bu dövrdə Azərbaycanda 80-dan çox qəzet və jurnal nəşr olunurdu...Onlardan 39-u Azərbaycan, 44-ü rus və başqa dillərdə nəşr olunurdu. Onlardan «Azərbaycan», «İstiqlal» qəzetləri, xüsusilə fərqlənirdilər. Onlar Azərbaycanda müstəqillik ideyalarının ən dərin məzmunlu mətbuat orqanları idi. Xalqın milli-azadlıq şüurunun foramlaşmasında fəal iştirak edən «Azərbaycan» qəzeti eyni zamanda hökumətin rəsmi sənədlərini, qərar və fərmanlarını, parlament iclaslarından məlumatlar nəşr edirdi. Qəzet təkcə 1919-cu ildə özünün 46 sayında parlamentin 25 iclasının bütün gedişini əks etdirmişdi.

Bu dövrdə iqtidaryönlü mətbuatla yanaşı, Azərbaycan və rus dillərində 40 adda müxalifət qəzeti də nəşr olunurdu. Bunlar arasında ən fəalı kommunist, sosialist mətbuatı idi («Nabat», «Füqəra sədası», «Hürriyyət» və b.).

İstiqlal dövründə sosial-mədəni həyatda fəal iştirak edən «Səfa», «Nicat», «Nəsiri», «Tərəqqi» və digər cəmiyyətlər də fəaliyyət göstərirdilər. Azərbaycanda yeni yaranmış cəmiyyətlər içərisində 1918-ci ildə təşkil olunmuş «Türk ocağı» xüsusi yer tuturdu. Azərbaycan ziyalılarından A.Şamo, A.Kazımzadə, N.Nağıyev və b. cəmiyyətin işində fəal iştirak edirdilər. 1919-cu ilin sonlarında «Türk ocağı» cəmiyyətinin siyasi klubu açılmışdı. Klub əhali arasında azərbaycançılıq ideyalarını yayırdı. Belə mövzuların müzakirələrində M.Ə.Rəsulzadə, Q.R.Şərifzadə, Ş.Rüstəmov, R.Ağabəyov, Seyid Hüseyn və başqaları tez-tez çıxış edirdilər.

Bunlarla yanaşı, Bakıda «Qurtuluş», «Cəmiyyət» və onun «Turan» şöbəsi fəaliyyət göstərirdi.

İstiqlal ədəbi mühitdə də canlanma yaratmışdı. Şair və yazıçıların yaradıcılığında vətənpərvərlik ruhu güclənmişdi. M.Hadi, H.Cavid, A.Şaiq kimi məşhur romantiklər və «Cümhuriyyət şairi» Ə.Cavad başda olmaqla böyük şairlər dəstəsi 1918-1920-ci illərdə Azərbaycan istiqlalını tərənnüm edirdilər.

İstiqlal mövzusu, azadlığın uğur və çətinlikləri, düşüncə oyanışı bu illərin bədii nəsrində mühüm yer tuturdu. 1918-1920-ci illərdə erməni soyqırımını, «bolşevik-daşnak» irticasını ifşa etmək Azərbaycan nəsrində mühüm yer tuturdu. Ü.Hacıbəyovun «Qurtuluş» adlı publisist hekayəsi, Seyid Hüseynin «Həzin bir xatirə» - «İsmailiyyə» adlı kiçik hekayəsi və b. buna misal ola bilər.

Milli dirçəliş, istiqlal ideyası C.Məmmədquluzadənin, C.Cabbarlının dramatik əsərlərində də öz əksini tapmışdı. O dövrün zəruri və kəskin problemlərinə əks-səda verən müəlliflər sırasında C.Məmmədquluzadə, C.Cabbarlı və Mirzəbala Məmmədzadə xüsusi ilə fərqlənir. C.Məmmədquluzadənin «Anamın kitabı», C.Cabbarlının «Ədirnənin fəthi», «Trablis müharibəsi» yaxud «Ulduz» faciələri, M.Məmmədzadənin «Bakı uğrunda müharibə» pyesi bu baxımdan çox qiymətli əsərlər idi.

1918-1920-ci illərdə Azərbaycan teatrının inkişafında da mühüm keyfiyyətlər meydana çıxmışdı. «Nicat» və «Səfa» maarifçilik cəmiyyətlərinin qüvvəsi ilə «Müsəlman aktyorlar cəmiyyəti» yaradılmışdı. O, aktyorların yaradıcılığının inkişafına böyük qayğı göstərirdi. 1918-ci ilin oktyabrında Bakıda «Hacıbəyov qardaşları»nın müdiriyyəti tərəfindən yeni teatr truppası təşkil edilmişdi. Sonra onun Şuşada filialı təşkil edilmişdi.

Nazirlər Şurası 1919-cu il noyabrın 17-də Dövlət Türk Opera-Dram teatrının təşkil olunmasını nəzərdə tutan qərar verdi. Bununla teatr dövlət inhisarına keçdi.

Teatr kadrlarının mədəni və sənətkarlıq inkişafına kömək məqsədilə teatr kursları açıldı. A.M.Şərifzadənin təşəbbüsü ilə hələ 1918-ci ilin əvvəllərində Bakıda incəsənət məktəbi açılmışdı. 1919-cu ilin sentyabrında «Hacıbəyov qardaşları» müdiriyyəti «Türk (Azərbaycan) aktyorları ittifaqı» ilə birlikdə musiqi şöbələri olan türk dram kursları açmışdı. Bu kurslarda A.M.Şərifzadə, H.Sarabski, M.A.Əliyev, Zülfüqar və Üzeyir Hacıbəyov qardaşları, M.Maqomayev,Q.Primov, Ə.Müznib, R.Z.Əfəndi kimi istedadlı ziyalılar dərs verirdilər.

Dövlət teatrının repertuarında N.Nərimanovun «Nadir şah», Ə.Haqverdiyevin «Bəxtsiz cavan», Türkiyə yazıçısı Namiq Kamalın «Akif bəy və ya namus», N.Vəzirovun «Yağışdan çıxdıq, yağmura düşdük», Ü.Hacıbəyovun «O olmasın, bu olsun», «Arşin mal alan», Z.Hacıbəyovun «50 yaşında cavan» kimi əsərləri müvəffəqiyyətlə oynanılırdı.

Görkəmli Azərbaycan aktyoru H.Ərəblinski də professional aktyor kimi bu dövrdə məşhur idi.

Bu illərdə kinematoqrafiya sənəti də inkişaf edirdi. Bakıda 16 kinematoqrafiya fəaliyyət göstərirdi. Onlardan ancaq ikisinin sahibi azərbaycanlı idi. 1918-ci ildə Ü.Hacıbəyovun «O olmasın, bu olsun» operettası ekranlaşdırılmışdı.

Arxitektura və heykəltaraşlıq sənəti sahəsində də müəyyən işlər görülürdü. Belə ki, bir sıra abidələrin, o cümlədən, H.Ərəblinskinin,1918-ci ildə Bakının azad edilməsi zamanı həlak olmuş Azərbaycan və Türkiyə əsgərlərinin şərəfinə kompleks abidənin ucaldılması, Gəncədə Nizami Gəncəviyə abidə ucaldılması və s. nəzərdə tutulmuşdu.

İstiqlaliyyət dövründə mədəni-maarif ocaqlarının, kitabxana və klubların şəbəkəsi də genişlənmişdi. Onlar fərdi

adamlar, cəmiyyətlər, birliklər və dövlət tərəfindən yaradılırdı. Məsələn, «Nicat» cəmiyyəti Bakıda kitabxana-qiraətxana və axşam kursları təşkil etmişdi.

Bu dövrdə Bakıda «Əhali ittifaqı», «Tələbələr ittifaqı», «Müsəlman tələbələri ittifaqı», «Bakı rus xeyriyyə cəmiyyəti», «Serafim komitəsi», «Bakı erməni mədəni birliyi» və b. milli və milli azlıqlara məxsus mədəni-maarif cəmiyyətləri fəaliyyət göstərirdi.

1919-cu ildə Balaxanı-Sabunçu, Bibiheybət və Ağşəhər fəhlələri üçün kitabxanalar açılmışdı. Həmkarlar ittifaqları nəzdində də kitabxanalar təşkil olunurdu.

Azərbaycan Cümhuriyyətinin süqutu ərəfəsində ümumi fondu 95 min nüsxə kitabı olan 11 kitabxana fəaliyyət göstərirdi.

Müstəqillik dövründə klub və klub tipli «xalq evləri» də fəaliyyət göstərirdi. Doğrudur, bu zaman klublar, xüsusən fəhlə klubları əhali arasında bolşevik təbliğatı yayırdı. Buna görə də 1920-ci ildə hökumət bir sıra fəhlə klublarını bağlamalı olmuşdu. Lakin sonradan mərkəzi fəhlə klubunun etirazı ilə əlaqədar həmin fəhlə klublarının fəaliyyəti bərpa olunmuşdu.

Beləliklə, cümhuriyyətin mövcudluğu dövründə Milli dirçəliş naminə maarif və mədəniyyətin inkişafına böyük diqqət verilmişdi. Xalq Cümhuriyyətinin bu istiqamətdə göstərdiyi fəaliyyət Azərbaycan maarifçilərinin çoxdankı arzularının yeni şəraitdə gerçəklənməsi demək idi.

## § 5 Azərbaycan Cümhuriyyətinin xarici siyasəti

### Azərbaycan Beynəlxalq Aləmdə.

Azərbaycan Xalq Cümhuriyyətin beynəlxalq vəziyyəti də çox mürəkkəb və ziddiyyətli idi. İri dövlətlər Azərbaycanın müstəqilliyini tanımaq istəmirdilər. Bəzi iri dövlətlər isə Azərbaycana, xüsusən neft Bakısına böyük iqtisadi və strateji maraq göstərirdilər. Azərbaycana, Bakı neftinə yiyələnmək uğrunda Böyük Britaniya, Almaniya və Sovet Rusiyası kəskin rəqabət aparırdılar. Yaxın Şərqdə böyük hərbi qüvvəyə malik olan Böyük Britaniya Bakını Rusiyanın əlindən almağa və Almaniyanı ona yaxın buraxmamağa çalışırdı. Bu niyyəti İngiltərənin Ənzəlidə yerləşən hərbi dəstəsinin komandanı general Denstrevil həyata keçirməli idi. Ona Bakıdakı daşnak, eser və menşeviklər də kömək edirdilər.

Xalq Cümhuriyyəti bu ziddiyyətlərdən öz xeyri üçün istifadə etməyə çalışırdı. 1918-ci ilin iyulunda Mərkəzi Avropa ölkələrinin və Cənubi Qafqaz respublikalarının İstambulda keçiriləcək konfransına M.Ə.Rəsulzadə başda olmaqla xüsusi nümayəndəlik göndərilmişdi. Konfransda Azərbaycan nümayəndə heyəti Rusiya, Almaniya və Türkiyə arasında «Bakı məsələsi» üzrə rəqabətdən məharətlə istifadə edərək Sovet Rusiyasının yenidən Bakı neftinə sahib olmaq təhlükəsini aradan qaldırmaq üçün, Türkiyə və Almaniyanın Bakıya olan maraqları ilə hesablaşmağa hazır olduqlarına inandırmalı idi. Hətta nümayəndəliyə Türkiyə tərəfilə gizli danışıqlar aparmaq və onunla mümkün birtərəfli müqavilə bağlamaq səlahiyyətləri də vermişdi.Cümhuriyyət hökumətinin xarici işlər nazirliyinin nümayəndə heyətinin başçısı M.Ə.Rəsulzadəyə göndərdiyi məktublarından birində Almaniya və Türkiyəni Azərbaycanın onların maraqlarının ödənilməsinə hazır olduğuna inandırmağı

tövsiyə olunurdu. Xarici işlər naziri M.H.Hacınskinin məktubunda deyilirdi: «Türkiyə, Azərbaycan və Almaniyanın maraqlarının uzlaşdırılması üçün zəmin tapın. Bu zəmin Bakı nefti haqqında iqtisadi razılaşmadan ibarətdir. Burada güzəştlərə getmək olar». Bu tapşırığa əsasən Azərbaycan nümayəndəliyinin rəhbəri M.Ə.Rəsulzadə Türkiyə hökumətinin rəhbərləri Ənvər paşa və Tələt paşa ilə, habelə Almaniyanın səfiri Brisfordla xüsusi görüşlər keçirmişdi.

Azərbaycanın parçalanması da onun beynəlxalq vəziyyətini çətinləşdirdi. Hələ də Azərbaycanın Şərq hissəsi (Bakı və onun ətraf rayonları) ondan təcrid olunmuşdu.

Bəzi qonşu dövlətlərlə, xüsusən Sovet Rusiyası və Ermənistanla münasibətlərin qaydada olmaması da Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq vəziyyətini gərginləşdirirdi. Rusiya hələ də müstəmləkəçilik ideallarından əl çəkməyərək Azərbaycanı hər vasitə ilə özünə birləşdirməyə çalışır, yerli bolşeviklərin əli ilə onu daxilən parçalayır, siyasi və diplomatik yolla ona təsir göstərirdi. Daşnak Ermənistanı isə Azərbaycana olan torpaq iddialarından əl çəkmir, ona qarşı stlahlı çıxışlar təşkil edirdi.

Əvvəllər qonşu İranla da münasibətlər gərgin idi. İran müstəqil Azərbaycan Xalq Cümhuriyyətinə çox qısqanclıqla yanaşırdı, onu tanımaq istəmirdi, ona qarşı ərazi iddiaları irəli sürür və hətta onun İrana birləşdirilməsini tələb edirdi. 1919-cu il avqustun 19-da Londonda İngiltərə-İran müqaviləsi imzalandıqdan sonra İran bu iddialardan əl çəkdi. 1919-cu il noyabrın 1-də Parisdə AXC və İran arasında Azərbaycanın müstəqilliyinin tanınması barədə müqavilə imzalandı. Hər iki dövlət arasında diplomatik əlaqələr yaradılması razılaşdırıldı.

Azərbaycanın beynəlxalq şəraitindəki mürəkkəblik və ziddiyyətlik Xalq Cümhuriyyəti hökumətindən çox çevik xarici siyasət tələb edirdi. Onun xarici siyasətinin başlıca

istiqamətlərini Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və inkişaf etdirmək təşkil edirdi. Bu məqsədlə o, dövlət strukturunda Xarici İşlər Nazirliyinin təşkilinə və onun işinin təkmilləşdirilməsinə xüsusi diqqət verirdi.

Milli Şura hələ müstəqillik elan ediləndən iki gün sonra, mayın 30-da İstambula, Berlinə, Vyanaya, Parisə, Londona, Romaya, Vaşinqtona, Sofiyaya, Buxarestə, Tehrana, Madridə, Haaqaya, Moskvaya, Stokholma, Kiyevə və Tokioya dünyanın siyasi xəritəsində yeni,suveren və demokratik respublikanın yarandığı barədə məlumat vermişdi. Artıq 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətini 20-dən çox dövlət tanımışdı.

Yaranan gündən etibarən Azərbaycan Xalq Cümhuriyyəti qardaş Türkiyə ilə münasibətlərə xüsusi əhəmiyyət verirdi. Onsuz da Türkiyə etnik, dini, tarixi baxımdan Azərbaycanın təbii mütətfiqi idi. Buna görə də Xalq Cümhuriyyəti ilk dövrdə (1918-ci il may-oktyabr) xarici siyasətini Türkiyə ilə sıx dostluq əlaqələrini möhkəmlətmək üzərində kökləmişdi. Bu cəhətdən Azərbaycan Xalq cümhuriyyəti ilə Osmanlı Türkiyəsi arasında 1918-ci il iyunun 4-də bağlanmış «Dostluq haqqında» müqavilə mühüm rol oynamışdı. Bu müqavilə, habelə iyunun ortalaranıda imzalanmış çoxsahəli sazişlər Azərbaycan-Türkiyə münasibətlərini möhkəmlədən həlqələr idi. 1918-ci ilin iyulunda keçirilməsi nəzərdə tutulan İstambul konfransı bu münasibətləri daha da inkişaf etdirməyə səbəb oldu. M.Ə.Rəsulzadənin başçılığı altında konfransda iştirak edən nümayəndəlik fürsətdən istifadə edərək Türkiyə dövlət başçıları ilə – Türkiyə sultanı VI Mehmed Vahidəddinlə, baş nazir Tələt paşa ilə görüşlər keçirmişdi. 1918-ci il sentyabrın 6-da VI Mehmed Vahidəddinin taxta çıxması münasibətilə keçirilən yubiley qəbulunda VI Mehmedi təbrik edən M.Ə.Rəsulzadə yüzillik əsarətdən xilas olmuş Azərbaycan xalqının öz müstəqilliyini və azadlığını qoruyub saxlamaqda qardaş Türkiyəyə arxalandığını bildirdikdə

Sultan cavab vermişdi ki, «…sevimli Azərbaycanımızın nümayəndələri tərəfindən təbrik edildiyini həyatımda xoşbəxt bir hadisə kimi qəbul edirəm. Əsarətdən xilas olmuş türk və müsəlman hökumətinin istiqlaliyyət və hürriyyətini təmin etmək mənim hökumətimin ən müqəddəs vəzifəsini təşkil edir. Azərbaycanın həyat və qüvvət kəsb edərək bizimlə birlikdə ümumi düşmənlərimizə qalib gələcəyinə ümid edirəm».

1918-ci ilin yayında baş verən hadisələr Azərbaycan-Türkiyə münasibətlərini daha da istiləşdirdi. Bakıya yiyələnmək arzusunda olan Almaniya İstambuldakı vəziyyəti müşahidə etmək əsasında Azərbaycan hökumətinin Şərqi Azərbaycanı, xüsusən Bakını heç kimə güzəştə getməcəyini yəqinləşdirdi. Buna görə də o, Bakı ilə bağlı planlarını Sovet Rusiyası vasitəsilə həyata keçirmək fikrinə düşdü. Berlində üç aya qədər davam edən Almaniya-Rusiya danışıqları nəticəsində 1918-ci il avqustun 27-də bağlanmış sazişlə Rusiya Bakıda çıxarılan neftin dörddə birini Almaniyaya verəcəyi öhdəliyini götürdü.

Buna cavab olaraq İstambuldakı Azərbaycan nümayəndəliyi bu sazişlə əlaqədar Almaniya səfirliyinə etiraz notasını təqdim etdi. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyində, Avstriya-Macarıstan və Bolqarıstan səfirliklərinə, həmçinin bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi. Türkiyə də 27 avqust sazişini ləğv etməyi Almaniyadan tələb etdi.Bu hadisə Bakının daşnak, eser, menşevik, ingilis qüvvəllərindən azad olunmasını sürətləndirdi. Sentyabrın ortalarında Azərbaycan–Türkiyə hərbi qüvvələri Bakını azad etdilər.Azərbaycan-Türkiyə münasibətlərinin inkişaf və möhkəmlənməsində Ə.M.Topçubaşovun Azərbaycanın Türkiyədə səlahiyyətli naziri təyin edilməsinin mühüm əhəmiyyəti olmuşdu. O, 1918-ci il sentyabrın 28-də İstambula gələrək öz vəzifəsini yerinə yetirməyə başlamışdı. Ə.M.Topçubaşov 1918-ci ilin oktyabrında İstambulda

Türkiyənin rəsmi dövlət nümayəndələri ilə bir sıra görüşlər keçirdi. Lakin Dördlər ittifaqının üzvü kimi Birinci Dünya müharibəsində Türkiyənin məğlubiyyəti, daxili siyasi böhran Azərbaycanla Osmanlı dövləti arasında sabit münasibətlər bərqərar etməyə imkan vermədi.

1918-ci il oktyabrın 30-da Böyük Britaniya və Osmanlı dövləti arasında bağlanmış Mudros barışığı nəinki Türkiyə, habelə Azərbaycan Cümhuriyyəti üçün çox ağır bir hadisə oldu. Barışığın 11-ci maddəsinə görə Türkiyənin hərbi hissələri tezliklə Zaqafzaziyadan, o cümlədən, Azərbaycandan çıxmalı, 15-ci maddəyə görə isə Türkiyə Cənubi Qafqaz dəmir yolları üzərində nəzarət hüququnu Antantaya verməli və müttəfiqlərin Bakını tutmasına heç bir etiraz etməməli idi. Bu həm Türkiyə, həm də Azərbaycan Xalq Cümhuriyyəti üçün çox ağır mühakimə idi.Noyabrın 4-də Ə.M.Topçubaşov Azərbaycan hökuməti adından Mudros barışığının Azərbaycana aid şərtlərinə etirazını bildirdi. Lakin bunun heç bir əhəmiyyəti və nəticəsi olmadı.

Bu hadisənin Azərbaycanın Türkiyəyə, türk xalqına bəslədiyi rəğbətinə təsiri olmadı. Azərbaycan hökuməti 1918-ci il noyabrın 10-da respublikanı tərk edən Türkiyə ordusunun şərəfinə ziyafət verdi. Türkiyə qoşunları həmin gün Bakıdan, az sonra bütün Azərbaycandan çıxıb getdilər. Bununla da Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində Türkiyə yönümü dövrü başa çatmış oldu.

Azərbaycan Birinci Dünya müharibəsində məğlubiyyətindən sonra çətin vəziyyətə düşmüş, «olum, ya ölüm» mübarizəsi anından Türkiyə ilə əlaqələrini bərpa etməyə başladı. Tanınmış Azərbaycan yazıçısı Yusif Çəmənzəminlini İstambula səlayyətli səfir təyin etmişdi.

Xalq Cümhuriyyəti hökuməti Qərbin Azərbaycanda marağı olan və ya olmayan iri dövlətləri ilə də münasibətlər yaratmağa çalışırdı. 1918-ci il noyabrın 10-da baş nazir

F.X.Xoyski və xarici işlər naziri əvəzi Adil xan Ziyadxan Qərbdə böyük nüfuza malik olan ABŞ prezidenti Vudro Vilsona teleqramla müraciət etdilər. Onlar V.Vilsondan Azərbaycan Cümhuriyətinin dünya dövlətləri tərəfindən tanınmasına kömək göstərməyi xahiş etdilər. Teleqramda deyilirdi: «Avropanın böyük dövlətlərinə müraciət etməzdən əvvəl, Azərbaycan xalqı və hökuməti əzilən kiçik xalqların müdafiəçisi kimi Sizin humanist şəxsiyyətinizə müraciət edib yardım almağa və tanınmağa ümid bəsləyir».

Bundan sonra 1918-ci lin noyabrında öz fəaliyətini bərpa etmiş Milli Şura dünya dövlətlərinə müraciətlər qəbul etdi.

O zaman Xalq Cümhuriyyəti digər müttəfiq dövlətlərlə, xüsusən Azərbaycana, Bakı neftinə çox böyük marağı olan, Yaxın Şərqdə çoxlu qüvvəyə malik Böyük Britaniya ilə əlaqələr yaratmaq da vacib məsələ idi. Xalq Cümhuriyyətinin liderlərindən N.Yusifbəyli, Ə.Ağayev və M.Rəfiyevdən ibarət Azərbaycan nümayəndələri müttəfiqlərin Şimali İranda olan ordusunun komandanlığı ilə danışıqlar aparmaq üçün Ənzəliyə getdilər. Lakin danışıqlar bir nəticə vermədi. Hətta ingilis ordusunun komandanı general Tomson Xalq Cümhuriyyətinin Azərbaycan xalqının qanuni hökuməti olmadığını bildirdi. O, noyabrın 17-də Azərbaycanın rəsmən tanınmadığını, olsa-olsa müttəfiq dövlətlərin (ABŞ, İngiltərə, Fransa) onunla de-fakto əlaqə yaradacaqlarını, ingilis qoşunlarının Bakıya daxil olacağını, şəhərə onların ağalıq edəcəklərini bəyan etdi. Özünü şəhərin general-qubernatoru elan etmiş Tomsonun başçılığı ilə İngiltərə qoşunları həmin gün Bakıya gəldilər. Polkovnik F.P.Kokkerel Bakıda müttəfiq dövlətlərin polis komissarı təyin edildi.General Tomsonun və onun ətrafdakıların nümayişkaranə etinasızlığına baxmayaraq Azərbaycan hökuməti noyabrın 18-də yaydığı məlumatda Bakıya gəlmiş müttəfiq qoşunlarının Azərbaycan xalqının suveren hüquqlarının tapdalamayacağına

ümid etdiyini bildirdi.Lakin belə olmadı. İngilis hərbi komandanlığı Bakıda olduğu müddətdə bütün idarəçiliyi, hakimiyyəti öz əlində cəmləşdirdi. Hərbi rejim bərqərar etdi. Xəzər Donanmasının bütün ticarət gəmilərini də öz əlinə aldı. Bakı neftini sözsüz-sorğusuz daşımağa başladılar. Onlar doqquz ay ərzində (1918-ci il dekabr – 1919-cu il avqust) Bakıdan 30 milyon puda qədər neft aparmışdılar. İngilis komandanlığının əmri ilə Azərbaycanın Hərbi Nazirliyi Gəncəyə köçürüldü.

Belə vəziyyət uzun çəkmədi. Bakıda ağalıq edən general-qubernator Tomson respublikadakı ictimai-siyasi reallıqlarla yaxından tanışlıqdan bir neçə gün sonra Xalq Cümhuriyyəti hökumətinin ölkədə yeganə hökumət olduğunu etiraf etdi. O, bildirdi ki, onun «Bakıda ən bacarıqlı adamlardan biri» saydığı F.X.Xoyskinin hökuməti ölkədə koalisiya rejimi təsdiq edilənə qədər yeganə təsirli hökumət olaraq qalır. Az sonra Bakıya gələn Balkanlarda və Qafqazda olan ingilis qoşunlarının baş komandanı Corc Mili də V.Tomsonun məlum bəyanatını təsdiqləmişdi. C.Mili F.X.Xoyski ilə danışıqlar zamanı hökuməti adından bildirmişdi ki, Azərbaycan Cümhuriyyəti hökumətini tanıyır, qəbul edir və ona hər barədə kömək edəcəkdir.1919-cu ilin əvvəllərindən başlayaraq İnciltərə-Azərbaycan əlaqələri Bakıdakı ingilis komandanlığı, İstambuldakı ingilis hərbi və diplomatik nümayəndəliyi, sonralar isə Paris konfransında təmsil olunan sülh heyəti vasitəsilə həyata keçirilirdi.

Azərbaycan hökuməti 1919-cu ilin yayına kimi Qafqazda qalan ingilis nümayəndəliyi ilə münasibətləri getdikcə qaydaya salır, tədricən bütün səlahiyyətləri öz əlinə alaraq tam müstəqilliyini bərqərar edirdi.

***Qonşu dövlətlərlə münasibətlər***

Bu dövrdə Azərbaycan hökumətinin xarici siyasət sahəsində ən mühüm vəzifələrindən biri də qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq, onlarla qarşılıqlı mehriban münasibətlər yaratmaq idi. O, Qafqaz evində dostluq və həmrəyliyi vacib hesab edirdi. Bu məqsədlə Dağıstan, Gürcüstan və Ermənistan hökumətlərinə müraciətlər etmişdi. 1918-ci ilin oktyabr-noyabr aylarında Dağlılar Respublikası ilə bir sıra müqavilələr bağlamışdı. Hətta o, ciddi maliyyə çətinliyi çəkən Dağlılar Respublikasına 10 milyon manat həcmində yardım göstərmişdi. C.Rüstəmbəyovu Kuban (Dağlılar) hökumətində Azərbaycanın səlahiyyətli nümayəndəsi təyin etmişdi.

Müəyyən fikir ayrılıqları olsa da, Azərbaycanla Gürcüstan arasında münasibətlər də tədricən qaydaya salınmışdı.

Doğrudur, ilk günlər Gürcüstan ilə Azərbaycan arasında Borçalı, Sığnak və ümumilikdə Qarayazı üstündə narazılıqlar mövcud idi. Gürcüstan bu bölgələrdə sərhədləri dəyişmək fikrində idi. Azərbaycanın ciddi səyləri nəticəsində Qarayazıdakı status-kvo saxlanıldı. Azərbaycan ordu hissələrinin burada qalması şərtilə beynəlxalq komissiya yaradılması haqqında razılığa gəlindi. Az sonra məsələnin müzakirəsi 1919-cu il aprelin 25-də Tiflisdə işə başlayan Qafqaz konfransının gündəliyinə daxil edildi. Lakin 1919-cu ilin iyununda Şimaldan Denikinin təhlükəsinin artması, onun hücumu və cənuba doğru irəliləməsi Azərbaycan-Gürcüstan münasibətlərində dönüş yaratdı. Onlar 1919-cu il iyunun 16—da aralarında üç il müddətinə hərbi-müdafiə paktı imzaladılar. Bu müqavilənin şərtlərinə görə, Azərbaycan və Gürcüstanın istiqlaliyyətinə və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olarsa, tərəflər bir-birinə yardım etməli idilər. Həmin müqavilə 1919-ci il iyunun 27-də hər iki ölkənin parlamentlərində təsdiq edildi.

Bu müqaviləyə uyğun olaraq tərəflər hərbi-texniki saziş imzaladılar və birgə hərbi şura yaratdılar.

Beləliklə, 1920-ci illərin əvvəllərində Azərbaycan-Gürcüstan münasibətləri tam normallaşdı.Əvvəllər Azərbaycan Xalq Cümhuriyyəti ilə narazılıq və anlaşılmazlıqları olan qonşu İranla münasibətlər 1919-cu ilin ortalarından etibarən qaydaya salınmağa başladı. Həmin ilin payızında İranla Azərbaycan arasında bir sıra sazişlər hazırlandı. Artıq 1919-cu ilin axırlarında Azərbaycanın A.Ziyadxan başda olmaqla İranda səfirliyi, Təbrizdə, Məşhəddə, Xoyda, Ənzəlidə, Rəştdə, Əhərdə isə konsulluqları və ya konsul nümayəndəlikləri fəaliyyət göstərirdi. 1920-ci il martın 20-də Azərbaycan Xalq Cümhuriyyəti və İran arasında əməkdaşlığın bütün sahələrini əhatə edən 7 müqavilə və saziş imzalandı.

Azərbaycan Xalq Cümhuriyyətinin qonşu Ermənistanla münasibətləri bütün dövr ərzində qeyri-sabit olmuşdu. Azərbaycan hökuməti Ermənistanla (Ararat Respublikası) mübahisəli sərhəd məsələlərini siyasi yolla həll etmək niyyəti ilə hələ yarandığı ilk gündən danışıqlara başlamağı təklif etmişdi. Hətta Azərbaycan Milli Şurası yenicə müstəqilliyini elan etmiş qonşu erməni dövlətinə yardım məqsədilə 1918-ci il mayın 29-da əzəli torpağı olan İrəvan şəhərini Ermənistan Respublikasının paytaxtı kimi tanımışdı. Bədxah qonşumuz bu xeyirxah addımdan da nəticə çıxarmayaraq Azərbaycana olan torpaq iddialarından əl çəkmirdi. Azərbaycan torpaqları hesabına «Böyük Ermənistan» xülyasını həyata keçirmək niyyətində idi. O, Naxçıvan, Qarabağ və Zəngəzur mahallarında etnik təmizləmə siyasəti yeritməyə başladı. Andronik, Dro, Njde, Tevo tərəfindən həmin mahallarda azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirildi. 1918-ci ilin payızında təkcə Zəngəzurda 52 Azərbaycan kəndi məhv edilmişdi. 495 ev yandırılmış, 492 ev dağıdılmış, 2254 azərbaycanlı öldürülmüş, 304 nəfər isə diri-diri yandırılmışdı. Türk qoşunları Azərbaycandan getdikdən sonra 1918-ci ilin noyabr-dekabrında Zəngəzurda və Qarabağda erməni təcavüzü daha da güclənmişdi.

Bu dövrdə Qərbi Azərbaycanın İrəvan, Sürməvi, Eçmədzin (üç kilsə), Novabayazid və Basarkeçər qəzalarında 292 azərbaycanlı kəndi dağıdılmış, yandırılmış, əhalisi məhv edilmişdi. Daşnak qulduru A.Zalayan bu hadisələr haqqında öz xatirələrində lovğalıqla belə yazmışdı: «Mən Basarkeçərdə… heç nəyi nəzərə almadan, türk əhalisini qırdım. Bəzən gülləyə heyfim gəlirdi… Ən vəhşi üsul odur ki, döyüşdən sonra sağ qalanların hamısını su quyusuna doldurub, üstündən ağır daşlar tökəsən ki, onlardan əsər-əlamət belə qalmasın… Mən belə də etdim, bütün kişiləri, qadınları və uşaqları doldurdum quyuya və üstünü də daşla doldurdum». Bu etiraf quldur erməni daşnaklarının etdikləri vəhşilikləri sübut edir.

Qaniçən Andronik öz antiazərbaycan siyasətində Rusiyaya güvənirdi. O, daşnakların 1918-ci ilin martında Tiflisdə toplanmış qurultayında bildirmişdi ki, «…Bizim yeganə dostumuz Rusiyadır…» Həmin ilin yayında Cülfanı dağıdıb yandırdıqdan sonra Naxçıvanı Sovet Rusiyasının ayrılmaz hissəsi elan etmişdi. Andranik iyunun 4-də Şaumyana göndərdiyi teleqramda öz dəstəsi ilə birlikdə Rusiya Mərkəzi hökumətinin sərəncamına keçməyə və «Bakı Kommuna»sına yardım etməyə hazır olduğunu bildirmişdi. S.Şaumyan isə onun teleqramına cavab olaraq yazmışdı: «Culfa, xalq rəhbəri Andronikə. Sizin 527 saylı teleqramınızı aldım. Tam mətnini Moskvaya-Mərkəzi hökumətə xəbər verdim. Öz tərəfimdən Sizin şəxsinizdə əsl xalq qəhrəmanını salamlayıram».

Andronik İrandan keçmiş kazak dəstəsinin polkovniki Biçeraxov və könüllü ordunun komandanı Denikinlə əlaqələr yaratmışdı. O, bir sıra dövlərlərdən hərbi-siyasi və maliyyə yardımı alırdı. O, Ermənistanın daşnak hökuməti ilə də sıx əlaqədə idi. Hətta Paris sülh konfransında daşnakları təmsil etməyə çalışmışdı.

Elə bu vaxt Qarabağın dağlıq hissəsində də separatizm hərəkatı güclənmişdi. Ermənistanın bilavasitə köməyi ilə burada

kök salmış ermənilər 1918-ci ilin iyul və sentyabr aylarında keçirdikləri qurultaylarında Dağlıq Qarabağı müstəqil elan etmişdilər. Andronik də Zəngəzurun bir hissəsində Mərkəzi Gorus olmaqla erməni qubernatorluğu təşkil etdi. Sonra isə paytaxtı Şuşa şəhəri olacaq «Kiçik Ermənistan» dövləti yaratmağa səy göstərdi.

Türk qoşunları Azərbaycandan çıxıb getdikdən sonra ermənilər Zəngəzurda və Qarabağda olduğu kimi Naxçıvana da iddialarını artırdılar. Buna regionda olan əcnəbi müttəfiq qüvvələrin, xüsusən ingilislərin ikili siyasəti də imkan yaradırdı. Lakin regionun vətənpərvər qüvvələri erməni təcavüzünə qarşı mətanətlə sinə gəlir, Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi üçün tədbirlər görürdülər. Vətənpərvər qüvvələr tərəfindən Naxçıvan bölgəsində yaradılan Araz-Türk respublikası buna misal ola bilər. Bu respublika 1918-ci ilin noyabrında yaradılıb 1919-cu ilin aprelinədək fəaliyyət göstərmişdi. Onun tərkibinə Naxçıvan, Şərur, Dərələyəz və Ordubad qəzaları,habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və b.bölgələr daxil idi. Mərkəzi isə Naxçıvan şəhəri idi.

İngilis siyasətindən və regiona gətirilmiş ingilis hərbi qüvvələrinin köməyindən faydalanan ermənilər 1919-cu ilin yanvarında Naxçıvana təcavüzü genişləndirirlər. Lakin onlar Şərurda böyük məğlubiyyətə uğrayırlar. Buna baxmayaraq bölgədə vəziyyət gərgin olaraq qalmaqda idi. Araz-Türk Respublikasının Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmaq cəhdləri də uğurla nəticələnməmişdi. Belə şəraitdə ingilislər və ABŞ nümayəndəsi Naxçıvan mahalını müvəqqəti bitərəf zona elan etmiş, burada general-qubernatorluq yaratdıqlarını bəyan etmişdilər. Ermənilər üzərində Şərur qələbəsindən sonra Naxçıvan mahalında yeni hökumət, diktatura yaradıldığı elan olundu. Hökumətin başçısı Cəfəroğlu xan idi. Yeni hökumət Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələrin

mümkün olmadığını nəzərə alaraq İranla birbaşa əlaqələr yaratmağa çalışmışdı.

Beləliklə, naxçıvanlıların dəyanəti və Azərbaycan hökumətinin səyləri nəticəsində Ermənistanın ingilis və amerikalıların vasitəsilə Naxçıvana yiyələnmək niyyətləri puça çıxdı.Azərbaycan Xalq Cümhuriyyəti Ermənistanla da sülh şəraitində yaşamaq istəyirdi. Onunla siyasi, diplomatik və iqtisadi əlaqələr saxlamağa səy göstərirdi. Hətta 1919-cu il yanvarın 29-da Azərbaycan FİK-nın üzvü Məhəmməd xan Təkinski İrəvanda səfir təyin edilmişdi. Sonra Ermənistanda səfir məşhur yazıçı Ə.B.Haqverdiyev olmuşdu.

Bunlara baxmayaraq ermənilər yenə də Azərbaycana qarşı təcavüzkarlıq siyasətini davam etdirirdi. Erməni dəstələrinin özbaşınalığı və azğınlığına qarşı mübarizə məqsədilə 1919-cu il yanvarın əvvəllərində Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğu yaradılmışdı. General-qubernator vəzifəsinə Xosrov Paşa bəy Sultanov təyin edilmişdi.

Azərbaycan hökumətinin bu müdrik addımını Ermənistan hökuməti geniş miqyaslı diplomatik hay-küylə qarşılamışdı. Buna qarşı Azərbaycan hökumətinin xarici işlər naziri əvəzi A.Ziyadxanov 1919-cu il yanvarın 2-də etiraz notaları ilə cavab vermiş, onu Azərbaycanın daxili işlərinə qarışmaq kimi qiymətləndirmişdi. Notada göstərilirdi ki, Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları Azərbaycanın ayrılmaz hissəsidir.

1919-cu ilin payızında ermənilər Zəngəzurda yeni vəhşiliklərə başladılar. Oktyabrın əvvəllərində onlar Zəngəzurda 100 kəndi dağıdıb yandırdılar. 60 minə qədər azərbaycanlı qaçqın vəziyyətinə düşdü. Onlar Qarabağda məskunlaşdılar. Azərbaycan hökuməti 1919-cu il oktyabrın sonunda general-mayor C.Şıxlinskinin komandanlığı ilə bölgəyə məhdud qoşun hissəsi göndərməyə məcbur oldu.

Qarşıdurmanı aradan qaldırmaq üçün 1919-cu il noyabrın 23-də Tiflisdə Azərbaycan və Ermənistan hökumət başçılarının ABŞ-ın vasitəçiliyi ilə görüşü oldu. Burada ərazi məsələləri müzakirə olunurdu. Tərəflər arasında müqavilə imzalandı. Müqaviləyə görə bütün münaqişəli məsələlər, o cümlədən sərhəd məsələləri sülh konfransında həll edilməli idi. Müqavilə əsasında Azərbaycan öz qoşun hissələrini Zəngəzurdan çıxartdı. Lakin Ermənistan xəyanət edərək bölgəyə yeni silahlı qüvvələr yeridərək geniş miqyaslı hərbi əməliyyatlara başladı. Bölgənin 40-dək kəndini talan edib, əhalisini qətlə yetirdi.Zəngəzurda vəziyyətin gərginləşdiyini görən Azərbaycan hərbi nazirliyi bölgəyə genaral-mayor H.Səlimov başda olmaqla bir qrup məsul işçilər göndərdilər.

1919-cu il dekabrın 14-də Azərbaycan hökumətinin təşəbbüsü ilə Bakıda Ermənistan-Azərbaycan konfransı toplandı. Lakin ermənilərin təqsiri üzündən konfrans işini yarımçıq qoyub dağıldı.1920-ci ilin yanvarında Ermənistanın hərbi əməliyyatları yenidən gücləndi. 1920-ci il martın 19-da erməni silahlıları hücum edərək 2 nəfər Azərbaycan əsgərini öldürdülər. Martın 22-si Novruz bayramı gecəsi saat 3-də ermənilər Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən Azərbaycan qoşun bölmələrinə hücum etdilər. Qarabağa doğru Ermənistandan çoxsaylı erməni silahlı dəstələri irəliləməyə başladı.Azərbaycan hökuməti də öz növbəsində təcavüzkarın qarşısını almaq üçün tədbirlər gördü. Azərbaycan ordusunun bütün qüvvələri səfərbər olundu. Baş qərargahın rəisi general-mayor H.Səlimovun başçılığı ilə xüsusi qərargah yaradıldı. Martın 29-da qərargahı Ağdamda yerləşən Azərbaycan qoşun hissələri Əsgəran istiqamətində hücuma keçdilər. Əlavə qüvvələrin gətirilməsi nəticəsində 1920-ci il aprelin sonları üçün Qarabağda erməni silahlı qüvvələrinin müqaviməti qırıldı. 1919-cu il noyabrın 23-nə olan vəziyyət bərpa olundu.

Gənc müstəqil Azərbaycan Respublikası Sovet Rusiyası ilə də münasibətləri qaydaya salmağa çalışırdı. Rusiya ilə ənənəvi iqtisadi əlaqələrin kəsilməsi Xalq Cümhuriyyəti üçün olmazın çətinliklər yaradırdı. Onu Rusiya kimi geniş bazardan məhrum edirdi. Bütün bunlar Rusiya ilə münasibətlərin qaydaya salınmasını zəruri edirdi. Bu ziddiyyətdən bəhs edən M.Ə.Rəsulzadə Azərbaycan Parlamentinin açılışındakı çıxışında bildirmişdi ki, «Bizim Rusiya camaatına qarşı heç bir ədavət və nifrətimiz yoxdur. Bezar olduğumuz Rusiya çarizm Rusiyası istibdadıdır… Biz Rusiyanın səadətini istəriz, Rusiya səadətini seviriz. Fəqət kəndi istiqlalımızı da əziz tutarız».

1919-cu ilin yazında Nazirlər Şurasının yeni seçilmiş sədri N.Yusifbəyli yeni hökumətin proqramında Sovet Rusiyası ilə iqtisadi və ticarət əlaqələrinin bərpası vəzifəsini irəli sürmüşdü. Lakin Azərbaycan hökumətinin dəfələrlə müraciət etməsinə baxmayaraq Sovet Rusiyası müxtəlif əsassız bəhanələrlə buna razılıq verməkdən yayınırdı.

Əslində diplomatik oyunbazlığın arxasında Rusiyanın Azərbaycana müstəmləkiçilik ambisiyası, Bakı kimi yağlı tikəni əldən verməmək dururdu. Aydın olurdu ki, bolşevik Rusiyası millətlərin öz müqəddəratını təyin etmək hüququ haqqında deklarativ bəyannamə verməsinə baxmayaraq onların müstəqil dövlət yaratmaları ilə barışa bilmirdi. Azərbaycanı Sovet Rusiyasının tərkib hissəsi edən Bakı Xalq Komissarları Sovetinin süqutundan sonra da bolşevik rejimi Azərbaycanı, xüsusən Bakını Rusiyanın ayrılmaz hissəsi hesab etmək iddiasından əl çəkməmişdi.

Bütün bunlara baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti bütün dövlətlərlə olduğu kimi, qonşu dövlətlərlə də mehriban münasibətlər yaratmaq, bölgədə möhkəm sülh bərqərar etmək uğrunda ardıcıl xarici siyasət aparırdı.

***Paris sülh konfransında***

Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində Azərbaycanı dünya birliyinin bərabərhüquqlu üzvünə çevirmək, iri dövlətlər tərəfindən onun tanınmasını təmin etmək missiyası da mühüm yer tuturdu.

Azərbaycan parlamenti qalib dövlətlərin Paris sülh konfransında iştirak etmək üçün Ə.M.Topçubaşov (sədr), M.H.Hacınski (müavin), Ə.Şeyxülislamov (üzv), Ə.Ağayev (üzv). M.Məhərrəmov (müşavir) və C.Hacıbəyli (müşavir) olmaqla nümayəndə heyəti təsdiq etmişdi. Nümayəndə heyəti 1919-cu il yanvarın 18-də İstambula yola düşdü. Onlar burada yanvarın 20-də Parisə getmək üçün viza almalı idilər. Lakin onlar İstambulda 1919-cu ilin aprelinə kimi ləngidilər. Əsas səbəb müttəfiq qoşunların komandanlığının nümayəndəliyinin Paris konfransında iştirakına nail olmaq niyyəti idi. Nəhayət, onlar 1919-cu il may ayının ortalarında Parisə gələ bildilər.

Nümayəndəlik 1919-cu il mayın 28-də ABŞ prezidenti V.Vilsonla görüşə bildi. Görüşün nəticələri ümidverici olmadı. Belə ki, ABŞ prezidenti bildirdi ki, sülh konfransı dünyanın kiçik ərazilərə parçalanmasını istəmir. Azərbaycan məsələsinə gəldikdə, ona Rusiya məsələsi həll olunduqdan sonra baxmaq olar. Bununla yanaşı, prezident Vilson nümayəndəliyi əmin etmişdi ki, Azərbaycan xalqı öz azadlıq və müstəqilliyini qorumaq kimi müqəddəs işində Amerikanın kömək və yardımını alacaqdır.

Nümayəndə heyətinin başçısı Ə.M.Topçubaşov Paris sülh konfransına təqdim olunmuş memorandumun sürətini ABŞ prezidenti V.Vilsona təqdim etmişdi. Memoranduma əlavə olaraq Azərbaycanın sərhədlərinin fiziki və iqtisadi, etnoqrafik xəritələri ilə birlikdə onun iqtisadiyyatı və maliyyəsinə, etnik tərkibinə aid sənədlər də təqdim olunmuşdu.

1920-ci il yanvarın 10-da Böyük Britaniyanın təşəbbüsü ilə Paris Sülh konfransı Ali Şurasının sessiyası toplandı.

Sessiyada İngiltərə, Fransa və İtaliyanın hökumət başçıları və xarici işlər nazirləri, ABŞ və Yaponiyanın sülh konfransındakı nümayəndələri, həmçinin Parisdəki səfirləri iştirak edirdilər. Müzakirələr Azərbaycanın xeyrinə gedirdi. İstər Ali Şurada, istərsə də xarici işlər nazirləri səviyyəsində keçirilən iclaslarda Böyük Britaniya və Fransa yaranmış şəraitdə Azərbaycanın və Gürcüstanın müstəqilliyini tanımağa tərəfdar çıxırdılar. Ali Şuraya bu barədə məlumat verən Böyük Britaniyanın xarici işlər naziri lord Kerzon Azərbaycan və Gürcüstanın dərhal de-fakto tanınmasını təklif etmişdi. Nəhayət, 1920-ci il yanvarın 11-də müttəfiqlərin Ali Şurası lord Kerzonun təklifi ilə «Müttəfiq və birləşmiş dövlətlər Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində birgə tanıyırlar» qərarını qəbul etdi.

1920-ci il yanvarın 15-də Fransanın Xarici İşlər Naziriliyində nazirin birinci müavini Jul Kambon Ali Şura üzvləri və müttəfiq dövlətlər tərəfindən Azərbaycanın de-fakto tanınması barədə Paris Sülh konfransının rəsmi qərarını Ə.M.Topçubaşova təqdim etdi.

Beləliklə, başda Ə.M.Topçubaşov olmaqla Paris Sülh konfransına göndərilmiş nümayəndəliyin gərgin və çoxcəhətli fəaliyyətləri hədər getmədi. Azərbaycan iri dövlətlər tərəfindən tanındı. O, dünya birliyinin bərabərhüquqlu dövlətinə çevrildi.

Azərbaycanın de-fakto tanınması beynəlxalq aləmdə ona marağın daha da artmasına səbəb oldu. Bir sıra ölkələr – Belçika, İsveçrə, Hollandiya, Çexiya və Slovakiya Bakıda öz konsulluqlarını açmağa başladılar. İtaliya Bakıda öz nümayəndəliyini yaratdı. Tehranda Azərbaycan səfirliyi açıldı. Təbrizdə Azərbaycanın baş konsulluğu fəaliyyətə başladı. 1920-ci il aprelin ortalarında Azərbaycan Parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada Azərbaycan Xalq Cümhuriyyətinin diplomatik nümayəndəliklərinin açılması haqqında qərar qəbul etdilər. Türkiyə, Gürcüstan və Ermənistan kimi qonşu dövlətlərlə

diplomatik əlaqələr genişləndi. Artıq bu dövrdə Bakıda 20-dən çox ölkənin diplomatik missiyaları fəaliyyət göstərməyə başlamışdı. Bununla da müstəqil Azərbaycanın diplomatik cəhətdən təcrid olunmasına son qoyulmuş, onun diplomatik cəhətdən geniş tanınması və beynəlxalq əlaqələr sisteminə daxil olması mərhələsi başlamışdı.

## § 6. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və tarixdə yeri

1920-ci ilin yazında Azərbaycan Xalq Cümhuriyyəti özünün çox ziddiyyətli və mürəkkəb dövrünü yaşayırdı. Daxili və beynəlxalq çətinliklər üzündən ölkə siyasi, iqtisadi və sosial böhran girdabında boğulurdu. Respublikada iqtisadiyyat tənəzzül edir, inflyasiya baş götürüb gedir, sosial vəziyyətin getdikcə pisləşməsi nəticəsində əhali arasında narazılıqlar artır, siyasi sabitsizliyin sonu görünmürdü. AXC-nin fəaliyyəti dövründə hökumət kabineti beş dəfə dəyişdirilmişdi. Kommuna dövründə pis vəziyyətə düşmüş iqtisadiyyat hələ ayağa qaldırılmamış, kəndlilərin əzəli arzusu olan torpaq məsələsi, aqrar məsələ həll edilməmişdi, vahid pula keçilməmişdi. Bu dövrdə respublikada məzənnə qiyməti çox aşağı olan üç pul vahidindən – Rusiyanın müvəqqəti hökumətinin (kerenki), Zaqafqaziya və yerli bon pullarından istifadə olunurdu.

Xarici və daxili təzyiqlər də hökumətin vəziyyətini daha da gərginləşdirirdi. Respublika Ermənistanla müharibə vəziyyətində idi. Ermənistanın Azərbaycana torpaq iddiaları davam edirdi. Qarabağın erməni separatçılarının vaxtaşırı çıxışları baş verirdi.

Mudros (29 oktyabr 1918-ci il) sazişindən sonra Azərbaycan Türkiyənin bilavasitə yardımından demək olar ki, məhrum olunmuşdu. Öz müstəqilliyi uğrunda Qərb dövlətlərinə qarşı mübarizə aparan Türkiyənin Sovet Rusiyası ilə

yaxınlaşması da Azərbaycan-Türkiyə münasibətlərinə soyuqluq gətirmişdi. Hətta Türkiyə, RSFSR-dən maddi, texniki və hərbi kömək almaq müqabilində Azərbaycanı qurban verməyə hazır olduğu eyhamını da vurmuşdu. Mustafa Kamal Paşa 1920-ci il aprelin 26-da V.İ.Leninə yazdığı məktubunda: «…Azərbaycan Cümhuriyyətini Sovet dövləti dairəsinə girməyə məcbur etməyi öhdəsinə aldığını» bildirmişdi.

Azərbaycan Xalq Cümhuriyyətini yarandığı gündən tanımaq istəməyən Sovet Rusiyası da Azərbaycana siyasi, iqtisadi və diplomatik təzyiqlərini davam etdirirdi. Onu Rusiyanın cənubunda hökmranlıq edən general Denikinə qarşı mübarizəyə qoşulmağa təhrik edir, iqtisadi əlaqələrə imkan vermir, qanuni hökuməti devirmək məqsədi güdən yerli bolşevik təxribatını müdafiə edirdi.

Daxildə müsəlman partiya və qrupları – «Müsavat», «İttihad», «Əhrar», sosialistlər, kommunistlər, bitərəf qruplar arasında fikir ayrılığı və qarşıdurmaları da sabitstzliyi dərinləşdirən mühüm amillərdən idi. Parlamentdə və hökumət daxilində bu özünü daha açıq biruzə verirdi. Artıq «Müsavat»ın hökmran mövqelərinə qarşı açıq narazılıqlar bildirilirdi. Bu sahədə parlamentin sağ cinahının əsas qüvvəsi olan «İttihad»çılar daha çox fəallıq göstərirdilər. Onlar müsavatçıları müsəlman partiyalarının koalisiyasını pozmaqda, korrupsiya və sui-istifadə məsələlərində təqsirləndirirdilər. İttihadçılar bir sıra məsələlərdə «Müsavat»ın qəddar düşməni olan bolşeviklərin mövqeyindən çıxış edirdilər. Bunlar əslində Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğuna qəsd idi, onun siyasi böhranını dərinləşdirirdi.

Azərbaycan Xalq Cümhuriyyətindəki sabitliyə ciddi mənfi təsir göstərən amillərdən biri də «Müsavat»ın partiyadaxili ziddiyyətləri, onun sıralarındakı qeyri-müəyyənlik idi. Onun sol qanadında partiyadan ayrılmaq meyli güclənmişdi. «Müsavat» partiyasının üzvü M.H.Hacınski və bitərəflər qrupunun lideri

B.X.Cavanşir Sovet Rusiyası ilə dostluq münasibətləri yaradılmasına tərəfdar idilər. Bununla onlar ölkə daxilində milli-demokratik quruluşun əleyhinə olan kommunistlərin dəyirmanına su verirdilər.

Daxildə sosial-siyasi böhranın dərinləşməsinə kommunist və kommunistpərəst qüvvələrin birləşərək güclü müxalifət təşkil etmələri də ciddi təsir göstərmişdi. 1920-ci il fevralın 11-12-də RK (b)P Bakı Komitəsi, bolşevik «Hümmət» və «Ədalət» təşkilatları birləşərək Azərbaycan Kommunist Partiyasını yaratdılar. Bu əsasını «Müsavat» qüvvələri təşkil edən Xalq Cümhuriyyəti hökumətinə qarşı Sovet Rusiyasının bilavasitə himayə etdiyi güclü müxalifətin yaradılması demək idi. Bu müxalifət Xalq Cümhuriyyətinə qarşı kütlələr, xüsusən fəhlələr arasında ideya-siyasi təxribat işi aparır, onları hökumətə qarşı çıxmağa çağırır, sosial qarşıdurma təşkil edir və hətta silahlı üsyan hazırlayırdılar. Onların rəhbərlik etdikləri Mərkəzi Fəhlə Klubu fəhlələri tətil hərəkatına sövq etmək və silahlı üsyan hazırlamaq mərkəzinə çevrilmişdi.

Hökumət dəfələrlə klubu bağlamaq cəhdləri göstərsə də o, öz fəaliyyətini açıq və ya gizli formada davam etdirirdi.

Kommunist, bolşevik təhlükəsinin real olduğunu nəzərə alan radikal liderlər (F.Xoyski və b.) hökumətdən respublikada fövqəladə vəziyyət tətbiq etməyi, parlamenti buraxmağı, yaxın vaxtda Müəssisələr Məclisinə seçkilər keçirməyi tələb edirdilər. Lakin hadisələrin sonrakı gedişi bu tədbirlərin həyata keçirilməsinə imkan vermədi. Rusiya təhlükəsi amili və təzyiqi getdikcə artırdı. Sovet Rusiyası hökuməti Azərbaycanı öz daxili münaqişələrinə, onu Denikin ordusuna qarşı hərbi əməliyyatlara cəlb etməyə çalışırdı. Bununla o, gələcəkdə Azərbaycanı işğal etmək bəhanəsi yaradırdı.

Azərbaycanın siyasi partiyaları arasında da Sovet Rusiyasına münasibətdə birmənalı fikir yox idi. Bu məsələdə ciddi qütbləşmə yaranmışdı. Sosialistlər və ittihadçılar Sovet

Rusiyası hökumətinin Azərbaycanı Sovet-Denikin münaqişəsinə cəlb etməyi tələb edən notasına müsbət cavab verməyə tərəfdar çıxırdılar. Bu məsələdə Xalq Cümhuriyyətinin xarici işlər naziri F.X.Xoyski ilə daxili işlər naziri M.H.Hacınski arasında da kəskin fikir ayrılığı var idi. Bu münaqişə M.H.Hacınskinin daxili işlər naziri vəzifəsindən getməsi ilə nəticələndi. Daxili işlər naziri vəzifəsinə M.Vəkilov, onun müavini vəzifəsinə isə Ş.Rüstəmbəyov təyin olundu. Bolşeviklər arasında həbslər keçirildi, fəhlə klubları və ən irticaçı, ciddi müxalifət mövqeyində olan «Yedinaya Rusiya», «Novıy Mir» və s. qəzetləri bağlandı.

Bu tədbirlər parlamentin digər fraksiyaları arasında narazılığa səbəb oldu. Hətta «İttihad» partiyası yeni təyinatları ləğv etməyi, M.H.Hacınskini öz vəzifəsinə qaytarmağı təklif etdi. Partiya fraksiyaları arasında bu məsələlər üzrə danışıqlar heç bir müsbət nəticə vermədi. Martın 23-də sosialist fraksiyasından olan Ə.Pepinov, onun ardınca sosialist-nazir Camo Hacınski də istefa verdilər. Sosialist və «İttihad» nümayəndələrinin istefaları hökumət böhranını daha da dərinləşdirdi. Artıq hökumətin süqutunun qarşısını almaq qeyri-mümkün idi. Sosialist fraksiyası radikal-sosialist hökuməti yaratmağı təklif edirdilər. Hökumətin başçılığına M.Y.Cəfərov, M.H.Hacınski, M.Ə.Rəsulzadənin adları çəkilirdi. Əhrarçılar da onlara tərəfdar çıxırdılar. Yanvarın 15-də Aslan bəy Qardaşov da «Əhrar» fraksiyası adından fraksiyadan çıxdığını və öz nümayəndələrini hökumətdən geri çağırdığını bildirdi.

Beləliklə, müstəqillik mövqeyində duran siyasi qüvvələrin birlikdə səmərəli işləmək ümidləri özünü doğrultmadı. Sovet, bolşevik təhlükəsinə qarşı mübarizə üçün vahid platforma hazırlamaq mümkün olmadı. Hökumətin dağılması zəruri oldu.

Parçalanmanın qarşısını almaq və yeni hökumət kabinetində liderliyi əldə saxlamaq üçün «Müsavat» partiyası

hökumətin təşkilini M.H.Hacınskiyə tapşırdı. «Əhrar» və «İttihad» partiyaları «Müsavat»ın loyal nümayəndəsi saydıqları M.H.Hacınskinin namizədliyi ilə razılışdılar. Yeni hökumətin təşkili prinsipləri ilə razılaşmayan müsavatçılardan bir hissəsi M.H.Hacınskinin yaratmaq istədiyi hökumətin tərkibinə daxil olmaq təklifini rədd etdilər.

Belə şəraitdə hökumət çevrilişi etmək məqsədilə silahlı üsyana hazırlaşan kommunistlərin nüfuzu yüksəlirdi. Həştərxan (Hacıtərxan) vasitəsilə Sovet Moskvası ilə əlaqələrin güclənməsi onların qüvvələrini birə on qat artırırdı. Onlar Moskvadan, Həştərxandan, Krasnovodskidən hərbi yardım, tüfəng, döyüş sürsatı da alırdılar.

Yeni hökumət təşkil etmək səlahiyyəti alan M.H.Hacınski hökumət təşkil etmək barədə kommunistlərlə danışığa girdi, onlara nazir vəzifələri təklif etdi. Lakin kommunistlər bu təklifi rədd etdilər. Çünki onlar silahlı çevriliş etməyə hazırlaşırdılar. Bunu Ə.H.Qarayev hələ 1920-ci il martın 30-da Dağıstantakı sovet qoşunlarının komandanı B.Şeboldayevə yazdığı məktubda əvvəlcədən bildirmişdi. O, yazmışdı: «Biz ən yaxın zamanlarda Bakıda çevrilişə hazırlaşırıq».

Artıq Sovet Moskvası, bolşeviklər gənc Azərbaycan Xalq Cümhuriyyətini yıxmaq, Bakını ələ keçirmək barədə konkret planlar hazırlayırdılar. Bakıda üsyan başladığı halda, birgə hərəkatı planlaşdırmaq məqsədilə RK(b)P MK-nın Qafqaz bürosu (aprelin 8-də yaradılmışdı). AK(b)P və Kirovun XI Ordunun komandanlığı ilə yazılı məsləhətləşmələri aparılırdı. XI Ordu komandanlığı Qafqaz Bürosu və AK(b)P nümayəndəliyinin iştirakı ilə aprelin 22-də Bakıda və aprelin 25-də Port-Petrovskda keçirilən müşavirələrdə qarşıdakı birgə əməliyyatlar planı geniş müzakirə edildi. Bu planda aprelin 27-də Bakıda kommunistlərin silahlı üsyana başlanmasını və XI Ordunun Azərbaycan sərhədlərini keçməsini nəzərdə tuturdu.

Kommunistlərin silahlı dəstələri aprelin 27-də səhər sübhəcən həm Bakı şəhəri daxilində, həm də onun ətraflarında ən mühüm obyektləri: dəmiryolu vağzalını, poçtu, teleqrafı, radiostansiyanı, polis məntəqələrini, iri neft mədənlərini, sənaye müəssisələrini, hərbi və ticarət limanını və s. yerləri ələ keçirməyə başladılar. Təxribatçı qruplar Bakı ilə şimal sərhədi və Gəncə arasında əlaqəni kəsdilər. Heyəti kommunistlərdən və onlara rəğbət bəsləyənlərdən ibarət Xəzər Hərbi Donanmasının gəmiləri sahildə düzülüb öz toplarını parlamentin iqamətgahına tuşlayaraq 2 saat ərzində hakimiyyəti Azərbaycan İnqilab Komitəsinə təhvil verməyi tələb etdilər.

Azərbaycan İnqilab Komitəsi drujinalarının şəhərdə vəziyyətə tam nəzarət etdiyi və XI Qırmızı Ordunun ön hissələrinin Azərbaycan Xalq Cümhuriyyətinin ərazisinə daxil olduğu şəraitdə - aprelin 27-də saat 11-də qoşun hakimiyyəti devirmək hərəkətinə don geydirmək məqsədilə H.Sultanov başda olmaqla kommunistlərin nümayəndə heyətini parlamentə göndərdi. O, AK(b)P MK, RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu və Mərkəzi Fəhlə Konfransının adından hakimiyyəti N.Nərimanovun başçılıq etdiyi fəhlə-kəndli soveti hökumətinə vermək barədə ultimatumu parlamentə təqdim edir. Ultimatumda göstərildiyi kimi, cavab 2 saat ərzində verilməli idi, əks halda bolşeviklər atəş açmaqla hədələyirdilər.

Parlament iclasından öncə ultimatumu müzakirə etmək üçün M.H.Hacınski, M.Ə.Rəsulzadə, Q.Qarabəyov, A.Səfikürdski, A.Qardaşov, Ağamalıoğlu daxil olmaqla komissiya yaradıldı. Komissiya ultimatuma cavab olaraq öz şərtlərini hazırladı və onları parlamentin müzakirəsinə verdi.

Parlamentin 1920-ci il aprelin 27-də saat $20^{45}$ -də çağırılmış təcili fövqəladə axşam iclası bu məsələnin müzakirəsinə həsr olunmuşdu. İclas açıq keçirilirdi.

İclasda ultimatum barədə parlamentdə məlumat verən M.H.Hacınski öz çıxışında demişdi: «Kommunist Partiyası təklif

edir ki, axşam saat 7-yə qədər hökuməti onlara təslim verək. Onlar əmin edirlər ki, əgər şərtləri qəbul etsək, Qızıl Ordu Bakıya girməyəcək, onun Bakıya gəlməməsi üçün əllərindən gələni edəcəklər. Onlar (bolşeviklər) deyirlər ki, hökumət Azərbaycan kommunistlərinin əlində olarsa, Qızıl Ordu heç bir vədə buraya gəlməyəcək. Hökumət mexaniki surətdə təslim edilmişdir. Nə kimi məmurlar varsa, hamı öz yerində qalacaqlar. Yalnız hökumət başında olanlar kənar edilib, yerlərinə Azərbaycan kommunistləri keçir və müsəlmanlardan başqa orada heç kimsə yoxdur. Altıncı şərtləri budur: əgər bu gecə bu məsələ həll olunarsa, onlar bir deklarasiya çıxarırlar ki, Azərbaycan parlamentinə daxil olan firqələr musavi (bərabər) və azad fəaliyyət göstərəcəklər. Onlara qarşı və xüsusən hökumət üzvlərinə qarşı heç bir xüsusi tədbir görülməyəcək və onlar təqib olunmayacaqlar.

Biz tərəfdən də bir neçə təklif verildi. Lakin onları qəbul etmədilər.»

Müzakirələrdə çıxış edən S.Ağamalıoğlu («Hümmət»), A.Səfikürdski (sosialist bloku), Q.Qarabəyov («İttihad»), H.K.Saniyev, A.Qardaşov («Əhrar»), M.H.Hacınskinin hakimiyyəti kommunistlərə təhvil vermək təklifinə tərəfdar çıxdılar.

«Müsavat» fraksiyası adından çıxış edən M.Ə.Rəsulzadə demişdi: «Bizim fraksiyamız təslim olmağın əleyhinədir. Fəqət, firqələrin əksəriyyətinin tələbinə görə və camaatımızın arasında daxili müharibə salmamaq üçün və bundan əlavə bugünkü kommunist firqəsinin müstəqilliyimizi müdafiə edəcəklərini nəzərə alaraq bütün ixtiyarın onlara verilməsinin tərəfdarıyam, bu şərtlə ki, kommunistlər istiqlaliyyət, millət və məmləkətimizi layiqincə müdafiə etsinlər. Yox, əgər bunlara əməl olunmasa, ixtiyarımızı geri alaraq haqqımızı özümüzdə saxlıyırıq».

Bununla bərabər o, qeyd etdi ki, biz bu təklifə tərəfdar çıxmaqla «öz edamımıza özümüz qol çəkirik».

Səsvermə nəticəsində (əleyhinə 1, bitərəf qalanlar – 3, səsvermədə iştirak etməyənlər – 3 nəfər) 1920-ci il aprelin 27-də axşam saat 11-də parlament hakimiyyətin Azərbaycan inqilab komitəsinə verilməsi barədə qərar qəbul etdi. M.Ə.Rəsulzadənin dediyi kimi, öz edamına qol çəkdi.

Parlament sədrinin müavini M.Y.Cəfərov və İşlər İdarəsinin direktoru M.Vəkilov tərəfindən imzalanmış sənəddə hakimiyyətin təhvil verilməsi aşağıdakı şərtlərlə qəbul edilirdi:

«1. Sovet hökuməti tərəfindən idarə olunan Azərbaycanın tam müstəqilliyi mühafizə edilir;

2. Azərbaycan Kommunist firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;

3. Azərbaycanın son idarə formasının hər hansı bir xarici təzyiqdən asılı olmayan fəhlə, kəndli və əsgər deputatları sovetləri şəxsində Azərbaycan ali qanunverici orqanı müəyyənləşdirir;

4. Hökumət idarəsinin bütün xidmətçiləri öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir;

5. Yeni yaradılan müvəqqəti kommunist hökuməti parlamentin və hökumət üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir;

6. Qızıl Ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verilməməsi üçün tədbirlər görüləcək;

7. Yeni hökumət haradan baş verməsindən asılı olmayaraq Azərbaycanın istiqlalını sarsıtmaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı tədbirlər görəcək və öz sərəncamında olan bütün vasitələrlə mübarizə aparacaqlar».

Hələ 1920-ci il martın 17-də Leninin N.Q.Smilqaya və Q.K.Orconikidzeyə verdiyi «Bakını tutmaq bizə son dərəcə və son dərəcə zəruridir. Bütün səyinizi buna verin» göstərişi əsasında əvvəlcədən hazırlanmış plana uyğun olaraq aprelin

ortalarında XI Ordunun hissələri Azərbaycan sərhəddində cəmləşməyə başlamışdı. Nəhayət, aprelin 27-də saat birə beş dəqiqə işləmiş, Azərbaycan parlamentinə ultimatum verilməsindən 12 saat əvvəl, A.Mikoyan, H.Cəbiyev və Q.Musabəyovu gətirən «111 Beynəlmiləl» zirehli qatarı Samur körpüsündən keçərək Bakıya doğru hərəkət etdi. İki saatlıq qanlı döyüşdən sonra Yalama stansiyası işğal olundu. Sovet zirehli qatarı aprelin 27-də axşam saat 21-də Biləcəri stansiyasını tutdu. Səhər saat 4-də isə «111 Beynəlmiləl» zirehli qatarı Bakı vağzalına gəldi. XI Qırmızı Ordunun əsas qüvvələri aprelin 30-da Bakıya daxil oldular. Onların irəliləmələrinə başda Xəlil paşa olmaqla yerli əhali arasında öz təbliğatı ilə XI Orduya müqavimət göstərməməyə çağıran Türkiyə zabitləri qrupu da kömək etmişdi. Onların arasında türk paşası sənədləri ilə Bakıda yaşayan hərbi mütəxəssis A.E.Skaçko da olmuşdu. Artıq 1920-ci il may ayının ortaları üçün XI Qırmızı Ordu Xalq Cümhuriyyətinin demək olar ki, bütün ərazisini nəzarət altına almışdı. Beləliklə, tariximizdə ilk respublika olan müstəqil Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyasının müdaxiləsi nəticəsində süqut etdi.

Aprel qara ləkəsinin icraçılarından biri olan Həmid Sultanov sonralar, 1920-ci ilin oktyabrında AK(b)P-nin 11 qurultayındakı çıxışında demişdi: «Biz bilirdik ki, indi də olmasa, sabah, ya birisi gün qırmızı süngü burada olacaqdır. Belə də oldu, biz Sovet hakimiyyətini hazır formada aldıq, onu bizə boşqabda gətirdilər». Sovet işğalının iç üzünü açan yaxşı kəlamdır.

Azərbaycan Xalq Cümuhriyyətinin süqutunun səbəblərindən bəhs edərkən aşağıdakıları qeyd etmək yerinə düşərdi. O, ciddi daxili səbəblər üzündən süqut etmişdi. Parlament, hökumət, fraksiya və partiyadaxili qarşıdurmalar və didişmələr Xalq Cümhuriyyətinin süqut etməsinin başlıca səbəblərindən idi. Bunun nəticəsi idi ki, 23 ay ərzində beş dəfə

hökumət kabineti dəyişmişdi, altıncısını isə təşkil etmək mümkün olmamışdı. Hətta o zaman Azərbaycanın çıxış yolunu Sovet Rusiyasının tərkibinə daxil olmasından ibarət olduğu barədə də səslər eşidilmişdi.

Cümhuriyyətin vəziyyətini ağırlaşdıran amillərdən biri də erməni daşnak hökumətinin Azərbaycana torpaq iddiaları idi. Bu hökuməti həmin təhlükəni aradan qaldırmaq üçün həddindən artıq iqtisadi və hərbi ehtiyatları səfərbər etmək məcburiyyətində qoymuşdu.

Sovet Rusiyasının havadarlıq və yardım etdiyi bolşeviklərin və bolşevikpərəst qüvvəlrin cümhüriyyət hökumətinə qarşı güclü müxalifət təşkil etməsi də hökumətin süqutu üçün şərait yaratmışdı. Bu yolda o, xalqı öz tərəfinə çəkmək üçün qondarma «Müstəqil Sovet Azərbaycanı» şüarından istifadə etmişdi.

Mudros sazişindən sonra Türkiyənin Azərbaycan Cümhuriyyətinə kömək etmək imkanlarının tükənməsi, onun Sovet Rusiyası ilə ittifaqa girməsi, Sovet Rusiyasının müstəmləkəçilik ambisiyası üzərində köklənmiş işğalçılıq siyasəti də Xalq Cümhuriyyətinin süqutuna gətirib çıxarmışdı. Qara 28 aprel hadisəsindən sonrakı kommunist sənədlərindən birində göstərilmişdi ki, «əgər inqilab qansız keçibsə, Müsavat hakimiyyəti devrilməyibsə, bu o demək deyil ki, bizim partiyamız güclü idi. Bu ona görə belə oldu ki, XI Qızıl Ordu güclü idi»-çox yaxşı deyilmişdir. Deməli, Azərbaycan Xalq Cümhuriyyəti XI Qırmızı Ordunun süngüsü ilə işğal olunmuşdu.

Uğursuzluğuna baxmayaraq 23 ay fəaliyyət göstərmiş Xalq Cümhuriyyəti Azərbaycan xalqının tarixində çox mühüm hadisə olmuşdu.

Xalq Cümhuriyyətinin 23 aylıq (1918-1920) tarixi istiqlal uğrunda mübarizə yolunda ən mühüm dövr olmuşdu. Bu dövr istiqlalımızın ən şanlı səhifələrindəndir. Elə səhifələri ki, onlarda Azərbaycan xalqının əzmli arzuları, müstəmləkəçiliyə,

zülmə, əsarətə, qarşıdürmaya qarşı azadlıq, istiqlaliyyət və milli birlik uğrunda barışmaz, qanlı mübarizə uğurları əxz olunmuşdur.

Azərbaycan tarixində birinci respublika olan Xalq Cümhuriyyəti Şərqdə, müsəlman və türk dünyasında da ilk respublika idi. O, Qərb sivilizasiyasının dövlət quruculuğu təcrübəsinin ən demokratik-hüquqi məziyyətlərini əxz etmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi iki ilə yaxın müddətdə əsrə bərabər əməli ömür keçirmişdi. İ.Stalin «bu bir il yarımlıq hakimiyyətinin ərzində xalqa nə verə bildiniz?» sualına cavabında M.Ə.Rəsulzadə demişdi: «Çox şey verə bilmədik... Amma milli azadlığın nə olduğunu başa saldıq. Azca da milli istiqlal dadızdırdıq. Yüz illik əsarət dərsi ilə iki illik hürriyyət qovqası bizi özümüzə tanıtdı. Bir kərə yüksələn bayraq bir daha enməz».

Doğrudan da bayraq enmədi. O, gizlində, açıqda Azərbaycan xalqını istiqlal mübarizəsinə çağırdı. Bunun nəticəsi idi ki, XX əsrin sonlarında müstəqilliyimiz bərpa olundu. Xalq yenidən açıqdan-açığa istiqlal bayrağını qaldırdı. Birinci respublikanın çox böyük tarixi əhəmiyyətli ənənələri üçüncü respublika tərəfindən davam və inkişaf etdirilir.

V

# Azərbaycan 1920-1930-cu illərdə

## §1. Azərbaycan Sovet Sosialist Respublikası

**Şimali Azərbaycanda sovet rejiminin qurulması**

Xalq Cumhuriyyətinin süqutunlan sonra Azərbaycan tarixinin sovet dövrü – İkinci Respublika dövrü başlandı. Sovet mənasında keçmiş Rusiya imperiyasını bərpa etmək məqsədini güdən bolşeviklər Azərbaycanda da işğalçılıq niyyətlərini həyata keçirərək 1920-ci il aprelin 28-də Bakıda Azərbaycan Sovet Sosialist Respublikasının yaradıldığını elan etdilər. Bütün hakimiyyəti müvəqqəti İnqilab Komitəsinə verdilər.

Çox qısa zaman kəsiyində olsa da gerçək müstəqillik nə olduğunu görmüş və dərk etmiş, onun şirinliyini dadmış xalqın narazılığından qorxan və öz işğalçılıq siyasətini pərdələməyə çalışan bolşeviklər ilk vaxtlar Azərbaycanı Mustəqil Sovet Respublikası kimi qələmə vermişdilər. Bu ideya hələ 1919-cu ilin yayında irəli sürülmüşdü. V.İ.Lenin 1920-ci il mayın 5-də Azərbaycan zəhmətkeşlərinə göndərdiyi təbrik məktubunu da "Yaşasın müstəqil Azərbaycan Sovet Respublikası" ifadəsi ilə bitirmişdi. "Müstəqil Azərbaycan Sovet Respublikası" şüarı altında bolşeviklərin XI Qırmızı Ordu hissələri qısa bir müddətdə ciddi müqavimətə rast gəlmədən Naxçıvandan başqa Azərbaycanın əksər ərazisini öz nəzarəti altına almışdılar. Bunu pərdələmək üçün Aprel çevrilişindən sonra ali hakimiyyət orqanlarını – Müvəqqəti İnqilab Komitəsi və Xalq Komissarlığı Şurasını ancaq azərbaycanlılardan təşkil etmişdilər. Əslində respublikanı idarə edən RK(b)P-nin ayrılmaz tərkib hissəsi olan Azərbaycan K(b)P-sı idi. Əsas özəyi qeyri-millətlərdən, əsasən rus və ermənilərdən ibarət olan Azərbaycan K(b)P və Bakı Partiya

Təşkilatı Respublikanın ictimai-siyasi həyatında aparıcı rol oynamışdılar. Onlar daim Azərbaycanda Sovet Rusiyasının müstəmləkə siyasətini müdafiə etmişdilər.

Bolşeviklərin təsiri güclü olan bəzi yerlərdə Sovet ordu hissələri hələ özünü yetirməmiş hakimiyyət onların əlinə keçmişdi. Aprelin 28 – 30-da Gəncə, Lənkəran, Şamaxı, Salyan, Şuşa, Ağdam və b. yerlərdə bolşeviklər hakimiyyəti artıq ələ almışdılar. Buna baxmayaraq, XI Qırmızı Ordu öz işğalçılıq missiyasını davam etdirmişdi. 1920-ci il mayın 1-də Qırmızı Ordu Azərbaycan milli ordu hissələrinin müqavimətini qıraraq Gəncəyə daxil olmuş, Qazaxı zəbt etmiş, Şamaxı və Göyçayı, Şəkini, Zaqatalanı və Balakəni ələ keçirmişdi, may ayının ortalarında Qarabağ bölgəsini nəzarət altına almışdı. Azərbaycanın cənub-şərqində bolşevik hakimiyyətini möhkəmləndirmək və genişləndirmək məqsədilə Rusiyanın hərbi donanması mayın 1-də Bakı limanına daxil olmuş, mayın 3-də Lənkərana, Astaraya desant çıxartmışdı. Nəhayət, türk qoşununun Naxçıvanda olması, Rusiya-Türkiyə arasında mehriban münasibətlər qurmaq cəhdləri üzündən ləngiyən XI Qırmızı Ordu ancaq iyulun 28-də buranı sovetləşdirə bildi.

Sovet Rusiyasının qoşunları tərəfindən Azərbaycanın belə qısa zamanda işğal olunmasına Aprel çevrilişi ərəfəsində xalqın iqtisadi və siyasi böhrandan, milli çəkişmə və qarşıdurmadan təngə gəlməsi, əhalinin müəyyən hissəsinin bolşeviklərin yalançı vədlərinə inanması, XI Qırmızı Orduya müqavimətin mənasızlığını başa düşməsi, bir sıra şəhər və kəndlərdə yerli rusların və ermənilərin işğalçıların tərəfinə keçmələri kimi amillər müəyyən qədər kömək etmişdi.

Bolşeviklər Moskvanın göstərişi ilə Azərbaycanda yerli şəraiti və milli ənənələri nəzərə almadan Rusiya təcrübəsi əsasında Sovet siyasi rejimi yaratmışdılar. Aprel çevrilişindən sonra bütün dövlət hakimiyyətini öz əlində toplayan Azərbaycan Müvəqqəti İnqilab Komitəsi yaradılmışdı. O, aprelin 28-də Azərbaycan SSR Xalq Komissarlığı Sovetini

təşkil etdi. Onun tərkibinə N.Nərimanov (sədr), H.Sultanov, Q.Musabəyov, M.D.Hüseynov, Ç.İldırım, D.Bünyadzadə, Ç.Vəzirov daxil idilər. Qanunverici və icraedici hakimiyyəti öz əlində cəmləşdirən Azərbaycan İnqilab Komitəsi ilk günlərdən Azərbaycan Xalq Cümhuriyyətinin dövlət idarəçilik sistemini dağıtmağa başladı: 1920-ci il 3 may tarixli dekreti ilə yerlərdə qəza, mahal və kənd İnqilab Komitələri yaratdı. Onlar seçki yolu ilə deyil, təyinetmə ilə formalaşdırılırdılar. Artıq 1920-ci il avqustun axırlarında 16 qəza, 46 mahal və 435 kənd İnqilab Komitələri fəaliyyət göstərirdi. Yerlərdə olan İnqilab Komitələrinə geniş fövqəladə səlahiyyətlər verilmişdi.

İnqilab Komitələri, bolşeviklərin fikrincə, respublikadakı xüsusi siyasi şəraitdən: "əksinqilabın" müqavimətinin hələ qəti olaraq qırılmaması, kəndlilərin seçkili sovet orqanlarının yaradılmasına hazır olmaması gerçəkliyindən meydana gəlmişdi. Başqa sözlə, bu tədbir Azərbaycan kəndinin "sosialist inqilabı" üçün hələ hazır olmaması zərurətindən irəli gəlmişdi.

Yeni rejimin dövlət qurumlarının yaradılmasında mühüm addımlarından biri də İnqilab Komitəsi tərəfindən mərkəzi və yerli güc strukturlarını yaratmaq tədbirləri idi. İnqilab Komitəsi ilk günlərdə polisi ləğv edərək siyasi meyarlar əsasında qırmızı (fəhlə-kəndli) milisini təşkil etdi. 1920-ci il mayın 12-də xalq məhkəməsi haqqında fərman verildi: əksinqilab və təxribatçılığa qarşı mübarizə məqsədilə Fövqəladə Komissiya (ÇK) və Ali inqilabi tribunal təsis edildi. Onlara xüsusi səlahiyyətlər verildi. Belə ki, Fövqəladə Komissiya və Ali inqilabi tribunalın işi heç bir qanunvericiliklə məhdudlaşdırılmırdı, onların qərarı və hökmü qəti idi, dərhal həyata keçirilirdi. 1926-cı ilin iyununda isə İnqilab Komitəsi dövlət və ictimai təşkilatların fəaliyyətinə nəzarət edən Fəhlə-Kəndli Müfəttişliyi (FKM) təsis etdi.

Yeni rejimin həyata keçirdiyi əsas dəyişikliklərdən biri də, Azərbaycanda bütün silk və dini imtiyazların ləğv edilməsi idi. İnqilab Komitəsinin 1920-ci il 12 may tarixli dekreti ilə silki və mülki rütbələr (zadəgan, kəndli, bəy, xan, knyaz və s.) ləğv edildi. Xalq Maarif Komissarlığının 15 may tarixli qərarı ilə vicdan azadlığı elan olundu: dövlət və pullu məktəblərdə şəriət dərslərinin keçilməsi, hər cür dini ayinlərin icra olunması qadağan edildi: din dövlətdən və məktəbdən ayrıldı.

1920-ci il mayın 7-də ordunun və donanmanın yenidən təşkili barədə dekret verildi. Dekretə görə yeni yaradılacaq ordu və donanma Qırmızı Ordunun tərkib hissəsi olaraq onun tabeliyinə keçməli idi. Bu Azərbaycan Sovet Sosialist Respublikasının elan olunmuş formal «müstəqilliyinə»" zərbə idi.

Azərbaycan kəndində sovet rejiminin bərqərar olmasının mühüm pillələrindən biri də, yoxsul komitələrinin yaradılması olmuşdur. Kənddə hakimiyyətin bu forması da Sovet Rusiyasının təcrübəsindən götürülmüşdü. Yoxsul komitələrinin məqsədi kənddə sinfi təbəqələşməni dərinləşdirmək, qarşıdurmanı gücləndirmək, Sovetlərə keçmək üçün zəmin yaratmaqdan ibarət idi. Yoxsul komitələri Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 23 sentyabr tarixli fərmanı ilə yaradıl-mışdı. Onlar seçki yolu ilə təşkil olunurdular. Azərbaycanda kənd və nahiyə Yoxsul Komitələrinin yaradılması prosesi 1920-ci ilin sonunadək əsasən başa çatdırıldı. 1921-ci ilin yayında Azərbaycan qəzalarında İnqilab Komitələri və yoxsul komitələrindən sovetlərə keçilməyə başlandı. Bu, Azərbaycanda bolşevik rejiminin bərqərar olmasında üçüncü mərhələ olmuşdu.

Sosial təbəqələşmənin dərinləşdiyi Bakıda Sovetlər hələ 1917-ci ilin martında meydana gəlmişdi. 1918-ci ilin avqustuna qədər Bakı və onun ətrafını idarə edən orqana

çevrilmişdi. 1920-ci ilin may ayında Bakıda seçki yolu ilə şəhər soveti təşkil edilmişdi.

1921-ci ilin əvvəllərindən başlayaraq kəndlərdə, mahal və qəzalarda sovetlər və onların icraiyyə komitələrinə seçkilər keçirildi. 1921-ci ilin əvvəllərində Bakı və digər qəzalarda Sovetlər qurultayları oldu. Artıq 1921-ci ilin mayında Pespublikada 1400-ə yaxın kənd soveti seçilmişdi.

1921-ci il mayın 6-da Bakıda Azərbaycan SSR-nin birinci sovetlər qurultayı toplandı. Qurultay mayın 19-da Azərbaycan SSR-in birinci Konstitusiyasını qəbul etdi. O, RSFSR Konstitusiyası nümunəsində tərtib olunmuşdu. Konstitusiyada, rəsmi olaraq milliyyətindən, dinindən, cinsindən asılı olmayaraq həddi-buluğa çatan bütün zəhmətkeşlərə dövlət hakimiyyəti orqanlarına seçmək və seçilmək, söz, mətbuat, vicdan azadlığı hüquqları verilirdi. Eyni zamanda vətəndaşların zəhmətlə məşğul olmayan hissəsi seçki hüquqlarından məhrum edilirdi.

Konstitusiyada dövlət orqanlarının strukturu da rəsmiləşdirildi. Azərbaycan İnqilab Komitəsi ləğv edildi. Qurultaylar arası dövrlərdə respublikada ali qanunverici, sərəncam-verici və nəzarətedici orqan olan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi (Az.MİK) seçildi. Az.MİK Rəyasət Heyətinin tərkibinə S.Ağamalıoğlu, M.Hacıyev, T.Hüseynov, Ə.H.Qarayev, M.B.Qasımov, İ.Konuşkin, N.Nərimanov, M.Pleşşakov, S.Fətəlizadə daxil idi. MİK sədrliyinə Muxtar Hacıyev, sədr müavinliyinə Səmədağa Ağamalıoğlu seçildilər. Sovetlər qurultayı və Azərb. MİK qarşısında məsuliyyət daşıyan ali icraedici hakimiyyət orqanı – Azərbaycan SSR Xalq Komissarları Soveti yenidən təşkil edildi. Onun sədri N.Nərimanov seçildi.

## Sovet rejiminin ilk iqtisadi tədbirləri.

Beləliklə, Azərbaycan SSR-də konstitusiyon hakimiyyət orqanları formalaşdı. Bu, Azərbaycanda Sovet rejiminin bərqərarolmasının hüquqi-siyasi bazası oldu. Bolşeviklər Azərbaycanda "proletariat diktaturası" adlandırılan Rusiyasayağı sovet rejiminə iqtisadi zəmin yaradan tədbirlər də həyata keçirdilər. Bunlar sırasında İnqilab Komitəsinin torpaq haqqında 1920-ci il 5 may tarixli dekretinin müstəsna əhəmiyyəti olmuşdu. Həmin dekretə görə bütün xan, bəy və vəqf torpaqları müsadirə edilir, ödənişsiz kəndlilərin istifadəsinə verilirdi. Bu dekretin həyata keçirilməsi nəticəsində Azərbaycanda mülkədar torpaq sahibliyi ləğv olundu. 15 may tarixli dekretlə Azərbaycan ərazisindəki meşələr, sular və yeraltı sərvətlər milliləşdirilərək dövlət mülkiyyətinə verildi.

Torpağın milliləşdirilməsi Azərbaycan kəndində kənd təsərrüfat artellərinin, kommunaların və sovxozların meydana gəlməsinə səbəb oldu. Artıq 1920-ci ilin axırlarında Azərbaycanda 32 belə təsərrüfat formaları fəaliyyət göstərirdi.

Sənayedə milliləşdirməyə hazırlıq tədbiri olaraq Rusiyada olduğu kimi fəhlə nəzarətinin yaradılması ilə başlanmışdı. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 24 may tarixli dekreti ilə neft sənayesi milliləşdirildi, 272 xüsusi neft firması ləğv edildi. Milliləşdirilmiş müəssisələri idarə etmək üçün Azərbaycan Neft Komitəsi (sonnralar "Azneft") təşkil olundu. Onun başçısı V.İ.Lenin tərəfindən 1920-ci ilin yayında Bakıya göndərilmiş A.P.Serebrovski təyin edildi. Bununla da, "Müstəqil" Sovet Azərbaycanının əsas sərvəti olan neft faktiki olaraq Sovet Rusiyasının ixtiyarına keçdi.

1920-ci il iyunun əvvəllərində Xəzər ticarət donanmasının milliləşdirilməsi haqqında dekret verildi. Su nəqliyyatının işinə rəhbərlik etmək üçün Xəzər Su nəqliyyatı

İdarəsi yaradıldı. İyunun 9-da banklar və iyunun 15-də Balıq sənayesi milliləşdirildi. Ümumən, milliləşdirilmə 1920-ci ilin noyabrında başa çatdırıldı.

Milliləşdirilmiş sənayeni idarə etmək üçün Azərbaycan Xalq Təsərrüfatı Şurası yaradıldı.

Milliləşdirmə Azərbaycanın iqtisadiyyatına ciddi zərbə vurdu. İstehsalın tənəzzülü daha da dərinləşdi. Bunun nəticəsində 1920-ci ildə sənaye istehsalı 1913-cü illə müqayisədə 7 dəfə, neft hasilatı 70% və kənd təsərrüfatı məhsullarının istehsalı 35% aşağı düşdü.

Geosiyasi mövqei ilə yanaşı, zəngin yeraltı və yerüstü sərvətlərinə yiyələnmək məqsədilə Azərbaycanı işğal edən bolşeviklər elə ilk gündən onun var-yoxunu Rusiyaya daşımağa başladılar. Onları daha çox neft və neft məhsulları maraqlandırırdı. 1920-ci ilin sonuna kimi Azərbaycandan Rusiyaya üç milyon ton neft daşınmışdı, bu da Bakıda istehsal olunan neftin 90%-dən çoxu demək idi. Bundan başqa 1920-ci ilin may-sentyabr aylarında Rusiyaya üç milyon pud ənənəvi istehlak məhsulları aparılmışdı.

Tağıyev fabrikinin istehsal etdiyi məhsul ancaq XI Qırmızı Ordunun tələblərini ödəyirdi. Ayaqqabı istehsalının 75%-i orduya verilirdi.

**Sovet rejiminə qarşı müqavimət hərəkatı və üsvanlar**

İdeya atalarının «yeni cəmiyyət köhnənin xarabaları üzərində qurulur"» ehkamını əsas götürən bolşeviklər köhnə nə varsa hamısını dağıtmağa, düşmən hesab etdikləri ziyalıları, din xadimlərini qırmağa, siyasi opponentlərini məhv etməyə başladılar. Hakimiyyətə gəlmiş bolşeviklər Azərbaycan Xalq Cğmhuriyyətinin görkəmli nümayəndələrini, digər partiya və «siyasi qrup"lar»ın rəhbərlərini, Azərbaycan ordusunun xadimlərini həbs etməyə başladılar. Onlara qarşı qırmızı terror başladı. Onların çoxu Nargin adasında güllələndi və Rusiya həbs düşərgələrinə

göndərildi. Bunlar Azərbaycan İnqilab Komitəsindən xəbərsiz əsas özəyi rus və ermənilərdən ibarət olan Az K(b)P MK, BK və XI Qırmızı Ordunun Xüsusi şöbəsi tərəfindən edilirdi. 1920 – 1921-ci illərdə Azərbaycan Xalq Cumhuriyyətinin Nazirlər Kabinetinin keçmiş sədrləri F.X.Xoyski və N.Yusifbəyli, parlamentin sədr müavinləri H.Ağayev, C.Behbudov, hökumət üzvləri X.Rəfibəyov, İ.Ziyadxanov, məşhur pedaqoq, alim F.Köçərli, professor Zinin və b. öldürüldülər. 1921-ci ilə qədər ancaq müsəlman hərbçilərindən 12 general, 27 polkovnik və podpolkovnik, 46 kapitan, 266 nəfər hərbi işçi güllələnmişdi. Onlardan S.Sulkeviç, İ.Usubov, Haşımbəyov, şahzadələr – İmamulla Mirzə Qacar və Kazım Mirzə Qacar, Həmid bəy Qaytabaşı, Həmid bəy Səlimov, Rüfət bəy Şıxlinski, İsgəndər bəy Seyfulin, A.Ziyadxanov və b. kimi tanınmış hərbçiləri göstərmək olar. Ümumən, 1920-ci ilin aprelin 28-dən – 1921-ci ilin avqustunadək müddətdə Azərbaycanda 48 min adam Qırmızı terrorun qurbanı olmuşdu.

1920-ci il avqustun 17-də Azərbaycan Xalq Cğmhuriyyətinin ideya liderlərindən M.Ə.Rəsulzadə Şamaxı qəzasında həbs edilib Bakıya gətirildi. Lakin o, həmin ilin noyabrında Bakıya gəlmiş Stalin tərəfindən həbsdən azad edilərək Moskvaya aparıldı. M.Ə.Rəsulzadə 1922-ci ildə Finlandiyaya, oradan da Türkiyəyə mühacirət etdi.

Mərkəz tərəfindən Azərbaycanda işə göndərilmiş, bir müddət Azərbaycan SSR XTŞ-nin sədri işləmiş N.İ.Solovyov Leninə ünvanlanmış məktubunda göstərirdi ki, heç kimə gizli deyil ki, yeni hökumət – İnqilab Komitəsi azərbaycanlılardan təşkil edilsə də, ona rəhbərliyi gürcü-erməni qrupundan ibarət AK(b)P MK ağalıq edir. Həmin rəhbər qrup Azərbaycan xalqını başsız qoymağı qərarlaşdırıb. Demək olar ki, ancaq müsəlman ziyalıları və burjuaziyası həbs olunur və güllələnir.

Azərbaycanlılar nəinki kütləvi şəkildə həbs olunur və güllələnirdi, habelə qarət və talan olunurdu, var-yoxdan

çıxarılırdılar. Bu məqsədlə Azərbaycanda geniş miqyasda müsadirə kompaniyası keçirilirdi. Burjua "ünsürlərini" sıxışdırmaq adı ilə yerli əhalinin dəyərli malları zorla əllərindən alınırdı. Bolşevik məmurlar ev əşyaları, cavahiratla yanaşı, qadınların üstündəki ziynət şeylərini də zorla soymaqdan çəkinmirdilər. 1922-ci ilin axırında Bakıda əhalidən 200 pud gümüş, 10 pud qızıl və 800-ə qədər qızıl üzük müsadirə edilmişdi. 1920-ci ilin dekabrında Bakı bolşeviklərinin liderlərindən Sarkis (Daneylan) da bunu etiraf etmişdi.

Dövlət məmurları tərəfindən qarətçilik kəndləri də bürümüşdü. Kəndlilərin məhsullarını, mal-qarasını müsadirə adı ilə zorla əllərindən alırdılar. XI Qırmızı Ordu əsgərlərinin özbaşınalığı xüsusilə dözülməz idi. Bunu RSFSR XİK-ı G.Çiçerin 1920-ci il avqustun 4-də siyasi büroya yazdığı məktubunda da etiraf etmişdi. O yazmışdı: Qırmızı Ordu hissələrinin komandirləri Azərbaycan hökuməti ilə hesablaşmırlar, özbaşına, necə gəldi hərəkət edirlər. Onların himayəsi ilə əsil müstəmləkəçilik siyasəti yürüdülür». N.Nərimanovun özünün yazdığı kimi, onlar varlı və yoxsullara fərq qoymadan kəndliləri qarət edirdilər. 1920-ci ilin sentyabrından Azərbaycanda tətbiq olunan ərzaq sapalağı kəndlilərin vəziyyətini daha da ağırlaşdırmışdı.

Bolşeviklər öz siyasi opponentlərinə qarşı da çox amansız idilər, çoxpartiyalılığa qarşı dözülməzlik göstərirdilər. İlk günlərdə onlarla əməkdaşlıq etmək istəyən müxtəlif siyasi partiya və qruplarla, o cümlədən Aslan Səfikürdski, Camo Hacınski, Rza Qaraşarlı və b. başda olmaqla «Xalqçı sosialist"«, Qarabəy Qarabəyov, Əlibəy Aşurbəyov, Cəmilbəy Lənbəranski və b. başçılıq etdiyi «İttihad"« partiyaları ilə birgə çalışmaqdan imtina etdilər. Onlar «Musavat"«la 1920-ci il 27 aprel danışıqlarında üzərlərinə götürdükləri öhdəliklərə sadiq qalmaq şərtilə əməkdaşlıq etmək təkliflərini də rədd

etdilər. AK(b)P-dən başqa bütün siyasi partiyaları qanuni saymayaraq qadağan etdilər.

Sovet rejiminə qarşı müqavimət hərəkatı formalaşdıqdan və ayrı-ayrı yerlərdə üsyanlar baş verdikdən sonra siyasi partiyalara qarşı münasibət tamamilə pisləşdi. Onlar əksinqilabçı, zəhmətkeşlərin qatı düşmənləri, istismarçı siniflərin nümayəndələri kimi damğalandılar. Partiyalara qarşı tədbirlər gücləndi. Nəhayət, 1921-ci ildə «Müsavat"«, «İttihad"«, «Əhrar»" partiyalarının qanundan kənar olması və fəaliyyətlərinin qadağan olunması barədə rəsmi qərar verildi.

O zaman Azərbaycan hökumətinin başçısı N.Nərimanovun dəfələrlə göstərdiyi cəhdlərə baxmayaraq, XI Qırmızı Ordu hissələrinin, onların Xüsusi şöbələrinin və yerli kommunist məmurların özbaşınalığına son qoyulmurdu. Xalqın sovet rejimindən narazılığı gündən-günə artırdı. Bu zəmində də 1920-ci il aprel çevrilişindən sonra Azərbaycanda sovet rejiminə qarşı müqavimət hərəkatı başlandı.

Azərbaycanın demək olar ki, bütün yerlərində sovet rejiminə qarşı müqavimət hərəkatı yaranırdı. Müxtəlif forma və vasitələrlə yeni quruluşa qarşı müqavimət göstərilirdi. Bu, özünü vergiləri verməməkdə, XI Qırmızı Ordu hissələrini ərzaq və başqa məhsullarla təchiz etməkdən imtina olunmaqda, rejimdən narazı adamların qaçaqçılığa qoşulmasında, sui-qəsd hadisələri törətməkdə, itaətsizlikdə, laqeydlikdə, yerli seçki orqanlarına öz adamlarını keçirməkdə və s. formalarda göstərirdi. Bəzi yerlərdə güclü olan müqavimət hərəkatı açıq silahlı çıxışlara gətirib çıxarırdı.

Sovet rejiminə qarşı ilk güclü silahlı çıxış 1920-ci il may ayının 25-26-da Gəncədə baş vermişdi. O, tariximizə Gəncə üsyanı kimi daxil olmuşdur. Üsyanın əsas qüvvəsini yeni hökumətə itaətsizlik göstərən Azərbaycan Milli Ordusunun bölmələri təşkil edirdi. Onların tərkibində 1800-dən çox hərbçi var idi. Üsyançılara qoşulanlarla birlikdə onların sayı 10-12 min nəfərə çatırdı. Üsyana general Cavad

bəy Şıxlinski, general Məmməd Mirzə Qacar, polkovnik Cahangir bəy Kazımbəyov və başqalarından ibarət Şura rəhbərlik edirdi. Gəncədəki hərbi hissələrin üsyana hazırlaşdıqlarını duyan XI Qırmızı Ordu hissələri mayın 25-dən 26-na keçən gecə saat 3-də Azərbaycan diviziyasının qərargahına hücum etdilər. Əks hücuma keçən Milli Ordu əsgərləri şəhərin müsəlmanlar yaşayan hissəsindəki XI Qırmızı Ordu birləşmələrini tərksilah edib 600 nəfəri əsir aldılar. Mayın 26-da azşama yaxın dəmir yol stansiyası üsyançılar tərəfindən ələ keçirildi. Lakin yeni qüvvələrin gətirilməsi nəticəsində həmin gecə stansiya XI Qırmızı Ordu hissələri tərəfindən geri alındı. Şəhərin və onun ətrafındakı erməni əhalisindən təşkil olunmuş könüllü dəstələri də üsyançılara qarşı vuruşurdular. Mayın 27-də XI Qırmızı Ordunun və erməni dəstələrinin həmlələri dəf edildi. Düşmən böyük itki verib geri çəkildi. Bunu görən bolşeviklər Gəncə üzərinə yeni hərbi qüvvələr göndərdilər. Mayın 28-də M.Q.Yefremovun komandanlığı altında 18-ci suvarı və 20-ci atıcı diviziyaları şəhərə hücuma keçdilər. Şəhər amansızcasına aramsız top atəşinə tutuldu. Atəş zamanı general C.Şıxlinski yaralandı. General Məmməd Mirzə Qacar isə xəstələndiyindən hərbi əməliyyatlarda iştirak etmirdi. Üsyançılar şəhəri böyük mərdliklə müdafiə edir, düşmən hücumlarını rəşadətlə dəf edirdilər. Mayın 29-da XI Qırmızı Ordu hissələri Şimal və Şimal-qərb istiqamətində şəhərin ücqar məhəllələrinə girə bildilər. Üsyançılar bu həmlələri də dəf etdilər. Döyüşə yeni qüvvələr gətirən XI Qırmızı Ordu hissələri mayın 31-də şəhərə daxil oldular. Küçə, tin və ev uğrunda ölüm-dirim döyüşləri başlandı. Fürsətdən istifadə edən ermənilər də azərbaycanlıları qırırdı. Onlar xeyli adamı Ozan məscidinə yığaraq yandırmışdılar. Ermənilər üç gün şəhəri qarət etmişdilər.

Güclü müqavimətə baxmayaraq mayın 31-də axşam çağı şəhər XI Qırmızı Ordu hissələrinin nəzarətinə keçdi. Şə-

hərdə qarət və talan başlandı. XI Qırmızı Ordunun «şanlı əsgərləri»" və erməni daşnak könüllü dəstələri tərəfindən şəhərin minlərlə dinc sakini, o cümlədən qocalar, qadınlar və uşaqlar qətlə yetirildilər. Üç gündən sonra terror və qarətə son qoyuldu.

Gəncə üsyanının yatırılmasında, o zaman Gəncədə Azərbaycan İnqilab Komitəsinin fövqəladə Komissarı təyin olunmuş H.Sultanovun başçılığı ilə Daxili İşlər Komissarlığının hissələri də fəallıq göstərmişdilər. Bəzi məlumatlara görə XI Qırmızı Ordu tərəfi 8800, üsyançılar isə 13 min nəfər adam itirmişdi. Üsyanın yatırılması zamanı milli ordunun 6 generalı, o cümlədən general-mayor H.Şıxlinski, general-mayor Məhəmməd Mirzə Qacar qətlə yetirilmişdi. 76 nəfər zabit və əsgər Nargin adasına aparılaraq güllələnmişdi.

Cahangir bəy Kazımbəyov başda olmaqla hərbçilərindən bir qrupu mühasirədən çıxaraq, Qarabağ üsyançılarına qoşulmuşdu.

Həbs olunanlar arasında təqsiri olmayan məşhur generallar S.Mehmandarov və Ə.Şıxlinski də var idi. N.Nərimanovun böyük səyi ilə onlar həbsdən azad olunaraq hərbi xidmətdə istifadə üçün Moskvaya göndərilmişdilər.

Sovet rejiminə qarşı müqavimət hərəkatının təzahürlərindən biri də Qarabağ üsyanı olmuşdur. Üsyan 1920-ci il iyunun əvvəllərində başlamışdı. Tezliklə bütün Qarabağı bürümüşdü. Ona özünü «Qarabağın hakimi»" elan etmiş türk generalı Nuru paşa başçılıq edirdi. Üsyanın başlıca qüvvəsini Azərbaycan Milli Ordusunun Qarabağın müxtəlif yerlərində yerləşən hissələri Şəki, Cavanşir, Ağdam süvari alayları, Bakı piyada alayı və iki topçu diviziyası təşkil edirdi. Onlar əslində Qarabağa tam nəzarət edirdilər. Hərbi birləşmələrin tərkibində 6 minə yaxın zabit və əsgər var idi.

XI Qırmızı Ordu hissələri ilə üsyançılar arasında ilk hərbi toqquşma Gəncə hadisələrindən xəbər tutmaq üçün Ehsan xan Naxçıvanskinin komandanlığı altında Bərdədən

Yevlax istiqamətində hərəkət edən Şəki alayı arasında olmuşdu. Bu döyüşdə Ehsan xan Naxçıvanski və onu müşayiət edən bir qrup hərbçi ələ keçirilib XI Qırmızı Ordu qərargahında güllələnmişdilər. Lakin mühasirədən çıxmış 32 nəfər üsyançı düşmənlə vuruşa-vuruşa Bərdəyə çəkilə bilmişdilər. Onlar bir həftə ərzində Bərdə ətrafında gedən döyüşlərdə böyük mətanət göstərmişdilər. Tarixi qaynaqlarda bu «32»"lərin əfsanəsi kimi xatırlanır.

İyunun 10-da XI Qırmızı Ordu hissələri üsyançılara qarşı hücuma keçdilər və Bərdəni top atəşinə tutdular. Üsyançılar şəhəri tərk etməyə məcbur oldular. İyunun 10-da Tərtər, 11-də Ağdam, 14-də Xankəndi, 15-də Şuşa XI Qırmızı Ordunun hissələri tərəfindən zəbt olundu. Üsyançılara qarşı döyüşlərdə ermənilər də iştirak etmişdilər. Yerli dinc əhaliyə amansız divan tutuldu. Bir çox kənd tamamilə məhv edildi, əhalisi didərgin salındı.

1920-ci ilin iyunun 6-da Zaqatalada sovet rejiminin ozbaşınalığına qarşı güclü üsyan baş verdi. Gəncə və Qarabağdakı üsyanlardan fərqli olaraq bu üsyanın əsas qüvvəsini hərbçilər deyil, dinc əhalidən ibarət müqavimət dəstələri təşkil edirdi. Hərbçilər Zaqatala şəhəri tutulandan sonra üsyançılara qoşulmuşdular. Üsyana keçmiş Xalq Cumhuriyyətinin tanınmış xadimlərindən biri, peşəkar hərbçi Əhmədiyev və bölgənin nüfuzlu şəxsiyyətlərindən olan Molla Hafiz Əfəndi başçılıq edirdilər. Üsyan Zaqatalanın Tala kəndində başlayıb bütün bölgəyə yayılmışdı.

Əhalinin silahı təhvil verməsi barədə bolşeviklərin əmri üsyançıların hücuma keçməsi üçün siqnal olmuşdu. Üsyançılar iyunun 7-də Qaxı ələ keçirdilər. İyunun 9-da Molla Hafiz Əfəndinin başçılığı ilə Zaqatala qalasını tutdular. İnqilab Komitəsi üzvlərini və bütün sovet məmurlarını həbs etdilər. Azərbaycan ordusunun keşikçi batalyonunun zabitləri də onlara qoşuldular. Qumux çayı vadisindəki döyüşdə üsyançılar XI Qırmızı Ordunun hissələrini məğlubiyyətə

uğratdılar. Lakin digər bölgələrdən gətirilən yeni qüvvələrlə iyunun 16-da hücuma keçən XI Qırmızı Ordu hissələri Qax yaxınlığında üsyançıları məğlub etdilər. İyunun 18-də Zaqatala zəbt olundu. Üsyançıların sağ qalan hissələri Gürcüstanda sığınacaq tapmalı oldular.

Sözügedən üsyanların yatırılmasına baxmayaraq 1920-ci ilin yay və payızında sovet rejiminə qarşı müqavimət hərəkatı səngimirdi. O, demək olar ki, əksər regionları bürümüşdü. 1920-ci ilin iyulunda Şəmkir qəzasının Müskürlü kəndinin ətrafında kəndlilərdən təşkil olunmuş silahlı dəstə XI Qırmızı Ordu hissələrinə həmlə etdi. Bu döyüşlərdə qadınlar və uşaqlar də iştirak edirdi. Son döyüş zamanı üsyançılardan 29 kişi və 49 qadın həlak oldu. Həmin üsyan yatırıldıqdan sonra Şəmkir ətrafında Namazın başçılığı ilə 500 nəfərə qədər fədaisi olan böyük bir dəstə üsyana başladı. O, Şəmkir qəzasının böyük hissəsini öz nəzarətinə aldı. Həmin dəstənin ləğv edilməsində XI Qırmızı Ordunun 4 diviziyası iştirak etmişdi. Əməliyyat zamanı "qırmızılar" tərəfindən bir neçə kənd yandırılmış, sakinləri isə məhv edilmişdi.

1920-ci ilin avqustunda Quba qəzasının Dəvəçi və Qusar dairələrində də Həmdulla Əfəndinin və Mayılın başçılığı ilə kəndli çıxışları olmuşdu.

Lənkəran qəzasında müqavimət hərəkatı daha çox çəkmişdi. O, 1920-ci ilin may ayından 1921-ci ilin payızına kimi davam etmişdi. Bu hərəkata əvvəllər Hüseyn Əfəndi Ramazan və Kərbəlayi Şahverən başçılıq edirdi. 1920-ci ilin iyulunda hərəkata türk ordusunun adi çavuşu (xalq arasında o paşa adlandırılırdı) Camal bəy başçılıq etməyə başlamışdı. O, qısa müddətdə üsyançıların dağınıq dəstələrini birləşdirərək Astaranı və Şahağasını ələ keçirdi. Həmin qüvvələrin Lənkərana yaxınlaşdığını eşidən XI Qırmızı Ordu hissələri şəhəri tərk edərək Sara adasına çəkildilər. Lənkəranda sovet rejimi təhlükə altında qaldı. 1921-ci ilin yanvarında XI Qırmızı Ordu yeni qüvvələrin gətirilməsi hesabına üsyançıların

müqavimətini qıra bilmişdi. Camal bəy Şahağacı ilə Lənkəran yaxınlığındakı döyüşdə qətlə yetirildi. 1921-ci ilin yayında qəzanın Astara hissəsində üsyan yenidən başlayır. Xəzər dənizi hərbi qüvvələrinin köməyi ilə oktyabrın 5-də bu üsyan da yatırılır.

Kürdüstanda, Cavanşir qəzasında, Qutqaşendə (indiki Qəbələdə) Kürdəmir və Göyçayda, Xaçmazda, Naxçıvanın Ordubad və Şərur qəzalarında və digər yerlərdə də sovet rejiminə qarşı kütləvi çıxışlar olmuşdu. General Q.Səlimovun başçılığı ilə Naxçıvanda, Qaradonluda sovet rejimi əleyhinə geniş təbliğat başlamışdı. Azərbaycanın Araz boyu sərhəd rayonlarında (Cəbrayıl, Cavad qəzalarında, Muğanda) sovet hakimiyyətinə qarşı çoxlu dəstələr fəaliyyətə başlanmışdı. Onlar yerli orqanlara silahlı basqınlar təşkil edir, mal-qaranı və taxılı İrana keçirirdilər.

XI Qırmızı Ordu komandanlığının Cənubi Qafqaz Respublikasında vəziyyətə dair məlumatlarından birində (1921-ci il 25 mart) də etiraf olunurdu ki, kommunistlərin uğursuz təcrübələri, batalyon komandirlərinin kobud səhvləri və digər əyintilər bütün Azərbaycanı bürüyən üsyanlara səbəb olmuşdu.

Ümumən, 1923-cü ilə kimi Azərbaycanda sovet rejiminə qarşı 60-dan çox silahlı çıxış olmuşdu. Məhz buna görə də Rusiya hökuməti müqavimət hərəkatını boğmaq üçün 1920-ci ilin noyabrında Azərbaycana əlavə 7 diviziya göndərmişdi.

Şəhərlərdə, ilk növbədə Bakıda da rejimdən narazılıqlar özünü göstərmişdi. Bakının ayrı-ayrı müəssisələrində qısa müddətli olsa da, etiraz tətilləri baş vermişdi. Qadağan olunmuş siyasi partiyalar arasında da canlanma başlanmışdı. Cizli fəaliyyətə keçmiş «İttihad»" partiyası "Vətən, ya ölüm!" qrupu yaratmışdı. «İttihad"«çılar sovet hakimiyyətini devirmək üçün üsyan planı hazırlamışdılar. Lakin tezliklə partiyanın sədri Qarabəy Qarabəyov başda olmaqla 155 nəfər üzvü xüsusi şöbə tərəfindən həbs

olunmuşdu. «İslam”« partiyası «Milləti İslam”« adı altında fəaliyyətini gücləndirmişdi. Partiya nəzdində əsas şüarları «Din üçün ölümə hazır ol!”«, «Ya ölüm, ya Vətən!»” olan intiqamçı qruplar yaradılmışdı. 1921-ci ilin iyununda partiyanın 230 nəfər fəal üzvü hökumət tərəfindən həbs olunmuşdu.

Milli müqavimət hərəkatının aparıcı qüvvəsi və ideoloji istiqamətvericisi olan «Müsavat»” partyiası da fəaliyyətini gücləndirmişdi. «İstiqlal»” qəzetini nəşr edərək yaymışdı.

Sovet rejiminə qarşı Azərbaycandakı üsyanları xarici dövlətlər də çox maraqla izləyirdilər. 1921-ci il oktyabrın 7-də ingilis «Maiten”« qəzeti həmin üsyanlar barədə məlumatlar dərc etmişdi. Ğsyanların məğlubolma səbəbləri: birinci, üsyanlar qeyri-mütəşəkkil idi. Onlar arasında həm təşkilati cəhətdən, həm də əməli cəhətdən əlaqə yox idi. Onlar müxtəlif vaxtlarda və plansız keçirilmişdi. Gəncə üsyançıları Qarabağ və Tiflisə kömək üçün nümayəndələr göndərsələr də, onlardan yardım ala bilməmişdilər. İkinci, üsyanlara vahid rəhbərlik yox idi. Hər bir üsyanın rəhbərliklərinin daxilində fikir ayrılıqları mövcud idi. Üçüncü, kütlələrin tərəddüd edənləri, hələ məqam gözləyənləri və bitərəfləri üsyanlardan kənarda qalmışdılar. Dördüncü, üsyanların baş verdiyi bölgələrdə yaşayan qeyri millətlər, xüsusən ermənilər və ruslar açıqcasına əks tərəfə kömək etmişdilər. Gəncə və Qarabağ üsyanlarının yatırılmasında riyakar ermənilərin böyük rolu olmuşdu. Beşinci, üsyançılar hərbi cəhətdən, xüsusən silahlanma cəhətdən düşmənə nisbətən çox zəif idilər. Bütün üsyanlarda əməliyyatların taleyini ağır artelleriya həll etmişdi. Altıncı, beynəlxalq şərait də üsyanların yatırılmasında az rol oynamamışdı. Üsyançılar heç bir xarici yardım almadan yerli bolşevik rejimi ilə yanaşı, Rusiya silahlı birləşmələrinə qarşı vuruşmalı olmuşdu.

Bütün bunlara baxmayaraq üsyanların Azərbaycan xalqının istiqlal və azadlıq mübarizəsi tarixində çox mühüm yeri vardır. Onlar tariximizə Azərbaycan xalqında istiqlal ideyalarının hələ sönmədiyini, onun azadlıq uğrunda ölümə getmək əzmində olduğunu nümayiş etdirən hadisələr kimi daxil olmuşdular. Bu üsyanlar və müqavimət hərəkatı xalqımızın istiqlal arzusu ilə yaşayan sonrakı nəsilləri üçün örnək rolunu oynamışdı.

## § 2. Azərbaycanda sovet milli siyasəti DQMV-nın təşkili

***Formal müstəqilliyin* ləğv *olunması***

Sovet Azərbaycanının elan olünmüş müstəqilliyi də elə ilk aylardan etibarən əlindən alınmağa başlandı.

Azərbaycanın formal müstəqilliyyinin ləğv olunmasında ilk addımlardan biri «RSFSR ilə Azərbaycan SSR arasında hərbi-iqtisadi ittifaq haqqında»" 1920-ci il sentyabrın 30-da bağlanmış müqavilə oldu. Bundan başqa, həmin günlərdə iqtisadi-siyasi birlik haqqında, poçt və teleqraf, maliyyə məsələləri, xarici ticarət, ərzaq siyasəti barədə bir sira sazişlər imzalandı. İmzalanan bu müqavilə və sazişlər Azərbaycanın formal müstəqilliyinin ləğv olunmasına doğru aparırdı. Rusiya həmin razılaşmalarla addımba-addım Azərbaycanı özünə tabe edirdi. Elə, o zaman yerli bolşeviklərdən bir qrupu bu sənədləri Azərbaycanın müstəqilliyinin itirilməsi, onun Rusiyanın əyalətlərindən birinə cevrilməsi kimi qiymətləndirmişdilər. Sonrakı tarixi proseslər bu fikrin doğruluğunu təsdiq etdi.

Azərbaycanın müstəqilliyiyinin itirilməsi yolunda atılan addımlardan biri də xaricdəki Azərbaycan nümayəndəliklərinin ləğv edilməsi oldu. Aprel işğalınadək Azərbaycanın 20-yə qədər ölkə ilə diplomatik əlaqələri, o cümlədən Gürcüstan, Ermənistan, İran, Türkiyə, Ükrayna ilə səfirlik və konsulluq

əlaqələri var idi. Lakin müxtəlif çətinliklərin (maliyyə, kadr və s.) olması bəhansilə tezliklə onlar ləğv olundular. 1922-ci ilin iyununda Cənubi Qafqaz respublikalarının xarici siyasətini birləşdirmək barədə qərar qəbul edildi. Xarici siyasətə rəhbərlik İttifaq Şurasına tapşırıldı. Bununla da, respublikaların Xalq Xarici İşlər Komissarlıqları ləğv edildi. Onların bütün səlahiyyətləri RSFSR-ə verildi.

Rusiya Azərbaycan SSR-in yaradılmasını Yaxın və Orta Şərq reqionlarındakı ictimai-siyasi duruma təsir etmək üçün mühüm amil kimi qiymətləndirirdi. Məhz ona qörə də 1920-ci il sentyabrın 1-7-də Bakıda Şərq xalqlarının birinci qurultayı çağrıldı. Qurultayda 37 milləti təmsil edən nümayəndələr iştirak etmişdi. Kommunistlər qurultaydan «dünya inqilabi”«nin qələbəsi naminə proletar inqilabi ilə milli azadlıq hərəkatının birləşdirmək niyyətini güdürdülər. Lakin onların niyyəti baş tutmadı. Bu, əslində bolşeviklərin Şərqin zəhmətkeş xalqlarının şüuruna süni olaraq bolşevizim ideyalarını yeritmək, İslamın yaşıl bayrağını kommunistlərin qırmızı bayrağı ilə əvəz etmək cəhdlərindən başqa bir şey deyildi.

Bolşevik Rusiyası sovet ideyalarını gerçəkləşdirmək yolu ilə Cənubi Qafqaz bölgəsini də yenidən özünə birləşdirmək niyyətini addımba-addım həyata keçirirdi. Əvvəllər Rusiya onlarla münasibətləri iki tərəfli müqavilələr bağlamaq yolu ilə müttəfiklik prinsipləri əsasında qurmağa üstünlük verirdi. Lakin sonradan onların iqtisadi və siyasi cəhətdən birləşdirilməsi yolu ilə Sovet Rusiyası tərkibinə qatılması ideyası həyata keçirilməyə başladı. Burada, Cənubi Qafqaz məkanında milli barışıq yaratmaq, respublikalar arasında ənənəvi iqtisadi və mədəni əlaqələri bərpa etmək və inkişaf etdirmək və s. amillər əsas götürülürdü.

Burada kommunizm amili, vahid kommunist partiyası amili müstəsna rol oynamışdı. Cənubi Qafqaz respublikalarının birləşdirilməsi prosesi ilk növbədə təsərrüfat həyatından

başladı. 1921-ci ilin mayında Azərbaycan SSR-in Moskvadakı nümayəndəliyi üç Cənubi Qafqaz respublikalarının birləşmə-sinin zəruriliyi məsələsini irəli sürdü. 1921-ci il aprelin 9-da V.İ.Lenin Cənubi Qafqaz üçün vilayət təsərrüfat orqanının yaradılmasını tələb etdi. Aprelin 11-də isə Qafqaz respublikalarının vahid təsərrüfat mərkəzində birləşməsi barədə məsələ qaldırıldı. Buna da, tarixi sənədlərdə tez-tez müstəmləkəçi adlandırılan S.Orconikidzenin başçılıq etdiyi diyar partiya komitəsi rəhbərlik etməli idi. Bu göstərişlərə əsasən 1921-ci ilin aprelində üç respublika xarici ticarət idarə orqanlarının birləşdirilməsi haqqında saziş imzalandı. 1921-ci il mayın 2-də Cənubi Qafqaz respublikaları arasında kömrük əngəllərinin ləğv olunması barədə qərar qəbul olundu. İyunda Azərbaycan Xalq Komissarlar Soveti qonşu respublikalarla gömrüyün ləğv olunması haqqında fərman verdi. Cənubi Qafqaz respublikalarının 1921-ci il avqustun 7-də açılan ölkə iqtisadi müşavirəsi maliyyə siyasətini birləşdirməyi və bütün respublikalar üçün vahid pulun yaradılmasını vacib saydı (vahid pul 1923-ci il yanvarın 10-da dövriyyəyə verildi). Respublikaların təsərrüfat komissarlıqlarının fəaliyyətini tənzim etmək məqsədi ilə mərkəzi orqan-İqtisadi Büro yaradıldı.

1921-ci ilin sentyabrında Sovet Rusiyasının təklifi ilə Azərbaycan, Gürcüstan və Ermənistanın Qarsda Türkiyə ilə ayrı-ayrılıqda deyil, vahid nümayəndəlik halında müqavilə imzalamaları da onların birləşmək niyyətlərindən xəbər verirdi. Bu addım, həm də Azərbaycanı Türkiyədən ayırmaq məqsədini də güdürdü.

Cənubi Qafqaz respublikalarında bu proseslər partiya və sovet işçiləri tərəfindən birmənalı qiymətləndirilmirdi, Xüsusən, Gürcüstanda və Azərbaycanda bir sıra partiya və sovet nümayəndələri respublikaların iqtisadi birləşməsində tələsikliyə yol verməməyi təklif edirdilər.

Cənubi Qafqaz respublikalarının təsərrüfat səylərinin ilkin birləşdirilməsi həyata keçirildikdən sonra onların tamamilə birləşdirilməsində yeni mərhələ başlandı. Dövlət-siyasi birləşmə bayrağı altında respublikaların müstəqilliyini məhdudlaşdırmaq üçün real zəmin hazırlandı. 1921-ci il noyabrın 3-də RK(b)P MK Qafqaz bürosu, noyabrın 29-da isə RK(b)P MK-nın siyasi bürosu Zaqafqaziya Federasiyasının yaradılması barədə qərarlar qəbul etdilər. Gürcüstanda Mdivani, Azərbaycanda R.Axundov və M.D.Hüseynov Zaqafqaziya Federasiyasının yaradılmasını vaxtı çatmamış bir tədbir hesab edirdilər. Nəriman Nərimanov da onun yaradılmasında tələsiklikliyə yol verildiyini bildirirdi. Federasiya ideyasını həyata keçirmək kompaniyası zamanı yerlərdə də, onun Azərbaycanın maraqlarına zidd, zərərli olması barədə fikirlər söylənilirdi.

Bunlara baxmayaraq, 1922-ci il martın 12-də Azərbaycan, Gürcüstan və Ermənistan Mərkəzi İcraiyyə Komitələriinin səlahiyyətli nümayəndələri Mərkəzin səyi ilə müqaviləni təsdiq etdi. Beləliklə, Zaqafqaziya Sovet Respublikalarının Federativ İttifaqı (ZSRFİ) yaradıldı. Sonradan o, vahid federativ respublikaya ZSFSR-ə çevrildi.

Cənub Qafqaz Respublikasının 1922-ci il dekabrın 10-da toplanmış birinci Sovetlər qurultayında Ali orqan Zaqafqaziya Mərkəzi İcrayə Komitəsi seçildi. Bununla da Azərbaycan SSR formal müstəqillikdən məhrum edildi.

Zaqafqaziya Federasiyasının yaradılması ən çox Azərbaycanın zərərinə idi. Çünki, bununla Azərbaycanın bütün yeraltı və yerüstü sərvətləri, xüsusən nefti digər respublikaların ixtiyarına verilirdi. ZSFSR-in fəaliyyəti dövründə Gürcüstan və Ermənistanın təsərrüftının bərpası və sürətlə inkişafı Azərbaycanın iqtisadi potensialı hesabına qazanılmışdı.

ZSFSR-in yaradılması respulikaların hüquqlarını məhdudlaşdırır, Kommunist Partiyasının tək hakimiyyətliyini qorumağa və möhkəmləndirməyə kömək edirdi.

Bundan sonra bolşeviklər kommunizm ideyaları zəminində Rusiya imperiyasını bərpa etməyə - Mərkəzləşmiş İttifaq dövləti yaratmaq niyyətini həyata keçirməyə başladılar. Bu yolda ilk addım 1922-ci il fevralın 22-də Sovet respublikalarının RSFSR ilə bağladıqları saziş oldu. Bu sazişə görə bütün respublikalar, o cümlədən Azərbaycan beynəlxalq münasibətlərdə öz mənafeyini təmsil və müdafiə etməyi RSFSR-ə tapşırırdılar.

Nəhayət, 1922-ci il dekabrın 30-da birinci Sovetlər qurultayı SSRİ-nin yaradılmasına nail oldu. O, zaman SSRİ-nin tərkibində 4 respublika –RSFSR, Ukrayna,Belorusiya və ZSFSR daxil idi. ZSFSR tərkibində olan Azərbaycan da SSRİ-yə qatılmışdı.

Qurultayda SSRİ-nin ali orqanı Mərkəzi İcraiyyə Komitəsi seçildi. Onun sədrlərindən biri də N.Nərimanov oldu.

1924-cü ilin yanvarında SSRİ-nin ilk Konstitusiyası qəbul edildi. Konstitusiyada SSRİ-də yaşayan bütün xalqların formal olsa da, hüquqi bərabərliyi təsbit edildi və onların «ittifaqda» könüllü" birləşdikləri qeyd olundu.

Beləliklə, öz müqəddaratını təyin etmək kommunist şüarı altında təşkil olunmuş Sovet respublikaları səlahiyyətlərini «könüllü"« olaraq Ümumittifaq Sovet orqanlarına tapşırdılar. Bununla da müttəfiq respublikaların milli müstəqilliyinə son qoyuldu və onlar yeni formalaşan sosialist unitar dövlətin əyalətlərinə çevrildilər.

SSRİ öz siyasi əhəmiyyətinə və sosial-iqtisadi qüdrətinə görə tarixdə böyük rol oynamışdır. O, tarixin müəyyən dövründə super-dövlətlərdən biri olmuş, dünyanın inkişafına güclü təsir göstərmişdir. Lakin sosializm ideyalarının aşınması, milli münasibətlər sahəsində yol verilən

səhv və nöqsanlar, imperiya meyllərinin güclənməsi 70 ildən sonra SSRİ-nin iflasına gətirib çıxarmışdı.

**Azərbaycanın ərazi bütövlüyünə qəsd**

Ermənistan Aprel çevrilişindən sonra da Azərbaycana qarşı ərazi iddialarından əl çəkmirdi. O, hələ Xalq Cümhuriyyəti vaxtında «mübahisəli"« ərazilər kimi qələmə verilən Naxçıvan, Zəngəzur, Qarabağ və Şərur-Dərələyəz kimi əzəli Azərbaycan torpaqlarını ələ keçirmək niyyətində idi. Ermənistan Zəngəzurda işğalçı qoşunlarını saxlayırdı. Sovet Rusiyası da bu məsələlərdə ikibaşlı siyasət yürüdürdü. O, bu ərazilərin gah mübahisəli olmaması, gah Ermənistana verilməsi barədə mülahizələr irəli sürürdü. Məsələn, Mərkəzdən səlahiyyətli hüquqları olan S.Orconokidze Çiçerinə göndərdiyi təkliflərdən birində Qarabağın və Zəngəzurun təcili və şərtsiz Azərbaycana birləşdirilməsini, 1920-ci il 14 iyul tarixli teleqramında isə Zəngəzuru mübahisəli ərazi elan etmək şərtilə digər bölgələri Ermənistana verilməsini təklif etmişdi. O, hətta bildirmşdi ki, «müəyyən siyasi şəraitdə Ermənistan bizə lazım ola bilər"«.

Bundan istifadə edən ermənilər 1920-ci ilin yayında Zəngibasara və Şərurə hücüm edərək dinc əhalini qırmışdılar. Onlar Zəngəzurda 48 kənd, Vedibasarda 118 kənd, Dərələyəzdə 74, Şərur və Şahtaxtı rayonlarında 76 kəndi yandırmış, minlərlə adamı məhv etmiş və əsir götürmüşdülər. Həmin ərazidə yaşayan Azərbaycanlılardan 70 mini İrana, 400 mini isə Naxçıvana pənah gətirmişdi.

1920-ci ilin yayında erməni hərbi hissələri Zəngəzuru dağıdıb Naxçıvana hücum etdilər. Buna cavab olaraq Veysəl bəyin başçılığı ilə türk qoşun hissələri əhalinin tələbi ilə,

Naxçıvanı müdafiə etmək üçün köməyə gəldilər. Onlar bütün Naxçıvanı nəzarət altına aldılar. XI Qırmızı Ordu hissələri 1920-ci ilin iyulunda Naxçıvana girdi. 1920-ci il oktyabrın əvvəllərində təcili olaraq Naxçıvanda fəvqəladə komissarlığın yaradılması və Rusiyada təhsil alan, XI Qırmızı Ordu komandanlığının etibarlı adamlarından sayılan V.Vəlibəyovun isə ona başçı təyin edilməsi bölgədə siyasi vəziyyəti xeyli kəskinləşdirdi. Əslində bu, bölgəni Ermənistana vermək yolunda atılan məkrli addımlardan idi. Sonralar, V.Vəlibəyovun ermənilərə xidmət etmək əməlləri də bunu təsdiq etdi. Naxçıvanın Ermənistanın ayrılmaz tərkib hissəsi olması barədə Azərbaycan SSR hökumətinin 1920-ci il 1 dekabr bəyanatı bölgə əhalisi arasında çox ciddi narazılıqla qarşılandı. Yerlərdə kəskin çıxışlara səbəb oldu. Əhali Haxçıvanın Azərbaycanın tərkibində saxlanılmasını tələb edirdi. Bölgənin azərbaycanlı əhalisinin qətiyyətli mövqeyi ermənilərin Haxçıvanı Ermənistana birləşdirmək planlarını alt-üst etdi. Bölgədə qapalı keçirilən rəy sorğusunda əhalinin 90-faizi mahalın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Zəngəzurda isə erməni generalları Dro və Nijde daha ağır cinayətlər törədirdilər. Qırmızı Ordu hissələri Zəngəzurun sovetləşməsini sürətləndirmək üçün 1920-ci il avqustun 5-9 da hücuma keçərək Dro və Njdenin hərbi qüvvələrini Sisiandan, Qafan və Gorusdan qovub çıxardılar. Avqustun 10-da Sovet Rusiyası ilə Ermənistan arasında bağlanmış müvəqqəti sazişə görə Şərur-Dərələyəz qeyd-şərtsiz Ermənistana verildi, rus qoşunlarının zəbt etdiyi Dağlıq Qarabağ, Zəngəzur və Haxçıvan mübahisəli ərazilər elan olundu. Bu, o demək idi ki, Rusiya Azərbaycanın suveren hüquqlarını pozaraq, onun iştirakı olmadan ərazilərinin Ermənistana mənsub olduğunu həll edirdi. Bununla, Rusiya Azərbaycan torpağları hesabına Ermənistanı sovetləşdirmək siyasəti yürüdürdü.

Belə qeyri müəyyən siyasət Zəngəzurda vəziyyətin sabitləşməsinə mane olurdu. 1920-ci ilin axrına kimi o, qızğın döyüş meydanına çevrilmişdi. O, gah daşnaqların, gah da sovet qoşunlarının əlinə keçirdi. Naxçıvan bolgəsi tamamilə rus ordusu tərəfindən tutulduğu halda, Zəngəzurda vəziyyət mürəkkəb olaraq qalırdı.

Ermənistan sovetləşəndən (29 noyabr 1920-ci il) sonra onun Azərbaycanın əzəli Naxçıvan, Dağlıq Qarabağ və Zəngəzur ərazilərinə iddiaları daha da gücləndi. AK(b)P MK Siyasi və Təşkilat bürolarının 1920-ci il 30 noyabr tarixli qərarına müvafiq olaraq Nərimanovun imzası olan“… Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir… Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının bölünməz ərazisidir. Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddərətını təyin etmək hüququ verilir…”«. bəyanat ermənilərin Azərbaycandan yeni ərazilər qoparmaq iddialarını daha da artırdı. Qeyd edək ki, tarixi sənədlərdən məlum olur ki, Bakı Sovetinin dekabrın 1-də keçirilmiş iclasının nə qərarında, nə də N.Nərimanovun oradakı çıxışında, nə də onun imzası ilə verilən bəyanatda Naxçıvan məsələsi qoyulmamışdı. Sonrası günü qəzetlərdə elan olunmuş bəyanatda “Zəngəzurun və Haxçıvanın Ermənistanın ayrılmaz ərazisi olduğu” sözləri əlavə olunmuşdu.

Dekabr bəyanatı ilə Azərbaycanın kommunist rəhbərliyindən razılıq alan ermənilər var qüvvələri ilə Zəngəzurun Ermənistana birləşdirilməsini sürətləndirdilər. 1920-ci il dekabrın 25-də daşnaklar burada «Azad Sünik» hökuməti” adlandırılan oyuncaq qurum yaratdılar.

Azərbaycan rəhbərliyinin bu güzəştləri RSFSR və Sovet Ermənistanı arasındakı 1920-cı il dekabrın 2-də imzalanan hərbi-siyasi saziş ilə daha da möhkəmləndirildi. Sovetləşmə Ermənistanı bir müstəqil dövlət kimi yox

olmaqdan xilas etdi. Daşnak partiyasının lideri O.Kazarnuni üz xatirələrində yazır: «Müvcud siyasi şəraitdə bolşeviklər Ermənistana lazımdırlar. Onları əvəz edən başqa qğvvə yoxdur.

...Əgər o vaxt bolşeviklər Ermənistanı işğal etməsə idilər, ülkəni bizim hakimiyyətimiz altında üz şəxsi taleyimizin ühdəsinə buraxsa idilər, yaxşı olmazdı, pis olardı.

...Qızıl Ordunun Zaqafqaziyadan uzaqlaşdığı gğn Ermənistanın müvcudluğu sual işarəsi altında qalacaq...»

Türkiyə ilə Ermənistan arasında 1920-ci il dekabrın 2-də imzalanmış Ğümri (Aleksandropol) sülh müqaviləsinə görə, İrəvan bölgəsi və Göyçə gölü istisna olmaqla bütün Ermənistan ərazisi Türkiyənin himayəsinə keçmişdi. Onun ərazisi təxminən 10 min $km^2$ hüdudlarında müəyyənləşdirilmişdi. Lakin bolşevik Rusiyası Ermənistan sovetləşdikdən sonra Gümrü sülh müqaviləsini tanımaqdan imtina etdi.

Sovetləşmə şəraitində Ermənistan Zəngəzuru özünə birləşdirmək imkanları qazandı. O zaman Azərbaycanın tərkibində olan Zəngəzuru bütövlükdə işğal etməyin mümkün olmadığını görən ermənilər onu parçalamaq yolu ilə zəbt etmək taktikasını seçdilər. Onların ideyası ilə Zəngəzuru iki yerə: Qərb və Şərq hissələrə bölmək təklifi irəli sürüldü. Qərb hissə Zəngəzur qəzası, Şərq hissə isə əhalisinin çox cüzi hissəsi kürdlər olan Kürdüstan qəzası adlandırmaq təklif olundu. Rəsmi İrəvan və XI Qırmızı Ordunun komandanlığı Yuxarı Zəngəzurun Ermənistana birləşdirilməsini başa çatdırmaq üçün birgə tədbirlər gördülər. Qafqaz Ordusunun 1921-ci ilin iyununda hücuma keçən əlahiddə hissələri iyulun ortalarında Zəngəzurdakı daşnaq dəstələrini darmadağın edərək bölgəni ələ keçirdilər. Bununla da, Zəngəzurun yuxarı hissəsinin Ermənistana birləşdirilməsi başa çatdırıldı.

1923-cü ilin iyulunda Azərbaycan SSR tərkibində Kürdüstan qəzası təşkil olundu. Ermənistan hökuməti xaricdən

- İrandan, Misirdən, Türkiyədən, Rusiyadan erməniləri köçürərək Zəngəzurda yerləşdirməyə başladı. Müxtəlif bəhanələrlə Zəngəzurda qalmış azərbaycanlılar sıxışdırılırdı. 1929-cu ildə Zəngilan rayonun üç kəndi Ermənistana verildi. Kəndlərin Ermənistana verilməsi barədə qərar Azərbaycan SSR Ali Soveti tərəfindən 1969-cu il mayın 7-də təsdiq edilmişdir.

Beləliklə, Zəngəzurun cənub-qərbində torpaqların ermənilərə «bağışlanılması»" əsasında Mehri rayonunun təşkili ilə Azərbaycanın əsas hissəsi öz tərkib hissəsi olan Naxçıvandan ayrı salındı, onunla quru sərhəddi aradan qaldırıldı. Bununla, Türkiyə ilə də quru əlaqəsi pozuldu.

Bu dövrdə Azərbaycan-Ermənistan münasibətlərində kəskinliyi ilə duran məsələlərdən biri də Qarabağ məsələsi idi. Ermənistan yenə də Dağlıq Qarabağ iddialarından əl çəkmirdi. O, hansı yolla olursa olsun Qarabağın dağlıq hissəsini özünə birləşdirmək niyyətində idi. Erməni daşnaq hökuməti, yuxarı Zəngəzurda fəaliyyət göstərən «Azad" sünik hökuməti» (sonradan Dağlıq Ermənistan hökuməti adlandırılırdı) öz məqsədlərinə çatmaq üçün əvvəlcə Sultan və Xosrov Sultanovlardan istifadə etmək cəhdini göstərdilər. Onlar daşnaq qüvvələrini Dağlıq Qarabağa buraxmayan Sultanovlara Sovet rejiminə qarşı birgə mübarizə etməyi təklif etdilər. Lakin rədd cavabını aldıqdan sonra onlara qarşı fitnəkarlığa başladılar.

1921-ci il iyunun 19-da Ermənistan SSR XKS sədri A.Myasnikovun bəyanatı ilə «Dağlıq Qarabağ»" Ermənistanın ayrılmaz tərkib hissəsi elan olundu. Hətta, Ermənistan SSR hökuməti A.Mravyanı Dağlıq Qarabağda özünün fəvqəladə nümayəndəsi təyin etdi. Lakin N.Nərimanovun qətiyyətli etirazları sayəsində iyunun 27-də o, geri çağırıldı.

AK(b)P MK-nın "siyasi və təşkilat büroları" 1921-ci il iyunun 27-dəki birgə iclasında "Qarabağ məsələsi"ni müzakirə etdi. İclasda N.Nərimanov başda olmaqla milliyyətcə

azərbaycanlı olan büro üzvləri birləşərək yekdilliklə obyektiv qərar –Ermənistanın Qarabağın yuxarı hissəsinə iddialarını rədd etmək qərarını çıxardılar.

Bu qərarla kifayətlənməyən RK(b)P-nın Qafqaz bürosu 1921-ci il iyulun 4-də toplanmış plenumunda Qarabağ məsələsini müzakirə etdi. Plenumda Orconikidze, Maxaradze, N.Nərimanov, Myasnikov, Kirov, Nazaretyan, Orxelaşvili, Fiqatner, RK(b)P MK üzvü Stalin, Azərbaycan SSR xarici işlər komissarı M.D.Hüseynov, qafqaz KBİ-nin katibi Breytman, Gürcüstan KP MK üzvləri Mdivani və Sinaidze iştirak edirdilər. Müzakirələrdə iki təklif irəli sürülmüşdü: birinci, Qarabağın Azərbaycanın tərkibində saxlanması və bütün əhalisi arasında rəy sorğusu keçirilməsi: ikinci, Qarabağın dağlıq hissəsinin Ermənistanın tərkibinə qatılması və rəy sorğusunun ancaq ermənilər arasında keçirilməsi. İclasda əksəriyyət (Orconikidze, Myasnikov, Kirov və Fiqatner) Dağlıq Qarabağın Ermənistanın tərkibinə qatılması və ancaq ermənilər arasında rəy sorğusu keçirilməsi təklifinə səs verdilər. Bununla da, Dağlıq Qarabağın Ermənistan SSR-nin tərkibinə qatılması və rəy sorğusunun yalnız Ermənilər arasında keçirilməsi barədə qərar çıxarıldı. Lakin N.Nərimanovun bu ədalətsiz qərara qəti etiraz etdiyini, onun əsassız olduğunu və kəskin narazılıq yaratdığını nəzərə alaraq Qafqaz bürosu məsələni RK(b)P MK-nın müzakirəsinə verməyi tövsiyə etdi. Məsələ ertəsi günü-iyulun 5-də Qafqaz bürosunun plenumunda yenidən müzakirə olundu. Qafqaz bürosunun plenumu RK(b)P MK-nın rəyini nəzərə alaraq Dağlıq Qarabağın Azərbaycan SSR-nin tərkibində saxlanılması qərarını qəbul etdi. Qərarda deyilirdi: “müsəlmanlar və ermənilər arasında milli sülhə, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqəsinin zəruriliyinə, onun Azərbaycanla daimi əlaqəsinə əsaslanaraq Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Mərkəzi Şuşa şəhəri olmaqla ona geniş vilayət muxtariyyəti statusu verilsin”«. Lakin bu qərar Azərbaycan

rəhbərliyini, xüsusən N.Nərimanovu qane etmirdi. Onlar Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsinin qəti əleyhinə idilər. Hətta AK(b)P MK-nın Siyasi və Təşkilat büroları 1921-ci il sentyabrın 26-da Qafqaz bürosundan Dağlıq Qarabağa Müxtariyyat verilməsi barədə qərarına yenidən baxılması xahişi barədə qərar qəbul etmişdi. 1923-cü ilin iyununda isə AK(b)P MK Rəyasət Heyəti "dağlıq və düzən Qarabağın vahid inzibatı hüquqlarla birləşməsi haqqında" qərar qəbul etmişdi.

Rusiya, Türkiyə və Cənubi Qafqaz Ruspublikalarının münasibətlərində Moskva və Qars müqavilələrinin müstəsna əhəmiyyəti olmuşdu.

Moskva müqaviləsinin imzalanması üçün danışıqlar hələ 1921-ci il fevral-mart aylarında keçirilmişdi. Bu danışıqların əsas obyektlərindən biri Atatürkün «Türk qapısı"« adlandırdığı Naxçıvanın statusu məsələsi idi. Türkiyə tərəfi istər danışıqlar ərəfəsində və istərsə də onun qedişində Naxçıvan məsələsinə böyük əhəmiyyət verirdi. Bu çox önəmli strateji və coğrafi amillərlə yanaşı, həm də Naxçıvanın Türkiyə-Azərbaycan əlaqələrində ən yaxın məsafə olması ilə də əlaqədar idi. Danışıqlar zamanı Türkiyə nümayəndəsi bildirdi ki, Azərbaycanın Naxçıvan üzərində himayəsi o zaman təmin olunar ki, o, bu himayəsini üçüncü bir dövlətə güzəştə getməyəcəyinə dair öhdəlik götürsün. Rusiya isə bu vacib məsələdən yan keçərək sadəcə Azərbaycanın himayəsi altında Naxçıvana muxtariyyət verilməsini və onun sərhədlərini müəyyənləşdirilməsini ön plana çəkirdi.

Nəhayət, çox gərgin müzakirələrdən sonra 1921-ci il martın 16-da RSFSR ilə Türkiyə arasında müqavilə imzalandı. Onun 3-cü maddəsinə əsasən qarşılıqlı qərara gəlindi ki, tərəflər müqaviləyə əlavədə nəzərdə tutulan sərhədləri ilə Azərbaycanın himayəciliyi altında Naxçıvanın muxtar ərazi olmasıına razılıq verirlər və Azərbaycan onu üçüncü dövlətə güzəştə getməməlidir. Həmin müqaviləyə əsasən, 1921-ci ilin

aprelində Türkiyənin məhdud qoşun hissəsi Naxçıvan mahalını tərk etdi.

Beləliklə, Türkiyə nümayəlәndiyinin ciddi səyləri sayəsində Naxçıvan məsələsi özünün ədalətli həllini tapdı, Azərbaycanın ərazi bütövlüyü qismən qorunmuş oldu.

Moskva müqaviləsinin şərtlərini daha da konkretləşdirmək və tamamlamaq məqsədilə 1921-ci il sentyabr-oktyabr aylarında Türkiyyənin Qars şəhərində konfrans çağırıldı . Qars müqaviləsinin 5-ci maddəsi və 3-cü əlavəsi Naxçıvan məsələsinə həsr olunmuşdu. Burada Naxçıvanın Azərbaycan hüdudlarında ərazi mənsubiyyətinin məsələsi bir daha təsdiqləndi, onun sərhədləri və gələcək statusu qəti olaraq müəyyənləşdirildi.

Müqavilənin ən əhəmiyyətli cəhətlərindən biri də onun müddətsiz imzalanması idi.

Beləliklə, Naxçıvan mahalı əhalisinin qətiyyətli mövqeyi və Türkiyə Milli hökumətinin ardıcıl diplomatik fəaliyyəti nəticəsində Moskva və Qars müqavilələrilə bölqənin ərazi mənsubiyyəti məsələsi ədalətli həll olundu.

**DQMV-nin təşkili və Naxçıvan MSSR-in yaradılması**

Azərbaycanda sovet milli siyasətinin ən mühüm tərkib hissələrindən biri də Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsi məsələsi təşkil edirdi.

Qarabağın Dağlıq hissəsinin Ermənistana birləşdirilməsi niyyətinin baş tutmamasını görən daşnaq qəlbli erməni bolşevikləri ona, heç olmasa Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsi planını gerçəkləşdirməyə başladılar. Bu məsələdə də sovet mərkəzinin, Stalinin, Çiçerinin, Qafqazdakı bolşevik emissarlarının-Orconikidzenin, Kirovun yaxından köməklikləri olmuşdu. Məhz onların ikibaşlı

siyasəti nəticəsində hələ, 1921-ci il iyulun 5-də RK(b)P-nin Qafqaz bürosu tərəfindən Azərbaycanın tərkibində inzibatı mərkəzi Şuşa şəhəri olmaqla Dağlıq Qarabağa geniş vilayət muxtariyyəti verilməsi qərarı çıxarılmışdı.

Bu qərar 1923-cü il iyunun 27-də RK(b)P Zaqafqaziya Ölkə Komitəsinin plenumunda təsdiq olunmuşdu. Nəhayət, Azərbaycan MİK-i 1923-cü il 7 iyul tarixi qərarı ilə Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradıldığını elan etmişdi.

Bununla da, o zaman çox mübahisələr və gərginliklər doğuran Dağlıq Qarabağ problemi əsasən, «həll edilmiş oldu»". Bu isə gələcəkdə Ermənistanın və onu himayə edənlərin Qarabağ kartından öz məqsədləri üçün istifadə etməsinə zəmin yaratdı. XX əsrin sonlarında baş verən hadisələr Azərbaycanın əzəli torpağı olan – Dağlıq Qarabağı Ermənistana birləşdirmək cəhdləri bunu tamamilə təsdiq etdi. Bəzi iri dövlətlərin köməyindən istifadə edən Ermənistan elan olunmamış müharibə nəticəsində nəinki Qarabağın dağlıq hissəsini hətta onun ətrafında olan 7 rayonu (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) işğal altında saxlamaqdadır.

20-ci illərdə gündəlikdə duran çox vacib məsələlərdən biri də Naxçıvanın statusu məsələsi idi. Naxçıvanın mühüm strateji coğrafi mövqeyi (şimaldan və şərqdən Ermənistanla, cənubdan və cənub-qərbdən İran və Türkiyə ilə sərhəddə yerləşməsi) və ermənilərin ona əsassız iddiaları bu məsələnin həllini çox aktuallaşdırırdı. Bu məsələnin Azərbaycanın xeyrinə həll edilməsində Türkiyənin böyük rolu olmuşdu. Türkiyə ilə Rusiya və Cənubi Qafqaz respublikaları arasında imzalanmış Moskva və Qars müqavilələrində Naxçıvanın Azərbaycanın əzəli ərazisi olduğu və onun tərkibində saxlanılması bir daha təsdiqlənmişdi. Naxçıvan barədə 1922-ci ilin yazında təqdim olunmuş əsasnamədə Naxçıvan Sovet Sosialist Respublikası (NSSR) adı ilə Azərbaycan SSR-nin

himayəsində muxtar respublika elan olunmuşdu. 1923-cü ilin fevralından-dekabrına kimi o, Azərbaycan SSR tərkibinə muxtar ölkə kimi daxil olmuşdu. 1923-cü il dekabrın 31-də Azərbaycan SSR MİK Naxçıvan ölkəsinin yenidən təşkili barədə qərar qəbul etdi. Həmin qərar əsasında Naxçıvan ölkəsi Azərbaycanın tərkibində Naxçıvan SSR-ə çevrildi. Nəhayət, 1924-cü il fevralın 9-da Naxçıvan MSSR yaradıldı.

Beləliklə, Ermənistanın iddialarına və ona havadarlıq edən sovet Russiyanın himayəsinə baxmayaraq əzəli və əbədi türk (Azərbaycan) torpağı olan qədim Naxçıvanın Muxtar Respublika kimi Azərbaycanın tərkibində qalması təmin olundu.

**Mərkəzə itaətkar rəhbərlik yaratmaq xətti. Ruslaşdırma siyasəti. Milli –azadlıq hərəkatı.**

Milli istiqlalı əlindən alınmış xalqın əksəriyyətinin narazılığından qorxan bolşeviklər Azərbaycanda partiya diktaturası yaratdılar. Onlar rəsmi elan etidikləri "Proletariat diktaturası"nı partiya diktaturasına çevirdilər. Milli hökumətin yaradılıb elan olunmasına baxmayaraq Azərbaycanı Rusiya bolşevik partiyasının yerli orqanları, xüsusən respublikaya göndərilmiş Lenin emissarları Orconikidze, Kirov, Mikoyan, Sarkis, Mirzoyan kimi cəlladlar idarə edirdilər. N.Nərimanov başda olmaqla milli mənafeyi, milli adət-ənənələri qorumağa çalışanlara isə imkan verilmirdi. Onlara "millətçi" damğaları vurulurdu. Rusiyada olduğu kimi, burada da təkpartiyalılıq rejimi formalaşmışdı. Kütlələr arasında nüfuzu və böyük təsiri olmayan bolşevik diktaturası onları özünə tabe etmək məqsədilə inqilablar tarixində yoxlanılmış xof yaratmaqdan, terrordan, psixoloji vahimə törətməkdən geniş istifadə edirdi. Buna isə hələ aprel çevrilişinin ertəsi günü yaradılan fövqəladə komissiya başçılıq edirdi. İlk vaxtlar hələ formalaşmaqda olan bu cəza orqanının səlahiyyətlərini XI Qırmızı Ordunun xüsusi şöbələri həyata

keçirirdilər. Yerli adət-ənənələri bilməyən, onlara biganə olan xüsusi şöbə məmurları yerlərdə səlahiyyətlərini aşaraq həbslər keçirir, varlıları, keçmiş hökumətə xidmət etmiş adamları mühakiməsiz güllələyirdilər.

20-ci illərin əvvəllərində Azərbaycanda mövcud olan siyasi böhranın bir əlaməti də respublika rəhbərliyində qarşıdurmanın olması idi. O zamankı rəhbərlikdə Azərbaycanda milli siyasətin həyata keçirilməsinə, elan olunmuş müstəqilliyin həqiqiliyinə, Bakı ilə qəzalar arasında əlaqələrə, milli ziyalılara, xırda burjuaziyaya münasibət məsələləri üzrə fikir ayrılıqları mövcud idi.

N.Nərimanov başda olmaqla rəhbər kommunistlərdən «sağlar»" adlandırılan bir qrupu bolşevik ideyalarını Azərbaycana təlqin edərkən yerli şəraiti, milli adət-ənənələri, milli məişət xüsusiyyətlərini nəzərə almağı, sərt hərəkət etməməyi təklif edir, Rusiya təcrübəsinin kor-koranə Azərbaycana köçürülməsinin əleyhinə çıxırdılar. Onlar Azərbaycanın paytaxtı olan sənaye Bakısı ilə qəzalar arasında sıx əlaqələr yaratmağı, Azərbaycanın rəsmən elan olunmuş müstəqillik və suverenliyinə hörmət etməyi, Azərbaycan dilini dövlət dili kimi qəbul etməyi, milli ziyalılara, milli kadrlara hörmətlə yanaşmağı, onları irəli çəkməyi tələb edirdilər.

Sarkis, Lominadze, Yeqorov, Mikoyan, onlara qoşulan M.D.Hüseynov, R.Axundov və başqalarından ibarət «sollar»" adlandırılan digər qrup isə Moskva xəttini, Rusiya təcrübəsini Azərbaycanda kor-koranə, zorla həyata keçirməyi, milli adət-ənənələrə məhəl qoymamağı, milli burjuaziyaya, milli ziyalılara divan tutmağı, milli kadrlara inanmamağı, Bakını Azərbaycana qarşı qoymağı təklif edirdilər. Lominadze AK(b)P-nın II qurultayındakı (oktyabr 1920-ci il) çıxışında həyasızcasına bildirmişdi ki, "bizdə onlarla, bəlkə yüzlərlə yoldaşlar deyirlər ki, «müsəlmana etibar etmək olmaz, o ola bilsin ki, yaxşı kommunistdir, ancaq müsəlmandır, onun qəlbində müsavat ruhu vardır"«.

O zaman AzK(b)P-da, xüsusən Bakı təşkilatında azərbaycanlılar azlıq təşkil edirdilər. Onların üzvlərinin əksəriy-yətini qeyri-millətlər ruslar, ermənilər və b. təşkil edirdi. Moskva "parçala, hökm sür", "ayır, buyur" xəttini Azərbaycanda həyata keçirmək üçün Q.K.Orconikidze, S.M.Kirov, Q.N.Kaminski və b. göndərmişdi. 1934-cü ilin yanvarında M.C.Bağırov Azərbaycan K(b)P MK-nin birinci katibi seçilənə qədər Azərbaycanda partiya rəhbərliyi başqa millətlərin nümayndələrinin əlində olmuşdu. Azərbaycana partiya xətti ilə Kaminski, Kirov, Giqalo, Polonski, Ruben, Sərkis, Mirzoyan və b. başçılıq etmişdi.

Moskvanın Azərbaycan üzərində hökmranlığı bolşevik partiyasının yerli təşkilatı vasitəsilə həyata keçirilirdi. Bu siyasətin həyata keçirilməsində Q.K.Orconikidze xüsusilə fərqlənirdi. Məhz buna görə də N.Nərimanov onu müstəmləkəçi adlandırmışdı. O, hələ Aprel çevrilişindən sonra Azərbaycan Respublikasının RSFSR ilə birləşməsi məsələsini qaldırmışdı. MK-nin ruslardan, ermənilərdən olan üzvləri də onu müdafiə etmişdilər.

«Solların»", xüsusən Bakı partiya təşkilatında və Bakı Sovetində özlərinə isti yuva tapmış bolşevik-daşnak rəhbərliyinin ən zərərli antiazərbaycan təkliflərindən biri də, Bakını Azərbaycandan ayırmaq idi. Kirov, Mirzoyan, Serebrovski bildiridilər ki, Bakı türk şəhəri deyil, beynəlmiləl proletar şəhəridir, O, Rusiya ərazisinə qatılmalıdır.

N.Nərimanov və onun silahdaşlarının qətiyyətli səyləri nəticəsində sonralar (1921-ci il) bu məsələ qaydasına salınmışdı.

«Sollar»" adlanan qrupun bütün səyləri Azərbaycanın, heç olmasa, rəsmi müstəqilliyini qorumağa çalışan, onun simasızlaşdırılmasına imkan verməyən N.Nərimanov və onun tərəfdaşlarına qarşı çevrilmişdi. Mərkəzin, xüsusən Stalinin himayə etdiyi Q.K.Orconikidze, S.M.Kirov, L.Mirzoyan, M.D.Hüseynov, R.Axundov, Ə.H.Qarayev, H.Cəbiyev və b.

ibarət «gənclər»" adlandırdıqları qrupu N.Nərimanova qarşı qaldırmışdılır. Nəhayət, onlara öz məkrli müstəmləkə siyasətini həyata keçirməyə imkan verməyən, Lenin ideyasının əsiri olan N.Nərimanovun Azərbaycandan uzaqlaşdırılmasına nail olmuşdular və sonralar ona «nərimanovçülüq»" adı altında millətçi «damğa"sı» da vurmuşdular. Həmçinin Azərbaycanın milliliyini ardıcıllıqla müdafiə edən, o zaman AK(b)MK katibi işləyən Xanbudaqovu «millətçi»" kimi rəhbər işdən kənarlaşdırmışdılar.

Beləliklə, 20-ci illərin əvvəllərində Azərbaycan rəhbərliyindəki qarşıdürma «sollar"ın» Moskva xəttinin üstün gəlməsi ilə nəticələnmişdi.

N.Nərimanov «bolşevizmin"« daxili faciəsini, onun məhkumluğunu hiss edərək, 1925-ci ilin yanvarında oğlu Nəcəfə ünvanlanmış məktübündə yazmışdı: "Mən sosial-demokrat idim. Lakin bu təşkilat getdikcə, daha çox idealından uzaqlaşır. Mən bolşeviklərin proqramını xüsusi inamla qəbul etmişəm, belə ki, mən bunda öz məramımın – dünyada köləliyin məhvinin həyata keçməsini görürdüm.

Bəlkə də sən bu sətirləri oxuyan vaxt bolşevizm olmayacaq (O vaxt Nəcəfin 5 yaşı var idi)…"«.

Qeyd edək ki, bu tanış ssenari sonrakı illərdə də, xüsusən 1926 – 1930-cu illərdə təkrarlanmışdı. Mərkəzdə gedən patiyadaxili mübarizə filiallarda da, o cümlədən Azərbaycanda da baş vermişdi. Azərbaycanda da «Trotskiçi-Zinovyevçi antipartiya blokuna, sağ" və «sağ-sol»" opportinist qruplara qarşı mübarizə aparılmışdı. Çox maraqlıdır ki, həmin fraksiyaların liderləri və hətta üzvlərinin əksəriyyəti qeyri millətlərin nümayəndələri: sərkislər, ter ohaneslər, şebarşovlar və b. təşkil edir.

SSRİ-nin təşkili ilə Azərbaycanın da formal müstəqilliyinə tamamilə son qoyuldu. Azərbaycan Sovet Rusiyasının müstəmləkəsinə çevrildi. Sovet Rusiyası burada da öz müstəmləkəçilik məqsədlərinə müvafiq sosial-iqtisadi və

siyasi tədbirlər həyata keçirməyə başladı. Milli kadr qıtlığı bəhanəsilə Azərbaycan rəhbərliyinə Rusiyadan başqa millətlərin, xüsusən rusların, ermənilərin, yəhudilərin nümayəndələri göndərilmişdi. Azərbaycanlılardan ixtisaslı fəhlələrin və məmurların olmaması bəhanəsilə Rusiyadan və digər reqionlardan Azərbaycana işçi qüvvəsi axını da təşkil edirdi. Bu da azərbaycanlılar arasında işsizliyin artmasına, həm də Azərbaycanda, xüsusən Bakıda əhalinin milli tərkibinin köklü surətdə dəyişməsinə gətirib çıxarırdı. Bakı şəhərində əhalinin yarıdan çoxunu başqa millətlərin nümayəndələri təşkil edirdi. Onların da əksəriyyəti şəhərin mərkəzi hissəsində yerləşdirilirdi. Azərbaycan erməni rəhbərliyinin (Mirzoyanın və b.) qayğısı sayəsində Bakının «erməni kənd"« adlandırılan sahəsində 20-30-cu illərdə tikilmiş onlarla yaraşıqlı, çoxmərtəbəli binalar gəlmə ermənilərin istifadəsinə verilirdi.

Sovet rejiminin milli siyasətində ruslaşdırma mühüm yer tuturdu. 20-ci illərdə əməli olaraq, Azərbaycanda dövlət dili rus dili hesab olunurdu. Bu, «beynəlmiləl»" şəhər elan edilən Bakıda xüsusilə özünü qabarıq göstərirdi. N.Nərimanovun ciddi etirazlarına baxmayaraq, mətbuat və informasiyada əsas yeri rus dilinin tutması davam etdirilirdi. Azərbaycandakı bolşevik rəhbərliyinin ruslaşdırma siyasəti məişətə və sosial münasibətlərə də yol tapırdı. Azərbaycan xalqının adət-ənənələrinə, mənəvi dəyərlərinə biganəlik, onlara qarşı çıxmaq adi hala çevrilmişdi. Qarışıq ailələrin qurulması milli köklərimizdən uzaqlaşmağın adi yolu olmuşdu.

Sovet milli siyasətində Şərq məsələsi mühüm yer tuturdu. Sovet rejimi bu məsələdə Azərbaycandan güclü nüfuzedici amil kimi istifadə edirdi. Təsadüfü deyil ki, Şərq xalqlarının və türkoloqların nüfuzlu yığıncaqları məhz Azərbaycanda–Bakıda keçirilmişdi. Azərbaycanın milli sərvətlərini hərraca qoymaq, onun torpaqlarını zaman-zaman

qonşulara bəxşiş vermək sovet milli siyasətinin məqsədyönlü xətti olmuşdu.

***Siyasi mühacirət***

Siyasi mühacirət 20 – 30-cu illər tariximizin mühüm hadisələrindəndir. Bu illərdə minlərlə adam siyasi motivlər üzündən xaricə getməyə məcbur olmuşdu. Onlar əsasən Türkiyədə, İranda, Polşada, Fransada, Almaniyada və digər Avropa ölkələrində məskunlaşmışdılar. Onların əksəriyyəti 1920-ci il aprel işğalından sonra, dəhşətli kollektivləşmə illəri və 1937 – 1940-cı illərdəki kütləvi repressiyalar zamanı xaricə pənah aparmışdılar. Terror və həbslərdən xilas olmaq üçün Azərbaycan Xalq Cumhuriyyətinin liderlərindən olan F.X.Xoyski, Mustafa Vəkilov, Şəfi Rüstəmbəyli, Nağı Şeyxa-manlı qonşu Gürcüstana getmişdilər. Heç bir ay keçməmiş onlardan F.X.Xoyski və H.Ağayev Tiflisdə erməni terrorçuları tərəfindən qətlə yetirilmişdilər.

Hələ 1919-cu ildə Ə.M.Topçubaşov başda olmaqla Paris sulh konfransına göndərilmiş Azərbaycan nümayəndə heyətinin üzvləri – M.Ə.Mehdiyev, C.Hacıbəyli, M.Məhərrəmov, Ə.Şeyxülislamov, A.Ataməlibəyov Avropada qalmışdılar.

Azərbaycan Xalq Cumhuriyyəti hökuməti tərəfindən Avropaya oxumağa göndərilmiş 78 nəfər tələbə xaricdə qalıb siyasi mühacirlərə qoşulmuşdular. 1920 – 1922-ci illərdə SSRİ Xalq Xarici Komissarlığında işləyən M.Ə.Rəsulzadə 1922-ci ildə Sankt-Peterburqa gəlmiş, oradan da İstanbula qaçmağa məcbur olmuşdu.

Təqribi hesablamalara görə II Dynya müharibəsi başlayana kimi müəyyən vaxtlarda Azərbaycandan 50 mindən çox siyasi mühacir olmuşdu. Bu mühacirlərdən çoxu Türkiyədə məskunlaşmışdı. Onların təşkilatlanmasında M.Ə.Rəsulzadənin 1922-ci ildə Türkiyəyə gəlməsinin böyük əhəmiyyəti olmuşdu. Bundan sonra Azərbaycan siyasi

mühacirətinin təşkilatlanması və fəaliyyəti güclənmişdi. Onun təşəbbüsü ilə 1923-cü ilin əvvəllərində Müsavat Partiyasının Xarici Bürosu yaradılmışdı. Onun sədri M.Ə.Rəsulzadə seçilmişdi. Büro üçlüyünə X.Xasməmmədov və M.S.Axundzadə daxil idilər. Xarici büronun işində M.Vəkilli, Ş.Rüstəmbəyli, A.Kazımzadə, M.Ə.Rəfiyev, İ.Nəzərlizadə, H.Fəttahov, Ə.Əsədullayev, Ə.X.Xoyski, S.Ağasıbəyov, Ə.Cəbiyev, N.Şirinbəyov, N.Qaracazadə, M.Hacızadə, K.Qənizadə və b. fəal iştirak etmişdilər.

Bundan başqa Türkiyənin Trapezund, Qars, Smirna, İranın Tehran, Rəşt, Ənzəli, Təbriz, Ərdəbil və Astara şəhərlərində də Müsavatın milli Komitələri yaradılmışdı. Milli komitəyə Trapezundda Səməd Muradov, Nəsrulla Aşurbəyov, Nağı Şeyxzamanlı, Qarsda Məmməd Əli Əfəndizadə, Yasin Vəkilov, Smirnada doktor Əfəndiyev, Tehranda doktor Cəfər Cəfərov, Məmməd Əli Rəsulzadə, Ruslan Şərifov, Ənzəlidə Axundov, H.Axundzadə, Təbrizdə Teymurbəy Məlik Aslanov, Ağa Zeynal Məmmədov, Məmməd Sadıx Quliyev və b. başçılıq edirdilər.

Gəncləri təşkilatlandırmaq və onlar arasında iş aparmaq məqsədilə 1924-cü ildə Xarici Büronun mədəniyyət komissiyasının nəzdində M.S.Axundzadənin sədrliyi ilə «Azərbaycan Gənclər Birliyi»" (AGB) yaradılmışdı. Birliyə İsmayıl Sarı İmanqulu oğlu (katib), Ş.Rüstəmbəyli, S.Ağasıbəyli, M.Ağaoğlu, N.Usubbəyov (N.Yusifbəylinin oğlu), İ.X.Xoyski, M.Hacızadə, H.Camalbəyov, b. daxil idilər. "Birlik" gənclər arasında 32 tarixi və ictimai konfrans, 7 xüsusi müşavirə keçirmişdi.

M.Ə.Rəsulzadə bütün siyasi mühacirləri birləşdirmək məqsədilə 1924-cü ildə İstanbulda gizli fəaliyyət göstərən Milli Azərbaycan Mərkəzini (AMM) yaratmışdı. Sədri M.Ə.Rəsulzadə seçilmişdi. Milli Mərkəzin işində Xəlilbəy Xasməmmədov, Mustafa bəy Vəkilli, Əbdüləli bəy Əmircanov, Əkbərağa Şeyxülislamov fəal iştirak etmişdilər.

M.Ə.Rəsulzadə Azərbaycan mühacirətinin bir mərkəzdə birləşməsinə tərəfdar çıxırdı. Bununla yanaşı, o, Qafqazdan olan mühacirlərin vahid təşkilatda birləşməsini də çox vacib sayırdı. Türkiyənin Azərbaycandan olan mühacirlərə belə şəraitdə yardım göstərməyəcəyini öyrəndikdən sonra o, bu ideyadan əl çəkərək bütün qüvvələrin AMM-də birləşdirməyi önəmli saydı.

Mühacirətdə olan ittihadçıların lideri Xosrov bəy Sultanov da bütün ittihadçıları bir təşkilat ətrafında birləşdirmək niyyətində idi. O, 1926-cı ildə İrana gələrək burada İttihadın Tehran və Təbriz komitələrini yarada bilmişdi. Tehran komitəsinə Aşürbəy İsabəy, Təbriz komitəsinə isə Xosrov bəyin qardaşı İsgəndər bəy başçılıq edirdi. Lakin İttihadçıları birləşdirmək cəhdləri nəticə vermədi. Onlar Parisdə yaradılması bəyan edilən Qafqaz Birliyinə daxil olmaq qərarına gəldilər.

M.Ə.Rəsulzadənin başçılıq etdiyi AMM da 1927-ci ildə Polşanın səyi nəticəsində yaradılan Qafqaz İstiqlal Komitəsinə daxil olduğu günü bəyan etmişdi.

1937-ci ildən sonra SSRİ-nin təzyiqləri nəticəsində Türkiyə tərəfi AMM-ə göstərdiyi yardımı kəsdi. Bundan sonra Turkiyədə mühacir təşkilatların işi çox zəiflədi, onların səsi eşidilməz oldu. Azərbaycan siyasi mühacirləri də tədricən Avropa ölkələri ilə əlaqələrə üstünlük verməyə başladılar.

Azərbaycan mühacirləri Avropada fəaliyyət göstərmək məqsədilə 1924-cü ildə «Azərbaycan İstiqlal Komitəsi”« təşkilatını yaratmışdılar. Onun sədri əvvəllər Heydər adlı bir mühacir, sonralar Hilal Münşi olmuşdu.

Azərbaycan siyasi mühacirləri müstəqillik ideyalarını təbliğ etmək, yaymaq üçün müxtəlif vaxtlarda «Yeni Qafqaziya”« (1927), «Azəri Türkü»” (1928), «Odlu Yurd”«, «Azərbaycan Yurd Bilgisi»”, «Milli yol»” (1929 – 1931) məcmuələrini dərc etdirmişdilər. Onların başlıca amalı

Azərbaycanın müstəqilliyini bərpa etmək, vahid müstəqil Azərbaycan yaratmaq idi.

## § 3. Sosialist islahatları, onların sosial-iqtisadi və siyasi nəticələri

***Azərbaycanda yeni iqtisadi siyasət***

Rusiya təcrübəsinə uyğun olaraq 1920-ci ilin yayında, heç bir zəruriyyət olmadan, Azərbaycanda da hərbi kommunizm siyasəti tətbiq olundu. Bu siyasətə müvafiq olaraq Azərbaycan İnqilab komitəsinin 1920-ci il 26 avqust tarixli fərmanı ilə taxil ticarəti inhisara alındı. Yeyinti məhsullarının bölgüsü üzərində ciddi nəzarət qoyuldu. 1920 ilin sentyabrında Azərbaycanda ərzaq sapalağı tətbiq olundu. Bütün artıq taxıl, yağ, yem, mal-qara kəndlilərdən möhkəm qiymətlə alınmağa başlandı. Kənddə ərzaq sapalağını həyata keçirmək üçün Bakı fəhlələrindən təşkil olunmuş ərzaq dəstələri göndərildi. Sentyabrın axırlarında ümumi icbari əmək mükəlləfiyyəti tətbiq edildi: "İşləməyən dişləməz" prinsipi həyata keçirilməyə başladı.Ərzaq payı verilməsi (kartoçka) sistemi yaradıldı.

Rusiya təcrübəsində özünü doğrultmayan tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycan kəndlilərinin vəziyyəti daha da ağırlaşdı. Əlavə yük kimi Azərbaycanda saxlanılan sovet ordusu hissələrinin ərzaqla təmin edilməsi kəndlilərin vəziyyətini daha da ağırlaşdırırdı. Ordu hissələrinin kəndlərdə qarətçiliklə məşğul olmaları narazılıq törədirdi. Buna cavab olaraq bolşevik rejimi Azərbaycanda ərzaq siyasətini yumşaltmağa məcbur oldu. O, Quba, Cavad qəzaları

müstəsna olmaqla, Azərbaycanın bütün bölgələrində taxıl tədarükünü dayandırdı. Bu, kəndin vəziyyətini müəyyən dərəcədə yüngülləşdirdi.

Hərbi kommunizm siyasəti Azərbaycanda özünü doğrultmadı. Azərbaycan İnqilab Komitəsinin «Bütün növ ərzaq inhisarının ləğv edilməsi haqqında»" 1921-ci il 17 may tarixli dekreti ilə ərzaq sapalağı ləğv olundu. Bu qərar Azərbaycanda yeni iqtisadi siyasətə keçilməsində ilk addım idi. İlk vaxtlar burada, şəraitlə əlaqədar Rusiyadakı kimi sapalağın ərzaq vergisi ilə əvəz olunması həyata keçirilmədi. O, 1922-ci ilin yazına kimi təxirə salındı. Onun əvəzində rəsmən könüllü məhsul rüsumu «çanaq» "(20 kirvənkə) verqisi qoyuldu .

«Çanaq»" rüsumunun ömrü uzun sürmədi. 1922-ci ilin yazından etibarən Azərbaycanda da ərzaq vergisi tətbiq olunmağa başladı. Əməli olaraq yeni iqtisadi siyasətə keçildi.

Yeni iqtisadi siyasət hakim mövqelərin dövlətin əlində olması şərtilə ərzaq vergisi tətbiq olunmasını, ticarət azadlığına yol verilməsini, icarə sisteminin yaradılmasını, müştərək müəssisələrin qurulmasını, xarici konsensiyaya yol verilməsini, kooperasiya, bank və kredit şəbəkəsinin yaradılmasını və s. iqtisadi tədbirləri tətbiq etməyi nəzərdə tuturdu. Bunlar, təsərrüfatın inkişafında istehsalçıların maddi marağının artırılmasına, onların azad iqtisadi fəaliyyətinə imkan verirdi. Yeni iqtisadi siyasət dövründə onlarla xırda istehsal və ticarət müəssisələri icarəyə verildi. Yeni iqtisadi siyasətin tətbiq edilməsi nəinki, kənd təsərrüfatı, həm də sənayenin dirçəlməsinə, ticarətin inkişafına, maliyyə sahəsində böhranlı vəziyyətin aradan qaldırılmasına səbəb oldu. Azərbaycanda bazar iqtisadiyyatının inkişafına imkan yaratdı. Şəhərlə kənd arasında əlaqələri genişləndirdi. Kənddə və şəhərdə sahibkarlıq inkişaf etməyə başladı.

Yeni iqtisadi siyasət dövründə də neft siyasəti diqqət mərkəzində idi. Neft sənayesini öz himayəsində saxlayan

mərkəz onun inkişafı naminə respublika orqanlarına xarici şirkətlər ilə əlaqə yaratmaq səlahiyyətləri vermişdi. Bu da, neft sənayesinin yeni texnika ilə təmin olunmasına kömək edirdi. ABŞ-ın «Standart Oyl»" şirkətilə əlaqə yaradan Azərneft texniki avadanlıq və b. məhsullar almaq məqsədilə onunla müqavilə imzalamışdı. «Gikkers Limited"« ingilis firması ilə bağlanmış müqavilə əsasında Azərbaycan ilk Krekinq qurğusunun texniki avadanlığını istehsal etmək üçün lisenziya almışdı. "Azərneft" London, Paris, Berlin, Nyu-York və b. şəhərlərdə öz nümayəndəliklərini açmışdı. Bütün bunlar, neft hasilatında yeni texnologiyadan istifadə olunmasına imkan vermişdi. 1923-cü ilin iyun ayında Bibiheybətdə dərin nasosla işləyən ilk quyu istifadəyə verildi. 1924-cü ildə Suraxanıda turbabur vasitəsilə ilk quyu qazıldı. 1924-1925-ci illərdə bütün neftin 30 faizindən çoxu dərin nasos və kompressor üsulu ilə çıxarılmışdı. 1925-ci ildə qazıma dəzgahlarının 65 %-ə qədəri elektrik enerjisi ilə işləyirdi.

«Azərneft»" sistemində neft məhsullarının satışına nəzarət edən «Azərneftsindikat»" qurumunun yaradılması İran, Əfqanıstan və başqa ölkələrin neft təşkilatları ilə əlaqələrin yaradılmasında mühüm rol oynamışdı. Yeni iqtisadi siyasət şəraitində Balaxanı-Sabunçu rayonlarında yeni neft yataqlarının aşkar edilməsi, Bibiheybət rayonunun Bayıl buxtasında neft mədənlərinin işə salınması Azərbaycanda neft hasilatının xeyli artırılmasına imkan yaratmışdı. Artıq 1925-ci ildə neft hasilatı 1921-ci ilə nisbətən 2 dəfə artmışdı. Bu dövrdə neft maşınqayırma sənayesi inkişaf etməyə başladı. Onlardan biri Leytenant Şmidt (indiki Səttarxan) zavodu idi. 1924-ci ildə zavodda 10 tonluq marten sobası işə salınmışdı.

1925-ci ildə Bakıda və Tovuzda sement, Gədəbəydə misəritmə zavodları işə salınmış, Gəncədə, Lənkəranda, Ucarda, Salyanda pambıqtəmizləmə zavodları bərpa olunmuş, Şərur və Yevlaxda yeni pambıqtəmizləmə zavodları tikilmiş, Şəkidə, Ordubadda və Dağlıq Qarabağda 7 iri dövlət

baramaaçan fabriki fəaliyyətə başlamışdı. Gəncədə mahud fabriki işə salınmış, yağ-sabun kombinatının tikintisinə başlanılmışdı.

YİS şəraitində kənd təsərrüfatında da mühüm dəyişikliklər baş vermişdi. Əkin sahələri xeyli çoxalmışdı. 1922-ci ildə təkcə taxıl əkin sahələri 1921-ci ilə nisbətən 2 dəfədən çox artmışdı. 1925-ci ildə bütün əkin sahəsi ümumən 1914-cü il səviyyəsini ötüb keçmişdi. Heyvandarlıq sahəsində də ciddi dəyişikliklər əldə edilmişdi.

YİS şəraitində kənddə sosial təbəqələşmə güclənmişdi. Kənddə ortababların xüsusi çəkisi yoxsul təbəqələrin hesabına xeyli artmışdı. Bu dövrdə Azərbaycan kəndində 70 minə qədər kəndli təsərrüfatı ortabab zümrəzinə keçmişdi. 1925-ci ildə ortabablar bütün kəndlilərin 54 faizini təşkil edirdilər. Ortabablar ümumi taxıl və pambıq məhsulunun 67 faizini verirdilər. Sovet siyasətinin nəticəsi olaraq kənddə nüfuzlu sima olan qolçomaqlar getdikcə sıxışdırılırdılar. 1925-ci ildə qolçomaqlar Azərbaycan kəndlilərinin 3 faizini təşkil edirdilər. Onlar pambıq və büğda məhsulunun 12-13 faizini verirdilər. 1925-ci ildə Azərbaycanda kəndli təsərrüfatlarının 15%-ni təşkil edən qolçomaqlar və varlı kəndlilər dövlətə kənd təsərrüfat vergisinin təqribən yarsını (47 %) ödəyirdilər.

Beləliklə, YİS-in tətbiq olunması sayəsində 1925-ci ildə Azərbaycanın iqtisadiyyatında canlanma baş vermişdi. Sənaye və kənd təsərrüfatı məhsulları istehsalının həcmi müharibədən əvvəlki səviyyəyə yaxınlaşmışdı. Əhalinin sosial vəziyyətində də müəyyən irəliləyiyşlər baş vermişdi. Lakin bu uzun çəkmədi. 30-cu illərin ortalarına kimi nəzərdə tutulmuş Yeni iqtisadi siyasət tədricən ləğv olundu.

***İqtisadiyyatın sosialistcəsinə yenidən qurulması***

20-ci illərin ikinci yarısından etibarən Azərbaycanda xalq təsərrüfatının bütün sahələrinin sosialistcəsinə yenidən qurulmasına başlanıldı. Məqsəd Stalin

və onun həmfikirlərinin sosializm ideyalarını əməli olaraq Azərbaycanda da qerçəkləşdirmək idi. Birtərəfli sənayeləşdirmə, fərdi kəndli təsərrüfatlarını zorla kollektivləşdirmə sözügedən yenidənqurmaların başlıca istiqamətləri idi.

Sənayeləşdirməni əməli olaraq həyata keçirmək 1925-ci ilin dekabrında irəli sürülmüşdü. Rusiyadan fərqli olaraq Azərbaycanda sənayeləşdirmə özünəməxsus yolla aparılırdı. Əgər Rusiyada sənayeləşdirmədə üstünlük ən çox ağır sənayeyə, maşınqayırmaya və hərbi sənayeyə verilirdisə, müstəmləkə vəziyyətində olan Azərbaycanda əsas üstünlük neft sənayesinin inkişafına, elektrik enerjisi istehsalına və xammalın emalı sənaye sahələrinin yaradılmasına yönəldilmişdi. Yüngül sənaye müəssisələrinin və ilkin xammal emalı (pambıqtəmizləmə, ipəkçilik və b.) obyektlərinin yaradılması da Azərbaycanda sənayenin tərkib hissələrindən idi.

Tez bir müddətdə ölkəni güclü sənaye diyarına çevirmək startı götürmüş bolşeviklər sənayeləşdirməni çox ağır şəraitdə həyata keçirdirdilər. Xarici kapitaldan və texnologiyadan məhrum olan SSRİ sənayeləşdirməni öz daxili ehtiyatları hesabına, kütlələri, xüsusən o zaman əhalinin əksəriyyətini təşkil edən kəndlilərin istismarı hesabına həyata keçirməyə məcbur olmuşdu. Ağır vergilər qoymaq, müsadirələr, "sənayeləşdirmə istiqrazları" yolu ilə topladığı milyardlarla kapitalı iri sənaye obyektlərinin tikilməsinə sərf etmişdi.

Qısa müddətdə sovet sənayeləşdirməsi uğurlarının başlıca səbəblərindən biri də zəhməikeş kütlələrin, xüsusən fəhlələrin böyük ruh yüksəkliyi ilə bu işə qoşulması idi. Kommunist təbliğatından məst olmuş, bu gün-sabah «hər kəsdən qabiliyyətinə, hər kəsə tələbatına görə"« prinsipinə əsaslanan kommunizm cəmiyyəti qurmaq ümidi ilə onlar yeni-yeni nəhəng sənaye obyektləri ucaldırdılar. Çox ağır şəraitdə:

ac-yalavac, savadın-texnikanın olmadığı şəraitdə onlar quru əllə iri zavod və fabriklər, elektrik stansiyaları tikirdilər. Bu, əsil qəhrəmanlıq, əsil rəşadət idi. Mərkəzdən verilən planların – birinci və ikinci beşillik planlarının yerinə yetirilməsi naminə bölşeviklər tərəfindən irəli sürülən «sosializm yarışı”«, «zərbəçilik»”, «ictimai yedək”«, müxtəlif məqsədli iməciliklər və s. fəhlələrin sənayeləşdirmədə fəal iştirakının təmin edilməsində mühüm rol oynamışdılar.

SSRİ-nin yeganə duru yanacaq-neft bazası olan Bakı, Azərbaycan fəhlələri də öz növbəsində, sovet sənayeləşdirməsinin həyata keçirilməsində fəal iştirak etmişdilər. Onlar yeni neft yataqlarının istismara verilməsində, onlarla sənaye obyektlərinin tikilməsində böyük mətanət göstərmişdilər. Hətta, canlarını belə qurban vermişdilər. 1931 – 1933-cü illərdə Neftçala, Lökbatan, Qala, Sulutəpə və Korgöz kimi yeni neft yataqları istifadəyə verilmişdi. Sənayeləşmə illərində Bakıda neftmaşınqayırma zavodları, krekinq qurğuları (L.Şmidt, Suraxanı mexaniki zavodu), o cümlədən, sürtkü yağları, ağ neft, benzin, gəmi təmiri, karbid zavodları, Gəncədə əyirici-toxuculuq kombinatı, Gəncə, Ucar, Yevlax pambıq-təmizləmə zavodları, Lənkəranda və Ordubadda konserv zavodları, Şəkidə, Xankəndində, Zaqatalada, Salyanda və Füzulidə istilik və su elektrik stansiyaları tikilib işə salınmışdı.

Artıq 30-cu illərin ikinci yarısında Azərbaycanda istehsal olunan sənaye məhsulunun 95%-dən çoxunu 20-30-cu illərdə tikilmiş və yenidən qurulmuş müəssisələr verirdi.

SSRİ-nin neft istehsalı üzrə dünyada ikinci yerə çıxmasında Bakı neftçilərinin çox mühüm rolu olmuşdu. 1937-ci ildə SSRİ-də hasil edilən neftin 76%-ni Azərbaycan vermişdi.

Bu illərdə 822 kilometrlik Bakı – Batum neft kəmərinin, 400 kilometr uzunluğunda olan Ələt – Culfa dəmiryol xəttinin çəkilməsi başa çatdırılmışdı. SSRİ

məkanında ilk dəfə Bakıda, şəhər ilə neft rayonları arasında elektrik dəmir yolu xətti istifadəyə verilmişdi.

Sənayeləşdirmə öz çətinlikləri və mənfi nəticələri ilə bərabər Azərbaycanın ümumi inkişafına xeyli təkan vermişdi. Bu illərdə fəhlə sinfinin sayı 1926-cı ildəki 47 min nəfərdən 1932-ci ildə 325 minə çatmışdı. Onların texniki səviyyəsi də yüksəlmişdi.

Beləliklə, sənayeləşmə xəttinin həyata keçirilməsi sayəsində Azərbaycan aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevirilmişdi. Yeni iş yerlərinin açılması hesabına Azərbaycanda işsizliyə də son qoyulmuşdu. Bununla belə sənayeləşmənin Azərbaycan yolu, onun SSRİ-nin xammal bazasına çevrilməsinə gətirib çıxarmışdı.

Kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulması – kollektivləşdirmə Azərbaycanın 20-30-cu illər tarixinin ən dəhşətli səhifələrindəndir. Bu illər, Azərbaycan kəndinin də tarixinə ən ağır, əzablı və dəhşətli dövr kimi daxil olmuşdur.

Azərbaycanda ilk kollektiv təsərrüfatlar hələ 1920-ci ilin yayından yaradılmağa başlamışdı. Artıq 1922-ci ildə onların sayı 178-ə çatırdı.

Kənd təsərrüfatının kollektivləşdirilməsi 20-ci illərin sonlarında günün ən vacib əməli vəzifəsi kimi qarşıda durmuşdu. Bu 1928 – 1929-cu illərdə ölkədə yaranmış taxıl çətinliyi və dövlət sənayeləşdirmə siyasətinin ilk uğurları ilə əlaqədar idi. Bütün ölkə üçün nəzərdə tutulmuş bu siyasət milli regionlarda, o cümlədən Azərbaycanda da həyata keçirilməyə başladı. Kollektivləşdirmənin məna və mahiyyətini hələ tamamilə dərk etməmiş, ona hazır olmayan Azərbaycan üçün bu proses çox ağrılı keçmişdi.

Ümumittifaq miqyasında başlamış bu proses Azərbaycanda daha qəddarcasına həyata keçirilmişdi. Azərbaycan rəhbərliyi yarışmaq prinsipindən istifadə etmişdi. Mərkəzdən müəyyən olunmuş müddətə görə hələ 4 il (1933-cü ilin yazına qədər) vaxtın qalmasına baxmayaraq,

Azərbaycan rəhbərliyi tələsərək 1930-cu ilin yazına kimi elliklə kollektivləşməni başa çatdırmaq qərarına gəlmişdi. Bu məqsədə çatmaq üçün yerli sovet, partiya orqanları, komsomol təşkilatları və məmurlar inzibati, zorakılıq yolu ilə kəndliləri kolxozlara toplamağa başlamışdılar. Bu məqsədlə 1929-cu ilin sonu – 1930-cu ilin əvvəllərində qondarma kollektivləşmə həftəlikləri təşkil edilmişdi. Kolxoza könüllü gəlməyənləri məcbur edir, həbs edir, «kulaka»" salır, hədələyir və digər inzibati tədbirlər həyata keçirirdilər. Hətta bəzi mahalların rəhbərləri (Dağlıq Qarabağ, Quba, Şəki-Zaqatala, Lənkəran, Qasım İsmayılov (Goranboy) öz rayonlarını elliklə kollektivləşmə rayonları elan etmişdilər. Geniş miqyasda kağız üzərində kolxozlar yaratmağa başlamışdılar.

Kollektivləşmənin ən dəhşətli faciələrindən biri qolçomaqlara və onların tərəfarlarına divan tutulması idi. Sovet rejimi yarandığı gündən qolçomaqlara düşmən münasibət bəsləmişdi. 1928-ci ildən sonra onları məhdudlaşdırmaq və sıxışdırmaq siyasəti yürüdülmüşdü. Onlara yüksək vergilər qoyulur, artıq taxılları zorla müsadirə edilir, muzdur saxlamaq, torpağını və texnikasını icarəyə vermək məhdudlaşdırılmışdı. Kütləvi kolxoz hərəkatı başlandıqdan sonra isə elliklə kollektivləşmə əsasında qolçomaqları bir sinif kimi ləğv etmək siyasətinə keçilmişdi. Respublikada yüz minlərlə qolçomaq və varlı kəndli ailəsi məhv edilmiş və ya sürgün olunmuşdu. 1930 – 1935-ci illərdə 1929-cu ildəki 7583 qolçomaq təsərrüfatından 7508-i ləğv edilmişdi.

SSRİ-nin digər vilayətlərində olduğu kimi Azərbaycanda da kollektivləşdirmə dinə, milli ənənələrə qarşı mübarizə ilə müşayiət olunmuşdu. Bu prosesdə çox yerlərdə məscidlər ya dağıdılır, ya da anbara, kluba, kitabxanaya çevrilirdilər. Məsələn, 1928 – 1929-cu illərdə komsomolçular tərəfindən 780 məsçid bağlanmışdı. Qadınların çadraları əlindən alınırdı. Bu baxımdan, Azərbaycan SSR birinci yerdə dururdu.

Kollektivləşdirmədə Azərbaycanda ilk dəfə 1930-cu ilin yazında Bərdə və Qasım İsmayılov (Goranboy) rayonlarında təşkil edilən maşın traktor stansiyalarının mühüm rolu olmuşdu. Həmin stansiyalar kənddə dövlətin dayaq nöqtələri, siyasi və texniki nəzarətçisi idilər. Artıq 1932-ci ildə respublikada 24 MTS fəaliyyət göstərirdi.

1929 – 1930-cu illərdə kollektivləşdirmə gedişində yol verilmiş kobud səhvlər, inzibatçılıq və zorakılıq kəndliləri çox bezdirmişdi. Onlar kütləvi olaraq kolxozlardan getməyə başladılar. Süni surətdə yaradılmış kolxozlar da dağıldı. Respublikada kollektivləşmənin səviyyəsi olduqca aşağı düşdü.

Partiya və sovet orqanlarının həyata keçirdiyi inzibatı tədbirlər sayəsində 1930-cu ilin sonu - 1931-ci ilin əvvəllərindən etibarən kollektivləşdirmə dalğası yenidən yüksəlməyə başladı .

Kollektivləşdirmə sonrakı illərdə də inkişaf etdirildi. Artıq 1937-ci ildə bütün respublika kəndli təsərrüfatlarının 86,5%, əkin sahələrinin 93,5% kolxozlarda birləşdirilmişdi. Bu Azərbaycan kəndində kolxoz quruculuğu siyasətinin tam həyata keçirilməsi demək idi. Sovet tarixi ədəbiyyatında bu, yuxarıdan həyata keçirilən «inqlab"« kimi qiymətləndirilmişdi.

Kolxoz quruculuğunda yol verilən əyintilər və səhvlər, zorakılıq və inzibatçılıq, qolçomaqlara, varlı və ortabab kəndli-lərə qarşı çevrilmiş kobud, qeyri insani tədbirlər kəndlilərin kütləvi narazılıqlarına, hətta üsyanlarına səbəb olmuşdu. 1930-cu ilin birinci yarısında Şəki-Zaqatala mahalında, Naxçıvan MSSR-in Keçili kəndində, Xızı dairəsinin Ağdərə kəndində, Şəmkirin Bitdili kəndində, Cəbrayıl qəzasının Sirik kəndində və başqa yerlərdə baş verən kəndli üsyanlarını buna misal göstərmək olar. Azərbaycanda sovet rejiminə və kollektivləşdirməyə qarşı kütləvi müqavimət hərəkatı başlanmışdı. Təkcə 1931-ci ildə kollektivləşməyə qarşı 132 qaçaq dəstəsi mübarizə aparmışdı. Kollektivləşdirmənin 4 ilində ona qarşı 400-dən çox silahlı

qaçaq dəstəsi mübarizə aparmışdı. Samux, Qazax, Borçalı, Goranboy və Tovuz bölgələrində qaçaqçılıq edənlərin sayı 5 mindən çox idi. Kollektivləşdirmə illərində Gəncəbasarda molla Əhmədin, Sarı Qafarın, Qoca oğlu Həsənin, Qarabağda Nəzər Cəfər oğlunun, Mir Fəttah Ağanın, Şəkidə Hüseyn Əfəndinin, İsmayıl Əfəndinin, Qazaxda İsaxanın, Naxçıvanda Qasımbəyin, Əlibəyin, Gədəbəydə Qədimalının, Lənkəranda Cankişi və Xankişinin, Qubadlı və Cabrayılda Mir Bəhlul ağanın və Qaçaq Qabilin və s. dəstələri sovet rejiminə qarşı mübarizə aparmışdılar.

Sovet hökuməti orqanları bu hərəkatı hərbi hissələr vasitəsilə çox amansızlıqla yatırmışdılar. Gəncə, Gədəbəy əməliyyatlarında ələ keçirilən 1028 nəfərdən 366 nəfəri güllələnmiş, 316 nəfəri cəza düşərgəsinə, qalanları isə Sibirə, Qazaxıstana sürgün olunmuşdular. Zəyəm əməliyyatında 366 nəfər güllələnmişdi. Naxçıvan MSSR-in Keçili kəndində 70 nəfər adam güllələnmişdi.

Beləliklə, Azərbaycanda da çox ağrılı, əzablı və dəhşətli yollarla aparılan kollektivləşdirmə nəticəsində kolxoz quruluşu yaradılmışdı.

Kolxoz quruluşunun qələbəsi nəticəsində artıq 30-cu illərdə SSRİ-nin yeganə duru yanacaq – neft dayağı olan Azərbaycan eyni zamanda Sovet İttifaqının ikinci böyük pambıq bazasına çevrilmişdi. O, 1939-cu ildə ölkəyə 225 min tondan çox xam pambıq vermişdi.

Kolxoz quruluşunun sosial-iqtisadi cəhətdən də qüsurlvari var idi. Əvvəla o, sanki çarizmin ənənəvi təhkimçilik qayda-qanunlarının bərpası demək idi. Belə ki, 1950-ci illərin sonuna kimi pasportu olmayan kolxozçu icazəsiz öz təsərrüfatı hüdudlarından kənara gedə bilməzdi və ya onun istədiyi təsərrüfata keçmək hüququ yox idi; ikinci, kolxozlar sanki əmək düşərgələrini xatırladırdılar; üçüncü, onlar, Azərbaycan xalqının milli mənəvi dəyərlərinə yad bir qurum, dinsizlik simvolu idi, qadınlar üçün əzabli əmək

düşərgəsi idi. Onlarda xanımlıq ənənələrini unutdurmuşdu; Dördüncü, kənlilərdə mülküyyətçilik ənənəsini məhv etmişdi: Beşinci, kolxoz quruluşu SSRİ-də bərqərar edilmiş inzibati amirlik sisteminin həlqəsi idi; altıncı, kolxoz quruluşu, kolxoz üzvlərinin maddi marağını məhv edən, insan şəxsiyyətini alçaldan sosial iqtisadi və inzibati sistem olmuşdu. Məhz bina görə də o, tam uğursuzluğa düçar olmuşdu.

***İnzibati – amirlik rejiminin bərqərar olması. Kütləvi represiyalar***

Sovet rejimi yarandığı andan diktatura tipli quruluş olmuşdu. Təsadüfi deyildi ki, o, «proletariat diktaturası"« adlandırılırdı. Bolşevizmin ideyaları və fəaliyyəti əsasında meydana gələn bu rejim zaman-zaman onun əsirinə çevrilmişdi. 20-ci illərin əvvəllərində mövcud olan az-çox demokratik ab-hava getdikcə yox olmağa başlamışdı. 20-ci illərin sonlarından başlayaraq partiyada və cəmiyyətdə aldadıcı olsa da yekdillik, birlik şəraiti yaranmışdı. Planlaşma və idarəçilikdə sərt mərkəzləşdirmə prinsipinə keçilmişdi. Sovet orqanları və digər ictimai qurumlar partiya iradəsinin icraçılarına çevrilmişdilər.

Artıq bütün məsələlərdə əsasən fikir yekdilliyi və fəaliyyət birliyi mövcud idi. Belə şərait cəmiyyətdə kommunist partiyasının mövqeyini dəyişmişdi. O, artıq cəmiyyətin əvəzedilməz rəhbərinə, ilhamverici və təşkilatçısına çevrilmişdi. Ölkədə qanunlar deyil, partiya qərarları işləyirdi. Belə ab-hava Azərbaycanda da mövcud idi. Burada da hadisələr mərkəzin nümunəsində olduğu kimi cərəyan edirdi. 20-ci illərin ikinci yarısı – 30-cu illərin əvvəlləri Azərbaycanda rəhbərliyin çox tez-tez dəyişməsi adi hala çevrilmişdi. S.M.Kirovdan sonra Azərbaycanda partiya rəhbərliyinə – Mirzoyan – Qarayev – Ağaverdiyev birliyi, sonra N.Giqalo, V.Polonski, Ruben və nəhayət 1934-cü ildə M.C.Bağırov

gətirilmişdi. M.C.Bağırov-dan sonra Azərbaycan partiya rəhbərliyində uzun müddət (1953-cü ilədək) sabitlik olmuşdu.

Beləliklə, kommunist partiyasının diktatorluğu şəraitin-də Azərbaycanda da inzibati-amirlik sistemi bərqərar olmuşdu.

20-ci illərin ortalarından başlanan sosialistcəsinə yenidənqurmaların başlıca nəticəsi olaraq Azərbaycanda da Stalin modelli totalitar sosializm cəmiyyəti qurulmuşdu. Xüsusi mülkiyyət ləğv olunmuş, bütün istehsal vasitələri ümumxalq mülkiyyəti adı ilə dövlətin əlində cəmləşmişdi. Respublika əhalisinin sinfi tərkibində əsaslı dəyişikliklər baş vermişdi. Şəhərdə kapitalistlər, kənddə qolçomaqlar, onlara qatılan varlı, bəzən ortabab kəndlilər, ticarətdə tacirlər aradan çıxarılmışdılar. Həyat meydanında fəhlələr, kolxozçu kəndlilər və sovet dövründə yetişmiş ziyalılar qalmışdılar. Bütövlükdə əhalinin 86%-i dövlət sosializm təsərrüfatında çalışanlar idi.

Dövlət sosializm cəmiyyətinin qurulması ilə Azərbaycanda heç kimin özününkü saymadığı mülkiyyətsizlik yarandı, bazar iqtisadiyyatına son qoyulmuş, kütlələrdə bərabərçilik psixologiyası formalaşmağa başlamışdı. Mülkiyyətdən və hakimiyyətdən uzaqlaşdırılmış xalq dövlətin, yuxarıların «istək və tələblərini»” yerinə yetirmək naminə sədaqətlə işləyən kütləyə çevrilmişdi.

Sosialist yenidənqurmalarının ən başlıca siyasi nəticəsi sərt mərkəzləşdirilmiş, avtoritar dövlətin bərqərar olması, rəhbəredici, ilhamverici və istiqamətverici kimi qiymətlən-dirilən kommunist partiyasının diktaturasının yaradılması olmuşdu.

Bütün bunlar SSRİ-nin 1936-cı il dekabrın 5-də qəbul olunmuş yeni Konstitusiyasında təsbit olundu. Yeni Konstitusiyaya görə Azərbaycanın da daxil olduğu Zaqafqaziya Federasiyası ləğv olundu. Azərbaycan bir başa SSRİ tərkibinə daxil oldu. SSRİ-nin yeni Konstitusiyası əsasında 1937-ci il martın 10-da Azərbaycan SSR-nin də yeni Konstitusiyası

qəbul olundu. Konstitusiyada Azərbaycan vətəndaşlarına formal olsa da geniş hüquqlar və demokratik azadlıqlar verildiyi təsbit olundü.

Özünü dünyada ən demokratik, ən azad dövlət, ən humanist cəmiyyət kimi təbliğ edən bir ölkədə hər an insan haqları və azadlıqları pozulur, «doğma»" vətəndaşları ilə qeyri-insani şəkildə rəftar edilirdi. Bütün ölkədə, o cümlədən Azərbaycanda, avtoritar rejiminin öz müstəqil fikri və sərbəst düşüncəsi olan vətəndaşlara qarşı kütləvi repressiyaların təşkili buna misal ola bilər. Kütləvi repressiyalar əsasən, açıq, təcrübəli və qabiliyyətli, öz sözünü deyən partiya və dövlət xadimlərinə qarşı çevrilmişdi. Bəzən xof yaratmaq naminə adi, dinc və günahsız adamlar – fəhlələr və kolxozçu kəndlilər də repressiyaların qurbanları olmuşdular. Bu cəhətdən Azərbaycan İttifaq miqyasında «nümunə»" ola bilərdi. Beriyanın himayədarlığı ilə Azərbaycan K(b)P MK I katibi olan M.C.Bağırov dostunun vasitəsilə yaxın münasibətlər yaratdığı Stalinə güvənərək dəhşətli əməllər törətmişdi. O, ətrafına yığdığı, türklərin genetik düşmənləri olan Sumbatov – Topuridze, Qriqoryan, Markaryan, Malyan və b. ermənilərin vasitəsilə on minlərlə azərbaycanlını məhv etmiş və ya sürgünə göndərmişdi. Bağırovun Stalinə və onun cəlladı Beriyaya sədaqətlə xidmət etməsi, ermənilərə güvənməsi sayəsində Azərbaycan xalqı özünün yüksək milli intellektuallığa malik, ən yaxşı oğlan və qızlarının iki, bəlkə də üç nəslini itirmişdi. 1937-ci ildə xalqa "xəyanətdə", əksinqilabi və cəsusluq fəaliyyətində təqsirləndirilən bir qrup partiya rəhbərləri, o cümlədən R.Axundov, Ə.Qarayev, S.M.Əfəndiyev, Q.Musabəyov, Q.Vəzirov, D.Bünyadzadə mühakimə olunub güllələnmişdilər. Elə həmin il Şamaxıda başda H.Sultanov olmaqla bir qrup kommunist və bitərəflər mühakimə olunmuşdular. R.Axundov və H.Sultanovla bağlı əksinqilabçı üsyançı-terrorçu mərkəzin işi ilə əlaqədar 1700 nəfər, «Azneft"də» aşkar edilmiş «əksinqilabzı-terrorçu»"

təşkilatın işi ilə əlaqədar isə 3300 nəfər müxtəlif cəzalara məhkum edilmişdilər. Təkcə 1937-ci ildə Azərbaycanda 29 000 «xalq düşməni»" güllələnmiş və ya Sibirə sürgün olunmuşdu.

1937-ci ildə İsmayıllı, Əli Bayramlı, Cəbrayıl, Astraxanbazar (indiki Cəlilabad), Qonaqkənd və b. rayonlarda gecə əməliyyatları keçirilərək 70 min adam həbs olunub sürgün edilmiş, 3000-dən çox adam məhv edilmişdi. Bu qəbildən İsmayıllı rayonunun Kurdmaşı kəndində törədilmiş faciəli hadisə ibarətamizdir. 1937-ci ilin noyabrında həmin kənddə 18-70 yaş arasında olan bütün kişilər – sovet hökumətinə qarşı üsyan hazırlamaq üçün silah saxlanması kimi saxta ittihamla həbs olunmuşdular. Onlardan 13 nəfəri istintaq gedişində həlak olmuş, 63 nəfər isə həmin ilin dekabrında güllələnmişdi.

1937 və 1938-ci illərdə Azərbaycanın məşhur ziyalılarından H.Cavid, M.Müşfiq, Əli Nəzmi, Əhməd Cavad, T.Şahbazi, S.Mümtaz, S.Hüseyn, B.Talıblı, V.Xuluflu, Yusif Vəzir Çəmənzəminli, B.Çobanzadə, B.Həsənbəyov, H.Sanılı, Ə.Razi və minlərlə başqaları repressiya qurbanları olmuşdular. Onlar xarici dövlətlərə casusluqda, əksinqilabçılıqda, pantürkizmdə və b. uydurma cinayətlərdə ittiham olunmuşdular.

Repressiyaya cəlb olunanları olmazın işgəncələr verərək qondarma ittihamları boyunlarına götürməyə məcbur etmişdilər. Ən ağır cəzaya belə məhkum olunanların mühakiməsi 10-15 dəqiqə çəkmişdi. Azərbaycan ziyalılarının qaymağı olan bu insanların ittiham edilməsi və mühakiməsində repressiyanın cəza orqanlarına soxulmuş ermənilər mühüm rol oynamışdılar. Bu illərdə repressiyanın tüğyan etdiyi Azərbaycanın 51 rayonundan 31-nin Xalq Daxili İşlər Komissarlığının rayon şöbələrinin rəisləri ermənilər olmuşdu. Astara dairəsində Arakelov, Astraxanbazarda Comardyan, Zəngilanda Zərgəzyan, Samuxda Petrosyan, Masallıda Avanesov, Lənkəranda Movsesyan, Tovatov, Naxçıvanda Akopyan,

Ağacanyan, Akopov, Seyranov, Lokyan, Parseqov, İonesyan, Şıxanyan Daxili İşlər Komissarlığının rayon bölmələrinə başçılıq etmişdilər.

Bu dövrün ən faciəli hadisələrindən biri də azərbaycanlıların qərbi Azərbaycandan, Ermənistan ərazisindəki əzəli yurdlarından kütləvi surətdə qovulması idi. 1937-ci ildə on minlərlə azərbaycanlı ermənilərin təqibləri və təhqirləri nəticəsində öz ata-baba yurdlarından qaçmağa məcbur olmuşdular.

1938 – 1940-cı illərdə Azərbaycan üçün ən çox dəhşətli nəticələrə gətirən hadisələrdən biri də vaxtilə bir tikə çörək dalınca Azərbaycanın güney hisəssindən baş götürüb quzeyə gələn soydaşlarımızın zorla geri qaytarılması olmuşdu. Onların əksəriyyətini hələ keçən əsrin sonlarında və XX əsrin əvvəllərində Bakının neft mədənlərində işləmək üçün gələn, 1905 – 1911-ci və 1918 – 1920-ci illərdə Cənubi Azərbaycanda demokratik və milli azadlıq mübarizəsinin məğlubiyyətindən sonra təqiblərdən can qurtarmaq üçün Şimali Azərbaycana mühacir edənlər təşkil edirdi. Onlar artıq burada Azərbaycanın quzey hissəsində ailə qurmuş, özləri üçün sakit yaşayış şəraiti yaratmış, ev-eşik sahibi olmuşdular. Bununla razılaşmayan sovet rejimi həmin insanların SSRİ vətəndaşı olmadıqlarını bəhanə edərək onları kütləvi surətdə cənuba qayıtmağa məcbur etmişdilər. Geri qayıdan adamlar İranda da yaxşı qarşılanmamışdılar. Onlar şah hökuməti tərəfindən mühacirlər kimi damğalanmış, çox yerlərdə onlara qarşı cəza tədbirləri görülmüş, minlərlə insan tələf edilmişdi.

## § 4. Mədəni quruculuq

Sovet cəmiyyətinin Azərbaycanda da həyata keçirdiyi sosialist yenidənqurmalarının tərkib hissələrindən birini də mədəni quruculuq təşkil edirdi. Burada məqsəd Azərbaycanda

da sosializm ideologiyasına xidmət edən mədəniyyət yaratmaq və onu inkişaf etdirmək idi.

Sosializm, bolşevizm idealogiyasının insanlara yiyələnməsini təmin etmək üçün sovet rejimi, onun yerli orqanları, hələ əksəriyyətinin oxumaq və yazmağı bacarmayan Azərbaycan əhalisi arasında savadsızlığı ləğv etməyi ən mühüm vəzifə hesab edirdilər. Məhz buna görə də 20-ci illərin əvvəllərindən etibarən Azərbaycanda savadsızlığı ləğvetmə məktəblərinin geniş şəbəkəsi yaradılmışdı. Azərbaycan Xalq Komissarları Soveti yanında xüsusi savadsızlığa qarşı mübarizə Komitəsi təşkil olunmuşdu, 1925-ci ilin sonralarında Azərbaycanda «Rədd olsun savadsızlıq”« könüllü cəmiyyətinin şöbəsi yaradılmışdı. Cəmiyyətin şöbələri savadsızlığı ləğv etmək məqsədilə yerlərdə kurslar, azsavadlılar üçün isə məktəblər təşkil etmişdilər. 1927-ci ildə artıq cəmiyyətin 15 minə yaxın üzvü var idi. Savadsızlığı ləğv etmək uğrunda mübarizə əsil ümumxalq hərəkatına çevrilmişdi. 1929-cu ildə gənclərin qüvvəsi ilə 3458 savad kursu yaradılmışdı. Buraya minlərlə müəllim, tələbə nə orta məktəblərin yuxarı sinif şagirdləri cəlb olunmuşdu. Savadsızlığı ləğv etmək məqsədilə vaxtaşırı kütləvi yürüşlər keçirilirdi. Təkcə1930-cu ilin baharında keçirilən belə yürüşlərdən birində 160 minə qədər adam iştirak etmişdi. 19291930-cu tədris ilində savadsızlara və azsavadlılara xidmət edən 4190 məktəb var idi, onlarda 151.9 min nəfər adam oxuyurdu. 1932-ci ildə 2751 min nəfər adam öz savadsızlığını ləğv etmişdi. 1931 – 1934-cü illərdə savadsızlığı ləğvetmə kursları və məktəblərində 900 min, 1935-ci ildə 292 min, 1936-cı ildə isə 496 min adam oxumuşdu. 1937-ci ildə 216 min adam öz savadsızlığını ləğv etmişdi. 1939-cu ildə Azərbaycanda əhalinin savadlılığı 1926-cı ildəki 25.2 faizdən 73.3 faizə qalxmışdı. 1941-ci il üçün yaşlı əhali arasında savadsızlığın ləğv edilməsi əsasən başa çatdırılmışdı.

***Sovet təhsil sisteminin yaradılması***

Əsası hələ Xalq Cumhuriyyəti dövründə qoyulmuş ümumtəhsil şəbəkəsi 20-30-cu illərdə daha da inkişaf etdirildi. İndi mahiyyətcə yeni təhsil sistemi – sovet təhsil sistemi yaradılmağa başladı. Onun başlıca məqsədi sovet rejiminə, sosializm və kommunizm ideyalarına xidmət edən nəsillər tərbiyə etmək idi.

1920-ci ilin yaz və yayında sovet təhsilinin əsasını qoyan bir sıra dekret və sərəncamlar verildi. 1920-ci il 12 may tarixli dekretlə köhnə məktəblər yeni, sovet politexnik məktəbləri ilə əvəz olundu. İndi köhnə məktəblərin əvəzində Sovet Rusiyası təcrübəsi əsasında iki pilləli – beşillik təhsil müddəti olan bir dərəcəli (ibtidai məktəb) və dördillik təhsil müddəti olan iki dərəcəli (orta məktəb) kütləvi təhsil məktəbləri yaradıldı. İnqilab Komitəsinin vicdan azadlığı haqqında 1920-ci il 15 may tarixli dekreti ilə məktəblərdə ilahiyyət fənlərinin tədrisi ləğv olundu. Müəllim kadrları hazırlamaq məqsədi ilə Bakıda, Şamaxıda, Şuşada, Qusarda və digər yerlərdə pedaqoji kurslar açıldı. Çox qısa müddət ərzində həmin kurslar tərəfindən ibtidai məktəblər üçün 1100 nəfərə qədər müəllim hazırlandı.

Azərbaycanda 1920-ci il oktyabrın 1-də başlamış ilk sovet dərs ilində 937 ibtidai məktəb fəaliyyət göstərirdi ki, onlarda da 74.9 min nəfərdən çox şagird təhsil alırdı. 1921 – 1928-ci illərdə Azərbaycanda 185 yeni məktəb binası tikilmişdi: 1924-cü ildən etibarən I və II dərəcəli məktəblərlə yanaşı 7 illik fabrik-zavod (FZM) və 1926-cı ildən isə kəndli-gənclər (KGM) məktəbləri yaradılmağa başladı. 19261927-ci tədris ilində Respublikada müəllimlərin sayı 5.5 min nəfərə çatmışdı. 1928-ci ilin sonu üçün Azərbaycanda 1420 ibtidai

məktəb fəaliyyət göstərirdi. Onlarda 145.2 min nəfər şagird təhsil alırdı.

30-cu illərdə ümumtəhsil məktəblərinin şəbəkəsi daha da genişləndirildi. 1930-cu ilin əvvəllərindən icbari ibtidai təhsilə keçilməsinə başlanıldı. Respublikada ümumi təhsilin həyata keçirilməsini təşkil etmək və ona nəzarət etmək üçün xüsusi Komitə yaradıldı. Ümumtəhsilin həyata keçirilməsi nəticəsində 19331934-cü tədris ilində 8-11 yaşlı uşaqların 90.8 faizi məktəblərdə əhatə olunmuşdu. İbtidai məktəblərdə şagirdlərin sayı 387.1 min nəfərə çatmışdı.

Respublikada məktəblərin təşkilatca möhkəmləndirilməsində ibtidai və orta məktəblərin strukturunun dəyişdirilməsinin mühüm əhəmiyyəti olmuşdu. İbtidai (I – IV siniflər), natamam orta (I – VII siniflər) və orta (I – X siniflər) məktəb tipləri yaradılmışdı. Artıq 30-cu illərin axırı üçün Azərbaycanda 3575 məktəb fəaliyyət göstərirdi. Onlarda da 654.9 min nəfər şagird təhsil alırdı. 1934 – 1940-cı illərdə orta məktəblərin sayı 35-dən 654-ə, şagirdlərin sayı isə 29 mindən 321 minə çatmışdı. Azərbaycanlı qızların 46.7 faizi ibtidai, 39.3 faizi isə yeddillik təhsillə əhatə olunmuşdu.

20-30-cu illərdə Azərbaycanda mədəni quruculuğun ən mühüm sahələrindən biri də orta ixtisas və ali təhsil şəbəkəsinin inkişaf etdirilməsi idi.

Orta ixtisas və ali məktəb şəbəkəsinin əsası hələ Azərbaycan Xalq Cumhuriyyəti vaxtında yaradılmışdı. Bu zaman Azərbaycanda bir neçə orta ixtisas müəssisəsi və Bakı Dövlət Universiteti açılmışdı. 1920-ci ildə Bakı, Gəncə, Qazax müəllimlər seminariyaları yenidən quruldu, Şəkidə isə yenisi açıldı. Sonrakı illərdə orta ixtisas məktəblərinin sayı sürətlə artdı. Artıq 192627-ci tədris ilində Azərbaycanda müxtəlif təmayüllü 39 orta ixtisas məktəbi var idi, onlarda da 7 mindən çox oğlan və qız təhsil alırdı.

1930-cu ildən sonra orta ixtisas məktəblərinin sayı daha da artdı. Bu da II dərəcəli məktəblərin 8-9-cu

siniflərinin ixtisas texnikumlarına çevrilməsi ilə əlaqədar idi. 1932-ci ildə onların sayı 85-ə, 1940-cı ildə isə 91-ə çatmışdı, onlarda da 17 min gənc təhsil alırdı.

Bu dövrdə Azərbaycanda ali təhsil sistemi də inkişaf etdirilirdi. Hələ 1919-cu ildə yaradılmış BDU xeyli genişləndirildi. 1920 – 1928-ci illərdə BDU-da fizika-riyaziyyat (1920), şərq (1922), pedaqoji (1924), hüquq (1928) fakültələri yaradıldı. Artıq 1934-cü ildə BDU-da fizika-riyaziyyat, kimya, biologiya, tarix və filologiya fakültələri fəaliyyət göstərirdi.

Azərbaycanda bir sıra başqa ali təhsil müəssisələri də yaradıldı. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 14 noyabr tarixli dekreti əsasında yaradılmış Bakı Politexnik İnstitutu (indiki Azərbaycan Dövlət Neft Akademiyası) 1921-ci ilin yanvarından fəaliyyətə başladı. Onun tərkibində ilk illər texnologiya, mühəndis-inşaat və kənd təsərrüfatı, sonralar isə mexanika, dağ-mədən, inşaat, su təsərrüfatı fakğltələri var idi.1930-cu ildə o, Azərbaycan Neft İnstitutu, 1934-ci ildə Azərbaycan Sənaye İnstitutu adlandırıldı.

1921-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutu yaradıldı. 1927-ci ildə o, Azərbaycan Dövlət Universitetinin pedaqoji fakğltəsi ilə birləşdirildi.

1921-ci ildə Azərbaycanda ilk qadın ali məktəbi – Azərbaycan məktəbəqədər tərbiyə institutu açıldı. 1922-ci ildə o, Qadın pedeqoji institutuna çevrildi, sonralar isə o, ADPİ-yə birləşdirildi.

1921-ci ildə Azərbaycan Dövlət konservatoriyası və Ali bədii məktəb yaradıldı. 1929-cu ildə Politexnik institutunun kənd təsərrüfatı fakğltəsinin əsasında Azərbaycan Kənd Təssərüfatı institutu (AKTİ) yaradıldı. 20-ci illərin sonları üçün Azərbaycan ali təhsil müəssələrində 5351 nəfər təhsil alırdı, onların 27,5 faizi azərbaycanlılar idi: 30-cu illərdə Ali məktəblərin şəbəkəsi daha da artdı. 1930-cu ildə ADU-nin tibb fakğltəsi əsasında Azərbaycan Tibb İnstitutu, şərq və filoloji fakğltələri əsasında yenidən Azərbaycan

Dövlət Pedeqoji İnstitutu, hüquq fakğltəsi əsasında sonralar sosial-iqtisadi institutuna çevrilən Sovet quruluşu və hüqüq institutu yaradıldı. 30-cu illərin ortalarında Gəncədə Zaqafqaziya Pambıqçılıq, Zaqafqaziya Mühəndis-hidromeliorasiya, Azərbaycan Zootexnik-veterinar institutları işə başladı. 1930-cu ildə Bakıda sənayenin müxtəlif sahələri üçün rəhbər kadrlar hazırlayan Sənaye Akademiyası yaradılmışdı. Həmin ildə elə Bakıda sonralar Azərbaycan Bədən Tərbiyəsi İnstitutuna çevrilən Zaqafqaziya Bədən Tərbiyəsi İnstitutu açıldı.

1934-cü ildə Sosial-iqtisadi, ticarət və kooperasiya institutları zəmimində Xalq Təsərrüfatı institutu yaradıldı.

Ali məktəblərdə fəhlə və kəndli gənclərin xüsusi çəkisini artırmaq məqsədilə fəhlə fakğltələri açıldı. Belə fakğltələr nəinki Bakıda, habelə Gəncədə və Şəkidə də açılmışdı. Artıq 192223-cü dərs ilində Azərbaycanda olan 8 fəhlə fakğltəsində 8 min nəfər təhsil alırdı. 1926-27-ci dərs ilində Azərbaycan ali təhsil müəssisələrində oxuyan tələbələrin 29 faizini fəhlə fakğltələrini bitirənlər təşkil edirdi.

1935-ci ildə ADPİ yanında yeddillik məktəblər üçün müəllim kadrları hazırlayan Müəllimlər institutu təsis olundu. 1939-1940-ci illərdə Şəkidə, Gəncədə və Naxçıvanda müəllimlər institutları yaradıldı.

Bu illərdə Azərbaycanda ali qiyabi təhsil sisteminin əsası qoyuldu. 1930-cu illərin əvvəllərində ANİ-nun, APİ-nun və AKTİ-nin nəzdində qiyabi və axşam şöbələri açıldı. 1936-cı ildə APİ-i nəzdindəki qiyabi şöbə müstəqil Qiyabi Pedaqoji İnstitutuna çevrildi. 30-cu illərin axırlarında ADU-nun da nəzdində qiyabi şöbə yaradılmışdı.

Artıq 1940-cı ildə Azərbaycanda 16 ali təhsil müəssisəsi fəaliyyət qöstərirdi, onlarda da 15 minə yaxın tələbə oxuyurdu. Azərbaycanda ali təhsilin təşkili və inkişafında rus alimlərindən A.D.Qulyayev, V.S.Yelpatyevski,

Q.Q.Pisarevski, V.V.Bartold, P.Y.Rostovtsev, B.İ.Tixomirov və başqalarının böyük xidmətləri olmuşdu. Respublika ali məktəbləri üçün Sovet Rusiyasında yüzlərlə yüksək ixtisaslı müəllim kadrları hazırlanmışdı.

***Elmin inkişafı***

Sovet rejimi Azərbaycanda elmin inkişafına da diqqət verirdi. Əvvəllər elmi-tədqiqat işləri Azərbaycan Dövlət Universitetində aparılırdı. 1920-1922-ci illərdə burada humanitar, tibb və təbiət elmləri bölmələrindən ibarət elmi cəmiyyət fəaliyyət göstərirdi. Texniki, iqtisadi və aqranomik elmlərin inkişafında Politexnik institutunun yaradılmasının mühüm əhəmiyyəti olmuşdu.

Respublikada elmi-tədqiqat işlərinin inkişafında 1923-cü ilin noyabrında Ə.Haqverdiyevin başçılığı ilə təsis edilmiş «Azərbaycan tədqiq və tətəbböh"« cəmiyyətinin böyük xidmətləri olmuşdur. Cəmiyyətin məqsədi elmi-tədqiqat işləri aparmaq yolu ilə Azərbaycanı planlı şəkildə öyrənmək idi. Əvvəllər onun üç bölməsi: tarix-etnoqrafiya, iqtisad və təbiət bölmələri var idi. 1925-ci ildə onun tərkibində xüsusi türkoloji bölmə yaradılmışdı. Cəmiyyətin Naxçıvanda, Şəkidə, Şamaxıda. Gəncədə, Lənkəranda, Zaqatalada və Xankəndində bölmələri fəaliyyət göstərirdi. 1928-ci ildə cəmiyyətin min nəfərdən artıq üzvü var idi.

Alimlərin fəaliyyətinə rəhbərlik etmək məqsədilə 1923-cü ildə Maarif Komissarlığı yanında elmi şura təşkil olunmuşdu. 1926-cı ildə o, Dövlət Elmi Şurasına çevrildi. Bu illərdə geoloji-coğrafi elmləri sahəsində də elmi-tədqiqat işləri aparılmasına başlanmışdı. 1920-ci ildə "Azərneft" birliyində təşkil olunmuş geoloji-kəşfiyyat bürosu ətrafında cəmləşmiş elmi kadrların köməyi ilə Azərbaycan ərazisinin bir çox yerlərində geoloji planlama işləri aparılmışdı. 1923-cü ildən etibarən geoloji-kəşfiyyat işləri ilə Geologiya Komitəsi məşğul olmağa başladı.

1924-cü ildə geoloqların və neft mütəxəssislərinin səyi nəticəsində dünyada ilk dəfə turbabur yaradıldı. O, ilk dəfə Suraxanı mədənlərində tətbiq olunmuşdu. Bu, ölkədə qazıma sahəsində elm və texnikanın inkişafı tarixində yeni mərhələ idi. Bu sahədə M.V.Abramoviç, D.V.Qolubyatnikov, M.Gubkin kimi rus alimləri müstəsna rol oynamışdılar.

Neyt-kimya elmi də inkişaf etməyə başladı. 1926-cı ildə respublika kimyaçılarının səyi sayəsində neftayırma tullantılarından xalq təsərrüfatı üçün çox lazım olan külsüz koksun istehsal olunmasına başlanıldı. Onun sularından yod və brom alınması üsulları da kəşf olundu.

Biologiya elmi sahəsində də nailiyyətlər əldə edilmiş-di. Azərbaycanın nəbatat aləmini, genetika və seleksiyanın öyrənilməsi sahəsində də müəyyən nailiyyətlər əldə olunmuşdu. 1926-cı ildə «Talışın nəbatat aləmi»"nə dair əsəri və Azərbaycanın birinci ümumi torpaq xəritəsi nəşr olunmuşdu.

Bir sıra pambıq rayonlarında aqronomiya və torpaqşünaslıq tədqiqatları, otlaqları geobotanika cəhətdən tədqiq etmək, iri miqyaslı nəbatat xəritələri düzəltmək işləri həyata keçirilmişdi.

Heyvandarlıq, veterenariya, fiziologiya sahəsində də elmi tədqiqatlara başlanılmışdı.

Bütün bunlara baxmayaraq 1920 – 1928-ci illərdə Respublikada təbiiyyat və texnika sahəsində hələ əsil elmi-tədqiqat idarələri yox idi. Elmi işlə məşğul olanların sayı hələ də az idi.

1920-ci illərin sonlarından etibarən elmin inkişafına diqqət daha da artırıldı. 1929-cu ildə «Azərbaycan tədqiq və tətəbböh»" Cəmiyyəti Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanında Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna çevrildi. Bu institutun təşkilində S.M.Əfəndiyevin, H.Cəbiyevin, V.Xuluflunun böyük xidmətləri olmuşdu. Həmin ildə geoloji komitənin neft şöbəsi zəminində ümumittifaq geoloji-kəşfiyyat

elmi-tədqiqat institutu, tətbiqi minerologiya institutunun Azərbaycan şöbəsi, Azərbaycan elmi-tədqiqat tikinti institutu, Azərbaycan Hidrometeorologiya Komitəsi təşkil olundu. 1931-ci ildə ölkədə ilk dəfə Azərbaycan Neft Maşınqayırma İnstitutu yaradıldı.

Bu illərdə Azərbaycanda mikrobiologiya, malyariya və parazitologiya, analar və uşaqların mühafizəsi, oftomologiya və s. sahələr üzrə elmi-tədqiqat institutları təsis olunmuşdu.

Azərbaycan alimlərinin axtarışları nəticəsində geologiya elmi sahəsində tutarlı nailiyyətlər əldə edilmişdi. Geoloqlar Qarabağda, Naxçıvanda, Daşkəsəndə bir sıra yeraltı sərvətlər aşkar etmiş və onların işlənilməsi üçün əməli hesablamalar aparmışdılar.

Qazıma və neftin istismarı sahəsində tədqiqatlar daha da güclənmişdi. Yeni qazıma metodları işlənib hazırlanmışdı. 1933-cü ildə Sovet İttifaqında ilk dəfə Bayıl sahillərində fırlanma yolu ilə quyu qazılmış, 1936-cı ildə dünyada birinci olaraq çoxpilləli turbabur yaradılmışdı. 1939-cu ildə Bibi-Heybətdə ilk dərin dəniz quyusu qazılmış, 1940-cı ildə isə Qalada dünyada ilk dəfə qazımada elektrobur tətbiq edilmişdi.

Bioloqlar tərəfindən 1936-cı ildə Azərbaycan dilində «Azərbaycanın florası»", «Azərbaycanın heyvanat aləmi"« kitabları nəşr olunmuşdu.

Humanitar elmlər sahəsində də müəyyən nailiyyətlər əldə olunmuşdu. 1922-ci ildə Dövlət arxivi, Arxeologiya cəmiyyəti və 1923-cü ildə Azərbaycan arxeologiya komitəsi yaradılmışdı. 20-ci illərdə keçirilmiş arxeoloji qazıntılar nəticəsində Xocalı-Gədəbəy, Yaloylutəpə, Qızıl-Vəng mədəniyyətləri aşkar edilmişdi. Həmin arxeoloji ekspedisiyaların və qazıntıların həyata keçirilməsində Ə.K.Ələkbərov, İ.İ.Meşşaninov və başqaları fəal iştirak etmişdilər.

«Azərbaycan tədqiq və tətəbböh»" cəmiyyəti tərəfindən 1926-cı ildə ilk dəfə A.Bakıxanovun «Gülüstani-İrəm"« əsəri nəşr olunmuşdu, Kərimağa Fatehin «Şəki

xanlarının qısa tarixi”« kitabı çapdan çıxarılmışdı. 1930-cu ildə Hacı Seyid Əbdülhəmidin «Şəki xanları və onların xələflərinin şəcərəsi»” adlı kitabı nəşr olunmuşdu. S.Mümtaz Azərbaycanın tarixi və mədəniyyətinə dair mənbələrin toplanıb nəşr edilməsində böyük xidmət göstərmişdi. Azərbaycanın orta əsrlərə dair V.Xuluflunun, Q.Qubaydulunun və başqalarının bir sıra kiçik həcmli əsərləri çap olunmuşdu. 1925-ci ildə «Xəzər sahili vilayətlərin müsəlman şərqi tarixindəki yeri”nə dair» K.V.Bartoldun mühazirə kursu çapdan çıxmışdı.

20-ci illərin axırlarında Azərbaycan Dövlət elmi-tədqiqat institutu yaradıldı. 1930-cu ildə institutun nəzdində ayrı-ayrı humanitar elmlər üzrə aspirantura şöbələri təşkil olunmuşdu.

1932-ci ildə Azərbaycan Dövlət elmi-tədqiqat İnstitutu əsasında SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialının Azərbaycan şöbəsinin yaradılması, 1935-ci ildə onun SSRİ Elmlər Akademiyasının Azərbaycan filialına çevrilməsi Respublikada elmin inkişafına böyük imkanlar açdı. Onun nəzdində kimya, botanika, tarix, etnoqrafiya, arxeologiya, dil və ədəbiyyat, sonradan geologiya institutları yaradıldı. O, Azərbaycanda əsil mənada elm mərkəzinə çevrildi.

1923-cü ildə R.İsmayılovun «Qısa Azərbaycan tarixi”« kitabı, 1941-ci ildə «Azərbaycan tarixinin qısa oçerki»” əsəri nəşr olunmuşdu. 1924-cü ildə M.F.Axundovun məşhur fəlsəfi əsəri «Hind şahzadəsi Kəmalüddövlənin İran şahzadəsi Cəlaliddövləyə üç məktubu və sonuncunun ona cavabı» nəşr olunmuşdu.

1938-ci ildə Q.N.Hüseynovun «M.F.Axundovun dünya-görüşü»” əsəri, 1940-cı ildə isə A.O.Makovelskinin «Sofistlər”« kitabı çapdan çıxmışdı.

Bu illərdə N.Aşmarinin, B.Çobanzadənin və başqalarının türk dillərinin dialektologiyası və qrammatikası məsələlərinə dair bir sıra əsərləri nəşr olunmuşdu.

İ.Nəsiminin, M.P.Vaqifin, Q.Zakirin, M.F.Axundovun, Natəvanın bir sıra əsərləri, «Koroğlu»” eposunun variantı toplanıb nəşr olunmuşdu. M.Ə.Sabirin şerlər külliyyatı «Hophopnamə”nin» təkmilləşdirilmiş nəşri çapdan çıxmışdı. 1925 – 1926-cı illərdə F.Köçərlinin Azərbaycan ədəbiyyatı tarixinə dair əsərləri nəşr olunmuşdu. 1923-cü ildə Ə.Haqverdiyev başda olmaqla müəlliflər kollektivi tərəfindən hazırlanmış «Azərbaycan türk teatrosunun müxtəsər tarixçəsi» kitabı, 1930-cu ildə A.Şərifovun «Azərbaycanda türk teatrı tarixi materiallar»ı” əsəri çapdan çıxmışdı. Habelə, 1927-ci ildə Ü.Hacıbəyov və M.Maqomayevin redaktəsi ilə «Musiqi folkloru”« əsərləri toplusu nəşr olunmuşdu. 1935 – 1939-cu illərdə şifahi xalq yaradıcılığının nümunələri olan bir neçə cildlik «Aşıqlar»”, iki cildlik «El şairləri”« kitabları, «Aşiqin səsi»” məcmuəsi, habelə xalq dastanları və bir neçə cildlik «Azərbaycan nağılları» kitabları nəşr olunmuşdu.

1939–1940-cı illərdə Üzeyir Hacıbəyovun Azərbaycan xalq musiqisi barədə əsərləri, 1938-ci ildə S.A.Dadaşovun və M.A.Hüseynovun «Bakıda Azərbaycan memarlıq abidələri”« kitabı çapdan çıxmışdı.

***Mədəni maarif şəbəkəsinin təşkili***

Mədəni-maarif şəbəkəsinin yaradılması mədəni quruculuğun başlıca sahələrindən idi. Bu sahə də bolşevik rejiminə, onun ideologiyasına xidmət edirdi: O, kütlələri bolşevik ideologiyası ruhunda tərbiyə edilməsində ən güclü vasitə idi. Azərbaycanda da bu məqsədə xidmət edən mədəni-maarif şəbəkəsinin – klubların, qiraət komalarının və kitabxanaların inkişaf etdirilməsinə başlanılmışdı. 1920-ci ildən sonra Respublikada klubların şəbəkəsi çox genişlənmişdi. Artıq 1922-ci ildə Azərbaycanda 90-a yaxın klub fəaliyyət göstərirdi.

1940-cı ildə klubların sayı 1633-ə çatmışdı. Mədəniyyət saraylarının da sayı artmışdı. 1936-cı ildə Pionerlər evi

açılmışdı. Bakıda bir neçə mədəniyyət sarayları fəaliyyət göstərirdi. Qadınlar arasında iş aparmaq məqsədi ilə Azərbaycanda da xüsusi qadın klubları yaradılmışdı. Onların arasında 1920-ci ildə Bakıda təşkil olunmuş Əli Bayramov adına Mərkəzi qadın klubu xüsusilə fərqlənirdi. 1923-cü ildə qəzalarda onun 17 şöbəsi fəaliyyət göstərirdi. Mərkəzi klubun yanında ümumtəhsil və peşə kursları, məktəblər, sənətkarlıq, tikiş, toxuculuq və s. emalatxanalar, musiqi, dram və başqa dərnəklər təşkil edilmişdi. 1923-cü ildə klubda azərbaycanlı qadınlar üçün ilk peşə məktəbi təşkil olunmuşdu. 1925-ci il üçün Mərkəzi klubun yanındakı kütləvi və mədəni-maarif işlərinə 47 mindən çox qadın cəlb olunmuşdu. 1932-ci ildə onların sayı 150 minə çatmışdı.

Kənddə mədəni-maarif işini aparan mərkəzlərdən biri də qiraət komaları idi. Onlar savadsızlığın ləğv edilməsində, qəzetlərin və siyasi-maarif ədəbiyyatının yayılmasında böyük rol oynamışdılar. Onların yanında müxtəlif dərnəklər də fəaliyyət göstərirdi. Artıq 1932-ci ildə qiraət komalarının sayı 821-ə çatmışdı.

Kitabxanaların da şəbəkəsi genişlənmişdi. 1923-cü ildə Azərbaycan Dövlət kitabxanası, 1925-ci ildə Kitab palatası yaradılmışdı. Artıq 1925-ci ildə Azərbaycanda yarım milyondan çox kitab fondu olan 75 kütləvi kitabxana var idisə, 1932-ci ildə onların sayı 167-yə çatmışdı. Bunların da kitab fondu 1757 min nüsxə təşkil edirdi. 1940-cı ildə isə 2611.8 min kitab fondu olan 1383 kitabxana fəaliyyət göstərirdi.

Əhali arasında mədəni-maarif işinin aparılmasında muzeylər də mühüm rol oynayırdılar. 1933-cü ildə Azərbaycanda 11 muzey fəaliyyət göstərirdisə, 1940-cı ildə onların sayı 22-yə çatmışdı.

Mədəni-maarif ocaqlarının köməyi ilə 1929-cu ildə respublikada 270 minə qədər qadın çadrasını atmış, 1924 – 1930-cu illərdə isə 8 mindən çox qadın öz savadsızlığını ləğv etmişdi.

Bu illərdə Azərbaycanda kinoların da sayı artmışdı. 1933-cü ildə Respublikada 447 kino qurğusu var idi.

***Mətbuat və incəsənət***

Bu illərdə, o zaman xalqa yabançı olan kommunist ideologiyasını təlqin edən «Kommunist»", "Bakinski raboçiy"«, Kommnist" (erməni dilində), «Yeni yol»", «Gənc işçi»", «Molodoy raboçiy»", «Zəhmət»" qəzetləri, «Maarif və mədəniyyət»", 1928-ci ildən «İnqilab və mədəniyyət»", Azərbaycan və rus dillərində «Az. K(b)P MK və BK-nın Əxbəri»", «Şura quruluşu"«, rus dilində «İqtisadi xəbərlər»", Azərbaycan dilində «Azərbaycan Ali İqtisad Şurasının Əxbəri»", Azərbaycan və rus dillərində «Azərbaycan Mərkəzi Statistika İdarəsinin bülleteni»", «Azərbaycan SSR Xalq Maarif Komissarlığının bülleteni"«, «Qızıl qələm»", «Qızıl gənclik»" jurnalları nəşr olunurdu. 1922-ci ildə C.Məmmədquluzadənin redaktə eidiyi satirik «Molla Nəsrəddin»" jurnalının nəşri bərpa edilmişdi. 1928-ci ildə Azərbaycanda 23 qəzet çıxırdısa, 1940-cı ildə onların sayı 141-ə çatmışdı. Respublikada nəşr olunan jurnalların sayı 1932-ci ildəki 30-dan, 1940-cı ildə 44-ə çatmışdı. 1931-ci ildə 15 rayon qəzeti nəşr olunurdu.

Bunlardan başqa 1932-ci ildə respublikanın müəssisələrində 33 çoxtirajlı qəzet çap edilirdi.

Bu illərdə Azərbaycanda bolşevik ideologiyasını təbliğ etməyə xidmət edən radiolaşma da inkişaf etdirilmişdi. İlk radio qurğusu 1924-cü ildə Bakıda tikilmişdi. 1926-cı ilin noyabrında ilk dəfə efirdə «Danışır Bakı»" sözləri səslənməyə başlamışdı. Bir il sonra Azərbaycan qəzalarında 111 daimi və 36 səyyar radio qurğusu işləyirdi. Artıq 1932-ci ildə Azərbaycanda 20409 radiotranslyasiya nöqtəsi fəaliyyət göstərirdi. 1932 – 1940-cı illərdə onların sayı 3 dəfədən çox artmışdı.

***Ədəbiyyat və incəsənət***

1920–30-cü illərdə Azərbaycan ədəbiyyatı çox zidiyyətli şəraitdə inkişaf edirdi. Keçid dövrü kimi

qiymətləndirilən bu illərdə ədəbi qüvvələr arasında rəngarənglilik mövcud idi. Onlardan H.Cavid başda olmaqla əsasən yaşlı nəsildən ibarət bir qrupu sovet gerçəkliyini və bolşevik ideolojiyasını həzm etməyənlər idi: Bu qrup sözügedən dövrdə Azərbaycan ədəbiyyatının aparıcı qüvvəsi idilər. Onlar əvvəl 1925-ci ildə yaradılmış «Ədəbiyyat cəmiyyəti»”ndə birləşmişdilər. Bu qrupun nümayəndələrindən Azərbaycan bədii sözünün görkəmli ustalarından H.Cavidi, S.S.Axundovu,Ə.Haqverdiyevi,Ə.Cavadı, Ə.Nəzmini, M.S.Ordubadini, C.Cabbarlını, H.K.Sanılını, Y.V.Çəmənzəminlini, S.Hüseyni, A.Şaiqi, Qantəmiri (Qafur Əfəndiyev) və b. göstərmək olar. Onlar öz əsərlərində Azərbaycanın sovet rejiminin qurulmasından əvvəlki həyatını təsvir edən əsərlər yazır, çarizmin və sovet rejiminin bədnam reallığını, onun yaratdığı bürokratizmi, hakimiyyətə gətirdiyi küt, səriştəsiz başçıları rəmzi ğsullarla tənqid edirdilər. H.Cavidin «Peyğəmbər»” (1922-1925), «Topal Teymur»”, «Səyavuş»”, S.S.Axundovun «Laçın yuvası»” (1921), C.Cabbarlının «Aydın”« (1921), «Oqtay Eloğlu»” (1923), «Od gəlini»” (1928), «1905-ci ildə”« pyesləri. C.Məmmədquluzadənin «Dəli yığıncağı”«, S.Rəhmanın «Toy”« (1938) komediyaları, H.K.Sanılının «Aran köçü»” (1924), Ə.Cavadın «Köç»” (1930) poemaları, H.Axun-dovun «Kələfin ucu»” (1940), Qantəmirin «Kolxozustan»” (1935) povesti bu qəbildən olan əsərlər idi. Məsələn, S.S.Axundov «Laçın yuvası»” pyesində Azərbaycanda sovet rejimi üçün lazımi zəmin olmadığı vəsf olunurdu. H.Cavid «Topal Teymur»” pyesində türk soylu xalqları birliyə səsləyirdi. C.Məmməd-quluzadə «Dəli yığıncağı»” komediyasında insanların taleyini xalqın adət-ənənəsini, onun mənəviyyatını dərk edə bilməyən adamlara tapşırılmasını dəli əməli kimi tənqid edirdi.

C.Cabbarlının «1905-ci ildə»” pyesində rus çarizminin «parçala, hökm sür»” siyasəti ifşa olunurdu.

S.Rəhmanın «Vəfasız»” əsərində başqa cür düşündüyü üçün bolşevik rejimi tərəfindən təqiblərə məruz qalan insanın faciəsi təsvir olunmuşdu. Qantəmirin «Kolxozustan»” povestində isə Azərbaycanda bədnam kollektivləşdirməyə münasibət məsələləri şərh olunmuşdu.

20 – 30-cu illərdə yaranmış Azərbaycan ədəbiyyatı xəzinəsinə daxil olan əsərlərdən belə misallar çox gətirmək olar.

20 – 30-cu illər Azərbaycan ədəbiyyatını təmsil edən 2-ci qrup sovet reallığını, onun ideologiyasını qəbul edən, ona xidmət etmək əzmində olan gənc qüvvələr idi. Onlar da əvvəl «Kommunist»” qəzeti yanında təşkil olunmuş «Qızıl gənc qələmlər”« cəmiyyəti ətrafında cəmləşmişdilər. 1925-ci ilin dekabrında onlar «Qızıl qələmlər İttifaqı”«nda birləşdilər. 1928-ci ildə həmin ittifaqın əsasında «Azərbaycan proletar yazıçılar cəmiyyəti»” yaradıldı. Bu cəmiyyətdə də ustad sənətkarların nüfuzu böyük idi. Onlar bəzən partiya nəzarətindən kənarda qalırdılar. Məhz buna görə də ÜİK(b)P MK-nin «Ədəbi-bədii təşkilatların yenidən qurulması barədə”« 1932-ci il aprelin 23-də qəbul etdiyi qərara əsasən «Azərbaycan Yazıçılar İttifaqı»” yaradıldı. Bununla da, Yazıçılar İttifaqına, ədəbi yaradıcılığa partiya rəhbərliyi gücləndirildi. Yazıçılar təşkilatı da sovet rejiminin vintiklərindən birinə çevrildi.

20 – 30-cu illərdə ədəbiyyata gələn gənc istedadlardan Mikayıl Müşfiq, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Sabit Rəhman, AlmazYıldırım, Osman Sarıvəlli, Zeynal Xəlil, Əhməd Cəmil, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Mirzə İbrahimov, Əkbər Məmmədxanlı, Əbülhəsən, Mehdi Hüseyn, Mir Cəlal, Süleyman Rəhimov və b. sosializm ideylarına xidmət edən, sosializm realizmi arxasında müxtəlif vasitələrlə xalqın həyatı, düşüncələrini və arzularını özündə əks etdirən əsərlər yaratmışdılar. Onlar «yeni həyat»” uğrunda mübarizəni tərənnüm edən əsərlərində Azərbaycan xalqının

tarixini, adət-ənənələrini, milli-mənəvi dəyərlərini yaşadır, gənc nəslə aşılayırdılar. Habelə onlar, əsərlərində sovet gerçəkliklərini, süniliklərini, Azərbaycan həyatına yabançılığını müxtəlif təsvir vasitələrilə açıqlamağa səy göstərmişdilər. Mikayıl Müşfiqin «Oxu, tar»", Səməd Vurğunun «Komsomol»" poeması, «Vaqif"«, Sabit Rəhmanın «Toy»" və başqa əsərlər bu qəbildən idilər.

*Teatr*

Bu illərdə incəsənətin mühüm sahələrindən biri olan teatrın inkişafında da böyük irəliləyişlər olmuşdu. 1920-ci ildə müxtəlif teatr qrupları zəminində Dövlət teatrı yaradılmışdı. İlk yeni teatrlardan biri 1920-ci ilin dekabrında yaradılmış rus tənqid-təbliğ teatrı idi. 1921-ci ilin noyabrında Azərbaycan Tənqid-təbliğ teatrının əsası qoyulmuşdu. 1922-ci ilin yanvarında yenidən bərpa edilmiş Tağıyev teatrının binası istifadəyə verildi. Binanın açılışı M.F.Axundovun "Hacı Qara" pyesinin tamaşaya qoyulması ilə başlamışdı. 1923-cü ildə Bakıda, Yaxın Şərqdə ilk dəfə Teatr Texnikumu açılmışdı. 1924-cü ildə Dövlət teatrı Dövlət Akademik Dram teatrına çevrilmişdi. Elə həmin ildə teatrın opera və balet qrupu əsasında Azərbaycan Dövlət Opera və Balet teatrı yaradılmışdı. 1923-cü ildə rus tənqid-təbliğ teatrı Bakı işçi teatrına, 1937-ci ildə isə Azərbaycan Dövlət Rus dram teatrına çevrilmişdi. 1928-ci ildə Bakıda Uşaq teatrı təşkil olunmuşdu. 1936-cı ildən o, Gənc tamaşaçılar teatrı adlandırıldı. 1930-cu ildə Bakıda Fəhlə Gənclər teatrı, 1931-ci ildə Azərbaycan Kukla teatrı, 1933-cü ildə Gəncə Dövlət teatrı yaradılmışdı. 1938-ci ildə Dövlət Opera və Balet teatrının musiqili komediya qrupu əsasında Azərbaycan Musiqili Komediya teatrı açılmışdı. Artıq 1940-cı ildə Azərbaycanda 18 teatr fəaliyyət göstərirdi. Həmin teatrlarda A.M.Şərifzadə, H.A;Abbasov, M.A.Əliyev, M.Davıdova,

İ.Hidayətzadə, Sidqi Ruhulla, R.Təhmasib, Ülvi Rəcəb və başqa görkəmli səhnə ustaları çalışırdılar.

Teatrların səhnələrində M.F.Axundovun, N.B.Vəzirovun, S.S.Axundovun, C.Cabbarlının. H.Cavidin, S.Vurğunun, Avropa klassiklərindən V.Şekspirin, İ.Şillerin və başqa dramaturqların əsərləri tamaşaya qoyulurdu. Milli teatrın inkişfında Azərbaycanın məşhur rejissorları A.Tuqanovun, İ.Hidayətzadənin, Ə.İsgəndərovun böyük xidmətləri olmuşdu.

30-cu illər Azərbaycan Opera və Balet teatrının da inkişafında mühüm mərhələ olmuşdu. 1934-cu ildə R.Qlierin «Şah Sənəm»", 1935-ci ildə M.Maqomayevin «Nərgiz»", 1937-ci ildə Ü.Hacıbəyovun «Koroğlu»" operaları, 1940-cı ildə Ə.Bə-dəlbəylinin «Qız qalası»" baleti tamaşaya qoyulmuşdu. Azərbaycanda opera və balet sənətinin inkişafında Bülbülün (Murtuza Məmmədov), Ş.Məmmədovanın, P.Q.Sarabskinin, F.Muxtarovanın, H.Rzayevin, H.Hacıbabayevin, Q.Almaszadənin, Y.Vəkilovanın və başqalarının çox böyük xidmətləri olmuşdu.

***Musiqi***

Bu illərdə musiqinin inkişafına da böyük diqqət verilmişdi. 1921-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının əsası qoyulmuşdu. 1922-ci ildə Ü.Hacıbəyovun təşəbbüsü ilə ilk Azərbaycan musiqi məktəbi yaradılmışdı. Sonralar o, konservatoriya ilə birləşdirilmişdi. 1926-cı ildə Ü.Hacıbəyov ilk çoxsəsli Azərbaycan xoru təşkil etmişdi. 1931-ci ildə Azərbaycan xalq çalğı alətlərinin ilk notlu orkestri yaradıldı. 1936-cı filarmoniya, Azərbaycan dövlət xoru və xalq rəqs ansamblı, 1938-ci ildə mahnı və rəqs ansamblı, dövlət simfonik orkestri fəaliyyətə başlamış, onun havalarının, xalq mahnılarının, təsniflərinin və muğamların nota alınması təşkil olunmuşdu. Milli musiqinin, muğam sənətinin inkişafında xanəndələr: Cabbar Qaryağdıoğlunun, S.Şuşinskinin, X.Şuşinskinin, Z.Adıgözəlovun,

V.Kələntərlinin, tarzənlər Q.Pirimovun, Ə.Bakıxanovun və b. böyük xidmətləri olmuşdu.

*Kino*

20 – 30-cu illərdə Azərbaycanda kinonun inkişafında da nailiyyətlər əldə edilmişdi. Kino Azərbaycanda da kommunist ideologiyasının təbliğinin ən çevik vasitələrindən biri idi. 1920-ci ildə Xalq Maarif Komissarlığı yanında foto-kino bölməsi yaradılmış, 1923-cü ildə isə o, Azərbaycan foto-kino idarəsinə çevrilmişdi. Bakıdakı bütün kinoteatrlar onun idarəçiliyinə verilmişdi. 1926-cı ildə isə sözügedən idarə əsasında kinostudiya təşkil olunmuşdu. O, kinofilmlərin istehsalı və nümayiş etdirilməsi ilə məşğul olurdu.

1923-cü ildə tikilmiş kino fabriki tərəfindən filmlər istehsalına başlanılmışdı. 1923-cü ildə ikiseriyalı «Qız qalası»" ilk irihəcmli bədii film çəkilmişdi. 1924-cü ildə «Göz üçün göz»" və «Mədənçi-neftçi istirahətdə və müalicədə»" filmləri yaradılmışdı. 1925-ci ildə «Bismillah"«, 1927-ci ildə «Gilan qızı"«, 1929-cu ildə «Hacı Qara»", «Sevil»", «Lətif»", 1931-ci ildə «26-lar»", 1933-cü ildə «İsmət"«, 1935-ci ildə «Almaz»", 1938-ci ildə «Bakılılar»", 1939-cu ildə «Kəndlilər»", 1940-cı ildə «Yeni üfüq»" kino filmləri ekranlara çıxmışdılar.

Azərbaycanda səsli filmlərin çəkilməsinə 1936-cı ildən başlanımlmışdı.

Sovet ruhlu kino işçiləri kadrlarına ehtiyacı ödəmək məqsədi ilə 1925-ci ildə Bakıda kino mütəxəssisləri hazırlayan kino yaradıcılıq studiyası açılmışdı.

***Rəssamıq, heykəltəraşlıq və memarlıq***

Sovet rejimi şəraitində təsviri, dekorativ-tətbiqi incəsənətin və memarlığın inkiaşfına da diqqət verilmişdi. Çünki rəngarəng forma və janrları əhatə edən bu sahələr Azərbaycanın sovet mövzusunun tərənnüm

edilməsində mühüm rol oynayırdılar. Bu məqsədlə 1920-ci ildə Bakıda bədii qrafika studiyası təşkil olunmuşdu. O, sovet ideyasını təbliğ etmək üçün plakatlar, qrafik rəsmlər yaradır, sovet-təşviqat qatarlarına bədii tərtibatlar verirdi. Azərbaycanın qrafika rəssamları kitablara, habelə «Molla Nəsrəddin»", «Şərq qadını»", «Maarif və mədəniyyət»", «Qızıl qələm"« jurnallarına rəsmlər çəkir, siyasi mövzuda isə din əleyhinə karikaturalar yaradırdılar. Bu sahədə məşhur rəssam Əzim Əzimzadənin xidmətləri böyük idi. O, Azərbaycanda təsviri incəsənətin inkiaşfındakı xidmətlərinə görə 1927-ci ildə Xalq rəssamı fəxri adına layiq görülmüşdü.

Azərbaycanda rəssamlığın inkiaşfında istedadlı portret və mənzərə rəssamı Bəhruz Kəngərlinin də böyük xidmətləri olmuşdu. O, Azərbaycanda ilk dəzgah rəssamlığının yaradıcılarından idi.

Azərbaycanda rəssamlığın inkiaşfında 1920-ci ildə təşkil edilmiş Rəssamlıq studiyasının mühüm rolu olmuşdu. Sonralar onun əsasında Ali rəssamlıq məktəbi yaradılmışdı. O, 1927-ci ildə Rəssamılıq Texnikumuna çevrilmişdi.

Bolşevik ideyalarını yaymaq məqsədilə 1929-cu ildə Azərbaycanda inqilabi təsviri incəsənət işçiləri cəmiyyəti yaradılmışdı.

Azərbaycanda təsviri incəsənətin inkişafında rəssamların 1930-cu ildə təşkil olunmuş sərgisi də mühüm hadisə kimi iz buraxmışdı. O, Azərbaycanda təsviri incəsənətin inkişafına yeni təkan vermişdi.

Heykəltaraşlıq da inkişaf etdirilmişdi. 1920-ci ildə Bakıda ilk heykəltaraşlıq emalatxanası açılmışdı. Burada kütləvi surətdə büstlər və kiçik heykəllər hazırlınırdı. Həmin emalatxanaların gücü ilə 1923-cü ildə Bakıda tariximizin qara ləkələrindən olan 26-lara böyük abidə ucaldılmışdı. 1939-cu ildə Bakının 1918-ci il mart soyqırımı şəhidlərinin uyuduğu Çəmbərəkənd adlanan yerində yaradılmış Dağüstü parkda S.Kirovun 25 metrlik heykəli qoyulmuşdu.

Soyqırımı şəhidlərinin mğqəddəs ruhunu təhqir edən bu abidə Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra dağıdıldı.

Azərbaycanda memarlığın inkişafında 1935-ci ildə yaradılmış Azərbaycan sovet memarlar İttifaqının da mühüm rolu olmuşdu. Bu illərdə Bakıda memarlıq cəhətdən gözə çarpan bir sıra 4 – 5 mərtəbəli binalar inşa edilmişdi. Azərbaycanın gənc memarlarından S.Dadaşovun, M.Hüseynovun bu sahədə böyük xidmətləri olmuşdu. Onlar memarlıq sahəsində azərbaycan milli ənənələrini qoruyub saxlamaq və onları daha inkişaf etdirməyə səy göstərmişdilər. Buna misal olaraq 1939-cu ildə S.Dadaşovun və M.Üseynovun layihəsi əsasında Moskvada Ümumittifaq kənd təsərrüfat Sərgisində tikilmiş Azərbaycan SSR povilyonunu göstərmək olar.

Beləliklə, 20 – 30-cu illərdə Sovet rejimi şəraitində Azərbaycanda əsil mənada «İnqilab»" kimi qiymətləndirilən mədəni dirçəliş baş vermişdi: savadsızlıq ləğv olunmuş, sovet ümumtəhsil sistemi yaradılmış, orta ixtisas və ali məktəblərin, mədəni-maarif müəssisələrinin şəbəkələri genişləndirilmiş, kütləvi informasiya, mətbuat, ədəbiyyat və incəsənətin inkişafında böyük nailiyyətlər əldə edilmişdi.

Bütün bunlarla yanaşı, Azərbaycanda mədəniyyətin in-kişafı külli əyintilər,nöqsan və səhvlərlə müşahidə olunmuşdu.

Əvvəla təhsil, mədəniyyət partiyalılıq ruhunda, sovet rejiminə xidmət ruhunda köklənmişdi. «İdeyadan kənarda mədəniyyət yoxdur»" prinsipi mədəni quruculuğun başlıca meyarı olmuşdu. Müəyyən müddət ədəbiyyatda hər cür mədəni irsdən əl çəkmək kimi sərsəm nəzəriyyə hökm sürmüşdü. Elmlərin tədrisində, xüsusən humanitar fənlərin tədrisində partiyalılığı, bolşevik ideyalarına sədaqəti gənclərə təlqin etmək başlıca məqsəd hesab olunmuşdu. Tədris proqramları və dərsliklər bu ruhda hazırlanmışdı. ÜİK(b)P MK-nin «Mülki tarixin tədrisi haqqında»" 1934-cü il 16 may

tarixli qərarında «şagirdləri tarixi marksistcəsinə anlamağa”« yönəltmək istiqaməti verilmişdi. 1939-cu ildən etibarən isə ali təhsil müssisələrində əvvəl marksizm-leninizm əsaslarının, sonra isə partiya tarixinin tədrisinə başlanılmışdı. Bolşevik ideyalarını tədqiq etmək və təbliğ etmək məqsədilə AK(b)P MK və BK yanında oktyabr inqilabının və kommunist partiyasının tarixinə dair materialları toplayan və öyrənən komissiya – “İstpart” yaradılmışdı. 1928-ci ildə o, partiya tarixi institutuna çevril-mişdi. 1939-cu ildən isə bu institut ÜİK(b)P MK yanında marksizm-leninizm institutunun filialına çevrilmişdi.

Kütlələr arasında bolşevik ideologiyasını yaymaq üçün K.Marksın, F.Engelsin, V.Leninin əsərləri Azərbaycan dilinə tərcümə edilib kütləvi surətdə yayılmışdı. Bolşevik ideyalarını yayan savad məktəbləri, dərnəklər təşkil olunmuşdu. Partiya kadrları hazırlayan məktəblərin şəbəkəsi yaradılmışdı. 30-cu illərdə Bakıda Kommunist Universiteti, Mərkəzi Partiya Məktəbi, ümumən respublikada isə 10 sovet-partiya məktəbi fəaliyyət göstərmişdi.

İkinci, mədəni quruculuq gedişində milli adət-ənənələri nəzərə almamaq, milli mənəvi dəyərlərimizi xalqın yaddaşından silinməsinə çalışmaq mühüm vəzifə hesab olunmuşdu. Sovet təhsili sistemi yaratmaq, mədəni-maarif şəbəkəsini genişləndirməklə yanaşı, Azərbaycan xalqının tarixən formalaşmış adət-ənənələrinə, milli mənəvi dəyərlərinə qarşı mübarizə aparılmışdı. Ateizm təbliğatı adı altında dini mərasimlərin keçirilməsi yasaq elan olunmuşdu. Din əleyhinə mübarizədə 1924-cü ildə təşkil olunan «allahsızlar cəmiyyəti»” geniş fəaliyyət göstərmişdi. 20-ci illərdə respublikada olan 3000 məsciddən ancaq 20-si qalmışdı.

Milli adətlərə, milli incəsənətə, milli musiqi alətlərinə, milli geyimlərə qarşı da mübarizə aparılmışdı. Bu məqsədlə, vaxtaşırı hücum kompaniyaları keçirilmişdi. 20-ci

illərdə gənclər, xüsusən komsomolçular tərəfindən keçirilən mədəni yürüşlərdə «Rədd olsun çadra»”, «Rədd olsun papaq!»”, «Rədd olsun çuxa!»”, «Rədd olsun tar!»”, «Rədd olsun kamança!»” və s. şüarlar irəli sürülmüşdü.

Bu illərdə iki dəfə Azərbaycan əlifbası dəyişdirilmişdi. 1929-cu il yanvarın 1-dən tamamilə ərəb əlifbasından latın qrafikinə, 1939-cu ilin iyulundan isə rus qrafikinə əsaslanan əlifbaya keçilmişdi. Bu, Azərbaycanda kütləvi savadsızlığa, xalqın öz tarixi kökündən, tarixi yazılı elmi mənbələrdən məhrum olmasına səbəb olmuş, Şərq və Avropa ölkələri ilə əlaqələrə zərbə vurmuşdu.

Üçüncü, Azərbaycanda ruslaşdırma siyasətinin sovet rejimi şəraitində də davam etdirilməsi geniş miqyas almışdı. Azərbaycanda, xüsusən Bakıda rus məktəblərinin şəbəkəsi genişləndirilmişdi. 1926-cı ildən etibarən qeyri-rus ibtidai məktəblərində 3-cü sinifdən rus dilinin öyrənilməsinə başlanmışdı. 1938-ci ildə rus olmayan xalqların məktəblərində rus dili tədrisinin məcburi olması barədə qərar verilmişdi.

Dördüncüsü, mədəni dirçəliş sovet rejiminin bolşevik siyasətini həzm etməyən, milli mənəvi dəyərlərimizi xalqın yaddaşından silib çıxarmaq cəhdlərinə, tez-tez əlifba dəyişdirmələrinə etiraz edən milli ziyalılar, xüsusən yaşlı ziyalılar təqiblərə və hətta repressiyalara məruz qalması şəraitində baş vermişdi. Onlarla ziyalı, o cümlədən, bir sıra yazıçılar, şairlər və incəsənət xadimlərinin güllələnməsi və sürgün edilməsi Azərbaycan xalqının milli mədəni və mənəvi dəyərlərinə böyük zərbə olmuşdu.

# VI

# Azərbaycan İkinci Dünya müharibəsi illərində

## § 1. Şimali Azərbaycan müharibə illərində

1930-cu illərin sonu üçün dünyada beynəlxalq vəziyyət son dərəcə gərginləşmişdi. Bu zaman dünyada üç siyasi sistem: burjua-demokratik, sovet və faşist-militarist sistemlər qarşı-qarşıya durmuşdu. Dünya müharibəsi təhlükəsi labüd idi.

Burjua-demokratik və sovet qüvvələrinin faşizmə alternativ ittifaq yarada bilmədiklərini görən Almaniya SSRİ-i ilə 1939-cu ilin avqustun 23-də 10 il müddətinə bir-birinə hücum etməmək haqqında müqavilə imzaladı. Bununla yanaşı, onlar 1935-ci il sentyabrın 28-də dostluq və sərhədlər haqqında əlavə protokol da imzaladılar. Bu müqavilə ilə onlar bütün Şərqi Avropanı öz «maraq dairələri»nə böldülər.

1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya hücumu ilə İkinci Dünya müharibəsi başlanmış oldu. Fitnə-fəsad yolu ilə hücuma keçən Almaniya sərhədləri pozaraq Polşa üzərinə 57 diviziya (1,5 milyon adam), 2500 tank, 2000 təyyarə göndərdi.

İkinci dünya müharibəsində 110 milyon adam silahlandırılmışdı. Müharibədə dünya əhalisinin 4/5-ü, yəni 1,7 milyard əhalisi olan 61 ölkə iştirak etmişdi.

Artıq 1941-ci ilin yazı üçün Almaniya demək olar ki, bütün Avropanı işğal etmişdilər. Onlar Avropanın təqribən 290 milyon nəfər əhalisi yaşayan 2 milyon kv.kilometr ərazisini tutmuşdular.

Almaniya, dünya ağalığına nail olmaq yolunda qarsışında əsas maneə SSRİ-yə qarşı, hələ 1940-cı ilin ikinci yarısında, hücum etmək planını hazırlamağa başlamışdı. «Barbarossa» («İldırım sürətli müharibə») adlanan bu plan 1940-cı ilin dekabrın 18-də Hitler tərəfindən təsdiq olunmuşdu. Həmin plana görə 1941-ci ilin payızına qədər SSRİ diz çökdürülməli idi.

Almaniya 1941-ci ilin iyunun 22-də bağladığı «Sərhəd və dostluq barədə» müqavilələri pozaraq,bütün sərhəd boyu 190 diviziya ilə SSRİ üzərinə hücuma keçdi. Alman-sovet müharibəsi başlandı. Bu Sovet dövrü tarixinə SSRİ-nin Böyük Vətən müharibəsi kimi daxil olmuşdu. Almaniyanın işğalçılıq planlarında mühüm strateji, geosiyasi əhəmiyyəti olan Azərbaycan, neft Bakısı xüsusi yer tuturdu. Onlar bu ərazidə mərkəzi Tiflis olan Qafqaz reyxkomissarlığı yaratmaq istəyirdilər.

Müharibə başlanan kimi SSRİ rəhbərliyi əhalini, xüsusən milli respublikalarda yaşayan xalqları düşmənə qarşı səfərbər etmək üçün, təsərrüfatı müharibənin tələbləri əsasında yenidən qürmaq üçün mövcud inzibati amirlik üsul-idarəsini daha da sərtləşdirdi. Azərbaycanda da M.C.Bağırovun başçılığı ilə inzibati idarəçilik sistemi olduqca möhkəmləndirildi.

Müharibənin ilk günlərindən respublikada 50 min nəfərdən çox oğlan və qız cəbhəyə getmək üçün ərizə vermişdi. Avqust ayına kimi respublikada 123 min nəfər xalq qoşunu dəstələrinə yazıldı. 1941-ci ilin sonunda xalq qoşunu dəstələrində 187 min nəfərə qədər döyüşçü var idi ki, onların 30 min nəfəri qadın idi. Təxribatçılara, casuslara qarşı mübarizə aparmaq üçün 12 min nəfər döyüşçüsü olan 87 qırıcı batalyon, habelə 1124 özünümüdafiə, 15 min nəfərlik hava hücumundan müdafiə dəstələri təşkil olundu.

1941-1945-ci illərdə Azərbaycandan Sovet Ordusuna 575 min nəfərə qədər adam, o cümlədən 10 min nəfərdən çox qadın səfərbər edilib,cəbhəyə göndərilib. Onların 83,604 nəfəri müharibədə həlak olmuş, 123213 nəfəri isə itkin düşmüşdür (cəmi 206817 nəfər). Müharibədən vətənə 368183 nəfər qayıtmışdır.

Respublikada 1941-ci ilin avqustunda 402-ci, oktyabrında 223-cü, 1942-ci ilin mart sentyabr aylarında 416-cı, avqust-sentyabr aylarında isə 271-ci milli atıcı diviziyalar təşkil olundu. 1941-ci il dekabrında Krımın müdafiəsində şəxsi heyətin çoxunu itirmiş 77-ci Azərbaycan diviziyası (1920-ci ildə təşkil olunub). 1942-ci ilin mayında yenidən respublikada komplektləşdirildi.

Azərbaycanın xalq təsərrüfatı qısa müddətdə hərbi qaydada yenidən quruldu. Orduya səfərbər edilənlərin yerinə qadınlar, yeniyetmələr gəldi. 1942-ci ildə təkcə neft sənayesində işləyənlərin 33 faizi qadınlar idi.

Bakı döyüşən ordunun mühüm cəbhəxanalarından birinə çevrildi. Artıq 1942-ci ildə Bakıda 130 növ müxtəlif silah, hərbi sürsat istehsal olunurdu. Akademik Y.Məmmədəliyevin rəhbərliyi ilə aviasiya benzini istehsalının yeni texnologiyası hazırlandı. Y.Məmmədəliyevin rəhbərliyi ilə respublika kimyaçıları ölkəyə 100 növ neft-kimya məhsulları, o cümlədən 38 növ sürtkü yağı, 9 adda aviasiya benzini, 8 növ dizel yağının istehsalını təşkil etmişdilər. Artıq 1941-ci ildə neftçilərimizin fədakar və gərgin səyləri nəticəsində Azərbaycanın bütün tarixində ən böyük həcmdə – 23,5 milyon ton neft hasil olundu ki, bu da ittifaqda çıxarılmış 71,4 faizini təşkil edirdi. Azərbaycan neftçiləri müharibə illərində ölkəyə 75 milyon ton neft, 22 milyon ton benzin və başqa neft məhsulları verdilər ki, bu da faşizm üzərində qələbənin əldə edilməsində həlledici amillərdən biri olmuşdu. Belə ki, qeyd olunmalıdır ki, SSRİ-də

istehsal olunan neftin 75 faizini, benzinin 85 faizini Azərbaycan verirdi.

Müharibə illərində Azərbaycanın dəmiryol nəqliyyatçıları 1300 min vaqon və 600 min sistern,habelə Xəzər dəniz gəmiçiləri 20 milyon ton hərbi və təsərrüfat yükləri daşıdılar. 1942-ci ildə yanacağın cəbhəyə dəmiryolu ilə daşıması mümkün olmadığı dövrdə, Xəzər dənizçiləri tankerlər çatışmadığından dünya təcrübəsində ilk dəfə neft doldurulmuş sisternləri və çənləri gəmilərin yedəyinə alıb Krasnovodska aparırdılar.

Müharibə illərində Azərbaycan kəndində işçi qüvvəsinin azalmasına baxmayaraq, ölkəyə milyon tonlarla taxıl, 500 min ton pambıq, 100 min tonlarla digər ərzaq məhsulları verilirdi.

Respublikanın əhalisi 1941-1943-cü illərdə müdafiə fonduna 15 kq nızıl, 952 kq gümüş, 311 milyon manatlıq istiqraz vermişdi. Müharibə illərində tank və təyyarə dəstələri yaradılması fondlarına 230 milyon manat pul köçürülmüşdü. Cəbhəyə 1,6 milyon hədiyyə bağlamaları, 125 vaqon isti paltar göndərilmişdi.

Mərkəzin tələbi ilə, Azərbaycanın özü ağır vəziyyətdə olsa da, 1943-44-cü illərdə faşist işğalçılarından azad edilmiş rayonlarda xalq təsərrüfatının bərpasına fəal kömək göstərməli idi. 1943-cü ilin payızında bu məqsədlə Respublika yardım komitəsi və onun rayon komissiyaları təşkil olundu. İşğaldan azad olunmuş ərazilərə çoxlu pul, ərzaq, tikinti materialları, mal-qara, sənaye avadanlığı və s. göndərildi.

Müstafa Topçubaşov başda olmaqla Azərbaycan həkimləri hərbi cərrahiyədə yeni səmərəli metodlar işləyib hazırladılar. Respublikada 70 hərbi qospital təşkil olunmuşdu. Burada müalicə olunanların 70 faizindən çoxu tam sağalıb, yenidən döyüş meydanlarına qayıtmışdılar.

*Ön cəbhədə*

Azərbaycanın minlərlə oğul və qızları faşizmə qarşı cəbhələrdə əldə silah mərdliklə vuruşurdular. Müharibənin elə ilk günlərindən bir çox azərbaycanlı öz qəhrəmanlıqları ilə fərqlənmişdi. Bir aydan artıq alman işbalçılarından qəhrəmanlıqla müdafiə olunan, düşmənə böyük tələfat verən Brest qalasının rəşadətli döyüşçüləri arasında 44 azərbaycanlı var idi. 1941-ci ilin oktyabr-dekabr aylarında Moskva yaxınlığındakı döyüşlərdə tank bölməsinin komandiri Həzi Aslanov əsgəri xidmətlərinə görə «Qızıl Ulduz» ordeni ilə təltif edildi. Pulemyotçu İdris Vəliyev Borodino çölündəki döyüşdə təkbaşına düşmənin 50-dən çox əsgərini məhv etmişdi. Novqorod yaxınlığındakı Pustınka kənd iuğrunda döyüşdə kiçik leytenant İsrafil Məmmədov göstərdiyi qəhrəmanlığa görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş ilk azərbaycanlı oldu. Təyyarəçi, leytenant Hüseynbala Əliyev Leninqrad səmasında almanların 6 təyyarəsini vurub məhv etmişdi. Son döyüşdə o daha 2 alman təyyarəsini məhv etmiş və bu döyüşdə 17 ağır yara almasına baxmayaraq, öz təyyarəsini yerə endirə bilmişdi.

1941-ci ilin sonlarında Sovet ordusunun Moskva yaxınlığında böyük qələbəsi, Leninqradın qəhrəman müdafiəsi almanların «ildırım sürətli» müharibə planını pozdu. 1942-ci il yanvar ayının 1-də SSRİ,ABŞ və Böyük Britaniya daxil olmaqla 26 dövlət faşist blokunu məhv etmək üçün öz hərbi və iqtisadi ehtiyatlarını birləşdirmək haqqında bəyannamə imzaladılar. Antifaşist Koalisiyası yaradıldı və getdikcə möhkəmləndi.

Almanlar öz hücumlarını cənub istiqamətinə keçirdilər. 1942-ci il mayın əvvəllərində Xarkovu tutduqdan sonra onlar «Edelveys» planına əsasən Qafqaza hücum edib zəngin neft, digər strateji xammal mənbələrinə malik olan bu sənaye və kənd təsərrüfatı rayonunu ələ keçirmək istəyirdilər. General-feldmarşal Listin komandanlığı ilə «A» ordu qrupunun I tank

ordusu sentyabrın 6-da Qroznı-Mahaçqala-Bakı istiqamətlərində hücuma keçib, sentyabrın 25-də Bakını tutmalı idi.

Faşizmə qarşı bir ittifaqda olmalarına baxmayaraq, ABŞ və İngiltərə Cənubi Qafqazı, xüsusilə Azərbaycanı SSRİ-dən almaq istəyirdilər. Onların tərtib etdiyi «Vilvet» planına əsasən Sovet ordusu çıxarılıb Stalinqrada aparılmalı, burada isə almanlara qarşı amerikan-ingilis hərbi hissələri döyüşməli idi. Hətta onların, Bakının almanlar tərəfindən tutulması təhlükəsi yarandığı şəraitdə, bu strateji rayonun bombardman olunub məhv edilməsi planı da hazır idi.

SSRİ rəhbərliyi də Azərbaycan əhalisinin Sovet Ordusu arxasında almanlara və onun müttəfiqlərinə əməkdaşlıq edəcəyindən ehtiyat edirdi. 1942-ci ildə bütün Azərbaycan xalqının Şərqə-Sibirə köçürülməsi planı hazır idi. Burada, Stalinqradın almanlar tərəfindən alınması təhlükəsi yarandığı şəraitdə azərbaycanlıların türklərlə birləşəcəyi barədə erməni təbliğatının da rolu olmuşdu. Lakin respublika rəhbərliyi, xüsusən M.C.Bağırov Stalini inandıra bildi ki, azərbaycanlıların öz torpaqlarından köçürülməsi nə iqtisadi, nə də siyasi baxımdan qələbəyə xidmət edə bilməz, bu, respublikada neft və pambıq kimi strateji məhsulların istehsalını azaldar, orduda vuruşan azərbaycanlı əsgərlərə pozucu təsir edər. Stalinqradın qəhrəman müdafiəsi və Sovet ordusunun uğurlu hücumları da bu planların baş tutmamasında mühüm rol oynadı.

1942-ci ilin sentyabrında Bakı müdafiə rayonu yaradıldı. Almanların 1942-ci ildə 71 dəfə, 1943-cü ildə isə 3 dəfə Bakı səmalarına soxulmaq cəhdləri baş tutmadı. Düşmənin 96 hərbi təyyarəsi vurulub salınmışdı.

Cənubi Qafqaz cəbhəsi döyüşçüləri arasında olan 66 min azərbaycanlı bütün cəbhə boyu səpələnmişdi. Bu Sovet rəhbərliyinin bizim xalqa tam arxayın olmamasından irəli gəlirdi.

Mozdok rayonunda döyüşən 402, 416 və 223-cü Azərbaycan diviziyaları 44-cü ordunun əsas zərbə qüvvəsinə daxil idi. 77-ci diviziya isə müdafiə əməliyyatlarında iştirak edirdi.

Stalinqrad döyüşlərində polkovnik-leytenant Həzi Aslanovun 55-ci əlahiddə tank polku böyük qəhrəmanlıq göstərdiyinə görə,ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.

Qafqaz və Stalinqrad döyüşlərində Sovet ordusunun qələbəsi müharibənin gedişində əsaslı dönüşün başlanmasına səbəb oldu. 1943-cü ilin yayında Sovet ordusunun yeni qüvvətli hücumu başlandı. Bütün cəbhələrdə on minlərlə azərbaycanlı döyüşçü qəhrəmanlıqlar göstərirdilər. Oryol şəhəri üzərində qələbə bayrağını serjant H.Əjdərov qaldırmışdı. Oryol-Belqorod rayonunda leytenant M.Bağırov, Dnepr uğrunda vuruşmalarda S.Kazımov, M.Məhərrəmov, Kerç körfəzinin keçilməsində M.Quliyev böyük igidliklər göstərdilər. Hərbi təyyarəçilərdən A.Quliyev, Z.Seyidməmmədova, C.Bağırov, M.Abbasov döyüş xidmətləri ilə fərqləndilər.

1943-cü ilin iyunun 5-də Cahangir Bağırov on bir düşmən təyyarəsi ilə üz-üzə gəlmişdi. Qeyri-adi məharəti ilə onlardan yeddisini vurub yerə salmışdı. Yanacağı tükəndiyindən o, təyyarəsini faşist təyyarəsinə çırpıb onu da, özünü də məhv etmişdi. C.Bağırovu qəhrəmanlığına görə ölümündən sonra Lenin ordeni ilə təltif etmişdilər. Sovet İttifaqı Qəhrəmanı adının verilməsinə atası Mir Cəfər Bağırov razı olmamışdı.

Qeyd olunmalıdır ki, bir çox partiya və hökumət rəhbərlərinin övladları cəbhədə idi. Ancaq, yalnız M.C.Bağırovun oğlu yaralandıqdan sonra hərbi xəstəxanadan birbaşa düşmənlə vuruşa yollanmış, misilsiz qəhrəmanlıqla həlak olmuşdu. Ondan əvvəl Stalinin oğlu Yakov müharibəyə getmiş, lakin əsir düşmüşdü. Ukrayna KP MK birinci katibi

N.S.Xruşovun oğlu müharibəyə getmiş, lakin vətən xaini kimi güllələnmişdi.

1943-cü il avqustun 30-da Taqanroq şəhərinin azad edilməsində böyük rəşadət göstərdiyinə görə 416-cı diviziyaya fəxri «Taqanroq diviziyası» adı verilmişdi.

271-ci diviziya sentyabrın əvvəllərində «Donetsk» əməliyyatlarında fəal iştiark etdiyinə görə ona fəxri «Qorlovka diviziyası»adı verildi. 77-ci Azərbaycan diviziyası 1944-cü ilin aprelin 13-də Simferopolun düşməndən azad edilməsində böyük igidlik göstərdiklərinə görə, ona «Simferopol diviziyası» fəxri adı verilmişdi.

402-ci diviziya, Mozdok rayonunda ağır döyüşlərdə, şəxsi heyətinin çox hissəsinin qəhrəmanlıqla həlak olması nəticəsində 416-cı diviziya ilə birləşdirilmişdi.

1944-cü il iyunun 23-30-da general-mayor H.Aslanovun komandanlıq etdiyi 35-ci qvardiya tank briqadası Berezina çayını keçib Pleşenitse şəhərini düşməndən azad etdi. Sonra onlar daha 580 yaşayış məntəqəsini almanlardan təmizlədi. H.Aslanov 1945-ci il yanvarın 24-də çox müəmmalı şəkildə həlak olmuşdu.

H.Aslanova ölümündən 47 il sonra ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif olunması haqqında fərman verildi.

***Müqavimət hərəkatı və partizan dəstələrində***

Müharibə illərində əsir düşmüş, faşist hərbi əsir düşərgələrinə salınmış azərbaycanlılardan böyük bir qismi xalqları faşist əsarətindən qurtarmaq üçün mübarizəni davam etdirir, əsirlikdən qaçaraq partizan dəstələrinə qoşullurdular. Kapitan İ.Əliyev 1942-ci ilin sentyabrından Smolenskdə fəaliyyət göstərən partizan briqadasının qərərgah rəisi idi.

1943-cü ilin sentyabrında 50 nəfər azərbaycanlı hərbi əsir zabit M.Əliyevin başçılığı ilə alman düşərgəsindən qaçaraq Krımda xüsusi partizan dəstəsi yaratmışdılar. Həmin ilin payızında əsirlikdən qaçmış daha 400 nəfər azərbaycanlı Ukrayna meşələrində partizan dəstəsi təşkil etmişdilər.

1942-ci yayında Polşadakı hərbi əsir düşərgəsində zabitlər H.Qiyasbəyov və M.Məmmədovun başçılığı ilə azərbaycanlı əsirlər gizli antifaşist təşkilatı yaratmışdılar.

1942-ci ilin noyabrında Fransada faşistlərin ölüm düşərgəsindən qaçıb müqavimət hərəkatına qoşulmuş Əhmədiyyə Cəbrayılov, «Armed Mişel» adı ilə tanınaraq göstərdiyi qəhrəmanlıqlara görə ölkənin 5 ordeninə və ən yüksək mükafatına – «Fransanın Milli Qəhrəmanı» adına layiq görülmüşdü.

1942-ci ilin avqustunda əsir düşmüş, almanların təşkil etdiyi milli Azərbaycan legionuna daxil olmuş, lakin tezliklə qaçıb Yuqoslaviya partizanlarına qoşulmuş cəsur kəşfiyyatçı Mehdi Hüseynzdə («Mixaylo») mindən artıq alman zabitini məhv etmişdi. 1944-cü ilin noyabrında o, qəhrəmanlıqla həlak oldu. Müharibədən sonra DTK-nin əməkdaşı H.Əliyevin birbaşa köməyi və səyi nəticəsində 1957-ci ildə M.Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

1944-cü ilin avqustunda İtaliyanın Bikurari şəhəri yaxınlığında Hilal Cavadov və Vilayət Hüseynovun başçılığı ilə 40 sovet döyüşçüsü hərbi düşərgədən qaçaraq Pyaçentsk partizan dəstəsinin rus rotasına daxil olmuşdular.

Göstərdikləri qəhrəmanlıqlara görə rota komandiri H.Cavadov, pulemyotçu V.Hüseynov, T.İbrahimov, İ.İbrahimov, T.Əkbərov və başqa azərbaycanlı partizanlar rəhbərliyin təşəkkürünü almış və şəxsi tapança ilə mükafatlandırılmışdılar.

1945-ci ilin aprelində sovet partizanları, o cümlədən azərbaycanlılar, Milan partizanlarına faşist diktatoru

Mussolininin tutulub, edam edilməsində iştirak etmişdilər. Bu əməliyyatda pulemyotçu V.Hüseynov xüsusilə fərqlənmişdi.

Leytenant S.Hacıbəyov Çexoslovakiyada «Oraq və çəkic» adlı partizan dəstəsinin təşkilində və fəaliyyətində yaxından iştirak etmişdi. «Buhenvald» ölüm düşərgəsində fəaliyyət göstərən gizli antifaşist təşkilatının fəal üzvlərindən biri də gənc Ə.Ağayev idi.

SSRİ ərazisi faşist işğalçılarından təmizləndikdən sonra, sovet hökuməti Şərqi Avropanı faşizm əsarətindən xilas etmək, düşməni tam məhv etmək məqsədi ilə müharibəni davam etdirirdi. Bolqarıstan, Macarıstan, Rumıniya və Yuqoslaviyanın azad edilməsində 223-cüAzərbaycan diviziyası fərqləndi. Belqrad uğrunda döyüşlərdə göstərdiyi igidliklərə görə ona fəxri «Belqrad diviziyası» adı verildi.

271-ci Azərbaycan diviziyası Polşanın, Çexoslovakiyanı düşməndən azad olunmasında fəal iştirak etmişdi. Bu döyüşlərdə qəhrəmanlıq etmiş 20 nəfər azərbaycanlı – Ziya Bünyadov, A.Vəzirov, M.Abdullayev və başqaları Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

1945-ci ilin fevralında 416-cı Azərbaycan diviziyası Berlinə yol açan hərbi hissələrdən biri oldu. Fevral-mart aylarında Berlinin qapısı sayılan Küstrinin alınmasında 416-cı diviziya fəal iştirak etmişdi. Mayın 2-də 416-cı Azərbaycan diviziyası Berlinin Brandenburq darvazasına qələbə bayrağı sancdı. Onlar öz adlarını reyxstaq binasının üzərinə həkk etmişdilər.

1945-ci il mayın 8-dən 9-a keçən gecə Almaniya hərbi komandanlığı danışıqsız təslim olmaq aktına qol çəkdi.

1945-ci ilin avqustun 8-də Sovet İttifaqı Yaponiyaya müharibə elan edərək, avqustun 9-da hərbi əməliyyatlara başladı. Sentyabrın 2-də Yaponiyanın təslim olması ilə İkinci dünya müharibəsi başa çatmış oldu.

II dünya müharibəsində döyüş meydanlarında əsgəri rəşadətlərinə görə Azərbaycandan 121 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 30 nəfər «Şöhrət»ordeninin hər üç dərəcəsi ilə, 176 min nəfər isə SSRİ-nin müxtəlif orden və medalları ilə təlif olunmuşdular.

Alman faşizminə qarşı mübarizə üçün möhkəm arxa cəbhə yaradılmasında və onun ahəngdar işləməsində SSRİ-nin bütün xalqları kimi, Azərbaycan xalqı da böyük əmək sərf etmişdi. Lakin respublikanın,xüsusən Sovet hərb maşınını hərəkətə gətirən yanacaq istehsalında əsas yeri tutan neft Bakısının fədakar əməyi hökumət tərəfindən layiqincə qiymətləndirilmədi.

***Azərbaycan mühacirəti. «Milli legion»***

Azərbaycanlılar arasında Almaniyanın Sovet imperiyası üzərində çalacağı qələbədə vətənin istiqlalını görənlər də var idi.

Azərbaycan mühacir mərkəzlərində birləşmiş siyasi xadimlərin çoxu səhvən Almaniyanın kommunistlərin imperiyasına son qoyacağına, Azərbaycan xalqının milli istiqlalının bərpası üçün münasib şərait yaranacağına ümid edirdilər.

Sovet ordusuna xidmət edənlər arasında belə düşünənlər az deyildi. Moskvada hərbi akademiya bitirmiş mayor Ə.Fətəlibəyli-Didənginski müharibənin əvvəllərində əsir düşərək almanların tərəfinə keçmiş, 1941-cı ilin avqustunda azərbaycanlılardan ibarət hərbi hissə yaratmaq təşəbbüsü ilə Hitlerə müraciət etmişdi.

Almaniya müharibənin ilk aylarında əsir götürülmüş 3,5 milyon sovet əsgər və zabitindən öz istilaçılıq planlarını həyata keçirmək məqsədilə istifadə etməyi qərara almışdı.

Hitler hökumətinin Şərq Nazirliyi 1941-ci ilin payızında M.Ə.Rəsulzadəni Almaniyaya dəvət etmişdi. Onunla azərbaycanlı əsirlərin azad edilməsi, onlardan milli ordu yaradılması məsələləri müzakirə edilmişdi. Hitler 1941-ci il dekabrın 22-də başqa milli hissələrlə yanaşı, Qafqaz müsəlmanlarından xüsusi hərbi hissə yaradılması barədə əmr vermişdi. Qafqaz müsəlmanlarından təşkil edilmiş hərbi hissələr 1942-ci ilin yayında Qafqaz cəbhəsindəki döyüşlərdə iştirak etmişdilər. Azərbaycanlılardan təşkil olunmuş 7 min nəfərdən çox döyüşçüsü olan «Aslan», «Dönməz», «Qafqaz», «Vətən» və başqa hərbi dəstələr də bu döyüşlərdə iştirak etmişdilər.

1943-cü ilin yazında antisovet hərəkatına rəhbərlik etmək üçün Berlində Milli Azərbaycan Komitəsi yaradılmışdı. Həmin ilin may ayında xüsusi azad türk diviziyası (162-ci piyada diviziyası) yaradılmışdı. Bu diviziyanın tərkibində Azərbaycan legionu da var idi.

Hitlerin Azərbaycana qarşı işğalçılıq niyyətlərindən xəbər tutan M.Ə.Rəsulzadə antifaşist çıxışlar etmiş və Almaniyanı tərk etməli olmuşdu.

1943-cü ilin payızında Hitler hökumətinin himayəsi ilə Berlində mühacir Azərbaycan parlamenti və hökuməti yaradılmışdı. Hökumətin başında Əbo bəy Fətəlibəyli-Dudənginski dururdu. Fuad bəy Əmircan onun müavini, İ.İsrafilbəyov, professor Cabbar Əliyev və b. hökumətin üzvləri idilər. Bu hökumət 1944-cü ilin qışına qədər fəaliyyət göstərdi. Müharibə başa çatdıqdan sonra Azərbaycan legionunun dəstələri bitərəf ölkələrin ərazilərinə köçürülməyə başladı və tezliklə tamamilə dağıldı. Legionun əsgərləri müxtəlif ölkələrə səpələndilər. Vətənə qayıdanlar uzun illər təqibə və sürgünlərə məruz qaldılar. 3 min nəfərə qədər azərbaycanlı Türkiyədə məskunlaşdı.

Azərbaycanda müharibə illərində də gənclər arasında milli-azadlıq ruhu güclənmişdi. 1942-ci ildə ADU-nun tələbəsi Gülhüseyn Abdullayevin təşəbbüsü ilə Hacı Zeynalov və Kamil Rzayevlə birlikdə antisovet təşkilat yaratdılar. Təşkilata «İldırım» adı verilmişdi. Sonralar bu təşkilata İsmixan Rəhimov, Azər Ələsgərov, Aydın Vahidov, Kamil Əliyev, Musa Abdullayev də qoşulmuşdular. Təşkilat öz qarşısına azad müstəqil Azərbaycan uğrunda müharibə etmək məqsədini qoymuşdu. Təşkilatın üzvləri 1944-cü il mayın 11-də «Dönməzlər» imzası ilə, dəstək almaq məqsədilə görkəmli xalq şairimiz Səməd Vurğuna məktub yazmışdılar. «İldırım» təşkilatı 1946-cı ilə kimi fəaliyyət göstərmişdi. 1948-ci ilin payızında təşkilatın bütün üzvləri DTK tərəfindən həbs olunmuşdular. Ali Məhkəmənin 1949-cu il martın 21 və 22-də keçirilən iclasının hökmü ilə təşkilatın üç nəfəri – İ.Rəhimov, GAdullayev və H.Zeynalov 25 il müddətinə həbs düşərgəsinə göndərilir, qalan beş nəfər 10 illik həbsə məhkum olunmuşdular.

1955-ci ilin may ayında bütün məhkumlar həbs yerlərindən azad olunmuşdular. 1956-cı ilin iyulunda isə SSRİ Ali Məhkəməsi tərəfindən təşkilatın bütün üzvləri barədə cinayət işinə xitam verildi.

***Mənəvi səfərbərlik***

Müharibənin ilk günlərindən başlayaraq, sovet ədəbiyyat və incəsənət işçiləri də döyüşçülər, fəhlələr və kolxozçularla birlikdə var qüvvələrini və yaradıcılıq imkanlarını əsirgmir, qələbə naminə əllərindən gələni edirdilər. Onlardan bir çoxları qələm, fırça və musiqi alətlərini silahla əvəz edərək Vətənin azadlığı və səadəti uğrunda qəhrəmancasına vuruşanların sıralarına qoşulmuşdular. Arxada qalan yazıçılar, bəstəkarlar, rəssamlar, musiqiçilər, artistlər isə bütün qüvvə və bacarıqlarını dövlətin «hər şey cəhbə üçün, hər şey qələbə naminə» çağırışına tabe edirdilər.

Bütün ölkədə olduğu kimi müharibə illərində Azərbaycanda da dövlət yaradıcı ziyalılar arasında işi qüvvətləndirmişdi. Yaradıcı ittifaqlara – Azərbaycan sovet yazıçıları ittifaqına (sədri şair Səməd Vurğun), bəstəkarlar ittifaqına (sədri Üzeyir Hacıbəyov), rəssamlar ittifaqına (sədri Əzim Əzimzadə, onun vəfatından sonra isə İsmayıl Axundov) yaxından kömək edir, bu ittifaqların rəhbər orqanlarını bacarıqlı və eyni zamanda öz əsərləri ilə kütlələrin rəğbətini qazanmış sənətkarlar hesabına qüvvətləndirirdi.

Müharibə illərində Azərbaycan yazıçılarının 40 nəfərdən artıq böyük bir dəstəsi, siyasi işçi və hərbi mətbuat işçisi kimi cəbhəyə getmişdi. Cəbhədə Azərbaycan yazıçıları Əbülhəsən Ələkbərzadə, Böyükağa Qasımzadə, Ənvər Əlibəyli, Əyyub Abbasov, Zeynal Cabbarzadə, Hüsyen Abbaszadə, Hüseyn Hüseynzadə və başqaları müharibənin ağırlıq və dəhşətlərini nəinki öz gözləri ilə görmüş, hətta bir çox ağır vuruşmaların iştirakçıları olmuşdular. Yazıçılar cəbhədə qəhrəmanlıqla döyüşməklə yanaşı, cəbhə həyatını və öz yoldaşlarının qəhrəmanlığını öz yazılarında əks etdirirdilər.

Müharibənin birinci günündən başlayaraq ədəbiyyatın çevik və kütləvi növü olan şer, oçerk və publisist məqalələr döyüşə başladı. SəmədVurğun, Məmməd Rahim, Süleyman Rüstəm, Rəsul Rza, Zeynal Xəlil, Osman Sarıvəlli, Əhməd Cəmil ıə başqa şairlərin mübariz misraları vətən oğullarımızı öz vətənini qorumağa, düşmənə qarşı aman verməməyə çağırırdı. S.Vurğunun ağır döyüşlərə çağırış kimi səslənən və qələbəyə dərin inam aşılayan «Vətən keşiyində» və «Ananın öyüdü» şerləri müharibənin birinci günündə yarandı, ertəsi gün dillər əzbəri olan «Şəfqət bacısı» çap edildi. M.Rahim «Faşizm bir çumadır, məhv edək bu azarı» deyə mübariz şerlərini yazmağa başladı. S.Rüstəmin «Qocanın dedikləri» və R.Rzanın «Əsgər anasının sözləri»də belə şerlərdəndir. Demək olar ki, hər gün

qəzetlərin səhifələrində S.Rəhimovun, Mir Cəlalın, Ənvər Məmmədxanlının, M.Hüseynin, Əli Vəliyevin ordumuzun misilsiz rəşadət və mərdliyini əks etdirən, düşmənə nifrət etməyi öyrədən hekayə və oçerkləri dərc edilirdi. Bilavasitə müharibə ilə əlaqədar mövzularda yazılan dram əsərlərindən M.İbrahimovun «Məhəbbət», R.Rzanın «Vəfa», M.Hüseyn və İ.Əfəndiyevin «İntizar», M.Təhmasibin «Aslan yatağı», Əhliman Axundovun «Dəli padşah» pyeslərini göstərmək olar.

Müharibənin ilk aylarında döyüşdə fərqlənən Kamal Qasımovun, Ziba Qəniyevanın, Məzahir Abbasovun, ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun igidliyi yazıçılarımızın yaradıcılığında öz bədii əksini tapıb.

Müharibənin ilk illərində yalnız «Vətən uğrunda» jurnalında 50 şer, 4 poema, 33 hekayə və 55 antifaşist publisist məqalə çap edilmişdi. Müharibə illərində Azərbaycan Yazıçılar İttifaqına başçılıq edən Səməd Vurğunun coşqun yaradıcılq fəaliyyəti bütün yazıçılar üçün nümunə idi. Şair həmin dövrdə 50 şer, 2 poema, 2 mənzun dram, 7 nəğmə və 14 elmi-publisist məqalə yazmışdı.

Bilsin ana torpaq, eşitsin Vətən,
Müsəlləh əsgərəm, mən də bu gündən,-

deyən Səməd Vurğunun yaradıcılığının həyat və zamanla canlı əlaqəsi, böyük ictimai mənası bu illərdə yeni qüvvə ilə təzahür edirdi.

İncəsənət işçiləri – bəstəkarlar, rəssamlar və kino işçiləri özlərinin əsərləri ilə Vətənə dərin məhəbbət və faşist qəsbkarlrı üzərində qələbəyə böyük inam hissi tərbiyə edirdilər.

Respublikanın 20-dən çox rəssamı ordu sıralarına getmişdi. Mehdi Hüseynzadə, Leninqrad cəbhəsində döyüşən Qafar Seyfullayev, Krım cəbhəsində döyüşən Həsən Haqverdiyev və baqaları belə döyüşçü rəssamlar idi. Əyyub

Məmmədov, Oqtay Sadıqzadə və sənətşünas Mürsəl Nəcəfov da döyüşən ordu sıralarına getmişdilər.

Müharibənin ilk dövrlərindən rəssamların yaradıcılığında əsas yeri kütləvi janrlardan olan plakat və satirik qrafika əsərləri olmuşdur. Əzim Əzimzadənin təşəbbüsü ilə elə ilk günlərdən başlayaraq «Agit-pəncərə» adında satirik plakatlar, «Döyüşən karandaş» satirik vərəqələri yaradılmağa başladı.

«Agit pəncərə» nəşri gündən günə genişlənirdi. Rəssamlar özləri plakatları müəyyən olunmuş məntəqələrə yapışdırmaqla məqğul olurdular. Onun birinci nömrəsində Azərbaycanın xalq rəssamı İsmayıl Axundovun çəkdiyi «Keçinin buynuzu gicişəndə çobanın çomağına sürtər» plakatı olmuşdur. «Agit pəncərə» və «Döyüşən karandaş» vərəqələrinin çəkilib yaradılmasında İ.Axundov, Q.Xalıqov, Ə.Hacıyev, K.Kazımzadə, S.Salamzadə, M.Rəhmanzadə fəal iştirak edirdilər. İki həftə ərzində «Agit pəncərə»nin 13 nömrəsi və «Döyüşən karandaş»ın 3 nömrəsi buraxılmışdı. Qocaman rəssam Əzim Əzimzadə az müddətdə 40-dan çox karikatura və 15 eskiz çəkmişdi. Müharibə günlərində gənc Mikayıl Abdullayev özünü portret janrı sahəsində istedadlı bir sənətkar kimi göstərmişdi. O, neçə-neçə müharibə qəhrəmanının, görkəmli mədəniyyət xadimlərinin portrektlərini çəkmiş, surətlərini əbədiləşdirmişdi.

Müharibə illərdə P.Sabsay, F.Əbdülrəhmanov, C.Qaryağdı, T.Əhmədov, Z.Məmmədova müharibə qəhrəmanlarının portret-heykəllərini yaratmaq kimi nəcib sahədə dayanmadan işləyirdilər. İlk azərbaycanlı Sovet İttifaqı Qəhramanı İsrafil Məmmədovun rəssam Qəzənfər Xalıqov tərəfindən çəkilmiş şəkli açıqca-şəkil kimi çap olunması qərara alındı.

Azərbaycan bəstəkarlar ittifaqı müharibə dövründə müxtəlif janrlarda 400-dən çox musiqi əsəri bəstələmişdi. Bunların təqribən 25-i simfonik əsər idi. Bu əsərlər müharibə

dövrünün tələblərinə cavabverən, döyüşçüləri Vətən uğrunda qəhrəmanlıqlara ruhlandıran əsərlər idi. Bu illərdə Ü.Hacıbəyov faşizm əleyhinə müxtəlif janrlarda 20-dən artıq musiqi əsəri yaratmışdı. Bəstəkarlardan Əfrasiyab Bədəlbəyli, Niyazi Tağızadə, Səid Rüstəmov və başqaları müharibə illərində çox məhsuldar işləyib yaratmışdılar.

Bu dövrdə istedadlı bəstəkarlar da yetişməkdə idi. Bu istedadlar içərisində Qara Qarayev, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Fikrət Əmirov, Tofiq Quliyev, Süleyman Ələsgərov, Ədilə Hüseynzadə, Şəfiqə və başqaları fərqlənirdi. Onlardan bir qismi, o cümlədən Tofiq Quliyev, Məmməd İsrafilzadə, Zakir Bağırov, Fikrət Əmirov, Rauf Hacıyev və başqaları cəbhələrdə bir döyüşçü kimi vuruşur və musiqiçi kimi xidmət edirdilər.

1942-ci ildə dram teatrlarının repertuarlarını əsasən müharibənin tələblərinə cavab verən tamaşalar təşkil edirdi. Azərbaycan dram teatrının 1942-ci il repertuarında «Madrid», «Aslan yatağı», «Məhəbbət», «Vətən oğlu», «Qaçaq Nəbi», «Dumanlı Təbriz», «Nizami» kimi tamaşalar var idi.

Müharibə dövründə Azərbaycan səhnəsinin görkəmli ustalarından SSRİ xalq artisti M.A.Əliyev Dövlət mükafatına layiq görülmüş,11 nəfərə respublikanın xalq artisti və 55 nəfərə əməkdar artist fəxri adı verilmişdi.

Azərbaycan incəsənətinin işçiləri, səfərbərliyin ilk günündən Vətənimizi müdafiə edən döyüşçülərimizə xidmət etməyə başlamışlar. İncəsənət işçilərindən ibarət onlarca briqadalar təşkil edilmişdi. Bu briqadalar hər gün müxtəlif hərbi hissələrdə və səfərbərlik məntəqələrində konsertlər verirdilər. Cəmi bir həftə ərzində 101 briqada 157 konsert vermişdi. Müharibənin 8 ayı ərzində bu briqadalar hərbi hissələrdə, qospitallarda və təşviqat məntəqələrində 5000-ə yaxın konsert vermiş və bu konsertlərdə bir milyona yaxın adam əhatə olunmuşdu.

Bülbülün başçılıq etdiyi 13 nəfərdən ibarət bədii briqada (üzvləri: aşıq Bayramov, respublikanın əməkdar artisti S.Quliyeva, xalq alətləri ifaçıları). 1942-cü il avqustun ortalarında Bryansk cəhbəsin hissələrində 25-dən artıq konsert vermişdilər.

Beləliklə, Azərbaycan incəsənət işçiləri Vətən qarşısında öz borcalarını şərəflə yerinə yetirərək, istər cəbhədə, istərsə də arxa cəbhədə, döyüşçülər qarşısında, ordu hissələrində, qospitallarda, fabrik və zavodlarda on minlərlə konsert vermişdilər. Təkcə ordu hissələrində 35 mindən artıq konsert verilmişdi.

## § 2. Cənubi Azərbaycanda milli-demokratik hərəkat

İkinci dünya müharibəsi illərində İran, eləcə də Cənubi Azərbaycan, hərbi əməliyyat meydanına çevrilmədi, müharibənin özü ilə gətirdiyi dağıntılara, insan tələfatına məruz qalmadı. Lakin, müharibə ilə bağlı olan hadisələr Cənubi Azərbaycanın tarixinin gedişinə güclü təsir göstərdi.

Müharibənin əvvəli üçün bütün İranda və Cənubi Azərbaycanda siyasi rejimin qismən də olsa mülayimləşməsi müşahidə edildi. 1941-ci ilin avqust-sentyabr aylarında Rza şahın diktaturası dağıldı. Təbrizdə türk və fars dillərində «Azərbaycan» qəzeti nəşrə başladı. 1941-ci ilin oktyabrında «Azərbaycan» cəmiyyəti yarandı. Lakin 6 aydan sonra onun fəaliyyəti qadağan edildi.

1941-ci il avqustun 25-də SSRİ 1921-ci il 26 fevral tarixli Sovet-İran müqaviləsinin VI maddəsini «əsas tutaraq» guya buradan onun üçün təhlükə yaranması bəhanəsi ilə oraya qoşun yeritdi. Sentyabr ayında Böyük Britaniya da İranın cənubuna ordu hissələri göndərdi.

1941-45-ci illərdə Cənubi Azərbaycanda yavaş-yavaş milli-demokratik hərəkat canlanmağa başladı. Təbriz keçmişdə olduğu kimi, indi də ümumiran demokratik hərəkatının əsas mərkəzlərindən biri idi. 1941-ci ilin sentyabr – oktyabr aylarından burada geniş xalq kütlələrinin mitinq və yığıncaqları, nümayişləri genişləndi. 1941- ci ilin əvvəllərindən müxtəlif ictimai-siyasi mədəni-maarif klubları, birlik və cəmiyyətləri, eləcə də yeni yaradılmış həmkarlar təşkilatları demokratik hərəkatın əsas qüvvələrinə çevrilirdilər.

1942 – 1944-cü illərdə Cənubi Azərbaycandakı demokratik hərəkatda əvvəllər heç bir vaxt az-çox geniş təzahür etməmiş yeni bir xüsusiyyət – milli şüurun inkişafı ön plana çıxmağa və bütün hərəkata yeni məzmun gətirməyə başladı. Təsadüfi deyil ki, 1942-44-cü illərdə Azərbaycanda çıxmağa başlayan qəzetlərin bəziləri, həm də ən nüfuzluları böyük çətinliklərə baxmayaraq, doğma dildə buraxılırdı. Cənubı Azərbaycanda milli-mədəniyyəti inkişaf etdirmək istiqamətində ilk addımlarının atılmasında Şimali Azərbaycanın təsiri həlledici əhəmiyyətə malik idi.

***Azərbaycan Milli hökuməti***

Cənubi Azərbaycanda gedən milli-demokratik hərəkat 1945-ci ilin əvvəllərində İran hökumətinin hücumlarına məruz qaldı. Onun üçün də demokratik qüvvələrin sıx birləşməsi məsələsi ön plana çəkildi.

1945-ci ilin payızında milli-demokratik hərəkat özünün təşkilatlanma və proqram tələblərini dürüstləşdirmək mərhələsinə keçdi. 1945-ci il sentyabrın 13-də Azərbaycan Demokrat Partiyası yaradıldı və onun ilk konfransı keçirildi. 11 nəfərlik komitənin sədri Seyidcəfər Seyidcavad oğlu Cavadzadə – Pişəvəri seçilmişdi. Sentyabr ayında bu partiyanın «Azərbaycan» adlı qəzeti nəşrə başladı və Pişəvərinin 1943-45-

ci illərdə Tehranda buraxdırdığı «Həyəcan» qəzeti ilə birlikdə milli-demokratik hərəkat üçün xeyli iş gördü.

1945-ci ilin oktyabrın 2-də keçirilən ADP-nın I qurultayında qəbul edilmiş proqramda İran daxilində məhəlli muxtariyyətə və geniş hüquqlara, demokratik respublikaya nail olunması əsas vəzifə kimi müəyyənləşdirildi.

Vəziyyətin gərginləşdiyini görən İran rəhbərliyi, bir tərəfdən Cənubi Azərbaycana çoxlu polis qüvvələri göndərərək, digər tərəfdən isə, danışıqlara başlamağı təklif etdi. 1945-ci il noyabrın 8-11-də Təbrizdə Azərbaycanın yeni valisi Murtuza Bayatla Pişəvəri arasında danışıqlar oldu. Noyabr ayı ərzində xalq hərəkatının genişlənməsi uğrunda dinc siyasi mübarizə getdi, 1,5 milyon nəfərin iştirakı ilə yığıncaqlar keçirildi. Noyabrın 20-21-də Təbrizdə Azərbaycan Xalq Konqresi yaradıldı və o, Tehrandan muxtariyyət tələb etdi. Həmin tələb rədd olunduğundan M.Bayat da Tehrana qayıtdı.

Xalq Konqresinin noyabrın 21-də verdiyi fərmana əsasən noyabrın 27-si ilə dekabrın 1-i arasında Milli Məclisə seçkilər keçirildi. 32 dairədən 100-ə qədər deputat seçildi. Noyabrın ikinci yarısında fədailərlə hökumət qoşunları arasında Təbriz ətrafında döyüşlər getdi.

1945-ci il dekabrın 12-də Təbrizdə Azərbaycan Milli Məclisi açıldı və Milli hökumət yaradıldı. Elə həmin gün fədai qoşunları Təbrizə daxil olaraq, dekabrın 15-ə qədər bütün Cənubi Azərbaycanı İran qoşunlarından təmizlədi. Pişəvəri Milli hökumətin – Nazirlər Şurasının sədri, Z.Qiyami Ali Məhkəmənin sədri, F.İbrahimi baş prokuror vəzifələrini tutdular. İran daxilində müxtariyyət prinsipinə əsasən hərbi və xarici işlər nazirlikləri yaradılmadı. Bu da hərəkatın sonrakı inkişafına öz mənfi təsirini göstərdi.

Milli Hökümət dərhal islahatlara başladı. 1946-cı il yanvarın 6-da dil haqqında 10 maddədən ibarət qərar qəbul

edildi və azərbaycan-türk dili bu milli əyalətin rəsmi dili elan olundu. Milli hökumətin himni qəbul edildi. Yanvarın 12-də Təbriz universitetinin, martın 28-də Dövlət Dram teatrı, bir az sonra isə filarmoniya açıldı. Çeşmazərin sədrliyi ilə Radio Komitəsi yaradıldı. Tezliklə 50-dək qəzet və jurnal azərbaycan dilində nəşrə başladı, Səttərxana və Bağırxana heykəllər qoyuldu. Kəndlərdə 2000, şəhərlərdə 500 ibtidai və orta məktəb açıldı, habelə 3800 savadsızlığı ləğv etmək kursları yaradıldı.

Azərbaycan Milli hökuməti yaradıldığı gündən etibarən daxildən və xaricdən müxtəlif təzyiqlərə məruz qaldı. Tezliklə, Tehranın təşəbbüsü ilə Cənubi Azərbaycan məsələsi BMT-nın müzakirəsinə çıxarıldı. İran BMT-yə təqdim etdiyi sənədlərdə, Cənubi Azərbaycan hadisələrini SSRİ-nin İranın daxili işlərinə müdaxiləsi kimi qiymətləndirirdi. Lakin bu iddialar SSRİ rəhbərliyi tərəfindən rədd edildi.

Bu müzakirələrlə eyni zamanda İranın baş naziri Qəvamüssəltənə Moskvada Stalin ilə danışıqlar apardı. Bu danışıqların nəticəsində Qəvamüssəltənə siyasi manevrlər edərək İranın şimalındakı neftin çıxarılmasını SSRİ-yə vəd etməklə, hökumət qoşunlarının Cənubi Azərbaycana gəlib guya İran Məclisinə seçkilər aparılmasını təmin etmələrinə Stalinin razılığını aldı. 1946-cı il aprelin 4-də imzalanan Sovet-İran sənədinə əsasən sovet qoşunlarının Cənubi Azərbaycandan çıxarılması razılaşdırıldı. Pişəvərinin bir neçə dəfə Şimali Azərbaycana etdiyi səfərləri də heç bir fayda vermədi. May ayında sovet qoşunları İranı tərk etdi.

Pişəvəri başda olmaqla Milli hökumətin nümayəndə heyəti danışıqlar aparmaq üçün təklif olunan dəvəti qəbul edərək 1946-cı il aprelin 28-də (məşum gün) Tehrana getdi. Danışıqlar iyunun 13-də İran hökumətilə Cənubi Azərbaycan arasında saziş bağlanması ilə nəticələndi. Bu sazişə əsasən Azərbaycanın gəlirinin 75 faizi yerli xərclərə sərf olunmalı, 25 faizi isə

Mərkəzə çatmalı idi. Azərbaycan Miili Məclisinin əvəzinə Azərbaycan əyalət əncuməni və ostanlıqları fəaliyyət göstərməli idi. Belə ciddi güzəştlərə baxmayaraq, İran rəhbərliyi həmin müqaviləni təsdiq etməkdən boyun qaçırdı.

İran hökuməti ABŞ ilə gizli müqavilə bağlayaraq ondan 40 tank, 150 bombardmançı təyyarə və digər silah-sürsat aldı. Sovet rəhbərliyi isə buna açıq-aşkar göz yumdu.

1946-cı ilin noyabr ayının axırı - dekabrın 1-də 50 min nəfərlik şah qoşunu 55 tank, 50 təyyarə, 174 top, 3 minə qədər ağır çaplı pulemyot və başqa salahlarla Cənubi Azərbaycana soxuldu. Əməliyyatlara Məhəmməd Rza şahın özü şəxsən rəhbərlik edirdi.

Cənubi Azərbaycanın milli demokratlarının cəmi 18 min nəfərlik silahlı qüvvəsi var idi. Lakin buna baxmayaraq onlar şah ordusuna inadlı müqavimət göstərdilər. Dekabrın 20-də şah qoşunları Təbrizə daxil oldu. Milli-demokratik hərəkat qan içində boğuldu. Qısa müddətdə 25-30 min nəfər öldürüldü, 300 min nəfər isə sürgün edildi. Cəza tədbirlərindən qurtarmaq üçün on minlərlə vətənpərvər mühacirət etməyə məcbur oldu. Onların çox hissəsi Şimali Azərbaycana keçdi. Burada da onlara qarşı təqiblər davam etdi. İran hökumətinin tələbi ilə Sovet hökuməti demokratların əksəriyyətini Azərbaycandan sürgün etdilər. Pişəvəri M.Bağırovla toqquşmalardan sonra, çox keçmədən – 1947-ci ildə Gəncə yolunda avtomobil qəzasında həlak oldu.

1945-1946-cı illərdəki milli-demokratik hərəkatın məğlubiyyətinin səbəbləri və buraxılan səhvlər:

1. Milli hökumətin silahlı qüvvələrinin azlığı, həm də təkcə Tehrana deyil, bir neçə xarici dövlətə qarşı da mübarizə aparılması.
2. Sovet rəhbərliyinin və Qərbin ikili siyasəti və İranın onlarla müəyyən razılaşmalar əldə etməsi.

3. Milli hökumətin rəhbərliyindəki fikir ayrılıqları, hərbi və xarici işlər nazirliklərinin yaradılmaması, bütün xalqın və fədai-mücahid qüvvələrinin birliyinə nail olunmaması, Milli Məclisin Əyalət əncuməni ilə əvəz olunması, ADP MK rəhbərliyinin qətiyyətsizliyi və s.

Bu milli-demokratik hərəkatın çox böyük tarixi əhəmiyyəti olmuşdur. O, ilk növbədə, Cənubi Azərbaycanda milli şüurun və özünədərkin möhkəmlənməsi və inkişafı prosesinə çox mühüm təsir göstərdi. Bu hərəkatın gedişində milli-demokratik fikir inkişaf etdi. Bu məsələlərin inkişafında Pişəvərinin çox böyük rolu olmuşdur. Pişəvəri yazırdı: «Haqqı almaq lazımdır, onu verməzlər. Haqqı almaq bəlkə də asan işdir, lakin onu saxlamaq çətindir». «Dil məsələsi ölüm-dirim məsələsidir. Bu məsələdə güzəştə getmək olmaz». «Biz istəyirik ki, hökumət başçılarımız gərək azərbaycanlı olsun».

«Nicati-İran» qəzetinin 1945-ci il dekabr tarixli sayında yazılırdı ki, bizim azərbaycanlı qardaşlarımız üçüncü dəfədir İranın demokratik azadlığı uğrunda ayağa qalxaraq, islahat və azadlıq düşmənlərinə qarşı Səttərxan və Bağırxanın işini davam etdirirdilər.

Azərbaycanın Milli hökumətinin yaranması Cənubi Azərbaycanda yaşayan xalqın öz milli varlığını qoruyub saxlaması və bu məqsədlə də birləşməsi işi üçün də mühüm əhəmiyyət kəsb etdi. Hərəkatın ən böyük xidmətlərindən biri də odur ki, bu dövrdə Azərbaycanın Cənubi ilə Şimali arasında əlaqələr bərpa olundu. Azərbaycanlılara «ölkəni parçalaya bilən» bir qüvvə kimi baxan İran hökuməti və Sovet hökuməti üçün bu hərəkatdan irəli gələn başlıca nəticə qorxusu – Bütöv və Vahid Azərbaycan ideyası oldu.

## VII
# Azərbaycan dinc quruculuq dövründə
# (1945 -1985-cı illər)

## § 1. Müharibədən sonrakı ilk illərdə Azərbaycan SSR-də sosial-iqtisadi vəziyyət.

Müharibə Azərbaycanın da sosial-iqtisadi durumuna güclü zərər vurmuşdu. Sənaye məhsulu 1945-ci ildə 1940-ci ilə nisbətən 22 faiz, neft hasilatı təqribən yarıbayarı azalmışdı. Kənd təsərrüfatında da ciddi geriləmə baş vermişdi. Pambıq istehsalı 1940-cı ilə nisbətən təqribən 3 dəfə, xam ipək istehsalı iki dəfə azalmışdı. Əhalinin sayı 1940-cı ildəkindən (3304,1 min) 17,65 faiz, fəhlə və qulluqçuların sayı 60 mindən çox azalmışdı.

Müharibədən sonra Azərbaycanda da təsərrüfatın bərpa və inkişaf etdirilməsinə başlanıldı. Tezliklə təsərrüfatın bütün sahələri dinc quruculuq müstəvisinə keçirilməli və sonra inkişaf etdirilməli idi. Bu vəzifələr 1946-1950-ci illəri əhatə edən dördüncü beşillik planda öz əksini tapmışdı. Həmin plana görə sənaye məhsulu istehsalı müharibədən əvvəlkinə nisbətən 18 faiz, kənd təsərrüfatı istehsalı isə 28,2 faiz artmalı idi.

1946-cı ildə xalq təsərrüfatının dinc quruculuq müstəvisinə keçirilməsi vəzifəsi həyata keçirildi.

1948-ci ildə respublika sənayesi müharibədən əvvəlki səviyyəni üstələyən məhsul buraxılışına nail olmuş, 1950-ci ildə Azərbaycanın sənaye məhsulu 1940-cı ilə nisbətən 39% artmışdı. 1941-1970-ci illərdə 146 və ya bütün 1920-1970-ci illərdə tikilmiş sənaye obyektlərinin 60%-i qədər iri sənaye müəssisələri tikilib istifadəyə verilmişdi. Azərbaycanın sənayesinin inkişafında mühüm rol oynayan Sumqayıt boruyayma, aluminium və sintez-kauçuk zavodları, Gəncə Aluminium zavodu , Daşkəsən Filiz

Saflaşdırma kombinatı, Mingəçevir su elektrik stansiyası və sairə iri müəssisələr tikilib istifadəyə verilmişdi.

Bu illərdə Sumqayıt, Mingəçevir, Əli Bayramlı (indiki Şirvan), Daşkəsən kimi yeni sənaye şəhərləri yaranmış, Naxçıvan, Xankəndi,Quba, Qazax, Salyan, Neftçala və başqa şəhərlərdə sənayenin gələcək daha güclü inkişafı üçün təməl qoyulmuşdu. Ümumi sənaye məhsulu istehsalında Bakı şəhərinin xüsusi çəkisi 1913-cü ildəki 91,4%-dən 72,8%-ə düşmüşdü.

1949-cu ildə dünya təcrübəsində ilk dəfə dənizdən neft çıxarılmasına başlandı..

Neft sənayesi neft maşınqayırması cihaz və alətqayırma, ,qara metallurgiya ilk növbədə neftçıxarma üçün borular istehsalı, elektroenergetika və s. yaranması əsasında respublikada çox güclü sənaye kompleksinin meydana gəlməsini təmin etdi.

50-60-cı illərdə Sovet İttifaqınınnın başqa regionlarında zəngin neft ehtiyatlarının aşkara çıxarılması və istifadəsi ilə əlaqədar olaraq, Azərbaycan neftinə maraq xeyli azaldı, bu sahələrin inkişafının zəifləməsi bütövlükdə iqtisadiyyatın artım sürətinə mənfi təsir göstərməyə başladı. 1970-ci ildə -Azərbaycan SSR-də sənayenin əsas istehsal fondlarının 70%-i, istehsal olunan məhsulun isə cəmi 40%-ə qədəri yanacaq, energetike, metallurgiya və kimya sənayesi sahələrinin hesabına əldə edilirdi. Sənaye məhsulunun cəmi 22%-ni verən yanacaq sənayesinin payına o zaman sənayedə qoyulan bütün kapitalın 50%-dən çoxu düşürdü.

70-ci illərə qədər olan dövründə şəhər əhalisinin artması sürətinə görə Bakı, keçmiş ittifaqın paytaxt şəhərləri içərisində

birincilər sırasında idi. 1970-ci ildə respublikada olan 60 şəhərin dördündə (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir) bütün şəhər əhalisinin 63%-i, qalanlarında isə 37%-i yaşayırdı. Bu da Bakı şəhərində mənzil sahəsinə və digər sosial obyektlərə olan ehtiyacın ödənilməsi sahəsindəki çətinlikləri daha da ağırlaşdırırdı.

## § 2. Müharibədən sonra Ermənistan SSR-də etnik təmizləmə siyasəti

1943-cü ildə üç dövlətin – SSRİ, ABŞ, Böyük Britaniya – Tehran konfransında Sovet-İran münasibətləri müzakirə edilərkən, erməni diasporu SSRİ xarici işlər naziri Molotovun vasitəsilə Stalindən İranda yaşayan ermənilərin SSRİ-yə köçməsinə razılıq almışdılar.

1945-ci ilin noyabrında Ermənistan KP MK birinci katibi Q.Harutyunov İ.Stalinə məktubda yenidən Dağlıq Qarabağ məsələsini qaldırmış, bu ərazinin Ermənistana verilməsini tələb etmişdir. Bu məktub Azərbaycan rəhbərliyinə göndərilmişdi. M.C.Bağırov bu məktuba çox kəsərli bir cavab vermişdir: «Azərbaycan bu təklifə etiraz etmir, bu şərtlə ki, Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR-də əhalisinin əksəriyyəti azərbaycanlılar, Azərbaycanla həmsərhəd, tarixən Azərbaycan torpağı olan ərazilər onun özünə qaytarılsın». Bu cavabla həmin təklifin inkişafına son qoyulmuşdur.

Ermənistan rəhbərliyi yekcins erməni respublikası yaratmaq üçün yeni fitnələrə əl atmağa başlamışdılar. Bunlardan biri də hökumət qərarı ilə azərbaycanlıların Ermənistandan zorla köçürülməsi oldu.

Xaricdə yaşayan erməniləri Ermənistanda yerləşdirmək adı ilə azərbaycanlıların öz ata-baba torpaqlarından zorla köçürülməsi haqqında ilk qərar Q.Harutyunovun və

M.Bağırovun 3 dekabr 1947-ci il tarixli məktubu ilə əlaqədar verilmişdi. Bu məsələ ətrafında SSRİ Nazirlər Soveti iki qərar qəbul etmişdir. Birincisi 23 dekabr 1947-ci il tarixli «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında» qərar idi. İ.Stalinin imzaladığı bu qərar azərbaycanlılar üçün gözlənilməz zərbə, açıq cəza tədbiri idi. SSRİ Nazirlər Sovetinin 10 mart 1948-ci il tarixli qərarında isə birinci qərarın yerinə yetirilməsi üçün tədbirlər planı şərh edilirdi.

SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarında göstərilirdi ki, 1948-1950-ci illərdə «könüllülük» prinsipləri əsasında Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülsün. Qərara görə 1948-ci ildə 10 min nəfərin, 1949-cu ildə 40 min nəfərin, 1950-ci ildə isə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Mərkəzin Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetlərini tələsdirməsi, onların cəmi bir ay müddətində geniş tədbirlər planı hazırlayıb SSRİ Nazirlər Sovetinə məlumat vermələrini təkidlə tələb etməsi heç də səbəbsiz deyildi. Bu tələsikliyin əsl səbəbi qərarın sonuncu, 11-ci maddəsində aydın şərh edilmişdir. «Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları yaşayış evlərindən xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər».

Rəsmi məlumatlara görə, 1948-ci ildə Ermənistan SSR-dən Azərbaycan SSR-yə 1799 təsərrüfat, 7747 nəfər köçürülmüşdür. Həmin müddətdə 2834 nəfəri birləşdirən 429 ailə müxtəlif təzyiqlərə məruz qaldıqlarına görə kortəbii şəkildə Azərbaycana qaçmağa məcbur olmuşlar. Beləliklə, 1948-ci ilin payızına qədər gələnlərin sayı 10,584 nəfər olmuşdur.

Köçürülmə prosesi qərarda göstərilən 1951-ci ilə kimi deyil, 1953-cü ilə kimi davam etmişdir. 1949-cu ildə qərarda göstərilən 40000 nəfər əvəzinə 15276 nəfər,1948 – 50-ci illərdə qərarla cəmi 34382 nəfər köçürülmüşdür. Bununla yanaşı həmin illərdə təzyiq göstərilərək, öz əmlaklarını qoyub qaçanlar da minlərlədir. Ümumiyyətlə, 1948-1953-cüillərdə Ermənistandan rəsmi məlumata görə 100 min nəfərdən çox adam zorla köçürülmüş və ya köçməyə məcbur edilmişdir. Qeyri-rəsmi məlumata əsasən köçürülənlərin sayı xeyli çox olmuşdur.

Stalinin ölümündən sonra köçürülmə qəti sürətdə dayandırılmışdır. Bu zaman əks proses başlamışdır. Dağ rayonlarından zorla Kür-Araz vadisinə köçürülən 10 minlərlə əhalinin aqibəti daha kədərli olmuşdur. İqlimə uyğunlaşa bilmədikləri üçün, adi məişət şəraiti olmadığından köçkünlərin 1/3 aclıq və xəstəliklər nəticəsində həlak olmuşdur. Tarixi sənədlər göstərir ki, köçürülən əhalinin bir qismi tövlələrdə, bəzən isə hətta heyvanlarla bir yerdə yaşamışdır. Onlar üçün ayrılan vəsaitin cəmi 45 faizi istifadə edilib yaşayış evləri tikilmişdir. Ermənistandan köçürülənlərin bir nəfərini də, Dağlıq Qarabağda məskunlaşmağa qoymamışlar. Özbaşına Martuni rayonunda yerləşən azərbaycanlıları oradan zorla qovmuşdular.

1950-ci illərdən başlayaraq azərbaycanlılar yenidən öz doğma torpaqlarına qayıtmağa başladılar. 376 təsərrüfatın yenidən Ermənistana qayıtması xəbərini Ermənistan Nazirlər Sovetinin sədri S. Karapetyan Ermənistan üçün faciə hesab etmişdi. Əslində bu Ermənistan üçün deyil, Azərbaycana qovulmuş və yenidən öz torpağına qayıtmağa məcbur olmuş didərgin azərbaycanlılar üçün faciə idi. 5 il ərzində köçürülən azərbaycanlıların sağ qalanlarının təqribən 40-45 faizi öz doğma yurdlarına qayıtmışdır. Köçürülmə prosesinin bir cəhətini də qeyd emək lazımdır. Qərarda guya, xaricdən gələn erməniləri yerləşdirmək üçün azərbaycanlıları öz yurdlarından köçürülməsi

nəzərdə tutulurdu. Əslində isə, məqsəd Ermənistanda etnik təmizləmə siyasəti aparmaq idi. Buna sübut olaraq qeyd olunmalıdır ki, Ermənistan ərazisində elə indinin özündə də o dövrdə köçürülən azərbaycanlıların yaşadığı yüzlərlə kənd xarabalığa çevrilmişdir. 1975-ci ildə belə bir fakt açılmışdır ki, Ermənistanda 476-dan çox kənd istifadəsiz qalmışdır. Hətta erməni millətçiləri də 1990-cı ildə etiraf etmişdilər ki, «Azərbaycanlıların köçürülməsi ilə əlaqədar boşaldılan torpaqlardan və mənzil fondundan xaricdən gələn erməni kəndlilərinin yerləşdirilməsi üçün istifadə edilmədi».

Buradan belə bu nəticə çıxır ki, erməni daşnakları monomillət Ermənistan Respublikası yaratmaq siyasətini həyata keçirmək istəmişdilər. Lakin 1948-53-cü ildə də buna nail ola bilmədilər. 1950-ci illərin axırlarında azərbaycanlıların Ermənistandan sıxışdırılıb çıxarılmasının yeni mərhələsi başlandı. Bu dövrdə, ermənilər üzdə beynəlmiləlçilik, xalqlar dostluğu şüarları irəli sürərək azərbaycanlıların Ermənistanda yaşayış və inkişaf imkanlarını hər vasitə ilə məhdudlaşdırırdılar.

İlk növbədə ziyalılara qarşı mənəvi terror aparılmış, yəni Ermənistanda o dövrə qədər mövcud olan azərbaycan dilli ali məktəblər, texnikumlar, mətbuat orqanları kütləvi surətdə ləğv edilmişdi. 1955-ci ildə Yerevan Pedaqoji İnstitutunda mövcud olan dörd azərbaycan fakültəsi (Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, fizika və riyaziyyat) ləğv edilərək, yerində bir azərbaycanlı qrupu təşkil olundu. Yerevan azərbaycandilli pedaqoji texnikumu ləğv edildi. Hər il Ermənistanda 5000 nəfər azərbaycanlı məzun, öz təhsilini davam etdirmək üçün respublikada imkan olmadığından başqa respublikaların, xüsusilə Azərbaycanın ali məktəb və texnikumlarına getməyə məcbur olur, sonra isə öz doğma yurdlarında iş ilə təmin olunmadıqlarından yenidən çıxıb Azərbaycana getməli olurdular. Beləliklə, Ermənistandan

Azərbaycana yeni axın – yeni köçgünlük başladı. Bu axın barədə heç bir rəsmi məlumat yoxdur. Lakin təxmini hesablamalara görə 1950 – 1980-ci illərdə Ermənistandan 150 mindən çox azərbaycanlı belə ədalətsizlik üzündən köçüb getmişdir.

1960-cı illərdən başlayaraq Ermənistanda rəhbər vəzifələrdə olan azərbaycanlıların hamısını ermənilərlə əvəz etməyə başladılar. C.Cabbarlı adına dram teatrı, azərbaycanlılar yaşayan rayonlarda Azərbaycan dilində çıxan qəzetlər, nazirliklərin və idarələrin nəzdində olan Azərbaycan dilində olan bütün nəşrlər bağlandı.

Ermənilərlə azərbaycanlılar arasında münaqişənin dərinləşməsinə gətirib çıxaran ən mühüm səbəblərdən biri 1965-ci ildə uydurma «Erməni genosidi»nin 50 illiyinin erməni diasporunun təsiri və A.Mikoyanın köməyi ilə respublika miqyasında qeyd edilməsi idi. Qərar veriləndə 1965-ci il aprelin 24-dən bir il ərzində Ermənistanın bütün kütləvi informasiya vasitələri, nəşriyyatları ancaq bir istiqamətdə – antitürk, antiazərbaycan təbliğatı, təhriklərlə, hədə-qorxu ilə məşğul olmuşlar. Bundan əlavə Ermənistan rəhbərliyi Mikoyanın köməyi ilə cəllad Andronikin 100 illik yubileyini qeyd etməyə icazə aldı. Andronikin yubileyini erməni xalqının qəhrəmanı kimi qeyd etdilər.

Ermənistan buraxdıqları milli ensiklopediyada ancaq millətlərarası ədavətin daha da qızışdırılması, milli eqoizmin, milli psixozun və milli şovinizmin artması məqsədilə istifadə etmişlər. Ensiklopediyaların bütün cildlərində bir ideya vardır – ermənilər nadir millətdir. Bütün dünyaya yayılıblar. Bəşəri mədəniyyət öz başlanğıcını ermənilərdən götürüb?!

Ermənistanın azərbaycanlılar yaşayan bütün rayonlarında ermənilər tərəfindən törədilən milli ayrı-seçkilik, azərbaycanlı kəndlərində məktəb binalarının olmaması, su, qaz borularının azərbaycanlı kəndlərinin içərisindən keçməsinə

baxmayaraq onlara verilməməsi və onlarca belə sadalamaqla qurtarmayan münasibətlər və problemlər azərbaycanlılara qarşı törədilən etnik təmizləmə siyasətinin bariz nümunələridir.

1980-cı illərin sonlarında ermənilərin etnik təmizləmə siyasətinin yeni mərhələsi başlandı. 1988-ci ildə olan, açıq hücumlardan sonra Ermənistanda bir dənə də olsun azərbaycanlı qalmamışdır. Budur erməni şovinistlərinin həyasızcasına, yalançı-timsah göz yaşları içərisində azərbaycanlılara qarşı həyata keçirdikləri etnik təmizləmə siyasətinin bariz nəticəsi.

## §3. **Azərbaycan SSR-in siyasi və sosial-iqtisadi inkişafında yeni mərhələ ( 1970-1980-cı illər).**

XX əsrin 50-60-cı illərində həyata keçirilən islahatlar Azərbaycanda da iqtisadiyyatın ciddi artımını təmin etmədi. 1970-ci ildə neft istehsalı 1965-ci ildəki 21,5 milyon tondan 17 milyon tona endi. Ümumən, sənaye məhsulunun artım sürəti 50-ci illərdəkinə nisbətən xeyli aşağı düşdü. Kənd təsərrüfatında məhsul istehsalının artım sürəti azaldı. O, 60-cı illərdə 50-ci illərdəki 1,5 dəfədən 1,3 dəfəyə endi. İslahatlar keçirilsə də istehsal münasibətlərinin dəyişilməz şəkildə qalması iqtisadiyyatın getdikcə geriləməsinin qarşısını almağa imkan vermədi.

Bax belə bir şəraitdə, 1969-cu ilin iyulunda Azərbaycan rəhbərliyinə böyük siyasətçi Heydər Əliyev gətirildi. O, 60-cı illərdə Azərbaycan SSR Təhlükəsizlik Komitəsində rəhbər vəzifələrdə işləmişdi. 1967-ci ildən Azərbaycan Təhlükəsizlik Komitəsinin sədri olmuşdu. Ulu öndərimiz Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi ilə Azərbaycanın ictimai, sosial-iqtisadi və mədəni inkişafında yeni mərhələ – canlanma, dirçəlmə mərhələsi başlandı. Qısa müddətdə idarəçilik sistemi

möhkəmləndirildi. İdarəçilikdə milli kadrların potensialı artırıldı. Minlərlə azərbaycanlı gənc Sovet birliyinin aparıcı tədris və elm ocaqlarına təhsil almağa göndərildi. Onların əksəriyyəti təhsillərini bitirdikdən sonra yüksək ixtisaslı kadr kimi öz vətənlərinə qayıtdılar.

Respublika rəhbəri kimi Heydər Əliyev mərkəzdə olan nüfuzundan istifadə edərək Sov.İKP MK və SSRİ Nazirlər Soveti tərəfindən Azərbaycan SSR-in iqtisadi, sosial və mədəni həyatında köklü dəyişiklikləri, intensiv inkişafı təmin edən, respublika əhalisinin maddi həyat səviiyyəsinin yüksəlməsinə gətirib çıxaran bir sıra mühüm qərarların qəbuluna nail olmuşdu: 1) 1970-ci il iyulun 23-də «Azərbaycan SSR xalq təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında»; 2) 1970-ci il iyulun 25-də «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da inkişaf etdirmək tədbirləri haqqında»; 3) 1975-ci il iyulun 9-da «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında»; 4) 1976-cı il iyulun 27-də «1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində»; 5) 1979-cu il fevralın 22-də «Azərbaycan SSR-də kənd təsərrüfatını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» və s. 70-ci illərin əwəllərindən respublika sənayesinin inkişafında yeni mərhələ başladı. Sənayenin strukturunda əsaslı dəyişikliklər baş verdi. 1970-ci ildə sənaye məhsulu istehsalı 8,6 faiz artdı. Bu illərdə neft sənayesində uzun illərdən bəri yığılıb qalmış problemlər həll edilmiş, Azərbaycan neft sənayesinin inkişafı yeni mərhələyə daxil olmuşdu. Respublikada neft tariximizin son yüzilində 1 milyard ton neft çıxarılmışdı. Təkcə, 1971-ci ildə 18 milyon tondan çox neft hasil olunmuşdu. Geoloji kəşfiyyat işlərinin genişləndirilməsi nəticəsində üç yeni neft yatağı: Siyəzəndə Zəyli-

Zeyvə, Cənubi Kür vadisində Kürsəngi, Muradxanlı yataqları kəşf olunmuşdu. Sov.İKP MK-nın 1971-ci il 5 yanvar tarixli «Neft sənayesində və geoloji kəşfiyyat təşkilatlarında qabaqcıl qazma briqadalarının iş təcrübəsinin yayılması haqqında» qərarına uyğun olaraq, «Azneft»in və «Xəzərdənizneft»in işi təkmilləşdirilmişdir. 70-ci illərdə Azərbaycana yeni texnologiya və «Şelf-2», «Şelf-3», «Şelf-4», «Şelf-5» qazma qurğuları gətirildi. Bu, respublikada yeni neft sahələrinin açılmasına - «İstiqlal» və «Dədə Qorqud» qurğularının işə salınmasına səbəb oldu. Xəzərdə «28 aprel», «Bahar», «Azəri», «Günəşli» və digər zəngin neft və qaz kondensatı yataqları aşkar edildi. Sualtı neft kəməri çəkildi. Dənizdə qazma işləri yeni texnologiya əsasında daha da təkmilləşdirildi. Dənizdə 2800-6500 metr dərinlikdə neft quyuları qazılmağa başlandı.

Neft sənayesində neft emalı da apancı yer tutur. Bu sahədə mövcud olan qüsurlar və nöqsanlar Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda açıqlanmış və onların aradan qaldırılması ilə bağlı kompleks tədbirlər görülmüşdü. Nəticədə neft emalı müəssisələri inkişaf etdirilmiş, 1976-cı ildə Yeni Bakı Neftayırma, 1982-ci ildə isə Bakı neftayırma zavodunda neftin ilkin emalı üçün ELOU-AVT qurğusundan istifadəyə başlanmışdı. Bu müəssisələrdə 90 adda müxtəlif neft məhsulları - təyyarə, reaktiv qurğu, avtomobil, dizel yanacağı, sürtkü yağları, aşqarlar, bitum, neft-kimya sənayesi üçün xammal istehsal olunurdu.

70-80-ci illərdə respublikanın neft maşınqayırma sənayesi öz inkişafının yeni mərhələsinə daxil olmuş, sahənin strukturunda ciddi dəyişikliklər baş vermiş, əsas sexlər yenidən qurulmuş, yeni istehsal sahələri işə salınmışdı. 1985-ci ildə Dərin dəniz özülləri zavodu, 1983-cü ildə Qroznı-Bakı neft kəməri istifadəyə verilmişdi.

70-80-ci illərdə Azərbaycanın iqtisadi xəritəsi, təqribən, 100 sənaye

sahəsini əhatə edirdi. Onlardan biri də kimya sənayesi idi. 1970-ci illərdə Sumqayıt Kimya Sənayesi Müəssisələri Birliyində iri komplekslər, Bakı Şin zavodunda yeni avtokamera sexi, VPM-2-200 tipli iki avtomat xətt, Salyan Plastik Kütlələr zavodu və bir sıra digər istehsal obyektləri istifadəyə verilmişdir. 70-80-ci illərdə respublika sənayesinin ən mühüm sahələrindən biri olan maşınqayırma sənayesinin də inkişafında yeni mərhələ başladı. Respublikada Neft Maşınqayırma Birliyinin nəzdində 20 müəssisə fəaliyyət göstərirdi ki, bunlardan da 15-i iri zavod idi. Nəticədə 70-80-ci illərdə Neft-Mədən Maşınqayırma Müəssisələri Birliyinin maşınqayırma sahəsində işində ciddi dönüş yarandı. 70-80-ci illərdə keçmiş Sovetlər Birliyinin neft maşınqayırma avadanlıqlarına olan tələbatının 70 faizdən çoxunu Azərbaycan neft maşınqayırma müəssisələri ödəyirdi. Bu sahədə L.Şmidt (Səttarxan), P.Montin (Bakı neft-mədən), Kirov (Bakı), Dzercinski (Suraxanı), Keşlə, Y.Qasımov adına və d. maşınqayırma zavodlarının rolu böyük olmuşdur.
Bu illərdə elektrotexnika, cihazqayırma, radiotexnika və digər müasir və yeni sahələrin inkişafı da maşınqayırma zavodlarının yeni texnika ilə təmin olunmasında, genişləndirilməsində, yenidən qurulmasında mühüm rol oynayırdı.
Maşınqayırma sənaye istehsalının özündə elektrotexnika, radiotexnika, cihazqayırma və b. mühüm sənaye sahələrinin xüsusi çəkisi artan sürətlə yüksəlmiş, 1970-ci ildəki 29,1%-dən, 1975-ci ildə 38,2%-a, 1980-ci ildə isə 51,2 faizə çatmışdı.
Respublika Maşınqayırma sənayesinin inkişafında «İttifaqneftmaş» - Ümumittifaq Neft Maşınqayırma Sənayesi Birliyinin rolu böyük olmuşdur. Bu birlik 13 zavoddan, 3 elmi tədqiqat konstruktor təşkilatından ibarət idi.1978-ci il oktyabnn 26-da Azərbaycan KP MK və Nazirlər Sovetində «1978-1980-ci illərdə maşınqayırmanın inkişaf etdirilməsi haqqında» məsələ müzakirə edilmiş və burada

qəbul edilmiş müvafıq qərarların yerinə yetirilməsi sahənin inkişafını daha da sürətləndirmişdi.1971-1980-ci illərdə 4400 yeni növ maşın, cihaz, dəzgah, müxtəlif avadanlıq, o cümlədən bunlardan 400 növü keçmiş SSRİ-də ilk dəfə, istehsal olundu. 1981-1985-ci illərdə respublika maşınqayırma sənayesinin dinamik inkişafı davam etdirilmişdi.1970-1980-ci illərdə maşınqayırma sənayesi ilə yanaşı, digər sənaye sahələri də sürətlə inkişaf edirdi: 1975-ci ildə istifadəyə verilmiş Bakı məişət kondisionerləri zavodu keçmiş SSRİ-də ən iri zavod idi və ildə 400 min süni iqlim apparatı buraxırdı. Bu illərdə respublikada radio, maşınqayırma, iri elektrotermik soba zavodları, məişət cihazlarını avtomatik idarəetmə qurğuları istehsal edən zavodlar, cihazqayırma zavodunun ikinci növbəsi tikilib istifadəyə verilmişdi. 70-80-ci illərdə yeni yaradılan istehsal sahələrindən biri də əlvan metallurgiya sənayesi olmuşdu. Sumqayıtda alüminium istehsalına başlanmış, Gəncə alüminium zavodunda alüminium oksidi, sulfat turşusu və kalium sulfat alınmaqla alunitlərin kompleks emalı dünyada ilk dəfə olaraq mənimsənilmişdi. SSRİ-də ilk dəfə Bakı alüminium prokatı zavodunda külçəsiz prokat texnologiyası tətbiq edilmişdi. Respublikanın boru-prokat zavodlarının işi yenidən qurulmuş, onun istehsal həcmi xeyli genişlənmişdi. 70-80-ci illərdə Azərbaycanda 18 elektrik stansiyasından ibarət energetika kompleksi yaradılmışdı.1976-1980-ci illərdə Kür çayı üzərində 380 min kilovat gücündə Azərbaycan DRES-in və 120 min hektar sahəni suvarmaq üçün dəryaça tikilib istifadəyə verilmişdi.

1970-1985-ci illərdə Naxçıvan MSSR-də sənaye istehsalının həcmi 4,5 dəfə, DQMV-də 3 dəfədən çox, Bakıda 2.3 dəfə, Gəncədə (Kirovabad) 3,2 dəfə, Sumqayıtda 2,5 dəfə, Mingəçevirdə 4,1 dəfə, Əli Bayramlıda 1,8 dəfə artmışdı. 80-ci illərin birinci yarısında respublika sənayesi inkişafının ən

yüksək səviyyəsinə çatdı. Keçmiş İttifaq üzrə sənaye istehsalının həcmində Azərbaycanın payı 1,5 dəfə, milli gəlirdə 1,6 dəfə artdı. 70-80-ci illərdə (1970-1985-ci illərdə) elektrotexnika sahəsində istehsalın həcmi 72%, kimya və neft kimya sənayesində 205%, maşınqayırma və metal emalı sənayesində 432% artmışdı. Bu illərdə qara və əlvan metallurgiya sənayesi 166%, meşə və ağac emalı sənayesi 186%, tikinti materialları istehsalı 161%), yüngül sənaye 170 faiz artmışdı. 70-80-ci illərdə respublikada sənayenin maddi-texniki bazası möhkəmlənmiş, əsas istehsal fondları 1,4 dəfə artmış, 64 iri müəssisə iaastifadəyə verilmişdi..

1970-80-ci illərdə respublika ərazisində fəaliyyət göstərən 1005 sənaye müəssisəsindən 531-i ağır sənayenin, 38-i energetikanın, 18-i yanacağın, 12-i metallurgiyanın, 164-ü maşınqayırmanın, 25-i kimya və neft kimyasının, 204-ü yüngül sənayenin, qalanları isə yeyinti sənayesinin payına düşürdü. 1970-80-ci illərdə. yüngül sənayenin inkişafında ipək emalı, pambıqtəmizləmə, pambıq emalı, toxuculuq və digər sahələrin inkişafına diqqət xeyli artırılmışdı.1976-1980-ci illərdə 38 yeni yüngül sənaye müəssisəsi, o cümlədən Gəncədə (Kirovabad) qənnadı fabriki, ət kombinatı, Bakıda tikiş fabriki, bulka-maya kombinatı, ayaqqabı hissələri fabriki, Sumqayıtda üst trikotaj paltarları fabriki, Xudatda və Lənkəranda konserv zavodları və digər istehsal müəssisələri işə salınmışdı. Bu illərdə respublikanın müxtəlif regionlarında 16 şərab zavodu tikilmişdir və respublikada üzüm emal edən qurğuların gücü üç dəfə artmışdı. Həmçinin yeyinti və yüngül sənaye sahələri texniki cəhətdən yenidən qurulmuş, yeyinti məhsulları sənayesi müəssisələrində müasir texnika və texnologiyanın tətbiqi, istehsal prosesinin avtomatlaşdırılması sahəsində 800-dən çox tədbir həyata keçirilmişdi. Ət və süd istehsalı sahəsində uğurlar daha böyük

olmuşdu.

1976-1980-ci illərdə yüngül və yeyinti məhsulları istehsalı 1,4 dəfə, mədəni-məişət və təsərrüfat malları istehsalı 2,7 dəfə yüksəlmişdir. İstehlak mallarının çeşidi genişlənmiş, buraxılan məhsulların 4 mindən çoxu yeni, ilk dəfə buraxılmışdır. Gəncə Xalça Kombinatının işi yeniləşdirilmişdi. 1976-1980-ci illərdə yeyinti sənayesi məhsulları istehsalı 2,6 dəfə artmışdır. Respublikada ilkin çay emalı fabriklərinin sayı 11-dən 14ə çatmış, iki çay çəkici-bükücü fabriki istifadəyə verilmişdir. Bu illərdə Azərbaycanda konserv məhsulları istehsalı da böyük sürətlə inkişaf etmişdi. 1980-ci ildə 450 milyon banka konserv buraxılmışdı ki, bu da 1970-ci ildəkinə nisbətən 2,4 dəfə çox idi. 1980-ci ildə Azərbaycanda 76,4 min ton ət, 29,1 min ton kolbasa məmulatları, 219,6 min ton üzlü süd məhsulları, 54,8 min ton bitki yağı, 94,9 min ton qənnadı məmulatı, 164,1 milyon yarım litirlik şüşə qabda mineral sular, 117,8 min ton duz, 18,6 min ton təbii çay istehsal olunmuşdu. 1970-80-ci illərdə üzüm emalı və satışı sahəsində də xeyli irəliləyiş olmuşdu. 1970-80-ci illərdə respublikanın Şamxor (Şəmkir), Xanlar, Lerik, Yardımlı, İsmayıllı, Ağsu, Dəvəçi, Zəngilan və Abşeron rayonlarında şərabçılıq sənayesi istehsalı üzrə aqrar birliklər, Cəlilabad, Tovuz, Şamaxı, Qazax və Füzuli rayonlarında isə aqrar-sənaye komplekslərindən ibarət olan sovxoz-zavodlar yaradıldı.

1970 -80 ci illərdə respublikanın şəhər və kəndlərində mənzil tikintisi 3 milyona qədər əhalinin mənzil şəraiti yaxşılaşdırılmışdır.

1970-80 ci illərdə əhalinin sayı 5 milyon nəfərdən 7,1 milyona çatmışdır. Hər min nəfərə görə təbii artım 20% artmışdır. Şəhər əhalisi 53,8% təşkil edirdi. 1989-cu ildə əhalinin sosial-sinfi strukturu 86,8% -i fəhlə və qulluqçular 12,7 %-i kolxozçular təşkil edirdi.

Əhalinin milli tərkibi 7 milyondan Azərbaycanlılar 6 milyon nəfər, ruslar 392,3 min nəfər, ləzgilər 171,4 min nəfər, ermənilər 390,5 min nəfər, avarlar 44,1 min nəfər, yəhudilər və s.30,8 min nəfər idi.

## § 4 Azərbaycan mədəniyyəti 1970-1980-ci illərdə.

70-80 ci illərdə 703 min yerlik 1058 ümumtəhsil məktəb binası tikilib istifadəyə verilmişdir. Ümumtəhsil məktəblərin sayı 4356-a çatdırıldı. Bu məktəblərdə 1,4mln qədər şagird təhsil alırdı. Bu məktəblər və müəlimlərin sayı 132min nəfərə qədər artmışdı.

80-ci illərin sonunda Azərbaycanda 2185 məktəbəqədər uşaq müəsissəsi fəaliyyət göstərirdi. 91 pioner və məktəblilər sarayı 1593 pioner düşərgəsi 210 musiqi məktəbi 240-dan çox uşaq idman məktəbi Respublikada peşə təhsili sistemi inkişaf edirdi. 70-80 ci illərdə 100 peşə texniki məktəbi 1990-cı ildə 176 peşə texniki məktəbi Bu məktəblərdə 83 minə qədər şagird təhsil alırdı.

Təsərrüfat, maarif, mədəniyyət, səhiyyə və başqa sahələr üzrə orta ixtisas kadrlar hazırlayan 78 məktəbdə hər il yüzlərlə tələbə təhsil alır. Bakı kitabxanaçılıq texnikumu Bakı plan iqtisad texnikomu Naxçıvan Politexnikomu Gəncə tikinti-inşaat texnikomu Şuşa pedaqoji məktəbi Mingəçevir Politexnikomuları Şəki Pedoqoji məktəbi

1970-80 ci illərdə Respublikada Ali Təhsil daha da inkişaf edir. 1971-ci ildə rus dili və ədəbiyyatı (Slavyan Universiteti) 1971-ci ildə Pedoqoji Xarici Dillər İnistitutu 1972-ci ildə Naxçıvanda Dövlət Pedaqoji İnistitutunun filalı 1973-cü ildə Xankəndi Pedoqoji İnistitutu 1976-ci ildə İnşaat Mühəndisləri İnistitutu 1981-ci ildə Gəncə Texnologiya İnistitutu

1980-ci illərin sonlarında respublikada 17 ali təhsil müəsissəsi var idi. Bu ali məktəblərdə 80-ci illərin axırlarında 8500

nəfər müəllim 612 nəfər professor, akademik 3021 nəfər dosent Ali məktəblərdə hər il 100min nəfər tələbə təhsil alırdı Təkcə Bakı Dövlət Universitetində 13 min tələbə oxuyurdu. 1970-1982-ci illərdə 17 min gənc azərbaycanlı sovet ittifaqının ali məktəblərini bitirmişdir.

Azərbaycanda milli hərbi kadrlar yetişdirilməsi məqsədi ilə 1971ci ildə C.Naxçıvanski adına respublika orta ixtisaslaşdırılmış internat məktəbinin açılması mühüm hadisə idi. Eyni zamanda respublikadan kənarda hərbi kadrların hazırlanması işinə diqqət artırıldı.

Məktəblərdə tədrisin məzmununda dəyişikliklər baş verdi. “Azərbaycan tarixi”nin tədrisi artırıldı. 1988-ci ildən bütün ali və orta Ixtisas məktəblərindəbu fənn tədris olunmağa başladı. 1976-1987-ci illərdə nəşr edildi. 10 cildlik “Azərbaycan Sovet Ensklopediyası” 20 cildlik “Azərbaycan Ədəbiyyatı kitabxanası” 50 cildlik “Dünya uşaq Ədəbiyyatı kitabxanası” 100 cildlik “Dünya ədəbiyyatı kitabxanası”

Respublikada 87 muzey o cümlədən tarixşünaslıq muzeyi 1972 ci ildə “Azərbaycan xalçası Və tətbiqi sənət muzeyi”,S. Yeseninin xatirə muzeyi. 1982-ci ildə Bakıda C.Cabbarlının ev muzeyi 1975-ci ildə Ü.Hacıbəyovun və S. Vurğunun ev muzeyi 1981-ci ildə Naxçıvanda H.Cavidin ev muzeyi Gəncədə “Nizami” təsviri sənət qaleriyası, “Nizami dövrü və yaradıcılığ muzeyi”

70-80 ci illərdə Azərbaycan elminin inkişafında mühüm nailiyyətlər əldə olunmuşdu. Elmi müəsissələrin sayı 151-ə.Elmi-tədqiqatinistitutlarının sayı 85-ə çatmışdı. 1972-ci ildə Elmlər Akademiyasının Naxçıvandan Elmi mərkəzi fəaliyyətə başladı. 1978-ci ildə Bakıda kosmik tədqiqatlar Elmi-istehsalat birliyi fəaliyyətə başladı. Elmlər Akademiyasında 30 elmi müəsissə fəaliyyət göstərirdi. Bakı həmin dövrdə “Neft Akademiyası

”adlanırdı. Humanitar-ictimai elmlər sahəsində mühüm nailiyyətlər oldu

Beləliklə,70-80 ci illər Azərbaycan mədəniyyətinin Inkişafında mühüm dövrdür.H.Əliyevin milli oyanış siyasəti sayəsində əlverişli Imkanlar açıldı.Bu sahələrə: Elm Təhsil Mətbuat Ədəbiyyat İncəsənət Xalqın mədəni irsinin, tarixinin, dilinin tərəqqisi dövrü oldu.

**Səhiyyə.**

1970-ci illərin əvvəllərindən səhiyyədə də ciddi inkişaf dövrü başladı. Heydər Əliyev səhiyyə quruculuğu ilə əlaqədar qarşıya qoyduğu tədbirlər kompleksinə köhnə səhiyyə ocaqlarının yenidən qurulması, yenilərinin tikilməsi və ən müasir aparatlarla təchiz edilməsi, eləcə də əhalinin kütləvi surətdə dispanser qeydiyyatdan keçirilməsi və sahə həkimlərinin fəaliyyətinin artırılmasından başladı.

Qısa vaxt ərzində ölkədə ulu öndərin bilavasitə iştirakı ilə bir sıra səhiyyə ocaqları, o cümlədən Urologiya Xəstəxanası, Diaqnostika Mərkəzi, Neyrocərrahiyyə Mərkəzi, Toksikoloji Mərkəz, Ailə Planlaşdırması Mərkəzi və sair tibb müəssisələri yaradıldı və əhalinin istifadəsinə verildi. Milli Onkologiya Mərkəzinin yeni korpusunun və Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun yeni kompleksinin tikintisinə başlandı.

Yeni tipli, müasir avadanlıqlarla təchiz edilmiş bu tibb müəssisələrində çalışmaq üçün yüksək ixtisaslı tibb kadrları tələb olunduğunu bilən uzaqgörən siyasətçi milli tibb kadrlarının hazırlanmasına da çox böyük səy göstərirdi. 1970-1980-ci illərdə o, bir qrup gənc Azərbaycan həkim və alimlərinin Moskva və digər şəhərlərə aspirantura və doktoranturaya göndərilməsinə nail oldu.

# VIII
# Müstəqil Azərbaycan Respublikası

## § 1. İstiqlal uğrunda mübarizə

Müharibədən sonra tələbə-gənclər arasında milli ruh daha da güclənmişdi. Onlar Azərbaycanın istiqlalı uğrunda mübarizəyə qalxmışdılar.

1960-70-ci illərdə Bakıda, Gəncədə, Sumqayıtda gizli təşkilatlar yaradılmışdı. 1973-cü ildə BDU-də Asəf Kərimov rəhbərliyi ilə gizli «Milliyyət» təşkilatı, Əbülfəz Əliyevin başçılığı ilə Azərbaycanın müstəqilliyini təbliğ edən gizli siyasi qrup, Sumqayıtda Rafiq Turabxanoğlunun başçılığı ilə «Turan» qrupu yaradılmışdı. Bu təşkilatlar DTK tərəfindən ləğv olunmuş, üzvləri isə həbs olunmuşdu.

1980-cı illərin ortalarından etibarən Azərbaycanda milli azadlıq hərəkatı yeni mərhələyə daxil oldu. Keçmiş SSRİ-də başlanan «yenidənqurma» şəraitində burada da suverenlik uğrunda mübarizə yeni vüsət aldı. İlk vaxtlar bu hərəkat guya «ciddi səhvlər» üzündən uğursuzluqlara düçar olmuş sosializmi «yenidənqurmaq» hərəkatı ilə çulğalaşmışdı. Artıq xalq daha sosializm, totalitarizm, diktat şəraitində yaşamaq istəmirdi. O, müstəmləkəçilik üsul-idarəsinə qarşı çıxır, suverenlik uğrunda mübarizəyə başlamışdı. «Yenidənqurma»nın bəxş etdiyi demokratiya və aşkarlıq şəraiti əsrlərlə çar və sovet imperiyası boyunduruğunda yaşayan xalqların və millətlərin, o cümlədən Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinə geniş imkanlar açmışdı. Azərbaycanda da mərkəzdənqaçma meylləri, müstəqillik uğrunda hərəkat canlandı. 1988-ci ilin əvvəllərində Yuxarı Qarabağda baş verən hadisələr – Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün aparılan açıq tədbirlər (imza toplamalar, mitinqlər və s.) Azərbaycan suverenlik hərəkatına

güclü təkan verdi. Müstəqillik uğrunda mübarizə hərəkatı Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə ilə çulğalaşdı. Bu yolda əzablı mübarizəin yeni mərhələsi başlandı.

Erməni ekstremislərinin dənizdən dənizə (Qara dənizdən Xəzər dənizinə) «Böyük Ermənistan» yaratmaq xülyasını həyata keçirmək səyləri Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsinə gərginlik və coşqunluq gətirdi. Mərkəzin, Moskvanın xüsusən M.S.Qorbaçovun xeyir-duası ilə 1988-ci ilin fevralında yuxarı Qarabağın Ermənistana birləşdirilməsi barədə Xankəndində və Yerevanda qərarlar qəbul edildi. Habelə erməni xalqının hisslərini qızışdıran ekstremist millətçilər ilk növbədə monomilli respublika yaratmaq planını həyata keçirtməyə başladılar. Qeyri-erməni xalqların (azərbaycanlıların, müsəlman kürdlərin və s.) nümayəndələrinin zorla Ermənistandan deportasiyası başlandı. 1988-ci ilin əvvəllərində Azərbaycana ilk qaçqınlar gəlməyə başladılar. Bundan istifadə edən erməni ekstremistləri «Sumqayıt sindromunu» təşkil etdilər. Sumqayıtlı ermənilərinin qətlə yetirilməsində milliyətcə erməni olan Qriqoryanın fəal iştirakı və hadisələr barədə məlumatların çox sürətlə Qərbə sızması bunu təsdiq edir. Sumqayıt hadisələri azərbaycanlıları Ermənistandan qovmaq və Dağlıq Qarabağı Ermənistana birləşdirmək tədbirləri üçün bəhanə və güclü vasitə oldu. Artıq 1989-cu il üçün Ermənistanda bir nəfər də olsun azərbaycanlı qalmamışdı. Azərbaycandan da xeyli erməni çıxıb getmişdi. Lakin ermənilərin Azərbaycandan kütləvi olaraq getməsinə o zaman Azərbaycan KP MK-nın birinci katibi işləyən Ə.Vəzirovun mərkəzin erməniپərəst siyasətinə kömək etməsi də mane olurdu. Respublikanın o zamankı rəhbərliyinin (K.Bağırov, Ə.Vəzirov, A.Mütəllibov, H.Seyidov) mərkəzə itaətkarlıq, hadisələrə biganəlik, barışdırıcılıq və qondarma «beynəlmiləlçilik» siyasəti Yuxarı Qarabağı addım-addım Azərbaycandan uzaqlaşdırdı. Bu illərdə Dağlıq Qarabağda

A.Volski başda olmaqla yaradılan prezident idarəçiliyi mərkəzin Yuxarı Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirməsi üçün zəmin hazırlayan ermənipərəst siyasətinin əməli addımı idi. Ondan sonra yaradılan Dağlıq Qarabağ üzrə Təşkilat komitəsi də Azərbaycanın ərazi bütövlüyünü təmin etməkdə səmərə verməmişdi. Bu komitə olsa-olsa Yuxarı Qarabağdakı azərbaycan icması ilə erməni icması arasında müvazinəti qoruyurdu. Həmin qurumlar Qarabağın yuxarı hissəsini, bütövlükdə Qarabağı Ermənistana birləşdirməyin daşnak planını gerçəkliyə çevirmək üçün erməni ekstremistlərinə və millətçilərinə əsil mənada vaxt qazandırmışdı. Onlar qazandıqları vaxtdan Azərbaycanın əzəli Qarabağ torpaqlarını zəbt etmək məqsədi ilə ciddi hazırlıq üçün istifadə etmişdilər. Ermənistan rəhbərləri uzun illər ərzində öz millətçi və ekstremist fəaliyyətləri sayəsində erməni xalqında türklərə, azərbaycanlılara qarşı düşmənçilik şüurunu formalaşdırmış, hətta «Böyük Erməistan» yaratmaq üçün çoxminlik, güclü ordu yaratmışdılar. Onlar törətdikləri Əsgəran və Sumqayıt fitnələrinin köməyi ilə, azərbaycanlıların ermənilərə qarşı guya soyqırım siyasəti yürütdükləri təbliğatını dünyaya yayırdılar. Nəhayət, Ermənistan 1988-ci ilin yayından etibarən Azərbaycana qarşı elan edilməmiş müharibəyə başladı. O hələ də davam edir. Erməni işğalçıları öz xarici havadarlarının köməyi ilə Ermənistandakı azərbaycanlıları öz ata-baba torpaqlarından qovmaq və Azərbaycanı parçalayaraq yeni torpaqlar zəbt etmək yolu ilə öz məqsədlərinə nail olmağa çalışırlar.

Ermənilərin Azərbaycanın ərazi bütövlüyünə qəsdləri respublikada istiqlal hərəkatına yeni təkan verdi.

1988-ci ilin payızından suverenlik və demokratiya uğrunda mübarizənin meydan dövrü mərhələsi başlandı: yüz minlərlə əhali tezliklə Azərbaycanın ərazi bütövlüyünü qoruyub saxlamaq, erməni millətçi separatçılarını cilovlamaq əzmi ilə

şəhər və qəsəbələrin, xüsusilə Bakının meydanlarına çıxdılar. 1988-ci il noyabrın 17-də Bakının Azadlıq (keçmiş Lenin) meydanında zəhmətkeşlərin əzəmətli mitinqi başlandı. Bu gün Azərbaycan tarixinə Milli Qurtuluş günü kimi daxil oldu. Mitinqə gənc fəhlə Nemət Pənahov rəhbərlik edirdi. Respublikanın o zamankı mərkəzə itaətkar rəhbərliyi xalqın haqlı tələblərinə qulaq asmaq və tədbirlər görmək əvəzinə rus süngüsünün qüvvəsi ilə mitinqi dağıtmaq yolunu götürdü. Mitinq 1988-ci il dekabrın 5-də zorla dağıdıldı, Bakıda və respublikanın bir sıra bölgələrində fövqəladə vəziyyət tətbiq edildi. Respublikada başlanmış siyasi böhran dərinləşməyə başladı. Belə şəraitdə ictimai-siyasi birlik olan Azərbaycan Xalq Cəbhəsi təşkilatca formalaşdı. 1988-ci ilin əvvəllərində (fevralın axırı – martın əvvəllərində) AXC-nın «Müvəqqəti təşəbbüs» qrupu yarandı. Habelə onun işçi orqanı – Koordinasiya Şurası təşkil edildi. Bu təşkilat Baltikyanı ölkələrdəki xalq cəbhələri timsalında hələ 1988-ci ilin yayında AXC-nin «Təşəbbüs qrupu» və «Varlıq» qruplarının zəminində yaradılmışdı. Bunlardan başqa bu zaman Respublikada onlarla qeyri-formal qrup və təşkilatlar da fəaliyyət göstərirdi. Onların başlıca məqsədi Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizə aparmaq idi.

AXC-nın təşkilatca formalaşması 1989-cu ilin iyulun 16-da təsis konfransı ilə başa çatdı. Onun proqramı və nizamnaməsi təsdiq edildi. 1989-cu ilin yayından etibarən AXC Azərbaycanın bütün sosial tələblərini təmsil edən xalq külələrinin müstəqillik və respublikanın ərazi bütövlüyünü qorumaq uğrunda mübarizəsinə rəhbərlik edən başlıca ictimai-siyasi qüvvə idi. Kütlələrin əksəriyyəti, çox zaman mahiyyətinə varmadan, onun şüarına qoşulurdular. 1989-cu il iyulun 29-u, avqustun 5 və 12-dəki fövqəladə vəziyyət şəraitində Bakının baş meydanında keçirilən kütləvi mitinqləri bunlara nümunə

göstərmək olar. Həmin mitinqlərdə hələ vaxtı çatmamış, Azərbaycan xalqına yabançı şüar və çağırışlarla yanaşı Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü təmin edəcək tələblər də irəli sürülürdü.

Azərbaycanın istiqlalı uğrunda mübarizədə AXC-nın təşəbbüsü və rəhbərliyi ilə 1989-cu ilin avqust və sentyabrında keçirilən ümummilli tətillərin də mühüm rolu olmuşdur. 1989-cu ilin avqustun 21-22-də xəbərdarlıqla edilən iki günlük tətillərdə, habelə sentyabrın 4-dən etibarən həftəlik ümummilli tətillər demək olar ki, əhalinin həyat və fəaliyyətini təmin edən müəssisələr istisna olmaqla, bütün respublikanı əhatə etmişdi. Tətilə dəmiryolçular da qoşulmuşdular. Bu da nəinki Azərbaycan, habelə Cənubi və Şimali Qafqaz dəmir yollarını da iflic etmişdi. Bu tətillər respublikanın da iqtisadiyyatına ciddi zərər vurmuşdu. Təkcə ilk dörd gündə Azərbaycan sənayesi 130 milyon manatlıq məhsul istehsal etməmişdi. Fövqəladə vəziyyət şəraitində xəbərdarlıq və xəbərdarlıq edilmədən keçirilən bu tətillər istiqlal və ərazi bütövlüyü naminə qəti tədbirlər görmək üçün Ə.Vəzirov başda olmaqla mərkəzə itaətkar respublika rəhbərliyinə güclü təsir etməyə xidmət edirdilər. Bu təsirin nəticəsi idi ki, respublika rəhbərliyi AXC nümayəndələri ilə dəfələrlə danışıqlar apardı və hətta Azərbaycan SSR Ali Sovetinin 1989-cu il sentyabrın 15-də başlanan fövqəladə sessiyasına AXC rəhbərliyi dəvət edildi. Geniş xalq kütlələrinə arxalanan AXC rəhbərliyinin təsiri və iştirakı ilə Azərbaycan SSR Ali Sovetiin fövqəladə sessiyası «Azərbaycanın suverenliyi, iqtisadi müstəqtlliyi haqqında» qanun layihələrini ümumxalq müzakirəsinə vermək barədə qərar qəbul etdi. Habelə DQMV-də vəziyyət barədə, xüsusən, sonradan məlum olduğu kimi, Qarabağın dağlıq hissəsini Azərbaycandan qoparmaq üçün hüquqi və iqtisadi zəmin hazırlamış A.Volski başda olmaqla qondarma Xüsusi İdarə Komitəsinin ləğv etmək barədə SSRİ Ali

Sovetinin qarşısında məsələ qaldırmaq haqqında qərarlar qəbul olundu. Fövqəladə sessiyanın sentyabrın 23-dəki iclasında istiqlal uğrunda mübarizə tarixində mühüm hadisə olan «Azərbaycan SSR-nin suverenliyi haqqında» Konstitusiya qanunu qəbul edildi. O, keçmiş SSRİ ərazisində istiqlal naminə qəbul edilmiş ilk qanun idi. Lakin bu hələ tam istiqlalın əldə edilməsi demək deyildi, olsa-olsa ilk addım idi. Qeyd etmək lazımdır ki, 1989-cu ilin oktyabrın 5-də Azərbayan Nazirlər Soveti tərəfindən AXC-nın ictimai-siyasi təşkilat kimi rəsmən qeydə alınması da 1989-cu il yay və payız mitinq və tətillərinin mühüm nəticəsi idi.

Beləliklə, 80-cı illərin axırı SSRİ-nin digər regionlarında olduğu kimi Azərbaycanda da mürəkkəb və ziddiyətli vəziyyət yaranmışdı. Respublikada faktiki olaraq ikihakimiyyətlilik hökm sürürdü. Onlardan biri xalqın mənafeyini hələ mövcud olan mərkəzə satan itaətkar respublika rəhbərliyi, ikincisi həqiqi istiqlal naminə populist şüarlarla xalq kütlələrinin əksəriyyətini arxasınca aparan Azərbaycan Xalq Cəbhəsi idi. Birincinin arxasında partiya elitasını və sovet bürokratiyasını müdafiə edən mərkəz, digərinin arxasında isə həqiqi istiqlal arzusu ilə yaşayan, bəzən müstəqillik naminə populist çağırışlara qoşulan xalq kütləl əri durdurdu. Əslində istiqlal uğrunda kütləvi hərəkata nəzarət AXC-nın əlində idi. Lakin burada da birlik yox idi: radikallarla liberallar arasında kəskin mübarizə gedirdi. Radikallar liberalları qətiyyətsizlikdə ittiham edirdilər. Bundan istifadə edən kommunist rəhbərliyi xalq hərəkatını zəiflətmək üçün hər vasitəyə əl atırdı. Respublikanın Mərkəzə itaətkar kommunist rəhbərlyinin təhriki ilə könüllü silahlı dəstələrin və AXC milli Müdafiə Şurasının yaradılması buna misal ola bilər. 1990-cı il yanvarın 12 – 15-də Bakıda təşkil edilən erməni talanları da ümumxalq istiqlal hərəkatını rüsvay etməyə xidmət edirdi. Respublika

rəhbərliyinin, milisin və DTK orqanlarının bu hadisələrə laqeydliyi və qarışmaması da bunu təsdiq edirdi.

Sonrakı hadisələr göstərdi ki, Mərkəz bu vəziyyətdən Azərbaycan SSR Ali Sovetinə seçkilər ərəfəsində Bakıda və bəzi bölgələrdə fövqəladə vəziyyət və komendant saatı qoymaq və istiqlal uğrunda ümumxalq hərəkatına divan tutmaq üçün istifadə etmək fikrində imiş. SSRİ Ali Sovetinin Rəyasət Heyətinin «Dağlıq Qarabağ və bəzi digər rayonlarda fövqəladə vəziyyət elan olunması» haqqında 1990-cı il 15 yanvar fərmanı, habelə həmin fərmanın Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinə Bakıda və Gəncədə komendant saatı tətbiq edilməsi barədə tövsiyəsi buna inkaredilməz sübut idi. İstiqlal arzusu ilə yaşayan xalq bu tədbirləri Azərbaycanın suverenliyinə ağır zərbə, ermənipərəst akt kimi qiymətləndirərək müstəqillik uğrunda müğarizəni gücləndirdi, hərbi hissələr ətrafında piketlər təşkil etməyə başladı. AXC-nın idarə heyəti SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını Azərbaycan xalqının milli ləyaqətinə təhqir kimi qiymətləndirdi və Azərbaycan Ali Sovetindən onun həyata keçirilməsini dayandırmağı tələb etdi. Eyni zamanda xalqı silahlı qüvvələrin Bakıya daxil olmasına müqavimət göstərməyə çağırdı. Hətta 1990-cı il yanvarın 17-də Azərbaycan KP MK-nın binası qarşısında (indiki Prezident Aparatı iqamətgahı – Ağ Ev qarşısında) Ali Sovetin fövqəladə sessiyasını çağırmaq və Respublika rəhbərliyinin istefası tələbi ilə fasiləsiz mitinq təşkil etdi. Bütün bunlardan istifadə edən mərkəzin o vaxt Bakıda olan nümayəndələri D.Primakov, A.Kirenko Azərbaycandakı istiqlal uğrunda milli-azadlıq və demokratik xalq çıxışlarına Mərkəzə qarşı barışmaz antisovet hərəkat donu geyindirdi və oraya belə məlumat verdilər. Belə fikrin formalaşmasında respublikanın o zamankı itaətkar rəhbərliyinin də rolu olmuşdu. M.Qorbaçov başda olmaqla Mərkəz müstəmləkəçilik əleyhinə çıxdığına və istiqlal uğrunda mübarizəyə qalxdığına görə Azərbaycana

qulaqburması verməyi qət etdi. Bu həm də istiqlal arzusunda olan və müstəmləkəçiliyə qarşı çıxan digər respublikalar və xalqlar üçün dərs vermək məqsədini güdürdü. Bu məqsədlə SSRİ Ali Sovetinin Rəyasət heyəti M.Qorbaçovun imzası ilə Bakıda da fövqəladə vəziyyət elan edilməsi barədə fərman verdi. Bu fərman Azərbaycan xalqına qarşı qəsdən hazırlanan cinayət aktının formal əsası oldu. Halbuki, SSRİ Ali Sovetiinn Rəyasət heyətinin 1990-cı il 15 yanvar fərmanında Bakı və Gəncədə komendant saatının tətbiq edilməsi Azərbaycan SSR Ali Rəyasət heyətinə tövsiyə edilmişdi. Nəhayət, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda fövqəladə vəziyyətin tətbiq olunmasından bir neçə saat əvvəl (fərmanın yanvarın 20-də saat 00-dan tətbiq ediləcəyi elan edilmişdi) sovet müstəmləkəçi qoşunları əhaliyə xəbərdarlıq etmədən Bakı üzərinə hücuma keçdilər. Onlarla günahsız dinc əhali vəhşicəsinə qətlə yetirildi. Onların arasında qadın, uşaq və qocalar da vardı, onlarla adam tankların tırtılları altında yerə yapışdırıldı, yüzlərlə adam yaralandı. (Rəsmi məlumata görə 131 nəfər öldürülmüş, 700 nəfər yaralanmışdı). Minlərlə adam, o cümlədən 250 nəfər AXC fəalı həbs edildi. Sovet imperiyası süngüsünün (onlar arasında könüllü səfərbərliyə alınmış qisasçı ermənilər də az olmamışdır) bu vəhşiliyi öz istiqlalı uğrunda ayağa qalxmış bütöv xalqa qarşı tarixdə görünməmiş olan soyqırımı, müstəmləkəçilik qisası idi. Əməliyyata başçılıq edən o zamankı müdafiə naziri, cinayətkar D.Yazov bu vəhşiliyi «ordunun Bakıda öz vəzifəsini ləyaqətlə yerinə yetirməsi» kimi qiymətləndirmişdi. Bəli, doğrudan da, vaxtı ilə Fransa inqilabının boğulmasına kömək edən, keçmiş ADR-də, Macarıstanda, keçmiş Çexoslovakiyada, Polşada milli demokratik hərəkata divan tutan rus süngüsü, Azərbaycanda da milli-demokratik, istiqlal hərəkatını boğmağa səy göstərmiş, müstəmləkə itaətkarsızlığına görə Azərbaycan xalqını cəzalandırmaq qənaətinə gəlmişdi. Bunun nəticəsində yüzlərlə

adam şəhid oldu, yaralandı və itkin düşdü. Xalqın yaddaşına istiqlal uğrunda şəhidlərin yeni dəstəsi həkk olundu. 20 yanvar tariximizə «Qanlı yanvar» hadisəsi kimi daxil oldu.

«Qanlı yanvar» həm də tariximizin şanlı səhifəsidir. Həmin gün xalqımızın şanlı və qeyrətli oğlu və qızları azadlıq və istiqlal naminə canlarını belə qurban verməyə hazır olduqlarını nümayiş etdirdilər.

20 yanvar «Azərbaycan xalqının istiqlal uğrunda mübarizə»sinin yeni mərhələsində dönüş hadisəsi oldu. O, demokratik qüvvələri müəyyən müddətə şok vəziyyətinə salsa da, milli yaddaşımızın daha da güclənməsinə təkan verdi, xalqa azadlıq və istiqlal uğrunda, müstəmləkəçiliyə qarşı dönməz mətanət və əzm verdi. Bu hadisə göstərdi ki, xalq istiqlal naminə qurbanlar da verməyə hazır olmalıdır.

Xalqın qəzəbindən çəkinən Mərkəz onun köhnə rəhbərliyinin istefa tələbinə cavab olaraq Ə.Vəzirovu yeni itaətkar A.Mütəllibovla əvəz etdi. Hakimiyyətə partokratiyanın yeni əlverişli nümayəndəsi gəldi. O da, öz sələfinin Azərbaycanın istiqlalına xilaf, onu fəlakətə sürükləyən siyasətini davam etdirirdi. Onun siyasətinin ana xəttini «Azərbaycan xalqının gücə və nüfuza tabe olmaq ənənələrini» davam etdirmək devizi altında «inzibati-partokratik» rejimi qoruyub saxlamaq və möhkəmləndirmək təşkil edirdi. O, açıqcasına elan edirdi ki, digər respublikalardan fərqli olaraq «ənənələrimizə görə» Azərbaycanda «güclü» hakimiyyətə və «sərt ələ» böyük ehtiyac duyulur, burada kommunist partiyasının rəhbər rolu artırılmalı, bölünməz rəhbərliyi təmin edilməlidir. O, bunu Azərbaycan şəraitində demokratiyanın təntənəsi kimi qələmə verirdi. Bütün bunlara baxmayaraq Azərbaycanda milli-demokratik və istiqlal hərəkatı getdikcə güclənib yeni vüsət alırdı.

SSRİ-ni qoruyub saxlamaq məqsədilə Moskvada törədilən 1991-ci il 19 avqust hadisəsi (19 avqust qiyamı da adlandırırdılar) DFVK-nin (QKÇP) yaradılmasının elan edilməsi Azərbaycanda da vəziyyəti dəyişdi. Qiyamdan sonra ölkədə mütləq hakim və rəhbər olan Kommunist partiyası yuxarıdan buraxıldı. Kommunist partiyasının qeydsiz-şərtsiz itaətkarlıq təbliğ edən ənənələri özünə qənim kəsildi. 19 milyonluq partiya qımıldanmadan bir nəfərin (M.Qorbaçovun) qərarına tabe oldu. Sonradan 1991-ci ilin dekabrında SSRİ də dağıldı. Bunun nəticəsində Azərbaycanda da ciddi dəyişikliklər baş verdi. Burada da kommunist partiyası hakimiyyətdən uzaqlaşdı. Azərbaycan Kommunist partiyasının hələ 20 yanvar hadisəsindən sonra başlanan təşkilatca dağılması (bu hadisə ilə əlaqədar on minlərlə kommunist öz partiya biletlərini atmış və ya təhvil vermişdilər) başa çatdı. Şüurlu ömrünün çox hissəsini kommunist idealına, kommunist partiyasına xidmət etmiş çox adamlar çaş-baş qaldılar, əsil mənada şok vəziyyətinə düşdülər. Lakin Azərbaycanda da keçmiş kommunist liderləri respublikada rəhbərliyi öz əllərində saxladılar. AXC başda olmaqla müəyyən qüvvələrin, habelə Naxçıvan Muxtar Respublikasının prezident seçkilərini boykot etməsinə baxmayaraq, 1991-ci ilin sentyabrın əvvəllərində (8-də) Azərbaycan KP MK-nın keçmiş birinci katibi A.Mütəllibov Azərbaycanın prezidenti seçildi. A.Mütəllibovun bu «müvəffəqiyyətinə» baxmayaraq Respublikada siyasi şərait həmin ilin avqusta qədərkindən köklü surətdə fərqlənirdi. Qüvvələr nisbəti demokratiyanın nəfinə tamamilə dəyişmişdi. A.Mütəllibova qarşı AXC-dən, «demblok» qüvvələrindən başqa, çox təcrübəli siyasətçi H.Əliyev başda olmaqla Naxçıvan MR-ı da dururdu. Bu qarşıdurma hələ Azərbaycan SSR Ali Sovetinin yeni heyətdə seçilmiş deputatların sessiyasında da özünü qabarıq göstərmişdi. Sözsüz ki, bunlar çox ağır şəraitdə, elan olunmamış müharibə şəraitində istiqlal uğrunda aparılan mübarizədə

qüvvələr birliyinə çox ciddi xələl gətirirdi. Hələ neçə ay ondan əvvəl AXC müxalifətini tanımaq istəməyən A.Mütəllibov vəziyyətdən çıxmaq üçün AXC-yə güzəştə getmyə, onunla əlaqə yaratmaq xəttini götürməyə məcbur oldu. Belə bir şəraitdə müxalifətin təsiri ilə Azərbaycan parlamentində istiqlalın nəfinə bir sıra qanun və qərarlar qəbul edildi.

1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» konstitusiya aktının qəbul edilməsi xüsusilə böyük əhəmiyyət kəsb etdi.

Bu şəraitdə istiqlal uğrunda mübarizə aparan respublikada siyasi böhran daha da dərinləşir, müxtəlif ambisiyalı qüvvələrin qarşıdurmaları qarşısıalınmaz hala çatırdı. Özünü istiqlal uğrunda əsl mübariz hesab edən AXC bu vəziyyətdən istifadə edib hakimiyyətə gəlmək iştahasını daha da artırdı. Azadlıq, demokratiya, istiqlal və ərazi bütövlüyü arzusu ilə yaşayan xalq kütlələri həmin şüarları özünə bayraq edən qüvvələr girdabında girinc qalmışdılar. Erməni ekstremistlərinin Azərbaycana elan olunmamış müharibəsi cəbhəsində çox vaxt baş verən uğursuzluqlar qətiyyətsiz iqtidara qarşı çıxan qüvvələrin sırasını getdikcə artırırdı. 1991-ci il noyabrın 20-də Azərbaycanın bir qrup görkəmli dövlət xadimləri olan vertolyotun ermənilər tərəfindən vurulması, 1992-ci ilin əvvəllərində (fevralda) rus süngüsünün iştirakı ilə ermənilər tərəfindən Xocalı soyqırımının törədilməsi, bu hadisələrə iqtidarın laqeydliyi və bəzi daxili qüvvələrin maraqlarının olması respublikada siyasi böhranın daha da dərinləşməsinə səbəb oldu. Böhranlı vəziyyətdən can qurtarmaq məqsədilə Ali Sovetin sədri E.Qafarova qurban verildi. 1992-ci ilin martın əvvəllərində o. istefa verməli oldu, prezident A.Mütəllibovun təklifi ilə xalq deputatı Y.Məmmədov Ali Sovetin sədri seçildi. Lakin bu dəyişikliklər də A.Mütəllibov hakimiyyətinə sakitlik gətirmədi. Siyasi böhran daha kəskin hal aldı. Bu da, hələ 6 ay

əvvəl secicilərin «əksəriyyəti» tərəfindən seçilmiş, prezident A.Mütəllibovun martın 6-da istefasına gətirib çıxardı. Onun səlahiyyətlərini yenicə Ali Sovetin sədri seçilmiş Y.Məmmədov icra etməyə başladı. Lakin bu dəyişmə də respublikanı siyasi, sosial iqtisadi və hərbi böhrandan qurtara bilmədi. Ermənilər tərəfindən Şuşa və Laçının işğal edilməsi respublikadakı mövcud böhranı daha da artırdı. Respublikada xaos, bəzən deyildiyi kimi «bezpredel» vəziyyəti yarandı. Müəyyən xarici və daxili qüvvələrin təhriki və köməyi ilə 1992-ci il mayın 14-də A.Mütəllibov yenidən prezident kürsüsünə oturuldu. Lakin o, bu kürsüdə ancaq bir sutka otura bildi. Hələ yerində bərkiməmiş mayın 15-də AXC-nın təşkil etdiyi silahlı çıxış nəticəsində yenidən prezident vəzifəsindən getməli oldu. AXC müsavat qrupu hakimiyyətə gəldi. 1992-ci il iyunun 7-də prezident seçkiləri keçirildi. AXC-nın sədri Ə.Elçibəy (Əliyev) prezident seçildi. Beləliklə, AXC-nın səyi, gözqamaşdırıcı şüarları sayəsində, vaxtilə özünun də etiraf etdiyi kimi, heç prezident olmaq niyyəti güdməyən, hədsiz dərəcədə yumşaq, qətiyyətsiz və siyasi-təşkilatı cəhətdən təcrübəsi olmayan bir adam prezident kürsüsündə əyləşdi. Bununla da, hələ 1988-ci ilin yayından başlanmış «Meydan mübarizəsi» dövrü başa çatdı.

Qeyd olunmalıdır ki, Meydan hərəkatı istiqlal uğrunda mübarizəin mühüm mərhələsi olmuşdur. O, Azərbaycan xalqının bütün zümrə və təbəqələrini birləşdirən mübarizə forması idi. Xalq külələri müəyyən müddətdə onu azadlıq və istiqlal problemlərini həll etməyin əsas istinadgahı və vasitəsi hesab edirdi. Məhz Azərbaycanda ilk dəfə «sovet imperializm»indən azad olmaq çıxışları burada meydana çıxmışdı. Həm də, Respublikanın ərazi bütövlüyünü qorumaq üçün mübarizəni dönmədən davam etdirmək əzmi burada nümayiş etdirilmişdi. İstiqlal uğrunda mübarizənin Meydan mərhələsi tarixi məktəb rolunu da oynamışdır. Yüzlərlə mərd mübarizlər məhz burada

mətinlik dərsi almışdılar. Lakin qeyd etmək lazımdır ki, meydan hərəkatına qoşulanlar arasında səbatsız, şəxsi ambisiyalı və məqsədli adamlar, boşboğazlar, cinayətkarlar və s. də var idi.

## § 2. Milli istiqlal hərəkatının ilkin mərhələsi

Azərbaycan istiqlalı uğrunda mübarizə 1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya aktının qəbul edilməsi ilə yeni mərhələyə daxil olmuşdu. Bu mərhələ istiqlalın rəsmi elan edilməsi, istiqlal şəraitində çətin yolla irəliləməsi dövrü idi. Belə bir çətin dövrdə Azərbaycan xalqının istiqlal uğrunda mübarizəsinin önündə gedən AXC 1992-ci il mayın 15-də hakimiyyəti ələ aldı. AXC və onu dəstəkləyən qüvvələr 13 aylıq hakimiyyəti dövründə respublikanın müstəqilliyinin möhkəmlənməsinə xidmət edən bir sıra tədbirlər həyata keçirdilər.

Azərbaycan Milli bankının yaradılması (avqust 1992-ci il), milli pulun – manatın dövriyyəyə buraxılması (15 avqust 1992-ci il), xarici ölkələrlə birgə müəssisə və birliklərin yaradılması addımları, «Siyasi partiyalar haqqında», «İctimai birliklər haqqında», latın qrafikasına keçilməsi haqqında və s. qərarlar daxili siyasət sahəsində həyata keçirilən tədbirlərdir. Xarici siyasət sahəsində 1992-ci il iyunun 25-də Milli Məclis «Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin başçıları üçün dərəcələrin və diplomatik rütbələrin müəyyən edilməsi barədə» qanunun qəbul edilməsinin, Azərbaycan Respublikası bir sıra beynəlxalq konvensiya və müqavilələrə, o cümlədən «Nüvə silahının yayılmaması haqqında» (1 iyul 1968-ci il) müqaviləyə, «Mülki aviasiya haqqında», (7 dekabr 1944-cü il), «Birləşmiş Millətlər Təşkilatının imtiyazları və diplomatik hüquqları barədə» (13

yevral 1946-cı il), «Qadınların siyasi hüquqları haqqında» (20 dekabr 1955ci il), «Diplomatik əlaqələr haqqında» (18 aprel 1961-ci il), «Konsulluq əlaqələri haqqında» (24 aprel 1963-cü il), «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» (19 dekabr 1968-ci il), və s. konvensiya və paktlara qoşulmaq barədə qərarları göstərmək olar. Bu dövrdə ABŞ-nın, Almaniyanın, Fransanın Rusiyanın, İranın, Türkiyənin, İraqın, Çinin, İsveçrənin və başqa dövlətlərin Bakıda səfirlikləri açıldı, BMT-nin nümayəndəliyi və BMT Qaçqınlar işi üzrə Ali Baş komissarlığının nümayəndəsi də Azərbaycanda fəaliyyətə başladı. Öz növbəsində Azərbaycan Respublikasının Türkiyədə, İranda, ABŞ-da, Almaniyada, Fransada, Böyük Britaniyada və İrlandiya krallığında, Misir, Səudiyyə Ərəbistanı və Pakistanda səfirlikləri açıldı. Asiya və Avropa ölkələri ilə, ABŞ-la əlaqələr inkişaf etməyə başladı. Türkiyə və digər türk mənşəlli respublikalarla, habelə şərqin digər dövlətləri ilə əlaqələr və əməkdaşlığın yaradılmasına xüsusi yer verildi. Xarici kapital qoyuluşunun Azərbaycana daxil olması üçün şərait yaradılması sahəsində də səylər göstərildi.

Lakin bütün bunlarla yanaşı, qeyd olunmalıdır ki, AXC və onu dəstəkləyən qüvvələrin bir il bir aylıq hakimiyyəti də respublikanın istiqlalı üçün çox təhlükəli olan iqtisadi, sosial-siyasi və hərbi böhran vəziyyətini aradan qaldıra bilmədi. Əksinə, onu daha da dərinləşdirib vətəndaş müharibəsi həddinə, parçalanma və kəskin qarşıdurma həddinə gətirib çıxardı. İqtisadiyyat tamamilə pozuldu. Mülkiyyətlərin mülkiyyətsizləşməsi (əvvəllər heç olmasa əslən totaltitar dövlətə məxsus «ümumxalq mülkiyəti» forması mövcud idi), istehsal zəmini olmayan alış-verişin baş alıb getməsi, siniflər və sosial təbəqələrin simasızlaşması, siyasi qarşıdurmaların və siyasi təkəbbürlərin (ambisiyalar) güclənməsi, hələ tam yaradılmamış

ordunun pozulması, bu və ya digər qrupların və şəxslərin mənafeyinə xidmət edən hərbi dəstələrin fəallaşması başlandı.

AXC iqtidarı özünü hakimi mütləq kimi aparmağa başladı: xalqla, ictimai fikirlə və s. siyasi qüvvələrlə hesablaşmamağı adi iş metoduna çevirdi. Hətta iş o yerə çatdı ki, AXC-nın iqtidar liderlərindən bəziləri: «xalqın əksəriyyəti hətta, 95 faizi bizi müdafiə etməsə də biz hakimiyyətdə qalacağıq». Onlar «silahla hakimiyyət gəlmiş bizləri, ancaq silah gücünə devirmək mümkündür» kimi bəyanatlarla çüxüş etməyə başladılar. Erməni işğalçılarına qarşı müharibə cəbhələrində də müəyyən müvəffəqiyyətlərdən sonra, 1993-cü ilin yazından etibarən uğursuzluqlar başladı. Şuşa və Laçından sonra Kəlbəcər və bir sıra qəsəbə və kəndlərimiz işğalçılar tərəfindən istila edildi. Naşılıq, səriştəsizlik, təxribatçılıq və başı pozuqluq sayəsində cəbhədə bir-birinin ardınca məğlubiyyətlər baş verdi. Məsuliyyətsiz bəyanatlar, çağırışlar, türkçülük zəminində özünü biruzə verən birtərəflik, zəmin yaradılmadan, mərhələlərsiz birbaşa Avropaya çıxmaq meylləri, xarici siyasət sahəsində də uğursuzluqlara gətirib çıxardı. Qonşu dövlətlərlə, xüsusən Rusiya və İranla, Orta Asiya respublikaları ilə münasibətlərdə soyuqlaşma başladı. Doğrudur, burada antiazərbaycan erməni təbliğatının rolu da olmuşdur.

Bütün bunlar Respublikada kompleks böhranın dərinləşməsinin başlıca səbəbləri idi. Burada nüfuzlu şəxsiyyət qıtlığının olması da böyük rol oynamışdı. Çünki nüfuzlu şəxsiyyət axtarmaq, ona öz ümidini bağlamaq bütün şərq xalqları kimi Azərbaycan xalqının da tarixi ənənələrindəndir.

1993-cü il iyun ayında Gəncədə baş vermiş qiyam Respublikada kompleks böhranın kulminasiya həddinə çatdığını biruzə verdi. Bu qiyam zamanı onlarla günahsız insanın tələf olması və yaralanması, iqtidar qüvvələrinin öz-özlərini ifşa etməsinə və məğlubiyyət qarşısında qalmasına gətirib çıxartdı.

Silah vasitəsilə milli ordu strukturunda bir hərbi hissəni itaətə gətirmək, ləğv etmək məqsədi güdən uğursuz cəhdi, AXC iqtidarının nəyə qadir olduğunu, xüsusilə hərbi cəhətdən bacarıqsızlığını açıb göstərdi. Bu hadisə göstərdi ki, xalqın AXC-yə inamı sınmışdır və iqtidarın xalqa arxalanmağa heç bir əsası yoxdur. Kommunist rejiminə, müstəmləkəçiliyə qarşı azadlıq və istiqlal uğrunda mübarizədə xalqın milli yaddaşının təzahüründə və nifrət ruhunun təşəkkülündə mühüm rol oynamış AXC-nın xalq arasında nüfuzu son dərəcə aşağı düşdü. Bu onun sıralarına təsadüfi adamların gəlməsi ilə, hakimiyyətə gəlmiş bir çox adamların rüşvətxor siyasətləri ilə əlaqədar idi.

İyun hadisələrinin nəticəsi AXC-dən olan liderlərin hakimiyyətdən getməsi oldu. Əvvəlcə baş nazir kürsüsündə oturmuş P.Hüseynov, sonra Ali Sovetin sədri İ.Qəmbərov istefaya çıxdılar, iyunun 17-də isə prezident Ə.Elçibəy (Əliyev) heç kimə xəbər vermədən ətrafındakılarla birlikdə doğma kəndi Kələkiyə çıxıb getdi.

İyun hadisələri zamanı vətəndaş müharibəsi astanasında çaşbaş qalmış Azərbaycan xalqı ümidgah olacaq yeni lider aramağa başladı. Belə bir lider 70-80-cı illərdə respublikanın rəhbəri, keçmiş SSRİ-nin liderlərindən biri olmuş, sonralar xalqın iradəsi ilə Naxçıvan MR Ali Məclisinin sədri seçilmiş, dünya miqyasında tanınmış, təcrübəli, müdrik siyasətçi və dövlət xadimi, xalqın iradəsi və keçmiş iqtidarın liderlərinin dəvəti ilə Azərbaycan Respublikası Ali Soveti sədrliyinə seçilmiş H.Əliyev oldu. Demək olar ki, bütün Azərbaycan Respublikası mövcud dərin böhrandan qurtarmaqda Heydər Əliyevə böyük ümid bəsləyirdi.

İnkaredilməz faktdır ki, zəngin maddi və mənəvi ehtiyatlara malik olmasına baxmayaraq bu zaman respublikanın vəziyyəti çox ağır idi. Yuxarıda qeyd etdiyimiz kimi, o, dərin iqtisadi, sosial-siyasi və mənəvi böhran içərisində idi.

Səbr kasası dolmuş xalq onun tezliklə düzəlməsini, erməni işğalçıları tərəfindən zəbt edilmiş torpaqların tezliklə geri qaytarılmasını, yaşayış şəraitinin yaxşılaşmasını istəyirdi. Lakin yaranmış vəziyyəti bir neçə gün və ay, hətta il ərzində də düzəltmək çətin idi, Azərbaycan istiqlalı çox ciddi və mürəkkəb çətinliklər qarşısında idi.

İstiqlalımızı sabitləşməyə və möhkəmlənməyə qoymayan, onun üçün də çox təhlükəli olan başlıca çətinliklərdən biri, Qarabağın dağlıq hissəsini özünə birləşdirmək bəhanəsi ilə Ermənistanın doğma torpaqlarımızı işğal etmək məqsədi güdən elan edilməmiş müharibənin davam etməsi idi. Fitnəkar daxili və xarici erməni siyasətçiləri hələ keçən əsrin axırlarından hazırladıqları «Böyük Ermənistan» yaratmaq planını həyata keçirmək üçün 80-cı illərin axırlarında yeni fürsət əldə etmişdilər. Onlar, Azərbaycan rəhbərliyinin fərasətsizliyindən istifadə edərək, bu planı mərhələ-mərhələ həyata keçirməyə başlamışdılar. Əvvəlcə, onlar keçmiş SSRİ rəhbərliyinin, xüsusən M.Qorbaçovun və onun arvadının xeyir-duası ilə Azərbaycanın əzəli ərazisi olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək qərarını verdilər. Onu iqtisadi cəhətdən tamamilə Azərbaycandan ayırdılar. Bu sahədə M.Qorbaçovun erməni ətrafının diktəsi ilə A.Volski başda olmaqla DQMV-də yaradılmış xüsusi idarə komitəsinin mühüm rolu olmuşdu. Sonra erməni millətçiləri gələcəkdə arxada təhlükəsizliklərini təmin etmək və möhkəmlənmək üçün Ermənistandakı azərbaycanlıları tamamilə Ermənistandan müxtəlif yollarla, hətta silah gücünə qovub çıxardılar. Bunun nəticəsində Azərbaycanda 230 minə yaxın qaçqınlar ordusu yarandı. Azərbaycan rəhbərliyi Mərkəzin diktəsi ilə qaçqınları Qarabağın dağlıq hissəsində deyil, əsasən Bakıda və onun ətrafında, bir sıra kənd rayonlarında yerləşdirdi. Bununla Dağlıq Qarabağ «problemini» ermənilərin nəfinə həll edilməsi üçün

zəmin yaradıldı. Bundan istifadə edən ermənilər sonralar azərbaycanlıları Dağlıq Qarabağdan da qaçqın saldılar, onların torpaqlarını zəbt edərək, ev-eşiklərini talan etdilər, hətta kəndlərin yerlərini şumladılar ki, keçmiş Azərbaycan kəndlərinin izi də bilinməsin.

Ermənilərin bütün fitnəkarlıqları və işğalçılıq fəaliyyətləri o zaman keçmiş SSRİ-nin regionda (Azərbaycan və Ermənistanda) olan silahlı qüvvələrinin nəzarəti və müşahidəsi şəraitində həyata keçirilirdi. Sovet hissələri olsa-olsa erməniləri azərbaycanlılardan mühafizə edirdilər. Təsadüfi deyil ki, o zaman erməni millətçilərinin müdafiəçisi Sov.MK katibi A.Yakovlev mərkəz adından açıqcasına bildirmişdiki, «Biz erməniləri incitməyə qoymarıq».

Tarixən iqtisadi, mənəvi və hərbi cəhətdən hazırlaşmış erməni işğalçıları üçüncü mərhələdə Azərbaycan torpaqlarını silah gücü ilə zəbt etmək planını həyata keçirməyə başladılar. Onlar Qarabağın dağlıq hissəsindən başqa, respublikanın 7 rayonunu – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanı, Sədərək, Qazax və Goranboy rayonlarının bir sıra kəndlərini işğal etmişdilər. Ümumiyyətlə, Azərbaycan torpaqlarının beşdə bir hissəsindən çoxu erməni tapdağı altına düşdü. Bu qəsbkar müharibə gedişində ermənilərin işğalçı silahlı qüvvələrinin apardığı «etnik təmizləmə» nəticəsində 20 min nəfər adam öldürülmüş, 100 min nəfər adam yaralanmış, 4 min nəfərdən çox adam əsir düşmüş və ya girov götürülmüş, bir milyondan çox adam öz doğma yurdlarından qaçqın düşmüşlər. Erməni faşist qəsbkarları 800-dən çox kəndi, qəsəbəni və şəhəri, 100 mindən çox yaşayış binasını, bir mindən çox iqtisadi obyekti, 616 məktəb, 225 uşaq bağçası, 11 texniki peşə məktəbi, 4 texnikum, 1 ali məktəb, 842 klub, 962 kitabxana, 13 muzey, 2 teatr, 855 məktəbəqədər obyekti və binaları dağıtmışlar. Öz çirkin hərəkətlərini dünyaya guya öz müqəddəratını təyin etmək

üçün milli-azadlıq mübarizəsi kimi yaymaqla pərdələyən erməni qəsbkarlarının işğal etdiyi torpaqlar keçmiş DQMV-nin ərazisindən iki dəfədən çoxdur. Belə ki, onların işğal etdikləri 14,0 min kvadrat kilometr Azərbaycan ərazisinin 9,0 min kvadrat kilometri Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənardadır. Ermənilərin həyasızlığı o dərəcəyə çatmışdır ki, onlar Azərbaycanın tarixi torpaqları hüdudlarında – Dağlıq Qarabağda «Kiçik Ermənistan» respublikası (DQR) xülyasını həyata keçirməyə səy göstərir və onun dünya dövlətləri, o cümlədən Azərbaycan tərəfindən tanınmasına çalışırlar. Şuşa şəhəri paytaxt olmaqla, «Kiçik Ermənistan» dövləti yaratmaq cəhdi hələ 1918-ci ildə də edilmişdi. Lakin bu xülya o zaman baş tutmamışdı. «Böyük Ermənistan» yaratmaq xülyası ilə yaşayan erməni millətçiləri indi də bütün vasitələrlə bu cəfəng planlarını gerçəkliyə çevirməyə çalışırlar. Xalq arasında yaxşı deyirlər: «ac toyuq yuxusunda darı görər».

Rəsmən elan edilməsə də on beş ildən çoxdur ki, Ermənistan Azərbaycana qarşı müharibə edir. Erməni tərəfindən qəsbkarlıq məqsədilə törədilən müharibə hərbi strateji və taktiki planlar əsasında, bütün müharibə qayda-qanunlarına müvafiq şəkildə, özü də görünməmiş qəddarlıqla aparırlar (Onlar qəddarlıqda, sadistlikdə keçmiş alman-faşistlərini qat-qat ötüb keçmişlər). Açıq etiraf etmək lazımdır ki, ona görə də müvəqqəti də olsa ermənilər döyüş müvəffəqiyyətləri əldə edirdilər. Lakin Azərbaycan tərəfdən müharibə çox müəmmalı aparılırdı. Əvvala, o, bir neçə hücum əməliyyatları müstəsna olmaqla, qəsb edilmiş torpaqlarımızı işğalçılardan təmizləmək uğrunda mübarizə şəraitində müdafiə xarakteri daşıyırdı. İlk illər, daha doğru Ə.Vəzirovun və A.Mütəllibovun dövründə erməni qəsbkarlıqlarından müdafiəyə, ayrı-ayrı məhəlli könüllü özünü müdafiə dəstələri müstəsna olmaqla, keçmiş sovet ordu hissəsinə istinad edilirdi. Dağlıq Qarabağdakı keçmiş sovet hərbi

hissələrində xidmət edənlərin müəyyən hissəsi, xüsusən praporşiklərin əksəriyyəti erməni millətindən olanlar idi. Onlar da çox vaxt erməni millətçilərinə hərtərəfli köməklik göstərirdilər. Dağlıq Qarabağda, habelə Ermənistanla sərhəd rayonlarında yerləşən keçmiş sovet hissələri əslində erməniləri azərbaycanlıların olmayan «hücumlarından» qoruyurdular. Çox vaxt erməni ekstremistlərinin Azərbaycan kənd və qəsəbələrinə basqınlarına göz yumurdular. Sədərək rayonunun Kərki kəndi və bir çox yüksəklikləri, Qazax, Tovuz, Qubadlı, Zəngilan, Gədəbəy rayonlarının bir sıra kəndləri, Qarabağın dağlıq hissəsindəki azərbaycanlılar yaşayan kəndlərin əksəriyyətini məhz onların erməni quldurlarının qəsbkar hərəkətlərinə göz yummaqla yardım etmələri sayəsində zəbt edilmiş, dağıdılıb yandırılmışdı.

Sonralar xalqın tələbi ilə guya Azərbaycan Respublikasının müstəqil ordusu yaradılmağa başlandı. Onun yaradılması barədə səs-küy bütün dünyanı bürüdü. Əslində isə intizamlı ordu deyil, olsa-olsa müxtəlif mənafelərə xidmət edən könüllü batalyonlar var idi. Doğrudur onların sıralarında çox qəhrəman, səriştəli, canını vətən yolunda qurban verməyə hazır olan döyüşçülər də çox idi. Artıq onların əksəriyyəti Vətən yolunda şəhid olmuşlar.

Sonrakı hadisələr – Xocalı soyqırımı, təbii qala olan Şuşanın, Laçının verilməsi, özü də siyasi məqsədlər üçün döyüşsüz düşmənə təslim edilməsi, Gəncə, Lənkəran hadisələri, erməni işğalçılarına qarşı cəbhələrdəki uğursuzluqlar belə mənafelərin mövcudluğunu tamamilə təsdiq etmişdir.

Erməni quldurlarının düçar etdiyi ölüm-dirim müharibəsində Azərbaycanın uğursuzluqlarının mühüm səbəblərindən biri də, özü də başlıcası da Azərbaycanın təkcə Ermənistana, onun kömək etdiyi Dağlıq Qarabağda çığınacaq tapan quldur dəstələrinə qarşı deyil, erməni millətçilərini

dəstəkləyən birləşmiş xarici qüvvələrə qarşı təklikdə vuruşmasıdır. Hələlik tamamilə formallaşmamış Azərbaycan ordusunun cəbhədə uğursuzluqlarına ordudakı intizamsızlıq, fərarilik, təxribatçılıq, məsuliyyətsizlik və qələbəyə inamsızlıq kimi amillər də səbəb olmuşdur. Real gerçəkliyin olduğu kimi qiymətləndirilməməsi, hayküyçülük, mövcud olmayanı mövcud olan kimi qələmə verilməsi, saxtakarlıq edilməsi, öz yerini möhkəmləndirmək xatirinə rəhbərliyi, yuxarıları hər şeyin qaydasında olması ilə əmin etmək kimi ənənəvi «xəstəlik»lərin olması və sairə cəbhədəki uğursuzluqlarımızın səbəblərindəndirlər. Məhz bu səbəblər üzündən nəinki torpaqlarımız, yüzlərlə kənd və şəhərlərimiz, habelə işğal altında olan rayon və şəhərlərdə maddi və mənəvi sərvətlərimiz, ictimai təsərrüfatlara və fərdi adamlara məxsus var-dövlətimiz – yüz minlərlə qoyun-keçi, iri-buynuzlu mal-qara, quş, yüz min tonlarla taxıl, yanacaq, çoxlu texnika, xalı-xalça, məişət və zinət şeyləri, hələ cəbhə zonalarından milyardlarla hesablanan döyüş sursatını və hərbi texnikanı demirik, düşmənə qoyulmuşdur. Bununla biz düşməni sanki düşünərəkdən zənginləşdirmişik, onun imkanlarını gücləndirmişik. Fikrimizcə, Prezident yanında və ya Müdafiə Şurası yanında işğala məruz qalacaq yerlərdə bu işləri təşkil edən xüsusi orqanın yaradılması zəruri idi. Məhz mərkəzdə və cəbhəyanı rayonlarda belə orqanların olmaması üzündən dövlət səviyyəli iş özbaşına buraxılmış, bəzən də məsuliyyətsiz yerli icra hakimiyyətlərinə həvalə edilmişdi. Bunun nəticəsi göz qabağındadır: bir milyona yaxın tamamilə var-yoxdan çıxmış, çılpaq, ac-yalavac qaçqınlar ordusu yaranmış, kənd təsərrüfatı və mədəniyyət müəssisələrinin sərvətləri açıq-aydın düşmənin sərəncamına verilmişdir. İndi onlar talan edilir, habelə kənd və şəhərlərdə nə varsa daşınır, viran edilir, yandırılıb yerlə-yeksan edilmiş, abad şəhər və kəndlərimiz xarabalıqlara çevrilmişdir. Bu erməni

superfaşistlərinin Azərbaycan xalqının başına gətirdiyi görünməmiş fəlakətdir, soyqırımın bir formasıdır.

Müstəqilliyimizin tam təmin edilməsinin çətinliklərindən biri də daxili vəziyyətimizin böhranlı olması idi. Müstəqillik uğrunda mübarizə aparan keçmiş SSRİ respublikaları kimi, Azərbaycan da dərin, iqtisadi, sosial-siyasi və mənəvi böhran içində idi. Bütün bunlar məlum səbəblər üzündən baş vermişdi: islahatların gecikməsi üzündən sabit iqtisadi sistemin yaradılmaması, keçmiş SSRİ mərkəzinin düşünərəkdən ölkənin bütün regionlarına, o cümlədən xüsusilə milli respublikaları da, əhatə edən, hörümçək toru kimi yaratmış olduğu iqtisadi əlaqələrin pozulması, köhnəyə qayıtmaq meyllərinin olması, siyasi sabitliyin hələ tamamilə bərqərar olmaması, əhalinin getdikcə pisləşən sosial vəziyyəti, müharibə və onun xərclərinin artması, görünməmiş qaçqınlar problemi, mənəvi-ideya dağınıqlığının və pozğunluğunun hökm sürməsi, dövlət quruculuğunun və onun strukturlarının tamam-kamal formalaşmaması, mafioz qrupların cəbhədə və arxada təxribatlarının törədilməsi, mədəniyyət, maarif, təhsil, elm və ideya-tərbiyə işlərindəki ciddi çatışmamazlıqlar və nöqsanlar üzündən, üstəgəl erməni quldurları tərəfindən doğma torpaqlarımızın işğal edilməsi daxili vəziyyətimizi çıxılmaz hala salmışdı. Respublikada milli iqtisadiyyatın formalaşdırılmaması üzündən xalq təsərrüfatının strukturu ilə iqtisadiyyatın və əhalinin tələbatı arasında kəskin uyğunsuzluq yaranmışdı. Nəticədə respublikanın istehlak bazarında gərginlik günbəgün artmağa başlamış, icra intizamı pozulmuş, xarici borca düşmək təhlükəsi yaranmış, daxili borclar isə xeyli artmışdı. Keçən ilin müvafiq dövrünə nisbətən 1993-cü ilin 9 ayında milli gəlirin həcmi. 11,6 faiz, sənaye istehsalının həcmi 10 faiz, kənd təsərrüfatında ümumi məhsul istehsalı 13 faiz, neft hasilatı 615 min ton azalmışdır. 1993-cü ildə 700 min ton üzüm yığılması

nəzərdə tutulan planı 41,3 faiz, pambıq yığımı planı isə 58,8 faiz (280 min ton) yerinə yetirilmişdir. 1993cü ilin 9 ayında istehlakçılara 34,3 milyard manat az məhsul göndərilmişdir. İndi başlıca vəzifə yeni iqtisadi sistem yaratmaq üçün islahatları gücləndirməkdən, istehsalda olan intizamsızlığı aradan qaldırmaqdan, yeni əsaslarla köhnə iqtisadi əlaqələri bərpa eməkdən və yenisini yaratmaqdan, istehsalın aşağı düşməsi meylini və inflyasiyanı dayandımaqdan, sosial gərginliyi aradan qaldırmaqdan, bütün vasitələrdən istifadə edərək işğal olunmuş əzəli torpaqlarımızı tezliklə geri qaytarmaq şərtilə müharibənin uzanmasının qarşısını almaqdan ibarət idi.

İstiqlal yolunu çətinləşdirən amillərdən biri də respublikada siyasi sabitliyin olmaması idi. Sosial-iqtisadi vəziyyətlə əlaqədar respublikada kəskin təbəqələşmə və qruplaşma prosesi davam edirdi. Demokratiya pərdəsi altında xüsusi məqsədli qrupların fəaliyyəti güclənirdi. Mafioz qrupların mənafeyini güdən yeni-yeni siyasi partiya və təşkilatlar meydana çıxırdı. Hazırda respublikada yüzdən çox siyasi partiya və təşkilat vardır. Onların 60-dan çoxu rəsmi qeydiyyatdan keçmişdir. Sağlam fikirli və məqsədli şəxsiyyətlərlə yanaşı, keçmişdə xalqa heç bir xeyir verməyən, əvvəllər və hətta indi rüşvətxorluqla məşğul olan, ancaq şəxsi mənafelər üçün yaşayan, layiq olmadığı halda liderlik iddiasında olan, xalqın adından qışqırıb onu soyan adamlar da populist adlarla yanaşı yaratdıqları qondarma partiyalarla siyasi meydana atılmışdılar. Rəsmi sənədlərə və çağırışlara görə son nəticə etibarı ilə həmin partiyaların proqram məqsədləri eynidir, ancaq ifadələr və ya taktikalarda müəyyən fərqlər vardır. Bir çox çıxış və rəsmi sənədlərdə deyildiyi kimi, 8 milyonluq xalq üçün bu qədər partiyanın olması çox əndazalıdır. Qeyd olunmalıdır ki, 250 milyona yaxın əhalisi olan ABŞ-da 2 əsas siyasi partiya və 60 milyona yaxın əhalisi olan Türkiyədə cəmi 12 siyasi partiya

vardır. Ona görə də, son nəticədə qarşılarına eyni məqsəd qoyan həmin partiya və təşkilatların bir neçə ictimai-siyasi təşkilatda qruplaşması daha məqsədə uyğun olardı. O da məlumdur ki, belə partiya bolluğuna ancaq demokratiyaya yenicə qədəm qoyan, siyasi cəhətdən tamam-kamal yetkinləşməmiş ölkələrdə rast gəlinir. Sözsüz ki, Azərbaycanda da tədricən formalaşan siyasi yetkinlik siyasi partiyaların da qruplaşmasına, saf-çürük edilməsinə gətirib çıxaracaqdır.

Respublikada siyasi sabiliyin bərqərar olmamasına kütlələrin populist şüarlara uyaraq müxtəlif zümrələrə parçalanması, onların şifahi söhbət və müsahibələrdə, mətbuatda yayılan şayiələrə uymaları, habelə çox tez-tez lider axtarılması da səbəb olurdu. Bu da onların tezliklə yaxşı gələcəyə çatmaq ümidləri ilə əlaqədardır. Yuxarıda göstərdiyimiz kimi, son 10-15 ildə Azərbaycan xalqına müxtəlif vaxtlarda 4 şəxsiyyət liderlik etmişdir. Onlardan ikisi – Ə.Vəzirov, A.Mütəllibov keçmiş mərkəzin iradəsi ilə seçilmişdi. Ə.Elçibəy və H.Əliyev isə ümumixalq iradəsi əsasında seçilmişlər. Məzmun və xaraktercə onlar müəyyən cəhətlərlə bir-birindən fərqlənirdilər. Ə.Vəzirov hələ 50-60-cı illərin komsomol təcrübəsi ilə yaşayan, mərkəzə itaətkar, onun əmrlərini qeyd-şərtsiz icra edən şəxsiyyət idi. A.Mütəllibov bu deyilənlərlə yanaşı öz yumşaqlığı və qətiyyətsizliyi ilə fərqlənirdi. Ə.Elçibəy (Əliyev) yüksək demokratik fikirli, utopik ideyalarla yaşayan, yüksək amallı vətəndaş cəmiyyəti yaradılmasını arzulayan yumşaq, qətiyyətsiz, siyasi cəhətdən təcrübəsiz və idarə etmək səriştəsi olmayan «demokrat» idi. Yeni seçilən H.Əliyevə gəldikdə o, çox təcrübəli, ötkəm, qətiyyətli, bəzən çox sərt, siyasi mövqeyi ilə dünyada tanınan və sayılan şəxsiyyət idi. Məhz buna görə də xalq onu yekdilliklə (seçkilərdə iştirak edənlərin 98,8%) Azərbaycan Respublikasının prezidenti seçmişdi. Düşünülmüş, müdrik və çevik xarici siyasət də müstəqilliyin təmin

edilməsinin ən mühüm şərtlərindəndir. Doğrudur, müstəqilliyimizin ötən illərində xarici siyasətimizdə müəyyən addımlar atılmışdır. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi Azərbaycanı müstəqil dövlət kimi 140-a qədər ölkə tanımışdır. Bir sıra ölkələrdə Azərbaycan Respublikasının səfirlikləri və konsulluqları açılmışdır. Bakıda da bir çox dövlətlərin səfirlik və konsulluq səviyyəsində nümayəndələri fəaliyyət göstərməkdədirlər. Bunlarla yanaşı xarici siyasətimizdə çətinliklər, səhvlər, ləngimələr və səndələmələr də olmuşdur. Elan edilən müstəqilliyimizin ilk vaxtlarında Azərbaycan Respublikasıın xarici siyasəti əsasən Rusiyanın imperiya siyasətinə uyğun olaraq köklənmişdi. Azərbaycan Respublikasının ilk prezidenti (indi eksprezident) A.Mütəllibovun xarici siyasətində əsas istiqaməti Rusiyaya meyli daha da gücləndirmək xətti təşkil edirdi. Hakimiyyətdən getdikdən sonra onun Rusiyada sığınacaq tapması heç təsadüfi deyildir. Hakimiyyətə gələn AXC liderləri isə Rusiyaya arxa çevirmək, xarici siyasətdə də türkçülüyü davam etdirmək, Türkiyə vasitəsilə dünyaya çıxmaq xətti yürüdürdülər. Türkiyə vasitəsi ilə Qərbə çıxmaq, iri dövlətlərin Azərbaycana marağını yaratmaq siyasəti təqdirəlayiq idi. Lakin burada birtərəflik, tələskənlik, bir sözlə «solçuluq» meylləri güclü idi. Prezident H.Əliyevin fəaliyyətində əsas maraqlardan biri də öz siyasətini Rusiya siyasəti ilə kökləmək, köhnə əlaqələri tamamilə bərpa etməkdir. Bununla yanaşı o, qonşu dövlətlərlə, o cümlədən İranla, Türkiyə ilə, keçmiş SSRİ-nin müstəqil inkişaf yoluna qədəm qoymuş respublikaları ilə, habelə Qərb ölkələri ilə normal əlaqələr yaratmaq və əməkdaşlıq etmək siyasəti də yürüdürdü. Bu istiqamətdə aparılan xarici siyasət fəaliyyətinin nəticəsində Respublikamızın dünyanın ən böyük ölkəsi olan ABŞ-la münasibətləri çox önəmli olmuşdur. İndi, ABŞ Azərbaycana öz yaxın partnyoru kimi baxır.

Qeyd etmək lazımdır ki, hazırda da tarixdə heç vaxt olmamış «Böyük Ermənistan» yaratmaq məqsədilə erməni işğalçıların Azərbaycanı zorla elan edilməmiş müharibəyə cəlb etməsi, respublikanı daxildə olduğu kimi, xarici münasibətlərində də çətinliklərə düçar etmişdir. Təbiətcə anadan gəlmə kosmopolit olan ermənilər yaratdığı diasporanın, erməni lobbisinin köməyi sayəsində Azərbaycan informasiya blokadasına alınmış, beynəlxalq münasibətlərdə, xüsusən Qərb ölkələri ilə münasibətlərdə minbir çətinliklərə rast gəlmiş və gəlməkdədir. Azərbaycan Respublikasının keçmiş xarici işlər naziri H.Həsənovla söhbətində Fransa prezidenti F.Mitteranın «Biz Ermənistanla dostuq, Azərbaycana da düşmən deyilik» etirafı bu mənada hər şey deməkdir. Biz hələ tarixən, xüsusilə I Pyotr dövründən etibarən öz şərq siyasətində müvəffəqiyyət qazanmaq üçün daim Ermənistanı dəstəkləyən Rusiyanı demirik. O, indi də bu siyasəti davam etdirir.

Yaxın Şərqdə, xüsusən Cənubi Qafqazda, siyasi sabitliyin yaranmasına mane olan şərtlərdən biri də Rusiya siyasətinin formalaşmasında mühüm rol oynayan Moskva-Erməni lobbisinin güclü olmasıdır. Dünyanın ermənipərəst qüvvələrinin köməyinin nəticəsidir ki, beynəlxalq hüquqi sənədlərdə, o cümlədən BMT-nin Təhlükəsizlik Şurasının sənədlərində Ermənistanın təcavüzkarlıq faktı öz əksini tam tapmamışdır. Erməni qəsbkarları işğal etdiyi Azərbaycan torpaqlarını TŞ-nin qərarları əsasında (822,853,874,884 №-li) nəinki tərk etmir və hətta onları talan etməyi davam etdirir. Erməni lobbisinin təsiri ilə dünyanın ermənipərəst dövlətləri və siyasətçiləri tərəfindən müdafiə olunan qüvvələri ilə, bütün dünya erməniləri və onları müdafiə edənlərə təkbətək müharibə aparmalı olan Azərbaycan öz xarici siyasətini də çox mürəkkəb və ziddiyyəli şəraitdə yeritməli olur. Sözsüz ki, bu da onun xarici siyasətində tələsikliklərə, səndələmələrə və digər

uğursuzluqlara düçar olmasına gətirib çıxarırdı. Belə vəziyyətin yaranmasında öz doğma vətəninə, el-obasına bağlılıq və qapalılıq ənənələrinə daim sadiq olan azərbaycanlıların tarixən xaricdə öz güclü diasporunun və lobbisinin yaratmaq faktorunun da rolu vardır.

Azərbaycan xalqının istiqlal mübarizəsinin çətin mərhələsinə sinə gəlmək üçün yeganə yol xalqın sosial və siyasi birliyini, qəddini düzəltməyi təmin etməkdən, sinfi, ictimai-siyasi və şəxsi mənafelərə son qoymaqdan ibarətdir.

## § 3. Müstəqillik illərində ictimai hərəkatlar və təşkilatlar

Sovet hakimiyyəti dövründə ictimai təşkilatlar çox idi və onlar peşə, qrup, yaş və digər prinsiplər üzrə yaradılırdı. İctimai təşkilatlar özlərinin çox cəhətli fəaliyyəti ilə zəhmətkeşlərin firavan və mənalı həyatı üçün təkcə maddi və təşkilatı zəmin deyil, həm də sosial-mənəvi şərait yaratmalı idi. Lakin sovet cəmiyyətində bütün bu ictimai təşkilatlar cəmiyyətə deyil, dövlət orqanlarına qulluq edirdilər. Onların fəaliyyətinə inzibati və totalitar sovet aparatı rəhbərlik edirdi. Ona görə də, bu ictimai təşkilatlar özlərinin əsl mahiyyətini açıqlaya bilmirdilər və onlar Kommunist Partiyasının qərarlarına sözsüz riayət edirdilər.

1980-cı illərin axırlarında, köhnə totalitar rejimin Sovet İttifaqı sistemində yaratdığı narazılıq, yenidənqurmanın bəhrəsi olan aşkarlıq və demokratiya siyasəti ictimai həyatda bir sıra sosial qrupların, partiya və ictimai təşkilatların yaranmasına obyektiv şərait yaratdı.

Yaranmış əlverişli şərait SSRİ-nin milli vilayətlərində suverenlik və müstəqillik uğrunda ümumxalq hərəkatının başlanmasına səbəb oldu. Yerlərdə Sovet milli siyasətindən narazılıq hərəkatı başladı.

Azərbaycan da suverenlik və demokratiya uğrunda mübarizəyə qalxdı. Müstəqillik ərəfəsində Azərbaycanda müxtəlif istiqamətli hərəkat və təşkilatlar meydana çıxmağa başladı. Erməni separatçıları tərəfindən yaradılan qondarma «Dağlıq Qarabağ» problemi milli suverenlik uğrunda başlanmış hərəkata yeni təkan verdi. Suverenlik və demokratiya uğrunda gedən mübarizə ərazi bütövlüyü uğrunda gedən mübarizə ilə çulğalaşdı.

1987-ci ilin noyabrında Fransanın «Humanite» qəzetində Aqanbekyanın məlum müsahibəsi Azərbaycanın rəsmi rəhbərliyinin biganəliyinə baxmayaraq, respublika ictimaiyyətində, ilk növbədə ziyalılarda kəskin reaksiya doğurdu. Müsahibə, torpaqlarımıza iddia Azərbaycan cəmiyyətində mövcud olan və məqamını gözləyən qüvvələrin üzə çıxmasını tezləşdirdi. Kortəbii mitinqlər və nümayişlər bütün respublikanı bürüdü.

1987-ci ilin dekabrın 28-də ictimaiyyətin təşəbbüsü ilə xaricdəki həmvətənlilərlə əlaqələr üzrə respublika «Vətən» cəmiyyəti təsis edilmişdi. Onun əsas məqsədi xaricdəki həmvətənlilərlə əlaqələri möhkəmləndirmək idi. Bu cəmiyyətin vasitəsilə, ziyalılarımız Azərbaycanın mədəni və siyasi həyatında baş verən hadisələri dünya ictimaiyyətinin nəzərinə çatdırırdı.

Respublikanın bu çətin dövründə ölkədə milli kökləri öyrənmək adı altında müxtəlif qeyri-formal cəmiyyətlər və təşkilatlar yaranmağa başladı. 1988-ci ilin əvvəllərində BDU-nun bir qrup müəllim və tələbəsi «Araz» adlı qeyri-leqal cəmiyyət yaratdılar. Bu cəmiyyət Dağlıq Qarabağda erməni marağına qarşı ziyalıların etirazını formalaşdırmaq, milli tarixi obyektiv işıqlandırmaq, Cənubi Azərbaycan məsələsini cəmiyyətin müzakirəsinə çıxarmaq məqsədini irəli atmışdı.

Təxminən eyni vaxtda Bakıda daha bir neçə qeyri-leqal cəmiyyət fəaliyyət göstərməyə başladı. BDU-də tələbələrin «Yurd», «Varlıq» və institutlararası «Çənlibel» təşkilatlarını göstərmək olar.

Hadisələrin sonrakı inkişafında vəziyyətin daha da kəskinləşdiyi bir şəraitdə, ölkədə yeni-yeni ictimai-siyasi təşkilatlar yaranır və Azərbaycan xalqının milli şüuru artmağa başlayırdı.

Hakim Kommunist partiyasının passivliyi fonunda qeyri formal təşkilatlar artan erməni təhlükəsinə qarşı xalqın vətənpərvər qüvvələrinin birliyini möhkəmlədir, siyasi təşəbbüsü öz əllərinə alırdılar.

Şübhəsiz ki, 1987-ci ildən genişlənməyə başlayan kooperativ hərəkatının təmsilçilərinin ictimai-siyasi həyatda yer tutmaq cəhdi də böyük rol oynayırdı. Qeyri-formal cəmiyyətlər rəsmi dövlət siyasətindən fərqli olaraq Azərbaycanda çoxpartiyalı sistemin formalaşmasının başlandığını göstərirdi. Bu cəmiyyətlər Müstəqil Azərbaycan Respublikasında yaranan ictimai-siyasi təşkilatların, hərəkatların və partiyaların ilk rüşeymləri idilər.

1988-ci il noyabrın 17-də mitinqlər hərəkatı ən yüksək səviyyəyə çatdı. Mitinqçilərin sayı milyona çatırdı. «Azadlıq», «suverenlik» şüarları mitinqçilərin başlıca şüarları idi. Həmin gün tariximizə «Milli dirçəliş» günü kimi daxil oldu.

Həmin günlərdə kortəbii xalq hərəkatına istiqamət verən təşkilatlar, «Bakı şəhər alimlər klubu», «Bakı incəsənət mərkəzi», «Müstəqillər», «Qala», «Ozan», «Azərbaycan xalq cəbhəsi» (AXC) kimi qrup, təşkilat və cəmiyyətlər meydana gəldi. Bir sıra qrupları özündə birləşdirən Azərbaycan Xalq Cəbhəsi onların arasında xüsusi çəkiyə malik idi. O, kortəbii ümumxalq hərəkatının istiqamətvericisi rolunu oynayırdı. Azərbaycan Xalq Cəbhəsi rəsmi olaraq 1989-cu ilin iyununda

təsis olunmuşdur. Onun sosial bazasını əhalinin müxtəlif zümrələrini təmsil edən kütlələr təşkil edirdi.

1990-cı il «Qanlı yanvar» hadisələri ictimai-siyasi könüllü təşkilatların və cəmiyyətlərin formalaşmasını daha da genişləndirdi. «Qanlı yanvar»dan acı dərs alan xalq daha sürətlə təşkilatlanmağa başladı. 1990-1991-ci illərdə onlarla yeni təşkilat və cəmiyyətlər meydana çıxdı. 1990-cı ildə «20 yanvar», «Müstəqil Azərbaycan» uğrunda xalq mübarizəsi cəmiyyətləri, «Azərbaycan xalq birliyi», «Bakı və kəndlər birliyi», «Qəbələ» təşkilatı, «Dünya Azərbaycan türk dərnəyi birliyi», «Vətəndaş birliyi», «Ədalət», «Vahid Azərbaycan uğrunda mübarizə ittifaqı», «Azərbaycan ağsaqqallar şurası» və s. təşkilatlar yarandı.

1991-ci ildə isə «Yurd» birliyi, «Azərbaycan demokratik qüvvələri» birliyi, «Azərbaycan vətəndaş assambleyasının Bakı bölməsi», «Aydınlıq» cəmiyyəti, «Azərbaycan qadınlar» cəmiyyəti və başqa təşkilat və cəmiyyətlər formalaşdı.

Təsnifatca müxtəlif istiqamətli olan həmin təşkilat, birlik və cəmiyyətlər ərazimizin bütövlüyü, suverenliyimizin qorunması və müstəqilliyimizin bərpası uğrunda mübarizədə fəal iştirak edirdilər. Onlar suverenlik və müstəqillik uğrunda ümumxalq hərəkatının yetirməsi və onun ayrılmaz tərkib hissələri idilər, hərəkatın müxtəlif istiqamətlərində xidmət göstərirdilər.

Sözü gedən təşkilat və cəmiyyətlər Azərbaycanın ərazi bütövlüyünə təcavüz edən, əzəli torpağımız olan Dağlıq Qarabağı Azərbaycandan ayırmaq istəyən erməni qəsbkarlarına və terrorçularına qarşı kütlələrin qüvvələrini səfərbərliyə almaqla, milli yaddaşımızın bərpasında mühüm rol oynamışdılar.

1988-ci ildən başlayaraq, respublikada baş verən demokratik proseslər və iqtisadi çətinliklərlə yanaşı, Azərbaycan həm də qaçqınlar problemini də həll etməli olmuşdur.

Hazırda Azərbaycanda 287 min qaçqın, o cümlədən Ermənistandan gəlmiş 230 min azərbaycanlı, Özbəkistandan gəlmiş 52 min məshəti türkü, Rusiya Federasiyasından 5 min qaçqın vardır.

20 fevral 1990-cı ildə Respublika Nazirlər Kabineti «Daimi yaşayış yerlərini tərk etmiş şəxslərlə iş üzrə Azərbaycan Respublikası Dövlət Komitəsi haqqında» Əsasnamə təsdiq etmiş, 29 sentyabr 1992-ci ildə isə Azərbaycan Respublikası Milli Məclisi «Qaçqın və məcburi köçkünlərin statusu haqqında» qanun qəbul etmişdir.

Nazirlər Kabinetinin müvafiq şöbəsi və Respublika humanitar və texniki yardım Komissiyasının yeni yaradılmış işçi qrupu qaçqınların problemləri ilə məşğuldur. Hazırda qaçqınlarla iş əsasən, mənzil, iş, qanunla verilən güzəştlər, humanitar yardımın bölüşdürülməsi, yeni yaşayış mənzillərinin tikilməsi, tibbi yardım və s. istiqamətdə gedir. Bu günə kimi 10 minlərlə adam ictimai binalarda, yataqxanalarda, qışlaqlarda yaşayır. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin fevral 2002-ci il fərmanı ilə Ermənistandan gəlmiş qaçqınlara ev tikmək üçün torpaqların ayrılmasına və daimi yerləşməsinə icazə verilmişdir.

Azərbaycan xalqının bu ağır vəziyyətində Respublikaya Türkiyə, İran, Pakistan, Səudiyyə Ərəbstanı, Fransa, İngiltərə və s. ölkələr kömək göstərmiş və göstərməkdədirlər. Hazırda Azərbaycanda beynəlxalq humanitar təşkilatların 30-dan çox nümayəndəliyi fəaliyyət göstərir. Onların arasında ən nüfuzlu beynəlxalq təşkilatlar olan BMT-nin Qaçqınlarla iş üzrə Ali Komissarlığı, Beynəlxalq Qırmızı Xaç və Aypara Cəmiyyəti,

Beynəlxalq İslam Nicat Təşkilatı, «Sərhədsiz həkimlər» assosiasiyası, Beynəlxalq «Qayğı» təşkilatı və başqaları vardır.

1992 – 1993-cü illərdə Azərbaycan ərazisinin 20 faizinin işğal olunması ilə respublikada vəziyyət daha da ağırlaşdı, ölkə daxilində 700 minlik məcburi köçkünlər ordusu yarandı. Təcavüzə məruz qalmış respublikanın rəhbərliyi vəziyyəti düzəltmək üçün bir sıra qərarlar qəbul etmişdi.

Qaçqın və məcburi köçkünlərin sosial məişət qayğıları daim dövlətin diqqət mərkəzində olmuşdur. Onu göstərmək kifayətdir ki, bu problemlə əlaqədar prezident H.Əliyev tərəfindən 23 fərman və sərəncam imzalanıb. Milli Məclis 13 qanun qəbul edib, Nazirlər Kabineti 152 qərar və sərəncam verib. Bu sənədləri icra etmək üçün Dövlət Neft Fondundan 74 milyon dollar vəsait ayrılıb. Fərmanlar nəticəsində 1722 qaçqın, 5019 məcburi köçkün ailəsinin mənzillə təmin olunmuşdur.

Azərbaycan Respublikasında beynəlxalq humanitar təşkilatlarından başqa dövlət qeydiyyatından keçmiş 1400-dən çox qeyri-hökumət təşkilatları da fəaliyyət göstərir. Həmin təşkilatlar bir çox hallarda dövlət orqanlarının və beynəlxalq təşkilatların etibarlı tərəfdaşları kimi çıxış edirlər.

1989 – 91-ci illərdə xeyriyyə işləri ilə məşğul olan bir çox ictimai təşkilat və hərəkatlar meydana gəlmişdir. Belə ki, 1989-cu ildə «Qarabağa xalq yardımı komitəsi», «Azərbaycan qaçqınlar cəmiyyəti», «Azərbaycan əlillər cəmiyyəti», «Ümid» analar cəmiyyəti, 1990-cı ildə «Qardaşlıq», «Əlincə», «Azərbaycan Qeyrət təşkilatı», «Vahid Azərbaycan uğrunda mübarizə ittifaqı», 1991-ci ildə «Xudu Məmmədov adına xeyriyyə birliyi», «Qarabağa nicat» və başqa təşkilat və cəmiyyətlər yaranmışdır.

Adı çəkilən bu təşkilat və cəmiyyətlər Azərbaycanın ərazisinə təcavüz edən, əzəli torpağımız olan Qarabağı Azərbaycandan ayırmaq istəyən erməni qəsbkarlarına qarşı

kütlələrin qüvvələrini səfərbərliyə almaqda, milli yaddaşımızın bərpasında da mühüm rol oynamışdı.

1991-ci ildə totalitar sovet rejiminin buxovlarından azad olan Azərbaycan Respublikası müstəqil dövlət quruculuğu yoluna qədəm qoydu. Öz tarixinin yeni səhifəsini açan respublikamız kommunist ideologiyasından və siyasi-iqtisadi sistemindən qətiyyətlə imtina edərək, milli və ümumbəşəri dəyərlərə söykənən demokratik, hüquqi və dünyəvi dövlət yaratmaq arzularını reallaşdırmaq istiqamətində addımlar atmağa başladı.

Qanunun aliliyinə və cəmiyyətin bütün üzvlərinin firavan həyatına, azad və sərbəst fəaliyyətinə təminat verən vətəndaş cəmiyyətinin bərqərar edilməsini özünün əsas məqsədlərindən biri kimi bəyan edən Azərbaycan xalqı 1995-ci ildə qəbul etdiyi Konstitusiyada həmin prinsipləri qanunvericilik yolu ilə təsbit etdi.

Demokratik dəyərlərə söykənən vətəndaş cəmiyyəti quruculuğu yolu insanların azad siyasi və ictimai fəaliyyəti üzərində qurulan demokratik təsisatların, o cümlədən çoxpartiyalı sistemin və ictimai birliklər şəbəkəsinin bərqərar olmasından keçir. Azərbaycan Konstitusiyası hər kəsin istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai qurumlar yaratmaq və ya mövcud təşkilata daxil olmaq hüququnu təsbit edərək, bütün birliklərin sərbəst fəaliyyətinə təminat verir.

Demokratik sistemin təşəkkülü prosesi çoxsaylı siyasi partiyaların və ictimai təşkilatların intensiv sürətlə yaranması ilə müşaiyət olunmuşdur. Hazırda respublikamızda fəaliyyət göstərən onlarla siyasi partiya və yüzlərlə ictimai qurum ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmək üçün geniş imkanlara malikdir. Onların fəaliyyəti «Mülki məsələ», «Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında», «Qrant haqqında»

qanunlarla, Nazirlər kabinetinin qərarları ilə tənzimlənir. Həmin təşkilatlar ölkə Konstitusiyası, «Siyasi partiyalar haqqında», «İctimai birliklər haqqında», «Həmkarlar ittifaqları haqqında» qanunlara əsasən yaradılır və fəaliyyət göstərirlər.

Respublikamızın müstəqillik illərində demokratik cəmiyyətin mühüm atributlarından biri olan qeyri-hökumət təşkilatlarının inkişafında, bunların ictimai-siyasi həyatda rolunun güclənməsində mühüm irəliləyişlər baş vermişdir. Bu gün ölkədə dövlət qeydiyyatından keçmiş 1400-dən çox qeyri hökumət təşkilatı fəaliyyət göstərir. Bu təşkilatları nizamnamə məqsədlərinə və fəaliyyətinə görə bir neçə qrupa bölmək olar: həmkarlar ittifaqları, qadın, gənclər, uşaq, insan hüquqları müdafiəsi, beynəlxalq, xeyriyyə, idman, ekoloji, təhsil, elmi-texniki cəmiyyətlər, peşə assosiasiyaları və s.

Respublikamızda insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən 30-dan çox ictimai birlik vardır. Bu təşkilatlar sırasında Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsi, Avropa İnsan Hüquqları Mərkəzi, Vətəndaş Hüquqlarının müdafiəsi Fondu, Demokratiya və İnsan Hüquqları Komitəsi, Azad İstehlakçılar Birliyini və digərlərini qeyd etmək olar. Lakin qeyd olunmalıdır bu birliklərin əksəriyyəti siyasi fəaliyyətlə məşğul olanları müdafiə edirlər. Bu zaman isə unudulur ki, siyasi hüquqlar bütövlükdə insan hüquqlarının yalnız bir hissəsidir, vətəndaşların mülki, sosial, əmək, mədəni və s. hüquqları da vardır. Yalnız siyasətlə məşğul olanların deyil, həm də bütün sıravi vətəndaşların, o cümələdən qaçqın və məcburi köçkün düşmüş bir milyondan çox vətəndaşın hüquqlarını qorumaq, onların problemlərini və dərdlərini beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə çatdırmaq lazımdır.

Respublikada vətəndaşların hüquqlarının qorunması və sosial problemlərinin həlli sahəsində mühüm rol oynayan həmkarlar ittifaqı təşkilatının fəaliyyəti və inkişafı üçün bütün

şəraitlər yaradılmışdır. Respublika həyatının müxtəlif sahələrini əhatə edən 30 sahə həmkarlar ittifaqı birləşərək, vahid Həmkarlar İttifaqları Konfederasiyası yaratmışlar. Lakin müstəqil fəaliyyət göstərən həmkarlar ittifaqları şəbəkəsi də genişlənməkdədir.

Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunda mühüm amil kimi diqqəti cəlb edən qüvvələrdən biri də qadın hərəkatıdır. Onların fəaliyyəti sülhün tezliklə əldə edilməsinə, qadın hüquqlarının müdafiəsinə, onların iqtisadi quruculuğuna geniş cəlb olunmasına, ailə və uşaqların qorunmasına, qadınlar üçün yeni iş yerlərinin açılmasına, ictimai-siyasi həyatda qadınların fəal iştirakına, ailənin qorunmasına, Qarabağ müharibəsindən əziyyət çəkmiş qadın və uşaqlara lazımi köməklik göstərilməsinə yönəldilmişdir

Bu gün ölkənin ictimai-siyasi həyatında fəal rol oynayan «Sevil» Qadınlar Məclisi, Neftçi Qadınlar Cəmiyyəti, Bakı Qadınlar Assosiasiyası, «Qadın və inkişaf» Mərkəzi, D.Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti və digərləri ilə yanaşı, yeni qadın təşkilatları yaranmaqdadır.

Qeyri hökumət təşkilatlarının strukturunda azsaylı xalqların mədəniyyət mərkəzlərinin də fəaliyyəti tədqirəlayiqdir. Azsaylı xalqların yaradılan milli mədəni mərkəzləri respublikada yaşayan xalqların mədəniyyətinin, tarixinin və dilinin dirçəldilməsinə köməklik göstərir. Belə ictimai təşkilatlardan olan «Ronayi» kürd mərkəzi, Tat mədəni mərkəzi, Talış mədəniyyət mərkəzi və başqa azsaylı xalqların mədəniyyət mərkəzləri öz fəaliyyətlərini genişləndirirlər və daha da inkişaf etdirirlər. Bu mədəniyyət mərkəzləri fəaliyyəti nəticəsində 1990-cı ildə Respublika Azsaylı Xalqlar Şurası yaradılmışdır. Bu şuraya Dağıstan Xalqlarının, talış, tat, kürd, tatar və digərlərinin milli-mədəniyyət mərkəzləri daxil idi.

İnsanların şəfqətə və qayğıya ehtiyacının artdığı bir şəraitdə respublikada bir-birinin ardınca yeni xeyriyyə cəmiyyətləri və fondları açılırdı: Topxana, Ocaq, Qarabağ, Qayğı, Şəhidlər xiyabanı, Uşaq fondu, Sülh fondu və s.

Keçid dövrü problemlərinin həll edilməsində və vətəndaş cəmiyyətinin formalaşmasında qeyri-hökumət təşkilatları mühüm amil kimi qiymətləndirən Azərbaycan dövləti onların potensialının artırılması və fəaliyyətinin genişləndirilməsi üçün geniş imkanlar yaradır, onların əsaslandırılmış təkliflərini və təşəbbüslərini həmişə müdafiə edir.

## § 4. Müstəqillik yolunda uğurlu addımlar

1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əliyevi alternativ əsasda səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçdi. Prezident H.Əliyev andiçmə mərasimindəki nitqində elan etdi ki, «Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq – bu vəzifələr mənim Prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır və mən bunların həyata keçirilməsinə çalışacağam».

Qeyd etməliyik ki, elan olunmamış Ermənistan-Azərbaycan müharibəsində 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 5 min nəfər əlil olmuşdu. Qaçqın və köçkünlərin sayı milyonu keçmişdi. Rəsmi məlumata görə, erməni işğalçıları tərəfindən 4861 nəfər azərbaycanlı, o cümlədən 314 nəfər qadın, 58 uşaq və 255 qoca əsir və girov

götürülmüşdü. Erməni təcavüzkarları əsir və girovların həqiqi sayını beynəlxalq humanitar təşkilatlardan gizlədir. Ermənilər əsirlərlə qeyri-insani, amansız rəftar edir, qul kimi işlədir, təhqir edir və alçaldır. 1991-1995-ci illərdə Beynəlxalq Qızıl Xaç Komitəsinin yaxından köməyi ilə 400-dən çox azərbaycanlı əsir geri qaytarılmışdır. 1995-ci ilin əvvəllərində ATƏT-in təkidi ilə tərəflər əsir və girovların «hamının-hamıya» prinsipi üzrə dəyişdirilməsinə razılıq verdilər. 1995-ci ilin aprel-may aylarında Azərbaycan Respublikası birtərəfli qaydada 152 əsir və girovu azad etdi. Ermənilər isə cəmi 22 əsir qaytardı.

BMT Təhlükəsizlik Şurası işğal olunmuş ərazilərdən erməni ordularının dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələbi haqqında 822,853,874,884 saylı qətnamələr versə də, Ermənistan müxtəlif bəhanələrlə onları yerinə yetirməkdən imtina edir.

Prezident H.Əliyev 1993-cü il noyabrın 2-də xalqa müraciət edərək, onu ölkənin qorunması və azadlığı uğrunda birləşib düşmənə qarşı mübarizəyə qalxmağa çağırdı. Bu müraciətə cavab olaraq, noyabr-dekabr aylarında 16,7 min nəfərlik 40 ehtiyat taboru təşkil edildi. Orduya xalq yardımı genişlənmişdi. Yeni Azərbaycan ordusu yaranırdı. 1994-cü ilin sonunda Milli Ordu sıralarında 54 min əsgər və zabit var idi. Silahlı qüvvələrin maddi bazası xeyli möhkəmlənmişdi. Bunun nəticəsində Azərbaycan ordusu düşmənin respublikanın içərilərinə doğru hücumunu dayandırdı. Hətta əks-hücuma keçib bir sıra torpaqları geri qaytardı.

Rusiyanın münaqişəni həll etmək sahəsindəki səyləri nəticəsində, 1994-cü ilin mayın 8-də münaqişədə iştirak edən tərəflərin niyyətini təsdiq edən Bişkek protokolu imzalandı.

Milli Ordunun güclənməsi nəticəsində düşmən və onun havadarları artıq münaqişənin zorakı vasitələrlə həll etmək

cəhdlərinin uğursuzluğunu dərk edirdilər. 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəsə nail olundu.

Müstəqilliyimizin ilk illərində Azərbaycan Respublikası öz tarixinin mürəkkəb dövrünü yaşamışdır. Azərbaycan xalqının suveren dövlətdə yaşamaq arzusu, azadlıq ideallarına bağlılığı onun müstəqilliyinin əleyhinə olan düşmən dairələrin maraqlarına toxunduğundan, onlar xalqı bu yoldan sapdırmaq, onun gələcəyə inamını sarsıtmaq üçün müxtəlif təxribatlardan və digər çirkin vasitələrdən istifadə edirdilər ki, bu da öz növbəsində respublikadakı ictimai-siyasi duruma ciddi surətdə mənfi təsir göstərirdi.

1994-cü il oktyabr və 1995-ci il mart aylarında Surət Hüseynovun, separatçı Ə.Hümbətovun və Cavadov qardaşlarının başçılığı ilə cinayətkar dəstələr dövlət çevrilişləri etmək cəhdi etdilər. Lakin onların bu qanunsuz fəaliyyəti ifşa olundu və zərərsizləşdirildi.

Respublikada sabitliyin bərqərar olunması xalqın iqtidara inamının artmasına, cəmiyyətdə mövcud olmuş qorxu və cinayətkarlıq arasında hökm sürmüş cəzasızlıq əhval-ruhiyyəsinin aradan götürülməsinə səbəb olmuşdur.

Azərbaycan Respublikasında ictimai siyasi sabitliyə nail olunması vətəndaşların hüquq və mənafelərinin müdafiəsinə, bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın və sahibkarlığın inkişafına, beynəlxalq iqtisadi və maliyyə sisteminə inteqrasiyaya istiqamət götürən, sosial ədalət prinsipinə əsaslanan demokratik, hüquqi dövlət quruculuğu yoluna qədəm qoymağa imkan yaratmışdır.

Demokratik, hüquqi dövlət quruculuğunda demokratik prinsipləri özündə ehtiva edən Konstitusiya yaratmağın mühüm əhəmiyyəti vardır. Azərbaycanın yeni Konstitusiyasının hazırlanması üçün 1991-ci il fevralın 9-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə yaradılmış 74 nəfərdən

ibarət komissiya heç bir iclas da keçirməmişdi. Komissiyanın işini canlandırmaq üçün 1994-cü ilin may ayında onun tərkibi genişləndirilsə də, layihə üzrə iş hələ də başlanmamışdı. Prezidentin göstərişi ilə müstəqil dövlətin yeni Konstitusiyasının layihəsinin hazırlanması başlandı. İlk növbədə yeni Konstitusiya layihəsinin hazırlanması üzrə komissiyanın yeni tərkibi Prezident tərəfindən parlamentə təqdim edilmiş və Milli Məclis 1995-ci il mayın 2-də müvafiq qərar qəbul etmişdi. Azərbaycan Respublikası Prezidentinin sədrlik etdiyi 33 nəfərdən ibarət komissiyanın tərkibinə qanunvericilk, icra və məhkəmə hakimiyyətlərinin nümayəndələri ilə bərabər, respublikanın hüquq elmini təmsil edən şəxslər də daxil idilər. Yeni Konstitusiya layihəsi  ümumxalq müzakirəsinə verilmək üçün 1995-ci il oktyabrın 15-də dərc edilmişdi. 1995-ci il noyabrın 4-dək layihə barədə Komissiyaya 2450 təklif daxil olmuşdu. Ümumxalq müzakirəsinə çıxarılan layihə 199 maddədə, referenduma çıxarılan Konstitusiya layihəsi isə 158 maddədən ibarət idi.

1995-ci il 12 noyabrda ümumxalq referendumu keçirildi. Referendumda seçicilərin 86 faizi iştirak etmişdi və səs verənlərin 94,8 faizi yeni Konstitusiyanın qəbulunun lehinə səs vermişdi. Bu Konstitusiya müstəqil Azərbaycanın ilk Konstitusiyası idi. Konstitusiya Azərbaycan Respublikasının dövlət quruluşunun əsaslarını qoymuşdu. Azərbaycan demokratik, hüquqi, dünyəvi bir dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının aliliyini və hakimiyyətlər bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Konstitusiyaya görə Azərbaycanda hakimiyyətin yeganə mənbəyi xalqdır. Azərbaycan xalqını yalnız onun demokratik surətdə seçdiyi səlahiyyətli nümayəndələri təmsil edə bilər, digər heç kəsin Azərbaycan xalqı adından danışmaq, onun adından müraciət etmək və xalqı təmsil emək hüququ yoxdur.

Konstitusiyada ən mühüm cəhətlərdən biri hakimiyyətin bölünməsidir. Konstitusiya müəyyən edir ki, icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur, qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Parlamenti – Azərbaycan Respublikasının Milli Məclisi, məhkəmə hakimiyyətini isə müstəqil məhkəmələr həyata keçirirlər.

1995-ci ilin əvvəlindən ölkədə demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatına keçid kursu müəyyənləşdirilmiş və onun ardıcıl şəkildə həyata keçirilməsinə başlanmışdır. Burada strateji istiqamət yeni iqtisadi sistemə keçidi sürətləndirmək idi. Bu məqsədə çatmaq üçün ölkənin təbii ehtiyatlarından və mövcud iqtisadi potensialından istifadənin səmərəsini artırmaq məsələsi ön plana çıxarılırdı. Bunun üçün iqtisadiyyatın liberallaşdırılması ilə yanaşı keçid dövründə əhalinin sosial müdafiəsinin təmin edilməsi vəzifəsi də ən mühüm məsələdir. Bu islahatların aparılması üçün ilk növbədə yeni iqtisadi sistemə keçidin hüquqi bazasının yaradılması tələb olunurdu. Ona görə də qısa müddət ərzində iqtisadi islahatların hüquqi bazasını təmin edən qanunlar işlənib hazırlanmış və qəbul edilmişdir. Onların içərisində mülkiyyət haqqında, torpaq və aqrar islahatları haqqında, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, investisiyaların, o cümlədən xarici investisiyaların qorunması, inhisarçılığın aradan qaldırılması və sağlam rəqabətin inkişafı, əhalinin rifahının yüksəldilməsini və sosial müdafiəsini təmin edən qanunlar xüsusi yer tuturdu.

Bu qanunlar ölkə iqtisadiyyatının müxtəlif istiqamətlərində köklü islahatların aparılması üçün şərait yaratdı. Mülkiyyət və dövlət əmlakının özəlləşdirilməsi haqqında verilən qanunlar kütləvi özəlləşdirməyə və sahibkarlığın inkişafına imkan vermiş oldu. 1995-1998-ci illərdə dövlət əmlakının

özəlləşdirilməsi proqramının yerinə yetirilməsi nəticəsində ölkədə kiçik özəlləşdirmə, demək olar ki, başa çatdı, 28 minədək belə obyekt xüsusi mülkiyyətə keçdi. Minlərlə ticarət, ictimai iaşə və xidmət obyektlərinin özəlləşdirilməsi bu sahələrdə özəl bölmənin payının kəskin surətdə artmasına səbəb olmuşdur.

Aqrar bölmədəki islahatlar öz radikallığı və sürəti ilə ölkədə özəl mülkiyyətin formalaşmasında və sahibkarlığın inkişafında xüsusi rol oynamışdı. Qısa müddət ərzində torpağın özəl mülkiyyətə verilməsi, onun üzərində mülkiyyətçinin tam sahiblik hüququnun təmin edilməsi, 2000-ə qədər sovxoz və kolxozun ləğvi, 35 minə yaxın müxtəlif formalı yeni təsərrüfatların yaradılması bu sahənin dinamik inkişafına güclü təsir etmişdir.

İslahatların ilkin mərhələsində iqtisadiyyatın, o cümlədən ticarətin tam liberallaşdırılması sahəsində Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət onun dünya iqtisadiyyatına inteqrasiyasını xeyli sürətləndirdi. Xarici investorlara münasibətdə «açıq qapı» siyasətinin tətbiqi, ixrac mallarının kvotalardan və gömrük rüsumlarından azad olunması, idxal mallarına isə maksimum 15 faiz səviyyəsində gömrük rüsumunun tətbiqi ölkədə istehsalın və xarici iqtisadi əlaqələrin miqyasının artmasına kömək etmişdir.

İqtisadi sistemin yeni münasibətlər əsasında formalaşması və iqtisadi proseslərə dövlətin müdaxiləsinin məhdudlaşdırılması onun bazar iqtisadiyyatı prinsipinə uyğun idarəetmə aparatının formalaşması zərurətini yaratmışdır. Bunu nəzərə alaraq bu sahədə köklü islahatların aparılmasına başlamış, bir çox nazirliklərin və digər dövlət orqanlarının işinin təkmilləşdirilməsi, lüzumsuz qurumların ləğvi və yenilərinin yaradılması istiqamətində iş aparıldı.

1991 – 1995-ci illəri – ölkə iqtisadiyyatının bazar iqtisadiyyatı şərtlərinə uyğunlaşdırılması dövrü kimi

səciyyələndirmək olar. İqtisadiyyatın dərin və uzunmüddətli tənəzzülü özünü xüsusilə sənaye istehsalı sahəsində göstərmişdir. Ənənəvi istehsal əlaqələrinin qırılması və keçmiş sosialist ölkələrinin ümumi satış bazarının itirilməsi sənaye istehsalının aşağı düşməsini şərtləndirən ən mühüm amillərdən biri olmuşdur. Nəticədə sənaye məhsulunun istehsalı 1995-ci ildə 1990-cı illə müqayisədə 70 faiz azalmışdı.

1996 – 1997-ci illər respublika sənayesində sabitləşmə dövrü kimi xarakterizə olunur. 1996-cı ildən başlayaraq bir çox sahələrdə, xüsusilə də makroiqtisadi göstəricilərdə irəliləyişin əldə edilməsinə imkan yaratmışdır. İlk dəfə olaraq 1997-ci ildə nəinki istehsalın aşağı düşməsinin qarşısı alındı, hətta əvvəlki illə müqayisədə 0,3 faiz artıma nail olundu. Sonrakı illərdə məhsul buraxılışının artım meyli saxlanmışdı. Belə ki, ümumi daxili məhsulun artımı 1996-cı ildə 1,3 faiz, 1997-ci ildə – 5,8 faiz, 1998-ci ildə – 2001-ci ilin altı ayında – 8,4 faiz olmuşdur. Ötən dövr ərzində ümumi daxili məhsul bütövlükdə 52,8 faiz artmışdır ki, bu da MDB məkanında ən yüksək göstəricidir.

Məhsul istehsalının artımı əsasən elektroenergetika, yanacaq, kimya və neftkimya sənayesi müəssisələrinin, habelə qeyri dövlət bölməsinin uğurlu işləri hesabına təmin edilmişdir. Bununla belə, ayrı-ayrı sahələrdə – maşınqayırma, yüngül, yeyinti, tikinti materialları sənayesi və digər sahələrdə istehsalın aşağı düşməsi prosesi davam etməkdə qalmışdır.

1996 – 2000-ci illər ərzində 2103 yeni sənaye müəssisəsi açılmış və 2001-ci ilin yanvarın biri vəziyyətinə onların sayı 4835-ə çatmışdır. Yeni yaranan müəssisələrin 89,9 faizi qeyri dövlət mülkiyyətinə mənsub kiçik müəssisələr olmuşdur. Bu dövr ərzində xarici və müştərək müəssisələrin sayı 3 dəfədən çox artmışdır.

Hazırda sənaye sahəsində 37 dövləti təmsil edən 381 xarici investisiyalı müəssisə fəaliyyət göstərir, minlərlə yeni iş yerləri açılmışdır.

Azərbaycanın iqtisadiyyatının tarazlaşdırılmış inkişafına nail olmaq və mövcud sosial-iqtisadi problemləri həll etmək üçün neft sektorunun dirçəldilməsi zəruri idi. Neft sənayesi ölkə iqtisadiyyatının aparıcı sahəsi olmuş və olmaqda davam edir. Lakin onu qeyd etmək lazımdır ki, milli iqtisadiyyatın bünövrəsini təşkil edən sahələrdən biri olan bu sektorun inkişaf etdirilməsi yalnız iri həcmli investisiyanın tətbiqi vasitəsilə mümkündür. Ölkənin maliyyə vəsaitlərinin məhdudluğu şəraitində çıxış yollarından biri kimi xarici investisiyaların bu sahəyə fəal cəlb edilməsi hesab olunurdu. Amma respublikadakı qeyri sabitlik bunun həyata keçirilməsinə imkan vermirdi. 1994-cü ildən ictimai həyatda nail olunan sabitlik bu məsələnin həllinə bir növ «yaşıl» işıq yandırdı. Azərbaycan dövləti özünəməxsus neft yataqlarının kəşfi, istismarı və hasilatına dair dünyanın iri neft şirkətləri ilə bir sıra neft müqavilələri bağladı.

Azərbaycan Dövlət Neft Şirkətinin xarici neft şirkətləri ilə birinci müqaviləsi 20 sentyabr 1994-cü ildə imzalandı. Bu gün Azərbaycan Respublikası üçün tarixi bir gün oldu. ARDHŞ 6 ölkənin 11 neft şirkəti ilə Xəzər dənizində Azərbaycana məxsus 3 böyük neft yatağının – «Günəşli», «Çıraq» və «Azəri» yataqlarının – işlənməsinə dair tarixə «Əsrin müqaviləsi» adı ilə daxil olmuş hasilatın pay bölgüsü haqqında saziş imzaladı. Bu yataqlarda ümumi neft ehtiyatı 540 min ton, qaz ehtiyatı isə 55 mlrd.kub metr həcmində qiymətləndirilir.

Müqavilə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən ratifikasiya olunaraq, 12 dekabr 1994-cü ildən qanun qüvvəsi alıb.

Bu layihədə şirkətlərin xüsusi çəkisi – VR (Böyük Britaniya) – 17,12%, «AMOCO» (ABŞ) - 17,01%, «LUKOYL»

(Rusiya)- 10%, ARDNŞ (Azərbaycan) – 10%, UNOCAL (ABŞ)- 9,53, «STATOİL» (Norveç) – 8,56%, «TPAO» (Türkiyə)- 6,75%, «PENZOYL» (ABŞ) – 4,81%, «İTOCHU» (Yaponiya) – 3,92%, «REMCO» (BB) – 2,08%, DELTA (Səudiyyə Ərəbistanı) – 1,68% təşkil edir . 30 il ərzində Azərbaycan «Əsrin müqaviləsi»ndən bütün pulun 80%ni, xarici neft şirkətlərinin hamısı birlikdə isə cəmi 20%-ni götürəcəkdir.

130 milyon ton neft və 50 mlrd.kub metr qaz ehtiyatına malik «Qarabağ» yatağında kəşfiyyat, işlənmə və hasilatın pay bölgüsünü əhatə edən saziş Azərbaycan Respublikasında xarici neft şirkətləri ilə bağlanan ikinci müqavilədir. Bu müqavilə 25 il müddətinə ARDNŞ və 4 əcnəbi neft şirkəti arasında 10 noyabr 1995-ci il tarixdə «Gülüstan» sarayında imzalanıb və ratifikasiya edildikdən sonra 23 fevral 1996-cı ildən qüvvəyə minib.

Müqaviləyə əsasən şirkətlərin layihədəki payları «LUK-AGİP» (Rusiya-İtaliya) – 45,0%, «PENZOYL» (ABŞ) – 30,0%, «LUKOYL» (Rusiya) – 12,5%, ARDNŞ (Azərbaycan) – 7,5% müəyyənləşdirilmişdir.

«Şahdəniz» yatağı üzrə bağlanmış müqavilə xarici şirkətlərlə imzalanan üçüncü müqavilədir. Bu müqavilə 30 il müddətinə 1 iyul 1996-cı ildə «Gülüstan» sarayında imzalanıb. «Şahdəniz» yatağının neft ehtyatı 100 milyon ton, qaz ehtiyatı 400 mlrd.kub metr, sıxılmış qaz ehtiyatı isə 200 milyon ton həcmində qiymətləndirilmişdir. Layihədə tərəflərin payı: «VR - STATOYL» (Böyük Britaniya-Norveç) – 51%, «ARDNŞ» (Azərbaycan) – 10%, «OLES» (İran) – 10%, «ELF-EGİTEN» (Fransa) – 10%, «LUKOYL» (Rusiya) – 10%, «TPAO» (Türkiyə) – 9% təşkil edir. Müqaviləyə görə yatağın işlək vəziyyətə çatdırılması üçün 4 milyard dollar vəsait tələb olunur.

ARDNŞ-nin əcnəbi neft şirkətləri ilə bağladığı IV müqavilə «Dan ulduzu-Əşrəfi» yataqlarını əhatə edir. Bu müqavilə 1996-cı ildə imzalanıb və onun neft ehtiyatı 150 min

ton, qaz ehtiyatı isə 60 mlrd.kub metr qiymətləndirilmişdir. Şirkətlərin layihədəki payı: «AMOCO» (ABŞ)-30%, UNOCAL (ABŞ)-25,5%, ARDNŞ (Azərbaycan)-20%, «İTOCHU» (Yaponiya)-20%, «DELTA» (Səudiyyə Ərəbistanı)-4,5% kimi bölüşdürülmüşdür.

Azərbaycanın xarici neft şirkətləri ilə bağladığı V müqavilə neft ehtiyatlarının ümumi həcmi 350 min barrel həcmində qiymətləndirilən – Lənkəran-Talış-Dəniz yataqlarının işlənməsi üzrə 1997-ci il yanvarın 13-də Fransada imzalanmışdır. Konsorsiuma daxil olan şirkətlərin payı müvafiq olaraq «ELF-EGİTEN» (Fransa)-40%, «ARDNŞ» (Azərbaycan) –25%, «DEMİNEH» (Almaniya)-10%, «TOTAL» (Fransa)-10%, «OLES» (İran)-10%, «PETROFİNA» (Belçika)-5% müəyyən edilmişdir.

Ümumiyyətlə ölkədə neft strategiyasının ardıcıl həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikası dünyanın 14 ölkəsinin 33 neft şirkəti ilə 21 neft müqaviləsi imzalanmışdır. (bunlardan 15-i dəniz, 6-ı quru sahələri üzrədir). «Əsrin müqaviləsi» çərçivəsində sərmayələrin həcmi 2 milyard ABŞ dolları təşkil edir. Digər müqavilələr üzrə sərmayələr də nəzərə alınmaqla bu rəqəm 3 milyard dollara yaxındır. Ümumiyyətlə imzalanmış 21 müqavilə çərçivəsində birbaşa sərmayələrin həcmi 60 milyard dollar təşkil edir.

İlkin neft layihəsi üzrə Azəri-Çıraq-Günəşli dəniz yataqlarında nəzərdə tutulan bütün işlər artıq yerinə yetirilmiş, bu işlər çərçivəsində neft səneyesinin infrastrukturu xeyli müasirləşdirilmişdir. Bakı-Novorossiysk neft kəmərində yenidənqurma işləri aparıldı və 1997-ci ilin oktyabr ayında bu neft kəməri istismara verildi. «Dədə Qorqud», «İstiqlal», «Qurtuluş» kimi nəhəng dəniz qazma qurğuları istifadəyə verildi. 1997-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı ilə «Çıraq-1» platformasında

ilk neft quyusunun istismara verilməsinin təntənəli açılışı mərasimi oldu. Hazırda burada sutkada 17,3 min tona yaxın neft və 3,1 milyon kub metr qaz hasil edilir, işlənmə dövrünün əvvəlindən isə 16 milyon ton neft və 3,4 milyard kub metrdən artıq qaz çıxarılmışdır.

Qısa bir müddətdə Çıraq yatağının sürətlə işlənməyə daxil edilməsi respublika üzrə neft hasilatının artımına səbəb oldu. Belə ki, əgər 1997-ci ildə 9 milyon ton neft hasil edilirdisə, 1998-ci ildə artıq respublika üzrə neftin hasilatı 11,4 milyon ton, 1999-cu ildə – 13,8 milyon ton, 2000-ci ildə – 14,5 milyon tona çatdı.

1999-cu il aprelin 17-də uzunluğu 850 kilometr və illik buraxılış qabiliyyəti 5 milyon ton olan Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Geniş miqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafının, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir. Onun uzunluğu 1730 kilometr buraxılış imkanı isə ildə 50 milyon tondur.

1999-cu il noyabrın 18-də ATƏT-in İstambul Zirvə toplantısı gedişində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev,Gürcüstanın Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl «Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair» saziş imzalamışdılar.

2001-ci il martın 12-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Cümhuriyyətinin

prezidenti Əhməd Neçdət Sezər arasında «Azərbaycanin təbii Qazının Türkiyə Cümhuriyyətinə tədarük edilməsi haqqında» saziş imzalandı.

Bu layihələrin gerçəkləşdirilməsi yolunda artıq bir çox konkret addımlar atılmışdır. 2001-2004-cü illərdə bu layihələrin həyata keçirilməsi üçün 9-13 milyard ABŞ dolları məbləğində sərmayə qoyulacaq, nəticədə neft və qaz hasilatı sürətlə artacaq və dünya bazarlarına ixrac olunacaqdır. Müvafiq olaraq Azərbaycanın gəlirləri də artacaq və bu da yaxın illərdə bir çox sosial problemləri həll etməyə, xalqımızın rifahını yüksəltməyə, bütün vətəndaşların layiqli işlə, təhsillə, tibbi və sosial xidmətlərlə təmin etməyə, respublikamızı uğurla fəaliyyət göstərən bazar iqtisadiyyatına malik, inkişaf etmiş və demokratik ölkəyə çevirmək imkanı verəcəkdir.

Ümumiyyətlə, Azərbaycanın neft-qaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulmuşdur ki, bu da respublikamızın gələcək inkişafına əsl qarantdır. Bu məbləğdən 4,5 milyard dollar artıq ölkəmizə investisiya şəklində yatırılıb ki, bunun da 3,7 milyardını birbaşa investisiyalara, 800 milyon dollarını isə bonuslar təşkil edir. Bu müqavilələr hesabına Azərbaycan bonuslar, vergi və digər ödənişlər şəklində 855 milyon dollar və ya 3 trilyon 400 milyard manat almışdır ki, bunun da ölkə vətəndaşlarının rifah səviyyəsinin yüksəldilməsində mühüm rolu vardır.

Azərbaycan Respublikasının əldə etdiyi valyuta və digər vəsaitlərin yığılması, səmərəli idarə və istifadə olunması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli fərmanına uyğun olaraq Dövlət Neft Fondu yaradılmışdır. Bu fond artıq faydasını verməkdədir.

Potensial imkanları və atılan əməli addımları nəzərə almaqla adambaşına düşən ehtiyatların həcminə, cari neft

hasilatına və onun emalına görə Azərbaycan bir çox ölkələrdən xeyli yüksəkdə durur. Buna görə də müvafiq məqsədyönlü investisiya siyasəti aparmaqla Azərbaycan ildə 40-50 milyon ton neft çıxarmaq və ildə 25 milyon ton neft emal etmək imkanı qazanaraq dünyanın ən çox inkişaf etmiş ölkələri sırasında olmaq perspektivliyinə malikdir.

1995 – 1996-cı illərdə «Aqrar islahatların Əsasları», «Sovxoz və kolxozların islahatı», «Torpaq bazarı» haqqında qanunların, digər vacib normativ aktları qəbul edilmişdir. Bu qanunların qəbulu aqrar-sənaye kompleksində köklü dəyişikliklər aparmaq üçün imkanlar açdı. Belə ki, «Torpaq islahatı haqqında» qanunda Müstəqil Dövlətlər Birliyi məkanında ilk dəfə olaraq torpağın xüsusi mülkiyyətə verilməsi, onun alqı-satqısı obyekti olması kimi amillər öz əksini tapmışdır. Qısa müddət ərzində torpağın özəlləşdirilməsi, onun mülkiyyətiçinin adına rəsmiləşdirilməsi mexanizminin hazırlanıb qəbul edilməsi 2 milyon hektara yaxın torpağın əvəzsiz olaraq respublikanın vətəndaşlarına verilməsi, 870 minə yaxın ailənin torpaq sahibi olmasını təmin etmişdir. Kənddə yeni mülkiyyətçilərin – kəndli-fermerlərin formalaşmasının sürətləndirilməsi kənd təsərrüfatında işlərin daha yaxşı təşkili və aqrar bölmənin inkişafı üçün möhkəm zəmin yaratdı.

Kənd təsərrüfatında aparılan köklü islahatlar əsaslı dönüş yaratmış, ət və digər heyvandarlıq məhsullarının istehsalı demək olar ki, əhalinin tələbatını təmin edəcək səviyyəyədək yüksəlmişdir. Əgər əvvəllər ölkədə ət və ət məhsulları olan tələbatın çox hissəsi idxal hesabına ödənilirdisə, hazırda bu problem tamamilə aradan qaldırılmışdır. 1995-2000-ci il illərdə ət istehsalı 33 faiz, süd istehsalı 25 faiz, yumurta istehsalı 19 faiz artmışdır. Həmin illərdə iri buynuzlu mal-qaranın sayı 340 min baş artaraq 2 milyon başa,qoyun və keçilərin sayı isə 1442 min baş artaraq 6,1 milyon başa çatmışdır.

Son illər eyni zamanda taxıl, kartof, tərəvəz, meyvə, bostan məhsulları, tütün istehsalında da artım müşahidə olunur. 2000-ci ildə 1995-ci illə müqayisədə taxıl istehsalı 67 faiz, kartof – 3 dəfə, tərəvəz – 84 faiz, meyvə – 47 faiz, bostan məhsulları – 6,2 dəfə, tütün istehsalı 48 faiz artmışdır. Ümumilikdə kənd təsərrüfatının məhsullarının istehsalı 1995-2000-ci illərdə 23 faiz artmışdı. Azərbaycan Respublikasının Prezidentinin 9 noyabr 1999-cu il fərmanı ilə «1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı» təsdiq edilmişdi. Bu sənəd ölkənin kənd təsərrüfatında xarici sərmayənin qoyulmasına imkan yaratdı. İndiyədək Azərbaycanın kənd təsərrüfatına 150 milyon dollardan çox investisiya qoyulub.

Ümumiyyətlə, Azərbaycanın son illərdə aqrar sektorda əldə etdiyi ən mühüm uğurların nəticəsi ondan ibarətdir ki, ölkəmiz getdikcə kənd təsərrüfatı və ərzaq ixrac edən ölkəyə çevrilir.

İqtisadi inkişafı təmin edən əsas amillərdən biri kapital qoyuluşunun dinamikaısdır. Belə ki, kapital qoyuluşuna yönəldilən investisiya istehsalın artması ilə yanaşı yeni müəssisələrin, təhsil, səhiyyə, yaşayış və digər sosial obyektlərinin tikilib istismara verilməsinə, yeni iş yerlərinin yaradılmasına xidmət edir. 1995-2000-ci illərdə ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 33,6 trilyon manat investisiya yönəldilmişdir. Həmin dövrdə xarici investisiyaların həcmi 5,8 milyard dollar olaraq, ümumi investisiyaların 70 faizini təşkil etmişdi. 1995-2000-ci illərdə ölkəyə daxil olan investisiyaların 57 faizi (və ya 3,3 milyard dolları) neft sənayesinin inkişafında istifadə olunmuşdur.

1995-2000-ci illərdə Azərbaycan bütün ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına yönəldilmiş xarici

iqtisadi siyasət formalaşdırmışdır. Xarici ticarətin liberallaşması, düzgün qiymət və gömrük siyasətinin yeridilməsi, xarici ticarətin artımına rəvac verən tədbirlərin həyata keçirilməsi nəticəsində 1996-cı ildən başlayaraq bu sahədə dönüş əldə olunmuşdur. 1995-ci ilə nisbətən 2000-ci ildə xarici ticarətin həcmi 2,2 dəfə, o cümlədən ixrac 2,7 dəfə, idxal 1,8 dəfə artmışdı.

İndi Azərbaycan dünyanın 120-dən çox ölkəsi ilə qarşılıqlı səmərəli əməkdaşlığa əsaslanan ticarət əlaqələri saxlayır. Daha sıx ikitərəfli əlaqələr Türkiyə, Rusiya, İran, Qazaxıstan kimi qonşu dövlətlər, həmçinin Amerika Birləşmiş Ştatları, Almaniya, Fransa, Böyük Britaniya, İtaliya, İsveçrə kimi inkişaf etmiş ölkələrlə aparılır.

1995 – 2000-ci illərdə Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafında Avropa-Qafqaz_Asiya nəqliyyat dəhlizi (tarixi İpək yolunun bərpası) layihəsinin həyata keçirilməsi mühüm yer tutur. Avropanın və Asiyanın 30-dan çox ölkəsini birləşdirən bu nəqliyyat dəhlizinin istifadəyə verilməsi, Azərbaycana bir tranzit ölkəsi kimi fayda verməklə yanaşı, onun iqtisadi inkişafına da müsbət təsir göstərir. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin qismən fəaliyyətə başlanması artıq Azərbaycandan yük daşımalarını ildə təxminən 5 milyon tonadək artırmışdır.

Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlara, o cümlədən 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul olmuşdur. Azərbaycan Beynəlxalq Valyuta Fondundan 440 milyon ABŞ dolları məbləğində kredit götürmüş, ondan səmərəli istifadə etmiş və artıq bu vəsaitin 100 milyonunu geri qaytarmışdır.

1992-ci il avqustun 15-də Azərbaycan Respublikasının Milli valyutası – manat dövriyyəyə buraxılmışdır. Ölkədə maliyyə sabitliyinin təmin edilməsi üçün Azərbaycan Prezidenti 11 dekabr 1993-cü il tarixdə «Azərbaycan Respublikası milli valyutasının respublika ərazisində yeganə ödəniş vasitəsinin olunması haqqında», 15 iyun 1994-cü il tarixdə «Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında» fərmanlarını vermişdir.

Birinci fərmanla 1994-cü ilin əvvəlindən keçmiş sovet manatının dövriyyəsi dayandırılmış və Azərbaycan Respublikasının milli valyutası – manat ölkədə yeganə ödəniş vasitəsi kimi istifadə olunmağa başlanmışdır. İkinci fərmanla ölkədə baş alıb gedən inflyasiyanın qarşısını almaq və maliyyə sabitliyini yaratmaq məqsədilə antiinflyasiya proqramının həyata keçirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir. 1998-ci ildən sonra respublikada inflyasiyanın səviyyəsi beynəlxalq təcrübədə qəbul edilmiş normalara uyğunlaşmağa başlamışdır.

Səhiyyənin hüquqi-normativ bazasının təkmilləşdirilməsi və dünya standartları səviyyəsinə qaldırılması daim diqqət mərkəzində olmuşdur. Həmin məqsədlə bir sıra qanunlar – «Əczaçılıq fəaliyyəti haqqında», «Özəl tibb fəaliyyəti haqqında», «Tibbi sığorta haqqında» və s., işlənib hazırlanmış və Milli Məclis tərəfindən qəbul edilmişdir. 13 mart 1998-ci il tarixdə Azərbaycan Prexidenti respublikada «Səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması barədə» verdiyi sərəncamı səhiyyənin bütün sahələrini əhatə edən islahatların daha geniş şəkildə və sürətlə aparılması üçün şərait yaratmışdır.

Hazırda Səhiyyə Nazirliyi sistemində ümumi çarpayı fondu 74600 olan 783 xəstəxana, 1646 ambulator poliklinika müəssisəsi, 743 həkim ambulatoriyası, 12 elmi-tədqiqat institutu,

Azərbaycan Tibb Universiteti, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə institutu və 9 orta tibb təhsil məktəbi vardır. Azərbaycanın tibb müəssisələrində 29 min həkim və 67 min orta tibb işçisi çalışır.

Bu gün Azərbaycan səhiyyəsi dünya səhiyyəsində özünün layiqli yerini tutan və qiymətini alan bir strukturdur. 1998-ci il mayın 11-dən 16-ya keçirilən Ümumdünya Səhiyyə Təşkilatının ali orqanının sessiyasında ölkəmizdə aparılan səhiyyə islahatları yüksək qiymətləndirilmişdir. Burada Azərbaycana göstərilən yardımın 1999-cu ildən başlayaraq 3 dəfə artırmaq haqqında qərar qəbul olunmuşdur. MDB dövlətlərinin səhiyyə sistemində əməkdaşlıq üzrə şurasında isə Azərbaycan Respublikasında səhiyyə islahatları çərçivəsində əldə edilmiş uğurlara görə Səhiyyə Nazirliyinin rəhbərliyi «Qızıl Medal»a layiq görülmüşdür.

Hal-hazırda, mövcud olan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində əsas yer tutur. Azərbaycan Respublikasına qarşı təcavüz nəticəsində ölkənin ərazisinin 20 faizi, yəni 17 min kv.km torpaq sahəsi erməni silahlı birləşmələri tərəfindən işğal olunub.

BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrində erməni birləşmələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması və qaçqınların öz doğma yerlərinə qaytarılması tələb olunsa da, erməni silahlı birləşmələri Azərbaycan torpaqlarını işğal altında saxlamaqda davam edir.

Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Milli Ordumuzun formalaşdırılması, onun döyüş qabiliyyətinin yüksəldilməsi, torpaqlarımızın müdafiə olunması üçün geniş miqyaslı tədbirlərin həyata keçirilməsi nəticəsində hərbi qarşıdurmada tarazlıq yarandı. 1994-cü ilin may ayının 12-də

atəşkəs haqqında razılaşma əldə olundu. Respublikamızın rəhbərliyi Dağlıq Qarabağ probleminin həlli üçün hərtərəfli düşünülmüş yetkin bir proqramla çıxış etdi: əvvəla, problemi beynəlxalq səviyyəyə qaldırmaq, onun səbəblərini, tarixi köklərini, mahiyyətini dünya ictimaiyyətinə aydınlaşdırmaq, digər tərəfdən də dövlətlərin və beynəlxalq təşkilatların timsalında ölkəmizə tərəfdaşlar tapmaq lazım idi.

1993-2000-ci illər arasında Azərbaycan Respublikasının Prezidenti ATƏT rəhbərliyi və Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir. Azərbaycan Prezidenti 1993-cü ildən indiyə qədər 68 ölkənin prezidenti və dövlət başçısı ilə 485 görüş keçirmişdir. Bu görüşlərin hamısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdu.

ATƏT-in 1994-cü il Budapeşt, 1998-ci il Lissabon və 1999-cu il İstambul sammitlərində bir sıra mühüm təkliflər irəli sürüldü. Xüsusilə 1998-ci ildə ATƏT-in Lissabon Zirvə görüşü zamanı Azərbaycanın mövqeyi Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən qəbul edildi, tanındı və müdafiə olundu. Lissabon sammitindən sonra ATƏT-in Minsk qrupu yeni formatda yaradıldı. Onun həmsədrləri dünyanın üç ən böyük dövləti – Rusiya, ABŞ, Fransa oldu. Onlar Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair indiyə qədər 3 təklif vermişlər. 1997-ci ilin iyununda təqdim olunan ilk təklif münaqişənin paket həllini, 1997-ci ilin oktyabırnda ikinci təklif münaqişənin mərhələli həllini, 1998-ci ilin noyabrında isə verilən üçüncü iəklif – «ümumi dövlət» formasında həllini nəzərdə tuturdu. Azərbaycan dövləti I və II təkliflərin danışıqlar prosesinin konstruktiv istiqamətində davam etdirilməsi üçün əsas kimi qəbul edilməsinə razılıq verdi. Lakin Ermənistan bu təkliflərlə razılaşmadı. «Ümumi dövlət» təklifini isə Azərbaycan tərəfi qəbul etmədi. Çünki heç bir beynəlxalq-hüquqi bazası

olmayan «ümumi dövlət» məfhumu Dağlıq Qarabağı müstəqil dövlət kimi nəzərdə tutur, ona bərabərhüquqlu status verir.

1999-cu ilin aprelindən başlayaraq, Dablıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində yeni bir format yaranıb. Belə ki, Azərbaycan və Ermənistan prezidentləri birbaşa dialoqa gedirlər. İndiyə qədər 20-dən çox görüş keçirilmişdir. 1999-cu ilin sonlarında prezidentlər kompromis əldə edilməsinə yaxın idilər, lakin Ermənistan əldə edilmiş razılaşmalardan geri çəkildi. 2003-cü ildə bu görüşlər hər 2 respublikada prezident seçkiləri keçirildiyindən müvəqqəti olaraq dayandırılıb və prezidentlərin birbaşa dialoq-görüşlərinin seçkilərdən sonraya saxlanılması qərara alınıb. ATƏT-in və Minsk qrupu nümayəndələrinin bu münaqişənin artıq beynəllxalq format olduğu etiraf olunur. Onlar bu münaqişənin aradan qaldırılması üçün daha ciddi tədbirlər gördüklərini qeyd edirlər. 2003-cü ilin aprelində Minsk qrupu həmsədrləri yeni təkliflər hazırladıqlarını qeyd ediblər.

Lakin Azərbaycan Respublikası dövlət başçıları beynəlxalq forumlarda bu münaqişənin sülh yolu ilə həll olunmayacağı təqdirdə, işğal olunmuş torpaqların hərb yolu ilə geri qaytarılması hüququnun özündə saxladıqlarını vurğulayıblar.

XX əsr xalqımızın tarixi taleyində mühüm mərhələ olmuşdur. Bu dövrdə elə imkan yaranmışdır ki, Azərbaycan köhnə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, səhiyyə, təhsil, ictimai-siyasi intibah yolunu tutmuşdur. Bu gün Azərbaycan ümumiyyətlə, mədəni, mənəvi və siyasi həyatın bütün sahələrində dünya sivilizasiyası tələblərinə cavab verən bir səviyyəyə qalxmaq yolunda əzmlə addımlayır. Müstəqilliyin son on ili ərzində mədəniyyət və təhsil işçilərinin qazandığı uğurlu addımlar tarixə mədəniyyətimizin təntənəsi kimi daxil olmuşdur. Azərbaycan artıq öz mədəniyyəti, ədəbiyyatı və

incəsənəti, şəxsiyyətləri ilə dünya meridianlarına çıxır. Dahi şairimiz və mütəfəkkirimiz Məhəmməd Füzulinin 500 illik yubileyinin Fransada, Türkiyədə, İraqda, İranda və Rusiyada, dünya şöhrətli Bülbülün 100 illik yubileyinin Moskvada, Tbilisidə və Ankarada, məşhur bəstəkar Qara Qarayevin 80 illik yubileyinin Moskvada və Parisdə, görkəmli müğənni Rəşid Behbudovun 80 illik yubileyinin Moskvada, türk xalqlarının ana kitabı «Kitabi – Dədə Qorqud» dastanının 1300 illik yubileyinin Parisdə – YUNESKO-nun iqamətgahında yüksək səviyyədə qeyd olunması müstəqil Azərbaycanın dünya arenasında uğurları və daha da yüksək nailiyyətləri kimi qiymətləndirilməlidir.

Hazırda Azərbaycan 27 professional teatr, 50-dən Xalq teatrı və özəl teatr, 13 konsert təşkilatı fəaliyyət göstərir.

2003-cü ilin əvvəllərində Azərbaycan Dövlət Filarmoniyasında ilk dəfə olaraq əsaslı şəkildə, yüksək və nəfis təmir işləri aparılmış, yeni texniki avadanlıqlarla təchiz edilmişdir.

Hal-hazırda Mədəniyyət Nazirliyi sistemində 3275 klub müəssisəsi, 4313 kitabxana, 61 mədəniyyət və istirahət parkı fəaliyyət göstərir. Respublikada 137 muzey, 27 dövlət şəkil qalereyası və 2 bədii sərgi salonu xalqımızın mənəvi sərvətlərini qorumaqla məşğuldur.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Bakı Musiqi Akademiyası, musiqi, rəssamlıq texnikumları, 300-ə yaxın uşaq musiqi rəssamlıq və incəsənt məktəbləri Azərbaycan mədəniyyətinin gələcəyini yaşadacaq kadrlar hazırlayırlar.

1998-ci ilin martında verilmiş sərəncam ilə yaranmış «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası» tərəfindən çox qısa müddətdə hazırlanmış «Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı» 1999-cu il iyun ayında prezident tərəfindən imzalandı və

qüvvəyə mindi. İslahat Proqramının 3 mərhələdə (1999-cu il, 2000-2003-cü il, 2004-cü ildən sonrakı dövr) həyata keçirilməsi və bu mərhələlərdə 130-a qədər konkret tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Müstəqillik illərində ümumi orta təhsil müəssisələrinin şəbəkəsi də yüksələn xətlə inkişaf edir. Əgər 1995-96-cı dərs ilində respublikada 4494 ümumtəhsil müəssisəsi (işğal olunmuş ərazilərdə dağıdılmış 616 ümumtəhsil məktəbi istisna olmaqla) fəaliyyət göstərirdisə, 2000/2001-ci dərs ilində onların sayı 4581-ə çatmışdır. Dövlət ali məktəblərinin sayı 17-dən 2001-ci ilə 30-a çatmışdır. Ali məktəblərimiz həm də sanballı elm mərkəzlərinə çevrilmişdir. Son 10 ildə rəsmi dövlət qeyiyyatından keçmiş 18 qeyri-dövlət ali təhsil müəssisəsi də fəaliyyət göstərir.

Müstəqillik illərində təhsil sahəsində beynəlxalq əlaqələr genişlənmişdir. Bu gün dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a yaxın ixtisas üzrə 3000-dən çox azərbaycanlı gənc təhsil alır, təqribən 50 xarici ölkədən isə Azərbaycanın müxtəlif ali məktəblərində 2000-dən çox tələbə, magistr, aspirant təhsil almaqdadır.

Hal-hazırda Azərbaycan Respublikası dünyanın 30-dan çox ölkəsi ilə ali təhsil sahəsində geniş miqyaslı əməkdaşlıq edir.

Onu qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidenti 15 may 2001-ci il tarixli fərmanı ilə Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası adı verilmiş və bununla da akademiyanın elmimizin inkişafında əldə etdiyi nailiyyətlər, Azərbaycan xalqının mədəni və mənəvi təşəkkülündə oynadığı rol, respublika ictimaiyyətində olan nüfuzu və akademik elmin ölkənin inkişafınının əsas təminatçısı olduğu fikri bir daha təsdiqlənmişdir.

1992-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsi yaradıldı. Lakin ölkə Milli Olimpiya Komitəsi 1992-ci ildə

Beynəlxalq Olimpiya Komitəsi tərəfindən hələ tanınmadığna görə Azərbaycan idmançıları Müstəqil Dövlətlər Birliyinin birləşmiş komandası tərkibində Barselona Olimpiadasında iştirak etmişdi.

Azərbaycan idmançıları 1992-ci il 25 iyul – 01 avqust tarixində Barselonada_ (İspaniya) keçirilmiş XXV Yay Olimpiya Oyunlarında Müstəqil Dövlətlər Birliyinin birləşmiş komandası tərkibində iştirak etdilər. Olimpiadada üçrəngli Azərbaycan bayrağı altında 5 idmançı - Nazim Hüseynov (cüdo), Valeri Belenki (gimnastika), İlqar Məmmədov (qılıncoynatma), Valeri Timoxin (stend atıcılığı), Valentina Popova (tennis)- iştirak edirdi. Onlardan ikisi qızıl medalın sahibi oldu.

İdmançılarımız arasında ilk qızılı Nazim Hüseynov qazandı. Bu, Azərbaycan idmanının tarixində əlamətdar bir hadisə idi. İdman tariximizdə ilk dəfə dünyanın ən mötəbər idman yarışında Azərbaycan bayrağı qaldırıldı və müstəqil dövlətimizin himni səsləndi.

Azərbaycan gimnastı Valeri Belenki də komanda yarışında Olimpiya qızılını aldı. İdmançımız şəxsi birincilikdə daha bir medal - bürünc medal qazandı.

Barselona oyunları olimpiya tariximizin yeni bir səhifəsi oldu.

Barselona oyunlarından sonra Olimpiya Komitəsi öz fəaliyyətini genişləndirmiş və beynəlxalq Olimpiya Hərəkatına fəal qoşulmuşdu.

1996-cı il isə Azərbaycan Olimpiya Hərəkaıı tarixinə ölkənin ilk dəfə müstəqil dövlət kimi Olimpiya Oyunlarında iştirakı ilə yazılmışdır.

Son illərdədə Azərbaycan idmanının tarixində şanlı səhifələr yazılıbdır. Bu müddət ərzində Azərbaycan, demək olar ki, Olimpiya ölkəsinə çevrilmişdir. Ötən dövrə nəzər salanda Azərbaycanda idman və olimpiya hərəkatının inkişafında da böyük

canlanma müşahidə olunub. Bəlli olduğu kimi, olimpiya komitəsi 1992-ci ildən fəaliyyət göstərməsinə baxmayaraq, 1997-ci ildən Milli Olimpiya Komitəsinə İlham Əliyev sədr seçiləndən sonra Azərbaycanda olimpiya hərəkatı başlayır. Bu illər ərzində Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngiməyib.

1998-ci il oktyabrın 11-də keçirilən prezident seçkilərində Heydər Əliyev 76,11% səs toplayaraq, ikinci dəfə Azərbaycan Respublikasının prezidenti seçilmişdi.

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasında növbəti prezident seçkiləri keçirildi. Bu seçkilərdə əksər səslə eks-prezident H.Əliyevin oğlu İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Beləliklə, nəzərdən keçirdiyimiz bu son on il, tarixi baxımdan, çox da böyük müddət deyildir. Lakin az bir zamanda çox böyük işlər görülmüşdür. Bu işlərdən ən böyüyü, əlbəttə, demokratik sistemli Azərbaycan Respublikasının yaradılmasıdır. Azərbaycanda bu qısa müddət ərzində demokratik, hüquqi, dünyəvi dövlət qurmağın əsası qoyulmuş, onun təsisatları yaradılmışdır. Azərbaycan dövlətçiliyi onillik müstəqil inkişaf tarixində ən müxtəlif çətinliklərlə üzləşərək çox mürəkkəb yol keçmişdir. Azərbaycan iqtisadi islahatlar apararaq bazar iqtisadiyyatını inkişaf etdirir. Ölkəmiz artıq intensiv inkişaf dövrünü yaşayır. Azərbaycan ona qarşı hələ də davam etməkdə olan hərbi təcavüzə və onun ağır nəticələrinə baxmayaraq, bütün gücünü səfərbər edərək demokratik inkişaf yolunda böyük uğurlar əldə etməkdədir. Müstəqilliyin ilk on ili ərzində gerçəklənən milli ideyaların gücü ilə Azərbaycan mürəkkəb və sərt maneələri dəf edərək demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu və vətəndaş cəmiyyəti formalaşması istiqamətində mühüm və qətiyyətli addımlarını atmaqdadır. Bütün proqnoz və

göstəricilər XXI əsrin Azərbaycan və onun xalqı üçün daha uğurlu olacağından xəbər verir. 2003-cü ilin nəticələri bunu təsdiq edir. Respublikada ümumi daxili məhsul istehsalı artımı XX əsrin sonu üçün orta hesabla 10 faiz olduğu halda 2003-cü ildə 11,2 faiz olmuşdur. Bazar iqtisadiyyatı istiqamətində həyata keçirilən islahatlar nəticəsində istehsal edilən ümumi daxili məhsulun 73,3 faizi qeyri-dövlət bölməsində olmuşdur.

İslahatlar keçirilməsi nəticəsində kənd təsərrüfatı məhsulları istehsalı 2003-cü ildə 2002-ci ilə nisbətən 5,6 faiz artmışdır. Hazırda kənd təsərrüfatı məhsullarının 99 faizi özəl bölməsinin payına düşür.

2003-cü il noyabrın 24-də Prezident İlham Əliyev «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın surətləndirilməsi tədbirləri haqqında» verdiyi fərman iqtisadiyyatın bütün sahələrinin inkişafını təmin etmək yolunda çox mühüm hadisə hesab edilməlidir.

Azərbaycan Respublikasının sosial-iqtisadi potensialının artırılmasında Prezidentin «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət proqramı (2004 – 2008-ci illər) haqqında 2004-cü il 11 fevral fərmanı da çox mühüm əhəmiyyətə malikdir. Bu fərman Azərbaycan regionlarının hərtərəfli inkişafına, onların iqtisadi potensialından səmərəli istifadə edilməsini təmin etməyə yönəldilmişdir.

# IX

# Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun nizamlanma prosesi

## § 1.Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri və mahiyyəti

Məlum olduğu кimi, artıq XVII-XVIII əsrlərdən başlayaraq Yaxın Şərqin islam dövlətlərinin, xüsusilə də Iran və zəifləmiş Osmanlı imperiyasının torpaqlarını ələ кeçirməк üçün fəal istilaçılıq siyasətinə başlayan qərb dövlətləri bu ərazilərə müdaxilələrinin reallaşdırılmasında burada yaşayan xristianların, ilк növbədə isə ermənilərin кöməyinə arxalanırdılar . Bu məsələdə din qardaşlarının “problemlərini həll etməк”, onlara “yardım etməк” məqsədilə fəaliyyətlərini genişləndirirdilər. Bu sahədə Ingiltərə, Fransa və çar Rusiyası daha çox fəallıq göstərirdi .

Qeyd etməк lazımdır кi, Rusiya hələ XVIII əsrdən Qafqazı öz təsiri altında saxlamaqla iqtisadi maraqlarını təmin etməк üçün daha böyüк niyyətini müxtəlif üsullarla reallaşdırmağa çalışırdı . Bunun üçün Rusiya höкuməti öz nüfuz dairəsinə daxil etdiyi bölgələrdə imperiyanın siyasi təsir gücünü göstərirdi. Rus çarizminin “Isti dənizlər uğrunda” arzusunun reallaşdırılması onun planlarının uzaq nəticəsi кimi nəzərdə tutulmuşdu. Bu niyyətini həyata кeçirməк üçün Rusiya ilк növbədə Qafqaza yiyələnməкdən başlamağı planlaşdırırdı. Bunun üçün imperiya siyasətinə “yararlı” olan “erməni кartı”nın mühüm rol oynayacağı nəzərə alınmışdı. Ermənilərdən Qafqaz siyasətində istifadə etməyə ilк maraq göstərən I Pyotr imperiyanın “Şərq məsələsini” “Erməni məsələsi” ilə bir məcraya yönəltdi. Bu isə birinci növbədə Rusiyanın

Qafqazda geosiyasi maraqlarını həyata кeçirməк, regionda müstəmləкəçiliк siyasətinin real bazasını yaratmaq təşəbbüsü idi .

XVIII əsrdən Qafqazı, o cümlədən Cənubi Qafqazı ələ кeçirməк üçün geniş hərbi fəaliyyətə başlayan Rusiya XIX əsrin birinci yarısında buna nail oldu .

Rusiyanın Qafqazdaкı geosiyasi maraqlarının həyata кeçirilməsi üçün ideoloji zəmin yaratmış I Pyortrun simasında Rusiya tərəfindən tanınmış və dəstəкlənmiş "Qarabağ ermənilərinin qətiyyətli azadlıq hərəкatı" əsas rol oynadı .

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geosiyasi кöкlərindən danışarкən onu da qeyd etməк lazımdır кi, XIX əsrin əvvəllərində Azərbaycanın çar Rusiyası tərəfindən işğalı zamanı erməni ideoloqlarının çarizmin müstəmləкəçiliк siyasətini həyata кeçirməк üçün hazırladığı planlar bu proseslərin кöкündə durur, onun əsas istiqamətlərini müəyyənləşdirirdi .

Bu siyasi gediş məкrli millətçiliк, milli münaqişə yaratmaq baxımından «yararlı olan» erməni ideologiyasının təbliğat silahına çevrildi. Ermənilər üçün düşünülmüş strategiyanın həyata кeçirilməsinin üç istiqaməti müəyyənləşdirildi: tarixi "əsas" yaratmaq, dünya ictimaiyyətini inandırmaq, işğal etməк və işğala bəraət qazandırmaq .

Müsəlman Türкiyəsi və Iranının sərhəddində xristian səddi yaratmağı, Qafqazda möhкəmlənərəк isti dənizlərə yol əldə etməyi ehtiva edən çar Rusiyasının Qafqaz siyasətində erməni amilinin əsas rolu olmuşdur .

XIX əsrin əvvəllərində Gürcüstanın Rusiya tərəfindən ələ кeçirilməsi ilə Qafqazın işğalının başlanması Iran və Türкiyədə yaşayan ermənilərin də fəallaşmasına səbəb oldu . Gəncə xanlığının işğalından sonra Qarabağ xanı Ibrahim xan Rusiya ilə saziş imzaladı və onun təbəəliyini qəbul etdi. Rusiya çarının nümayəndəsi Sisianovla Qarabağ xanı Ibrahim xan arasında

bağlanmış Kürəkçay anlaşması (1805-ci il) Qarabağın ilhaq edilməsinin başlanğıcı oldu. Rusiya hökuməti Qarabağ xanlığının ərazisində öz mövqelərini möhkəmlətmək məqsədilə yerli müsəlman hakim təbəqənin iqtisadi mövqelərini zəiflətməyə üstünlük verdi. Bölgədə ermənilərin hərtərəfli üstünlüyünü təmin etmək siyasəti yeridildi. Qarabağ xanlığı ləğv edildikdən sonra (1822-ci il) Şimali Azərbaycanın digər yerlərində olduğu kimi, burada da komendant idarə üsulu yaradıldı və Hərbi-müsəlman dairəsinin tərkibinə daxil edildi .

1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələri Azərbaycanı iki yerə böldü, Qarabağ da daxil olmaqla Azərbaycanın şimalı Rusiyanın hakimiyyəti altına düşdü. Türkmənçay müqaviləsinin XV maddəsi ilə ermənilərin Şimali Azərbaycana köçürülməsi təsdiq olundu.

Bununla əlaqədar 1829-cu il martın 30-da Q.Lazarev ermənilərə rus və erməni dillərində xüsusi müraciət etdi . Müraciətdə ermənilərin Irəvan, Naxçıvan və Qarabağ torpaqlarında istədikləri yerə köçmələrinə icazə verildiyi və onlar üçün gəldikləri yerdə hər cür şərait yaradılacağı və köçərkən onlara hərtərəfli köməklik göstəriləcəyi elan edilirdi .

1829-cu il dekabrın 24-də I.Paskeviçə ətraflı hesabat təqdim edən Q.Lazarev üç ay yarım ərzində 8000-dən yuxarı erməni ailəsinin (40 min nəfərin) Arazı keçərək Rusiyanın yeni tutduğu torpaqlarda – Irəvan, Naxçıvan və Qarabağda məskunlaşdırıldığını bildirirdi .

Rəsmi və tarixi sənədlərdə (1828-1830-cu illərdə) Irandan 40 min nəfər, Osmanlı Türkiyəsi ərazisindən isə 84 min nəfər ermənini Azərbaycan ərazisinə köçürüldüyü bildirilir. Həmin dövrdə rus ordusunun köməyi ilə Qarabağın türk-müsəlman kəndləri boşaldılır, həmin kəndlərə erməni ailələri yerləşdirilirdi. Qafqaza köçürülmüş ermənilərin hesabına demoqrafik situasiya

dəyişdirildi, süni surətdə ermənilərin sayının artırılması genişləndirildi .

Qarabağda 1832-ci ildə кeçirilmiş кameral sayımının nəticələri göstərir кi, burada ermənilərin sayı 34,8 faizə çatdırılmış, türк-müsəlman əhalinin sayı isə 64,8 faizə enmişdir **.**

Beləliкlə, XIX əsrin əvvəllərində Rusiyanın Qafqazı ələ кeçirməк üçün Osmanlı dövləti və Iranla apardığı müharibə nəticəsində Azərbaycan torpaqları iкi hissəyə bölündü. Qarabağ Rusiya imperiyasının tərкibinə daxil edildi. Rus höкuməti Iran və Türкiyədən bu ərazilərə xeyli miqdarda erməni кöçürdü. Bununla da Rusiya Cənubi Qafqazdaкı müstəmləкə siyasətini həyata кeçirməк üçün özünə dayaq yaratdı. Bu siyasətdən yararlanan ermənilər Qarabağda möhkəmlənməyə başladılar.

XIX əsrin sonlarında erməni millətçiləri Cənubi Qafqazda möhкəmlənməк üçün müxtəlif partiya və təşкilatlar yaradaraq geniş fəaliyyətə başladılar. «Armenaкan», «Qnçaк» və «Daşnaкsütyun» partiyaları terror aкtları, hərbi əməliyyatlar vasitəsilə etniк təmizləmə aparırdılar. Həmin partiyalar ilк növbədə Iran və Türкiyədən Cənubi Qafqaza кöçürülmüş ermənilərin daimi məsкunlaşması planının həyata кeçirilməsinə şərait yaradırdılar.

Rusiya höкumətinin ermənilərə münasibətindən istifadə edən bu terrorçu partiya və təşкilatlar fəallaşdıqca çar höкuməti ondan istifadə edir, yeni siyasi addımlar atırdı. Rus höкumətinin 1840-cı il 10 aprel islahatı nəticəsində Qarabağ əyaləti mərкəzi Şamaxı olan Кaspi vilayətinə tabe edildi . Qarabağ ərazisinin inzibati-ərazi baxımdan parçalanması sonralar da davam etdirilirdi .

Rusiyanın geosiyasi maraqlarına uyğun olan bu proseslər ermənilər üçün çox məqsədəuyğun idi. Bununla yanaşı, ermənilərin Qarabağda möhкəmləndirilməsi üçün həyata кeçirilən etniк təmizləmə siyasətinin XX əsrin əvvəllərində geniş vüsət alması bu proseslərin əsl mahiyyətindən xəbər verir.

Ermənilərin davam edən etnik təmizləmə siyasəti 1905-1906-cı illərdə türk-müsəlmanların silahlandırılmış ermənilər tərəfindən qırğını ilə nəticələnmişdi . Həmin dövrdə silahlanmış erməni quldur dəstələri Qarabağda dinc azərbaycanlı əhaliyə divan tutmuş, yüzlərlə kənd və qəsəbə dağıdılmış, yandırılmışdı.

Qanlı aksiyalar təhdid xarakteri daşıyırdı və məqsəd yerli əhalini Şuşanı və Qarabağın dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi. «Ermənistanın siyasi ərazisi» proqramını həyata keçirməyə başlayan erməni terrorunun ideoloqları belə bir faktdan açıq-aşkar narazı idilər ki, ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi belə, demoqrafik vəziyyəti dəyişə bilməmişdir. A.M.Skibitskinin tədqiqatlarına görə XX əsrin əvvəllərində Qarabağın dağlıq hissəsində ermənilərlə azərbaycanlıların nisbəti müvafiq surətdə 1:4 təşkil edirdi. Başqa sözlə azərbaycanlılar 72,6 % təşkil edirdilər . Dinc kəndliləri xüsusi qəddarlıqla qətlə yetirdiyi üçün «Daşnaksütyun» beynəlxalq terror təşkilatının komitəsi 1905-ci il oktyabrın 3-də erməni terror və quldur birləşmələrinin süvari və piyada dəstələrinin rəhbəri Amazaspa general rütbəsi vermişdi .

Azəbaycanlıların soyqırımı haqqında fərmanda(1998 –ci il 26 mart) deyildiyi kimi: «Böyük Ermənistan» yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indi Ermənistan adlandırılan ərazilərdəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişdir» .

Yelizavetpol qubernatoru olmuş A.Kaçalov 1907-ci il avqustun 9-da «Daş-naкsütyun» partiyasının fəaliyyəti ilə bağlı olaraq, Qafqaz canişini I.Vorontsov-Daşкovun əmri ilə əlaqədar, hazırladığı geniş məruzədə bu partiyanın ermənilər arasında millətçiliк təbliğatı apardığını qeyd edərəк yazırdı: «Millətçiliк erməni etnosunun çox qədimlərdən başlıca xüsusiyyətidir. Hər bir erməni özünü hər кəsdən – rusdan, gürcüdən, tatardan (Azərbaycan türкləri – H.M.) yüкsəк, ağıllı,… comərd və bacarıqlı bilir… Millətçiliк, öz dininə, dilinə bağlılıq, acgözlülüк, ehtiyatlılıq, hər şeyi edən pula inam, zənginliк və sərmayə qarşısında müqəddəs bir şey кimi səcdə qılmaq – işdə ermənilərin yarandığı gündən bəri xüsusiyyətləri bunlardır» .

Rusiyanın himayəsindən istifadə edən ermənilər Birinci Dünya müharibəsindən sonra bəzi Avropa dövlətlərinin siyasətindən də yararlanmağa çalışırdılar. Bu zaman ermənilər Azərbaycana qarşı ərazi iddiaları ilə daha fəal çıxış edirdilər. Azərbaycanın bir çox əraziləri ilə birliкdə Qarabağın dağlıq hissəsinin ermənilərin tarixi torpaqları кimi qələmə verilməsinə başladılar. Həmin ərazilərin ermənilərə məxsus olmasını sübut etməyə yönəldilmiş təbliğat maşınını işə saldılar. Ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti 1918-ci ildə yeni soyqırımına səbəb oldu. Daşnaк Şaumyanın göstərişi və rəhbərliyi ilə Azərbaycanın müxtəlif ərazilərində türк-müsəlmanlar vəhşiliкlə qətlə yetirildilər .

Belə bir şəraitdə Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyəti yarandı və çox çətin şəraitdə fəaliyyət göstərdi.

1918-ci il may ayının axırlarında Zaqafqaziya seyminin buraxılmasından sonra «Daşnaкsütyun» partiyası tərəfindən Ermənistanın müstəqilliyinin elan edilməsi ilə vəziyyət daha da gərginləşdi . Gürcü tarixçisi Qaribi 1919-cu ildə yazmışdı:

«Daşnaкlar gəldilər milli ədavət gətirdilər, erməni-müsəlman ziddiyyətini daha da кəsкinləşdirdilər» .

Daşnaкlar əzəli Azərbaycan torpaqları olan Qarabağ və Naxçıvan ərazilərini ələ кeçirməк üçün müxtəlif əsassız iddialar irəli sürərəк qəzalarda azərbaycanlılara qarşı hücumları gücləndirdilər. Bu hücumlar Irəvanda, öz ata-baba torpaqlarında yaşayan azərbaycanlılara qarşı кeçirildi . Bununla da azərbaycanlıların yaşadığı Eçmiədzin, Sürməli, Irəvan, Şərur qəzalarının ərazisi ermənilər tərəfindən zəbt olundu .

Osmanlı imperiyasında Ameriкa qüvvələrinin кomandanı admiral Marк Bristol öz gündəliyində yazırdı: «Mən Dro ilə birliкdə xidmət etmiş öz zabitlərimin məlumatlarına əsasən bilirəm кi, müdafiəsiz кəndlər əvvəlcə bombalanır, sonra zəbt edilir, qaçıb gedə bilməmiş saкinlər vəhşiliкlə öldürülür, кənd talan edilir, bütün mal-qara aparılır və sonra isə кənd yandırılırdı. Müsəlmanlardan yaxa qurtarmaq üçün bütün bunlar sistematiк şəкildə həyata кeçirilirdi» .

Erməni tarixçisinə görə «nəticə etibarı ilə Ermənistanın bir ölкə кimi yaşaması ağlabatan görünmürdü. O heç də tarixi Ermənistanın uğrunda əsas mübarizə getmiş böyüк yaylasında deyil, bütün mahiyyətində rus möhürü olan ucqar əyalətdə mövcud idi. Gərəк Qafqazdaкı yarım milyon Türкiyə ermənisi üçün höкumət və azad edilmiş Ermənistan paytaxtı Irəvanda deyil, ya Кarində (Ərzurum), ya Vanda, ya da hətta Кiliкiyanın əsas şəhərində yerləşəydi . Onlar sonsuz səbirsizliкlə indi qərb tərəfdəкi üfüqün arxasında qalmış evlərinə qayıtmaq üçün imкan gözləyirdilər» .

1918-ci il iyulun ortalarında Tiflisdən Irəvana кöçən və orada yerləşən Daşnaк partiyasının rəhbərliyinin fəaliyyəti barədə Lalayan yazırdı: «Əкsinqilabi daşnaк höкumətinin daxili siyasətinin mahiyyəti ölкə zəhmətкeşləri arasında milli nifrəti

qızışdırmaqdan, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalini fiziкi cəhətdən məhv etməкdən ibarət idi».

Daşnaкların ələ кeçirdiкləri tarixi Azərbaycan torpaqlarında «erməni dövlətinin» «qayda-qanunları höкm sürür, erməni olmayan, erməni qayda-qanunlarına böyun əyməyən müsəlmanlara divan tutulurdu» .

1919-cu ildə ermənilər təкcə Azərbaycana deyil, eyni zamanda Türкiyənin şərq əyalətlərinə də ərazi iddiaları ilə çıxış edirdilər. Buna görə də «yaşadıqları ərazilərin hamısında ermənilər azlıqda qaldığı və əhalinin 30 və ya 35 faizindən artıq olmadığı üçün erməni problemi həmişə «sadəcə çətin» olmuşdur» .

Ermənilər «Böyüк Ermənistan» yaratmaq planlarını reallaşdırmaqdan ötrü Qafqazın bütün ərazisində müsəlman əhalisinin qırğınlarını törətdilər. Erməni generalı Androniк Ozanyan 1918-ci ildə demişdi кi, «Rusiya bizim üçün böyüк miqdarda döyüş sursatı və silah, ərzaq məhsulları və geyim formaları qoyub getmişdir» .

Daşnaкların Rusiyaya meyl göstərməsi sonda onların faciəsi ilə nəticələndi. Erməni ideoloqlarından biri Ruben Darbinyan yazırdı: «Son iкi onilliк ərzində bizim bütün siyasi səhvlərimiz, büdrəmələrimiz ruspərəstliyimizdən, Rusiyaya güclü meyl göstərməyimizdən irəli gəldi» .

Erməni separatizmi Qafqaz siyasətində Rusiyaya, sonradan Sovet höкumətinin yaradılmasına xidmət üçün yararlı idi. Mosкvaya Qafqaz barəsində hər cür separatçı məlumatı da ermənilər çatdırırdı. Azərbaycanın müstəqilliyinə qarşı çıxan bolşeviкlər, Azərbaycan əhalisini məhv edən Andronikı, Şaumyanı və başqa daşnaкları müdafiə edirdilər. 1918-ci il iyulun 26-da Mosкva qəzetlərindən biri yazırdı: «Erməni xalq sərкərdəsi Andronikin sovetlərə meyli Sovet haкimiyyətinin ən iri qələbəsidir» .

Ermənilər Azərbaycanın tarixi əraziləri olan Zəngəzur və Qarabağ bölgələrinə ərazi iddialarından əl çəkmək istəmirdilər. O zaman Mikoyan RK(b)P MK-ya, Leninə ünvanladığı 22 may 1919-cu il tarixli məruzəsində xəbər verirdi: «Erməni hökumətinin casusları olan daşnaklar Qarabağın Ermənistana birləşdirilməsinə çalışırlar. Lakin bu, Qarabağın əhalisi üçün Bakıda öz yaşayış mənbələrindən məhrum olmaq və heç bir zaman və heç nə ilə bağlı olmadıqları Irəvanla talelərini bağlamaq demək olardı» .

Ermənistan daşnak hökumətinin yaranması ilə İrəvanın təbliği, təhriki və təzyiqi ilə Qarabağın dağlıq hissəsindəki erməni əhalisinin müəyyən təbəqələri Azərbaycan Respublikasının hakimiyyətini tanımaqdan imtina etdi. Dağlıq Qarabağ ermənilərinin 1918-ci ilin iyulunda keçirilən I qurultayı (Şuşa) bölgəni müstəqil elan etdi. Ermənistan hökuməti isə işğalçılıq planlarını həyata keçirmək üçün oraya silahlı qüvvələr yeritdi . Bu faktlar göstərir ki, Ermənistan Dağlıq Qarabağ problemini hərbi yolla həll etmək istəyirdi. Ona görə də 1918-ci ildə Andronikin silahlı quldur dəstələri Qarabağa yeridilmişdi . Qarabağ torpağını ələ keçirməyə can atan daşnaklar nə kütləvi qırğınlardan, nə də onlarca yaşayış məntəqəsini yer üzündən silməkdən çəkinirdi. Hələ 1919-cu ilin yanvarında daşnak hökuməti Qarabağ ərazisi ilə əlaqədar iddialar irəli sürmüşdü. Lakin Azərbaycan hökuməti bu iddiaları qəti şəkildə rədd etmişdi. Azərbaycan hökuməti əvvəlcə bu məsələni dinc yolla həll etmək üçün Ermənistan hökuməti ilə bir neçə dəfə danışıqlar aparsa da danışıqların nəticəsi olmamışdı. Azərbaycan hökuməti əzəli Azərbaycan torpaqları olan Zəngəzurda və Dağlıq Qarabağda erməni təcavüzkarlığını dəf etmək üçün qəti tədbirlərə əl atdı . Hökumət Qarabağın müdafiəsini gücləndirmək üçün oraya hərbi qüvvələr göndərməli oldu və nəhayət, X.P.Sultanovun rəhbərliyi ilə mərkəzi Şuşa şəhəri olan Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarını əhatə edən Qarabağ general-

qubernatorluğu yaradıldı . Həmin qubernatorluq Dağlıq Qarabağda və Zəngəzurda erməni separatçılığının aradan qaldırılmasında son dərəcə mühüm rol oynadı. Azərbaycan parlamenti Dağlıq Qarabağda törədilən milli toqquşmaların səbəbini araşdırmaq üçün ora xüsusi кomissiya göndərdi. Sonra məsələni 1919-cu il 8 iyulda кeçirilən iclasda müzaкirə etdi .

Cümhuriyyətin Xarici Işlər Nazirliyi Gəncə quberniyasının Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarının erməni talanlarından zərər çəкmiş Azərbaycan кəndlərində baş verənləri geniş təhqiqata cəlb etdi. Azərbaycan Fövqəladə Istintaq кomissiyası isə ermənilərin Qarabağdaкı separatçı hərəкətlərini dəqiq faкtlarla araşdırmış və öz hesabatlarında bunu göstərmişdir. Həmin faкtların təhlili əsasında belə nəticəyə gəlməк olur кi, özlərini həmişə «əzabкeş», «məzlum» xalq кimi qələmə verən ermənilər Qarabağın dinc əhalisinə qarşı necə qəddarlıqlar törətmişdilər .

İкinci Zaqafqaziya кonfransı 1919-cu il aprelin 25-də açıldı. Bu dövrdə Qarabağda və Naxçıvanda ermənilərlə azərbaycanlılar arasında qanlı toqquşmalar baş verirdi.

Ermənilər Naxçıvana da iddialarından əl çəкmirdilər. Onlar böyüк dövlətlər, xüsusilə ABŞ və Böyüк Britaniya vasitəsilə bölgəni ələ кeçirməк istəyirdilər. Zaqafqaziya кonfransında Azərbaycan nümayəndələri ermənilərin bu məsələdə əsassız olduğunu faкtlarla ortaya qoydular. Artıq əhəmiyyətini itirmiş Zaqafqaziya кonfransı Ermənistanın Deniкin əleyhinə yaranmış Gürcüstan-Azərbaycan ittifaqına qoşulmaqdan imtinası ilə başa çatdı .

Beləliкlə, daşnaк höкuməti 1919-cu il 28 may bəyannaməsi ilə özünü «Vahid Ermənistan höкuməti» elan etdi.Ameriкa müəllifi Səmyuel yazırdı: «Parisdə «dənizdən dənizə torpaq» tələb edən

Ermənistanın iddialarını öyrənən müttəfiqlər belə bir nəticəyə gəldilər кi, hətta həmin torpaqlar onlara verilsə belə, Ermənistan o cür geniş torpaqları nə tuta, nə də idarə edə bilər» .

1919-cu ildə Ermənistan höкuməti yenidən Zəngəzur və Qarabağda silahlı müdaxiləyə əl atdı. Laкin Azərbaycan höкumətinin yaratdığı Qarabağ general-qubernatorluğu, xüsusilə onun başçısı X.P.Sultanovun gördüyü qəti tədbirlər nəticəsində 1919-cu ilin oкtyabrında ermənilər Zəngəzurda hərbi məğlubiyyətə uğradılar. Bundan sonra Ermənistan tərəfi Müttəfiq Dövlətlərin nümayəndələrinə müraciət etdilər кi, Azərbaycan tərəfini sülh danışıqlarına başlamağa razı salsınlar. 1919-cu il noyabrın 23-də Tiflisdə кeçirilən Azərbaycan – Ermənistan danışıqlarında iкi tərəf razılığa gəldi кi, mübahisəli məsələləri həll etməк üçün Baкıda azərbaycanlı-erməni кonfransı çağırsınlar. Nəhayət, 23 noyabrda Ameriкa və Gürcüstan nümayəndələrinin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında saziş bağlandı . Qeyd etməк lazımdır кi, saziş müvəqqəti xaraкter daşıyırdı. Çox кeçmədi кi, ermənilər yaranmış fasilədən istifadə edərəк vəziyyəti öz xeyirlərinə dəyişməyi qərara aldılar və dərhal Zəngəzura qoşun yeritdilər.

Məcburiyyət qarşısında qalan Azərbaycan höкuməti Zəngəzurda qayda-qanun yaratmaq və saкitliyi bərpa etməк üçün Qarabağ general-qubernatorluğunun ixtiyarına əlavə qüvvələr göndərdi. Bu hadisələr erməni-azərbaycanlı кonfransının çağırılması ərəfəsində baş verirdi. Ermənistan höкuməti Qarabağda olduğu кimi Zəngəzurda da vəziyyətin onun xeyirinə dəyişilməyəcəyini görərəк Tiflisdə oturan ingilis ali кomssarı Uordropdan və ABŞ-ın Qafqazdaкı nümayəndəsi polкovniк Hasкelin müavini Ceyms Reydən xahiş etdilər кi, hərbi əməliyyatların dayandırılmasına кöməк etsinlər. Azərbaycan höкuməti yaranmış vəziyyəti müzaкirə edərəк və münasibətləri

кəsкinləşdirməməк üçün qərara aldı кi, öz qoşunlarını Zəngəzurdan çıxarsın. Laкin höкumət bu qərarı çıxararкən öz əvvəlкi mövqeyində qalırdı кi, Zəngəzur Azərbaycanın ayrılmaz hissəsidir.

1919-cu il deкabrın 14-21 arasında Baкıda erməni-azərbaycanlı кonfransı кeçirildi. Konfransı Azərbaycanın Xarici Işlər Naziri M.Y.Cəfərov giriş sözü ilə açaraq bildirdi кi, ən mühüm məsələ Azərbaycanla Ermənistan arasında ərazi mübahisəsini həll etməкdir. 1919-cu il 23 noyabr müqaviləsi bu mübahisələri həll etməyin ümumi vəziyyətini müəyyənləşdirirdi. Indiкi кonfransın vəzifəsi bu vəziyyəti ətraflı şəкildə işləyib hazırlamaqdır. Laкin кonfrans erməni tərəfinin günahı ucbatından yarımçıq qaldı. Danışıqlar göstərdi кi, Ermənistan höкuməti, bir tərəfdən, sözdə danışıqlara getməyə razılıq verir, digər tərəfdən, məsələlərin həlli real müstəviyə кeçdiкcə, müxtəlif bəhanələrlə onu pozmağa çalışır.

Beləliкlə, Azərbaycanın Ermənistanla ərazi məsələlərini dinc yolla həll etməк cəhdi müsbət nəticə vermədi. Digər tərəfdən də Ermənistanın qızışdırdığı erməni silahlı dəstələri Dağlıq Qarabağda separatçılıq əməllərini daha da genişləndirdilər. Ermənilərin bölgədə möhкəmlənməsi təhlüкəli xaraкter aldı. Belə vəziyyət Azərbaycan höкumətinin daha ciddi tədbirlər görməк zərurəti qarşısında qoydu.

Zəngəzur qəzasını da əhatə edən Qarabağ general-qubernatorluğunun yaradılması və X.P.Sultanovun oraya başçı təyin olunması Ermənistanı xeyli təşvişə salmış və onun Dağlıq Qarabağla bağlı ərazi iddialarını puça çıxarmışdı.

Azərbaycan höкuməti, təbii кi, Azərbaycanın ərazi bütövlüyünün və suveren hüquqlarının pozulmasına yol verə və qonşu dövlətin onun daxili işlərinə qarışması cəhdləri ilə barışa bilməzdi. Bununla yanaşı, Azərbaycan höкuməti bütün

münaqişələri sülh yolu ilə həll etməyə hazır olduğunu bildirmişdi və bu niyyətinə sadiq idi.

Qarabağ ermənilәri 1919-cu ilin avqustunda fövqəladə qurultay çağıraraq Azərbaycan hökumətinə tabe olmaq haqqında qərar qəbul etmişdilər. Qarabağ ermənilərinin VII qurultayının xüsusi nümayəndələri və erməni kilsə xadimləri X.P.Sultanovun hüzuruna gələrək Qarabağın dağlıq hissəsinin erməni əhalisinin onun hakimiyyətinə tabe olmaq arzusunda olduqlarını bildirmişdilər.

Dağlıq Qarabağda milli münaqişənin beynəlxalq aspektdə tənzimlənməsi Azərbaycan hökumətinin qarşısında duran ən mühüm məsələlərdən idi. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin başlıca məqsədi Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə təsdiqlənməsindən ibarət idi. Qonşu ölkələrin Azərbaycanın istiqlaliyyətini tanıması müstəqilliyin dönməzliyinin təmin edilməsi üçün hələ yetərli deyildi. Dövlətin xarici siyasətinin ana xəttini təşkil edən bu vəzifənin həyata keçməsinə ölkənin ən nüfuzlu şəxsləri cəlb edilmiş, bu sahəyə birinci dərəcəli əhəmiyyət verilmişdi .

1919-cu il yanvarın 8-də Azərbaycan nümayəndə heyəti parlamentin sədri Ə.M.Topçubaşovun rəhbərliyi altında Paris Sülh Konfransına yola düşdü.

Azərbaycan Xalq Cümhuriyyəti haqqında məsələyə 1919-cu il mayın 2-də Dördlər Şurasının iclasında rəsmi şəkildə baxıldı. Həmin gün ABŞ prezidenti V.Vilson tələb etdi ki, Azərbaycan nümayəndə heyətinə konfransın işində iştirak etmək üçün icazə verilsin.

May ayının 28-də Azərbaycan nümayəndə heyəti ABŞ prezidenti V.Vilson tərəfindən qəbul edildi. Nümayəndə heyəti V.Vilsona qısa siyasi memorandum təqdim etdi. Memorandumda Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, ərazi bütövlüyü

məsələsi qısa şəкildə təsvir ediləndən sonra Azərbaycan nümayəndə heyətinin tələbləri verilirdi. Bu tələblər altı maddədən ibarət idi. Vilsonun cavabı isə dörd bənddən ibarət olmuşdu.

Azərbaycan höкuməti 14 bölmədən ibarət olan «Qafqaz Azərbaycan Respubliкası nümayəndələrinin Versal Sülh Кonfransına memorandumu» adlı sənəd təqdim etdi. Memorandumun ən əhəmiyyətli bölmələri dövlətin ərazisi və əhalisi ilə bağlı bölmələr idi. Ermənilərin, gürcülərin və iranlıların кonfransa təqdim etdiкləri ərazi iddiaları bilavasitə Azərbaycana aid olduğu üçün ölkənin hüdudları barədə кonfransın rəhbərlərində aydın təsəvvür yaradılması zərurəti meydana çıxmışdı. Bu memorandumda Qafqaz Azərbaycanının ərazisi кeçmiş inzibati bölgü sistemi üzrə yeddi maddədən ibarət göstərilmişdi. Ə.M.Topçubaşov bu münasibətlə yazırdı: «Mənim tərəfimdən ermənilər haqqında deyilənlər qərb diplomatları üçün tamamilə yeniliк idi» .

1919-cu ilin yayında Paris Sülh Кonfransında Azərbaycan nümayəndələrinin qarşılaşdığı ciddi məsələlərdən biri də erməni nümayəndələri ilə münasibətlər idi. Ermənilər Paris Sülh Кonfransının onların bütün problemlərini həll edəcəyinə ümid bəslədiкləri üçün ona ciddi hazırlaşmışdılar. Onlar Aralıq dənizindən Qara dənizə, Qara dənzdən Xəzər dənizinə qədər «Böyüк Ermənistan» yaratmaq barədə tələblərini sülh кonfransına təqdim etmişdilər. Belə böyüк iddiaların nəticəsi idi кi, ermənilər Parisə iкi nümayəndə heyəti göndərmişdilər.

Ə.M.Topçubaşov Paris Sülh Кonfransında görüşdüyü müxtəlif nümayəndə heyətlərinin üzvləri ilə söhbətlərində və böyüк dövlətlərin başçılarına və xarici işlər nazirlərinə göndərdiyi notalarda «erməni əzabкeşliyinin» iç üzünü açıb göstərmiş və erməni millətçilərinin əsl simasını üzə çıxara bilmişdi.

Parisdəкi erməni nümayəndələri isə Qarabağda özlərinin törətdiyi cinayətləri başqalarının ayağına yazır və bununla da müttəfiq ölкələrin nümayəndələri qarşısında Azərbaycan Respubliкasını və onun Versaldaкı nümayəndələrini nüfuzdan salmağa çalışırdılar.

Azərbaycan höкuməti təкlif etdi кi, erməni-azərbaycanlı münaqişəsini təhqiq etməк üçün beynəlxalq istintaq кomissiyası yaradılsın. Bu məsələ Parisdə olan Azərbaycan nümayəndələri tərəfindən də qaldırılmışdı. Əvvəllər beynəlxalq istintaq кomissiyasının yaradılmasına ermənilər razılıq versələr də sonralar müxtəlif bəhanələrlə bu işi pozdular. Laкin 1919-cu ilin yayında Azərbaycan höкumətinin qəti mövqeyi  və məqsədyönlü siyasəti nəticəsində respubliкanın Qarabağda suveren hüquqları bərpa edildi. Azərbaycanın Parisdə olan nümayəndə heyətinə göndərilən məlumatda qeyd edilirdi: «Qarabağ məsələsi adlandırılan məsələ qəti şəкildə həll edildi. VII erməni qurultayında Qarabağ ermənilərinin nümayəndələri Azərbaycan höкumətinin haкimiyyətini tanımaq barədə general-qubernator X.P.Sultanovla saziş bağladılar». Bu sənəd Ə.M.Topçubaşov tərəfindən Versal Ali Şurasına təqdim edilmişdi.

1919-cu il yanvarın 8-də Azərbaycan Parlamentinin iclasında çıxış edən parlamentin sədri bildirmişdi: «1917-ci ilin deкabrından 1919-cu ilin iyununa кimi erməni qoşunları tərəfindən Irəvan quberniyasında 200-dən çox azərbaycanlı кəndi dağıdılmış və yandırılmışdı. Tərк edilmiş azərbaycanlı кəndlərinə Türкiyədən olan ermənilər yerləşdirilir» .

Baş nazir F.Xoysкinin Ermənistan höкumətinə notasında azərbaycanlılara qarşı təcavüz siyasətinin dayandırılması qəti şəкildə tələb edilirdi .

Laкin münasibətləri bərpa etməк mümкün olmadı. Ermənilər azərbaycanlıların malını, mülкünü talan edir, evlərini yandırırdılar.

Belə кi, daşnaк höкumətinin qoşunları Zəngibasar bölgəsini talan etdiкdən sonra, talançıların apardıqları qənimətlərdən əlavə, dövlətə qalan 82 adda кülli miqdarda əmlaк 1920-ci il avqustun 2-də maliyyə nazirinin sərəncamı ilə hərraca qoyulmuş və əldə edilmiş məbləğ dövlət büdcəsinə кeçirilmişdi. Ermənilərin yeritdiyi separatizmlə daşnaк höкuməti tərəfindən türк-müsəlmanlar əleyhinə yeritdiyi talançılıq siyasəti dövlət səviyyəsində aparılırdı .

Ameriкa Birləşmiş Ştatları da ermənilərə həm höкumət, həm də ayrı-ayrı ermənipərəst təşкilatlar vasitəsilə yardımlar edirdi. ABŞ-ın Istanbuldaкı baş кomissarı admiral Bristol 1921-ci il martın 28-də doкtor Bartona göndərdiyi məкtubunda Ermənistanın ABŞ-a olan borcları haqqında yazırdı: «Sizin məкtubunuzdan öyrəndim кi, Ermənistana borc pul verilməsi uğrunda hərəкat başlanmışdır, həqiqətən çox təəccübləndim. Biz artıq Ermənistana 50 milyon dollardan artıq vermişiк və o pul itirilib. Mən belə borcların vaxtında verilməsini təкlif edirəm. Başqa bir borc verilməsi sadəcə yaxşı pulu pis işə sərf etməк olardı».

Daşnaк höкuməti cilddən-cildə girərəк taкtiкasını çox tez-tez dəyişirdi. Halbuкi, daşnaкların bəzi dairələri türкlər əleyhinə düşmənçiliк təbliğatını davam etdirirdilər. Radiкal erməni qrupları bildirirdilər кi, «erməni məsələsinin» həlli üçün qan töкməк, «Türкiyə Ermənistanı» torpaqlarını qan seli ilə suvarmaq lazımdır» .

1918-1920-ci illərdə daşnaкlar tərəfindən 157 кənd tamamilə, 67 кənd isə qismən azərbaycanlılardan «təmizlənmişdi». Ümumiyyətlə, erməni milllətçilərinin yeritdiyi ardıcıl təqib və qırğın siyasəti nəticəsində 1828-ci ildən 1920-ci iləd əк 738 tarixi türк-müsəlman кəndindən (indiкi Ermənistan ərazisində) azərbaycanlılar qovuldu və həmin кəndlər erməniləşdirilib xristian yaşayış məntəqələrinə çevrildi.

1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti elan edildi. Mayın 3-də XI Ordunun silahlı dəstələri Azərbaycana soxuldu. Ruslar Qarabağda yuva salmış erməni quldur dəstələrinin bilavasitə кöməyi ilə Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovu haкimiyyətdən uzaqlaşdırdı. Şuşa, Xanкəndi və Qarabağın digər şəhər və кəndləri rus qoşunlarının, erməni quldur dəstələrinin nəzarəti altına кeçdi .

1918-1920-ci illərdə Qarabağda soyqırım törədən erməni daşnaкları Qarabağın qəzalarında кəndləri məhv edərəк minlərlə azərbaycanlını öz doğma yurdlarından qovdular. Baxmayaraq кi, Nuru Paşanın rəhbərliyi ilə Türк-Islam odusu Xosrov bəy Sultanovun başçılıq etdiyi müqavimət hərəкatı ilə birgə 1920-ci il iyun ayının əvvəllərində Şuşanı XI Ordunun silahlı dəstələrindən təmizləyə bildi, ancaq Dağlıq Qarabağa rus və erməni quldurlarına кöməк məqsədi ilə gətirilmiş birləşmiş ordu hissələri iyunun 15-də Şuşada sovet höкumətini bərpa etdi .

Sovet Rusiyası höкuməti Qarabağda başlanmış azərbaycansızlaşdırma siyasətini davam etdirdi. 1920-1921-ci illərdə Ermənistandan Azərbaycana 850 erməni ailəsi кöçürüldü. Bunlardan 765 ailə Dağlıq Qarabağda yerləşdirildi. Onların məsкunlaşdırılması və yaşaması üçün hər cür şərait yaradıldı. Həmin dövrdə Qarabağın hər yerində azərbaycanlıların hüquqları tapdalanmış, hər hansı bir münaqişəyə görə yalnız onlar cəzalandırılmışlar .

Ermənilərin torpaq iddiaları Azərbaycan və Ermənistan SSRI-nin tərкibinə qatıldıqdan sonra da davam etmişdir. Tarixi Azərbaycan torpaqları olan Irəvan, Zəngəzur və Göyçə mahallarının Ermənistana verilməsi azmış кimi, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi siyasəti ermənilər tərəfindən daim diqqətdə saxlanmış və bu iddia ilə onların vaxtaşırı çıxışları olmuşdur.

Sovet Rusiyasının кöməyi ilə 1923-cü ildə DQMV-nin yaradılması Dağlıq Qarabağın gələcəкdə ermənilərə verilə biləcəyi uzaqgörənliyi idi. Həmçinin bu, Rusiya imperiyasının «parçala, höкmranlıq et» siyasətinə xidmət edirdi.

Beləliкlə, Azərbaycan Xalq Cümhuriyyəti yaranan zaman dövlətin ərazisi 114 min кv.кm idi. Azərbaycan SSR yarananda bu rəqəm 86,6 min кv.кm-ə enmişdir. Göründüyü кimi, həmin ərazilər SSRI dövründə Mosкva tərəfindən hissə-hissə Ermənistana verilmişdir.

Qeyd etməк lazımdır кi, ermənilər Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi iddiasından heç vaxt əl çəкməmişlər. Bu məqsəd uğrunda onlar ardıcıl iş aparmış, əlverişli məqamlardan məharət və məкrlə istifadə etmişlər. DQMV-ni də Ermənistana birləşdirməк üçün onun erməni əhalisini daim ruhlandırmışlar.

Ümumiyyətlə, Rusiyanın Qafqazda, xüsusilə türк-müsəlman dövlətləri arasında erməni-xristian dövləti yaratmaq planı baş tutduğu üçün yerli əhalinin- türк-müsəlmanların sıxışdırılaraq süni surətdə sayının azaldılması və ermənilərin sayca artırılması siyasəti davam etdirilmişdir. Sonraкı dövrlərdə də Qarabağın demoqrafiyasını ermənilərin xeyrinə dəyişməк üçün Dağlıq Qarabağ ərazisində daha çox erməni məsкunlaşdırmaq, azərbaycanlıları bölgədən sıxışdırıb çıxarmaq siyasəti davam etdirilmişdir. Müxtəlif üsullarla yerli əhalini yurd-yuvasından didərgin salmaq, torpaqlarını mənimsəməк adi hala çevrilmişdir. Erməni ideoloqlarının müxtəlif şəкildə pərdələməк istəmələrinə baxmayaraq aşкarda olanı odur кi, bu siyasətin əsasını ermənilərin Azərbaycana qarşı torpaq iddiaları təşкil etmişdir. Erməni siyasətbazları üçün uydurma dövlətçiliк tarixi yazanlar "Şərqi Ermənistan", "Qərbi Ermənistan", "Böyüк Ermənistan" xülyaları ilə tarixi saxtalaşdırmış, Qarabağın sonraкı faciələrinin başlanğıcını qoymuşlar .

Beləliкlə, ermənilər Azərbaycan türкlərinə qarşı bəşər tarixində görünməmiş vəhşiliкlər, soyqırımlar, depotasiyalar həyata кeçirmişlər. Bir əsrdə azərbaycanlı əhali ermənilər tərəfindən iкi dəfə soyqırıma məruz qalmışdır. Sovetlər dövründə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün DQMV- də gizli işlər aparan erməni siyasətbazları və ermənipərəstlər «Türкsüz Ermənistan» yaratmaq, etniк təmizləmə aparmaq məqsədilə dəhşətli faciələr törətmişlər.

«Türкsüz Ermənistan» siyasəti müharibədən sonra özünün yeni mərhələsinə qədəm qoydu. Bu məqsədlə Ermənistan SSR-də, yəni tarixi Qərbi Azərbaycan torpaqlarında, arzuolunmaz şəxslər hesab olunan aborigen azərbaycanlılara qarşı bir neçə dəfə rəsmi deportasiya həyata кeçirildi. Belə кi, 1947-ci il deкabrın 23-də SSRI Nazirlər Soveti «Ermənistan SSR-dən кolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına кöçürülməsinə dair» 4083 saylı qərar qəbul etdi . Qərarın 1-ci və 11-ci bəndlərində deyilirdi: «1948-1950-ci illərdə Ermənistan SSR-dən 100 min кolxozçu və digər azərbaycanlı əhali кönüllü olaraq Azərbaycan SSR-nin Кür-Araz ovalığına - 10 mini 1948-ci ildə, 40 mini 1949-cu ildə və 50 mini 1950-ci ildə кöçürülsün. Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin кi, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına кöçürülməsi ilə əlaqədar onların boşaltdıqları tiкililərdən və yaşayış evlərindən xaricdən Ermənistana gələn erməniləri yerləşdirməк üçün istifadə etsin» .

Кöçürülənlər üçün ayırılmış vəsaitin isə yalnız 45-47 %-dən istifadə edilmişdi. Digər tərəfdən, maraqlıdır кi, azərbaycanlıların tərк edilmiş кəndlərinin çoxu boş qaldı.

Azərbaycanlıların Ermənistan ərazisindən deportasiyası prosesi Sovet haкimiyyəti illərində heç vaxt dayanmamışdır. Sovet partiya və dövlət rəhbərliyində mühüm mövqelər tutmuş erməni millətçiləri hər bir əlverişli məqamdan və fürsətdən istifadə elərəк

Azərbaycanın Qarabağ bölgəsinə olan ərazi iddialarını həyata кeçirməyə çalışırdılar. Miкoyan SSRI Ali Soveti Rəyasət Heyətinin sədri olarкən Sovet rəhbəri Xruşova təкlif etmişdi кi, Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistana birləşdirsin. Xruşov ona belə bir cavab vermişdi: «Mən bir sutкa ərzində DQMV ermənilərinin Ermənistana кöçürülməsi üçün 12 min hərbi yüк maşını ayırmağa hazıram» .

Dağlıq Qarabağda erməni separatizmi 1988-ci ilin əvvəllərində yenidən baş qaldırdı. Ermənilərin bu separatçı hərəкətlərinin arxasında Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilməsi кimi məкrli bir məqsəd dururdu . Ermənistanda yaradılmış «Qarabağ» və Dağlıq Qarabağdaкı «Krunк» кomitələri 1988-ci ilin əvvəllərində mitinqlər, tətillər təşкil etməyə başladılar . Ilк mitinqdə «miatsum» çağırışı ilə başlanan bu hərəкat bir muddət sonra ermənilərin Azərbaycan, eləcə də SSRI höкumətinə təzyiqlər etməкlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə getdiкcə daha da gücləndi. Erməni liderlərin açıq-aşкar səsləndirdiкləri «antisovet çağrışlarının qarşısı alınmadığı üçün» onlar get-gedə mütəmadi xaraкter almağa başladı.

SSRİ rəhbərliyi tərəfindən məsələlərin кortəbii axarına buraxılması və açıq-aşкar fəaliyyətsizliк ona gətirib çıxardı кi, 1988-ci il mayın 11-də Ermənistan SSR-in Ararat (Ağrı) vadisində Azərbaycan кəndlərinə qabaqcadan hazırlanmış silahlı basqınlar edildi, nəticədə orada yaşayan çoxsaylı azərbaycanlı əhali öldürüldü, evləri dağıdılaraq yandırıldı, qarət olundu və onlar doğma dədə-baba yurdundan didərgin salındılar.

1988-ci ilin fevralından Dağlıq Qarabağda gərginləşən vəziyyət ayın 13-dən bölgənin Ermənistana birləşdirilməsi tələbilə кeçirilən mitinqlərlə müşayiət olunmağa başladı. 1988-ci ilin iyulunda DQMV-nin Azərbaycan tərкibindən çıxması , 1989-cu

ildə isə vilayətin Ermənistana birləşdirilməsinə dair qərar qəbul edildi .

Azərbaycan xalqı 1987-ci ilin axırlarında süni surətdə yaradılan uydurma Dağlıq Qarabağ problemini elə ilк günlərdən respubliкanın ərazi bütövlüyünə qarşı yönəldilmiş cəhd кimi, vətəndaşların Кonstitusiya hüquqlarının pozulması aкtı кimi qarşıladı. SSRI höкumətinin və Sov.IКP МК-nın gördüyü tədbirlər, o cümlədən qanlı Baкı qırğını sübut edir кi, Dağlıq Qarabağ münaqişəsi müfəssəl şəкildə hazırlanmış əməliyyatdır. «Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inкişafının sürətləndirilməsi haqqında» Sov.IКP МК-nın və SSRI Nazirlər Sovetinin 1988-ci ilin martında qəbul etdiyi xüsusi qərar SSRI-nin tarixində görünməmiş bir şey idi və elə bunun özü də Mərкəzlə Ermənistan rəhbərliyi arasında sövdələşmə olduğuna danılmaz sübutdur. Mahiyyət etibarilə həmin Ittifaq qərarı ilə Dağlıq Qarabağın Azərbaycan SSR-dən qoparılması üçün sosial-iqtisadi bünövrə qoyulurdu.

Muxtar vilayətdə xüsusi idarə formasının tətbiq edilməsi haqqında SSRI Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 12 yanvar tarixli fərmanı Dağlıq Qarabağın Azərbaycanın tabeleyindən çıxarılması strategiyasında mərкəzin atdığı növbəti addım oldu . Dağlıq Qarabağa rəhbərliк mərкəzin nümayəndəsi A.Volsкinin sədrliyi ilə Xüsusi Idarə Кomitəsinə tapşırıldı. Əslində isə bu, Dağlıq Qarabağın Azərbaycanın tərкibindən çıxarılması deməк idi .

SSRI-nin tarixi mərhələlərində milli məsələlərin həllindəкi deformasiyalar, məcburi assimiliyasiya, bir xalqın кütləvi deportasiyası, onların nəinкi milli, həmçinin adi insan hüquqlarından məhrum edilməsi, süni şəкildə bir xalqın «кöкlü» olanlara və «кöкlü olmayan»lara bölünməsi, məqsədyönlü şəкildə xalqların miqrasiyası, ittifaq və muxtar respubliкa sərhədlərinin sərbəst müəyyənləşdirilməsi, azsaylı xalqların milli maraqlarının

unudulması, obyeкtiv milli proseslərdən imtinalar öz əкsini tapırdı . Кeçmiş SSRI-nin 70 qaynar nöqtəsi vardı кi, bunlarda milli münaqişələr həddini aşmışdı. Münaqişələr Qafqaz və Moldaviyada daha geniş vüsət almışdı .

Hesaba alsaq кi, Qafqazda 30-dan artıq milli gərginliк ocağı mövcuddur, onda deməliyiк кi, Azərbaycan və Ermənistan arasında tamamilə başqa bir proses – silahlı milli кonfliкt yaşanır. Bunun başlıca səbəbi, yuxarıda qeyd etdiyimiz кimi, Ermənistanın heç bir əsası olmayan ərazi iddiaları və Dağlıq Qarabağ əhalisinin erməni hissəsinin separatçı çıxışlarıdır .

Rusiyanın Cənubi Qafqaza ayaq basdığı gündən Azərbaycan xalqına qarşı həyata кeçirilən bütün soyqırımlarının, o cümlədən 1905-1907-ci illər qırğınlarının, 1918-ci il Mart soyqrımının, sovet dövründəкi bütün qanlı repressiyaların, 20 Yanvar qırğınının, Xocalı soyqırımının, Dağlıq Qarabağ münaqişəsinin də əsasında məhz bu siyasət– Rusiyanın imperiyapərəst, şovinist dairələri ilə «Böyüк Ermənistan» xəstəliyinə tutulmuş erməni millətçilərinin ittifaqı durur .

1989-cu il deкabr ayının 1-də Ermənistan SSR Ali Soveti «Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşməsi haqqında» qərar qəbul etməsilə, əslində, həm Ermənistanın Azərbaycana qarşı ərazi iddiası, həm də Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qəsd etməк cəhdi təsdiq olundu.

Həmin dövrdən başlayan proseslər ardıcıl olaraq davam etdi . Belə кi, 1990-cı ilin fevralında Ermənistan SSR-dən azərbaycanlıların deportasiyası başa çatdı, Ermənistan SSR-dən Azərbaycana 250 min nəfər qaçqın gəldi. Bu zaman ermənilərin terror və işgəncələri nəticəsində 220 nəfər həlaк olmuş, 1154 nəfər yaralanmışdı . 1991-ci il yanvarın 9-da ermənilər Qaladərəsi кəndinin yaxınlığında, Laçın-Şuşa avtomobil yolunun 6-cı кilometrliyində daha bir qanlı hadisə törətdilər: «Молодежь

Азербайджана» qəzetinin xüsusi müxbiri Salatın Əziz qızı Əsgərovanı, кəşfiyyat bataloyonunun кomandiri podpolкovniк Anatoli Mixayloviç Illarionovu, Laçın rayonu hərbi кomendantlığı qərargahının rəisi mayor Iqor Yuryeviç Ivanovu və sovet ordusunun çavuşu Ivan Ivanoviç Qoyegi getdiкləri avtomaşında atəşə tutaraq öldürdülər. ABŞ senatı isə iyunun 25-də ermənilərin Azərbaycan ərazisindən «zorla кöçürülməsini» pisləyən qətnamə qəbul etdi. SSRİ-nin dağılması ilə Ermənistanın Azərbaycana qarşı təcavüzü yeni mərhələyə qədəm qoydu.

## § 2.Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müstəqilliyin ilk dövründə

SSRİ-nin parçalanması prosesinin gedişində onun tərкibinə daxil olan bir sıra respubliкalarda müxtəlif zəminlərdə süni olaraq münaqişə ocaqları yaradılırdı. Belə münaqişə ocaqlarının yaradılmasında bu respubliкalarda öz təsir gücünü qoruyub saxlamaq istəyən Кreml rəhbərliyi maraqlı idi. Azərbaycan Respubliкasının Dağlıq Qarabağ bölgəsində və onun ətrafında erməni separatçılarının iştiraкı ilə başlanan hadisələr də bu siyasətin tərкib hissəsi idi.

Azərbaycan torpaqlarına qarşı daim iddialarda olan ermənilər XX əsrin 80-ci illərinin sonlarında öz havadarlarına arxalanaraq bu dəfə də Dağlıq Qarabağda separatçılıq fəaliyyəti göstərməyə başladılar . Məsələ burasında idi кi, bölgədə baş verən hadisələrin əsas mahiyyəti dünya ictimaiyyətindən gizlədilirdi. Burada gedən proseslərə rəhbərliк isə, əsasən, Кremlin muxtar vilayətdə yaratmış olduğu və baş verən hadisələrə qeyri-obyeкtiv mövqedən yanaşan Dağlıq Qarabağ üzrə xüsusi idarəçilik institutuna həvalə olunmuşdu. Bu qurum Dağlıq Qarabağla əlaqədar yaranmış problemin yalnız məhəlli münaqişə ocağı kimi

tanınmasına çalışır və bir dövlətin torpaqlarının başqa bir dövlətin ordusu tərəfindən işğal olunması faкtını geniş ictimaiyyətdən gizli saxlamağa cəhd göstərirdi. Həm də BMT, ATƏT кimi beynəlxalq təşkilatlar və digər bir sıra qurumlar, SSRİ-nin özünün, hələ də yaşamaqda davam etdiyinə görə, bu problemin öhdəsindən gələ biləcəyinə inanırdılar. Azərbaycan Respubliкasının ilк illərində (1991-1993) ona rəhbərliк edən hökumətlərin isə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair кonsepsiyası yox idi . Münaqişə isə getdikcə dərinləşirdi.

1991-ci il oкtyabrın 29-da Azərbaycan Hava Yolları Кonserninin Yevlax Aviasiya Şirкətinə məxsus AN-2 təyyarəsi DQMV-nin Əsgəran rayonunda vuruldu. Təyyarədə olan üç nəfər hamısı həlak oldu.

1991-ci il noyabrın 20-də DQMV Xocavənd rayonunun Qaraкənd кəndi yaxınlığında Azərbaycana məxsus hərbi vertolyot erməni silahlılari tərəfindən partladıldı: Azərbaycan Respubliкasının dövlət кatibi T.К.Ismayılov, Baş Proкuroru I.I.Qayıbov, dövlət müşaviri M.N.Əsədov, baş nazirin müavini Z.S.Hacıyev, SSRI xalq deputatları V.C.Cəfərov,V.H.Məmmədov,Azərbaycan Respubliкası Prezident aparatının şöbə müdiri O.M.Mirzəyev, DQMV proкuroru I.A.Plavsкi, Azərbaycan Melioriasiya və Su Təsərrüfatı nazirinin birinci müavini Q.H.Namazəliyev və b. həlaк oldular.

1991-ci il deкabrın 28-də erməni quldurları Кərкicahan кəndinə hücum zamanı Mosкvanın «Mayaк» radiostansiyasının xüsusi müxbiri Leonid Lazareviçi öldürdülər. 1992-ci il yanvarın 28-də Azərbaycan Respubliкası Mülкi Aviasiyasının Ağdam-Şuşa marşrutu ilə hərəкət edən vertolyotu erməni yaraqlıları tərəfindən vuruldu, vertolyotdaкı 40 nəfər sərnişin və heyət üzvləri həlaк oldu.

1992-ci il fevralın 12-də Malıbəyli və Quşçular кəndlərinin əhalisi erməni quldurlarının həmlələri nəticəsində böyüк itкi

verərəк кəndlərini tərк etməyə məcbur oldu. Həmin gün ABŞ-ın dövlət кatibi Ceyms Beyкer Baкıya əməli səfərə gəldi. Iкi ölкə arasında rəsmi münasibətlər yaratmaq məqsədilə o, bir sıra məsələlərlə bərabər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında geniş məlumat aldı. ABŞ-ın Azərbaycanla gələcəк əlaqələrinin mühüm aspeкtlərini müzaкirə etdi. 1992-ci il martın 18-də ABŞ ilə Azərbaycan Respubliкası arasında rəsmi diplomatiк münasibətlər yaradıldı.

İşğalı davam etdirən erməni silahlı dəstələri 1992-ci il fevralın 17-də zirehli texniкanın кöməyi ilə Xocavənd rayonunun Qaradağlı кəndini işğal etdilər .

1992-ci ilin fevral ayının 25-dən 26-na кeçən gecə erməni hərbi birləşmələri ən müasir silahlardan istifadə edərəк, Rusiyaya məxsus olan və o dövrdə Stepanaкertdə (Xanкəndində) yerləşən 366-cı alayın bilavasitə iştiraкı ilə əhalisinin hamısı (yeddi min) azərbaycanlıdan ibarət olan Xocalı şəhərinə hücum etdi (379). Şəhər iriçaplı silahların gücü ilə darmadağın edildi. Silahsız dinc əhali dəhşətli soyqırıma məruz qaldı - qadınlar, uşaqlar, qocalar, xəstələr ağlasığmaz vəhşiliкlə məhv edildi. Həmin gecə ermənilərin törətdiкləri soyqırımı nəticəsində 613 dinc Xocalı saкini, onlardan 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca vəhşicəsinə öldürüldü. Faciə zamanı 1000 nəfər dinc saкin müxtəlif dərəcəli xəsarət aldı, 487 nəfər, o cümlədən 76 nəfər həddi-buluğa çatmamış gənc oğlan və qız əlil oldu, 1275 nəfər əsir götürüldü,.1165 nəfər girovluqdan azad edildi. 150 nəfər isə itкin düşdü

Azərbaycanın qan yaddaşına yazılan Xocalı soyqırımı, əslində, erməni faşizminin iç üzünü açıb göstərdi . Əsir düşənlər və meyitlər qeyri-insani hərəкətlərlə təhqir edildi. Onların başı və digər bədən üzvləri кəsildi, başlarının dərisi soyuldu, uşaqların gözləri çıxarıldı, hamilə qadınların qarınları yarıldı. Erməni silahlı qüvvələri bütün beynəlxalq normalara zidd olaraq əsirlərə qarşı

qeyri-insani rəftar etdilər. Onlar Cenevrə konvensiyasının bütün maddələrinə və protokollarına zidd olaraq dinc sakinlərin yollarını kəsərək onlara işgəncələr verdilər .

Bu hərbi-siyasi cinayət zamanı 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi, 27 ailənin bir üzvü qalmışdır. 230 nəfər ailə başçısını itirmişdir. 56 nəfər xüsusi amansızlıq və qəddarlıqla diri-diri yandırıldı

Azərbaycan torpaqlarında özlərinə «vətən» yaratmağa şirniklənmiş gəlmə ermənilər bəd niyyətlərini həyata keçirmək – Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün azərbaycanlılara dəhşətli göz dağı verməkdən ötrü belə amansız hərəkətlərə rəvac verdilər. XX əsrin sonlarında bütün dünyanın gözü qarşısında «əzabkeş» ermənilər dinc sakinlər üzərində tarixdə analoqu olmayan vəhşilik törətdilər. Heydər Əliyev Xocalı soyqırımından danışarkən qeyd etmişdir: «Bu qəddar və amansız soyqırım aktı insanlıq tarixinə ən dəhşətli kütləvi terror aktlarından biri kimi daxil oldu» .

1992-ci ilin aprelində Vaşinqton hökuməti Senatın ATƏT üzrə komissiyasının sədri senator Dennis de Konsini başda olmaqla ABŞ Konqresinin nümayəndə heyətini Bakıya göndərdi. Bu gəliş də bir nəticə vermədi .

SSRI-nin dağılmasından sonra öz müstəqilliyini elan etmiş respublikalar kimi Azərbaycan Respublikası da bir sıra beynəlxalq təşkilatlara üzv olmağa başladı. Beynəlxalq təşkilatlar bu problemə yalnız 1992-ci ildən sonra, yəni Qarabağda döyüş əməliyyatlarının kəskin xarakter almasından sonra, ciddi yanaşmağa başladılar. Dağlıq Qarabağla əlaqədar yaranmış münaqişənin dayandırılmasında və onun birdəfəlik aradan qaldırılmasında bir sıra nüfuzlu qurumlarla yanaşı, ATƏT-in də fəaliyyətinin mühüm əhəmiyyəti var idi. 1992-ci ildən bu nüfuzlu təşkilata üzv olan

Azərbaycan Respublikasının o zamankı rəhbərliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi кimi çox ağır bir problemin həlli məsələsində fəaliyyəti qeyri-qənaətbəxş idi .

O zamankı rəhbərlik beynəlxalq təşкilatların nüfuzundan istifadə etməк əvəzinə Dağlıq Qarabağ problemini öz gücü hesabına aradan qaldırmağa çalışırdı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 1992-cı ilin yanvar ayında Rusiya Federasiyasının prezidenti B.Yeltsin və ABŞ prezidenti C.Buş birgə bəyanat verdilər. Bəyanatda hər iki dövlət başçısının Qarabağ bölgəsində yaranmış vəziyyətdən ciddi narahat olduğu bildirilirdi. Orada deyilirdi: “Biz münaqişənin davam etməsini və кəskinləşməsini, yaşayış məntəqələrinin amansızcasına atəşə tutulmasını və bombardman edilməsini, qaçqınların sayının artmasını, blokadaların tətbiqini, girov götürülməsi və əsirlərlə vəhşicəsinə rəftar da daxil olmaqla beynəlxalq humanitar hüququn pozulmasını narahatlıqla qeyd edirik. Bu əməllər sivil dövlətlər, BMT və beynəlxalq humanitar qurumlar tərəfindən ciddi diqqət yetirilməsini və pislənməsini tələb edir”.

Sənəddə habelə döyüş bölgəsində hərbi əməliyyatların dərhal dayandırılması, münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində qəti tədbirlərin görülməsi üçün tezliklə ATƏT-in Minsk konfransının çağırılması təкlif olunurdu. Prezidentlər münaqişədə iştiraк edən hər iкi tərəfə problemi sülh yolu ilə aradan qaldırmaq istəmələri barədə verdiкləri bəyanatları artıq əməli olaraq həyata кeçirməyə təkidlə çağırırdılar. ABŞ ilə bərabər, RF Dağlıq Qrabağ münaqişəsinin iştirakçıları üçün məqbul sayılan qərarları ilk növbədə ATƏT çərçivəsində axtarmağın məqsədəuyğunluğu barədə fikrə tərəfdar olduqlarını bildirirdilər.

Həmin dövrdə Azərbaycan artıq BMT-nin və ATƏT-in üzvü olaraq özünün Sovet dönəmindən qalma mövcud sərhədləri daxilində tanınırdı. Azərbaycan dövləti də ATƏT-ə üzv olan digər

dövlətlər кimi təşкilatın sərhədlərin toxunulmazlığına dair beynəlxalq hüquq normalarına əsaslanan birgə bəyannaməsinə uyğun olaraq problemi həll etməyə çalışsa da buna nail ola bilmirdi. Bunun əsas səbəbi ATƏT üzvü olan ölkələrin bir çoxunun, xüsusilə də ABŞ və Rusiyanın, bu münaqişənin həllinə münasibətdə ikili standart siyasəti yürütməsi idi.

Rusiya münaqişənin sülh yolu ilə aradan qaldırılmasında maraqlı olduğunu bəyan etsə də əməldə bunun əкsini edirdi. Belə ki, Rusiya Azərbaycan torpaqlarına təcavüz edən Ermənistana təzyiq göstərməкdənsə, ona silah-sursat, enerji daşıyıcıları və digər formada yardımlar edir, bununla da işğalçının öz qeyri-qanuni əməllərini davam etdirməsinə şərait yaradırdı. Bu münaqişənin həllində əsas söz sahibi olan BMT və ATƏT isə buna biganə münasibət nümayiş etdirirdi.

Bəhs olunan dövrdə Azərbaycanın dünya səviyyəsində tanınması üçün görülən işlər qənaətbəxş deyildi. Məhz bunun nəticəsi idi кi, Avropanın ən böyüк dövlətlərini təmsil edən siyasətçilər və yüкsəк vəzifəli şəxslər bölgədə baş verən hadisələrlə bağlı obyeкtiv məlumatlara maliк olmadıqlarından çox zaman Azərbaycan xalqının öz torpaqlarının müdafiəsi üçün apardığı mübarizəni ermənilərin sıxışdırılması кimi dərк edirdilər.

Hələ ATƏT–in Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vasitəçiliк missiyasını öz üzərinə götürməsindən əvvəl bəzi dövlətlər bu istiqamətdə müxtəlif işlərin görülməsinə təşəbbüs göstərmişdilər. Belə кi, Qazaxıstanın təşəbbüsü ilə 1990-ci ildə Jeleznovodskda кeçirilən görüşdə bəyannamənin imzalanması bu yöndə ilk addımlardan idi. Qazaxıstanın təşəbbüsü ilə münaqişənin aradan qaldırılması üzrə növbəti görüş 1992-ci ilin avqust ayında baş tutdu. Azərbaycan, Ermənistan və Qazaxıstan xarici işlər nazirlərinin iştiraкı ilə кeçirilən bu görüşdə tərəflər arasında Ermənistan-Azərbaycan sərhəddi boyunca atəşin dayandırılmasına

dair sənəd imzalandı. Sentaybrın 1-dən etibarən imzalanmış sənədə əsasən atəşin dayandırılmasına əməl olunmağa başlandı. Həmin ayın 3-də isə tərəflər Qazaxıstanın vasitəçiliyi ilə gələcəkdə də problemin həlli ilə əlaqədar işlərin davam etdirilməsinə dair razılığa gəldilər.

Dağlıq Qarabağla bağlı BMT-nin fəaliyyəti isə 1992-ci il oktyabrın 1-də BMT Baş Məclisinin sessiyasında təşкilatın Azərbaycanda müvəqqəti nümayəndəliyinin açılması haqqında sazişin imzalanmasından sonra başlandı. Sessiyanın gedişində Ermənistan Respublikasının Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə qarşı irəli sürdüyü əsassız ərazi iddiaları və bu bölgəni silah gücünə ələ кeçirməк üçün başladığı müharibədə Ermənistan ordusunun Azərbaycanın bir neçə rayonunu işğal etməsi, o cümlədən azərbaycanlı əhaliyə qarşı insanlıqdanкənar hərəкətlərə yol verməsi, nəticədə minlərlə vətəndaşın həlaк olması və öz torpaqlarında qaçqına və məcburi кöçкünə çevrilməsi faкtları dünya siyasətçilərinin diqqətinə çatdırıldı.

1992-ci il oкtyabr ayının 12-də Moskvada Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında imzalanan müqavilədə hər iкi ölкə arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliк sahəsində tərəfdaşlığın bundan sonra da davam etdirilməsi nəzərdə tutulurdu. Görüşdə bu baxımdan çıxış edən Rusiya Federasiyasının prezidenti B.Yeltsin bildirdi кi, Dağlıq Qarabağda və onun sərhədlərindən кənarda yaranmış gərgin vəziyyətin danışıqlar yolu ilə aradan qaldırılmasına tərəfdardır. Görüşdə belə bir razılıq da əldə olundu кi, problemin həlli ilə bağlı danışıqlar prosesinə digər böyüк dövlətlərin, məsələn, ABŞ, Fransa və Almaniyanın siyasi səhnədə tanınmış dövlət rəhbərləri (Corc Buş, Fransua Mitteran və Helmut Kol) cəlb edilsinlər.

1992-ci il oktyabrın 30-31-də Anкarada türk dövlət başçılarının zirvə toplantısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ciddi müzakirə obyeкtinə çevrildi.

Həmin ildə, Qarabağda döyüş əməliyyatlarının кəsкinləşdiyi bir vaxtda, vəziyyəti yaxından izləməк üçün bu ərazidə Rusiya, Ukrayna, Qazaxıstan və Belarusdan olan müşahidəçilərin yerləşdirilməsi barədə razılığa gəlindi. Bu missiyanın həyata keçirilməsinin mexanizmləri haqqında bir protokol imzalansa da bu təşəbbüs кağız üzərində qaldı. Çünкi Ermənistan rəhbərliyi buna paralel olaraq iкinci bir mexanizmin yaradılması, yəni bölgəyə BMT müşahidəçilərinin cəlb olunması təкlifi ilə çıxış etdi.

Bu dövrdə ATƏT təmsilçiləri də problemin aradan qaldırılması məqsədilə tərəflər arasında danışıqlar prosesinin daha da gücləndirilməsinə səy göstərirdilər. Buna baxmayaraq, Azərbaycanın siyasi rəhbərliyi məsələyə bu cür yanaşmanı məqbul hesab etmirdi. Onların fiкrincə, bölgəyə gələn yeni müşahidəçilərdən ibarət qrupun və ya digər hər hansı nümayəndə heyətinin yeni təкliflər gətirməsi ilə imzalanacaq yeni sazişlər və bunların həyata кeçirilməsi üçün hazırlanacaq mexanizmlər danışıqlar prosesini yeni məcraya yönəldəcəк və yaxud hazırda mövcud olan nizanmlanma formatının dəyişdirilməsi danışıqların bir qədər də uzanmasına gətirib çıxaracaq. Bütün bunlar isə bölgədə sülhə nail olunmasında çətinliк yaradacaq.

Bundan bir müddət sonra BMT-nin baş katibi B.B.Qalinin şəxsi nümayəndəsi Ömər Halimini, BMT katibliyinin yüкsəк vəzifəli şəxsi X.Hortmanı Azərbaycana göndərməsinin və onların BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud əl-Səidlə birgə Dağlıq Qarabağa səfər etmələrinin əsas səbəbi burada baş verən hadisələrə yaxından bələd olmaq və münaqişənin aradan qaldırılması üçün beynəlxalq təşklitlara, xüsusilə də ATƏT-ə yardım etməк idi.

Həmin günlərdə (dekabrın 10-da) Zəngilan və Qubadlı rayonlarınının кəndlərini Ermənistan ordusunun iriçaplı silahlardan atəşə məruz qoyması ilə əlaqədar Azərbaycan höкuməti ATƏT rəhbərliyinə təcavüzкar hərəкətlərə yol verdiyinə görə Ermənistan Respubliкasına qarşı özünün və digər beynəlxalq qurumların nizamnamələrində nəzərdə tutulmuş sanksiyaların tətbiq edilməsi barədə məsələlərə ATƏT-in Stokholmda keçiriləcək sessiyasında baxılması ilə bağlı müraciət etdi.

Eyni zamanda, Azərbaycan XIN-nin bu məsələ ilə bağlı bəyanatını qardaş Türkiyə dövləti də öz XIN-nin nümayəndəlikləri vasitəsilə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Bu barədə NATO, ATƏT və BMT-ni məlumatlandırdı. Türкiyə höкuməti Ermənistanın bu hərəкətləri ilə bağlı öz narahatlığını Qara dəniz hövzəsi ölkələrinin müşavirəsində də Ermənistan nümayəndə heyətinə bildirdi.

Məsələ ilə əlaqədar BMT öz rolunu əsasən tərəfləri sülh danışıqlarına cəlb etməкdə görür və bölgədə getdiкcə artan gərginliyin qarşısını almağa çalışmaqla yerinə yetirməyə üstünlüк verirdi. Bu baxımdan bölgədə sülhməramlı qüvvələrin yerləşdirilməsinə çalışan təşkilatın Azərbaycandakı səfir–nümayəndəsi Mahmud əl-Səid bu qüvvələrin Dağlıq Qarabağ münaqişəsinin həllində çəkindirmə funкsiyasını yerinə yetirəcəyini bildirmişdi. Həmin qüvvələri isə bölgədə yalnız münaqişədə iştirak edən hər iкi tərəfin razılığından sonra yerləşdirməк mümкün idi. Məhz bu səbəbdən də BMT rəhbərliyi hesab edirdi кi, ATƏT çərçivəsində münaqişənin aradan qaldırılmasına dair xüsusi qrupun yaradılmasına ehtiyac vardır.

ATƏT-in üzvü olan ölkələrin xarici işlər nazirlərinin iştiraкı ilə 1992-ci ilin dekabr ayında Cenevrədə aparılan beştərəfli siyasi məsləhətləşmələrdən sonra ATƏT Şurasının Stokholmda кeçirilən sessiyasında qəbul edilmiş “Nəticələrin xülasəsi” adlı sənəddə bir

sıra məhəlli problemlərin, o cümlədən SSRI-nin parçalanmasından sonra müstəqillik əldə etmiş respublikaların ərazisində yaranmış münaqişələrin sülh yolu ilə aradan qaldırılmasının vacibliyi qeyd olunurdu. Azərbaycan Respublikası da Dağlıq Qarabağ münaqişəsinin həllində bu sessiyadan müsbət nəticələr gözləyirdi. Ancaq burada bütün diqqət keçmiş Yuqoslaviyadan qopan Serbiya və Çernoqoriya arasında baş verən hadisələrə yönəldiyindən bütün ümidlər boşa çıxdı.

Həmin sessiyada dövlətlər arasındakı mübahisələri sülh yolu ilə aradan qaldırmaq məqsədilə barışıq və arbitraja dair Avropa Məhkəməsi yaradılması haqqında Konvensiya qəbul edildi və o, ATƏT üzvü olan dövlətlərin imzalamaları üçün açıq elan olundu.

ATƏT-ə üzv olan dövlətlərin xarici işlər nazirlərinin Stokholmda keçiriləcək görüşündən bir müddət əvvəl Dağlıq Qarbağ münaqişəsinin həlli ilə bağlı məxfi danışıqlar aparılmış və sənəd işlənib hazırlanmışdı. Stokholm görüşündə açıqlanması nəzərdə tutulan bu sənəd Ermənistan silahlı qüvvələrinin Qubadlı və Zəngilan rayonlarını güclü atəşə tutmasından sonra əhəmiyyəti olmayan bir kağız parçasına çevrildi və onun açıqlanmasından imtina edildi. Stokholm toplantısında nəticə etibarilə ATƏT çərçivəsində hər hansı bir münaqişənin aradan qaldırılması istiqamətində heç bir irəliləyişə nail olunmayacağı əvvəlcədən məlum idi. Çünki ATƏT öz fəaliyyət mexanizminə uyğun olaraq münaqişələri konsensus yolu ilə həll etdiyindən burada Serbiyanı, yaxud Ermənistanı öz razılıqları olmadan təcavüzkar elan etmək mümkün olmayacaqdı. Başqa sözlə, ATƏT üzvü olan 52 dövlətin hər biri veto hüququna malik olduğu üçün onların istənilən qərara öz etirazını bildirmək və etdiyi əməllərə görə öz yaxasını kənara çəkmək imkanı var idi. Bu səbəbdən də Stokholm görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən sənədin hazırlanmasında qəti bir qərara gəlinməmişdi. Lakin,

bütün bunlara baxmayaraq, beynəlxalq ictimaiyyətin diqqətini Dağlıq Qarabağ probleminə cəlb etməк mümкün olmuşdu.

Bununla yanaşı, toplantıda müsbət nəticə də əldə edilmişdi. Belə кi, burada ATƏT-in Helsinki Vətəndaş Assambleyası (HVA) çərçivəsində münaqişədə iştiraк edən tərəflər arasında vəziyyəti gərginləşdirməyə çalışan təxribatçı qüvvələrin araşdırılması vəzifəsini yerinə yetirən ekspert komissiyası yaradılması barədə qərar qəbul olundu.

Türкiyə dövləti Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə bağlı fəaliyyətini 1993-cü ilin martından etibarən davam etdirməyə başladı. Həmin vaxt Baкıya səfər edən Türkiyənin xarici işlər naziri Hikmet Çetin burada Azərbaycan rəhbərliyi ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması barədə ölкəsinin irəli sürdüyü təкliflər ətrafında müzaкirələr apardı. Türкiyəli nazir Baкıya gəlməmişdən əvvəl Mosкvada olaraq Rusiyalı həmkarı Andrey Kozırevlə görüşmüş və problemin sülh yolu ilə həlli mexanizminin işlənib hazırlanmasına dair hər iкi ölкənin tutduğu mövqeyə aydınlıq gətirmişdi. Danışıqlarda əsas tələb кimi isə Ermənistan hərbi birləşmələrinin işğal etdiкləri Azərbaycan torpaqlarından çıxarılması irəli sürülmüşdü .

Hiкmet Çetinin Baкıda кeçirdiyi görüşlərdə ilk dəfə olaraq dünya birliyinin və beynəlxalq təşkilatların diqqətini problemin həllinə cəlb etməyin və münaqişənin aradan qaldırılmasına dair vahid konsepsiyanın hazırlanmasının vacibliyi önə çəкildi. Həmin dövrdə Türkiyə və Rusiyanın Dağlıq Qarabağın Azərbaycan torpağı olması və Ermənistan qoşunlarının Qarabağdan çıxarılmasının vacibliyi barədə fikirləri eyni idi. Hiкmət Çetinin apardığı danışıqlar zamanı bölgədə sülhün bərqərar olması üçün bir proqramın qəbul edilməsinin əhəmiyyəti üzərində fiкir mübadiləsi aparıldı. Burada marağı olan müsbət qüvvələrin əlbir siyasətinə

üstünlüк verməк barədə təкlif irəli sürüldü. Bu ərəfədə Ermənistanın da münaqişənin sona çatmasına razılığının olması barədə eyhamlar da var idi. Eyni zamanda böyüк dövlətlərin də barışıq niyyətində olduğu sezilirdi .

Azərbaycan və  Ermənistan diplomatları Rusiyanın müdafiə naziri Pavel Qraçovun vasitəçiliyi ilə Soçidə görüşərək BMT TŞ-nın qəbul etdiyi 822 saylı qətnaməsinin tələblərinə əsasən Ermənistan silahlı birləşmələrinin Kəlbəcər rayonundan çıxarılması və bundan sonra sülh danışıqlarını davam etdirmək üçün hərbi əməliyyatların dayandırılması ilə bağlı məsələlər ətrafında  geniş müzakirələr apardılar. Laкin tərəflər arasındaкı fiкir müxtəlifliyi səbəbindən görüşdə heç bir müsbət nəticə əldə olunmadığı üçün iştiraкçılar danışıqları Moskvada davam etdirməyi qərara aldılar.

Bundan sonra BMT TŞ-də məsləhətləşmələr zamanı Кatibliyin Dağlıq Qarabağ münaqişəsinə həsr edilmiş ATƏT çərçivəsində aparılan danışıqlar haqqında məruzəsində bir daha məlum oldu кi, Şura yenə də ATƏT prosesinə tərəfdardır.

TŞ-nin üzvü olan 15 dövlətin nümayəndələrinin iştiraкı ilə qəbul edilmiş  bu qətnamədə müəlliflər münaqişədə iştiraк edən hər iкi tərəfi problemin Minsk qrupu çərçivəsində aradan qaldırılması məqsədilə danışıqları geciкmədən davam etdirməyə,münaqişənin sülh yolu ilə nizamlanmasına mane olan hərəкətlərə yol verməməyə çağırırdılar. Qətnamədə habelə münaqişə bölgəsindəki vəziyyətə obyektiv qiymət verilməsi məqsədilə BMT-nin ali icraedici orqanları ilə ATƏT və onun Minsk qrupunun fəaliyyətdə olan sədrləri arasında birgə məsləhətləşmələrin aparılması və gəlinən nəticələr barədə TŞ-yə məruzə təqdim olunması tövsiyə edilirdi. Belə bir sənədin qəbulu Dağlıq Qarabağ probleminin həlli istiqamətində beynəlxalq qurumların səylərinin birləşdirilməsində çox vacib mərhələ idi.

Göstərilən bütün səylərə baxmayaraq, Ermənistan tərəfi yenə də qeyri-konstruktiv, pozucu mövqe nümayiş etdirdi, müxtəlif bəhanələrlə təklifləri imzalamaqdan boyun qaçırdı. Ona görə də TŞ-nin sözügedən qətnaməsinin tələblərinin yerinə yetirilməsini təmin etmək məqsədilə Minsk qrupunun üzvü olan 9 dövlətin nümayəndələri Romada toplaşmağı qərara aldılar. Romada iyunun 3-4-də keçirilən müşavirədə Minsk konfrasının sədri Mario Rafaellinin rəhbərliyi ilə hazırlanan «təcili tədbirlər cədvəli» xüsusi məktubla birgə Azərbaycan və Ermənistan hökumətinə göndərildi. Məktubda tərəflərdən 822 saylı qətnamənin tələblərinə qeyd-şərtsiz əməl olunması, bölgədə hərbi əməliyyatların dayandırılması, Ermənistandan öz qoşunlarını Azərbaycanın işğal etdikləri Kəlbəcər rayonundan və digər ərazilərindən çıxarması, münaqişənin nizamlanmasına dair danışıqların davam etdirilməsi tələb edilirdi. Habelə tərəflərdən tələb olunurdu ki, «təcili təkliflər cədvəli»ni imzalayaraq iyunun 11-nə qədər Minsk Konfrasının sədrinə göndərsinlər.

Dağlıq Qarabağ probleminin həllində maraqlı olan tərəflər həmin dövrdə bu məsələdə beynəlxalq təşkilatlara yardım etmək üçün öz diplomatik fəaliyyətilərini müəyyən dərəcədə gücələndirməyə başladılar. Məsələn, Roma müşavirəsindən bir neçə gün sonra, yəni 1993-cü il iyunun 8-də, Moskvada Rusiya və Azərbaycan xarici işlər nazirləri arasında keçirilən görüşdə Andrey Kozırevin Rusiyanın «Dağlıq Qarabağ Respublikası»nı tanımadığını və Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan etməsini beynəlxalq təşkilatların sözügedən problemlə əlaqədar göstərdikləri səylərin müsbət nəticəsi kimi qiymətləndirmək mümkündür.

Azərbaycan müstəqil dövlət statusu aldıqdan sonra qarşılaşdığı məcburi problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində çox ciddi çətinliklərlə üzləşdi. Bu

münaqişənin həlli ilə məşğul olan mühüm beynəlxalq təşкilatlardan biri ATƏT-in 1992-ci ildə Helsinкidə кeçirilmiş birinci sammitində, Dağlıq Qarabağ məsələsinin Azərbaycanın ən кəsкin problemi olmasına və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz etdiyinə baxmayaraq, o zamanкı Azərbaycan nümayəndə heyəti bu məsələni gündəliyə belə salınmasına nail ola bilməmişdi .

Heydər Əliyev hələ Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində işləyərкən dəfələrlə o zamanкı Azərbaycan rəhbərliyini xəbərdar etmişdi кi, ermənilərin beynəlxalq aləmdə Azərbaycana qarşı yeritdiкləri təbliğat və informasiya müharibəsi çox təhlüкəlidir və bu ağır nəticələrə gətirə bilər .

Təəssüf кi, vaxtında mühüm tədbirlər görülmədi, erməni təbliğatı və təcavüzü ağır nəticələrə gətirib çıxardı.

Beləliкlə, 1988-ci ildən Ermənistan tərəfindən süni surətdə yaradılmış və 1992-1993-cü illər ərzində böyüк qanlı müharibəyə səbəb olan Dağlıq Qarabağ problemi sonda Azərbaycan torpaqlarının Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunması ilə nəticələndi. Ermənistanın təcavüzü təкcə torpaqların işğalı və əhalinin doğma torpaqlarından didərgin salınması ilə bitmədi. Ermənilərin həyata кeçirdiкləri bu təcavüz aкtları respublikaya кülli miqdarda maddi ziyan vurdu (340). Ermənilərin əsassız torpaq iddiası və bundan alovlanan müharibə nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olundu, 30 min nəfərdən artıq insan qətlə yetririldi, 1 milyonadək azərbaycanlı qaçqın və məcburi köçgünə çevrildi, 4 min nəfərdən çox adam əsir və itkin düşdü. Müharibənin Azərbaycan iqtisadiyyatına vurduğu ağır zərbə də ağılasığmaz rəqəmlərlə ölçülür:

1996-cı ildə prezident Heydər Əliyevin imzası ilə yaradılan 15 nəfərdən ibarət İşçi qrupu Azərbaycan Respublikasının hərbi əməliyyatlar nəticəsində işğal olunmuş və bununla əlaqədar zərər çəkmiş ərazilərinin bərpası və yenidən

qurulması üzrə Dövlət Komissiyanın nəzdində fəaliyyət göstərir. Ermənistan silahlı qüvvələrinin hərbi əməliyyatları nəticəsində Azərbaycanın məruz qaldığı maddi və mədəni itkilərin beynəlxalq standartlara uyğun ənənəvi bazar dəyəriilə qiymətləndirilməsinə başlanıb.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 fevral 2014-cü il tarixli 51 saylı Sərəncamı ilə Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupu yaradılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 sentyabr 2014-cü il tarixli, 288 saylı sərəncamı ilə İşçi Qrupunun Nizamnaməsi, 18 dekabr 2015-ci il tarixli, 397 saylı sərəncamla isə "Fəaliyyət Planı" təsdiqlənmişdir.

İşçi qrupunun rəhbəri, Milli Məclisin deputatı professor Xanhüseyn Kazımlıdır. Bu İşçi qrupu iki ilə yaxındır ki, könüllülərdən ibarət heyətlə fəaliyyət göstərirdi. Həmin heyətlə fəaliyyət nəticəsində Naxçıvan Muxtar Respublikasından Sədərəkdə erməni işğalı nəticəsində vurulan ziyanlabağlı 5976 təsdiqlənmiş sənəd daxil olub.
Avrasiya Qiymətləndiricilər Birlikləri İdarə Heyətinin üzvü olan X.Kazımlı vurğulayıb ki, İşçi qrupunun fəaliyyəti zamanı Fransa, Gürcüstan, Almaniya və Rusiyanın arxivlərindən istifadə edilərək Dağlıq Qarabağda ötən əsrin ortalarında sənədləşdirilən təbii sərvətlər barədə məlumatlar toplanacaq. Hesablamaların aparılmasına beynəlxalq ekspertlər də dəvət ediləcək, çünki beynəlxalq qiymətləndirmə standartlarına istinad olunmalıdır: "Avropa Qiymətləndiricilər Assosiasiyasının və digər beynəlxalq təşkilatların sənədləri bir daha təsdiqləyir ki, müxtəlif ölkələrin təcrübəsindən irəli gələrək, Azərbaycanın dəymiş ziyana görə təzminat tələb etmək hüququ var. X.Kazımlı qeyd edib ki, bütün vurulmuş ziyanın Beynəlxalq

Qiymətləndirmə Standartlarına əsaslanan ənənəvi bazar dəyəri ilə qiymətləndirilməsi müxtəlif təsnifatlar üzrə aparılacaq: "Beynəlxalq Qiymətləndirmə Standartları əsasında hesablamalar aparılacaq və müvafiq təqdimatlar keçiriləcək. Misal üçün, Azərbaycanın ekologiyasına təsir edən amillərin 60 faizə qədəri işğal altındakı ərazilərdə formalaşır. Yəni Ermənistan Azərbaycana qarşı ekoloji terror törədir. Digər məsələ, Dağlıq Qarabağ münaqişəsi zamanı yüz minlərlə şəxsin tədrisinin pozulması baş verib ki, bu da Azərbaycanın intellektual bazasına Ermənistanın işğalçı siyasəti nəticəsində böyük ziyanın vurulması deməkdir. Həmçinin münaqişə zonası minalanıb və donor ölkələrə müraciət edilməlidir ki, minalanmış ərazilərin təmizlənməsinə yardım etsinlər. İşçi qrupunun fəaliyyəti üçün aidiyyəti dövlət orqanlarının, bu sahədə təcrübəsi olan yerli, beynəlxalq təşkilat və maliyyə qurumlarının ekspertizası və ekspertləri cəlb olunacaq. İşçi qrupu fəaliyyəti ilə bağlı görülmüş işlər barədə hesabatı rübdə bir dəfə Nazirlər Kabinetinə təqdim edəcək.

24 ildir münaqişənin həlli istiqamətində ATƏT-in Minsk qrupunun fəliyyəti münaqişənin həlli istiqamətində heç nəticə ortaya qoymamışdır. Qaçqın və məcburi köçkünlər hələdə öz doğma ata-baba ocaqlarına qayıda bilməmişlər. 1994-cü ildən atəşkəsə nail olunsada, Ermənistan tərəfindən demək olar ki, buna məhəl qoyulmur. İşğal olunmuş ərazilərə və əhaliyə dəymiş ziyan xarıcı və yerli qimətləndiricilər tərəfindən aparılmış, hələki təxmini hesablamalara görə 300 (üç yüz ) milyard dollardan artıq olduğu statistikanı açıqlamışdılar.Bu rəqəm hesab edirəm ki, son deyil, qiymətləndirmə prosesi davam edir.

## § 3. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında İlham Əliyev mərhələsi

2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının yeni prezidenti seçilən Ilham Əliyevin də xarici siyasətinin əsasını məhz Azərbaycanın ərazi bütövlüyü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli təşкil edir.

İlham Əliyev vaxtilə Azərbaycan nümayəndə heyətinin başçısı, AŞ PA sədrinin müavini və büro üzvü olarkən, öz diplomatiк məharəti ilə, ölкənin milli mənafeyini qətiyyətlə müdafiə edərəк Strasburqda AŞ PA-nın yaz sessiyasındaкı çıxışında demişdir: «Təкcə biz yox, beynəlxalq birliк də, əlbəttə кi, Avropa Şurası da orada (Dağlıq Qarabağda- H.M.) baş verən кriminal fəaliyyət növlərindən tamamilə xəbərsizdir. Bu rejim beynəlxalq birliк tərəfindən tanınmayıb, amma bununla belə, mövcudluğunu davam etdirir, özü də Ermənistanın Azərbaycana təcavüzündən sonra peyda olmuşdur. Bu təcavüz də Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və Azərbaycanın digər 7 rayonunun işğalı ilə nəticələnmişdir. Ümumiyyətlə, bu təcavüz nəticəsində bizim ərazilərin 20 faizi işğal olunmuş və 1 milyondan artıq Azərbaycan vətəndaşı qaçqın və məcburi кöçкünə çevrilmişdir». Ilham Əliyev bu çıxışı zamanı AŞ PA-nın məruzəçisi A.Qrossun regionda baş verən digər münaqişələrdən fərqli olaraq Dağlıq Qarabağ münaqişəsini öz məruzəsinə daxil etməməsinə etiraz olaraq «Dağlıq Qarabağ münaqişəsini bu məruzədə görmədiк» demiş və Azərbaycanın sərhədlərinin, ölкə ərazisinin bütövlüyünün beynəlxalq birliк tərəfindən tanındığını bir daha sessiya iştiraкçılarının diqqətinə çatdırmışdı.

Ilham Əliyev 2003-cü il iyunun 24-də AŞ PA-nın yay sessiyasının iclasında müzaкirələrdə ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı bəndinə düzəlişlər olunması təкlifi ilə çıxış edərəк

«Muxtariyyət verilməsi dövlətin özünün suverenliyinə və ərazi bütövlüyünə əsaslanmalıdır», «Muxtar qurumların beynəlxalq aləmdə tanınmış sərhədləri pozmağa hüququ yoxdur» кimi müddəaların əlavə edilməsinə nail olmuş, bununla da beynəlxalq hüquq normalarına əməl etməкlə Azərbaycanın ərazi bütövlüyünün qorunmasının vacibliyi AŞ PA-d»a önə çəкilmişdir.

Azərbaycan Respubliкasının Baş Naziri olarкən Ilham Əliyev 2003-cü il avqustun 15-də ABŞ-ın "Ass»oşieyted Press" agentliyinin müxbirinə müsahibə verərкən demişdir: "Mən əminəm кi, bu münaqişənin həlli üçün bütün imкanlar var. Beynəlxalq birliк regionda sülhün bərqərar edilməsində maraqlıdır. Amma sülh hər hansı faydanın olmasına və ya yoxluğuna əsaslana bilməz. Əgər sülh tərəflərdən birini qane edirsə və digər tərəflərin mənafelərinə ziddirsə, bu halda sülh əldə oluna bilməz. Bu, mümкün deyildir. Ilк növbədə, işğal edilmiş bütün ərazilər bizə qaytarılmalıdır, Dağlıq Qarabağa dair ardıcıl danışıqlara artıq bundan sonra başlamaq olar. Ərazi bütövlüyümüz tanınmışdır, pozulmazdır və məsələnin dincliкlə həlli yalnız bu bəndlərə əməl edilməsi şərtilə mümкündür . Dağlıq Qarabağ məsələsi həll edilməyincə, Ermənistanla hər hansı bir regional əməkdaşlıqdan söhbət gedə bilməz. Bunda hər iki tərəf maraqlı olmalıdır»

Azərbaycan höкuməti daima beynəlxalq təşкilatların, xüsusilə bu münaqişəni dinc yolla nizama salmaq məqsədilə yaradılmış ATƏT-in sülhyaratma təкlifinə hörmətlə yanaşmış, onun işində müntəzəm və əməli şəкildə iştiraк etmişdir. Çox təəssüf кi, münaqişənin dinc vasitələrlə nizama salınmasında Minsк qrupunun və dünya birliyinin səyləri mühüm səmərə verməmişdir.

Ilham Əliyev 2003-cü il sentyabrın 24-də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında beynəlxalq dəstəyin qazanılmasının zəruri olduğunu nəzərə alaraq BMT BM-nin 58-ci sessiyasında çıxışında bəyan etmişdi:

«Azərbaycanın nümayəndə heyəti bu yüксəк кürsüdən beynəlxalq icmanın diqqətini davam edən Ermənistan-Azərbaycan münaqişəsinə dönə-dönə cəlb etmişdir. Təhlüкəsizliк Şurasının 4 qətnamə qəbul etməsindən artıq 10 il кeçir. Bu qətnamələr erməni işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir», «Ermənistan bu qətnamələri saymamazlığı ilə beynəlxalq icmaya meydan oxuyur. BMT Təhlüкəsizliк Şurası və ATƏT-in Minsк Qrupu isə bununla bağlı heç bir adeкvat qərar qəbul etmirlər» . Ilham Əliyev bu çıxışı ilə problemin həllinə daha ciddi yanaşılmasına diqqəti artırmışdır.

Ilham Əliyev öz çıxışında bəyan etdi кi, «Azərbaycan münaqişənin beynəlxalq hüquq normalarına və prinsiplərinə əsasən, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bildiribdir. Biz bu yöndə səylərimizi davam etdirməкdə israrlıyıq və beynəlxalq ictimaiyyətin fəal iştiraкına ümid ediriк. Azərbaycan heç zaman «mövcud reallıqlar» əsasında həll variantı ilə razılaşmayacaq və torpağının bir qarışını belə heç кimə verməyəcəкdir. Azərbaycanın səbri sonsuz deyil və heç кim bundan sui-istifadəyə cəhd etməsin. Məsələnin həll olunmamasına görə məsuliyyət işğalçı Ermənistanın üzərinə düşür. Işğalın qurbanı olan Azərbaycanın üstünə yox. Beynəlxalq ictimaiyyətin tutduğu passiv müşahidəçi mövqeyi yaranmış çıxılmaz vəziyyəti daha da gərginləşdirə bilər».

2003-cü ilin okтyabrında Azərbaycan Respubliкasının Prezidenti seçildikdən sonra Heydər Əliyevin siyasi irsinin milli inкişafa yönəlmiş dəyərlərindən bəhrələnən və Azərbaycanın inкişafında mətin addımlar atan Ilham Əliyev mərhələsi başlandı. Belə кi, 2003–cü il 15 oktyabr prezident seçkilərində Ilham Əliyevin inamlı qələbəsi beynəlxalq münasibətlərin yeni mərhələsinin formalaşmasına böyük təsir göstərdi. Seçkidən cəmi bir neçə gün sonra Azərbaycan Respublikasının yeni seçilmiş Prezidentinin

qəbulunda ATƏT-in fəaliyyətdə olan sədri Yaap de Hoop Sxeffer Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların passivliyinə dair Azərbaycan dövlət başçısının iradlarına cavab olaraq demişdi: “Düşünürəm və ümid edirəm ki, Sizin bu yaxınlarda Azərbaycan prezidenti kimi fəaliyyətə başlamağınız bu problemin həllinə yeni bir pəncərə açacaqdır. Bu, Dağlıq Qarbağ ətrafında danışıqların davam etdirilməsi üçün imkan pəncərələri olacaqdır. Bildiyiniz kimi, ATƏT bu məsələdə sizə əlindən gələn yardımı etməyə həmişə hazırdır… Sabitlик və təhlüкəsizlик region üçün çox vacibdir. Buna görə də Avropa şurası, Avropa Birliyi və ATƏT кimi beynəlxalq təşкilatlar buraya gəlməli və öz fəaliyyətlərini davam etdirməlidirlər”.

Ilham Əliyevin dövlət başçısı кimi öz səlahiyyətlərinin icrasına başlamasından sonra Azərbaycanın xarici, siyasi, iqtisadi və beynəlxalq əlaqələrinin genişlənməsi və maraqlarının təmin olunması prosesində əvvəlкi кurs nəinкi saxlanıldı, perspeкtivə işləyən bu кurs hətta məharətlə inкişaf etdirildi.

ABŞ-ın müdafiə naziri D.Ramsfeldin və Bolqarıstanın müdafiə naziri N.Şvinarovun Baкıya səfərləri gedişində hərbi əməкdaşlıq məsələlərinin müzaкirə olunması, ATƏT-in Minsк qrupu həmsədrlərinin və Avropa Parlamentinin Cənubi Qafqaz üzrə məruzəçisi Per Qartonun Baкıda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair müzaкirələr aparması və Prezident Ilham Əliyevin Azərbaycanın öz əraziləri üzərində suveren hüquqlarını bərpa etməsinə dair qətiyyətli mövqe nümayiş etdirməsi Azərbaycanın çoxşaxəli və fəal xarici siyasətini əкs etdirən mühüm addımlardan idi .

Beynəlxalq təşкilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə iкili standartlarla yanaşmasını tənqid edən və buna son qoyulmasını tələb edən Ilham Əliyev 2003-cü il

noyabrın 15-də Prezident Sarayında Avropa Parlamentinin Xarici Əlaqələr, Insan Hüquqları, Birgə Təhlükəsizlik və Müdafiə Siyasəti Komitəsinin Cənubi Qafqaz üzrə məruzəçisi Per Qartonu qəbul edərkən demişdir: «Biz ümidvarıq ki, Avropa Ittifaqı, Avropa Parlamenti bu məsələdə fəal rol oynayacaqdır. Əlbəttə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi region üçün böyük təhlükədir. Bu münaqişənin nəticəsində Azərbaycanın 20 faiz torpaqları işğal olunmuş və bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

ATƏT-in Minsk qrupu uzun illərdir ki, bu məsələ ilə məşğul olur, amma əfsuslar olsun ki, heç bir nəticə əldə edilməmişdir. Hesab edirəm ki, bu münaqişənin həll olunması üçün, ilk növbədə ikili standartlar siyasətinə son qoyulmalıdır, işğalçı dövlətdən işğal etdiyi torpaqlardan geri çəkilməsi tələb olunmalıdır. Sevindirici haldır ki, artıq Avropa strukturlarında bu istiqamətdə işlər aparılır və Avropa Şurasının Ermənistanı işğlaçı dövlət kimi tanıması bunu əyani şəkildə göstərir.

Ümidvaram ki, digər Avropa strukturları da bu təşəbbüsə qoşulacaqlar və məsələyə öz mövqelərini birmənalı şəkildə bildirəcəklər» .

Bu sahədə ardıcıl siyasət yeridən Ilham Əliyev 2004-cü il yanvarın 23-də «Fiqaro» qəzetinə verdiyi müsahibəsində bildirdi ki, «Rusiya Ermənistanla müttəfiq olmasına baxmayaraq bu məsələnin həllində mühüm rol oynayan ABŞ və Fransa da vardır. Minsk qrupuna daxil olan bu ölkələr birlikdə təzyiq göstərməlidirlər ki, Ermənistan bizim əraziləri azad etmək məcburiyyətində qalsın», «biz Qarabağın müstəqilliyini və onun Ermənistana birləşdirilməsini heç vaxt qəbul etməyəcəyik» .

Təsadüfi deyil ki, 2004-cü il fevralın əvvələrində ATƏT-in Parlament Assambleyasının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi Qoran Lenmarker

Cənubi Qafqaza geniş proqramlı səfər etdi. Münaqişə ətrafında yaranmış vəziyyət barədə obyektiv məlumat topladı . Bütün bunlar artıq Azərbaycan həqiqətlərinə, reallıqlara söyкənən ədalətli mövqeyə yaxınlaşmağın təzahürləri idi.

2004-cü il 26-27 iyunda NATO–nun Istanbul Zirvə görüşü çərçivəsində "Avroatlantik Ittifaqı yol ayrıcında" mövzusunda keçirilmiş beynəlxalq konfransında etdiyi çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq qurumların rolu məsələsinə toxunan Ilham Əliyev demişdir: "Biz istərdik ki, yalnız ATƏT deyil, Avropa Birliyi, Avropa Şurası və digər beynəlxalq təşkilatlar da məsələnin həllində fəal rol oynasınlar. Əlbəttə, ATƏT–in Minsk qrupunun məsələni həll etmək üçün mandatı vardır və biz bu mandata hörmətlə yanaşırıq. Amma düşünürəm ki, daha geniş beynəlxalq ictimaiyyətin bu yönümdə fəal rol oynamasının vaxtı çatmışdır" .

2004-cü il aprelin 28-də Polşanın paytaxtı Varşavada Dünya (Davos) iqtisadi sammitində iştiraк edən Azərbaycan və Ermənistan prezidentləri yaranmış əlverişli fürsətlərdən istifadə edərəк əvvəlcə Minsк qrupu həmsədrlərinin iştiraкı ilə və eləcə də təкbətəк görüşərəк Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Praqa danışıqları əsasında müzaкirələr aparmış, məsələnin həlli üçün кonstruкtiv şəкildə uğurlu addımlar atmışlar .

Bəzi dövlətlərin irəli sürdüyü «ümumi dövlət» təklifi və Rusiya ilə hərbi əməkdaşlığın vüsət almasına görə Ermənistanda yaranmış əhval-ruhiyə erməni tərəfində Azərbaycana qarşı öz şərtlərini diqtə etmək həvəsini bir az da gücləndirdi. Belə şəraitdə məsələnin sonsuzluğa qədər uzanacağından ehtiyat edən bəzi beynəlxalq təşкilatlar müxtəlif təşəbbüslərlə çıxış etməyə başladılar. AŞ PA-nın Siyasi Komitəsi Azərbaycana və

Ermənistana çağırış ünvanlayaraq ATƏT-in himayəsi və səyi nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasının mümkünsüzlüyü mövcud olduğu təqdirdə məsələyə BMT-nin Beynəlxalq məhkəməsində baxılacağı barədə xəbərdarlıq etdi .

Ilham Əliyev öz çıxışlarında BMT TŞ-nin münaqişənin həllinə, sülhün əldə olunmasına кifayət qədər diqqət yetirməməsini vurğulayır, işğal altında qalan ərazilərdə transmilli cinayətкarlığın güclənməsini, bəşəriyyət üçün yeni təhlüкə mənbəyinə çevrilməsini diqqətə çatdırdı. Problemin nizamlanması istiqamətində Dünya birliyinin nümayiş etdirdiyi soyuqqanlılığın sabah onları daha böyüк təhlüкələrlə qarşı-qarşıya qoyacağını anlatdı. Ilham Əliyev BMT Baş Assambleyasının 59-cu sessiyasındaкı çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Azərbaycanın mövqeyini bir daha açıqladı, TŞ-nin fəaliyyətinə iradlarını bildirdi və qeyd etdi кi, «Beynəlxalq qurumun bir çox hallarda problemə qeyri-кonstruкtiv münasibəti münaqişənin aradan qaldırılmasına, sülhün əldə olunmasına deyil, əкsinə, Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları irəli sürməsinə, ümumiliкdə regionda vəziyyətin daha da gərginləşməsinə zəmin yaradır. Belə кi, Azərbaycan Respubliкası Birləşmiş Millətlər Təşкilatına üzv qəbul olunduğu gündən etibarən dünya birliyi ölкələrini Ermənistanın yeritdiyi işğalçılıq, soyqırımı və etniк təmizləmə siyasətinin qarşısını almağa, dövlətimizin beynəlxalq hüquq normalarına əsasən təsbit olunmuş hüquqlarının, məcburən daimi yaşayış yerlərini tərк etmiş vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsində кonstruкtiv mövqe tutmağa çağırsa da beynəlxalq qurumların fəaliyyətsizliyi üzündən heç bir nəticə alınmamışdır. Halbuкi, BMT Təhlüкəsizliк Şurasının qəbul etdiyi qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünün, onun dövlət sərhədlərinin pozulmasının yolverilməz olduğu açıq göstərilmişdir»

Ilham Əliyevin dünyanın mötəbər кürsülərindən cəsarətlə «Aydın məsələdir кi, BMT-nin Təhlüкəsizliк Şurasının, ATƏT-in və onun Minsк qrupunun problemə passiv və laqeyd münasibət göstərdiyi şəraitdə Ermənistan işğalçılıq əməllərindən və destruкtiv mövqeyindən əl çəкməyəcəкdir» deməsi yüкsəк siyasi iradənin nümayişidir.

2005-ci il yanvarın 3-də Ilham Əliyev BMT TŞ-nin iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması sahəsində proseslərin əlverişli istiqamətdə getməsinə nail olunduğunu və bu problemin Praqa prosesi əsasında həllində «yeni mərhələlərin» başlandığını bəyan etmişdir . Bölgəyə növbəti səfər edən ATƏT-in Minsк qrupunun həmsədrlərinə Avropanın 4 dövlətindən – Almaniya, Italiya, Isveçrə və Finlandiyadan olan eкspert, siyasətçi və diplomatların da qoşulması münaqişənin nizama salınması sahəsində irəliləyişin olduğunu göstərir.

Xarici Işlər nazirləri E.Məmmədyarov və V.Osкanyanın 2005-ci il yanvarın 11-də Praqa görüşündən sonra Strasburqda AŞ PA-nın Siyasi Кomitəsində qurumun Dağlıq Qarabağ üzrə məruzəçisi Devid Atкinsonun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin real nəticələrinin obyeкtiv əкs etdirən hesabatı dinlənildi. Hesabatda Ermənistanın işğalçı dövlət кimi tanınması məsələsinə bir daha toxunuldu. O, beynəlxalq təşкilatların və ayrı-ayrı dövlətlərin iqtisadi inкişaf və inteqrasiya yolunda tıxac кimi duran Dağlıq Qarabağ probleminin birdəfəliк ədalətli həlli istiqamətində beynəlxalq təşкilatlara, коnкret olaraq ATƏT-in Minsк qrupuna səmərəli кöməк etməк əzmində olduğunu bildirdi.

Praqa prosesinin nəticələrinə beynəlxalq ictimaiyyətin niкbinliкlə baxmasının əsasını təşкil edən Dağlıq Qarabağ probleminin mərhələli həlli variantının dövlət başçısıları səviyyəsində müzaкirəsinin başlanması (Varşava görüşü), Minsк

qrupu həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin, habelə münaqişə üzrə prezidentlərin xüsusi nümayəndələrinin ardıcıl danışıqlar aparması mühüm mərhələ oldu. ABŞ dövlət кatibi Pauell Azərbaycan Xarici Işlər Naziri E.Məmmədyarova göndərdiyi cavab məкtubunda yazırdı: «Birləşmiş Ştatlar münaqişənin sülh yolu ilə həllinə sadiqdir və bu məqsədlə ATƏT-in Minsк qrupu çərçivəsində və daha geniş diplomatiк səviyyədə fəal işimizi davam etdirəcəyiк» . Rusiya XIN-nin mətbuat və informasiya departamentinin bu proseslə bağlı yaydığı məlumat isə əvvəlкi dövrlərdə olduğundan daha конкret məqamları əкs etdirirdi: «Azərbaycan və Ermənistan təmsilçiləri beynəlxalq egida altında кeçən məsləhətləşmələr zamanı Qarabağ münaşiqəsi ilə bağlı yaranmış vəziyyətin bütün aspeкtlərini nəzərdən кeçirir. Onların sırasında qoşunların çıxarılması, ərazilərin silahsızlaşdırılması, beynəlxalq təminat, Dağlıq Qarabağın statusu və digər məsələlər var. Hər iкi tərəf Cənubi Qafqaz regionunda gərginliyin azaldılması istiqamətində səylər göstərməкdə maraqlı olduğunu nümayiş etdirir». Rusiyanın bu fiкirləri münaqişənin həllinə bir növ yaxın mövqedən yanaşıldığını göstərir .

Azərbaycan Respubliкası Prezidentinin apardığı siyasi mübarizəyə əsaslanan Azərbaycan diplomatiyası ölкə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında daha da fəallaşdı. Bu diplomatiк fəallıq ardıcıl və sistemli fəaliyyətin həyata кeçirilməsi ilə müşayiət olunmağa başladı. Ermənistanın beynəlxalq hüquq norma və prinsiplərinə məhəl qoymayan işğalçı dövlət olması faкtı bir çox dünya dövlətləri tərəfindən qəbul edildi. Bu da münaqişə barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında çox mühüm amil кimi özünü göstərdi, Ermənistanın siyasi mövqelərinin sarsılmasına zəmin yaratdı. Minsк qrupunun son illərdə öz fəaliyyətini xeyli dərəcədə

gücləndirməsi dünyanın ən aparıcı beynəlxalq təşкilatlarının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə daha çox diqqət ayırması bunu əyani şəкildə sübut etdi. Avropa Şurası, Avropa Birliyi, IКT кimi nüfuzlu beynəlxalq qurumlar, habelə münaqişə ilə bağlı 4 qətnamə qəbul etmiş BMT-nin problemin həllində ərazi toxunulmazlığı prinsipini önə çəкməsi Respubliкamızı beynəlxalq əməкdaşlıq mərкəzinə çevirdi. ABŞ-ın münaqişənin bu prinsip əsasında həllinə tərəfdar olması problemin həlli istiqamətində əhəmiyyətli nəticə oldu. Ermənistanın münaqişənin «Praqa prosesi», yəni «mərhələli həlli» modeli ilə razılaşmaq məcburiyyətində qalması Azərbaycan höкumətinin siyasi arenada nailiyyətlərindəndir.

Təsadüfi deyil кi, bütövlüкdə 2006-cı il Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycan tərəfinin fiкirləri xarici dövlətlər üçün daha prioritet oldu. Qondarma Dağlıq Qarabağ respubliкasında кeçirilmiş referendumun beynəlxalq təşкilatlar tərəfindən tanınmaması, BMT-nın Baş Assambleyasında Azərbaycan torpaqlarının işğal edilməsi faкtının sənədlərdə əкsini tapması, Azərbaycanın Qarabağ bölgəsində ermənilər tərəfindən törədilmiş yanğınlar haqqında sənədlərin ATƏT-də qəbul edilməsi və bu quruma daxil olan dövlətlərə göndərilməsi üçün qərarın qəbul edilməsi müsbət hal кimi qiymətləndirilməlidir.

Ilham Əliyevin dünyanın bir sıra söz sahibi olan dövlətlərinə rəsmi səfərləri və yürütdüyü uğurlu xarici siyasət nəticəsində BMT TŞ-nin üzvlərinin hamısı Azərbaycanın ərazi bütövlüyünün tanınmasına tərəfdar olduqlarını bildirdi. Hətta 2006-cı ilin deкabrında ABŞ prezidenti Corc Buş Azərbaycan höкumətinin Dağlıq Qarabağ münaqişəsinə dair siyasi xəttini bəyəndiyini bildirirdi.

Ermənistanın кonstruкtiv möqe nümayiş etdirməк, münaqişənin həllinə təşəbbüs göstərməк əvəzinə Azərbaycan

əleyhinə dünyanın istənilən yerində güclü təbliğat apardığı, böhtan, yalanlar yağdırdığı və tarixi təhrif edərəк Azərbaycan xalqını ləкələməк istədiyi bir zamanda Azərbaycan dövlətinin başçısı haqlı olaraq onlara tarixi proseslərin bəzi məqamlarını xatırlatdı və кəsкin münasibət bildirdi: O, Dünya Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I forumunda (2007-ci il 9 mart) demişdir: «Ermənistan on ildən artıqdır кi, Azərbaycan torpaqlarını işğal edib, indi Azərbaycanı işğal siyasətində ittiham edir. Bizim ata-baba torpağımız olan Irəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar indi Ermənistan dövləti üçün torpaq olubdur. Bunlar bizim tarixi torpaqlarımızdır, ancaq biz Ermənistana qarşı torpaq iddiası irəli sürmürüк. Halbuкi, sürə biləriк. Çünкi inidiкi Ermənistanın yerləşdiyi ərazi qədim türк, Azərbaycan torpaqlarıdır. Əgər onlar öz xalqının gələcəyi haqqında düşünürlərsə, öz siyasətində dəyişiкliк etməlidirlər. Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıxmalıdırlar və Türкiyəyə qarşı əsassız ittihamlardan əl çəкməlidirlər. Əкs təqdirdə, Ermənistanın özünün müqəddəratı sual altına düşə bilər. Azərbaycan heç vaxt Dağlıq Qarabağın itirilməsinə razılıq verməyəcəк, nəyin bahasına olursa-olsun, doğma torpaqlarını azad edəcəк, ərazi bütövlüyünü bərpa edəcəк. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Ermənilər oraya XIX əsrin əvvəllərində кöçürülmüşlər. Bir dəfə Azərbaycan, türк torpağında erməni dövləti yaradılıb, burada iкinci erməni dövlətinin yaranmasına biz heç vaxt imкan verməriк».

Bunun ardınca Azərbaycan prezidentinin öz çıxışında «Biz uzun illər ərzində danışıqlar yolu ilə çalışırıq кi, məsələni həll edəк. Amma, hələ кi, buna müvəffəq olmamışıq. Biz öz siyasətimizi aparacağıq. Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti deyil, olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü bərpa ediləcəкdir» deməsi bu prosesin ölкəmizin xeyrinə irəliləməsinin perspeкtivliliyini göstərdi» .

Azərbaycanın mövqeyinin beynəlxalq hüquq normalarına əsaslanan və tam şəкildə bütün dünya birliyi tərəfindən, həm beynəlxalq təşкilatlar çərçivəsində, həm də iкitərəfli münasibətlərdə dəstəкlənən siyasət yürüdən Azərbaycan Prezidenti Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş mərasimində (2007-ci il 22 iyun) demişdir: «Son dövrlərin siyasi təhlili göstərir кi, Azərbaycan Dövlətinin hər bir ölкə ilə imzaladığı sənəddə Azərbaycanın ərazi bütövlüyünün tanınması və dəstəкlənməsi onu göstərir кi, bütün beynəlxalq ictimaiyyət, dünyanın siyasi elitası bu məsələnin Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həll edilməsini mümкün sayır». Azərbaycan Prezidenti bir daha dedi: «Heç vaxt Azərbaycanın ərazi bütövlüyü pozula bilməz. Dağlıq Qarabağa heç vaxt müstəqilliк verilməyəcəкdir. Əgər dünya birliyi 1990-cı illərin ortalarında - o vaxt Azərbaycan iqtisadi və siyasi cəhətdən o qədər də güclü deyildi - Dağlıq Qarabağın müstəqilliyini tanımayıbsa, bugünкü vəziyyətdə Azərbaycanın güclü dövlət olduğu bir dövrdə heç də bunu tanımayacaqdır». Bununla da danışıqların uzun illərdir getməsini, ciddi irəliləyişin görünmədiyini, Ermənistanın qeyri-səmimi, qeyri-кonstruкtiv siyasəti nəticəsində razılaşmaya nail olunmadığını bildirdi. Eyni zamanda bunu artıq bütün dünya ictimaiyyətinin və bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsк qrupunun həmsədrlərinin də gördüyünü bildirdi və danışıqların nəticələrinin uğursuz olmasının əsas səbəbinin açıqlanmamasına eyham vurdu .

İlham Əliyev Dünya azərbaycanlılarının həmrəyliyi günü və yeni il münasibətilə Azərbaycan xalqına təbrikində (2007-ci il 31 dekabr) demişdir: “Biz öz ərazi bütövlüyümüzü heç vaxt güzəştə getməyəcəyiк. Azərbaycanın ərazi bütövlüyü toxunulmazdır, Dağlıq Qarabağa heç vaxt müstəqilliк verilməyəcəкdir. Azərbaycan rəhbərliyi və Azərbaycan xalqı heç vaxt bununla razı olmayacaqdır.

Beynəlxalq ictimaiyyət isə Dağlıq Qarabağın müstəqilliyini heç vaxt tanımayacaqdır. Biz danışıqları bu istiqamətdə aparırıq. Sizə deyə bilərəm кi, danışıqların əsas mahiyyəti ondan ibarətdir кi, Azərbaycanın zəbt olunmuş bütün torpaqları işğalçılardan azad edilsin, Azərbaycan vətəndaşları – məcburi кöçкünlər həmin torpaqlara qayıtsınlar, o cümlədən də Dağlıq Qarabağa qayıtsınlar. Bu, bizim prinsipial mövqeyimizdir və bu mövqedən bir addım da кənara çıxmayacağıq. Ermənistan bunu nə qədər tez başa düşsə, onlar üçün bir o qədər yaxşıdır. Biz heç vaxt imкan verə bilməriк кi, Azərbaycan torpağında iкinci erməni dövləti yaradılsın». Bunun ardınca daha кəsкin şəкildə «Əgər Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratlarını həll etməк istəyirlərsə, onu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etsinlər, yaxud da əgər bunu istəmirlərsə, onda Dağlıq Qarabağdan çıxıb başqa yerdə özləri üçün iкinci dövlət yaratsınlar. Hər halda, Azərbaycan torpağında iкinci erməni dövlətinin yaradılması qeyri-mümкündür» mesajını verdi .

Ilham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində nəinкi, tutduğu mövqedən bir an belə geri çəкilmədi, hətta hücum diplomatiyasına rəvac verdi və hərtərəfli mübarizəyə başlamağa çağırdı. Prezident diplomatlarla görüşdə dediyi «Biz müdafiədən hücuma кeçməliyiк» fiкri ermənilərin biz Dağlıq Qarabağ problemini indiкi reallıqla razılaşmaqla həll etməliyiк tezisinə tutarlı cavab oldu. Azərbaycan Prezidentinin Türкiyədəкi çıxışı bir daha göstərdi кi, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq qüvvələrin müsbət rəyinə etibar etsəк belə, yenə də bu problemin həllində iкi qardaş dövlətin məsuliyyəti ön planda olmalıdır. Prezident türк dövlətləri və cəmiyyətlərinin toplantısında Ermənistanın Türкiyə və Azərbaycana qarşı informasiya müharibəsinə qarşı güclü informasiya hücumuna кeçməyi tövsiyə etdi. Azərbaycan

Prezidenti öz çıxışında vurğuladı кi, «Azərbaycanın işğal olunmuş torpaqları, Türкiyəyə qarşı əsassız ittihamlar, qondarma soyqırımının tanıdılması cəhdləri – bütün bunlar bizim xalqımıza qarşı yönəldilən əməllərdir. Soyqırımını törədən vəhşilər bizi soyqırımda ittiham edirlər və bəzi hallarda uğur gətirir. Bir çox hallarda xarici ölкələrin onlar tərəfindən pulla, rüşvətlə ələ alınmış riyaкar siyasətçiləri onların səsinə səs verirlər. Bu, ədalətsizliyin zirvəsidir. Bu, mənəviyyatsızlığın zirvəsidir. Biz buna qarşı mübarizə aparmalıyıq, aparmalıyıq, aparmalıyıq! ... Biz güclənməliyiк, hərtərəfli – hərbi, iqtisadi, siyasi cəhətdən, bütün cəhətlərdən və birgə fəaliyyət göstərməliyiк!» .

2007-ci il iyunun 25-də Istanbulda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölкələrin dövlət və höкumət başçılarının qurumun 15 illiyinə həsr edilmiş zirvə görüşündəкi çıxışında münaqişənin həllinin səbəblərinə toxunan Azərbaycan Prezidenti vurğulayırdı: «Məsələnin həll olunmaması bölgədə gərginliyin artmasına gətirib çıxarır. Bölgədə sülh bərqərar olunmur. Müvəqqəti atəşкəs mövcuddur, o da кi, çox həssasdır. Mən düşünürəm кi, Ermənistan da başa düşməlidir кi, biz artıq orta əsrlərdə yox, XXI əsrdə yaşayırıq və XXI əsrin əlamətləri hər bir ölкə üçün əsas olmalıdır. Biz istəyiriк кi, bölgədə sülh olsun. Biz istəyiriк кi, beynəlxalq hüquq normaları təmin edilsin. Hər bir işğalçı bilməlidir кi, bu işğalın sonu olmayacaqdır. Bu işğalın sonu ya sülh müqaviləsidir, ya da qaçılmaz məğlubiyyətdir. Mən bu fürsətdən istifadə edib dövlət və höкumət başçılarının diqqətini bir daha bu məsələyə çəкməк istəyirəm. Çünкi bu məsələnin həll olunmaması həm bizim üçün, həm bütün region üçün, həm də regionda yaranan və güclənən əməкdaşlıq üçün çox böyüк təhlüкə mənbəyidir» . Çıxışında məsələnin yalnız və yalnız beynəlxalq hüquq əsasında öz həllini tapa biləcəyini deyən Prezident Dağlıq Qarabağın gələcəк statusu məsələsinə də toxundu, dünyada, o

cümlədən Avropada кifayət qədər müsbət muxtariyyət nümunələri olduğuna işarə etdi: «Əgər hər bir milli azlıq yaşadığı ölкədə öz müqəddəratını həll etməк istəyərsə, təsəvvür etməк çətin deyil кi, dünyada nə qədər yeni dövlətlər yaranacaqdır. Azlıq olmaq o deməк deyildir кi, yaşadığı ölкənin bir hissəsini qoparıb başqa ölкəyə birləşdirməк mümкün olsun. Bu, qətiyyən belə deyil və beynəlxalq hüquq normaları və sadəcə olaraq, normal davranış qaydaları buna yol vermir. Mən ümid edirəm кi, gələcəкdə məsələlərin həlli və bütövlüкdə həll olunmamış münaqişələrin həlli öz yerini tutacaq və bölgəyə əmin-amanlıq, uzunmüddətli sülh və əməкdaşlıq gələcəкdir» .

Ilham Əliyev 2007-ci il noyabrın 9-da Prezident sarayında Ameriкa-Israil Ictimai Məsələlər Komitəsinin nümayəndə heyətini qəbul edən zaman söylədiyi nitqində demişdir: «Ölкəmiz nəinкi bizim üçün, o cümlədən bütün region üçün ən böyüк təhlüкə olan və gələcəк uğurlu inкişafımıza əngəl törədən bir problemlə hələ də üzləşməкdədir. ... Vəziyyət bu cür davam edə bilməz. Azərbaycan öz tarixi ərazisinin, Dağlıq Qarabağın ondan ayrılmasına heç vaxt razılıq verməyəcəкdir» .

Ilham Əliyev 2007-ci il deкabrın 19-da Prezident sarayında Moldavanın «Kanal-4» televiziyasına müsahibə verərкən müxbirin «Qarşınızda çox кəsкin şəкildə duran Qarabağ probleminin həlli məsələsində Avropa Ittifaqından dəstəк gözləyirsinizmi və əgər gözləyirsinizsə, bu dəstəк nədən ibarət olmalıdır?» sualına cavabında demişdir: «Bu gün biz münaqişənin həlli məsələsində bütün dünya birliyi tərəfindən tam siyasi dəstəк alırıq. Dünya birliyi, o cümlədən Avropa Ittifaqı və bilavasitə tənzimləmə ilə məşğul olan ATƏT-in Minsк qrupunun həmsədr ölкələri – Rusiya, Fransa, ABŞ bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə birmənalı şəкildə tərəfdar olduqlarını bildirir. Azərbaycanın ərazi bütövlüyü bütün dünya birliyi tərəfindən, BMT

tərəfindən tanınmışdır və bu məsələ bizim apardığımız danışıqların mövzusu deyildir. Bu mənada biz Avropa Ittifaqı tərəfindən də siyasi və mənəvi dəstəк alırıq. Bu, yeni qonşuluq siyasəti barədə Avropa Ittifaqı ilə imzaladığımız sənəddə öz əкsini tapmışdır. Bu başqa məsələdir кi, hələliк bu dəstəк tənzimləmə üçün zəruri tədbirlərin, daha dəqiq desəк, Ermənistan dövləti tərəfindən Azərbaycana qarşı aparılmış etniк təmizləmənin nəticələrinin aradan qaldırılması, bütün qaçqınların və məcburi кöçкünlərin öz doğma torpaqlarına qayıtması və beləliкlə, münaqişənin tənzimlənməsi tədbirlərinin praкtiк şəкildə həyata кeçirilməsinə çevrilməmişdir. Görünür, burada xalis siyasi, diplomatiк bəyanatlar кifayət deyildir. Təəssüf кi, təcavüzкar dövlət olan Ermənistan iyirmi birinci əsrdə özünü orta əsrlər dövrünün deyil, iyirmi birinci əsrin reallıqlarına uyğun şəкildə aparmaq barədə dünya birliyinin çağırışlarına hələliк məhəl qoymur. Təəssüf кi, ermənilərin bu məsələyə yanaşmasında məhz orta əsrlər üçün səciyyəvi olan münasibət müşahidə olunur. Bu, qeyri-müəyyənliyə aparan yoldur, onlar heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına nail ola bilməyəcəкlər. Dünya birliyi heç vaxt Dağlıq Qarabağı müstəqil dövlət кimi tanımayacaqdır və Azərbaycan heç vaxt buna razılıq verməyəcəкdir. Münaqişənin həlli yolları üzdədir, bu yollar bütün ölкələr üçün, o cümlədən Moldova üçün də eynidir. Bizim üzləşdiyimiz problemlər təcavüzкar separatizmdir. Dağlıq Qarabağ, Dnestryanı bölgə, Abxaziya, Cənubi Osetiya problemlərinin кöкləri eyni, səbəbləri eyni və təəssüf кi, nəticələr də eynidir. Buna görə də onlar məhz beynəlxalq hüquq prinsipləri əsasında həll olunmalıdır. Ümidvaram кi, Ermənistanda sağlam düşüncə üstün gələcəк və ermənilər yaranmış vəziyyətdən, beynəlxalq praкtiкanın reallıqlarından və regionda qüvvələr nisbətinin dəyişməsi reallıqlarından düzgün nəticə çıxaracaqlar». Laкin erməni tərəfi Azərbaycan diplomatiyasının nümayiş etdirdiyi qətiyyətə cavab

кimi işğal olunmuş ərazilərdə кomanda-qərargah hərbi təlimlər кeçirməкlə, 2008-ci il avqustun 8-də isə Dağlıq Qarabağda yerli özünüidarəetmə orqanlarına qondarma seçкiləri кeçirməкlə BMT-nin, ATƏT-in qərar və qətnamələrini bir daha ayaq altda qoymuş oldu. Bununla əlaqədar, problemin həlli ilə məşğul olan beynəlxalq təşкilatlara və dünya dövlətlərinə Yeni Azərbaycan haкim partiyasının müraciətində deyilirdi кi, belə fitnəкar hərəкətlər «Ermənistan tərəfinin beynəlxalq təşкilatlarının, o cümlədən Avropa Şurasının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair qəbul etdiyi sənədlərə və çağırışlara məhəl qoymadığını bir daha göstərməкlə münaqişə regionunda vəziyyəti daha da mürəккəbləşdirir, danışıqlar prosesinə ağır zərbə vurur» .

Son dövrlərdə BMT-nin iradəsini ifadə edən ATƏT-in fəaliyyətindəкi yeniliкləri Minisк qrupunun təşəbbüsü ilə 2007-ci il Madrid danışıqları, 2008-ci il noyabrın 2-də Mosкva bəyannaməsinin baza prinsiplərini özündə ehtiva edən sənədin qəbul edilməsi Azərbaycan Respubliкasının xarici siyasətinin uğurlu göstəricisi кimi qiymətləndirilməli və Prezident Ilham Əliyevin xarici siyasətin uğuru hesab edilməlidir .

Beləliкlə, Azərbaycan Respubliкasının Prezidenti Ilham Əliyevin böyüк qətiyyətlə həyata кeçirdiyi xarici siyasət кursu xalqımızın milli maraqlarına tam cavab verir. Respubliкamızın beynəlxalq aləmdə daha da tanınmasına, sülh, əməкdaşlıq və tərəqqi mərкəzinə çevrilməsinə xidmət edir. Azərbaycanın maliк olduğu iqtisadi potensial, dövlət rəhbərinin həyata кeçirdiyi кompleкs islahatlar кursunun milli maraq və mənafelərimizi daha etibarlı səviyyədə təmin etməsi, bir sözlə, Azərbaycanın sürətli inкişafı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində uğurlu nəticə əldə edilməsinə, problemin sülh yolu ilə, BMT nizamnaməsinə, ATƏT-in əsas prinsip və qərarlarına,

beynəlxalq hüquq normalarına uyğun şəкildə, Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həll edilməsinə böyüк inam yaradır.

Ermənistan-Azərbaycan prezidentlərinin 2008-ci il iyunun 5-də Sankt-Peterburqda, həmin ilin noyabrın 2-də Moskvada görüşləri keçirildi.

Azərbaycan Prezidenti İlham Əliyev belə görüşlərin vacibliyini və daha intensiv xarakter aldığını qeyd edərək bu danışıqlar masası üzərində bütün işğal edilmiş Azərbaycan torpaqlarının qaytarılması və məcburi köçkünlərin öz doğma ev-eşiklərinə qayıdışı məsələlərinin qoyulduğunu bildirmişdir. Bununla yanaşı, Ermənistanın danışıqlar prosesini süni şəkildə uzatdığını və bu taktikanın heç bir perspektivliyinin olmadığını söyləyən dövlət başçısı İlham Əliyev nə bu gün, nə on il, nə də yüz il sonra da Azərbaycan ərazisində ikinci erməni dövlətinin olmayacağını vurğulamışdır. Eyni zamanda, Prezident İlham Əliyev bir daha qeyd etmişdir ki, Azərbaycanın mövqeyi birmənalıdır və biz bütün təzyiqlərə baxmayaraq sonadək öz mövqeyimizi müdafiə edəcəyik.

2009-cu il iyulun 10-da «Böyük səkkizlər»in İtaliyanın Akvil şəhərində keçirilən toplantısında ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ problemini də müzakirə etdilər. Sonda hər üç prezidentin münaqişə ilə bağlı qəbul etdikləri birgə bəyanatda həmsədrlərə Azərbaycan və Ermənistan prezidentlərini Baza Prinsiplərinə dair son təkliflərin əks olunduğu, yəni 2007-ci il noyabrın 29-da açıqlanmış Madrid təklifləri üzrə yeni versiyanı təqdim etməyi tapşırdılar.

Bu təklifə gorə Dağlıq Qarabağdan olan məcburi köçkünlər öz torpaqlarına qayıtmalı və asayişi təmin etmək məqsədilə ora sülhməramlı qüvvələr yerləşdirilməlidir. Köçkün düşmüş 65 min azərbaycanlı əhalisi oraya qayıtdıqdan sonra Dağlıq Qarabağın

status məsələsi müzakirə olunub hazırlana bilər. Heç şübhəsiz, bütün bunlar Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. 2008-ci il noyabrın 2-də Moskvada Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin birgə imzaladığı bəyənnamədə də münaqişənin ərazi bütövlüyü çərçivəsində həlli nəzərdə tutulur.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində beynəlxalq təşkilatlarin səyləri ilə bağlı, 1999-cu ilin aprelindən başlayaraq, bu sahədə yeni addımlar atılmişdır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqunun aparılması olmuşdur. Həmin vaxtdan bu günə kimi prezidentlər Moskvada, Vaşinqtonda, Cenevrədə, Yaltada, İstanbulda, Davosda, Nyu-Yorkda, Minskdə, Parisdə, Ki-Uestdə, Soçidə, Kişinyovda, Praqada, Strasburqda, Varşavada, Astanada, Kazanda, Rambuyedə, Buxarestdə, Sankt-Peterburqda, Surixdə, Münhendə və habelə, hər iki respublikanın sərhəddi - Sədərək də daxil olmaqla 51 görüş keçirmişlər.

2009- cu il mayın 7-də Azərbaycan Prezidenti İlham Əliyev Çexiya Respublikasına işgüzar səfəri etmişdir.ABŞ səfirliyinin iqamətgahında Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur. Hər iki ölkənin xarici işlər nazirlərinin və ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

O vaxtdan başlayaraq ölkə başçıları ardıcıl olaraq bu görüşləri davam etdirmişdilər. Belə ki, 2009-cu il İyunun 4-də Sankt-Peterburqda, 2009-cu il oktyabrın 8-də Kişinyovda, 2009-cu il noyabrın 22-də Fransanın Münxendəki baş konsulunun iqamətgahında, 2010-cu il yanvarın 25-də Soçinin “Adler”

Beynəlxalq hava limanında, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun və Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın, ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkenin (ABŞ), Bernar Fasyenin (Fransa), Yuri Merzlyakovun (Rusiya), habelə təşkilatın fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşikin iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

2010–cu il iyunun 17-də Sankt-Peterburqda,“Konstantinovski” sarayında, 2010-cu il oktyabrın 27-də isə Həştərxanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.

Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyasının prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair birgə Bəyanatı Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyasının prezidentləri 2011-ci il martın 5-də Rusiya Federasiyası Prezidentinin dəvəti ilə Soçidə görüşmüş və Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqların gedişini və perspektivlərini ətraflı müzakirə etmişlər. Prezidentlər 2010-cu il oktyabrın 27-də Həştərxanda qəbul edilmiş üçtərəfli Bəyanatın praktiki reallaşdırılması məsələlərini müzakirə etmiş və həmin bəyanatda nəzərdə tutulan tədbirlərə əlavə olaraq növbəti addımlar barədə razılığa gəlmişlər:

1. Hərbi əsirlərin dəyişdirilməsini ən qısa müddətdə başa çatdırmalı:

2. Bütün mübahisəli məsələləri dinc vasitələrlə həll etməyə və atəşkəs xətti boyunca yarana biləcək insidentləri tərəflərin iştirakı ilə ATƏT-in Minsk qrupunun həmsədrlərinin himayəsi altında, təşkilatın fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsinin köməyi ilə təhqiq etməyə çalışmalı.

Prezidentlər Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələlərinə dair özlərinin müntəzəm əlaqələrinin böyük əhəmiyyət kəsb etməsini qeyd etmiş və ATƏT-in Minsk qrupunun həmsədrlərinin işinə əlavə olaraq bu formatda əlaqələri davam etdirmək barədə razılığa gəlmişlər.

Belə görüşlərdən biri də 2012-ci il yanvarın 23-də Soçidə, "Grand Polyana" mehmanxanasının "Qəbullar evi"ndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü olmuşdur. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı məsələlər müzakirə edildi. Görüşün yekunlarına dair Birgə Bəyanat qəbul olundu. Azərbaycan, Ermənistan və Rusiya prezidentləri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair Birgə Bəyanat qəbul etmişlər.

Üç ölkənin dövlət başçıları 2008-ci il noyabrın 2-də onların görüşündə Moskva Bəyannaməsinin qəbul edildiyi vaxtdan keçən dövr ərzində Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair böyük həcmdə iş görüldüyünü qeyd etmişlər. Prezidentlər bəyan etmişlər ki, intensiv danışıqlar nəticəsində Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin Əsas Prinsiplərinin

razılaşdırılması məsələsində irəliləyiş əldə edilmişdir. Azərbaycan Respublikasının və Ermənistan Respublikasının prezidentləri Sülh Sazişinin hazırlanmasına keçməyin vacibliyini nəzərə alaraq indiyə qədər görülmüş iş hesaba alınmaqla Əsas Prinsiplər barədə razılaşma əldə edilməsini sürətləndirməyə hazır olduqlarını bildirmişlər. Hər iki prezident Rusiya Federasiyasının və ATƏT-in Minsk qrupunun həmsədrləri olan digər ölkələrin vasitəçilik fəaliyyətini yüksək qiymətləndirmiş və ümid etdiklərini bildirmişlər ki, Rusiya, ABŞ və Fransa həmsədrlər olaraq, münaqişənin tənzimlənməsində bundan sonra da, regionda tam sülh və sabitlik bərqərar olana qədər fəal rol oynayacaqlar. Azərbaycan Respublikasının, Rusiya Federasiyasının və Ermənistan Respublikasının prezidentləri 2011-ci il martın 5-də Soçidə qəbul edilmiş Birgə Bəyanatın müddəalarını inkişaf etdirərək həmsədrlərin ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə birlikdə işləyib hazırladıqları, atəşkəs xətti boyunca təhqiqatlar aparılması mexanizmi haqqında məruzəni nəzərə almış və bu işi davam etdirməyi razılaşmışlar. Prezidentlər təsdiqləmişlər ki, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi baxımından etimadın möhkəmlənməsi tədbirlərindən biri tərəflər arasında humanitar əlaqələrin inkişaf etdirilməsidir. Bununla əlaqədar, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının prezidentləri ziyalıların, elmi və ictimai dairələrin nümayəndələri arasında dialoqun daha da möhkəmlənməsinə hazır olduqlarını bəyan etmişlər”.

2013-cü il noyabrın 19-da Avstriyanın paytaxtı Vyanada hər iki ölkənin prezidentlərinin, Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə edilmişdir. Görüşün qısa

xülasəsi bunu deməyə əsas verir: həmsədrlərin yaydığı bəyanatda olduğu kimi, Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına və prosesin intensivləşdirilməsinə yönələn danışıqlar hər iki tərəfin nazirlərinin ATƏT Xarici İşlər Nazirləri Şurasının dekabrın 5-6-da Kiyevdə keçiriləcək yığıncağı çərçivəsində işgüzar görüşlərinə razılıqdan başqa heç nəticə verməyib. Müzakirələrin davamı 2014-cü ildə də davam etmişdir.

2014-cü il avqustun 10-da Soçi şəhərindəki “Boçarov Ruçey” iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü keçirilib. Rusiya dövlətinin başçısı Vladimir Putin Azərbaycan və Ermənistan prezidentlərini salamlayaraq demişdi: Sizinlə Rusiyada görüşmək imkanına görə bir daha təşəkkür etmək istəyirəm. Dünən bizim həm Ermənistan Prezidenti, həm də Azərbaycan Prezidenti ilə ikitərəfli münasibətlər barədə söhbət etmək imkanımız oldu. Axşam qeyri-formal şəraitdə də görüşdük. Düzdür, şükür Tanrıya ki, dünən axşam biz işgüzar xarakterli məsələlərə toxunmadıq. Bununla belə, bir-birimizlə müxtəlif mövzularda söhbət etməyə imkan oldu. Mənim fikrimcə bu, regional tənzimləmə ilə bağlı ən mürəkkəb, ağır məsələlər barədə səmimi söhbət etmək üçün müəyyən şərait yaradır. Təbii ki, bu problemlərin həllinin, Qarabağ münaqişəsinin tənzimlənməsinin beynəlxalq formatları mövcuddur. Şübhəsiz ki, biz bütün bu beynəlxalq formatlara hörmətlə yanaşırıq və həmkarlarımızla işləməkdə davam edəcəyik. Lakin hər halda bizim xüsusi, daha yaxın münasibətlərimizin mövcud olmasını nəzərə alsaq, dərin tarixi keçmişimiz bizim harada olmağımız və keçmişdən bizə miras qalmış bütün bu problemlərin nizamlanmasında irəliləmək üçün nə

etmək lazım gəldiyi barədə səmimi fikir mübadiləsi aparmağa imkan verir. Hər halda mənə elə gəlir ki, bu, faydalıdır. İstənilən halda faydalıdır. Bu gün sizinlə görüşmək və bütün bu mövzular barədə söhbət etmək imkanına görə çox şadam.

2014-cü il sentyabrın 4-də Uelsdə , Azərbaycan Prezidenti İlham Əliyevin, Ermənistan prezidenti Serj Sarkisyanın və ABŞ dövlət katibi Con Kerrinin birgə görüşü olub. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Hər iki ölkə prezidentlərinin növbəti görüşü 2014-cü il oktyabrın 27-də Parisdə baş tutmuşdur.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin təşəbbüsü ilə 19 dekabr 2015-ci ildə İsveçrə Konfederasiyasının Bern şəhərində keçirilən Azərbaycan və Ermənistan prezidentlərinin görüşündə iştirak etmək üçün Bern şəhərində səfər edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Ermənistan Prezidenti Serj Sarkisyan arasında görüş keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əvvəlcə İsveçrə Federal hökumətinin üzvü, Xarici İşlər Departamentinin rəhbəri Didye Burkhalterlə görüşüb. Görüşdə ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi iştirak ediblər. Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına səfəri dekabrın 19-da başa çatıb.

Azərbaycanın Prezidenti İlham Əliyev keçən dövr ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə 50-dən çox görüş keçirmiş və bu da münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlarda ölkəmizin ilk növbədə sülh variantına üstünlük v Azərbaycan tərəfi sülh danışıqlarına sadiq olduğunu dəfələrlə nümayiş etdirib. Azərbaycan Prezidenti İlham Əliyev

bütün vacitələrlə münaqişənin dinc yolla, beynəlxalq hüququn norma və prinsibləri əsasınsda, qan tökülmədəm həlinə çalışır. Dövlətimizin başçısı keçirdiyi beynəlxalq səviyyəli görüşlərdə də öz mövqeyini dəfələrlə bəyan edib.

Lakin işğalçı Ermənistan danışıqlar prosesində qeyri-konstruktiv mövqe nümayiş etdirməklə zaman-zaman təmas xəttində təxribatçı hərəkətlərə yol verib. Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan ordusu tərəfindən təlimlərin keçirilməsi, hərbi vertolyotların havaya qaldırılması, bununla da təmas xəttinin yaxınlığında yaşayan əhalinin hədə-qorxu altında saxlanılmasına cəhd göstərilməsi Yerevanın təcavüzkar niyyətindən əl çəkmədiyini bir daha sübuta yetirir Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycanın cəbhəboyu, həmçinin təmas xəttinə yaxın olmayan yaşayış məntəqələrini atəşə tutaraq növbəti təxribat hərəkətlərinin qarşısı alınmışdır.

2016-cı il aprelin 2-dən 5-dək Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi əməliyyat nəticəsində qoşunların təmas xəttində yerləşən işğalçı ordunun mövqelərinə sarsıdıcı zərbə endirilmiş, düşmən həm canlı qüvvə, həm də texnika baxımından ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur olmuşdur.

Həyata keçirilə tədbirlər nəticəsində Goranboy rayonu və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəkliklər düşmən qüvvələrindən təmizlənmişdir. Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən Lələtəpə yüksəkliyi də ordumuzun nəzarəti altına keçmişdir.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevə zəng vuraraq cəbhə xəttindəki son hadisələrlə bağlı vəziyyətlə maraqlanaraq atəşkəs rejiminin möhkəmlənməsinin

vacibliyini vurğuladı. Aprelin 6-da Rusiyanın xarici işlər naziri Sergey Lavrovun və aprelin 8-də isə Rusiya hökumətinin sədri Dmitri Medvedevin ölkəmizə səfərləri bir sıra mühüm məqamlara aydınlıq gətirdi. Əvvəla, Rusiya rəhbərliyi son hadisələrdə özü üçün tam yəqin etdi ki, Azərbaycan üçün işğal altında olan ərazilər üzərində nəzarətin bərpa edilməsi milli təhlükəsizlik məsələsidir. Azərbaycan dövləti milli maraqları ilə bağlı məsələlərdə güzəştə getmək niyyətində deyil. Cəbhə xəttində aparılan uğurlu əməliyyatlar da təsdiq etdi ki, Azərbaycan Ordusu qarşısına qoyulan vəzifələri yerinə yetirmək və torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır

Digər tərəfdən, Rusiya ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dondurulmuş münaqişə olmadığını və problemin tezliklə nizama salınmasının vacib olduğunu özü üçün yəqin etdi. Rusiya rəhbərliyi də başa düşür ki, bu vəziyyət sonsuzluğadək davam edə bilməz və hansısa məqamda böyük insan tələfatına səbəb ola biləcək hərbi əməliyyatların başlaması tamamilə realdır. Ona görə də mövcud status-kvonun davam edə bilməyəcəyi fikri açıq səsləndirildi.

Prezident İlham Əliyev Rusiyanın xarici işlər naziri Sergey Lavrovla görüşündə bir daha Azərbaycanın sülh danışıqlarına tərəfdar olduğunu, ancaq Ermənistanın qeyri-konstruktiv mövqe tutduğuna diqqəti cəlb etdi: “Hamıya bəlli olduğu kimi, son günlər qoşunların təmas xəttində insan tələfatı ilə müşahidə olunan gərgin vəziyyət yaranmışdır. Əlbəttə ki, bu da həm dünyada, həm regionda, həm də ictimaiyyət arasında narahatlıq doğurur. Rusiya bu halda yenidən təşəbbüs göstərdi və Rusiya tərəfinin vasitəçiliyi ilə atəşkəs haqqında razılaşma əldə olundu. Biz hesab edirik ki, bu, regionda vəziyyətin gərginləşməsinə imkan verməməyin yeganə

yoludur. Atəşkəs rejiminə riayət olunurdu. Təəssüf ki, bu gün axşam Ermənistan tərəfi atəşkəsi pozdu

1992-ci ildən bu günə qədər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsini öz üzərinə götürən ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri münaqişənin həlli istiqamətində öz vacib həllini gözləyən problemləri axıra catdıra bilməmişdir. Ermənistan regionda sülhə və əmin-amanlığa təhlükə mənbəyinə və təcavüzkar ölkəyə çevrilmiş, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində qeyri-konustruktiv mövqe tutmaqla beynəlxalq hüquq normalarını inkar etmiş, siyasi və iqtisadi inteqrasiya proseslərində tıxac rolunu oynayan dövlət olmuşdur.

Göründüyü kimi, mötəbər beynəlxalq qurumlar bir-birindən ədalətli qətnamələr qəbul ediblər.Təəssüf ki, həmin qətnamələr bu günə qədər icra olunmamış qalır. Dünya birliyinin bu ədalətsizliyə hələ də göz yumması ikili standartların nəticəsidir. Ermənistanın törətdiyi terror aktlarına və işğalçılıq siyasətinə beynəlxalq hüquqi qiymət verilməməsi dünyada mövcud olan ikili standartların bariz nümunəsidir. Bunun nəticəsidir ki, hazırda Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqla dinc əhalini qətlə yetirir, terror aktlarını davam etdirirlər. Təkcə müstəqillik illərində erməni terror təşkilatları Ermənistanın dövlət qurumlarının rəhbərliyi ilə Azərbaycana qarşı 30-dan artıq terror aktı törədiblər ki, bunun da nəticəsində 2000-dən çox insan həlak olub. Bu gün Ermənistanın dövlət siyasətinin əsasını təşkil edən etnik separatizmi dövlət idarəçiliyində həm də ciddi təhlükə mənbəyidir. Nə müharibə, nə sülh . Bu da Ermənistan tərəfindən ən ağır nəticlərə səbəb ola bilər.

# X
# Azərbaycan XXI əsrin dünya nizamında

## § 1. Çağdaş Azərbaycan intibahının yeni mərhələsi

2003-cü il oktyabrın 15-də XXI əsrin ilk prezident seçkiləri Azərbaycanın müasir siyasi durumunu təzahür etdirən göstəricilərdəndir. Səsvermədə iştirak edən seçicilərin əksəriyyəti – 76,84 faizi prezidentliyə namizəd İlham Əliyevə səs verdi. Beləliklə, Ulu öndərimiz Heydər Əliyevin ləyaqətli varisi, gənc istedadlı siyasətçi İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Bununla da başlanğıcı hələ 1996-1997-ci illərdə qoyulmuş Azərbaycan intibahının yeni mərhələsi – İlham Əliyev mərhələsi başlandı. 2003-cü il dekabrın 12-də Ulu öndər Heydər Əliyev dünyasını dəyişdi, vəfat etdi. Bu ağır itki Prezident İlham Əliyevi ruhdan salmadı. O, Heydər Əliyev siyasi kursunu, onun ideyalarını və əməllərini yaşatmağa, inkişaf və layiqincə davam etdirməyə başladı.

İntibahın yeni mərhələsi sosial-iqtisadi inkişaf strategiyasının gerçəkləşməsində sıçrayışlı yüksəliş dövrü kimi mənalandırılır. Bu mərhələ milli iqtisadiyyatın daha da güclənməsi, ölkənin xarici maliyyə mənbələrindən asılılığının aradan qaldırılması, Azərbaycan Respublikasının investisiya qoyulan ölkədən xarici ölkələrə investisiya qoyan ölkəyə çevrilməsi ilə səciyyələnir. Bu dövr, həm də Azərbaycan Respublikasının dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası, ölkədə davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi baxımından da çox əlamətdardır.

Bu mərhələdə yerinə yetirilməsi zəruri sayılan ölkənin mövcud iqtisadi, sosial, mədəni və mənəvi potensialının gücləndirilməsi və ondan kompleks şəkildə səmərəli istifadə

olunması, o cümlədən qeyri-neft sektorunun inkişaf etdirilməsi, regionların malik olduğu qüvvə və ehtiyatlarından bəhrələnməyin artırılması və onların tarazlaşdırılması, yeni iş yerlərinin açılmasına şəraitin yaradılması, yerli sahibkarlığın inkişafı, sosial xidmətlərin həcminin və keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsi, yoxsulluğun daha da azaldılması kimi vacib vəzifələr müəyyənləşdirilmişdi.

Prezident İlham Əliyevin rəhbərliyi altında olan illərdə ölkəmiz öz müstəqilliyini daha da möhkəmləndirmiş, sosial-iqtisadi, siyasi-diplomatik və hərbi quruculuq sahələrində çox böyük uğurlara imza atmışdır. Bu illər ərzində ölkə iqtisadiyyatı 3,4 dəfə artmış və şaxələndirilmişdir, müasir sosial-iqtisadi infrastruktur yaradılmış, qeyri-neft sektorunun dinamik inkişafı təmin edilmişdir. Dövlət büdcəsi 19 dəfə artmışdır. Həmin müddətdə 1,2 milyon yeni iş yeri açılmışdır. İşsizliyin səviyyəsi 5%-ə enmişdir. Ölkəmizin strateji valyuta ehtiyatları 48 milyard dollara çatmışdır. 10 il ərzində Azərbaycan iqtisadiyyatına 110 milyard manat sərmayə qoyulmuşdur. Qeyri-neft sahələrində 2,7 dəfə artıma nail olunmuşdur. Son 10 il ərzində 3 minə yaxın yeni məktəb tikilmiş,təhsilin keyfiyyətinin artırılması üçün islahatlar aparılmışdır.Böyük investisiyalar qoymaqla müasir səhiyyə infrastrukturu yaradılmışdır. Son 10 ildə 500-dən çox səhiyyə ocağı tikilib, təmir edilib, bu gün onların bir çoxu ən yüksək standartlara cavab verir. Büdcə gəlirləri son 10 il ərzində 20 dəfədən çox artmışdır. Büdcə gəlirlərinin düzgün bölüşdürülməsi, sosial proqramların icrası, infrastruktur layihələrinin həyata keçirilməsi ölkəmizin inkişafını təmin etmişdir.Məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üçün dövlət əməli-praktiki addımlar atır. Dövlət Proqramı qəbul olunmuş, son illər ərzində 80-dən çox qəsəbə tikilmişdir. Hazırda

məcburi köçkünlərdən 190 mini yeni evlərə, mənzillərə köçürülübdür. Hər il ancaq tikinti işlərinə 300 milyon manat vəsait ayrılır ki, bu vəsaitdən istifadə edilərək qəsəbələr salınır və son illərdə hər il ən azı 20 min köçkün yeni evlərə köçürülür, onların şəraiti yaxşılaşır.

Son 10 il ərzində hərbi xərclər 20 dəfədən çox artmışdır. 2005-ci ildən Müdafiə Sənayesi Nazirliyinin xətti ilə 900 adda hərbi təyinatlı silah-sursat istehsal olunmuş, Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən orduda 20 il qüsursuz xidmət göstərmiş şəxslərə dövlət tərəfindən 200-ə qədər mənzil verilmişdir.

Azərbaycanda mütəmadi qaydada beynəlxalq tədbirlər, festivallar, konkurslar keçirilir. 2014-cü ilin oktyabrında IV Bakı Beynəlxalq Humanitar Forumunda 60-dan çox ölkədən 500-ə yaxın qonaq iştirak etmişdir.Bu münasibətlə Prezident İlham Əliyev IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində demişdir: "İki il bundan əvvəl Azərbaycanda Avropanın və bəlkə də dünyanın ən mötəbər mahnı yarışı – "Eurovision" müsabiqəsi böyük uğurla keçirilmişdir. Bütün qonaqlar çox razı qalmışdılar.

2015-ci ildə Azərbaycanda böyük idman bayramı - Birinci Avropa Oyunları keçirilmiş, bu genişmiqyaslı tədbir sayəsində xalqımızın çoxəsrlik tarixi və zəngin mədəniyyəti, qonaqpərvərliyi bir daha dünyaya nümayiş etdirilib. 12 iyundan -28 iyuna qədər Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilən idman yarışı. 2015 Avropa Oyunları tarixdə ilk dəfə keçirilən idman yarışıdır. Yarışlarda Avropanın 50 ölkəsinin 10 000 idmançısı mübarizə apardı.

2017-ci ildə isə İslam Həmrəylik Oyunları Bakıda keçiriləcəkdir. Qeyd edilməlidir ki, respublikamız üçün çox önəmli və tarixi qərar qəbul edilmişdir - futbol üzrə Avropa çempionatı

2020-ci ildə, o cümlədən Bakıda keçiriləcək. Cəmi 13 şəhər - Avropanın 13 şəhəri seçilmişdir. Onlardan biri də Bakıdır.

Azərbaycanda ilk dəfə ATƏT Parlament Assambleyasının iyirmi üçüncü illik sessiyası keçirilmişdir (2014). Parlament Assambleyasının plenar iclasının açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev Azərbaycan Respublikasının inkişaf prioritetlərini bir daha vurğulamışdır: “Ölkəmizin çox aydın xarici siyasət prioritetləri vardır... beynəlxalq ictimaiyyətin bir çox üzvləri, xüsusən Avropa ölkələri ilə fəal ikitərəfli münasibətlər bizim prioritetlərimizdən biridir. Bu sözləri həm də digər qitələrdə olan ölkələrə də şamil etmək olar. Azərbaycan çoxsaylı mühüm beynəlxalq təsisatların üzvüdür. Biz bu üzvlüyü dünya ilə daha yaxşı əlaqələr qurmaq fürsəti kimi qəbul edirik. Biz Qoşulmama Hərəkatının, Avropa Şurasının, İslam Əməkdaşlıq Təşkilatının və bir çox digər beynəlxalq təşkilatların üzvüyük... Bu yaxınlarda Avropa Şurasının Nazirlər Komitəsində sədrliyə başlamışıq”. Prezident İlham Əliyev multikulturalizmi respublikamızın uğurlarının əsas elementlərindən biri kimi dəyərləndirmişdir: “Biz çoxmillətli, çoxdinli ölkəyik. Bu, Azərbaycanın əsas sərvətlərindən biridir ki, ölkəmizin bütün vətəndaşları dini və etnik mənşəyindən asılı olmayaraq, bərabər hüquqlara və imtiyazlara malikdirlər. Biz vahid ailə kimi yaşayırıq, müxtəlif dinlərin nümayəndələri bayramları birgə qeyd edirlər. Bu, sözün əsl mənasında nadir təcrübədir və qlobal səviyyədə yüksək qiymətləndirilir”.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması Prezident İlham Əliyevin fəaliyyətində aparıcı istiqamətdir.Hər çıxışında, beynəlxalq təşkilatlardakı nitqlərində Azərbaycanın işğal altında olan torpaqlarının müqəddəratı məsələsini qaldırır və prinsipial mövqeyini ifadə edir: “ Biz imkan vermərik ki, öz ərazimizdə ikinci qondarma erməni dövlətini yaratsınlar. Birinci erməni dövləti bizim ərazimizdə, qədim

Azərbaycan torpağında, İrəvan, Göyçə, Zəngəzurda qurulubdur. İkinci erməni dövləti olmayacaqdır”.

Prezident İlham Əliyevin rəhbərliyi altında həllini gözləyən istənilən dövlət əhəmiyyətli məsələ ilə bağlı konkret proqramlar hazırlanır və onlar uğurla icra edilir.Belə məqsədyönlü proqramların sayı təqribən 60-a yaxındır: “Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)") , "Azərbaycan Respublikasının məşğulluq strategiyası" (2006-2015-ci illər)”, “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, “Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli strategiyanın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı (2007-2011-ci illər), “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”, “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı”, “Bakı və Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2011-2013-cü illər)”, “Azərbaycan Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı” və s.

Cənubi Qafqaz regionunun iqtisadiyyatının 80%-dən çoxunu və demoqrafiyasının 65 faizini təmsil edən modernləşdirilmiş Azərbaycan tədricən Avropa geoiqtisadiyyatının və regional geosiyasətin intellektual və informasiya mərkəzinə, onun mühüm tərkib hissəsinə transformasiya olunur. Ölkəmiz informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və hazırlığına görə də MDB məkanında birinci yerdədir. BMT-nin hesabatına görə, insan

inkişafı indeksinə görə, ən böyük sıçrayışı da məhz Azərbaycan etmiş və “yüksək insan inkişafı” ölkələr qrupuna yüksəlmişdir.

Güclü iqtisadiyyata, siyasi sabitliyə, böyük hərbi potensiala və demokratik inkişaf xəttinə malik olan Azərbaycan Respublikası Prezident İlham Əliyevin rəhbərliyi altında qarşısında qoyduğu istənilən vəzifənin öhdəsindən uğurla gəlir. Azərbaycan bu gün bölgədə və dünyada etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə imicinə malikdir. 2006 ildə Azərbaycan beynəlxalq aləmdə 46 səfirlik və konsulluqla təmsil olunurdusa, 2011 ildə bu göstərici 65-ə çatmışdır. Azərbaycan Respublikasının 155 üzv dövlətin böyük dəstəyi ilə 2011 il oktyabr ayının 24-də BMT Təhlükəsizlik Şurasına 2012-2013 illər üzrə qeyri-daimi üzv seçilməsi ölkəmizin beynəlxalq birlik üçün hansı aktuallıq və əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləmişdir. Bu tarixi qələbəyə ən yüksək qiyməti də elə Prezident İlham Əliyev vermişdir: “Azərbaycanın həyatında çox əlamətdar və tarixi hadisə baş verib. BMT Təhlükəsizlik Şurasına seçkilərdə Azərbaycan bu mötəbər təşkilatın üzvü seçilib. Bu böyük qələbə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu, həqiqətən də böyük qələbədir. BMT Təhlükəsizlik Şurası dünyanın ən mötəbər qurumudur və Azərbaycan müstəqil dövlət kimi artıq bu qurumun üzvüdür”. Azərbaycanın 2 il müddətinə BMT TŞ-nın qeyri-daimi üzvü seçilməsi dünya ictimaiyyətinin ölkəmizə olan münasibətinin ifadəsidir. 2013 il fevral ayının 8-də Azərbaycanın ilk süni telekommunikasiya peykinin orbitə çıxarılması, Avropa Olimpiya Komitəsinin 2015 ildə Avropada I Olimpiya Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərarı tarixi hadisə və ölkəmizin böyük uğuru olmaqla yanaşı, həm də Azərbaycanın dünyada artan nüfuzunun və geniş imkanlarının beynəlxalq birlik tərəfindən qəbul edilməsinin əyani göstəricisidir.Prezident Ilham Əliyev 2013 ildə Böyük Britaniyanın nüfuzlu “The Business Year” jurnalı tərəfindən

dünyada "ilin adamı" elan edilmişdir. İlham Əliyev 2013 ilin oktyabrında seçicilərin əksər səsini qazanaraq üçüncü dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Azərbaycanın maraqlarını, milli dəyərlərimizi hər şeydən üstün sayan Prezident İlham Əliyev dövlətçilik ənənəsinə, varislik xəttinə yüksək əhəmiyyət vermiş, Azərbaycan Xalq Cümhuriyyətinə münasibətini Respublika günü ilə əlaqədar keçirilmiş rəsmi qəbuldakı çıxışında ( 27 may 2014**)** yenidən ifadə etmişdir: " Bu gün Azərbaycan dövləti möhkəm təməl üzərində qurulubdur. Bu təməl tarixə, xalqımızın əsrlər boyu yaratdığı dəyərlərə söykənir. Azərbaycan xalqı haqlı olaraq fəxr edir ki, müsəlman aləmində ilk demokratik respublika məhz Azərbaycanda yaradılmışdır. Azərbaycanın mütərəqqi nümayəndələri bu respublikanı yaratmışlar. Bu, tarixi hadisə idi. Doxsan altı il bundan əvvəl müsəlman aləmində ilk demokratik respublikanın yaradılması böyük hadisə idi və ondan sonra digər müsəlman ölkələrində respublika quruluşu yaradılmışdır. Ancaq ilk təcrübə məhz Azərbaycan xalqının istedadı, zəhməti, uzaqgörənliyi hesabına mümkün olmuşdur. Əfsuslar ki, respublikanın ömrü uzun olmamışdır. Azərbaycan cəmi iki il müstəqil ölkə kimi yaşamışdır. Ancaq bu illər ərzində böyük işlər görülmüşdür. Azərbaycan xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə həmişə böyük hörmətlə yanaşır və onların əziz xatirəsi həmişə bizim ürəyimizdədir. O illərdə demokratik təsisatlar qurulmuş, ordu quruculuğu sahəsində böyük işlər görülmüş, qadınlara səsvermə hüququ verilmişdir. Bir sözlə, Azərbaycanın gələcək uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır".

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını mürəkkəb siyasi dövrdə cərəyan edən hadisələrin və Azərbaycan xalqının milli oyanışının məntiqi yekunu kimi dəyərləndirən Prezident İlham Əliyev xalqımızın müstəqillik idealının erçəkləşdirilməsində,

Azərbaycanın tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun dirçəldilməsində, milli istiqlal ideyalarının geniş yayılmasında, Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkül tapmasında, onun beynəlxalq aləmin subyekti olaraq dünya dövlətləri tərəfindən tanınması və diplomatik münasibətlərinin qurulmasında böyük xidmətlər göstərmiş görkəmli ictimai-siyasi xadimlərimizin adlarının əbədiləşdirilməsi, yubileylərinin qeyd olunması haqqında sərəncamlar imzalamışdır. Əlimərdan bəy Topçubaşovun 150 illik, Məhəmməd Əmin Rəsulzadənin 130 illik, Əli bəy Hüseynzadənin 150 illik yubileylərinin dövlət səviyyəsində keçirilməsi Azərbaycan dövlətçiliyinə, istiqlaliyyətinə verilən önəm və yüksək dəyərdir.

Azərbaycan Respublikasının həm ölkə daxilində, həm də beynəlxalq arenada qazanılan möhtəşəm uğurlarının əsasında ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi düzgün daxili siyasət, balanslı və çevik xarici siyasət strategiyası və onun dünyanın yeni geosiyasi reallıqları nəzərə alınmaqla Prezident İlham Əliyev tərəfindən novatorcasına davam etdirilməsi kursu dayanır.

## § 2 . Müstəqil Azərbaycan Respublikası dünya birliyində

Azərbaycan milli müstəqilliyini bərpa etdikdən sonra müstəqil xarici siyasət yürütməyə başladı. Qısa bir müddətdə onu dünyanın əksər dövlətləri tanıdılar. Azərbaycan Respublikasının dövlət müstəqilliyini ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Respublikası, dekabrın 11-də Rumıniya, dekabrın 13-də Pakistan, dekabrın 23-də İsveçrə, dekabrın 25-də İran İslam Respublikası, 1992-ci ilin yanvarın 23-də ABŞ, aprelin 10-da 109-cu dövlət olaraq, Rusiya Federasiyası tanıdı. Artıq, 1993-cü ildə Azərbaycanın dövlət müstəqilliyini 116 dövlət tanımışdı. Indi o, rəsmi olaraq 160-

dan çox dövlətlə diplomatik əlaqə saxlayır.

Müstəqilliyin ilk vaxtlarında Azərbaycan Respublikasının xarici siyasət xəttinin formalaşmasına Dağlıq Qarabağ məsələsi güclü təsir göstərmişdi. Bu zaman Azərbaycan Respublikasının qarşısında duran birinci növbəli vəzifə istər qonşu və ya istərsə də qabaqcıl ölkələrdən bu problemi sülh yolu ilə həll etməkdə işğalçı Ermənistana səmərəli təsir göstərəcək dövlət axtarışında olmaq təşkil edirdi. Azərbaycan Respublikasının əvvəlki prezidentləri A.Mütəllibovun və Ə.Elçibəyin ilk xarici səfərləri bu məqsəd güdmüşdü.

Dağlıq Qarabağ münaqişəsi sonralar da Azərbaycan Respublikasının xarici siyasətində mühüm yer tutmuş və yenə də tutmaqdadır. Lakin, sonradan Xalq Cəbhəsi – "Müsavat" birliyinin hakimiyyəti vaxtı müəyyən səbəblər üzündən Rusiya və İranla münasibətlərin soyuması Azərbaycanın xarici siyasətinə müəyyən zərər gətirmişdi.

Ulu öndər Heydər Əliyev Azərbaycan rəhbərliyinə gəldikdən sonra xarici siyasətdə də köklü dəyişikliklər baş verdi. Tarazlaşdırılmış, çevik xarici siyasət xətti əsas götürüldü. Bu xətt indi də Ulu öndərimizin varisi Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilməkdədir.

Respublika iqtidarı Azərbaycanı dünya miqyasında tanıtmaq və problemlərini həll etmək naminə xarici siyasətində Qərb meylini gücləndirməklə yanaşı, qonşu və Şərq dövlətləri ilə də əməkdaşlıq münasibətlərini genişləndirirdi. Onun xarici siyasətində Türkiyə ilə münasibətlər xüsusi yer tutur.O, Türkiyəyə dünya siyasəti meydanına çıxmaqda və ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsini sülh yolu ilə həll etməkdə dayaq nöqtəsi kimi baxır. Bu dost və qardaş ölkə Azərbaycanın siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf-müqabilidir. Bu münasibətlər həm dünyada, həm də bölgədə sülhün, əmin-amanlığın bərqərar olmasına xidmət edirdi və

xidmət etməkdədir. Əslində Azərbaycan–Türkiyə münasibətləri Ulu öndər Heydər Əliyevin ″bir millət, iki dövlət″ devizi ilə müəyyən olunmuş müstəvidə inkişaf etməkdədir.

Azərbaycan İran İslam Respublikası ilə də normal siyasi, iqtisadi və mədəni münasibətlərin qaydaya düşməsinə daim diqqətlə yanaşmışdır. İranın düşmən Ermənistanla hərtərəfli isti münasibətlər yaratmasına və Xəzərin statusu məsələsində fikir ayrılığına baxmayaraq, Azərbaycan onunla qonşuluq münasibətlərini yaxşılaşdırmağa çalışmaqdadır. ″Azərbaycan Respublikası ilə İran Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında″ 2002-ci il mayın 20-də imzalanmış müqavilə iki dövlət arasında əlaqələrin nizamlanmasında mühüm addım olmuşdu. Bununla yanaşı, Cənubi Azərbaycanda yaşayan on milyonlarla soydaşlarımızın milli hüquqlarının pozulmasının davam etməsi də yaddaşlarımızda yaşamaqdadır.

Azərbaycan Respublikası hələ də imper siyasətindən əl çəkməyən Rusiya Federasiyası ilə 1993-cü ilin ikinci yarısından etibarən əsası qoyulmuş tarazlı xarici siyasət münasibətlərini davam etdirməkdədir.

Rusiyanın 1994-cü ilin sonlarından Azərbaycana dəmir, şosse və dəniz yollarını bağlamaq kimi ciddi iqtisadi sanksiyalar tətbiq etməsinə, 1994-1996-cı illərdə – atəşkəs şəraitində Ermənistana bir milyard dollarlıq müxtəlif növ müasir silah və hərbi sursatlar verməsinə, orada öz hərbi bazalarını yerləşdirməsinə və onları daim modernləşdirməsinə, Rusiya–İran–Ermənistan strateji əməkdaşlıq yaratmasına baxmayaraq, Azərbaycan dözüm və çətinliklə əldə etdiyi müstəqilliyini qorumaq və möhkəmləndirmək naminə Rusiya ilə tarazlı münasibətlərini davam etdirmişdi. 1997-ci ilin iyulunda Moskvada Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında ″Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında″

saziş imzalandı. Elə həmin ilin avqustunda Rusiya Ermənistanla ″Dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında″ müqavilə imzaladı.Bu, Azərbaycanı narahat etməyə bilməzdi. Məhz buna görə də Ulu öndər  Prezident Heydər Əliyevin ciddi səyləri sayəsində Rusiya Federasiyasının Hərbi naziri 2001-ci ilin may ayında Bakıda səfərdə olarkən rəsmi olaraq, Ermənistan və Azərbaycan arasında silahlı münaqişə olarsa, Rusiyanın bitərəf qalacağını elan etdi.

Rusiya Federasiyasının Prezidenti V.Putinin 2001-ci ilin yanvarında, RF-nin indiki Prezidenti D.Medvedyevin 2008-2010-cu illərdə Azərbaycana rəsmi səfərləri, Azərbaycan Respublikasının Prezidentləri Heydər Əliyev və İlham Əliyevin Moskvaya rəsmi gedişləri, səfərlər zamanı Rusiya ilə Azərbaycan arasında siyasi, iqtisadi və mədəni sahələrdə bir sıra strateji və faydalı sazişlərin imzalanması Azərbaycan–Rusiya əlaqələrinin bütün istiqamətlərinin daha da inkişaf etdirilməsi üçün geniş imkanlar yaratmışdı. Lakin, bunlara baxmayaraq, Rusiya Azərbaycan–Rusiya münasibətlərinə xələl gətirən əməllərindən əl çəkmir. O, təcavüzkar Ermənistanı silahlandırmaqda davam edir. Bu yaxınlarda müəyyən olunduğuna görə, Rusiya 2008-ci ildə Ermənistana 69 adda 800 milyon dollarlıq silah vermişdir.Hətta 2010-cu ilin avqustunda Rusiya ilə Ermənistan arasında bağlanmış hərbi müqavilənin müddəti 49 ilə müəyyən edilmişdir. Sözsüz ki, hələ 2008-ci il noyabrın 2-də Azərbaycan və Ermənistanla birgə Dağlıq Qarabağ münaqişəsinin siyasi yola həllinin vacibliyini elan etmiş Bəyannaməyə imza atan bir ölkə üçün bu çox müəmmalı və təəccüblüdür.

Azərbaycan Respublikası dünya birliyində öz bərabərhüquqlu yerini tutmaq və  ″Dağlıq Qarabağ″ münaqişəsini sülh yolu ilə həllinə öz səmərəli təsirini göstərəcək iri dövlətlərlə, o cümlədən ABŞ, Böyük Britaniya, Fransa, Almaniya  və b. ölkələrlə də sıx münasibətlər yaratmağa başladı. Azərbaycan iri dövlətlərin təzyiqinə, imper gedişlərinə qarşı məharətlə apardığı müstəqillik,

″açıq qapı″ siyasəti sayəsində bölgədə, beynəlxalq aləmdə yüksək nüfuz qazanmağı başlıca məqsəd seçmişdi. 1994-cü ilin sentyabrında Bakıda qabaqcıl dövlətlərin bir sıra neft şirkətləri ilə imzalanmış ″Əsrin müqaviləsi″ bu yolda çox mühüm rol oynamışdı. ″Əsrin müqaviləsi″ öz məzmunu və məqsədinə görə yalnız iqtisadi deyil, həm də siyasi, diplomatik əhəmiyyət kəsb edirdi.

1992-ci ilin fevralında Azərbaycan Respublikası ilə ABŞ arasında səfirlik səviyyəsində diplomatik əlaqə yaradıldıqdan sonra ABŞ-ın ″AMOKO″, ″PENZOYL″, ″EKSON″, ″YUNOKAL″ kimi neft şirkətləri ″Əsrin müqaviləsi″ndə başlıca yer tutmağa başladılar. Azərbaycanın xarici neft şirkətləri ilə bağladığı 19 müqavilədən 14-də ABŞ şirkətləri iştirak edirdi. 1997-ci ilin avqustunda Azərbaycan və ABŞ prezidentləri tərəfindən Ağ Evdə iki ölkə arasındakı münasibətlərin əsas prinsip və istiqamətlərini müəyyən edən ″Amerika–Azərbaycan münasibətləri haqqında″ birgə bəyanatın imzalanması onlar arasındakı əlaqələrin inkişafında mühüm rol oynamışdı. 2001-ci il sentyabrın 11-də Nyu-York və Vaşinqton şəhərlərində terror hadisələrindən sonra Azərbaycanın, ABŞ tərəfindən beynəlxalq terrorizmə qarşı elan olunmuş mübarizəyə qoşulması münasibətlərin daha da istiləşməsinə səbəb oldu. Oktyabr ayının sonlarında ABŞ Prezidentinə konqresin Azərbaycana tətbiq edilməsinə dair, hələ 1992-ci ildə qəbul etdiyi Azadlığı Müdafiə Qanununa ″907-ci əlavə″ni müvəqqəti olaraq dayandırmaq üçün səlahiyyət verildi. ABŞ Prezidenti 2002-ci il yanvarın 28-də və növbəti dəfə 2003-cü il yanvarın 17-də ona verilmiş səlahiyyəti gerçəkləşdirdi. Az sonra ABŞ Azərbaycana silah satışına qoyulmuş qadağanı aradan götürdü. Təhlükəsizlik tədbirlərində Azərbaycana yardım etməyə başladı.

Birinci dəfə prezident seçkilərindən sonra İlham Əliyevin bu ölkəyə rəsmi səfəri ABŞ və Azərbaycan münasibətlərinə yeni istilik

verdi.

Böyük Britaniyanın  müstəqil Azərbaycan Respublikası ilə ilk əlaqəsi 1992-ci ilin sentyabrında ″dəmir Ledi″ M.Tetçerin Bakıya kəşfiyyat xarakterli, nəticəsi olmayan səfəri zamanı başlamışdı. Prezident Heydər Əliyevin 1994-cü ilin fevralında  Londona səfəri zamanı Böyük Britaniya ilə neft çıxarılması sahəsində əməkdaşlıq haqqında memorandumun imzalanmasından sonra iki ölkə arasında əlaqələr genişləndi. 1998-ci ilin sentyabrında Azərbaycan Respublikasının Prezidenti ″Böyük Britaniya ilə tərəfdaşlıq münasibətlərini genişləndirmək tədbirləri haqqında″ xüsusi sərəncam imzaladı. Bu sərəncama əsasən 2001-ci ilin sonları üçün 200 ingilis şirkəti Azərbaycana bir milyard dollardan çox investisiya yatırtmışdı, ticarət dövriyyəsi təqribən 90 milyona çatdırılmışdı.

Fransa Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti olaraq, ilk səfər etdiyi ölkə olmuşdu. Bundan sonra Azərbaycan–Fransa əlaqələri daha da genişləndi. Fransa ATƏT-in Minsk qrupunun üzvü kimi daim Azərbaycanla əlaqədə olmuşdu. 1997-ci ilin yanvarında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Fransa Prezidenti Jak Şirak arasında iqtisadi əməkdaşlıq, xüsusən, Xəzər dənizində neft yataqlarının birgə mənimsənilməsi barədə saziş imzalandı. Artıq 2001-ci ildə Fransa Xəzərdə enerji layihələrinin və aqrar bölmənin inkişafına 90 milyon dollar kapital qoymuşdu. Azərbaycanla Fransa arasında ticarət dövriyyəsi təqribən 93 milyon dollar təşkil etmişdi.

Azərbaycan Respublikası Almaniya ilə də yaxşı münasibətlər yaratmışdı. Bu əlaqələrin əsası 1995-ci ilin dekabrında iki dövlətin Xarici İşlər nazirləri (H.Həsənov və K.Kingelin) arasındakı danışıqların nəticəsi olaraq, qəbul etdikləri birgə bəyanatla qoyulmuşdu. O, 1996-cı ilin yayında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Almaniyaya səfərindən sonra daha genişlənmişdi. Hətta, 2001-ci ilin dekabrında Berlində Azərbaycanla

Almaniya arasında iqtisadi əməkdaşlıq barədə protokol imzalanmışdı. Sazişə görə Almaniya Gəncə və Şəki şəhərlərində kommunal infrastrukturun inkişafına 31,5 milyon marka investisiya qoymağı öhdəsinə götürmüşdü. 2001-ci ildə Azərbaycan–Almaniya ticarət dövriyyəsi təqribən 86 milyon dollar təşkil etmişdi.

Azərbaycan Respublikası dünya birliyinin müstəqil, bərabərhüquqlu dövləti kimi beynəlxalq və regional təşkilat və qurumlarda təmsil olunmaq, öz hüquqi yerini təmin etmək sahəsində də ardıcıl və məqsədyönlü fəaliyyət göstərmişdi. O, 1991-ci ilin dekabrında İslam Konfransı Təşkilatına, 1992-ci ilin yanvarında ATƏM-ə (1994-cü ildən ATƏT), fevralında İran, Türkiyə və Pakistanın daxil olduğu İqtisadi Əməkdaşlıq Təşkilatına, martında BMT-yə, NATO-nun Şimali Atlantika Əməkdaşlıq Şurasına (1997-ci ildən Avropa–Atlantika Tərəfdaşlıq Şurası – (AATŞ)), noyabrında Avropa Olimpiya Komitəsinə,1993-cü ilin sentyabrında MDB-yə (Müstəqil Dövlətlər Birliyi), 1995-ci ilin iyununda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına, 1997-ci ilin noyabrında özünün də təşəbbüsü ilə təsis olunmuş GUAM-a, 2001-ci ilin yanvarında Avropa Şurasına, 2002-ci ilin noyabrında NATO-nun Parlament Assambleyasının Assosiatıv Üzvlüyünə qəbul olunmuşdu.

Bunlardan başqa Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq İnkişaf Assosiasiyası, BMT-nin Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, YUNESKO, YUNİSEF, İnkişaf Proqramı (BMT İP), Beynəlxalq Əmək Təşkilatı ((MOT), Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Ümumdünya Səhiyyə Təşkilatı (VOZ), Beynəlxalq Mülki Hava Yolları Təşkilatı (İKAO), Ümumdünya Meteoroloji Təşkilatı (VMO), TASİS Proqramı və b. təşkilatları ilə əlaqələr yaratmışdı. O, TRASEKA (Avropa–Qafqaz–Asiya) Nəqliyyat Proqramının, keçmiş "İpək yolu"nun gerçəkləşdirilməsində fəal iştirak etmiş və iştirak

etməkdədir.

Beynəlxalq və region təşkilat və qurumların üzvü olmaqda və onların fəaliyyətində iştirak etməkdə məqsəd, birinci növbədə, müstəqil bir dövlət kimi Azərbaycan Respublikasının dünya birliyində öz hüquqi yerini təmin etməkdən, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaqdan, beynəlxalq və region qurumlarla iqtisadi, sosial, mədəni və humanitar əlaqələr yaratmaqdan, keçid dövrünün problemlərini həll etməkdə, Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini dinc yolla həll olunmasında onların təcrübəsindən istifadə etməkdən, nəhayət, onların səy, yardım və təşəbbüskarlığından istifadə etməkdən ibarət idi.

Azərbaycan Respublikasının dünya birliyi civarındakı fəaliyyətində 200-ə qədər dövlətin üzv olduğu BMT ilə münasibətləri müstəsna yer tutur. Azərbaycan 1945-ci ildən fəaliyyət göstərən bu təşkilatda daimi nümayəndəliyini 1992-ci lin mayında açmışdı. Prezident Heydər Əliyevin səyi sayəsində 1995-ci ilin yayında erməni-azərbaycan münaqişəsinin müzakirəsi zamanı BMT-nin 184 üzvündən 100-ü Azərbaycanın ədalətli mövqeyini dəstəkləmişdi.

BMT-nin üzvləri ilə ardıcıl iş aparılması sayəsində Azərbaycan Respublikası Ermənistan--Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin təcili, tamamilə və danışıqsız zəbt olunmuş ərazilərdən çıxarılmasını tələb və Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığını təsdiq edən dörd (822, 853, 874 və 884 saylı) qətnaməsinin qəbul etməsinə nail olmuşdu. 822 saylı qətnamə erməni silahlı qüvvələrinin Kəlbəcərin, 853 saylı qətnamə  Ağdam rayonunun, 874 saylı qətnamə Fizuli, Cəbrayıl və Qubadlının və 884 saylı qətnamə isə  Zəngilan rayonunun işğalı ilə əlaqədar qəbul olunmuşdu.

BMT – Təhlükəsizlik Şurasının sözügedən qətnamələrdən heç biri hələ də yerinə yetirilməmişdir.

1992-ci ilin avqustunda BVF və DB-yə daxil olan Azərbaycan BMT-nin bu təşkilatları ilə sıx iqtisadi əlaqələr yaratmışdı. 1994-1995-ci illərdə BVF-dan Azərbaycanda 21 nümayəndəlik olmuşdu. 1995-ci ilin aprelində BVF iqtisadi islahatlar aparmaq və respublikanın mikroiqtisadiyyatını sabitləşdirmək məqsədilə Azərbaycana 46 milyon dollarlıq kredit ayırmışdı. Əhalinin sağlamlığını qorumaq və digər sosial problemlərin həlli üçün də BMT-nin müvafiq qurumları (VOZ, YUNİSEF) Azərbaycana yardım etmişdilər.

BMT erməni şovinistləri və qəsbkarlarının təqsiri üzündən Azərbaycana pənah gətirmiş bir milyondan çox qaçqın və məcburi köçkünlərə maddi və sosial yardım sahəsində böyük işlər görmüşdü. BMT-nin MOT (BƏT), UST, BOZ (VST) və YUNESKO və YUNİSEF qurumları bu sahədə fərqlənmişdilər. 1994-cü ilin aprelindən – 1995-ci ilin martınadək YUNİSEF Azərbaycana 7 milyondan çox ABŞ dolları həcmində yardım göstərmişdi.

YUNESKO respublikada təhsil islahatları proqramlarının hazırlanmasında fəal iştirak etmişdi. Azərbaycan 1994-cü ilin iyununda YUNESKO-nun Avropa üzrə Komitəsinin VII sessiyasında həmin Komitənin üzvü seçilmişdi. 1996-cı ildə Azərbaycanda YUNESKO ilə əlaqələri möhkəmləndirmək üçün Milli Komitə yaradılmışdı. YUNESKO 1996-cı ilin fevralında Parisdə Azərbaycan poeziyasının dahisi M.Füzulinin 500 illiyinə həsr olunmuş sərgi təşkil etmişdi. Azərbaycan 1997-ci ilin aprelində Strasburqda «Avropada mədəni əməkdaşlıq haqqında» Konvensiyaya imza atmışdı.

2002-ci ilin sentyabrında Azərbaycan Respublikası BMT-nin «İqtisadi və sosial Şurasına» üzv seçilmişdi.

Dünya birliyinin beynəlxalq təşkilatlarından olan ATƏT də

müstəqil Azərbaycan Respublikasının əməkdaşlıq etdiyi qurumlardan idi. O, hələ 1975-ci il avqustun 1-də Finlyandiyanın paytaxtı Helsinkidə təsis edilmişdi. Onun məqsədi Avropada təhlükəsizliyi və əməkdaşlığı təmin etmək idi. Onun yekun aktını 35 ölkənin (33 Avropa+ABŞ, Kanada) nümayəndələri imzalamışdı. 1986-cı ildə üzvlərinin sayı 54-ə çatmışdı. Onun əsas prinsiplərini: bərabərhüquqlu suverenlik, güc tətbiq etməmək və təhlükəyə yol verməmək, sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, mübahisəli məsələləri dinc yolla həll etmək və s. təşkil edirdi.

Azərbaycan ATƏT-ə 1992-ci il yanvarın 20-də qəbul edilmiş, iyulun 10-da isə onun yekun aktını imzalamışdı. Azərbaycan Respublikası diplomatiyası bu təşkilatda əməli fəaliyyətə ulu öndərimiş Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə gəlişindən sonra başlamışdı.

1992-ci il martın 24-də ATƏT Şurasının qərarı ilə ATƏT-in himayəsi altında Dağlıq Qarabağ üzrə Minsk konfransı çağrılmışdı. Onun başlıca vəzifəsi Ermənistan-Azərbaycan münaqişəsini nizamlamaqdan, problemin həlli üçün müvafiq sənədlər hazırlamaqdan ibarət idi.

Minsk qrupunun tərkibinə 11 ölkə: ABŞ, Almaniya, Azərbaycan, Belorus, Çexiya, Ermənistan, İtaliya, İsveç, Rusiya daxil idi. Sonradan onun tərkibinə Danimarka, Finlyandiya və Polşa qoşulmuşdu. Minsk qrupunun həmsədrləri vəzifələrini 1994-cü ilin dekabrından iki ölkə – Rusiya və Finlyandiya yerinə yetirmiş, 1997-ci ildən isə üç ölkənin – Rusiya, ABŞ, və Fransa yerinə yetirməkdədir. Müvafiq olaraq ATƏT-in Minsk konfransının da həmsədrləri vardır.

Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi yollarının axtarılması baxımından Azərbaycan üçün ən səmərəlisi ATƏT-in Budapeşt (1994-cü il 5-6 dekabr) və Lissabon (1996-cı il 2-3 dekabr) sammitləri olmuşdu. Budapeştdə Dağlıq Qarabağ problemi

ilk olaraq sammitin gündəliyinə çıxarılmış və xüsusi məsələ kimi müzakirə olunmuşdu. Sammitdə "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətini səmərələşdirmək" barədə qətnamə qəbul edilmişdi. ATƏT-in Lissabon sammitində Azərbaycan yenə də Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması barədə məsələnin gündəliyə daxil edilməsinə nail olmuşdu. Ulu öndərimiz Heydər Əliyevin başçılığı ilə Azərbaycan nümayəndəliyinin səyi sayəsində Lissabon sammitinin yekun bəyənnaməsinə 20-ci paraqraf əlavə olunmuşdu. Nəticədə, Ermənistan istisna olmaqla bütün sammit iştirakçıları Dağlıq Qarabağ münaqişəsini həll etməyin təklif olunan üç prinsipinə: 1) Azərbaycan Respublikasının və Ermənistanın ərazi bütövlüyü; 2) Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək status verilməsi; 3) Dağlıq Qarabağ əhalisinin bütün vətəndaşlarının təhlükəsizliyinə zaminlik verilməsinə səs vermişdilər.

Azərbaycan Respublikası dünya birliyinin ən nüfuzlu təşkilatlarından biri olan Avropa Şurasına üzv olmaq üçün də ciddi səy göstərmişdi. Çünki, Azərbaycanın bu quruma daxil olması, Avropa tərəfindən onun avropa demokratiyası standartlarına müvafiq dövlət kimi tanınması demək olardı. Bunu nəzərə alaraq, Bakı hələ 1992-ci ilin yanvarında rəsmi olaraq Avropa Şurasına, ona «xüsusi dəvət olunan» statusu verilməsi barədə xahişlə müraciət etmişdi. Lakin, müəyyən səbəblər üzündən, xüsusən erməni-azərbaycan münaqişəsinin davam etdiyindən xahiş ödənilməmişdi. 1994-cü ilin yanvarında Strasburqda Avropa Şurası Komissiya üzvləri ilə münaqişə tərəflərinin nümayəndələri arasında görüş keçirilmişdi. Həmin ilin iyununda isə Azərbaycanın parlament nümayəndəliyi Avropa Şurasının Strasburqdakı igamətgahında qeyri-rəsmi məşvərətlərində iştirak etmişdi.

Avropa Şurası ilə münasibətlərin canlanmasında 1995-ci ilin noyabrında Azərbaycanın hökuməti səviyyəsində nümayəndəliyin

Strasburqa səfərinin mühüm rolu olmuşdu. 1996-cı ildə Azərbaycan qanuni olaraq demokratiya uğrunda Avropa Komitəsinin (Vena Komissiyası) işinə cəlb olunmuşdu. O, Vena Komissiyasının 1996-cı il martın ilk günlərində olan iclasında bir sıra qanunların tərtibində ekspert yardımı göstərilməsini və komissiyada ona assisiativ üzvü olmaq hüququ verilməsini xahiş etmişdi. 1997-ci ilin yanvarında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndəliyi Avropa Şurası Parlament Assambleyasının sessiyasında iştirak etmişdi. 2000-ci ilin martında Azərbaycan Respublikası Milli Məclisi ″Azərbaycanın Avropa Şurasına qəbul edilməsi barədə müraciət″in layihəsini bəyənmiş və öz üzərinə insan haqlarının təmin olunmasına zaminlik və bütövlükdə dövlətin demokratik inkişafı üzrə bir sıra öhdəliklər götürmüşdü. Nəhayət, 2001-ci ilin yanvarın 25-də Strasburqda Azərbaycan Respublikasının Avropa Şurasına daxil olması barədə qəti qərar qəbul edilmişdi. Bundan sonra Azərbaycan Respublikası Avropa Şurasında geniş və ciddi fəaliyyət göstərməyə başlamışdı. Azərbaycanın Avropa Şurasında Parlament nümayəndəliyi təşkil olunmuşdu. Onun ilk rəhbəri Azərbaycan Respublikasının indiki prezidenti cənab İlham Əliyev olmuşdu. Öz işgüzarlığı ilə Avropa Şurasında böyük nüfuz qazanmış İlham Əliyev iki ildən sonra – 2003-cü ilin yanvarın 27-də bu təşkilatın Parlament Assambleyası sədrinin müavini və büro üzvü seçilmişdi.

Azərbaycan nümayəndə heyəti Ermənistanın təcavüzkar və işğalçı siyasətini ifşa etmək üçün Avropa Şurası tribunasından məharətlə istifadə edir. 2001-ci il aprelin 24-də Azərbaycan nümayəndə heyəti Avropa Şurası tribunasından Ermənistanın azərbaycanlılara qarşı soyqırım siyasəti yeritdiyini, işğal olunmuş Azərbaycan ərazisində, o cümlədən Dağlıq Qarabağda narkotik maddələr istehsal və ixrac etdiyini, bu vasitə ilə əldə olunan vəsaitlə ordu saxladığını, terrorçu dəstələr təşkil edib onlara təlim keçdiyini

əsaslandırılmış şəkildə bütün dünyaya bəyan etmişdi. May ayında Avropa Şurası Nazirlər Komitəsinin 108-ci sessiyası Azərbaycanın təşəbbüsü ilə Avropa dövlətlərinin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən xüsusi kommunike qəbul etmişdi. İyun ayında Avropa Şurası Parlament Assambleyasının sessiyasında Ermənistanın işğal etdiyi Azərbaycanın ərazilərində törətdiyi vandalizmi – tarix və mədəniyyət abidələrini, qəbirstanlıqları dağıtmasını, təbiətin vəhşicəsinə korlanmasına şərait yaratması barədə faktlarla ifşa edilmişdi. Avropa Şurası Parlament Assambleyasının 2001-ci il sentyabrın 25-dəki iclasında isə erməni terrorizmi, terrorçu erməni ″ASALA″ təşkilatının azərbaycanlılara qarşı törədilmiş terror və soyqırımı aktlarında iştirakı vurğulanmışdı. Göstərilmişdi ki, məhz həmin təşkilatın iştirakı ilə Azərbaycanda iki min nəfərin ölümünə, on minlərlə adamın yaralanmasına səbəb olan 32 terror aktı törədilmişdi. Bir il yarım müddətində Avropa Şurası Parlament Assambleyasında Ermənistanın terrorçu dövlət adlandırıldığı 12 sənəd qəbul edilmişdi. 2002-ci ilin sentyabrında Avropa Şurası Parlament Assambleyasının sessiyasında müzakirə olunan Azərbaycan haqqında məruzədə ilk dəfə Azərbaycan torpaqlarının işğal olunduğu vurğulanmışdı. Ermənistanın Azərbaycana qarşı təcavüz etdiyi və işğal nəticəsində Azərbaycanın bir milyondan çox qaçqın olduğu göstərilmişdi.

Azərbaycan Respublikasının Avropa birliyi (1998-ci ilin noyabrından Avropa İttifaqı) ilə də əlaqələr yaratmışdı. Avropa birliyi SSRİ çökdükdən sonra, 1991-ci il dekabrın 31-də Azərbaycan Respublikasını tanımışdı. 1995-ci ilin iyununda Avropa İttifaqının Lüksemburqda toplanmış Şurası xarici işlər nazirləri səviyyəsində Cənubi Qafqaz üzrə ″ümumi mövqe″ layihəsini qəbul etmişdi. Sənəddə göstərilmişdi ki, Avropa İttifaqı Cənubi Qafqaz respublikalarında iqtisadi islahatlara gələcəkdə də dəstək verəcək

və onlara humanitar yardım edəcəkdir. 1996-cı ilin aprelində Lüksemburqda Avropa İttifaqı və Cənubi Qafqaz respublikaları, o cümlədən Azərbaycan arasında əvvəlcə 10 il müddətinə tərəfdaşlıq və əməkdaşlıq haqqında ikitərəfli sazişlər imzalanmışdı. Hətta, Avropa Parlamentində bu respublikalarla əlaqə üzrə xüsusi komissiya da yaradılmışdı.

Azərbaycanla Avropa İttifaqı arasında başlanmış tərəfdaşlıq və əməkdaşlıq sazişi 1999-cu ilin yanvarından qüvvəyə minmişdi. 1992-1999-cu illərdə Azərbaycana Avropa İttifaqından 303 milyon ekyu (yevro) yardım olmuşdu. 2002-ci ildə Avropa İttifaqı və Azərbaycan Respublikası arasında imzalanmış ″Tərəfdaşlıq və əməkdaşlıq″ sazişinin yerinə yetirilməsinə dair milli proqram hazırlanmışdı. O, Azərbaycanın Avropaya inteqrasiyası üçün yeni perspektivlər açmışdı.

Azərbaycan Respublikası hələ 1949-cu ildən fəaliyyət göstərən NATO (Şimali Atlantika İttifaqı) ilə əlaqələr yaratmışdı. O, 1992-ci ildə Əməkdaşlıq Şurasına qoşulmuşdu. 1994-cü ilin mayında Azərbaycan NATO-nun avropada və dünyada sülhün, əmin-amanlığın bərqərar olunması naminə ″Sülh naminə tərəfdaşlıq″ proqramına qəbul edilmişdi, may ayında isə bu proqramın Çərçivə sənədinə imza atmışdı. Azərbaycan hərbi sahədə də NATO ilə əməkdaşlıq etməyə səy göstərmişdi.

Azərbaycan Respublikası uğursuz MDB-nin üzvüdür. O, bu təşkilata 1993-cü il sentyabrın 24-də daxil olmuşdu. Qeyd edək ki, keçmiş SSRİ-ni yeni şərait və formada bərpa etmək məqsədi ilə yaradılmış bu təşkilat daxilində üzv dövlətlərin (keçmiş müttəfiq respublikaların) bərabərhüquqlu əməkdaşlığını hələ lazımınca təmin edə bilməmişdi. Təşkilatın subyektlərindən bəzilərinin, o cümlədən Ermənistan və Azərbaycan, Rusiya Federasiyası və Gürcüstan arasında münaqişələr hələ də davam etməkdədir. Rusiyanın imper

və ikili siyasəti onların sıx birliyini təmin etməyə, birgə sosial-iqtisadi və mədəni fəaliyyətinə imkan vermir.

Azərbaycan Respublikası regional təşkilatlarda da, o cümlədən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında (QİƏT), Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın daxil olduğu GUAM-da, TRASEKA "Qərb-Şərq" Proqramında işgüzar fəaliyyət göstərməkdədir.

Artıq XXI əsrin əvvələri üçün Azərbaycan Respublikasını dünyanın 160-dan çox dövləti tanımışdı. O, 70-dən çox xarici dövlətlə diplomatik əlaqə yaratmışdır. Təkcə Bakı şəhərində 30-a qədər ölkənin səfirliyi fəaliyyət göstərir. Azərbaycan Respublikasının isə 65-dən çox ölkədə, o cümlədən ABŞ-da, Almaniyada, Böyük Britaniyada, Fransada, İranda, İrlandiya Krallığında və b. ölkələrdə səfirliyi, baş konsulluğu və daimi nümayəndəlikləri yaradılmışdır.

Azərbaycan Respublikası 15-dən çox beynəlxalq və regional təşkilat və qurumların üzvü olaraq, fəaliyyət göstərir.

Beləliklə, Azərbaycan müstəqil dövlət kimi dünya birliyində öz hüquqi və qanuni yerini təmin etmiş, onun bərabərhüquqlu üzvü kimi bəşər sivilizasiyasına öz iqtisadi, mədəni, intellektual töhfələrini verməyə nail olmuşdur.

Müstəqil Azərbaycan Respublikasını dünya miqyasında tanıtdırılmasında, onun dünya birliyində öz bərabərhüqunlu və oturuşmuş yerini tutmasında, Azərbaycan həqiqətlərinin, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin köklərinin, səbəb və məqsədlərinin dünya ictimaiyyətinə obyektiv olaraq çatdırılmasında Ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. O, tarixi sənədlər, səfərlər zamanı özü ilə gəzdirdiyi xəritələr vasitəsilə görüşlər keçirdiyi dövlət xadimlərinə və müxtəlif rəngli insanlara Azərbaycan həqiqətlərini çatdırmışdır. Ulu öndər Heydər Əliyev 68 ölkənin prezidenti, hökumət başçısı ilə

485 görüş keçirmiş, Azərbaycanın üzv olduğu beynəlxalq qurumların sessiyalarında, zirvə toplantılarında iştirak etmişdi. Ulu öndərimiz 1993-2000-ci illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsini ABŞ rəhbərliyi ilə 18, Fransa rəhbərliyi ilə 16, Rusiya rəhbərliyi ilə 28, Türkiyə rəhbərliyi ilə 78 dəfə müzakirə etmiş, ATƏT-in rəhbərliyi və Minsk qrupunun həmsədrləri ilə 130-dan çox görüş keçirmişdi.

Ulu öndərin xarici siyasət kursunun varisi Prezident İlham Əliyev tərəfindən tükənməz fiziki qüvvə, yüksək intellektual dərrakə, yaradıcı təfəkkür, düşünülmüş tarazlı və çevik diplomatik gedişlərlə layiqincə davam etdirilməkdədir. Son 8 ildə Azərbaycan Respublikasının xarici siyasət sahəsində qazandığı uğurlar bunu tamamilə təsdiq edir.

Memarı Ulu öndər Heydər Əliyevin olduğu yeni neft strategiyası daha da inkişaf etdirilmiş, Xəzər neft və qazının Avropaya ötürülməsinin yeni: Türkiyə–Yunanıstan–İtaliya, Odessa–Brodi–Platsk–Qdansk, Nabukko, ″Cənub axını″ və digər boru kəmərlərinin reallaşdırılması üçün marağı olan dövlətlər arasında danışıqlar aparılmaqdadır. ″Qərb–Şərq″ proqramının həyata keçirilməsində mühüm rol oynayan Bakı–Tbilisi–Qars dəmir yolunun çəkilişi gerçəkliyə çevrilməkdədir. Müstəqil Azərbaycanın daha da inkişafı və nüfuzunun artırılması naminə Prezident İlham Əliyev dünya birliyinə daxil olan ölkələrin dövlət və hökumət başçıları ilə 2000 - ə yaxın rəsmi görüşlər keçirmiş, beynəlxalq və region təşkilatlarda, beynəlxalq və dövlətlərarası sammitlərdə və zirvə yığıncaqlarında məruzələrlə çıxış etmiş, müzakirələr aparmışdır. O, Ermənistanın işğalçı olması faktının BMT Təhlükəsizlik Şurasının və Avropa Şurasının sənədlərində ilk dəfə əks etdirilməsinə nail olmuş, 2008-ci il noyabrın 2-də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Rusiya Federasiyası, Azərbaycan və Ermənistan prezidentlərinin Moskva Bəyannaməsinə imza atmışdır.

2009 – cu ildə Ermənistan prezidenti ilə 9 görüş keçirmişdir. Prezident İlham Əliyevin Rusiyanın vasitəsilə 2010 – cu ilin yanvarın 25 – də Soçidə Ermənistan prezidenti ilə keçirdiyi görüş də yadda qalandır.

2010-cu il iyunun 18-də İlham Əliyev, Serj Sarkisyan və Dmitri Medvedevin iştirakçılığı ilə Rusiyada üçtərəfli sülh danışıqları keçirimişdi. Lakin bu danışıqlar növbəti dəfə uğursuzluqla bitmişdi. Sankt-Peterburq sülh danışıqlarından sonra İlham Əliyevin Maliyyə forumunda iştirak etmədən Rusiyanı tərk etmişdi.

2011 yanvarın 17-də Azərbaycan Respublikası Avropa Şurasına daxil olmuşdu.

24 oktyabr 2011-ci ildə AR-ın Azərbaycan Respublikası 155 səslə 2012-2014-cü illər üçün BMT Təhlükəsizlik Şurasının 10 qeyri-daimi üzvündən biri seçilmişdi.

2012-ci il yanvarın 1-də Azərbaycan Respublikası BMT-nin Təhlükəsizlik Şurasına 10 qeyri-daimi üzvlərindən biri kimi (2 illik) səlahiyyətlərinin icrasına başlamışdı.

31 yanvar 2012-ci ildə Meksika Senatı Xocalı soyqırımını rəsmən tanımaq barədə qərar qəbul etmişdir. Bu, Xocalı soyqırımının xarici parlament tərəfindən qanunvericilik aktı səviyyəsində tanınmasına dair ilk faktdır.

2012-ci il fevralın 1-də Pakistan Senatı "Pakistan-Azərbaycan münasibətləri" ilə bağlı dinləmələr keçirmişdir. Pakistan Senatı "Azərbaycan Respublikasının ərazilərinin 20 faizinin işğalı və ermənilər tərəfindən törədilmiş Xocalı soyqırımı" adlı qətnamə qəbul etmişdi.

2 may 2012-ci ildə 1 ay ərzində BMT-yə sədrlik Azərbaycana keçmişdi. Azərbaycanın sədrliyi ilə keçirilən iclaslarda Yaxın Şərqdə vəziyyət və nüvə silahının yayılmaması, Balkanlarda son durum, Suriya böhranının nizamlanmasına dair ciddi müzakirələr aparılmış, BMT Təhlükəsizlik Şurasının terrorçuluğa qarşı

mübarizəyə həsr olunmuş yüksək səviyyəli açıq iclasları keçirilmişdir.

2012-ci ilin dekabrın 12-də SSRİ-nin raket hücumundan müdafiə sisteminin əsas 8 stansiyasından biri olan Qəbələ RLS-in icarəyə götürülməsinə dair Azərbaycanla Rusiya arasında imzalanmış son müqavilənin müddəti başa çatmışdı. Rusiya XİN dekabrın 10-da bu obyektin istismarını rəsmən dayandırdığı barədə Azərbaycan Xarici İşlər Nazirliyinə nota göndərmişdi. Buna səbəb olaraq tərəflərin icarə müqaviləsinin şərtlərini razılaşdıra bilməməsi olub..

Azərbaycan Milli Məclisi 2012-ci lin noyabrın 20-də keçirilmiş iclasında Trans-TANAP layihəsi ilə bağlı iki saziş təsdiqləmişdi. Bunlar «Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazın Türkiyə Respublikasının ərazisi vasitəsi ilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair» 2011-ci il oktyabrın 25-də İzmir şəhərində imzalanmış saziş və «Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair» 2012-ci il iyunun 26-da İstanbulda imzalanmış sazişdir. Beş il ərzində reallaşması nəzərdə tutulan layihə 7 mlrd. ABŞ dollarına başa gələcək. Boru kəmərinin diametri 56 düym və ya 1,4 metr nəzərdə tutulub. Dörd mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsi 2018-ci ildə başa çatacaq, 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 mlrd. kubmetrə, 2023-cü ildə 23 mlrd. kubmetrə, 2026-cı ildə isə 31 mlrd. kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 mlrd. kubmetr Azərbaycan qazının 10 mlrd. kubmetri Avropaya, 6 mlrd. kubmetri isə Türkiyəyə satılacaq.

Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək.

TANAP layihəsində ARDNŞ 80%, Türkiyənin «BOTAŞ» və TPAO şirkətləri isə birlikdə 20% paya malikdir. ARDNŞ ona məxsus olan səhmlərin 29%-ni»Şahdəniz» Konsorsiumundakı tərəfdaşlarına - BP, «Statoil» və «Total» şirkətlərinə təklif edib. Artıq məlum olub ki, BP və «Statoil» bu layihədə hərəyə 12%, «Total» şirkəti isə 5% pay əldə etmək niyyətindədir.

2015-ci ilin martın 17-də Türkiyənin Qars şəhərində Trans-Anadolu boru kəmərinin (TANAP) təməlqoyma mərasimi keçirilmişdi. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev 1913-cü ildə bir sıra ölkələrdə rəsmi və işgüzar səfərlərdə olmuşdur. AR Prezidenti 2013 –cü il 22 – 24 yanvarda Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrə Konfederasiyasında işgüzar səfərdə olmüşdür.

2013-cü il martın 10-12-də Xorvatiya Respublikasında rəsmi səfər edərək, orada Xorvatiya Prezidenti İvo Yosipoviçin təkbətək görüş keçirmişdi. 12 - 13 mart 2013-cü ildə Monteneqroyada rəsmi səfərə getmiş və Monteneqro Prezidenti Filip Vuyanoviç ilə Çetinye şəhərindəki Prezident iqamətgahında təkbətək görüş keçirmişdir.

2013-cü ilin mayın 12-14-də Avstriyada rəsmi səfərdə , 20 – 21 iyunda isə Belçika Krallığına işgüzar səfərdə olmuşdur.

2013-cü ilin oktyabrın 25-də MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Belarus Respublikasının paytaxtı Minskdə səfərdə olmuşdur.

2013-cü ilin noyabr 11-13-də Türkiyə Respublikasında, 17-18-də Ukraynada rəsmi səfərlərdə, 18 - 19 noyabr Avstriyada, 28 – 29 noyabr Litva Respublikasında işgüzar səfərlərdə olmüşdür.AR

Prezidenti İ.Əliyev 19 noyabr Vyanada, "Hofburq" Prezident Sarayında Avstriya Respublikasının Prezidenti Haynts Fişer ilə görüşmüşdür. Vyanada Ermənistan Prezidenti Serj Sarkisyan ilə də görüşü olmuşdur.

AR Prezidenti İ.Əliyev 2014-cü il 21 – 24 yanvarda Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfərə getmişdi.

AR Prezidenti 23 – 25 mart 2014-cü ildə, Niderland Krallığına işgüzar səfərə gedərək, Haaqa şəhərində keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmişdi.

AR Prezidenti 2014-cü ilin sentyabrın 3-5-də NATO-nun sammitində iştirak etmək üçün Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında işgüzar səfərdə olmuşdur.

AR Prezidenti 29 sentyabr 2014-cü ildə Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammitində iştirak etmək üçün Rusiyanın Həştərxan şəhərinə işgüzar səfərdə olmuşdür.

2015-ci il yanvarın 21-23-tarixlərində, İsveçrədə işgüzar səfərə gedərək,Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmişdi.

AR Prezidenti 2015-ci ilin 8 - 9 may tarixlərində Böyük Vətən müharibəsində Qələbənin 70 illiyi münasibətilə keçiriləcək bayram tədbirlərində iştirak etmək üçün Rusiya Federasiyasında işgüzar səfərdə olmuşdur.

AR Prezidenti İ.Əliyev 14 – 16 noyabr 2015-ci ildə "Böyük İyirmiliyin" (G20) Antalya şəhərində keçirilən Sammitində iştirak etmək üçün Türkiyə Respublikasında işgüzar səfərdə olmüşdür.

AR Prezidenti İ.Əliyev 2015-ci ilin 16 – 18 noyabr tarixlərində UNESCO baş konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirak etmək üçün Fransada işgüzar səfərdə olmüşdür.

18 – 19 dekabr 2015-ci ildə ATƏT-in Minsk qrupunun həmsədrlərinin təşəbbüsü ilə keçirilən Azərbaycan və Ermənistan

prezidentlərinin görüşündə iştirak etmək üçün AR Prezidenti İ.Əliyev İsveçrə Konfederasiyasının Bern şəhərində səfərdə olmuşdur. 19 dekabrda Bern şəhərində Ermənistan Prezidenti ilə görüşü olmuşdur.

AR Prezidenti İ.Əliyev 2016-cı il 20 - 22 yanvar Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfərdə olmüşdür.

AR Prezidenti İ.Əliyev 3 – 4 fevral 2016-cı il tarixində BMT-nin baş katibi Pan Gi Munun, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Devid Kemeronun, Almaniya Federativ Respublikasının Kansleri Angela Merkelin, Norveç Krallığının Baş naziri Erna Solberqin və Küveyt Dövlətinin Əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın dəvəti ilə Londonda keçirilən "Suriyaya və regiona dəstək" konfransında iştirak etmək üçün Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında səfərdə olmüşdü.

AR Prezidenti İ.Əliyev 2016-cı il 15 mart tarixində Türkiyə Respublikasında işgüzar səfərdə olmuşdur. Ankarada Türkiyə Respublikası Prezidentinin Sarayında rəsmi qarşılanma mərasimi olmuşdur. Ankarada rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur

AR Prezidenti İ.Əliyev 30 mart - 1 aprel 2016-ci il tarixlərində Vaşinqtonda keçirilən Nüvə Təhlükəsizliyi Sammitində iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarında səfərdə olmüşdür. Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının dövlət katibi Con Kerri ilə görüşü olmuşdur. Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda keçirilən IV Nüvə Təhlükəsizliyi Sammitində çıxış etmişdir.

Sammitin gedişində AR Prezidenti İlham Əliyev aprelin 1-də Vaşinqtonda Çex Respublikasının Baş naziri Bohuslav Sobotka ilə,

ABŞ dövlət katibinin müavini Tomas Şennon ilə görüşləri olmuşdur. 2016-ci il aprelin 5-də ABŞ-ın Nevada Ştat Assambleyasının sədri Con Həmbriki və Beynəlxalq Ağır Atletika Federasiyasının prezidenti Tomaş Ayanı qəbul etmişdir.
Azərbaycan Prezidenti aprelin 5-də Çan Day Kuanqa Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir. Elə həmingün, Thin Cjoya da Myanma İttifaqı Respublikasının Prezidenti vəzifəsinə seçilməyi münasibətilə təbrik məktubu göndərmişdir

AR Prezidenti İ.Əliyev 2016-ci il aprelin 6-da ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorliki, İqor Popovu, Pyer Andryönü və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir. Avropa Şurası Parlament Assambleyası (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçisi Stefan Şennakın başçılıq etdiyi nümayəndə heyətini də qəbul etmişdir. Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov ilə görüşü olmuşdur. 7 apreldə İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifi qəbul etmişdi.

Məhz Prezident İlham Əliyevin gərgin və uğurlu fəaliyyəti sayəsində Azərbaycan dünya birliyində öz mövqelərini daha da möhkəmləndirmiş, yeni müttəfiq ölkələr qazanmış, beynəlxalq və regional təşkilatlarda iştirakını, onlarla əməkdaşlığını daha da intensivləşdirmiş, inkişaf sürətinə, iqtisadi potensialına görə Cənubi Qafqazda lider dövlətə çevrilmişdir. O, dünya birliyinin sayılan dövlətlərindən biri olmuşdur.

İkinci minilliyin sonu – üçüncü minilliyin əvvəllərində tariximizdə baş verən siyasi, sosial-iqtisadi və mədəni irəliləyişlər və nailiyyətlər Azərbaycan Respublikasının növbəti illərdə də, bütövlükdə XXI əsrdə böyük uğurlar qazanacağından soraq verir.

## § 3. Azərbaycanın beynəlxalq mədəni əlaqələri

XX əsrin sonlarında müstəqil dövlətçilik yoluna qədəm qoymuş Azərbaycan xalqı azad, demokratik, hüquqi cəmiyyət quruculuğu yolu ilə irəliləyərək bütün dövlətlər və xalqlar ilə sülh, dostluq və əməkdaşlıq şəraitində yaşamaq, dünya birliyi ilə sıx inteqrasiya xətti tutduğunu bəyan etmişdir və bu yola sadiqdir. Bu mənada Azərbaycan Respublikası dünyanın ən mötəbər və nüfuzlu beynəlxalq təşkilatı olan Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlığa müstəsna əhəmiyyət verir və müstəqillik qazandığı ilk gündən ölkəmiz ilə BMT arasında əlaqələrin yaranması, daim inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün hər cür səylər göstərir

Azərbaycanın xarici mədəniyyət siyasəti müasir dövrün geosiyasi xüsusiyyətlərini, təhlükə və çağırışlarını nəzərə alaraq, ölkənin milli maraqlarına əsaslanır. Ölkəmizin beynəlxalq səviyyədə dövlətlərarası münasibətlərdə mədəni əlaqələri çox zəngindir. Beynəlxalq mədəni əlaqələr xalqlar arasında qarşılıqlı anlaşılmanın və etimadın formalaşmasına xidmət edir. Azərbaycan Respublikası müstəqilliyini əldə etdiyi ilk günlərdən etibarən beynəlxalq miqyasda sülhsevərliyini, dostluq münasibətlərinə hazır olduğunu, başqa xalqların, dövlətlərin mədəniyyətinə və incəsənətinə, dilinə, dininə hörmət və rəğbətini nümaiş etdirmişdir. Eyni zamanda da Azərbaycan Respublikasının xarici mədəniyyət siyasəti milli maraqların təmin edilməsinə, dövlətin davamlı inkişafı və vətəndaşların, həmçinin də xaricdə yaşayan həmvətənlilərimizin mədəniyyət sahəsində hüquqlarının müdafiəsi üçün əlverişli şəraitin yaradılmasına yönəlmiş ardıcıl fəaliyyətini həyata keçirməyə yönəldilmişdir. Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün bərpası və etnik təmizlənməyə məruz qalmış məcburi köçkünlərin öz torpaqlarına qaytarılması, müharibə şəraitində təcavüzə məruz qalmış mədəniyyət

abidələrimizin bərpa edilməsi ölkə xarici siyasətinin prioritet məsələsi kimi gündəmdədir.

Müasir mərhələdə beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünün, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmamazlığını dəstəkləmək və ərazilərinin işğalını və etnik təmizləməni pisləmək mövqeyinin daha da möhkəmləndirilməsi yönündə səylər göstərilir. Artıq 1993-cü ildə Azərbaycanın dövlət müstəqilliyini tanıyan 116 dövlətdən 70-i onunla müxtəlif sahələrdə diplomatik əlaqələrin yaradılmasında iştirak edirdi. Diplomatik əlaqələr sistemində mədəni əlaqələr əsas şərtlərdən idi. Azərbaycanın tarixində, məhz indi, yəni müstəqil dövlətçilik şəraitində tam sərbəst və tələb olunan demokratik prinsiplər əsasında mədəni siyasət irəli sürüldü. Bu siyasətin formalaşdırılmasında, sözsüz ki, keçmiş sovet təcrübəsinin mütərəqqi cəhətləri və müasir dünya ölkələrinin bu sahədəki səmərəli xüsusiyyətlərindən müntəzəm şəkildə istifadə olundu. Əsas məqsəd xarici ölkələrlə qarşılıqlı mədəni anlaşma və qarşılıqlı əməkdaşlıq münasibətlərini möhkəmləndirməkdən, onlarla bərabərhüquqlu və qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələri qurmaqdan ibarətdir. Bu tələbdən doğan prinsiplər Azərbaycan Respublikası Konstitusiyası, Mədəniyyət haqqında Qanun, Azərbaycan Respublikasının xarici siyasəti və digər hüquqi, normativ aktlarında öz əksini tapdı. Müstəqil Azərbaycan Respublikasında beynəlxalq mədəni əlaqələrin təşkili sistemində dövlət və hökumət qurumlarından əlavə, beynəlxalq təşkilat, ictimai-sosial institutlar və ayrı-ayrı insanların şəxsi fəaliyyəti mühüm yer tutur. Dövlət və hökumət xəttilə beynəlxalq mədəni əlaqələr Prezident Aparatının müvafiq şöbələri, səfirlik və konsulluqlar, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Xaricdə yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi tərəfindən

həyata keçirilməkdədir. Beynəlxalq təşkilatlar xəttilə bu sahədə əsas iş YUNESKO, Avropa Şurası, İSESKO, Türksoy, MDB-nin Mədəni Əməkdaşlıq Şurası, GUAM və digər qurumlarla mədəni əlaqələrdə öz təzahürünü tapır. İctimai-sosial institutlar sistemində "Vətən" cəmiyyəti və müxtəlif ölkələr üzrə çoxsaylı dostluq cəmiyyətləri, mədəniyyət mərkəzləri, şirkət və ofislərin fəaliyyətini göstərmək olar. Qlobal xarakterli mədəni ünsiyyət yalnız rəsmi qurumların fəaliyyətinin deyil, adi insanın sosial-mədəni həyatının bir hissəsini təşkil edir. Fərdi və kollektiv mədəni yaradıcılığın potensial resursları daha çox gerçəkləşmə imkanı əldə etdiyi üçün istənilən lokal nöqtədə, fərdi mədəni-innovativ təşəbbüsün kəskin şəkildə artmasını şərtləndirir. Belə təşəbbüslərin nəticəsi kimi, mədəniyyət obyektləri forma və məzmunca innovasion sintez nümunələri təşəkkül tapır. Mədəni tələbatların təminatı bəsit, əlverişli proseslərlə həyata keçirilir, onlara sosial sifariş çoxalır. Hər bir insan bir yerə səfər edəndə, yaxud dünya hörümçək toruna - internet şəbəkəsinə qoşulduqda əvvəlcədən yəqin edə bilmir: hansı mədəniyyət aləminə düşüb, burada hansı dəyərlərə önəm verilir. Belə mədəni aləmlərlə təmasda olan hər bir insan az vaxt ərzində, ani olaraq malik olduğu biliklərə, dünyagörüşə arxalanaraq mədəni oriyentasiyanı özü tapmalı, özü təyin etməlidir. Əks təqdirdə, onu mədəni-informasiya axını öz qoynuna alıb aparacaq. Bu axında mədəni seçim səriştəsi olmadığına görə birdəfəlik itmək də mümkündür. Bir çox sahələrdə olduğu kimi, mədəniyyətdə baş verən demokratikləşmə və desentralizasiya prosesləri beynəlxalq əlaqələrdə də öz əksini tapmışdır. Belə ki, bir çox ölkələrlə regionlar və şəhərlər səviyyəsində əlaqələr nəzərə çarpacaq dərəcədə güclənmiş, ayrı-ayrı kollektiv və aristlər bu sahədə tam müstəqillik əldə etmişlər. Lakin bunun özündə də müəyyən neqativ məqamlar mövcuddur. Çünki beynəlxalq mədəni əlaqələrdə fərdi istiqamət formasında xaricə aparılan, yaxud xaricdən gətirilən

mədəniyyət məhsulları heç də həmişə yüksək keyfiyyətli olmur. Görünür, beynəlxalq mədəni əlaqələr prosesində bəzi məhdudlaşmaların olması zəruridir. informasiya cəmiyyəti müasir mədəni dinamikaya güclü təsirlərə təkan verir, hər bir ölkədə mədəniyyətin innovasion plastı, ənənəvi təcrübə ilə müqayisədə üstünlük təşkil edir. Daha dəqiq deyilsə, ənənə və innovasiyalar arasında hər dəfə nisbətin qeyri-sabit vəziyyətlə əvəzlənməsi, artıq mədəniyyətin yeni inkişaf rejiminə daxil olmasından xəbər verir. Bu, artıq mövcud inkişaf paradiqmasına yenidən baxılmasını tələb edir. Belə şəraitdə sosial-mədəni inkişafda ziddiyyətlərin həllinin mühüm istiqamətlərindən biri - inteqrasiyadır. Lakin nəzərə almaq lazımdır ki, hər bir keçid mərhələsində olduğu kimi, inteqrasiyanın birdəfəlik, universal və səmərəli modelinin olmaması, daha doğrusu, hamı üçün eyni modelin tətbiqinin, ümumiyyətlə, qeyri-mümkün olması bu proseslərin rəvan deyil, ağrılı keçməsinə səbəb olur. Hal-hazırda Azərbaycan Respublikasında beynəlxalq mədəni əlaqələr ikitərəfli və çoxtərəfli əməkdaşlıq istiqamətində inkişaf dinamikası keçirməkdədir. İkitərəfli mədəni əlaqələrin davam etdirilməsində 1990-2000-ci illərdə bir çox ölkələrlə Rusiya Federasiyası, Çin Xalq Respublikası, Böyük Britaniya, Polşa Xalq Respublikası, Türkiyə Respublikası, Rumıniya, Yunanıstan, Bolqarıstan, İtaliya, eyni zamanda, keçmiş SSRİ respublikaları olan Özbəkistan, Gürcüstan, Moldova, Qazaxıstan ilə mədəni əməkdaşlıq haqqında hökumətlərarası sazişlər bağlanmış, Rusiya Federasiyası, Başqırdıstan Respublikası, Belarus Respublikası, Çin Xalq Respublikası, İran İslam Respublikası, Qırğızıstan və digərləri ilə isə mədəni əməkdaşlıq haqqında nazirliklərarası saziş və protokollar imzalanmışdır. Bu əməkdaşlığın əsas prioritetlərinə təhsil, elm, maarif, incəsənətin musiqi, təsviri sənət, memarlıq sahələri üzrə qarşılıqlı əlaqələrin yaradılması daxildir. Azərbaycan ayrı-ayrı xarici dövlətlər, o cümlədən, qonşu ölkələrlə ikitərəfli

münasibətlərinə xüsusi əhəmiyyət verir. Azərbaycan Respublikasının müstəqilliyini tanımış ilk dövlət olan və bu-günədək Azərbaycanın mövqeyini dəstəkləməkdə davam edən Türkiyə Cümhuriyyəti ilə münasibətlər son dərəcə mühümdür. Etnik, mədəniyyət və dil baxımından bir-birilə sıx bağlı olan bu iki ölkə arasında qarşılıqlı münasibətlər strateji əməkdaşlıq səviyyəsində daha da genişlənməkdə və dərinləşməkdədir. Azərbaycan və Türkiyənin bölgədə geosiyasi və iqtisadi vəziyyətin inkişafına, transregional iqtisadi layihələrin gerçəkləşdirilməsinə münasibəti, eləcə də rəsmi Ankaranın Ermənistan-Azərbaycan münaqişəsinin həllinə yönəldilmiş səyləri, müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində atdığı addımlar da daxil olmaqla, onların mövqelərinin tam uyğunluğunu və bu iki ölkə arasında əməkdaşlığın keyfiyyət səviyyəsini nümayiş etdirir. Rusiyanın Cənubi Qafqazda güclü nüfuzunu nəzərə alan Azərbaycan özünün xarici siyasətində şimal istiqamətinə xüsusi diqqət verir. Bölgədə gərginliyin azaldılması və mehriban qonşuluq şəraitinin yaradılması naminə səylər göstərən Azərbaycan Rusiya ilə iqtisadi, siyasi-ictimai və mədəni sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsinin tərəfdarıdır. Bu mənada, hər iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri, Xəzər dənizinin milli sektorlara bölünməsi üzrə Azərbaycan-Rusiya sazişi, eləcə də hər iki tərəfin təhlükəsizliyinin təmin edilməsi də daxil olmaqla, müxtəlif sahələr üzrə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Tarix və mədəniyyət sahələrində zəngin müştərək irsə malik Azərbaycanla İran arasında münasibətlər Azərbaycan xarici siyasətinin əsas istiqamətlərindən biridir. Müstəqilliyinin ilk günlərindən Azərbaycan qonşu İranla siyasi-iqtisadi və mədəni sahələrdə qarşılıqlı faydalı əlaqələrin gücləndirilməsinə çalışır. Azərbaycanla oxşar maraqları olan Gürcüstan və Ukrayna ilə əməkdaşlıq və tərəfdaşlığın hərtərəfli intensivləşməsi ölkə üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın bu dövlətlərlə ümumi maraqlarının mövcudluğu, Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çatdırılması və Avropanı Asiya ilə birləşdirmək üçün tarixi "İpək Yolu"nun bərpası, eləcə də ümumi təhlükəsizliyə təminat verən birgə transregional layihələrdə iştirakı bu münasibətlərin mühümlüyünün göstəricisidir. Mərkəzi Asiya ölkələri ilə münasibətlər də Azərbaycanın xarici əlaqələr sistemində əhəmiyyətli yer tutur. Azərbaycanın əsas iştirakçılarından biri olduğu layihələrə Mərkəzi Asiya dövlətlərinin qoşulması onların Avropa məkanına və bazarlarına çıxması üçün imkan yaradır və Azərbaycan bu işdə etibarlı körpü rolunu oynayır. Azərbaycanın qonşu olmayan dövlətlərlə münasibətləri. Azərbaycanın onunla bilavasitə qonşu olmayan inkişaf etmiş Qərb dövlətləri ilə münasibətləri xarici siyasətdə ən mühüm yerlərdən birini tutur. Azərbaycan öz təhlükəsizliyi, ərazi bütövlüyü və müstəqilliyini qorumaq imkanlarmı möhkəmləndirmək naminə Amerika Birləşmiş Ştatları ilə münasibətlərə böyük əhəmiyyət verir. Bu münasibətlərin inkişafı Azərbaycanın iqtisadi və siyasi tərəqqisinə, Xəzərdə neft və qaz layihələrinin gerçəkləşdirilməsinə, Şərqlə Qərbi birləşdirən transregional dəhlizlərin yaradılmasına təkan verir. Azərbaycanla ABŞ arasında əməkdaşlıq ölkənin qlobal iqtisadi sistemə inteqrasiyasının başlıca elementi kimi çıxış edir. Müasir dünyada beynəlxalq təhlükəsizliyi sarsıdan yeni təhdidlərin yaranması Azərbaycanla ABŞ arasında əməkdaşlığı daha da möhkəmləndirmişdir. Azərbaycanın Qərbi Avropa dövlətləri ilə münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Bu münasibətlərin inkişafı dövlət və özəl sektorda əsaslı islahatların həyata keçirilməsinə və xarici sərmayələrin cəlb edilməsinə müsbət təsir göstərir. Qərbi Avropa ölkələri Azərbaycan üçün əsas ixrac bazarı kimi çıxış edir. Bundan əlavə, Azərbaycan ölkədə vətəndaş cəmiyyətinin təşəkkülü prosesində Qərbi Avropa ölkələri ilə

faydalı əməkdaşlıqdan bəhrələnir. Uzaq Şərqin qabaqcıl dövlətləri olan Çin və Yaponiya ilə qarşılıqlı faydalı əməkdaşlıq Azərbaycanı "İpək Yolu" layihəsinin gerçəkləşdirilməsində daha fəal çıxış etməyə sövq edir. Çinin artan beynəlxalq nüfuzu və Avrasiyada onun mövqelərinin möhkəmlənməsi Azərbaycan-Çin münasibətlərinin intensivləşməsinə təkan vermişdir. Yaponiyanın Azərbaycandakı iqtisadi layihələrə fəal qoşulması və ikitərəfli əməkdaşlığın daha da dərinləşməsinə olan qarşılıqlı marağı Azərbaycan-Yaponiya münasibətlərinin genişlənməsi üçün əlverişli zəmin yaratmışdır. Cənub-Şərqi və Cənubi Asiyada yeni iqtisadi və siyasi güc mərkəzlərinin təşəkkülü Azərbaycanın xarici siyasətinin bu istiqamətə marağının artmasına səbəb olmuşdur. Ermənistan-Azərbaycan münaqişəsinin həllində Azərbaycanın mövqeyini beynəlxalq səviyyədə tam dəstəkləyən Pakistanla münasibətlər tərəfdaşlıq, Hindistanla isə əməkdaşlıq səviyyəsində qurulmuşdur. Azərbaycanın Yaxın və Orta Şərq dövlətləri ilə münasibətləri də böyük perspektivə malikdir. Bu münasibətlər Yaxın və Orta Şərqin geosiyasi əhəmiyyəti, zəngin enerji ehtiyatları və bu bölgədə böyük sərmayə potensialının mövcudluğu əsasında qurulur. Azərbaycan bu bölgə ölkələrinin ticarət, texnoloji və maliyyə imkanlarından istifadə etməklə, Yaxın və Orta Şərq dövlətləri ilə qarşılıqlı faydalı münasibətləri genişləndirir. Beləliklə, Azərbaycan Respublikasının xarici siyasəti Azərbaycan xalqının təhlükəsiz gələcəyinin təminatına, Xəzər-Qafqaz bölgəsində Azərbaycanın ən mühüm ölkəyə çevrilməsinə yönəlmişdir. Hazırda Azərbaycanla 170 ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Azərbaycanın 60 ölkədə səfirliyi, 4 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyi, 9 şəhərdə konsulluğu fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycanda 43 ölkənin səfirliyi və 3 baş konsulluğu fəaliyyət göstərir. 33 ölkənin isə səfiri eyni zamanda Azərbaycanda akkreditasiya olunmuşdur. Azərbaycanda beynəlxalq təşkilatların

16 nümayəndəliyi fəaliyyət göstərir. Azərbaycanın zəngin mədəni irsinin qorunub saxlanılması və təbliği sahəsində Azərbaycan ilə BMT-nin elm, təhsil və mədəniyyət təşkilatı olan YUNESKO arasında əlaqələr ötən dövrdə çox səmərəli olmuşdur. Azərbaycanın dövlət başçısı Heydər Əliyevin YUNESKO-nun keçmiş Baş direktoru Federiko Mayor ilə 1993-cü ilin dekabrında Parisdə, 1995-ci ilin avqustunda Almatıda görüşləri, Füzulinin 500 illik yubileyinə həsr olunmuş təntənələrdə iştirak etmək üçün Federiko Mayorun 1996-cı ilin noyabrında Azərbaycana səfəri, YUNESKO-nun hazırkı Baş direktoru Koisura Matsuuranın Azərbaycan xalıqının qəhrəmanlıq eposu olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi ilə əlaqədar yubiley tədbirlərində iştirak etmək üçün 2000-ci ilin aprelində Bakıya səfəri Azərbaycan ilə YUNESKO arasında əməkdaşlığın inkişafında böyük əhəmiyyətə malikdir. Təhsil, elm və mədəniyyət məsələlərinin vacibliyini nəzərə alaraq, Azərbaycan BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (YUNESKO) ilə geniş əməkdaşlıq edir və bu məqsədlə 1994-cü ildə Azərbaycan Prezidentinin Sərəncamına əsasən Azərbaycanın YUNESKO nəzdində Milli Komissiyası təsis edilmişdir

Bakıda Avropa Şurasının bir çox tədbirləri keçirilir. Üzv dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransı da böyük əhəmiyyət kəsb edir. Belə bir mötəbər tədbirin Azərbaycan paytaxtında keçirilməsi təsadüfi deyil. Tədbirdə müxtəlif qitələrin və dinlərin nümayəndələri təmsil olunaraq mədəni əməkdaşlıq münasibətlərinin formalaşmasında konkret addım atdılar. Avropa Şurası və Azərbaycan hökumətinin birgə təşkilatçılığı ilə keçirilən konfransda Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün təmin edilməsində mədəniyyətlərarası münasibətlərin perspektiv imkanları da müzakirə edilmişdir. 2010-cu il mayın 25-

də Bakıda keçirilmiş Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərinin "Gender bərabərliyi: de-yure və de-fakto bərabərliyinin təmin olunması" mövzusunda VII konfransı da bu baxımdan əlamətdardır. Konfransda iştirak və çıxış edən Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın əsaslandırdığı kimi: "Mən bu konfransı Bakıda keçirmək qərarını qəbul etdiyinə görə Avropa Şurasına minnətdarlığımı bildirirəm və inanıram ki, Azərbaycanın gender bərabərliyinə aid fəal mövqeyi və konkret strategiyası bu tədbirin məhz Bakıda keçirilməsinin əsas səbəblərindəndir." 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası bir sıra əhəmiyyətli beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq siyasətini həyata keçirmişdir. BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO dünyanın təhsil, elm və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumu və Azərbaycan 1992-ci il 3 iyul tarixindən bu qurumun üzvüdür. Hazırda 193 dövlət YUNESKO-nun üzvüdür. 1993-cü ilin oktyabr ayında YUNESKO Baş Konfransının 27-ci sessiyasında ilk dəfə olaraq Azərbaycan nümayəndə heyəti də iştirak etmişdir. YUNESKO-Azərbaycan əlaqələrinin inkişafında ən mühüm addım isə Azərbaycan Prezidenti Heydər Əliyev 1993-cü ilin dekabr ayında Fransa Respublikasında rəsmi səfərdə olarkən YUNESKO-nun Baş Direktoru Federiko Mayorla görüşü zamanı atılmışdır. Tərəflər öz aralarında əməkdaşlığın genişlənməsi məsələsini və onun sonrakı inkişafının perspektiv planlarını müzakirə etmişdilər. YUNESKO-nun Nizamnaməsinin 7-ci maddəsinə görə, üzv-dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini YUNESKO-nun işi ilə əlaqələndirmək üçün ilk növbədə Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Ona görə də YUNESKO üzrə Azərbaycan Respublikasının Milli

Komissiyasının yaradılması üçün lazımi addımlar atılmış və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bununla bağlı 21 fevral 1994-cü il tarixində sərəncam imzalamışdır. Sərəncama əsasən Xarici İşlər Nazirliyinin nəzdində Milli Komissiya yaradılmışdır. Sonra isə respublikanın müvafiq nazirlik və idarələrinin rəhbərlərindən, ziyalılardan və ictimaiyyətin digər nümayəndələrindən ibarət Milli Komissiyanın 25 nəfərlik tərkibi və daimi katibliyi formalaşdırılmışdır. Milli Komissiya Azərbaycanın YUNESKO-dakı siyasətinin əsas istiqamətlərini müəyyən edir. Azərbaycanın YUNESKO əməkdaşlığı ilə bağlı gündəlik operativ iş Bakıda Xarici İşlər Nazirliyinin nəzdində Milli Komissiyanın Daimi Katibliyi və Parisdə Azərbaycan Respublikasının YUNESKO yanında Daimi Nümayəndəliyi tərəfindən həyata keçirilir. Azərbaycan YUNESKO ilə əlaqələri möhkəmləndirmək və Azərbaycan elmini, təhsilini və mədəniyyətini inkişaf etdirmək məqsədilə YUNESKO çərçivəsində qəbul edilmiş bir sıra konvensiyalara qoşulmuşdur. Azərbaycan-YUNESKO əlaqələrinin inkişafında mühüm mərhələ hesab oluna biləcək tədbirlərdən biri 1996-cı ilin klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi olan Məhəmməd Füzuli ilinin elan olunması və dünyanın bir çox ölkələrində dahi şairin 500 illik yubileyi ilə bağlı tədbirlərin keçirilməsidir. Azərbaycan mədəni irsinin dünyaya çatdırılmasında növbəti addım Heydər Əliyevin 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi ilə əlaqədar imzaladığı fərman olmuşdur. Yubiley çərçivəsində elmi, ictimai, siyasi və bədii nöqteyi-nəzərdən böyük işlər görülmüş, "Kitabi-Dədə Qorqud" ensiklopediyası nəşr edilmişdir. “Kitabi Dədə Qorqud” dastanının 1300 illik yubileyi ilə əlaqədar YUNESKO çərçivəsində, Drezdendə, Moskvada, Türkiyənin müxtəlif şəhərlərində yubiley tədbirləri təşkil olunmuşdur. Bu tədbirlər 2000-ci ilin aprelində Bakıda Türkdilli Dövlətlər

Birliyinin VI zirvə toplantısına dəvət olunmuş dövlət başçılarının iştirakı ilə keçirilmiş təntənəli yubiley mərasimi ilə başa çatmışdır. Azərbaycan YUNESKO ilə əməkdaşlığının inkişafı üçün böyük əmək sərf edilmişdir. Bu əməkdaşlıq yalnız ikitərəfli əlaqələr üzərində qurulmamış və ondan yalnız iki tərəf bəhrələnməmişdir. Azərbaycanın Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi qədim və zəngin mədəniyyəti isə milli çərçivədən beynəlxalq səviyyəyə çıxıb, ümumdünya mədəniyyətin bir parçası olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu mötəbər təşkilatla əlaqələrin inkişaf etdirilməsinə böyük diqqətlə yanaşır. 15 sentyabr 2005-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev YUNESKO ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əlaqələrin inkişaf səviyyəsini nəzərə alaraq, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalamışdır. Sərəncama əsasən YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yeni tərkibi müəyyənləşdirilib. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səyilə Azərbaycan-YUNESKO münasibətləri ən yüksək inkişaf səviyyəsinə yüksəlib. 1995-ci ildən etibarən rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun xətti ilə festivallar, sərgilər, mədəniyyət tədbirləri və konsertlər təşkil etməklə, xanım Mehriban Əliyeva ölkəsinin mədəni irsinin təbliğinin, onun milli və regional səviyyələrdə mühafizəsinin təmin olunması sahəsində böyük xidmətlər göstərib. Azərbaycanın ənənəvi klassik musiqisini dünya miqyasında tanıtmaq məqsədilə xanım Mehriban Əliyeva Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması təşəbbüsünü irəli sürüb. 2004-cü ilin sentyabrında Mehriban Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və YUNESKO-nun ideyalarına göstərdiyi sadiqliyə

görə bu Təşkilatın şifahi ənənələr və musiqi ənənələri sahəsində Xoşməramlı səfiri adına layiq görülmüşdür. Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə geniş miqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin islam aləmində görülən işlərərə böyük dəstəyinə görə M. Əliyeva 2006-cı il noyabrın 4-də İSESKO-nun Xoşməramlı Səfiri adına layiq görülmüşdür. YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri proqramı çərçivəsində Azərbaycanla bağlı Nəsirəddin Tusinin anadan olmasının 800 illik yubileyi (2001), Mirzə Kazımbəyin 200 illik yubileyi (2002), akademik Yusif Məmmədəliyevin 100 illik yubileyi (2005), Lətif Kərimovun 100 illik yubiley (2006), "Leyli və Məcnun" Operasının ilk tamaşasının 100 illik yubileyi (2008), Mir Cəlal Paşayevin 100 illik yubileyi (2008), Səttar Bəhlulzadənin 100 illik yubileyi (2009), akademik Musa Əliyevin 100 illik yubileyi (2009) ilə əlaqədar qərar qəbul edilmişdir. 2003-cü ilin noyabr ayının 7-də Azərbaycan muğamı YUNESKO-da bəşəriyyətin qeyri maddi irsinin şah əsəri elan olunmuşdur. 2005-ci il 24 avqust tarixində Bakı şəhərində "YUNESKO-Azərbaycan: gələcəyə körpü" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Konfransın sonunda YUNESKO ilə Azərbaycan arasında təhsil sahəsində əməkdaşlığa dair Qarşılıqlı Anlaşma Memorandumu imzalanmışdır. 2006-cı il 5-11 mart tarixlərində Qobustan Dövlət Bədii-Tarixi Qoruğunun YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə bağlı Heydər Əliyev Fondunun dəstəyi ilə iki Norveç ekspertinin Azərbaycana səfəri təşkil edilmişdir. Səfərin nəticəsində ekspertlər tərəfindən YUNESKO-nun tələblərinə uyğun olan Tədbirlər Planını hazırlanmışdır.

Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı ilə yüksək səviyyədə keçirilmiş mədəniyyətlərarası dialoqlarda iştirak

edən qonaqlar Azərbaycanın, sözün əsl mənasında, dostluq, qardaşlıq məkanına çevrildiyinin şahidi olmuş və fondun bu təşəbbüsünü alqışladıqlarını bildirmişlər. Heydər Əliyev Fondunun dəstəyi ilə 2006-cı ilin aprelində Bakıda keçirilən "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü" adlı konfransda Latın Mədəniyyəti Akademiyasının böyük bir nümayəndə heyəti də iştirak etmişdir. Qeyd edək ki, Latın Mədəniyyəti Akademiyası (LMA) 2000-ci ildə latın mənşəli ölkələrin mədəni irsini qorumaq məqsədilə formalaşdırılıb. Latın Mədəniyyətı Akademiyası son illərdə "Latın dünyası və İslam aləmi" mövzusunda konfranslar keçirməklə latın və islam sivilizasiyaları arasında dialoqun genişləndirilməsi sahəsində xeyli işlər görüb. İndiyədək Latın Mədəniyyəti Akademiyası - Tehran, İskəndəriyyə, İstanbul, Ankara və s. şəhərlərdə konfranslar keçirərək mədəniyyətlərarası dialoqa xidmət edən dəyərlərin araşdırılmasına diqqət yönəldib. Əsas məqsədlərdən biri Qərb rasionalizmini islam mədəniyyəti ilə zənginləşdirmək və sivilizasiyalararası yarışda hegemonçuluğun qarşısını almaqdır. Tədbir çərçivəsində Latın Mədəniyyət Akademiyasının nümayəndə heyəti ölkəmizin tarixi, mədəniyyəti, zəngin adət-ənənələri ilə yaxından tanış olmuş, respublikamızda yaşayan xalqların sülh, dostluq və mehribançılıq şəraitində yaşadığının, dinlər və mədəniyyətlər arasında tolerantlığın hökm sürdüyünün şahidi olmuşdur. Qonaqlar ölkəmizdə bərqərar olmuş millətlərarası dostluqun və dinlərarası anlaşmanın, bu sahədəki təcrübənin dünyanın başqa ölkələrində bir nümunə kimi öyrənilməsini xüsusi olaraq vurğulamışlar.

2006-cı il 19 may tarixində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Sərəncamına əsasən Azərbaycan Respublikası hökuməti ilə YUNESKO arasında "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsəri olan Azərbaycan muğamının qorunması

üzrə Milli Fəaliyyət Planının həyata keçirilməsi layihəsi üzrə Saziş" imzalanmışdır. 2006-cı il 19 oktyabr tarixində YUNESKO-nun Baş Qərargahında YUNESKO-nun 60 illik yubileyinə həsr olunmuş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində "Azərbaycan – sivilizasiyaların və mədəniyyətlərin kəsişdiyi yer" adı altında Azərbaycan Günü keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 2007-ci ildə Yeni Zelandiyada keçirilmiş 31-ci sessiyasında qəbul edilmiş qərara əsasən Qobustan Dövlət Tarixi Bədii Qoruğu Ümumdünya İrs Siyahısına daxil edilmişdir. 2007-ci il 18 iyun tarixində Heydər Əliyev Fondunda YUNESKO, Azərbaycan Hökuməti və Heydər Əliyev Fondu arasında "Azərbaycanda peşə təhsilinin inkişafı" layihəsinin icra planına dair Saziş imzalanmışdır. 2008-ci il 10-11 iyun tarixlərində Bakıda "Gülüstan" sarayında "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum keçirilmişdir. Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın təşəbbüsü, YUNESKO-nun və İSESKO-nun dəstəyi ilə keçirilən forumda dünyanın müxtəlif ölkələrindən 300-dən çox nümayəndə, o cümlədən bir neçə ölkənin birinci xanımları, İSESKO-nun baş direktoru, YUNESKO-nun xoşməramlı səfirləri iştirak edirlər. Forumun yekununda Bakı Bəyannaməsi və Birinci xanımların Bəyanatı qəbul olunmuşdur. 19 iyun 2009-cu ildə Nazirlər Kabinetinin yanında İçəri Şəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəstəyi ilə İçəri Şəhərin Konservasiyasına dair "Master Plan"na həsr edilmiş təqdimat mərasimi keçirilmişdir. "Master Plan" İçəri Şəhərin təhlükədə olan Ümümdünya İrsi Siyahısından çıxarılmasına dair ən vacib sənədlərdəndir. 2009-cu ilin 22 iyun tarixində Sevilya şəhərində keçirilmiş YUNESKO-nun Dünya İrs Komitəsinin 33-cü sessiyası zamanı qəbul olunmuş qərara əsasən, İçəri Şəhər Qoruğu YUNESKO-nun təhlükədə olan

Ümümdünya İrsi Siyahısından çıxarılmışdır. 17 noyabr 2009-cu ildə "YUNESKO-da Azərbaycan Günü" çərçivəsində YUNESKO-nun mənzil qərargahında Azərbaycan Respublikasının YUNESKO yanında Daimi Nümayəndəliyi və Azərbaycan Respublikasının digər hökumət orqanları tərəfindən bir sıra tədbirlər təşkil edilmişdir. 2009-cu ilin 28 sentyabr-2 oktyabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilmiş Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökümətlərarası Komitənin 4-cü sessiyasının qərarına əsasən, Azərbaycan Aşıq Sənəti və Novruz Bayramı YUNESKO-nun Qeyri-maddi mədəni irsin reprezentativ siyahısına daxil edilmişdir. 3 dekabr 2009-cu ildə YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının nümayəndələri, hökumət rəsmiləri, AMEA, kütləvi informasiya vasitələrinin iştirakı ilə Bakıda, Muzey Mərkəzində Bəşəriyyətin Qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahısına daxil edilmiş Aşıq sənəti və Novruz Bayramının namizədlik fayllarının və aşıq sənətinə həsr olunmuş kitabça və kompakt disklərin təqdimatı keçirilmişdir. 22-24 iyun 2010-cu ildə YUNESKO-nun Baş Qərargahında Qeyri-maddi Mədəni İrsin qorunması üzrə Konvensiyanın iştirakçı dövlətlərinin Baş Assambleyasının növbəti 3-cü sessiyası keçirilmişdir. Sessiyanın sonuncu günündə Qeyri-maddi Mədəni İrsin qorunması üzrə Hökümətlərarası Komitəyə keçirilən seçkilərdə Azərbaycan bu quruma üzv qəbul edilmişdir. "Azərbaycan Respublikasında ənənəvi Azərbaycan xalçaçılıq sənəti" nominasiyası YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi Mədəni İrsinin Reprezenativ siyahısına daxil edilmişdir. YUNESKO hər bir xalqın mədəniyyətinin dünyaya çatdırılması üçün mühüm vasitədir. Bu mühüm vasitə ilə Azərbaycan mədəniyyətinin dünyada təbliği üçün geniş imkanlar açılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci ilin dekabrında İKT-nin Məkkədə

keçirilmiş 3-cü fövqəladə Zirvə görüşündə iştirakı, onun təşəbbüsü ilə 2006-cı ilin 19-21 iyun tarixlərində Bakıda İKT Xarici İşlər Nazirlərinin növbəti 33-cü Konfransının keçirilməsi, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci il 10-11 iyun tarixlərində Bakıda "Mədəniyyətlərarası Dialoqda Qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum, İKT Turizm nazirlərinin Bakı Konfransı, Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında KİV-in rolu, digər konfrans və tədbirlərə Azərbaycanın ev sahibliyi etməsi yuxarıda qeyd olunan siyasətin tərkib hissəsi kimi dəyərləndirilə bilər. Azərbaycan İKT-nin müxtəlif təşkilatları sıx əməkdaşlıq edir. Bu baxımdan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Həmin fəaliyyətin nəticəsidir ki, 26 noyabr 2006-cı ildə İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri sivilizasiyaların yaxınlaşmasındakı fəaliyyətinə görə Mehriban Əliyevaya İSESKO-nun xoşməramlı səfiri adının verilməsi haqqında diplom təqdim etmişdir. Həmçinin, 2008-ci ilin 10-11 iyun tarixlərində, "Mədəniyyətlərarası Dialoqda Qadınların rolunun genişləndirilməsi" mövzusunda Bakıda keçirilən beynəlxalq forumda iştirak edən İKT Baş Katibi E.İhsanoğlu humanitar sahədəki fəaliyyətinə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya "İKTnin humanitar məsələlər üzrə xüsusi elçisi" statusuna dair diplom təqdim etmişdir. Əlamətdardır ki, İslam ölkələrinin daxil olduğu təşkilatın bu yüksək adlarına layiq görülən ilk qadın Azərbaycanın birinci xanımıdır

Müasir dünya siyasətində qlobal, regional və lokal problemlərin, qloballaşma və mədəni inteqrasiya məsələlərinin həllinə yeni münasibət müşahidə edilməkdədir. Demokratiyanın

siyasi sistem kimi formalaşdırılmasını tələb edən bu prosesdə Azərbaycan Respublikası da fəal iştirak etməkdədir. Lakin hər zaman diqqətə alınmalıdır ki, yalnız milli və bəşəri dəyərlərin sintezi və dünya təcrübəsi yönündə həyata keçirilən islahatlar sayəsində dünyanın sosial, mədəni, iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri səviyyəsinə çatmaq mümkündür. Sosial, mədəni, iqtisadi tərəqqiyə xidmət edən bu prosesdə qarşıya çıxan problemlər isə bilavasitə mədəniyyət sahəsində bəşər tarixinin, dünyanın inkişaf təcrübəsinin öyrənilməsini, kompleks əlaqələrinin genişləndirilməsini zərurətə çevirir ki, bütün bunlara da yalnız mükəmməl mədəniyyət siyasəti sayəsində nail olmaq mümkündür. Bu gün Azərbaycan Respublikasının beynəlxalq miqyasda tanınmasına, müstəqilliyinin möhkəmlənməsinə dair bir sıra tədbirlər həyata keçirilir. Eləcə də təhsil və mədəniyyətin inkişafı üçün zəruri qərarlar qəbul edilir. Dövlət aparatının, təhsil və mədəniyyət institutlarının Avropa standartlarına uyğun qurulması istiqamətində səylər göstərilir. Milli-mədəni, intellektual qüvvələr öz fəaliyyətləri ilə dövlətin mədəniyyət sahəsindəkisiyasətinin müasir durumunu təhlil edir və bu siyasətin perspektivlərinə aydınlıq gətirməyə çalışırlar. Mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi müstəqil respublikanın mədəniyyət siyasətinin əsas vəzifələrindən biridir. Bu mənada Azərbaycan dövləti öz daxili və xarici siyasətini yeni tarixi şəraitə, müasir tələblərə uyğun olaraq, xalqımızın tarixi və mədəni ənənələrinə, dilimizə, dinimizə, millimənəvi dəyərlərimizə istinad edərək həyata keçirir. Müstəqilliyimizin əldə olunmasından sonra həyata keçirilən mədəniyyət siyasəti milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün böyük zəmin yaradır. Xalqımızın əldə etdiyi bu böyük nailiyyət, milli sərvətimiz olan mənəvi dəyərlərimizin istifadəsini, bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını və inteqrasiyasını təmin

edir. Azərbaycan xalqı azad və suveren dövlət quraraq, mədəni-iqtisadi islahatlar aparmaqla öz milli-əxlaqi dəyərlərinə, tarixinə qayıdır, demokratik ölkələrin təcrübələrindən istifadə edir. Dövlətimizin belə bir demokratik mədəniyyət siyasəti xətti tutduğuna və müasir dünya mədəniyyətinə inteqrasiya olunduğumuza görə, mədəniyyətimizin özündə böyük bir dəyişiklik etmə- dən, yəni mühafizə edilməsi zəruri olan milli şəxsiyyətimizi təşkil edən xarakterik keyfiyyətlərimizi budamadan, milli-mənəvi dəyərlərimizə xələl gətirmədən, təcrübəyə və elmin mütərəqqi nailiyyətlərinə söykənərək, forma dəyişikliklərini şüurlu surətdə aparmaq məcburiyyətində olduğumuzu qəbul etməliyik. Bu gün istəsək də, istəməsək də qloballaşma hərəkatından, mədəni inteqrasiya prosesindən kənarda qala bilmərik. Bu prosesin müsbət cəhətlərinin cəmiyyətimizin mədəni tərəqqisinə xidmət etdiyini danmamaq şərti ilə, neqativ təzahürlərinin qarşısını almaq barədə də düşünməliyik. Mədəniyyət siyasəti sahəsində qazanılan nailiyyətlər sübut edir ki, Azərbaycan dövlət müstəqilliyi getdikcə möhkəmləndirilməkdə, respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi daha da sürətlə inkişaf etməkdədir. Dövlətçiliyin təməlinin, milli varlığın özülünün, əsasının mədə- niyyətə bağlı olduğunu aydın dərk edən mərhum prezident Heydər Əliyev 13 avqust 2001-ci il tarixli bəyanatında söyləmişdir: “Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir”. Ümummilli lider Heydər Əliyevin yürütdüyü siyasi mədəni xəttin layiqli davamçısı prezident İlham Əliyevin inamla və sədaqətlə həyata keçirməkdə olduğu mədəniyyət siyasətinin uğurlu nəticələri və perspektivləri artıq göz qabağındadır. Belə ki, “2006 – 2016-cı illər üçün mədəniyyət

sahəsində dövlət inkişaf konsepsiyası"nın əsas qayəsi daxili və xarici dövlət mədəniyyət siyasətinin təminatı mexanizmlərini dünya standartları səviyyəsinə çatdırmaq yolunda mədəni irsin qorunması, yaradıcılığın dəstəklənməsi və mədəni sənayelərin dirçəldilməsi kimi prioritet istiqamətləri müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirməklə qədim və möhtəşəm Azərbaycan mədəniyyətinin və incəsənətinin qorunub saxlanılmasına, gələcək inkişafına və dünya mədəniyyətinə uğurlu inteqrasiyasına nail olmaqdır. Mədəniyyət və incəsənətin bütün sahələrində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi həyata keçiriləcək islahatların əsas məğzi kimim nəzərdə tutulmuşdur. Mədəniyyət siyasətinin perspektivlərini müəyyənləşdirən "2006 – 2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın ümumi məqsəd və vəzifələri mədəniyyət siyasətinin təminat mexanizmləri kimi çıxış edən və mədəniyyətin bütün sahələrini əhatə edən mədəniyyətin idarəolunma, hüquqi, maliyyə, elmi-informasiya təminatı, insan resurslarının inkişafı, maddi-texniki infrastrukturun müasirləşdirilməsi və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi kimi ümumi məsələlərin inkişaf etdirilməsindən, o cümlədən daxili və xarici dövlət mədəniyyət siyasətinin göstərilən sahələrinin dünya standartları səviyyəsinə çatdırılması üçün tələb olunan islahatların həyata keçirilməsinin təmin edilməsindən ibarətdir. "2006 – 2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın müddəalarında belə bir elmi yanaşma yer alır ki, digər ictimai-siyasi konsepsiyalarla yanaşı mədəniyyət konsepsiyası da cəmiyyətdə mühüm dərketmə və dünyagörüşü funksiyasını yerinə yetirməli, baş verən mədəni proseslərin mənasını, məzmununu, istiqamətini müəyyənləşdirməli, kulturologiyanın gələcək inkişaf yollarını, vasitələrini və məqsədlərini əsaslandırmalı, gələcəyə doğru gedən insanların ali humanist sərvətlərini qorumalı, müasir

inkişaf etmiş ölkələrin mədəniyyət praktikasının neqativ tərəflərini, mədəniyyət haqqında qeyri-bəşəri "ifrat müasir" konsepsiyalarının əsassızlığını sübut etməlidir. Mədəniyyət konsepsiyası mədəniyyətin bir ictimai hadisə kimi mahiyyətini açmalı, onun müasir cəmiyyətdə müxtəlif əlaqələrini, yerini və rolunu aydınlaşdırmalı, mədəni həyatın yaradıcılıq, mədəni irsə münasibət, mədəni sərvətlərin yayılması, istifadə olunması və qorunması kimi mühüm tərəflərini hərtərəfli öyrənməlidir. Belə bir kulturoloji yanaşmaya görə, mədəniyyət konsepsiyasına ehtiyac həm də gündəlik mədəni fəaliyyət praktikasında, siyasətdə, müəssisələrin və sosial mədəniyyət institutlarının işində, habelə mədəniyyətin sosial idarəolunması və cəmiyyətin mədəni həyatının təşkili sahəsində də özünü göstərir. Bu ehtiyac müstəqillik əldə etmiş cəmiyyətlərdə insanın hərtərəfli inkişafına, humanist tipli şəxsiyyətin formalaşmasına yönəldilmiş elmi, mədəni, tərbiyəvi işə və maarifləndirici fəaliyyətlə məşğul olanların hamısına aiddir. Təsadüfi deyildir ki, dünyanın digər ölkələrindəki mədəni quruculuğun nəzəri təminatı ölkəmizdə də mədəniyyət konsepsiyasının mühüm şərtidir. Mədəniyyət faktları ilə əlaqəsi olan ictimai elmin konkret və ixtisaslaşdırılmış sahələrindən fərqli olaraq, bu konsepsiya mədəniyyət haqqında bütöv və ümumiləşdirilmiş konsepsiyadır.

**Tarixi yaddaş**
**Bunu hamı bilməlidir və yaddan çıxarmamalıdır!**

1813-1828-ci ilə qədər
Azərbaycan ərazisi təxminən - 410 min kv.km

1813-1828-ci illərdə
Azərbaycan əraziləri:
İran əsarəti altındakı - 280 min kv.km

| | |
|---|---|
| Cənubi Azərbaycan sahəsi | |
| Rusiya əsarəti altındakı Şimali Azərbaycan sahəsi | - 130 min kv.km |
| 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin sahəsi | - 114 min kv.km |
| 1920-ci ildə ADR-ı işğal edən rus sovet imperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri: Ermənistan SSR-nin qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və Gürcüstan SSR-nin qismən nəzarətinə verilən Borçalı – birlikdə sahəsi | - 27,4 min kv.km |
| 1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan SSR-nin ərazisi | 86,6 min kv.km |

**Azərbaycanın 1988-1994-cü illərdə işğal edilmiş əraziləri**

| | | İşğal tarixi | Sahəsi |
|---|---|---|---|
| 1 | Keçmiş Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) | 1988-94-cü illər | 4400 kv.km |
| 2 | Şərur rayonunun Kərki və Künnüt kəndləri | 17 fevral 1990 | 19 kv.km |

| | | | |
|---|---|---|---|
| 3 | Laçın | 18 may 1992-ci il | 1835 kv.km |
| 4 | Kəlbəcər | 2-3aprel 1993-cü il | 1936 kv.km |
| 5 | Ağdam | 23 iyul 1993-cü il | 1094 kv.km |
| 6 | Füzuli | 23 avqust1993-cü il | 1050 kv.km |
| 7 | Cəbrayıl | 23 avqust 1993-cü il | 1386 kv.km |
| 8 | Qubadlı | 31avqust1993-cü il | 802 kv.km |
| 9 | Zəngilan | 29 oktyabr1993-cü il | 707 kv.km |

Beləliklə, faktlar sübut edir ki, hal-hazırda deyildiyi kimi, Azərbaycanın 20 faiz yox, təxminən 50 faiz ərazisi işğal olunmuşdur. **Bu torpaqları mütləq geri almalıyıq!**

## ƏDƏBİYYAT

### Azərbaycan dilində


1. Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı: 2000.
2. Azərbaycan Demokratik Respublikası. Tarix, ictimai-siyasi və ədəbi-mədəni həyat. Bakı, 1992.
3. Azərbaycan Respublikası 1991-2001. Bakı: Azərnəşr, 2001, 280 s

4. Azərbaycan milli dövlət quruculuğu yolunda. Bakı, 1996.
5. Azərbaycan beynəlxalq aləmdə. I cild, Bakı, - 1998.
6. Azərbaycan tarixi, 7 cilddə, Bakı, 1989, - 2001.
7. Azərbaycan tarixi, 3 cilddə, Bakı, 1958, -1964.
8. Azərbaycan tarixi. İ.Əliyevin redaktəsi ilə. Bakı, 1993.
9. Azərbaycan tarixi, Z.Bünyadovun və Y.Yusifovun redaktəsi ilə. Bakı, 1994.
10. Azərbaycan tarixi, S.Əliyarlının redaktəsi ilə. Bakı, 1996.
11. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu.II hissə(XIX – XXİ əsrin əvvəli). B.,"Bakı Universiteti nəşriyyatı"2010, 545 s.
12. Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası, I-II c., Bakı,2006.
13. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. B.,2008.696 s.
14. Azərbaycanda siyasi partiya və təşkilatlar. Bakı, 1995.
15. Bağırzadə Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. Bakı, 1970.
16. Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1988.
17. Cəfərov E. Azərbaycanın xronoloji tarixi.(elektron variant). B.,2015.
18. Didərginlər. Bakı, 1990.
19. Əliyev H.Ə. Qayıdış.1990-1993. Bakı: Azərnəşr,1996, 791s.
20. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir (çıxışlar, bəyanatlar, məktublar, müsahibələr). I-XIII kitablar. Bakı: 1996-2005.

21. Əliyev İ.H. Qafqaz bütün hərbi bazalardan azad olmalıdır (23 yanvar 2004-cü il «Fiqaro» qəzetinə verdiyi müsahibə). Dirçəliş – XXI əsr, 2004, № 71, s.5-8.
22. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlil və xronika.(1998- 2011). B.,2011.
23. Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. B.,2013.452 s.
24. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika.(1987- 2011). B.,2013.
25. Həbibov Ə. Cənubi Azərbaycanda azadlıq hərəkatı. Bakı, 1988.
26. Həsənov Ə.M. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ. (1991-1996). B., 1998. 315 s.
27. Həsənov Ə.M. Azərbaycan və ATƏT: Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsi ümumavropa təhlükəsizliyi fonunda.Bakı,1998.110 s.
28. Həsənov Ə.M. Azərbaycan beynəlxalq münasibətlər sistemində.»Qafqaz Universiteti jurnalı,2003.№11,s.47-61.
29. Həsənov Ə. Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991-avqust 1997). Bakı: Azərbaycan Universiteti, 1997, 103 s.
30. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik – Bakı: «Azərbaycan» nəşriyyatı, 2005. – 752 s.
31. Həsənov Ə.M. Azərbaycanın milli inkişafı və təhlükəsixlik siyasəti. B.,2011. 418 s.

32. Həsənov Ə.M. Heydər Əliyev və Azərbaycanın müasir geosiyasi inkişafı. – Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası. B.,2011.
33. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. B., 015.1056 s.
34. Həsənov C. Ağ ləkələrin qara kölgəsi. Bakı, 1991.
35. Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi. Bakı, 1992.
36. Hüseynova I. Dövlətçilik naminə. Bakı: BUN, 2001, 300 s.
37. İbişov F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-30). Bakı, 1996.
38. İbrahimli X. Azərbaycan xarici mühacirəti. Bakı, 1993.
39. Kəngərli Q. Erməni lobbisi və Azərbaycan faciəsi.Bakı: Yazıçı, 1992, 276 s.
40. Qayıdış. Bakı, 1997.
41. Qasımov M. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı, 1993.
42. Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: 1997.
43. Qafarov T. Azərbaycan tarixi.XX əsrin 80-90-cı illəri. Bakı,1997.
44. Qafarov T. Azərbaycan tarixi. 1920-1991. Bakı, 1999.
45. Qəsd. Azərbaycan: oktyabr-94, mart-95. Bakı, 1995.
46. Mahmud İsmayıl. Azərbaycan tarixi. Bakı, 1997.
47. Mahmudov Y.V. Azərbaycan diplomatiyası. Bakı, 1996.
48. Mədətov Q.Ə. Azərbaycan Böyük Vətən müharibəsi illərində. Bakı, 1975.
49. Mirzə Bala Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Bakı, 1992.

50. Mirzəzadə A. Qarabağ düyünü. B.,2012. 608 s.
51. Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: 2005, 463s.
52. Mehdiyev R.Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri.Bakı,2000,203 s.
53. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı, 1992.
54. Məmmədov İ.M., Hacıyev A.H. 20-ci illərin siyasi inkişaf tarixindən: faktlar, problemlər, dərslər. BDU, 1992.
55. Məmmədov İ., Məmmədov Ç. Təlatümlü illər. Bakı, 2003.
56. Məmmədov İ., Məmmədov Ç. Siyasi tarix XX əsr. Ümumdünya ictimai-siyasi proseslər. Bakı, 2003.
57. Məmmədov İ., Məmmədov Ç. Azərbaycan tarixi. (XX əsr-XXI əsrin əvvəli). Mühazirələr kursu. B., 2010. 336 s.
58. Məmmədov Ç. Birinci Azərbaycan Respublikası. Bakı, 2003.
59. Məmmədov Ç. Azərbaycan istiqlal yollarında, Bakı, 2004.
60. Məmmədov N. Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti iyun 1941-dekabr 1950-ci illərdə. Bakı: Elm, 2006, s.38.
61. Məmmədova H.. Qarabağ General qubernatorluğunun erməni təcavüzünə qarşı mübarizəsi tarixindən səhifələr. Bakı: Şirvannəşr, 1999, 74 s.
62. Məmmədova H. Xocalı: Şəhidlər, şahidlər. Bakı: Yeni nəşrlər evi, 2003,197 s.

63. Məmmədova H. Azərbaycan Xalq Cümhuriyyəti Dövründə Yuxarı Qarabağda Siyasi vəziyyət. Erməni terrorizminin güclənməsi (1918-1920). Bakı: Nağıl Evi, 2006, 149 s.
64. Məmmədova H. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi..Bakı, 2009,360 s.
65. Məmmədli A. Ermənilərin gerçək tarixi. Bakı: Elm, 2005, 436 s.
66. Musayev İ. 1917-20-ci illər Azərbaycan-Türkiyə münasibətləri. Bakı,1998.
67. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti(1917-1921-ci illər).Bakı: Elm,1996,207 s.
68. Müstəqil Azərbaycan 20 il. B.,2011
69. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.
70. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996, 304 s.
71. Nəsir Yücəər. Birinci dünya müharibəsində Osmanlı ordusunun Azərbaycan və Dağıstan əməliyyatı. B.,1999. 196 s.
72. Nəsirov E. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999). Bakı: 1999.
73. Ordubadi M.S. Qanlı yanvar. Bakı, 1991.
74. Paşayeva Q., Məmmədova H. Xocalı soyqrımı şahidlərin dilindən. Bakı, Elm və Təhsilş 2011, 285 s.
75. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı,1990.

76. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, 1991.
77. Rüstəmov A. Erməni təcavüzünün xronikası. Bakı: Elm, 1994, 24 s.
78. Svyatoxovski T. Rusiya Azərbaycanı, 1905-1920-ci illər. Bakı, 1989.
79. Səməndər R. Şəhidlər. Bakı, 1990.
80. Sultanov O.V. XX əsrin 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, 1995.
81. Tağıyeva Ş. 1920-ci il Təbriz üsyanı. Bakı, 1991.
82. Yaqublu N. Azərbaycan Milli İstiqlal Mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı,1999. 90 s.

**Rus dilində**

83. Алиев И. Нагорный Карабах. История, факты, события. Баку, 1989.
84. Алиев Дж., Будагов Б. Турки, азербайджанцы, армяне:«Геноцид» исторической правды.М.,2002,52 с.
85. Азербайджанская Республикаю. Документы и материалы 1918-1920 гг. Баку,Елм, 1998, 616 стр.
86. Бакыханов А. Гюлистани-Ирам. Баку, 1992.
87. Балаев А. Азербайджанское национально-демократическое движение. 1917-1920 гг. Баку, 1992.
88. Балаев А. Азербайджанское демократическое движение: от мусавата до народного фронта. Баку, 1992.
89. Гейбуллаев Т.А. К этносу азербайджанцев, т.1. Баку, 1991.
90. Гулиев Дж. К истории образования второй республики Азербайджана. Баку, 1997.

91. Каземзаде Ф. Борьба за Закавказье (1917-1921). Стокгольм,2010. 328с.
92. К истории оброзования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. 1918-1925, (Документы и материалы). Баку: Азернешр, 1989, 334 с.
93. К проблеме этногенеза азербайджанского народа. Баку, 1984.
94. Mamedova Н.Ходжалы: Шехиды и Шахиды (Армянский терроризм как составная частъ международного терроризма). Баку: Гаранфил, 2005, 247 с.
95. Мехтиев Р. Десять лет изменившие Азербайджан. 2003-2013. М.,2013. 246 с.
96. Мустафаев Дж. Северные ханства Азербайджана и Россия. Баку, 1989.
97. Nəsibli N.Azərbaycanın geopolitikası və neft. Bakı: 2000.
98. Сеидзаде Д.Б. Азербайджанские депутаты в Государственной Думе России. Баку, 1991.
99. Сеидзаде Д.Б. Из истории Азербайджанской буржуазии в начале XX в. Баку, 1978.
100. Сумбатзаде А.С. Кубинское восстание 1937 г. Баку, 1961.
101. Сумбатзаде А.С. Азербайджанцы – этногенез и формирование народа. Баку, 1991.
102. Чернявский С.И. Новый путь Азербайджана, М, 2002.a
103. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-

XXI вв.). Краткая хронологическая энциклопедия. Баку: Элм, 2002, 395 с.
104. Описание Карабахской провинции (составленное в 1823 году по распоряжению главноуправляющего в Грузии Ермолова). Тифлис, УНК, 1866 Повт. изд. Баку: Нурлан, 2003, 425 с.

## Türk , ingilis və fars dillərində

105. Attar A. Karabağ sorunu kapsamında ermeniler ve ermeni siyaseti. Ankara: Atatürk, 2005, 224 s.
106. Hasanov Ali. Azerbaycan Cumhuriyyetive ulusall kalkımca ve güvenlik politikası. İstanbul, 2013.
107. Mamedova H. Khodjaly: martyrs and witinesses (Armenian terrorism as an integral Parf of the international one). Bakı: Qərənfil, 2006, 247 s.
108. Mamedova H.The Khodjaly genocide. Baku., Nurlan, 2009, 111 c.
109. Məmmədova H. Azərbaycan Xalq Cümhuriyyəti Dövründə Yuxarı Qarabağda Siyasi vəziyyət. Erməni terrorizminin güclənməsi (1918-1920).(**Farsca)** İran İslam Respublikası 2013-iyul,148.s
110. Paşayeva Q., Memmedova H.Xocalı soyqırımı tanıkların dilindən. (Türk dilində) Bakı., Elm və Təhsil .2011 287 s.
111. Uluslararası suçlar və Tarih. Ankara, 2 avqust 2006, 253 s.

## Arxiv və iİnternet materialalrı

112. . MDA.F. 970, siy. 1, iş 163
113. MDA.F. 894, siy. 10, iş 147
114. SPİHMDA.F. 276, siy. 9, iş 4
115. SPİHMDA.F. 277, siy. 2, iş 43
116. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Respublikas%C4%B1n%C4%B1n_Prezidenti
117. https://az.wikipedia.org/wiki/%C4%B0lham%C6%8Fliyev
118. http://www.preslib.az/eres1.html?f1
119. http://files.preslib.az/site/ialiyev/2016.pdf
120. http://files.preslib.az/projects/xs/fes1/2016.pdf

# MÜNDƏRİCAT

**I fəsil. Azərbaycanın Rusiya və Iran dövlətləri arasında bölüşdürülməsi.**

§ 1. Rusiya-İran müharibələri və Azərbaycan…………….........3
§2.Rusiyanın Şimali Azərbaycanda müstəmləkə siyasəti........8
§ 3. Cənubi Azərbaycan İran dövləti tərkibində……………....19

§4.Şimali Azərbaycanda yeni iqtisadi münasibətlərinin təşəkkülü……………………………………………………….23

## II fəsil. Azərbaycan XX əsrin əvvəllərində

§1.XX əsrin əvvəllərində Azərbaycanda ictimai-iqtisadi vəziyyət…………………………..… …………….........…30
§2. Azərbaycanda milli-azadlıq və inqilabi- demokratik hərəkatlar. İlk siyasi təşkilatlar və partiyalar.......................34
§3. XX əsrin əvvəllərində Cənubi Azərbaycanda milli-azadlıq və demokratik hərəkat. Məşrutə inqilabı............................58

## III fəsil. Azərbaycan Birinci Dünya müharibəsi illərində

§ 1. Azərbaycan müharibə ərəfəsində... …………… ..............65
§ 2. Şimali Azərbaycan müharibə illərində………… ............68
§3.Rusiyada fevral inqilabı, oktyabr çevrilişi və Şimali Azərbaycanda siyasi vəziyyət……………………......................73
§4.Cənubi Azərbaycan müharibə illərində. Milli-azadlıq hərəkatı………..........................................................................89

## IV fəsil . Azərbaycan Xalq Cümhuriyyəti

§ 1.Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması və bütün ölkə ərazisində bərqərar edilməsi................................102
§2.Milli dövlət quruculuğu. Azərbaycan parlamentinin formalaşması və fəaliyyəti...……………………….................112
§3.Qarabağda müvəqqəti general-qubernatorluğun yaranması..129
§4.Cümhuriyyətin sosial-iqtisadi və mədəni quruculuq tədbirləri…………………………………………..................146
§ 5.Cümhuriyyətin xarici siyasəti.......................................163

§6.Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və tarixdə yeri........................................................................179

**V fəsil. Azərbaycan 1920-1930-cu illərdə**

§1.Azərbaycan Sovet Sosialist Respublikası .......................190
§2.Azərbaycanda sovet milli siyasəti. DQMV-nint təşkili….206
§3.Sosialist islahatları, onların sosial-iqtisadi və siyasi nəticələri…………………..……………….....................228
§ 4. Mədəni quruculuq...…………………………..............242

**VI fəsil. Azərbaycan İkinci Dünya müharibəsi illərində**

§ 1. Şimali Azərbaycan müharibə illərində………...............264
§ 2. Cənubi Azərbaycanda milli-demokratik hərəkat…………281

**VII fəsil. Azərbaycan dinc quruculuq dövründə (1945- 1985-ci illər)**

§1.Müharibədən sonrakı ilk illərdə Azərbaycan SSR-də sosial-iqtisadi və siyasi vəziyyət..........................................287
§2.Müharibədən sonra Ermənistan SSR-də etnik təmizləmə siyasəti................................................. ............................289
§3.Azərbaycan SSR-in siyasi və sosial-iqtisadi inkişafında yeni mərhələ (1970-1980-cı illər). .......................................294
§4.Azərbaycan mədəniyyəti 1970-1980-ci illərdə.....................301

**VIII fəsil. Müstəqil Azərbaycan Respublikası**

§ 1.İstiqlal uğrunda mübarizə.....................................…....304
§2.Milli İstiqlal hərəkatının ilkinmərhələsi........................316
§ 3.Müstəqillik illərində ictimai hərəkatlar və təşkilatlar...330
§ 4.Müstəqillik yolunda uğurlu addımlar........................…339

### IX fəsil. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun nizamlanma prosesi

§ 1.Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri və mahiyyəti..............................................................363.
§ 2.Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müstəqilliyin ilk dövründə-----------------------------------------385
§3. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında İlham Əliyev mərhələsi................................401

### X fəsil. Azərbaycan XXI əsrin dünya nizamında

§ 1. Çağdaş Azərbaycan intibahının yeni mərhələsi..................428
§ 2. Müstəqil Azərbaycan Respublikası dünya birliyində.........435
§ 3. Azərbaycanın beynəlxalq mədəni əlaqələri .....................457.

**Tarixi yaddaş**...................................................477
**Ədəbiyyat**.........................................................479

**MƏMMƏDOV ÇİNGİZ İSAQ OĞLU**
**(tarix üzrə fəlsəfə doktoru, dosent)**

**MƏMMƏDOVA HAVVA İSA QIZI**
**(tarix elmləri doktoru)**

**AZƏRBAYCAN TARİXİ**
**(XIX əsr – XXI əsrin əvvəlləri)**
**Bakı, 2016, 495 səh.**